AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI

Əli Həsənov
Adil Vəliyev

# DÜNYA ÖLKƏLƏRİNİN MÜASİR SİYASİ SİSTEMLƏRİ

ZƏRDABİ LTD MMC

Bakı-2013

**Elmi redaktoru:** ***Elçin Əhmədov***
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

**Rəyçilər:** ***Musa Qasımlı***
*tarix elmləri doktoru, professor*

***Elman Nəsirov***
*siyasi elmlər doktoru, dosent*

**Nafilə Rəhimova**
*siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent*

**Ə.M.Həsənov, A.İ.Vəliyev** Dünya ölkələrinin müasir siyasi sistemləri. Bakı, "Zərdabi LTD", 2013. 776 s.

Monoqrafiyada dünya ölkələrinin müasir siyasi sistemləri, idarəçilik rejimləri, hakimiyyət orqanlarının əsas funksiyaları və fəaliyyət prinsipləri, ictimai-siyasi institutları və s. haqqında ümumi məlumat verilir, qədim dövrlərdən başlayaraq günümüzə qədər dünyada dövlət idarəçilik sistemlərinin formalaşması və inkişafı, dövlətlərin siyasi quruluşu, idarəçilik rejimlərinin xüsusiyyətləri və s. məsələlər müqayisəli təhlil edilir. Kitabda, həmçinin Azərbaycanın müasir siyasi idarəçilik sisteminin formalaşması, inkişafı və xarakteristikası, dövlət quruluşunun prinsipləri, ölkənin mövcud ictimai-siyasi institutları və onların fəaliyyəti təhlil olunur.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabdan ali məktəblərin politologiya, beynəlxalq münasibətlər və beynəlxalq hüquq ixtisasları üzrə təhsil alan tələbələr, doktorantlar və digər müvafiq ixtisas sahibləri dərs vəsaiti kimi də istifadə edə bilərlər.

ISBN 978-9952-460-15-5

© Ə. M. Həsənov, 2013
© A. İ. Vəliyev, 2013

# MÜNDƏRİCAT

**Giriş** ........ **9**

**I HİSSƏ**
**SİYASİ SİSTEM ANLAYIŞI VƏ ONUN İNKİŞAF DİNAMİKASI**
**I FƏSİL. Siyasi sistem və siyasi rejim: Dövlət idarəçilik formalarının təsnifatı** ........ **12**
**§ 1. Siyasi sistem anlayışı** ........ 12
Siyasi sistemin əsas struktur elementlərinin xarakteristikası ........ 14
Siyasi sistem və Konstitusiya ........ 18
Siyasi rejim ........ 19
Dövlət rejimi ........ 20
Dövlət idarəçilik formaları ........ 21
Monarxiya idarəçilik sistemi ........ 22
Məhdud hakimiyyətli Prezident idarəetmə üsulu ........ 25
Dualist formalı Prezidentli respublika idarəetmə üsulu ........ 26
Kommunist sisteminin idarəetmə üsulu ........ 27
Məhdudiyyəti olmayan Prezident idarəetmə üsulu ........ 28
Hərbi rejimli idarəetmə üsulu ........ 30
Mütləq formalı idarəetmə üsulu ........ 31
Dövlət quruluşu formaları ........ 32

**§2. Dünyanın demokratikləşməsi tendensiyası və dövlətlərin siyasi rejimlərində baş verən dəyişikliklər** ........ **33**

**II FƏSİL. Azərbaycanın siyasi sistemi: formalaşması və əsas xarakteristikası** ........ **47**
Ümumi məlumat ........ 47
**§1. Azərbaycanın siyasi sisteminin əsas xarakteristikası**
Siyasi sistemini şərtləndirən əsas amillər ........ 51
Dövlət quruluşu ........ 53
Dövlət başçısı ........ 59
Qanunvericilik hakimiyyəti ........ 61
İcra hakimiyyəti ........ 65
Məhkəmə hakimiyyəti ........ 72
Siyasi partiyalar və ictimai təşkilatlar ........ 78
Naxçıvan Muxtar Respublikası ........ 79

# II HİSSƏ
# DÜNYA DÖVLƏTLƏRİNİN SİYASİ SİSTEMLƏRİ

**III FƏSİL. Respublika idarəçilik sistemi .......................................... 84**
**§ 1. Prezident Respublikası quruluşlu ölkələrin siyasi sistemləri** .... 86
*Amerika Birləşmiş Ştatları* ........................................................ *88*
*Braziliya* ........................................................................... *96*
*Anqola* .............................................................................. *103*
*Argentina* .......................................................................... *106*
*Belarus* ............................................................................. *109*
*Benin Respublikası* ............................................................... *112*
*Boliviya* ............................................................................ *115*
*Burundi* ............................................................................. *118*
*Cənubi Afrika Respublikası* .................................................... *121*
*Cənubi Koreya* ..................................................................... *124*
*Cənubi Sudan* ...................................................................... *127*
*Çad* .................................................................................. *129*
*Çili* .................................................................................. *132*
*Dominikan Respublikası* ......................................................... *135*
*Ekvador* ............................................................................ *138*
*Ekvatorial Qvineya* ............................................................... *141*
*Eritreya* ............................................................................. *144*
*Ermənistan* ......................................................................... *146*
*Əfqanıstan* ......................................................................... *149*
*Filippin* ............................................................................. *153*
*Honduras* ........................................................................... *156*
*İndoneziya* ......................................................................... *159*
*İsveçrə* ............................................................................. *162*
*Kamerun* ........................................................................... *165*
*Kipr Respublikası* ................................................................. *168*
*Kiribati* ............................................................................. *171*
*Kolumbiya* ......................................................................... *174*
*Komor Adaları* .................................................................... *177*
*Konqo Respublikası* .............................................................. *180*
*Kosta-Rika* ......................................................................... *183*
*Liberiya* ............................................................................ *185*
*Qabon* .............................................................................. *188*
*Qambiya* ........................................................................... *191*
*Qana* ................................................................................ *194*
*Qazaxıstan* ......................................................................... *197*
*Qvatemala* ......................................................................... *201*
*Qvineya* ............................................................................ *203*
*Liviya* .............................................................................. *205*

*Malavi Respublikası* ........ *208*
*Maldiv Revpublikası* ........ *211*
*Marşal Adaları* ........ *213*
*Meksika* ........ *216*
*Mərkəzi Afrika Respublikası* ........ *219*
*Mikroneziya Federativ Ştatları* ........ *222*
*Mozambik* ........ *224*
*Myanma* ........ *227*
*Namibiya* ........ *230*
*Nikaraqua* ........ *233*
*Nigeriya* ........ *236*
*Özbəkistan* ........ *239*
*Palau* ........ *243*
*Panama* ........ *246*
*Paraqvay* ........ *249*
*Peru* ........ *252*
*Ruanda* ........ *255*
*Salvador* ........ *258*
*Seyşel Adaları* ........ *261*
*Sudan* ........ *264*
*Surinam* ........ *267*
*Syerra-Leone* ........ *270*
*Tanzaniya Birləşmiş Respublikası* ........ *273*
*Toqo* ........ *276*
*Türkmənistan* ........ *279*
*Uqanda* ........ *282*
*Uruqvay* ........ *285*
*Venesuela* ........ *288*
*Yəmən* ........ *291*
*Zambiya* ........ *294*

**§2. Parlament Respublikaları ........ 297**
*Almaniya* ........ *299*
*Finlandiya* ........ *305*
*İsrail* ........ *310*
*İtaliya* ........ *316*
*Hindistan* ........ *323*
*Türkiyə* ........ *328*
*Albaniya* ........ *339*
*Avstriya* ........ *342*
*Banqladeş* ........ *346*
*Bolqarıstan* ........ *349*

*Bosniya və Hersoqovina* ............................................................. *352*
*Botsvana* ............................................................. *355*
*Çex Respublikası* ............................................................. *358*
*Çernoqoriya (Monteneqro)* ............................................................. *361*
*Dominika* ............................................................. *364*
*Efiopiya* ............................................................. *367*
*Estoniya* ............................................................. *370*
*Fici* ............................................................. *374*
*Xorvatiya* ............................................................. *377*
*İraq* ............................................................. *380*
*İrlandiya* ............................................................. *383*
*İslandiya* ............................................................. *386*
*Kabo-Verde* ............................................................. *389*
*Latviya* ............................................................. *392*
*Livan* ............................................................. *395*
*Macarıstan* ............................................................. *398*
*Makedoniya* ............................................................. *401*
*Mavriki* ............................................................. *404*
*Malta* ............................................................. *407*
*Moldova Respublikası* ............................................................. *410*
*Nauru* ............................................................. *414*
*Nepal* ............................................................. *417*
*Pakistan* ............................................................. *420*
*Polşa* ............................................................. *423*
*Samoa* ............................................................. *426*
*San-Marino* ............................................................. *429*
*Serbiya* ............................................................. *432*
*Sinqapur* ............................................................. *436*
*Slovakiya* ............................................................. *439*
*Sloveniya* ............................................................. *442*
*Şərqi Timor* ............................................................. *445*
*Trinidad və Tobaqo* ............................................................. *448*
*Vanuatu* ............................................................. *451*
*Yunanıstan* ............................................................. *454*

**§3.Dualist (qarışıq) formada idarəetmə üsuluna malik respublikalar ............................................................. 457**
*Fransa* ............................................................. *458*
*Rusiya* ............................................................. *465*
*Burkina-Faso* ............................................................. *473*
*Cibuti* ............................................................. *476*
*Əlcazair* ............................................................. *478*

*Haiti* ... 481
*Gürcüstan* ... 484
*Keniya* ... 487
*Konqo Demokratik Respublikası* ... 490
*Kot-D`ivuar* ... 493
*Qayana* ... 496
*Qırğızıstan* ... 499
*Qvineya-Bisau* ... 502
*Litva* ... 505
*Madaqaskar* ... 508
*Mali* ... 511
*Mavritaniya* ... 514
*Misir Ərəb Respublikası* ... 517
*Moqolustan* ... 521
*Niger* ... 524
*Portuqaliya* ... 527
*Rumıniya* ... 531
*San Toml və Prinsipi* ... 534
*Seneqal* ... 537
*Somali* ... 540
*Suriya* ... 543
*Şri-Lanka* ... 547
*Tacikistan* ... 550
*Tunis* ... 553
*Ukrayna* ... 556
*Zimbabve* ... 560

**IV FƏSİL. Monarxiya, kommunist, dini və digər quruluşlu idarəçilik sisteminə aid olan dövlətlər**
**§1. Monarxiya tipli dövlətlər ... 563**
*Belçika* ... 567
*Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı* ... 573
*İspaniya* ... 580
*Malayziya* ... 586
*Yaponiya* ... 592
*Andorra* ... 599
*Antiqua və Barbuda* ... 602
*Avstraliya* ... 605
*Baham Adaları* ... 609
*Barbados* ... 612
*Beliz* ... 615
*Bəhreyn* ... 618

*Birləşmiş Ərəb Əmirliyi* ........ 621
*Butan* ........ 624
*Danimarka* ........ 627
*İordaniya* ........ 630
*İsveç* ........ 633
*Kamboca* ........ 637
*Kanada* ........ 640
*Küveyt* ........ 643
*Qrenada* ........ 646
*Lesoto* ........ 649
*Lixtenşteyn* ........ 652
*Lüksemburq* ........ 655
*Mərakeş* ........ 658
*Monako* ........ 661
*Niderland* ........ 664
*Norveç* ........ 668
*Papua-Yeni Qvineya* ........ 672
*Sent-Kits və Nevis* ........ 675
*Sent-Lüsiya* ........ 678
*Sent-Vinsent və Qrenadina* ........ 681
*Solomon Adaları* ........ 684
*Svazilend* ........ 687
*Tailand* ........ 690
*Tonqa* ........ 693
*Tuvalu* ........ 696
*Yamayka* ........ 699
*Yeni Zenlandiya* ........ 702

**§2. Kommunist tipli dövlətlər ........ 705**
*Çin* ........ 707
*Kuba* ........ 712
*Laos* ........ 717
*Şimali Koreya (KXDR)* ........ 720
*Vyetnam* ........ 723

**§3. Teokratik və mütləq monarxiya tipli dövlətlər ........ 726**
*Bruney* ........ 728
*İran* ........ 730
*Səudiyyə Ərəbistanı* ........ 736
*Oman* ........ 741
*Qətər* ........ 744

**Dərslik üzrə istifadə olunan ədəbiyyat və internet resursları ........ 747**

# GİRİŞ

Müasir dünya ölkələri müxtəlif təbii, coğrafi, ərazi və əhali xarakteristikasına; güclü, zəif iqtisadi və texnoloji inkişafına; geosiyasi əlamətlərinə; beynəlxalq münasibətlərdə tutduğu yerə və rola və s. xüsusiyyətlərinə görə təsnif olunur. Son zamanlar dünya siyasətşünaslıq mərkəzləri və politoloqlar *dövlətlərin siyasi rejimlərinin, dövlət idarəçilik sistemlərinin, hakimiyyət institutları və ictimai-siyasi təşkilatlar arasındakı münasibətlərin xarakterini tədqiq edərək* ölkələri daha bir əlamətinə - **siyasi sistem fərqinə** görə də təsnif edirlər. Qloballaşmanın və transmilli demokratikləşmənin getdikcə vüsət aldığı müasir dünyada cərəyan edən dövlətdaxili və dövlətlərarası münasibətlərdə hər bir ölkənin siyasi idarəçilik sisteminin xarakterinə çox ciddi diqqət ayrılır. Dövlətləri bir-birindən fərqləndirən bu və ya digər özünəməxsus siyasi sistem əlamətləri, idarəçilik formaları və s. həmin ölkələrin daxili vəziyyətinə olduğu kimi, xarici aləmlə münasibətlərinə də fərqli təsir göstərir. Bəzən dünya siyasətinə əhəmiyyətli təsir göstərmək imkanı olan böyük dövlətlər və beynəlxalq təşkilatlar, ayrı-ayrı ölkələrin beynəlxalq hüquq öhdəliklərini və beynəlxalq haqlarını bilavasitə onların daxili idarəçilik rejimləri, siyasi sistemləri ilə əlaqələndirirlər. Bir sözlə, əvvəllər beynəlxalq münasibətlər sistemində ölkələrin daxili siyasət məsələləri, dövlət-vətəndaş, hakimiyyət və ictimai-siyasi institutlar arasındakı münasibətlər və s. dövlətdaxili idarəçilik məsələləri hər bir milli dövlətin daxili işi hesab edilirdisə, "yeni dünya nizamı"nın bərqərar olduğu XXI əsrdən başlayaraq bu sahələr

transmilli xarakter alaraq dünya siyasətinin diqqət mərkəzinə çıxarılmışdır.

Oxucuların diqqətinə təqdim olunan bu kitabda dünya ölkələrinin müasir siyasi sistemləri və idarəçilik rejimləri, dövlətlərin tipi, xarakteri, daxili siyasət məsələləri və vətəndaş cəmiyyəti institutları, onların ictimai həyatdakı rolu və s. kimi məsələlər tədqiq olunur.

Kitabda xüsusi bir bölmə Azərbaycanın siyasi sisteminin və idarəçilik prinsiplərinin təhlilinə həsr edilmişdir.

Geniş oxucu kütləsi üçün nəzərdə tutulmuş bu kitabı müəlliflər həmçinin, ali məktəblərin müvafiq ixtisaslar üzrə təhsil alan tələbələri, doktorantlar və s. mütəxəssislər üçün dərs vəsaiti kimi tövsiyyə edir, kitabla bağlı gələcəkdə öz fikir və mülahizələrini bildirən hər bir oxucuya minnətdarlıq edirlər.

# I HİSSƏ

## SİYASİ SİSTEM ANLAYIŞI VƏ ONUN İNKİŞAF DİNAMİKASI

# I FƏSİL
## SİYASİ SİSTEM VƏ SİYASİ REJİM: DÖVLƏT İDARƏÇİLİK FORMALARININ TƏSNİFATI

### §1. Siyasi sistem anlayışı

Ensiklopedik nəşrlərdə siyasi sistemi hər bir ölkənin ictimai həyatının ayrılmaz tərkib hissəsi hesab edirlər. Məlumdur ki, hər bir ölkənin daxili həyatı iqtisadi, siyasi, sosial, hüquqi, maddi, mənəvi və s. sahələrin, məkan-ərazi, ətraf mühit, ictimai resurslar, demoqrafik göstəricilər və sairənin ümumi məcmusundan ibarət olur. Bütün bu sahələrin işinin təşkili, idarə edilməsi, cəmiyyət həyatının qurulması, gündəlik yaşayışın və fəaliyyətin, qayda-qanunlarının müəyyən edilməsi, vətəndaşların, təşkilatların hüquq və öhdəliklərinin, davranış qaydalarının normalarının təsbit edilməsi, istək və arzularının reallaşdırılması və s. işlərin görülməsi bilavasitə dövlətlərin siyasi sisteminin xarakterini və prinsiplərini müəyyən edir. Odur ki, *siyasi sistemi – dövlət idarəçilik təşkilatlarının, siyasi və ictimai institutların, siyasi rolların, münasibətlərin, proseslərin, cəmiyyətin siyasi idarəçiliyinin prinsiplərinin qaydaya salınmış və bütöv məcmusu kimi* xarakterizə edirlər.

Tədqiqatçılar hesab edir ki, siyasi sistem cəmiyyətin siyasi, sosial, hüquqi, ideoloji, mədəni norma və kodekslərinə tabe olaraq, hər bir xalqın tarixi və milli ənənələrinə, siyasi dünyagörüşünün mahiyyətinə və fəallıq dərəcəsinə uyğun qurulur.

Hər bir cəmiyyətin siyasi sistemi həm də onun sinfi və milli təbiəti, ərazi-sosial quruluşu, idarəçilik formaları (prezident, parlament), dövlətin tipi (respublika, monarxiya), siyasi rejiminin xarakteri (demokratik, qeyri-demokratik), sosial-siyasi vəziyyəti (sabit, konfliktli), siyasi-hüquqi statusu (konsti-

tusiyalı, qeyri-konstitusiyalı), siyasi-ideoloji xarakteri (açıq, yaxud qapalı dövlət), dövlətçiliyin milli ənənələri, mentalitetin və həyat tərzinin xarakteri (əhalinin siyasi aktivliyi, milli-etnik və tayfa-qohumluq ənənələri və s.) ilə müəyyən edilir.

Siyasi sistemin cəmiyyət həyatında effektivlik dərəcəsi xüsusi (effektli, yaxud qeyri-effektli) tədqiq olunur. O siyasi sistemlər effektli hesab olunur ki, onlar inkişafı təmin edir, əhalinin istək və arzularını, təşəbbüslərini əks etdirir, azad siyasi rəqabətə, şəffaf idarəçiliyə, vətəndaş-dövlət əlaqələrinə, ictimai fikrə ciddi dəstək verir.

Siyasi sistem konkret məkan (dövlətin, dövlət birliklərinin sərhədləri çərçivəsində) və zaman (tarixin ayrı-ayrı dövrlərində mövcud olmuş formasiya, idarəçilik tendensiyalarına uyğun) çərçivəsində yaranır və yüksələn xətlə inkişaf edir. Bu inkişafda sistemə daxil olan bütün subyektlərin (dövlət orqanları, siyasi və ictimai təşkilatlar, əhalinin ayrı-ayrı təşəbbüsləri) öz rolu olur.[1]

"Siyasi sistem" anlayışı ilk dəfə XX əsrin ortalarında elmi ədəbiyyata politoloq D.İsten tərəfindən daxil edilib. Artıq əlli ildən artıq bir dövrdə cəmiyyət həyatının müstəqil sahəsi olaraq "siyasi sistem" anlayışı hər bir dövlətin daxili aləminin göstəricisi və başqa dövlətlərlə əlaqəsinə təsir edən obyekt kimi politoloqların tədqiqat obyektinə çevrilərək öyrənilir.

Tədqiqatlar göstərir ki, cəmiyyətin siyasi həyatının tarixi təkamülünün qanunauyğun nəticəsi kimi meydana gələn siyasi sistem keçən dövrdə öz dinamikliyi ilə seçilərək daim inkişaf etmişdir. Hər bir dövlətin və cəmiyyətin inkişaf səviyyəsi orada qərarlaşmış siyasi sistemin dünyada baş verən dəyişikliklərə olan reaksiyası və müvafiq surətdə dəyişilməsi tendensiyası ilə müəyyən edilir. Siyasi təsisatların və ictimai qurumların, həmçinin onların fəaliyyətinin həyata keçirildiyi cəmiyyətlərin vəziyyəti, daxili həyata təsirinin məcmusu olan siyasi sis-

[1] Bax: Politologiya. Ensiklopediya lüğəti. Moskva, 1993. s. 273. Rus dilində.

tem anlayışı, həm də iqtisadi mühitin, rəqabəti və qarşıdurmanı təşkil edən əsas siniflərin (qrupların) arasındakı qarşılıqlı münasibətlərin, ziddiyyətlərin inkişaf dərəcəsindən asılı olaraq dövlətin bütün siyasi həyatını əhatə edir.

Siyasi sistem hakimiyyətin sosial məzmununun səciyyəsini, onun daşıyıcısı olan hakim dairənin xarakterini, iqtisadi quruluşu; hakimiyyətin həyata keçirildiyi və siyasi münasibətlərin cərəyan etdiyi təsisatlar və təşkilatlar sistemini göstərir; siyasi hakimiyyət və təsisatların (partiyalar, ictimai təşkilatlar və s.) fəaliyyət prinsiplərini, normalarını, bu fəaliyyətin yönümünü müəyyən edir.

Cəmiyyətin siyasi sisteminə daxil olan təsisatlar ya bilavasitə, yaxud da öz ictimai hərəkatları və siyasi təşkilatları vasitəsi ilə dolayısı ilə dövlət həyatında maddi və mənəvi varlıqların idarə edilməsi və bölüşdürülməsində iştirak edərək ayrı-ayrı sosial qrupların çeşidli maraqlarını ifadə edir. Bu maraqlar qəbul edildiyi təqdirdə onlar siyasi idarəetmə strukturları tərəfindən qərarların qəbulu və həyata keçirilməsi yolu ilə gerçəkləşdirilir.

### *Siyasi sistemin əsas struktur elementlərinin xarakteristikası*

Siyasi sistemin strukturunu cəmiyyətin əsas institutları hesab olunan ***dövlət*** (öz orqanları və təşkilatları ilə birlikdə), ***siyasi partiyalar, ictimai hərəkatlar və təşkilatlar*** (sosial, dini, milli, həmkar və s. xarakterli) təşkil edir.

Hər bir ölkənin siyasi sistemində hakim yer ***dövlət*** və onun orqanlarına məxsusdur. O, bütün cəmiyyətin təşkilatı çərçivələrini təyin edir, hüquqi normaların köməyi ilə öz vətəndaşlarının və mülki təşkilatların davranışını formalaşdırır, təşəbbüslərini dəstəkləyir.

Dövlət özü-özlüyündə ən kütləvi siyasi təşkilat funksiyasını icra edərək bütün cəmiyyət üzvlərini təmsil edir. Düzdür, dövlət idarəçilik sistemindən asılı olaraq bütün ölkələrdə və-

təndaşların rəsmi siyasətə təsiri və rolu eyni olmur. Lakin istənilən halda mövcud dövlətin vətəndaşı olmaq özü-özlüyündə hər bir vətəndaş üçün məcburi məsuliyyət, hüquq və qanuni haqlar yaradır. Əgər hər hansı partiya və ictimai təşkilata üzvlük vətəndaşın öz istəyi ilə reallaşır və yalnız üzvlərə hansısa üstünlük yaradırsa, vətəndaş statusu daşıyan hər bir fərd öz ölkəsinin malik olduğu maddi və mənəvi resurslardan yararlanmaq, dövlətin qanunlarından və s. üstünlüklərdən istifadə etmək üçün bərabər şəraitə malik olur. Əslində öz fəallıq dərəcəsindən asılı olaraq hər bir vətəndaş dövlət həyatında ayrıca bir siyasi partiya və digər təşkilatın malik olduğu qədər hüquqa malikdir və cəmiyyət həyatında onlar qədər iştirak edə bilər.

Dövlət cəmiyyət həyatında və xarici aləmdə mövcud olan bütün digər institutlar və vətəndaşlar qarşısında suveren hüquqlara malikdir. O istənilən qərarı müstəqil şəkildə qəbul edib, vətəndaşları qarşısında məsuliyyət daşıyır. Düzdür, müasir dünyada dövlət öz qərarlarını həm xarici beynəlxalq, həm də daxili institutların rəyi ilə uzlaşdırır. Lakin bu heç də dövlətin suveren hüququnu əlindən almır.

Dövlət istehsalat və digər maddi, mənəvi resursların sahibi kimi çıxış edərək mülkiyyətçi rolunu icra edir. Onun malik olduğu mülkiyyət bütün ölkə vətəndaşlarının ümumi sərvəti hesab olunur və cəmiyyətin inkişafına xidmət edir.

Digər siyasi institutlardan fərqli olaraq dövlət həm də geniş hüquqi və idarəetmə sisteminə malikdir və cəmiyyət həyatının bütün sahələrinə nəzarəti öz əlində saxlayır, qanunlar qəbul edir, onların icrasını təmin edir, ictimai davranış qaydalarını qoruyur.

Dövlət tək siyasi deyil, digər – hüquqi, texniki, iqtisadi, mədəni və s. funksiyaları da icra edərək, başqa siyasi institutlardan ciddi fərqlənir. Dövlətin siyasi sistemi və idarəetmə institutları bütöv cəmiyyətin, ayrı-ayrı insanların ideya və

maraqlarının dinamik münasibətlərini: siyasi hadisələri əks etdirən tələblər və bu tələblərin həyata keçirilmə prosesini özündə əks etdirir. Hətta, canlı siyasi proseslər müstəvisi, demək olar ki, yox dərəcəsində olan avtoritar dövlətlərdə belə, hakimiyyət başında durana mütləq tabe olmalarına baxmayaraq, idarəedənlərin fəaliyyətində insanların cəhdlərini və istəklərini daim özündə əks etdirən hansısa bir gizli ictimai təsir mövcuddur.

Dövlət cəmiyyət həyatının, siyasi inkişafın, iqtisadi, sosial və mədəni proseslərin inkişaf strategiyasını müəyyən edir, davranış normalarını yaradır, qanuna çevirir və onlara əməl olunmasına nəzarət edir. Bütün məsələlərin həlli və təklif olunan dəyişikliklərdə də son və həlledici səs dövlətə məxsusdur.

Dövlət orqanlarının ahəngdar və şəffaf fəaliyyəti siyasi sistemin həlledici amili sayıldığından onun təmin edilməsinin ən optimal yolu kimi müasir demokratik dövlətlərdə hakimiyyət bölgüsü tətbiq edilir. Qanunverici, icraedici və nəzarətedici orqanlar yaradılır ki, bu da demokratik inkişafı təmin edir.

Siyasi sistem xalqın suverenitetinin, tam hakimiyyətinin reallaşdırıldığı zəruri mexanizmdir. İstənilən cəmiyyətin siyasi sistemi, onun sabitliyini, həyat qabiliyyətini və cəmiyyət həyatının şəffaflığını təmin edə biləcək müəyyən mexanizmlərin mövcudluğu ilə səciyyələnir. Bu mexanizmlərin köməyi ilə sosial ziddiyyətlər və münaqişələr təhlil və həll olunur, müxtəlif ictimai hərəkat, siyasi qurum və təsisatların səyləri bir araya gətirilir, ictimai inkişafın əsas məqsədi, istiqaməti və dəyərlərinə münasibətdə ümumi konsensusa nail olunur.

Demokratik dövlətlərdə siyasi sistemin əsas tərkib hissələrindən biri ***siyasi partiyalardır.*** Bu institutlar bir qayda olaraq ayrı-ayrı qruplar (şəxslər) tərəfindən yaradılaraq siyasi hakimiyyətə gəlmək, yaxud ona təsir etmək yolu ilə özlərinin, tərəfdarlarının və təmsil etdikləri digər qrupların marağını reallaşdırmaq məqsədi daşıyırlar. Siyasi partiyalar cəmiyyətdə ha-

kimiyyət dairələrinə opponentlik etməklə, daha dolğun, cəlbedici ideyalar, proqramlar təklif etməklə tərəfdarlarının sayını artırır və seçki yolu ilə hakimiyyətə gəlir. Siyasi partiyalar zaman-zaman hakimiyyətə gələrək hakimiyyətdəki qrupları əvəzləyir ki, bu da hakim və opponent güclərinin dinamik yarışmasını şərtləndirir.

Siyasi sistemin əsas tərkib hissələrindən biri də ***ictimai qurumlar, qeyri-hökumət təşkilatları və azad mətbuat orqanları*** hesab olunur. Bu qurumlar öz qarşılarına bilavasitə fəal siyasətlə məşğul olmaq, hakimiyyətə gəlmək məqsədi qoymasalar da, yürüdülən siyasətə təsir etmək, bu və ya digər vəzifələri reallaşdırmaq məqsədilə aktiv fəaliyyətlə məşğul olurlar. İqtisadi, sosial, ekoloji, mədəni yönlü təşkilatlar, həmkarlar ittifaqları, milli-dini qrupların təmsilçiləri ümumi dövlət maraqları, ölkədə maddi və mənəvi sərvətlərin bölgüsü və s. proseslərdə təmsil etdikləri təbəqənin maraqlarının təmsilçisi rolunda çıxış edir.

Demokratiyanın və siyasi plüralizmin hökm sürdüyü ölkələrdə ***mətbuat*** bütöv cəmiyyətin maraq və mənafelərini, yürüdülən siyasətlə bağlı ictimai rəyi əks etdirərək dövlət siyasətinə bilavasitə təsir edir.

Siyasi sistemi üstqurum hadisəsi kimi səciyyələndirmək mümkündür. Belə ki, istənilən tip cəmiyyətdə, istənilən quruluş formasının təməli, bazisi qismində iqtisadiyyat, onun müxtəlif inkişaf dərəcələri və səviyyəsi çıxış edir. Məhz buna görə də siyasi sistemlər üstqurum mahiyyətli olur və iqtisadi əlaqələr onların təbii əsasını təşkil edir. İqtisadiyyat və siyasətin bu cür qarşılıqlı təsirini yüz illər boyu, quldarlıq quruluşundan müasir dövrə qədər izləmək mümkündür. Sistemin həyatiliyi, gücü və bütövlüyü sabit iqtisadi əlaqələrin hüdudu ilə müəyyən olunur.

***Siyasi sistem və Konstitusiya***

Hər bir dövlətin xarakterini, siyasi sisteminin əsas məziyyətlərini onun Ali qanunu – Konstitusiyası müəyyən edir. Konstitusiya siyasi sistemin strukturunu əks etdirən sənəd və ya sənədlər toplusu olmaqla, hakimiyyətin necə bölüşdürüldüyünü, hökumət təsisatlarının funksiyasını və quruluşunu, onların necə fəaliyyət göstərməli olduqlarını müəyyənləşdirir. Konstitusiyada üç əsas hakimiyyət institutuna: qanunvericilik, icraedici və məhkəmə hakimiyyətinə başlıca yer ayrılır və bu institutların bölgülü və ya birgə fəaliyyətinin müxtəlif prinsipləri müəyyən edilir.

Ümumiyyətlə, hakimiyyətin bölgüsü və tarazlığı anlayışı müasir dövrdə siyasi sistemin azadlıq səviyyəsini, demokratik və hüquqi xarakterini müəyyənləşdirən meyar sayılır. Qeyd olunan amillərlə yanaşı, bir çox hallarda hakimiyyət bölgüsü qanadlar arası deyil, siyasi mərkəzlə regionlar arasında hakimiyyətin bölgüsünü ehtiva edir (Federativ və yaxud konfederativ dövlət quruluşlarında).

Konstitusiya heç də siyasi sistemin bütün aspektlərini tam əhatə etmir. Belə ki, orada bütün siyasi partiyaların və ya müəyyən qrup insanların maraqlarını ifadə edən digər təşkilatların adbaad nəzərə alınması qeyri-mümkündür. Konstitusiya hakimiyyətin necə fəaliyyət göstərdiyini, onun bölgüsünü, siyasi sistemin xarakterini göstərir, lakin onun necə işlədiyini tam və dəqiq əks etdirmir. Konstitusiya yalnız dövlət sisteminin və müvafiq idarəçiliyin prinsiplərini göstərir.

Ölkələrin konstitusiyaları xaraktercə fərqli olsalar da, onların tam əksəriyyəti dövlətin idarə edilməsi və fəaliyyətini həyata keçirən institutlara aid mövcud qanunvericilik bazasının əsaslarını təşkil edir.

Müasir dünyada demokratik quruluşlu ölkələrin Konstitusiyalarında geniş istifadə etdiyi hüquqi dövlət anlayışının əsasını hakimiyyətlərin bölünməsi prinsipi təşkil edir.

Hakimiyyətin bölgüsü doktrinasını ilk olaraq müəyyənləşdirən fransız filosofu Monteskye 1748-ci ildə yazmış olduğu və bu nəzəriyyəni ifadə edən “Hakimiyyətin bölgüsü” əsərində sübut edirdi ki, bölgü və balanslaşdırma yolu ilə üç institutun hər hansı birinin (xüsusən də icraedici orqanın) hakimiyyətdən ölkə vətəndaşlarının maraqlarının ziddinə olaraq sui-istifadə etməsi halı aradan qalxır.

### *Siyasi rejim*

Hər bir dövlətin siyasi həyatında fəaliyyət göstərmək üçün qanunla müəyyən olunmuş prinsiplər və lazımi şərait olmalıdır. Siyasi sistemin əsas komponentləri arasında mövcud olan münasibətlər, hüquq və öhdəliklər, hakimiyyətin formalaşdırılması və idarəedənlərin fəaliyyəti üzərində ictimai nəzarət, siyasi və vətəndaş hüquqlarının təmin olunması, dövlət-vətəndaş münasibətlərinin xarakteri və prinsipləri, müxalifət institutlarının və azad mətbuatın mövcudluğu və s. hər bir siyasi rejimi xarakterizə edən əsas amillərdir.

Tədqiqatçılar müasir dünyada mövcud olan siyasi rejimləri iki əsas qrupa ayırırlar: ***demokratik və qeyri-demokratik.*** Hər iki kateqoriya mövcud cəmiyyətdə insan hüquq və azadlıqlarının vəziyyəti və yuxarıda qeyd etdiyimiz digər meyarlarla müəyyən edilir.

Demokratik siyasi rejimli ölkələrdə hakimiyyətin əsas mənbəyi xalq hesab olunur və yalnız onun seçimi əsasında legitim hakimiyyət formalaşdırıla bilər. Seçim azad və sərbəst olmalı, hər bir vətəndaş öz iradəsini ifadə etmək, seçmək və seçilmək imkanına malik olmalıdır. Hökumət və hər bir idarə edən xalq qarşısında hesabat verməli, qanun qarşısında məsuliyyət daşımalıdır.

Hər bir insan, təşkilat, orqan, institut hakimiyyətlə bağlı öz fikrini sərbəst şəkildə bildirmək, onun fəaliyyətini müzakirə etmək imkanına malik olmalıdır. İnsanlar qanun qarşısında,

iqtisadi, siyasi, sosial və mədəni hüquqlarının reallaşdırılmasında bərabər imkanlara malik olmalıdır.

Bütün qeyd etdiyimiz bu və ya digər meyarların mütəmadi olaraq pozulduğu ölkələr idarəçilik formalarından asılı olmayaraq, qeyri-demokratik (avtoritar, totalitar və s.) dövlət hesab olunur. ABŞ politoloqu C. Hantinqton və bu ölkənin "Azad ev" təşkilatı müasir dünya dövlətlərini - demokratik, demokratiya istiqamətində inkişaf edən və qeyri-demokratik kimi üç qrupa bölərək onların siyasi rejimlərini tədqiq etmişlər. Onların təsnifatına görə 2011-ci ildə dünyada mövcud olan 194 dövlətdən (193 BMT üzvü və Vatikan) 87-si demokratik, 60-ı bu istiqamətdə inkişaf edən, qalanları isə qeyri-demokratik ölkələr kimi xarakterizə edilir.

### *Dövlət rejimi*

Tədqiqatçılar siyasi sistemlərin öyrənilməsi və təsnifatında siyasi sistemlə yanaşı ölkələrin dövlət rejimlərinə də xüsusi yer ayırırlar. Dövlət rejimi siyasi rejimin tərkib hissəsi hesab olunsa da, bəzi parametrlərinə görə ondan seçilir. Əvvəla, siyasi rejim daha genişdir və onun tərkibində dövlət idarəçilik sistemi ilə yanaşı partiyalar, ictimai qurumlar, mətbuat, ayrı-ayrı fəal insanlar və s. iştirak edir. İkincisi, siyasi rejimin əsas əlamətləri bəzən dövlət rejimi ilə üst-üstə düşməyə bilir. Məsələn, İsveçrə siyasi rejiminə görə monarxiya tipli dövlətdir, onun idarə edilməsində daha çox partiya (siyasi) prinsipləri deyil, ərazi faktoru (kantonların konfederasiyası) əsas götürülür. Lakin dövlət rejiminə görə bu ölkə dünyanın ən demokratik ölkəsi hesab olunur.

Dövlət rejimi daha çox idarəçilikdə tətbiq olunan konkret metod, vasitə və prinsiplərlə, o cümlədən dövlət orqanlarının səlahiyyət və məsuliyyəti ilə xarakterizə olunur. Hər bir dövlət öz rejiminə uyğun idarəçilik formalaşdırır, orqanlarının (daimi, siyasi, qeyri-siyasi orqanlar) hüquq və məsuliyyətini, fəaliyyət

prinsiplərini, idarəçilik metodlarını və vasitələrini müəyyənləşdirir. Bəzən Konstitusiyasında tam demokratik ölkə kimi təsbit olunmuş respublikalar dövlət idarəçilik rejimləri ilə qeyri-demokratik fəaliyyət nümayiş etdirir (Məsələn, Çilidə vaxtilə fəaliyyət göstərmiş Pinoçet rejimi və s.)

Müasir dünyada dövlət rejimləri ciddi müzakirə olunaraq bəzi beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarının əsas tədqiqat obyektinə çevrilib. ABŞ-ın "Azad ev" təşkilatı, ATƏT, Avropa Şurası və digər qurumlarda dövlət rejimləri və onun ölkələrin inkişafına təsiri mövzusunda tez-tez geniş müzakirələr açılır.

### *Dövlət idarəçilik formaları*

Bütün dünya ölkələrində dövlət konkret bir inzibati ərazi çərçivəsində vahid funksiya həyata keçirir – idarəçilik. Ölkə daxilində vətəndaşların, dövlət orqanlarının və cəmiyyət həyatının bütün sahələrini müvafiq qanunlar çərçivəsində idarə edir, ictimai, siyasi, iqtisadi, mədəni və sosial münasibətləri tənzimləyir. Xarici aləmdə öz dövlətini təmsil edir, onun əlaqələrini yaradır və maraqlarını qoruyur. Lakin ölkələr dövlət idarəçilik formalarının xarakterinə görə bir-birindən ciddi fərqlənir. Hər bir dövlət öz idarəçilik formasını özünəməxsus vasitələrlə, meyarlarla müəyyənləşdirir və fərqli yollarla reallaşdırır. Dövlət idarəçiliyinin təşkili, strukturu, idarəetmə orqanlarının statusu və funksiyaları, onlar arasındakı münasibətlərin xarakteri də ayrı-ayrı ölkələrdə müxtəlif olur.

Dünya ölkələrinin son iki minillik tarixində ən çox müşahidə olunan dövlət idarəçilik rejimlərini əsasən iki – monarxiya və respublika formalı idarəçilik qrupuna aid edirlər. Hər iki qrupa daxil olan idarəçilik formaları bir neçə özünəməxsus formada təzahür edir. Tarixin ayrı-ayrı mərhələlərində mülkiyyət formasından, istehsalat resurslarından asılı olaraq bu formalar fərqli şəkildə təzahür etmişdir.

### *Monarxiya idarəçilik sistemi*

Monarxiya idarəçilik sistemində bütün dövlət hakimiyyəti bir nəfərin – monarxın əlində cəmlənir. Monarx öz hakimiyyətini birbaşa öz varisinə ötürür.

Hələ qədim dövrlərdə Şərqdə - Misirdə, Hindistanda, Babildə və s. quldarlıq dövlətlərində mövcud olan monarxiya quruluşlarını xarakterizə edən əsas amil ondan ibarət idi ki, bu rejimlərdə qanunverici, icraedici və məhkəmə hakimiyyəti tamamilə monarxın əlində cəmləşmişdi ***(Şərq despotizmi)***. Şərq despotizminin əsas əlamətlərindən biri də həm dünyəvi, həm də dini hakimiyyətin monarxa məxsus olması idi.

Bu tipli monarxiyalarda hakimiyyətə yeganə təsir vasitəsi monarxın ətrafında idarəçiliyə cəlb olunmuş saray xidmətçiləri, ordu başçıları, iri tacirlər, kahinlər, mülk sahibləri idi. Bu tip insanlar arzu və istəkləri nəzərə alınmadıqda zaman-zaman saray çevrilişləri edərək mövcud monarxı devirir, onu daha əlverişlisi ilə əvəzləyirdilər.

Qədim dünyanın daha bir monarxiya idarəçilik rejimini qədim romalılar yaratmışdı ki, bu da əslində Şərq despotizmindən ciddi fərqlənmirdi.

Orta əsrlərdə quldarlıq monarxiyalarının yerində feodal monarxiyaları bərqərar olmağa başlayır. Bu monarxiyaların əsas xarakterik xüsusiyyəti ondan ibarət idi ki, monarx əvvəlkilərdən qismən məhdud hakimiyyətə malik olurdu. Nisbətən müstəqilliyə malik olan böyük feodallar - knyazlar, hersoqlar və s. monarxa (krala) ciddi təsir göstərmək imkanına malik idi (Xüsusən Avropa ölkələrində). Bundan başqa, bu monarxiyalarda idarə edənlər ciddi iyerarxiya rejiminə - aşağılara, ortalara və alilərə bölünmüşdü ki, bunların da hər biri müvafiq statusa malik idilər.

Sonrakı dövrdə feodal monarxiyalarında monarxın yanında məşvərətçi statusunda nümayəndəlik sistemi (məsələn Rusi-

yada Soborlar, İngiltərədə Parlament, Polşada Seym və s.) yaradılır ki, bu da dövlət idarəçilik sisteminə müəyyən təsir göstərməyə başlayır.

Lakin bu dövrdə də bəzi feodal monarxları (xüsusən XIII-XV əsrlərdə Avropa və b. ərazilərdə) Şərq despotizmi tipli mütləq monarxiya xarakteri daşıyırdı.

Avropada kapitalizm münasibətlərinin inkişafı ilə (XVI-XVII əsrlərdə) monarxiyaların xarakteri də tədricən dəyişməyə başlayır və ***konstitusiyalı monarxiya*** rejimləri yaranmağa başlayır. Bu tipli idarəçilik köhnə zadəganlarla yeni burjua sinfinin maraqlarını uyğunlaşdırmaq məqsədi daşıyaraq monarxın hakimiyyətini qismən məhdudlaşdırmağa xidmət edirdi. Konstitusiyalı monarxiyanın iki daha geniş yayılmış – ***Konstitusiyalı (qarışıq)*** və ***Parlament tipli*** forması mövcuddur.

***Konstitusiyalı (qarışıq)*** idarəçilik sistemində monarx icra hakimiyyətini formalaşdırır və ona rəhbərlik edir. Cəmiyyətin maraqlarını isə seçilmiş parlament təmsil edir ki, bu da qanunverici hakimiyyəti tamamilə monarxın tabeliyindən çıxarır, dövlətdə müəyyən maraqlar balansı yaradır. Bu tipli idarəçilik XVII-XIX əsrlərdə bəzi Avropa dövlətlərində mövcud olmuşdur.

Kapitalizmin inkişafı ilə Avropada və dünyada ən geniş vüsət almış monarxiya rejimi ***Parlamentli monarxiyadır***. Hazırda Avropanın Böyük Britaniya, İsveç, Danimarka, Hollandiya və b. aparıcı ölkələrində Parlamentli Monarxiya quruluşu hökm sürür.

Parlamentli monarxiyanı xarakterizə edən əsas xüsusiyyət monarx hakimiyyətinin kifayət qədər məhdudlaşdırılmasıdır. Bu rejimdə qanunverici hakimiyyət seçkili orqana – Parlamentə məxsus olur. Parlament seçkilərində qalib gəlmiş partiya, yaxud partiyalar hökuməti formalaşdırır və ona rəhbərlik edir. Ən çox səs toplamış partiya rəhbəri həm də ölkəyə başçılıq edir.

Parlament monarxiyasında dövlət başçısı monarx qarşısında deyil, parlament qarşısında hesabat verdiyindən, monarxın ölkədaxili və xarici siyasətdə rolu çox məhdud olur.

Qanunverici hakimiyyətdə monarxın rolu yalnız qəbul olunmuş qanunları təsdiq etməkdən ibarətdir.

Dövlət idarəçiliyinin ən geniş yayılmış forması ***Respublika İdarəçilik*** sistemidir. Respublika İdarəçilik sistemi Parlament, Prezident, Dualist (qarışıq), Kommunist, Hərbi, Mütləq və s. rejimli ola bilər ki, bunların da əksəriyyətini dövlət orqanlarının formalaşdırılması prinsipləri (seçkili orqan) birləşdirir.

Monarxiya idarəçilik sistemi kimi respublika idarəçiliyi də qədim dövrlərdən insanlara tanış idi. Qədim dünyada iki növ - aristokratik respublika (Roma) və demokratik respublika (Afina) mövcud olmuşdur. Birincidə, seçkili orqanlar əsasən yuxarı təbəqədən - aristokratlardan ibarət idisə, ikincidə qullar istisna olmaqla bütün əhalini təmsil edirdi (Xalq toplantısı, Senat və s. bu respublikaların məşvərət orqanı rolunu oynayırdı.).

Feodalizmin inkişafı ilə bəzi Avropa dövlətlərində mütləqiyyət rejimləri yanında respublika tipli idarəçilik forması tətbiq edilməyə başlayır (İtaliya, Hollandiya, Almaniya, Rusiya və s.). Bu ölkələrdə bir qayda olaraq Parlament əhalinin yuxarı təbəqələrindən seçilirdi.

Kapitalizmin inkişafı Avropada respublika quruluşunun bərqərar olmasına ciddi təkan verir. Bu respublikalar əsasən Parlament və Prezident tipli olsalar da, bəzilərində Konstitusiyalı Monarxiya rejimi də saxlanılmışdı. Məsələn, İtaliya, Almaniya, Avstriya kimi ölkələr Parlament tipli idarəçilik sistemini yaradır. Bu ölkələrdə Parlament hökuməti və dövlət başçısını (kansler, Prezident, Baş nazir və s.) seçir və onun idarəçiliyinə nəzarət edir. Bu tipli idarəçilikdə Prezidentin rolu Parlament qarşısında məhdud olur.

Başqa ölkələr, məsələn Fransa, ABŞ və s. ölkələr Prezident respublikası formasını seçir. Bu ölkələrdə Prezidenti xalq seçir və o həm dövlətə, həm də hökumətə rəhbərlik edir. Ümumiyyətlə, hal-hazırda parlament formasında idarəetmə üsulu müasir dünyada monarxiya, yaxud respublika quruluşuna məxsus olmasından asılı olmayaraq geniş yayılmış idarəetmə formasıdır. Bu formanı, dünya əhalisinin təxminən 2/5-ni (38%) əhatə edən 74 dövlət qəbul edib. Onlardan 38-i konstitusiyalı monarxiya, qalanları isə respublikadır. Parlament formalı idarəetmənin tipik forması Böyük Britaniyada yaranmış və indi də mövcud olan "Vestminister" modeli kimi baxılır. Böyük Britaniyanın özü də daxil olmaqla, icra hakimiyyət orqanının parlament prinsipi ilə idarə olunan dünya dövlətlərinin 29-u keçmişdə Britaniya imperiyasının bir hissəsi olub və hal-hazırda Britaniya Millətlər birliyinin müstəqil üzvləridir.

Parlament formalı idarəetmə üsulu liberal-demokrat və yeni yaradılmış demokratik dövlətlərdə də geniş tətbiq olunur. Bu dövlətlərdən 19-u Avropanın şimal və qərb hissəsində, 11-i Karib regionunda, 10-u isə Okeaniyada yerləşir. Parlament formalı idarəetmə üsullu dövlətlərin demək olar ki, yarısı adalarda yerləşir. Bu cür idarəetmə üsulu, əsasən, kiçik dövlətlərdə üstünlük təşkil edir. Bununla belə, əhalisinin sayına görə dünyada ikinci yerdə olan Hindistanda da parlament formasında respublika idarəetmə üsulu mövcuddur.

***Məhdud hakimiyyətli Prezident idarəetmə üsulu***

Müasir dövrdə məhdud hakimiyyətli Prezident idarəetmə üsulu, bütün dünyada Prezidentli respublika hakimiyyətinin ən geniş yayılmış siyasi təşkilat formasıdır. Bu cür idarəetmə üsulu Yer kürəsinin 27% əhalisini, habelə yer səthinin təxminən yarısını əhatə edən 64 dövlətdə mövcuddur. Qeyd etmək lazımdır ki, göstərilən dövlətlərdən 36-sı keçmişdə məhdudiyyəti olmayan Prezident idarəetmə üsuluna, digərləri isə

hərbi-avtoritar, kommunist (sosialist) və dini sistemlərə malik ölkələr olmuşlar. Bu səbəbdən də qeyd olunan dövlətlərin parlament formalı idarəetmə üsulu ilə yanaşı, Prezident idarəetmə üsulunu seçməsi təsadüfi deyil. Belə ki, 1988-2012-cı illər ərzində dünyada parlament formasında idarəetmə üsullu dövlətlərin sayı 43-dən 74-ə qədər yüksəlmiş, məhdud hakimiyyətli Prezident idarəetmə üsuluna keçmiş dövlətlərin sayı da eyni proporsiyada artaraq 35-dən 64-ə çatmışdır. Yalnız, Cənubi Asiyada bu proses əksinə cərəyan etmişdir. 1988-ci ildə Pakistanda, sonralar isə Banqladeşdə Prezident idarəetmə üsulu parlament idarəetməsinə çevrilmişdir. Hazırda Xorvatiya və Serbiya dövlətləri də bu yolla hərəkət edirlər.

Məhdud hakimiyyətli Prezident idarəetmə üsulunun tipik forması ABŞ-da mövcuddur. Ümumiyyətlə, Birləşmiş Ştatlara xas olan bəzi idarəçilik prinsipləri hazırda sistemlər arasındakı ciddi fərqə baxmayaraq, digər dövlətlərdə də təkrar olunur. Belə ki, icraedici hakimiyyətin ABŞ sistemi son bir neçə ildə intensiv olaraq bəzi Şimali və Cənubi Amerika ölkələrində yayılmışdır. Bu regionun 21 dövlətindən yalnız Kanada və Beliz dövlətində icraedici hakimiyyət Parlamentdə seçilən Baş nazirə məxsusdur. Keçmiş Britaniya müstəmləkəsi olan digər ölkələrdəki kimi, bu dövlətlərdə də parlament formasında Respublika idarəetmə üsulu mövcuddur.

### *Dualist formalı Prezidentli respublika idarəetmə üsulu*

Dualist formada idarəetmə üsulu, liberal-demokratik rejimli keçmiş 4 və bu yaxınlarda yaradılmış 27 yeni demokratik dövlətdə mövcuddur. Bu idarəetmə formasının əsası liberal-demokratik rejimli Fransada qoyulub. Lakin eyni idarəçilik sistemini seçən digər dövlətlərin icra hakimiyyət orqanlarının fəaliyyət prinsipi müəyyən qədər fərqli xüsusiyyətlərə malikdir. Məsələn, Rusiya, Portuqaliya, Rumıniya, Ukrayna, Haiti, Tunis, Tacikistan, Şri Lanka, Mavritaniya və s. ölkələrdə icra

hakimiyyəti orqanları Prezidentlə Baş nazirin, Monako və Mərakeşdə isə monarxla Baş nazirin effektli partnyorluğu yolu ilə təşkil edilir.

Litva, Qırğızıstan və s. dövlətlərdə icraedici hakimiyyətin parlament formasında idarəetmə üsulu üstünlük təşkil edir. Lakin bu dövlətlərdə ölkəyə rəhbərlik edən Prezidentlər birbaşa seçilir və öz əllərində hakimiyyətin formalaşdırılması və idarə edilməsi ilə bağlı kifayət qədər səlahiyyət saxlayır ki, bu da qeyd olunan dövlətləri "dualist" adlandırmağa əsas verir. Məsələn, hal-hazırda parlamentli respublika olan Çexiyada əvvəllər mövcud olmuş dualist idarəetmə üsulu dövründə Prezident əsasən mərasim funksiyalarını yerinə yetirirdi, bununla belə, azadlıq uğrunda mübariz, lider kimi qəbul edilən eks-prezident Vaslav Qavelin Prezidentlik fəaliyyəti dövründə Prezidentin xarizmatik səlahiyyətləri qorunurdu və əsas məsələlər onunla razılaşdırılırdı.

Son illərdə dövlətlərdə siyasi hakimiyyətin tədricən Prezidentdən Parlament tərəfindən təyin olunmuş Baş nazirə keçməsi halının artması müşahidə edilir.

### *Kommunist sisteminin idarəetmə üsulu*

1991-ci ilə qədər dünyada Sovet Sosialist Respublikaları İttifaqı adlanan SSRİ, partiya və sinfi maraqları təmsil edərək qanunverici, icra və məhkəmə hakimiyyətinin kommunist forması kimi klassik nümunə hesab olunurdu. Artıq dünyada nə Sovet İttifaqı, nə də ki, digər sosialist dövlətləri yoxdur və yeni yaranmış postsovet dövlətlərində, o cümlədən Rusiyada prezident, parlament, habelə dualist formada idarəetmə üsulları mövcuddur.

Hal-hazırda kommunist sistemi yalnız Çində, Şimali Koreyada, Kubada və daha bir neçə ölkədə saxlanılıb. Lakin SSRİ-dən fərqli olaraq bu ölkələrdə mülkiyyət çoxnövlülüyü və digər bazar iqtisadiyyatı əlamətləri mövcuddur.

Çində bütün siyasi hakimiyyət 340 üzvü olan Kommunist partiyasının Mərkəzi Komitəsinə, Siyasi Büroya, Mərkəzi Komitə tərəfindən seçilən və hər həftə yığıncağı keçirilən, 12-25 nəfərdən ibarət mərkəzi nazirlik orqanına, həmçinin Mərkəzi Komitənin kiçik inzibati qolu - Katibliyə mənsubdur. Bu tip dövlət orqanlarının sədrləri, Baş nazir və Prezident kimi mühüm vəzifələr də daxil olmaqla kommunist partiyasının yuxarı təbəqəsini təşkil edir.

Kommunist idarəçilik sistemi özündə siyasətin məqsədini təyin edən partiyanı və bu məqsədləri həyata keçirən dövlət aparatını cəmləşdirmişdir. Bir fakta diqqət yetirmək lazımdır ki, ABŞ kimi liberal-demokratik bir ölkədə hakimiyyətin fəaliyyətinə Konstitusiya nəzarət edirsə, kommunist ölkələrində Konstitusiya da daxil bütün dövlətə, hakim partiyaya nəzarət edir. Konstitusiya bir qayda olaraq partiyanın tələblərinə uyğun olaraq onun qərarı ilə tez-tez dəyişdirilir. Bütün bunlara baxmayaraq, Çində iqtisadi fəaliyyət azadlığı, azad mülkiyyət hüququ və vətəndaşların iqtisadi sərbəstliyi heç də digər dünya dövlətlərində olduğundan az deyil.

Digər bir sosialist ölkəsi olan Kubada keçmiş dövlət başçısı Fidel Kastro "kommunist inqilabı"nın lideridir və onda liderliyin şəxsləşdirilmiş, plebisit, xarizmatik forması üstünlük təşkil edir.

Cənubi Şərqi Asiyada Şimali Koreya hələ də sosialist-kommunist sistemi ilə yaşayır. 2011-ci ildə atası Kim Çen İrin ölümündən sonra hakimiyyətə gələn Kim Çen In sosialist tipli kommunist idarəçilik rejimini davam etdirir.

Ümumiyyətlə, bu kateqoriyaya aid olan dövlətlər dünyada sayca çox olmasalar da, planetin ümumi əhalisinin 1/4 hissəsini əhatə edir.

### *Məhdudiyyəti olmayan Prezident idarəetmə üsulu*

"Məhdudiyyətsiz" termini bir partiyalı, lakin kommunist rejimi olmayan dövlətlərdə icra orqanlarını xarakterizə etmək

üçün istifadə edilir. Lakin əslində geniş anlamda siyasətdə heç nə məhdudiyyətsiz ola bilməz.

Hakimiyyətin əsas mərkəzi partiya olan bəzi kommunist dövlətlərindən fərqli olaraq, məhdudiyyətsiz Prezident idarəçiliyində güclü, bəzən xarizmatik lider idarəçiliyi üstünlük təşkil edir. İcraedici hakimiyyət orqanları bu cür formada olan ölkələrin böyük əksəriyyəti, keçən əsrin II yarısında müstəmləkə asılılığından azad olmuş dövlətlərdir. Müstəqilliyin qorunub saxlanması və möhkəmləndirilməsi, çoxsaylı tayfa, etnik, dini qrupların birləşdirilməsi və idarə edilməsi, vahid dövlət tərkibində onların konsolidasiyası və s. səbəblər belə dövlətlərdə, əlbəttə güclü lider tələb edirdi. Hakimiyyətinə heç bir məhdudiyyət qoyulmayan Prezident formalı idarəetmə üsulu olan həmin ölkələrin yarısından çoxu Afrika, Yaxın və Orta Şərqdə yerləşən və cəmi 40-50 il müstəqillik yaşı olan dövlətlərdir.

İcra hakimiyyətinin idarəetməsində məhdudiyyət olmayan belə dövlətlərin bəzilərində siyasi təşkilat və qeyri-hökumət strukturlarının iştirakına formal olaraq razılıq verirlər, lakin demokratik institutlar və seçki üzərində total nəzarət bir qayda olaraq hakim partiyanın mütləq qələbəsini, müxalifətin isə məğlubiyyətini təmin edir.

Bu cür dövlətlərdə siyasi liderin xarizması və iradəsi xüsusi əhəmiyyət kəsb edir. Onlardan bir çoxları, liberal-demokratik rejimli dövlətlərdəki həmkarlarından fərqli olaraq, hakimiyyətdə uzun müddət qalırlar. Bəzi faktları qeyd etməklə, bu hallarla bağlı tam təsəvvür formalaşdırmaq mümkündür: bəzi Afrika dövlətlərində Prezidentlər öz vəzifələrində 15-20 ildən artıq qalaraq canlı əfsanəyə çevrilmişlər. Bununla bərabər, Mərkəzi Asiyanın bəzi keçmiş sosialist respublikalarında şəxsiyyətinə güclü pərəstiş edilən Prezidentlər mövcuddur və onlar alternativsiz seçkilər yolu ilə hakimiyyətdə uzun müddət qalmaqdadırlar.

Hər bir ölkənin siyasi sistemi onun əhalisinin mentaliteti, iradəsi, tarixi, mədəniyyəti və inkişafı ilə sıx bağlıdır. Məhdudiyyətsiz Prezident idarəetmə üsullu dövlətlərin bəziləri hazırda öz siyasi inkişaflarında məhdudiyyətsiz siyasi rejimdən demokratik idarəçiliyə keçid mərhələsində yaşayır. Onların bir çoxunda sistem qlobal proseslərin təsiri altında yavaş-yavaş dəyişir, bəzilərində isə yaxın gələcək üçün belə dəyişiklik nəzərdə tutulur. Başqa dövlətlərdə, xüsusilə Şimali Afrika ölkələrində möhkəm şəkildə keçmiş tayfa siyasi ənənələrinə söykənərək birpartiyalı sistemin monopoliyası və partiyalar arasında sərbəst rəqabətə imkan verilməməsi nəticə etibarilə bu bölgədə son iki ildə siyasi kataklizmlərə, inqilabi dəyişikliklərə səbəb oldu.

### *Hərbi rejimli idarəetmə üsulu*

Hal-hazırda dünyada siyasi və icraedici hakimiyyəti hərbi formada olan dövlətlərin sayı üçdür. Bunların 2-si Şimal-Şərqi (Misir) və Qərbi (Mali) Afrikada, biri isə Okeaniyada (Fici) yerləşir. Tarixi təcrübədən aydın olur ki, hərbi rejimli idarəetmə üsuluna malik dövlətlərin əksəriyyətini ümumi bir xüsusiyyət - bu ölkələrin tarixində baş vermiş hərbi münaqişələr və çevrilişlər kimi uzun bir siyahı birləşdirir. Bu dövlətlərin hər birində, vətəndaş azadlığının pozulması hesabına qayda-qanunu ordu qoruyur. Bəzi ölkələr isə tez-tez sivil vətəndaş qayda-qanunundan hərbiyə və əksinə çevrilmə prosesi ilə üzləşirlər. Məsələn, Burkina-Faso 30 il ərzində 6, Tailand isə 1932-ci ildə mütləq monarxiyanın ləğvindən sonra 17 hərbi çevrilişə məruz qalmışdır.

Cənubi Amerika ölkələrində mövcud olan hərbi rejimlərin siyasəti isə çox mürtəce və mühafizəkarlığı ilə seçilir. Bu cür siyasət həmin ölkələrdə çox məhdud bir dairənin maraqlarını

müdafiə etməyə və xalq hərəkatını boğmağa yönəlmişdir. Hərbi rejimli digər ölkələrdə əsasən sıravi məmurların sırasından çıxmış liderlər radikal iqtisadi və sosial siyasət həyata keçirmələri ilə yadda qalırlar. Bu rejimlər, bir qayda olaraq, korrupsiya və rüşvətə qurşanmış inzibati orqanları devirərək hakimiyyəti ələ keçirir və dövləti puritan qaydasında idarə etməyə meyil göstərirlər. Müasir dövrün populist hərbi rejiminin ən parlaq nümunələri dünyada Qanada Cerri Roulinqs, habelə Tomas Sankara (1983-1987-ci illər) və Burkina-Fasoda Bleyz Kompaoredir. Əslində, Roulinqs də, Kompaore də bu ölkələrdə seçilmiş vətəndaş Prezidentləri olmuşlar.

### *Mütləq formalı idarəetmə üsulu*

Müasir dünyada Vatikan dövləti istisna olmaqla, mütləqiyyət formalı idarəetmə üsuluna aid olan dövlətlərin əksəriyyəti monarxiya dövlətləridir. Bunlardan, Bruney, Oman, Qatar və Səudiyyə Ərəbistanı - ərəb əmirlikləri, sultanlıqları və monarxiyalarıdır. Svazilend irsi monarxiya quruluşuna malikdir. Bu dövlətlərdə siyasi partiyalar ümumiyyətlə fəaliyyət göstərmir.

Hərbi siyasi rejimli dövlətlərdən fərqli olaraq, icraedici hakimiyyəti mütləqiyyət monarxiyasına mənsub olan bütün dövlətlər hərbi çevrilişlər nəticəsində qurulmayıb. Onlar müstəmləkə sisteminin zəifləməsindən sonra icraedici hakimiyyəti ələ almış yerli liderlərin, tayfa başçılarının uzunmüddətli hakimiyyəti nəticəsində yaranmış və ənənəyə çevrilmişdir.

Mütləqiyyət rejiminin universal xarakterlərindən biri, dövlətin bir şəxs, Səudiyyə Ərəbistanında isə bir ailə tərəfindən idarə olunması faktıdır. Məhz bu fakt, icraedici hakimiyyətin mütləq xarakterini göstərir. Mütləqiyyət formasında idarəetmə üsulu olan dövlətlərin böyük əksəriyyəti neft yataqları

ilə zəngin olduğundan bu ölkələrdə əhalinin yaşayış səviyyəsi çox yüksəkdir.

### *Dövlət quruluşu formaları*

Siyasi hakimiyyətin həyata keçirilməsi vasitələrindən biri də dövlət quruluşu hesab olunur. Hər bir ölkənin daxili quruluşu, ərazilərinin statusu onun dövlət quruluşunun xarakterini müəyyən edir və hakimiyyət bölgüsünə birbaşa təsir edir. Daxili quruluşlarına görə müasir dünya dövlətlərini üç qrupa ayırırlar: ***Unitar*** dövlətlər (bütün ölkə ərazisində vahid, mərkəzi qanunverici, icra və məhkəmə idarəçilik sistemi, vahid qanunvericiliyi, vahid büdcə və Konstitusiyası olan dövlətlər); ***Federativ*** (dövlətlərin və dövlətə yaxın statusu olan birliklərin - ştat, kanton, respublika və s. birliyi olaraq, vahid qanunvericiliyə, icra və məhkəmə hakimiyyətinə malik olur, ölkənin federal qanunları bütün ərazidə işləyir. Lakin hər bir federasiya üzvü olan subyektin özünün məxsusi konstitusiyası, hakimiyyət orqanı və qanunverici səlahiyyəti də olur, ***Konfederativ*** dövlətlər üzv dövlətlərin (yaxud dövlət qurumlarının) müstəqilliyini saxlayır, hər bir subyekt mərkəzi hakimiyyətin necə yaradılmasını və ona hansı hüquqların verilməsini, mərkəz-bölgə səlahiyyətlərinin bölünməsini müqavilə ilə müəyyənləşdirir. Konfederasiya üzvləri bütün atributları ilə dövlət statusunu saxlayır.

Müasir dünyada ən çoxsaylı ölkə unitar quruluşa malikdir. Unitar sistemli ölkələrdən Avropada İtaliya, Macarıstan, Avstriyanı, federativ ölkələrdən Rusiya, ABŞ, Avstraliya, Hindistan, Kanadanı, konfederasiyalardan isə İsveçrəni göstərmək olar.

## §2. Dünyanın demokratikləşməsi tendensiyası və dövlətlərin siyasi rejimlərində baş verən dəyişikliklər

Müasir dünya nizamının və beynəlxalq siyasətin əsas tendensiyalarından birini demokratikləşmə təşkil edir. Bu prosesin əsas mahiyyəti dünyada və beynəlxalq münasibətlər sistemində demokratik dövlətlərin sayının və rolunun artırılması, demokratiya və insan hüquqları ilə məşğul olan beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarının yaradılması, himayə edilməsi və qeyri-demokratik hesab olunan dövlətlərin daxili həyatının liberallaşdırılmasında onlardan istifadə edilməsindən ibarətdir.

Hazırda dünyada dövlətlərin xüsusiyyətlərini öyrənən və təsnifatını aparan xüsusi institutlar və qeyri-hökumət təşkilatları fəaliyyət göstərir ki, onların əsas işi ayrı-ayrı parametrlər üzrə ölkələrin inkişaf səviyyəsini öyrənmək, demokratiya dərəcəsinə görə yerini müəyyən etməkdən ibarətdir. Bu kortəbii yaranan və kimlərinsə sadəcə ümumi marağı, hobbisi kimi həyata keçirilən bir proses deyil, müasir dünya siyasətində hegemon rol oynayan ABŞ və onun NATO üzrə müttəfiqləri olan Avropa dövlətlərinin dünya siyasətidir.

ABŞ-ın "Azad ev" ("Freedom House") təşkilatı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Avropa Şurası, bəzi beynəlxalq qeyri-hökumət təşkilatları bu işi öyrənir, proseslərə müdaxilə edir, ümumdünya siyasətinin formalaşması və həyata keçirilməsində bilavasitə iştirak edirlər. Beləliklə, bir vaxtlar dövlətlərin demokratik, yaxud qeyri-demokratik idarəçilik forması, xarakteri beynəlxalq münasibətlərin subyekti olan hər bir ölkənin daxili işi hesab olunurdusa və bu suverenlik beynəlxalq hüquqla qorunurdusa, indi demokratiya, insan hüquq və azadlıqları artıq dünya siyasətinin və elə həmin beynəlxalq ünsiyyətin əsas şərti və tələbinə çevrilməyə başlayıb.

Hazırda beynəlxalq aləmdə vüsət alan qloballaşma, regional inteqrasiya və transmilli dünya siyasətinin genişlənməsi dövlətlərin daxili və xarici siyasəti arasındakı bağlılığı və asılılığı da gücləndirmişdir. Dövlətlərin beynəlxalq münasibətlər sisteminə qatılması, öz maraq və mənafelərini beynəlxalq hüququn verdiyi imkanlar hesabına təmin etməsi, sivil birgəyaşayış normaları ilə tənzimlənən dünya siyasətində iştirakı onun daxili siyasətindən, demokratiya və insan hüquqlarına əməl etməsindən asılı vəziyyətə salınır. Bir sözlə, beynəlxalq aləmdə təmsil olunmaq, dünya dövlətləri birliyində layiqli yer tutmaq istəyən hər bir ölkə, daxildə öz vətəndaşlarının bütün dünyada qəbul olunmuş hüquq və azadlıqlarına, demokratik idarəçilik və vətəndaş cəmiyyəti prinsiplərinə əməl etməlidir.

İnteqrasiya dövlətlər arasından milli sədləri, qloballaşma investisiya, texnologiya və əmək resurslarının tətbiqi sahəsindəki məhdudiyyətləri, qapalı ölkə-dövlət dairəsini aradan qaldırdığı kimi, demokratikləşmə dövlətlərin daxili siyasi sisteminin, idarəçilik rejiminin universallaşması, bu sahədə dünya siyasəti səviyyəsinə qaldırılmış standart və prinsiplərə əməl olunmasını nəzərdə tutur.

Dünya siyasətşünasları dövlətlərin siyasi sisteminin demokratikləşməsi prosesinin üç əsas mərhələdən keçdiyini və hər mərhələnin özünəməxsus səciyyəvi xüsusiyyətlərə malik olduğu qənaətindədirlər.

ABŞ politoloqu S. Hantinqton "Demokratikləşmənin üçüncü dalğası" kitabında dünyada demokratikləşmənin: 1) 1820-1920; 2) 1940-1960; 3) 1970-2000-ci illər üzrə baş verməsi prosesini şərh edərək, ilk dəfə dövlətlərin demokratiya meyarları üzrə təsnifatını aparmışdır.

S. Hantinqton müxtəlif meyarları əsas götürərək dövlətləri demokratik, qeyri-demokratik və demokratiya istiqamətində inkişaf edən olmaqla üç kateqoriyaya ayırır və müvafiq olaraq dünya dövlətlərini bu sxem üzrə qruplaşdırır. Onun bölgüsünə

görə, demokratik dövlətlər dünyada mövcud olan bütün ölkələrin təxminən 1941-ci ildə 25%, 1996-cı ildə 40%, 2000-ci ildə isə 75%-ni təşkil edir. Təxminən oxşar rəqəmləri ABŞ-ın "Azad ev" təşkilatı da açıqlayır.

Tədqiqatçılar dünyada dövlətlərin siyasi sisteminin demokratikləşməsi və ümumiyyətlə, "demokratik dövlət" anlayışının meydana çıxmasını 1820-ci ildən – ABŞ Prezidenti V. Vilsonun "dünyanı demokratiya üçün təhlükəsiz etməliyik" çağırışından başlayırlar. Bu çağırışdan sonra və ümumiyyətlə, Birinci dünya müharibəsinin başlanmasına qədər (1914) ABŞ da daxil olmaqla Avropanın iyirmiyə yaxın ölkəsi daxili idarəçiliklərini qanunların aliliyinin, seçki institutlarının, parlament və çoxpartiyalı sistemin, azad fikir və düşüncə prinsiplərinin yaradılması və fəaliyyəti üzərində qururlar (təxminən 21 dövlət).

Sonrakı illərdə Almaniyada faşizmin meydana çıxması və bəzi Avropa ölkələrinin bu dövlətin təsiri altına düşərək demokratik idarəçilikdən imtina etməsi prosesi (1920-1940) Avropada demokratik dövlətlərin sayını azaldır.

İkinci dünya müharibəsinin sona çatması ilə dünyada demokratikləşmə dalğası güclənir və ideoloji-sinfi qarşıdurma dövrünün əsas faktorlarından birinə çevrilir. Bu dövrdə həm kapitalist, həm də sosialist dünyası demokratiyanı və insan hüquqlarını öz fəaliyyətlərinin əsas prinsipi kimi elan etsələr də, hər biri bu anlayışa özünəməxsus yanaşma nümayiş etdirməyə başlayır və müstəqillik əldə etmiş digər dövlətləri öz tərəfindən bu prosesə qoşmağa çalışırdı. Müstəmləkə rejimlərindən azad olunmuş dövlətlərin bəziləri ABŞ və SSRİ-nin başçılıq etdiyi blokların təsiri altına düşsə də, bəziləri öz müstəqil siyasətlərini yürüdürdülər. Bu ölkələr "bitərəf ölkələr bloku" adlanan birlik tərkibində öz daxili və xarici fəaliyyətlərini məxsusi prinsiplər üzərində qururdular.

Ümumən, 1945-1960-cı illəri tədqiqatçılar "dövlətlərin demokratiyadan geri çəkilməsi" dövrü kimi xarakterizə edirlər. Bu da onunla bağlı idi ki, Almaniyaya qarşı İkinci dünya müharibəsinin əsas ağırlığını daşımış SSRİ müharibədən sonra Şərqi Avropa və bəzi Asiya ölkələrində kommunist idarəçiliyinin bərqərar olmasına nail olur. Bundan başqa, SSRİ-nin təsirini və müharibədən sonrakı illərdə sosialist inqilabına artan rəğbəti aradan qaldırmaq üçün bəzi Qərbi Avropa ölkələri də daxili idarəçiliyi müəyyən qədər sərtləşdirir, kommunist meyilli qüvvələrin fəaliyyətini məhdudlaşdırırdı. Bu illərdə hətta Yunanıstan, Çili, Portuqaliya, İspaniya və s. kimi ölkələrdə avtoritar yönlü hakimiyyətlər formalaşmışdı.

S. Hantinqtonun və ABŞ-ın "Azad ev" təşkilatının fikrinə görə, 1970-ci illərdən dünyada demokratiyanın inkişafının üçüncü dalğası başlanır.

Demokratikləşmənin üçüncü dalğası artıq tək-tək dövlətləri deyil, bütün qitələri əhatə edərək Avropada, Asiyada, Afrikada və Latın Amerikasında çoxsaylı dövlətlərin demokratik yönlü inkişafı ilə səciyyələnmişdir. Bu illərdə Yunanıstanda, Argentinada, Cənubi Koreyada, Portuqaliyada avtoritar rejimlər süquta uğrayırlar. İspaniya, Dominikan Respublikası, Honduras, Braziliya, Peru, Çili, Türkiyə, Filippin, Tayvan, Tailand, Macarıstan, Çexoslovakiya, Polşa, Rumıniya, Bolqarıstan, Cənubi Afrika Respublikası demokratik inkişaf yoluna qədəm qoyurlar.

Sosializmin iflası və SSRİ-nin dağılmasından sonra Kuba istisna olmaqla keçmişdə bu düşərgəni təşkil edən bütün sosialist ölkələri, SSRİ tərkibinə daxil olan üç Baltikyanı ölkə, Rusiya, Ukrayna, Azərbaycan, Gürcüstan, Moldova, Ermənistan, Belarus demokratik inkişaf istiqaməti götürərək, dünya siyasətinin yeni tendensiyasına qoşulurlar.

ABŞ-ın "Azad ev" təşkilatının hesablamalarına görə, 1972-ci ildə dünyada 192 dövlət içərisində 42 demokratik və

“azad” ölkə var idisə, 2002-ci ildə onların sayı artıq 89-a çatır. Bu siyahıya SSRİ tərkibinə daxil olan respublikalardan yalnız üç Baltikyanı respublika salınıb. Qalan ölkələr – Azərbaycan, Rusiya, Gürcüstan, Moldova, Ukrayna və Ermənistan “Azad ev” təşkilatının təsnifatında “nisbətən azad”, Belarus, Qazaxıstan, Tacikistan, Türkmənistan və Özbəkistan “qeyri-azad” ölkələr sırasına daxil ediliblər.

Demokratik və “azad dövlət” anlayışının beynəlxalq aləmdəki bugünkü standartları bir neçə faktorla: hakimiyyətə gəlmənin və onu idarə etmənin rəqabət prinsiplərinə, açıq və demokratik siyasi mübarizəyə söykənməsi; dövlətin vətəndaşlarının əsas hüquq və azadlıqlarının konstitusiya və qanunlarla təmin edilməsi; hakimiyyət bölgüsü prinsiplərinin bərqərar olması; vətəndaşların dövlət həyatında, onun idarəçiliyində, daxili və xarici siyasətin formalaşması və həyata keçirilməsində iştirakı; hakimiyyətlərin tərkibinin formalaşmasında azad seçkilərin keçirilməsi və s. ilə ölçülür.

Tədqiqatçılar demokratikləşmənin inkişaf trayektoriyasının və dərinliyinin müəyyən edilməsi, ölkələrin siyasi sisteminin qiymətləndirilməsi metodologiyasına görə fərqli mövqe nümayiş etdirirlər. Keçmiş postsovet ölkələrində üçüncü demokratikləşmə dalğasının qiymətləndirilməsində əsas götürülən meyarlara münasibətdə fikir ayrılığı xüsusi nəzərə çarpır.

Rus politoloqu A.Melvilin fikrinə görə, müasir siyasi inkişaf səviyyəsinin və demokratikləşmənin müəyyən edilməsi məqsədilə ABŞ-ın “Azad ev” təşkilatının tətbiq etdiyi metodika bir çox faktorları nəzərə almadığı üçün konkret məkan və zaman çərçivəsində baş verən proseslərin obyektiv qiymətləndirilməsinə imkan vermir. Məsələn, postsovet məkanında Baltikyanı dövlətlərin demokratik inkişafı ilə Tacikistan və Türkmənistan kimi ölkələri heç cür müqayisə etmək olmaz. Bu ölkələrin hər birinin demokratik inkişafının sürəti və əhatəsi onların siyasi elitasının səviyyəsi, ictimaiyyətinin təhsili,

düşüncə tərzi, mədəniyyəti və adət-ənənələrindən bilavasitə asılıdır. Odur ki, Melvilin fikrinə görə, rejimlərin tipologiyası metodikası universal ölçü dəyərləri üzərində qurularaq, vahid bir "demokratikləşmə dalğası" altında aparıla bilməz. Demokratik transformasiyanın müxtəlif modelləri, keçid formaları düşünülməlidir ki, qlobal və transmilli demokratikləşmə yolunda ölkələrin müxtəlifliyini nəzərə ala bilsin.

A.Melvilin fikrinə görə, "Azad ev"-in təsnifatında ölkələri demokratik və "azad", yarımdemokratik, "nisbətən azad" və qeyri-demokratik olaraq üç qrupa bölmək və demokratikləşmənin sürətini bilavasitə "rejim başçıları" ilə bağlamaq düzgün metodologiya deyil. Postsovet ölkələrinin təcrübəsi sübut edir ki, rejimlərin qiymətləndirilməsi təsnifatının əsasında ölkələrin bütün parametrlərinin kompleks təhlili dayanmalıdır. Bu parametrlər sırasına A. Melvil:

- ölkələrin sovet sisteminə qədərki ənənələrini (sivilizasiya, mədəni, siyasi və s. fərqləri) və demokratik təcrübəsini;
- xarici təsir vasitələrinin onların daxili proseslərinə təsirini;
- başlanğıc sosial-iqtisadi, siyasi və mədəni inkişaf imkanlarının müxtəlifliyini və onların daxili transformasiyaya təsirini;
- avtoritar rejimlərin dəyişdirilməsi üçün dövlətlərdə həyata keçirilən hərəkat və ictimai çıxışların xarakterini;
- ölkələrin seçim imkanlarına təsir edən daxili və xarici təsirlərin intensivliyini və s. aid edir.

Əlbəttə, A.Melvillə razılaşmamaq mümkün deyil. Çünki demokratiyanın səviyyəsini və əhatə dairəsini belə sadə meyarlarla və üç pilləli təsnifatla müəyyənləşdirmək çox çətindir. Müasir dünyada gedən transformasiyalara və qlobal demokratikləşməyə də təkcə Qərb ölkələrinin arzusu və təsirinin nəticəsi kimi yanaşmaq düzgün olmazdı. Demokratikləşmənin tam, yaxud məhdud səviyyəli olmasını subyektiv mülahizələr

əsasında təsnif edən “Azad ev” təşkilatının “Minilliyin çağırışı” adlı hesabatında Azərbaycan digər postsovet respublikaları – Rusiya, Ukrayna, Gürcüstan, Ermənistan, Moldova, Qırğızıstanla bərabər “nisbətən azad” ölkələr sırasına aid edilib. Əsas qiymət meyarı kimi, siyasi və vətəndaş hüquqlarının qismən məhdudlaşdırılması, hüququn aliliyinin zəif təmin edilməsi, korrupsiya hallarının, milli və vətəndaş qarşıdurmasının mövcud olmasını götürən bu təsnifatda həm subyektivlik halları, həm də prosesə kompleks yanaşmanın olmaması diqqəti cəlb edir. İnkişaf etmiş və demokratik inkişaf sahəsində mühüm bir tarixi yol keçmiş Qərb ölkələrinin standartları ilə totalitar rejimlərdən yenicə xilas olmuş və keçid mərhələsini yaşayan ölkələrdə gedən proseslərə yanaşmaq düzgün deyil. Demokratik inkişaf tədrici transformasiya və uzunmüddətli ardıcıl fəaliyyətin həyata keçirilməsini tələb edən bir prosesdir. Bu prosesdə dövlətin siyasi, iqtisadi, sosial, mədəni həyatının modernləşməsi əhalinin maarifləndirilməsi, təfəkkürünün və vərdişlərinin tədricən dəyişdirilməsi, ictimai davranış normalarının yeniləşməsi ilə birlikdə həyata keçirilməlidir. “Azad ev” təşkilatının “elektoral demokratiyası” (əsasən formal elektoral mərasimlərin və formal demokratiya institutlarının, normalarının mövcudluğu) bu mənada qətiyyən postsovet ölkələrinin həyatında yaşanan prosesləri obyektiv qiymətləndirmək üçün kifayət edə bilməz.

Demokratiya başlanğıcı olan, lakin sonu və son imkanları hələ heç kim tərəfindən dəqiq müəyyən edilməyən uzun bir inkişaf yoludur. Dövlət idarəçiliyinin və cəmiyyət həyatının tamamilə yeni bir keyfiyyət səviyyəsi mahiyyəti daşıyan demokratiya yolunu təkcə demokratik seçki, insan hüquq və azadlıqlarının deklorativ qorunması, qanunların aliliyi ilə bağlamaq düzgün deyil. Bu proses hakimiyyət orbitinə cəlb olunmuş bütün sahələrin şəffaf idarəsindən tutmuş, hər bir vətəndaşın öz hüquq və vəzifələrini, məsuliyyətini və hərəkətlərini

dərk edərək, mövcud qanunlara və ictimai davranış qaydalarına uyğunlaşaraq hərəkət etməsidir. Demokratiya cəmiyyəti təşkil edən fiziki və hüquqi subyektlərin hüquq və məsuliyyətinin harmoniyası, qarşılıqlı təminatı və qarşılıqlı gözlənilməsi (əməl edilməsi), siyasi və fikir plüralizmi, insanların qarşılıqlı maraq və mənafelərinin, cəmiyyətin ayrı-ayrı qrupları arasındakı fərqli dəyərlərin ortaq təminatıdır. Bütün bunlara çatmaq üçün təkcə dövlətin və hakimiyyətin, xarici demokratiya institutlarının və təşkilatlarının səyi kifayət deyil. Bu prosesə bütün cəmiyyətin şüurlu şəkildə qoşulması tələb olunur ki, buna da zaman lazımdır.

Beləliklə, bütün dünyada siyasi sistemlərin transmilli demokratikləşmə dalğası başlanıbdır. Dünyanın demokratik inkişaf tarixində üçüncü hesab olunan bu mərhələnin (dalğanın) əsas xarakterik xüsusiyyətlərindən biri onun qlobal miqyaslı olmasındadır. Hazırda dünyanın bir neçə ölkəsi istisna olmaqla, əksər dövlətlərdə bu və ya digər formada demokratikləşmə prosesləri gedir. Düzdür, müasir dünyada demokratikləşmənin müəyyən standart tələbləri və ölçüləri mövcud olsa da, hər bir ölkənin özünəməxsus milli mentaliteti, tarixi, sosial-iqtisadi, siyasi və mədəni inkişaf xüsusiyyətləri, qeyri-bərabər başlanğıc imkanları və s. özəllikləri nəzərə alınarsa, onların demokratik inkişafını və onun sürətini vahid bir standart üzrə qiymətləndirmək düzgün olmazdı. Belə ölkələrdə demokratik transformasiyalar məxsusi sxem və daxili qanunauyğunluqlara müvafiq olaraq daha çox qlobal demokratikləşmə kimi deyil, milli çərçivədə həyata keçirilir.

Əslində bu gün dünyada demokratikləşmənin əsas himayədarı hesab olunan ABŞ və Avropa bütün ölkələri eyni vaxtda, eyni şəraitdə və vahid standartlara uyğun olaraq demokratiyaya transformasiya etmək fikrindən uzaqdırlar. Odur ki, onların Şərqi Avropaya, keçmiş SSRİ respublikalarına, Cənub-Şərqi Asiya, Latın Amerikası və Afrika ölkələrinə, İslam və

ərəb dünyasına yönəlmiş demokratik transformasiya proqramları tamamilə bir-birindən fərqlənir. Lakin buna baxmayaraq, bütün bu proqramları vahid bir sistem, prinsip və standart birləşdirir - dövlət idarəçiliyinin demokratikləşməsi, insan və vətəndaş hüquqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti və siyasi plüralizmin bərqərar olması. Bu prinsiplərin reallaşması, bəzi tədqiqatçıların düşündüyü kimi, "nə vaxtsa dünya dövlətlərinin universal və vahid bir demokratiya modelinə gətirəcəyi fikri" hələlik illüziyadan başqa bir şey deyil.

Məlum olduğu kimi, dünyada mövcud olan idarəçilik sistemlərinin, rejimlərinin yüz illərlə davam edən tarixi, əhali arasında normaya çevrilmiş özünəməxsus dəyərləri, hər bir xalqın adət-ənənəsinə söykənən xüsusiyyətləri mövcuddur. Demokratik inkişaf da həmin ölkələrin hər birində birbaşa "transmilli xüsusiyyət" və standartlarla deyil, özünəməxsus formada həyata keçirilir. Bəzilərində diktatura rejimlərinin liberallaşması *(yuxarının təşəbbüsü ilə mətbuat və informasiya üzərində senzuranın yumşaldılması, qeyri-hökumət təşkilatları və vətəndaş cəmiyyəti təşəbbüslərinə meydan verilməsi, siyasi məhbus və siyasi qaçqınların bağışlanması, gəlirlərin bölüşdürülməsi prosesinin şəffaflaşdırılması, siyasi müxalifətin fəaliyyətinə dözüm nümayiş etdirmək və s.)* şəklində həyata keçirilir. Digərlərində isə bu proses demokratik institutlaşmanın yaradılması və onun standartlarına əməl edilməsi şəklində (hakimiyyətə gəlmək istəyən opponentlərə siyasi mübarizə üçün şəraitin yaradılması, hakimiyyət bölgüsünün, qanunların aliliyinin, azad seçkilərin təmin edilməsi və s.) reallaşır.

Transmilli demokratikləşmə dalğası əsasən o ölkələri əhatə edir ki, onlarda artıq neçə illərdir, liberallaşma prosesi həyata keçirilib və ictimai fikir, ölkə əhalisinin çoxu demokratik institutlaşma işinə hazırdır. Yəni leqal, legitim hakimiyyət və müxalifət münasibətləri, qalibin və məğlub olanın haqlarının qorunması və s. məsələlər ictimaiyyətin əsas tələbi olub.

Dünya politoloqları hazırda yer üzündə gedən demokratikləşmə prosesinin obyektiv qanunauyğun və qlobal xarakter kəsb etməsi, müasir dünya siyasətinin, beynəlxalq münasibətlər sisteminin əsas aparıcı tendensiyasına çevrilməsi fikrində yekdildirlər.

Demokratikləşmə dalğasının müasir dünyada vüsət almasına və ictimai rəğbət qazanmasına təsir edən faktorlar sırasına:

- xarici faktorlar – demokratik quruluşların və demokratik dəyərlərin insanların istək və arzularına cavab verməsi, onların sivil birgəyaşayışını təmin etməsi, vətəndaş-dövlət münasibətlərini tənzimləyən ən optimal normaya çevrilməsi haqqında bütün dünyada geniş şəkildə həyata keçirilən təbliğat;

- son illər demokratik dəyər daşıyıcısı olan dövlətlərin digər quruluşlu və rejimli dövlətlərə nisbətən iqtisadi, siyasi, humanitar, sosial və mədəni inkişaf sahəsində daha çox müvəffəqiyyət qazanması və bu faktın dünya ictimaiyyəti arasında geniş təbliğ olunması;

- demokratiya daşıyıcısı olan institutların, hökumətlərarası və qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin demokratik inkişafı stimullaşdırması sahəsində geniş fəaliyyəti və onların vahid mərkəzdən (ABŞ və Avropa ölkələri) idarə olunması;

- avtoritar və qeyri-demokratik rejimlərin özünü doğrultmaması və onların əleyhinə bütün dünyada aparılan geniş transmilli təbliğatı və s. aid edirlər.

Bundan başqa, dünyanın ən inkişaf etmiş dövlətlərinin siyasi, iqtisadi, sosial və mənəvi inkişaf modellərinin bir çox geridə qalmış ölkələrin daxili inkişaf problemlərinin aradan qaldırılması sahəsində "özünü doğrultmuş model" kimi tətbiq olunması dünyada insanların seçiminə və fəaliyyətinə müsbət təsir göstərmişdir. Bu da müvafiq olaraq daxili problemlərini həll edə bilməyən ölkələrin ictimaiyyətinin və elitasının öz

hökumətlərinə demokratik modernləşmə tələbini stimullaşdırmışdır.

Ən əsası isə, müasir beynəlxalq münasibətlərin və ayrı-ayrı ölkələrin bu sistemdəki yerinin müəyyən edilməsi bilavasitə onların daxili idarəçilik prinsipləri, demokratikləşməyə münasibəti ilə müəyyən olunduğundan, xarici faktorların bu prosesə təsiri xüsusi əhəmiyyətə malikdir. Yeni dünya nizamının formalaşdığı müasir beynəlxalq münasibətlər sisteminin əsas xarakterik xüsusiyyətlərindən birini məhz bu faktor təşkil edir.

Əlbəttə, dünya politoloqları transmilli demokratikləşməyə təsir baxımından xarici və daxili faktorların rolu məsələsində vahid bir rəyə gələ bilmirlər. Çünki konkret zaman, məkan və şəraitdən asılı olaraq bu faktorlardan biri aparıcı, digəri köməkçi (və yaxud əksinə) rolunda çıxış edir. Məsələn, 1953, 1956, 1968-ci illərdə Almaniya Demokratik Respublikası, Macarıstan və Çexoslovakiyada rejimlərin transformasiyasının qarşısının alınması daha çox xarici faktor kimi çıxış etmişdirsə, 1987-1991-ci illərdə SSRİ-nin özündə gedən transformasiya daxili faktorların rolunu qabarıq şəkildə nümayiş etdirmişdir. Yaxud İkinci dünya müharibəsindən sonra Almaniya, İtaliya, Yaponiya, Şərqi Avropa ölkələrində qurulan rejimlər, onların inkişaf yönümləri bilavasitə xarici faktorların təsiri altında baş vermişdir.

Hər bir ölkədə siyasi sistemin demokratikləşməsinə təsir edən amillər müxtəlif formada təzahür edir. Bunların sırasında ən geniş yayılmışları birbaşa məcburetmə (xarici), inandırma (həm xarici təbliğat yolu ilə, həm də daxildə ictimaiyyətlə, ayrı-ayrı insan qrupları ilə iş aparmaqla) və stimullaşdırma (daxili və xarici) formaları hesab olunur.

Demokratikləşmə həm bütün sahələrdə eyni zamanda (dövlətin siyasi, iqtisadi, sosial və s. sahələrində radikal və yaxud tədricən transformasiya ilə), həm də ayrı-ayrı sahələrdə ardıcıl olaraq (əvvəl, məsələn, iqtisadi sahə, sonra digərləri)

həyata keçirilə bilər. Əlbəttə, bu proseslərin həyata keçirildiyi ölkənin, regionun xüsusiyyəti, həmin bölgədə reallaşan yerli və transmilli layihələrin səviyyəsi, geostrateji vəziyyət, qlobal iqtisadi proseslər, informasiya texnologiyaları və başqa faktorlardan asılı olaraq demokratikləşmənin həm səviyyəsi (əhatə dairəsi), həm də sürəti müəyyənləşir.

Müasir qloballaşma, dövlətlərarası və dövlətüstü qarşılıqlı asılılığın və əlaqələrin mürəkkəb vəziyyəti dünyada vüsət alan demokratikləşmə prosesinə də ciddi təsir göstərərək, onun transmilli xarakter almasına səbəb olmuşdur. Xarakterinə və əhatə dairəsinə görə, demokratikləşmə hər bir ölkənin daxili işi və seçimi kimi görünsə də, bütövlükdə bu proses beynəlxalq və transmilli səviyyədə öz təsdiqini tapmalı, demokratikləşən ölkənin dünyanın demokratik iqtisadi, siyasi, hüquqi və sosial dairəsinə inteqrasiyası üçün beynəlxalq dairələrin qeyri-rəsmi sanksiyası alınmalıdır. Qlobal dünyanın tələblərinə müvafiq olaraq dövlətlərarası əlaqələrin getdikcə genişlənməsi və intensivləşməsi, daxili və xarici siyasət arasında qarşılıqlı asılılığın artması demokratikləşmənin şərtlərinin və kompleks faktorlarının reallaşmasını artıq bir ölkə çərçivəsində qeyri-mümkün edir və onun tənzimlənməsi istər-istəməz transmilli xarakter alır. Demokratik dövlətlər öz dairələrinə, qarşılıqlı əlaqələrinə, əsasən, o dövlətləri cəlb etmək istəyirlər ki, onların demokratikləşmə prosesləri daha çox ümumi standartlara cavab verir. Beləliklə, demokratikləşmə milli seçim və fəaliyyət çərçivəsini aşaraq, ümumdünya və transmilli tendensiyaya transformasiya edir.

Dünya politoloqları demokratikləşmənin transmilli xarakteri məsələsində yekdil olsalar da, onun gələcək nəticələrinin proqnozlaşdırılması baxımından bir neçə fikir irəli sürürlər. Bir qrup tədqiqatçı hesab edir ki, dünyanın demokratikləşməsi dövlətlərarası münasibətlər sahəsində mövcud olan münaqişələrin aradan qalxmasına, dünyada sülh və ümumi tərəqqinin

təmin olunmasına xidmət edəcək. Onların fikrinə görə, hazırkı dünyada insanlar və dövlətlər arasında baş verən bütün münaqişələrin və anlaşılmazlıqların kökündə "qeyri-demokratik" rejimlər dayanır.

Digər qrup tədqiqatçılar hesab edir ki, demokratikləşmə prosesi transmilli xarakter kəsb etsə də, Vestfal sistemindən (1648) başlayaraq dövlətlərarası səhnədə cərəyan edən 350 illik beynəlxalq münasibətlər tarixi sübut edir ki, bu prosesin başında "millət-dövlət" faktoru dayanaraq insanlığı idarə etmişdir. Onların fikrinə görə, "dövlət-millət" faktoru son dövrlərdə qloballaşma nəticəsində müəyyən qədər sıxışdırılır və bu işdə beynəlxalq institutların rolu genişləndirilir.

Beləliklə, fikir ayrılığı yaradan məsələ odur ki, demokratik dövlətlərin sayının artması və fəaliyyət dairələrinin genişlənməsi onların bütün suveren dövlət haqlarının (BMT Nizamnaməsinə uyğun olaraq) qorunması yolu ilə gedəcək, yoxsa beynəlxalq qurumların bu işi tamamilə öz əlinə alması ilə müşahidə olunacaq. Şərti olaraq "kosmopolit demokratiya" adlandırılan belə prosesdə demokratiyanın həm normalarının hazırlanması, həm də bütün dövlətlərin ərazisində bu normaların tətbiqinə nəzarət edilməsi beynəlxalq hökumətlərarası və qeyri-hökumət təşkilatlarına həvalə edilir ki, bu da ənənəvi "dövlət-millət" hüquqlarının məhdudlaşdırılması kimi qiymətləndirilir.

Qloballaşma prosesi dövlətlər arasından iqtisadi, siyasi, sosial, maliyyə, informasiya sədlərinin silinməsini, universal qanunvericilik və dövlətlərarası münasibətlər sisteminin yaranmasını stimullaşdırdığı kimi, əlbəttə, demokratiya və demokratikləşmə sahəsində də universal dəyərlərin formalaşması və tətbiqini sürətləndirir. Son on ildə dünyada demokratik dövlətlərin sayının sürətlə artması və beynəlxalq münasibətlər sistemində onların dairəsinin və nüfuzunun genişlənməsi artıq bir tendensiya kimi müşahidə olunur.

Müstəqilliyini əldə etdikdən sonra (1991) dövlət quruculuğu prosesinin həyata keçirilməsi, dövlətin əsaslarının yaradılması – iqtisadi, siyasi, sosial, mədəni həyatın bütün sahələrinin yenidən qurulması, ölkənin daxili və xarici siyasətinin formalaşdırılması Azərbaycan dövlətinin qarşısında dayanan ən mühüm vəzifələr idi. Bütün bunlar ölkə rəhbərliyindən, siyasi institutlardan və ictimai təşkilatlardan məsuliyyətli yanaşma və ciddi seçim tələb edirdi. Azərbaycanın hansı inkişaf yolunu seçməsi, dövlət-vətəndaş münasibətlərinin və siyasi idarəçiliyin hansı modelinə üstünlük verməsi təkcə onun daxili inkişafını deyil, həm də beynəlxalq aləmlə əlaqələrini, dünya dövlətləri ilə münasibətlərini müəyyən etməli idi.

# II FƏSİL
# AZƏRBAYCANIN SİYASİ SİSTEMİ: FORMALAŞMASI VƏ ƏSAS XARAKTERİSTİKASI

## Ümumi məlumat





Azərbaycan ərazisində aparılan arxeoloji qazıntılar, tapılan yaşayış məskənləri və qədim insanların qalıqları, maddi-mədəniyyət əşyaları və s. bu diyarın dünyanın ən qədim insan məskənlərindən biri olduğunu sübut edir. Ölkə ərazisi arxeoloji abidələrlə son dərəcə zəngindir. Tədqiqata cəlb edilmiş *Azıx, Tağlar, Damcılı, Daşsalahlı, Qazma və s. kimi* mağaralarda, habelə başqa arxeoloji abidələrdə aşkar olunan maddi-mədəniyyət nümunələri, o cümlədən 300-400 min il bundan əvvəl yaşamış qədim insanın - *Azıx* adamının *(Azıxantrop)* çənə sümüyü *Azərbaycanın da* ibtidai insanların formalaşdığı mühüm ərazi olduğunu sübut edir.

Azərbaycan, eyni zamanda dünyanın ən qədim dövlətçilik ənənələrinə malik olan ölkələrindən biri hesab olunur. Tədqiqatçılar bu xalqın, təqribən 5 min illik dövlətçilik tarixinə malik olması qənaətindədirlər. Azərbaycan ərazisində, hələ eramızdan əvvəl IV minilliyin sonu - III minilliyin əvvəllərindən başlayaraq *Urmiya* hövzəsində yaranmış ilk dövlət qurumları və ya etnik-siyasi birliklər bütün regionun hərbi-siyasi tarixində mühüm rol oynamışlar.

Eramızdan əvvəl I minillikdə - bizim eranın I minilliyinin əvvəllərində Azərbaycan torpaqlarında *Manna, İskit (Skit, Skif)* şahlığı, *Atropatena və Albaniya* kimi qüvvətli dövlətlər yaranmış və fəaliyyət göstərmişlər. Həmin dövlətlər sonrakı dövrdə Azərbaycanda dövlət idarəçiliyi mədəniyyətinin daha da yüksəlməsinə, ölkənin iqtisadi-mədəni tarixinə, eləcə də vahid xalqın təşəkkülü prosesinə mühüm təsir göstərmişlər.

*Azərbaycan* III əsrdə *Sasani-İran imperiyası,* VII əsrdə isə *Ərəb xilafəti* tərkibinə qatılmış, ölkə ərazisinə *İranın və Ərəbistanın* içərilərindən çoxsaylı İran və ərəb mənşəli əhali köçürülmüşdür. Eramızın ilk yüzilliklərində ölkə əhalisinin əksəriyyətini təşkil edən və hərbi-siyasi cəhətdən daha mütəşəkkil, daha qüvvətli olan yerli *türk kökənli etnoslar* (onların arasında oğuz türkləri üstünlük təşkil etmişlər) vahid azərbaycan xalqının təşəkkülü prosesində mühüm rol oynamışlar. Eramızın ilk əsrlərindən başlayaraq, türk dili Azərbaycan ərazisində yaşayan digər azsaylı xalqlar, etnik qruplar arasında da başlıca ünsiyyət vasitəsinə çevrilmiş, şimalla cənub arasında birləşdirici, əlaqələndirici rol oynamışdır.

VII əsrdə *İslam dininin* qəbul olunması ilə Azərbaycanın tarixi müqəddəratında əsaslı dönüş yaranmışdır. Belə ki, *İslam dini* vahid xalqın və dilin təşəkkülünə güclü təkan vermiş, bu prosesin sürətlənməsinə həlledici təsir göstərmişdir. Türk və qeyri-türk etnosları arasında dini birliyin yaranması, onların yayıldığı bütün Azərbaycan ərazisində vahid adət-ənənələrin təşəkkülünə səbəb olmuşdur.

Ərəb xilafətinin tənəzzülündən sonra - IX əsrin ortalarından başlayaraq Qafqazda, habelə bütün Yaxın və Orta Şərqdə türk-islam sivilizasiyasının təsiri daha da artmışdır. *Sacilər, Şirvanşahlar, Salarilər, Rəvvadilər, Şəddadilər, Şəki hakimləri, Səlcuqlar, Eldənizlər, Monqollar, Elxanilər-Hülakular, Çobanilər, Cəlayirlər, Teymurilər, Osmanlılar, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər, Əfşarlar, Qacarlar* və başqa türk-

islam sülalələrinin idarə etdikləri dövlətlər təkcə Azərbaycanın və bütövlükdə Cənubi Qafqazın deyil, eyni zamanda, bütün Yaxın və Orta Şərqin dövlətçilik tarixində dərin iz qoymuşlar.

XV-XVIII əsrlərdə *Şərqi*n geniş ərazilərinə hakim olan *Qaraqoyunlu, Ağqoyunlu, Səfəvi, Əfşar və Qacar* imperiyaları kimi dövlətlər bilavasitə Azərbaycan sülalələri tərəfindən idarə olunmuşdur. Bu mühüm amil Azərbaycanın daxili və beynəlxalq əlaqələrinə müsbət təsir göstərmiş, xalqın hərbi-siyasi təsir dairəsini gücləndirmiş, maddi və mənəvi varlığının daha da inkişaf etməsinə əlverişli şərait yaratmış, dilinin fəaliyyət meydanını genişləndirmişdir.

Azərbaycanın böyük dövlət xadimi *Uzun Həsənin (1468-1478)* hakimiyyəti illərində *Ağqoyunlu* imperiyası bütün Yaxın və Orta Şərqdə qüdrətli hərbi-siyasi amilə çevrilmiş, Azərbaycanın dövlətçilik mədəniyyəti daha da inkişaf etmişdir.

XV əsrin sonu - XVI əsrin əvvəllərində *Azərbaycan* dövlətçiliyi özünün tarixi təkamülündə yeni mərhələyə qədəm qoymuşdur. Bu dövrdə görkəmli dövlət xadimi *Şah İsmayıl Xətai (1501-1524),* şimallı-cənublu bütün Azərbaycan torpaqlarını öz hakimiyyəti altında birləşdirməyə müvəffəq olmuş və beləliklə paytaxtı *Təbriz* şəhəri olan vahid, mərkəzləşdirilmiş Azərbaycan dövləti - *Səfəvi imperiyası* meydana gəlmişdir.

*Sonrakı illərdə Şah İsmayıl, Şah Təhmasib, Şah Abbas* və digər Səfəvi hökmdarlarının həyata keçirdikləri uğurlu islahatlar, habelə daxili və xarici siyasət nəticəsində *Səfəvi dövləti* Yaxın və Orta Şərqin ən qüdrətli imperiyalarından birinə çevrilmişdir.

Səfəvi dövlətinin süqutundan sonra hakimiyyətə gələn görkəmli Azərbaycan sərkərdəsi *Nadir şah Əfşar (1736-1747)* keçmiş *Səfəvi imperiyasının* sərhədlərini daha da genişləndirmiş, hətta 1739-cu ildə *Dehli* də daxil olmaqla *Şimali Hindistanı* ələ keçirmişdir.

*Nadir şahın* ölümündən sonra onun idarə etdiyi geniş ərazili imperiya süquta uğramış, nəticədə Azərbaycan torpaqlarında yerli xırda dövlətlər *(xanlıqlar və sultanlıqlar)* yaranmışdır.

XVIII əsrin sonunda *İranda* hakimiyyətə gəlmiş *Azərbaycan* sülaləsi olan *Qacarlarla (1796-1925) Cənubi Qafqazı* işğal etməyə çalışan *Rusiya* arasında uzun sürən müharibələr dövrü başlanmış, nəticədə *Gülüstan (1813) və Türkmənçay (1828)* müqavilələrinə əsasən *Azərbaycan* iki imperiya arasında bölüşdürülmüşdür *(Şimali Azərbaycan Rusiyaya, Cənubi Azərbaycan isə Qacarların idarə etdiyi İran şahlığına qatılmışdır)*.

*Rusiya* işğal etdiyi *Azərbaycan* torpaqlarına, xüsusən *Qarabağın* dağlıq rayonlarına, keçmiş *İrəvan və Naxçıvan* xanlıqlarının ərazisinə qonşu ölkələrdən kütləvi surətdə erməni əhalisini köçürmüş, bununla da Azərbaycan torpaqlarında gələcək erməni dövlətinin əsası qoyulmuşdur.

XX əsrin əvvəllərində Şimali Azərbaycanda azadlıq mübarizəsi misli görünməmiş faciələrlə nəticələnmiş, burada hakimiyyəti ələ keçirən daşnak-bolşevik hökuməti 1918-ci ilin martında Azərbaycan xalqına qarşı dəhşətli soyqırımı həyata keçirmişdir.

Lakin Türkiyənin köməkliyi ilə Azərbaycanda azadlıq hərəkatı qalib gəlmiş və 28 may 1918-ci il tarixində müsəlman şərqində ilk parlamentli respublika olan *Azərbaycan Xalq Cümhuriyyəti* yaranmışdır.

1920-ci il aprel ayının 28-də *Sovet Rusiyasının* hərbi təcavüzü nəticəsində müstəqil Azərbaycan dövlətçiliyinə son qoyulmuş və Cümhuriyyət ərazisində *Azərbaycan Sovet Sosialist Respublikasının (Azərbaycan SSR)* yaradıldığı elan olunmuşdur.

Azərbaycan xalqının sovet dövrü (1920-1991) bütövlükdə ümumi imperiya çərçivəsində mövcud olsa da, xalqın maddi-mənəvi inkişafı, respublika həyatında mühüm sosial-iqtisadi

uğurları ilə yadda qalmışdır. Xüsusən, 1969-cu ildə Azərbaycana rəhbər təyin edilmiş görkəmli dövlət xadimi *Heydər Əliyevin* bütün sahələr üzrə həyata keçirdiyi fundamental islahatlar və əzəmətli quruculuq işləri, milli şüur və milli qürur hisslərinin oyanışına, nəticədə isə XX yüzilliyin 70-80-ci illərində Azərbaycan xalqının milli azadlıq hərəkatının yeni yüksəliş mərhələsinə daxil olmasına səbəb olmuşdur.

18 oktyabr 1991-ci il tarixində *"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında",* Konstitusiya Aktı qəbul edilmiş və bu tarix müasir Azərbaycan dövlətinin müstəqilliyinin bərpası günü sayılır.

*Cənubi Qafqazda, Xəzər dənizi* hövzəsində yerləşən *Azərbaycan Respublikasının* paytaxtı *Bakı* şəhəridir.

Ölkənin ərazisi 86,600 km², əhalisi *(2013)* 9,356,500 nəfərdir *(əhali sıxlığı* 103 *nəfər/km²).*

*Azərbaycan Respublikasının* rəsmi dövlət dili *Azərbaycan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.731 - yüksəkdir *(76-cı yer).*

## §1. Azərbaycanın siyasi sisteminin əsas xarakteristikası

### *Siyasi sistemini şərtləndirən əsas amillər*

Müstəqilliyinin ilk illərində (1991-1993) Azərbaycanın dövlət siyasəti əsasən deklarativ xarakter daşıdığından, dünya ölkələrinin onunla əlaqələri də qeyri-müəyyən idi. Müstəqil dövlətin əsas seçiminin göstəricisi olan ali qanun – Konstitusiya qəbul edilməmişdi, seçkili orqan – yeni parlament formalaşdırılmamışdı, dövlət idarəçiliyinin, vətəndaş-dövlət münasibətlərinin, siyasi institutların fəaliyyətini tənzimləyən qanunlar qəbul edilməmişdi. Bütün bu qeyri-müəyyənlik və ölkə daxilində başlanan vətəndaş müharibəsi, milli-vətəndaş qarşıdur-

ması, idarəçilik anarxiyası 1993-cü ildə siyasi hakimiyyətin ciddi böhranına və iflasına gətirib çıxardı.

1993-cü ildə *Heydər Əliyevin* ikinci dəfə hakimiyyətə gəlişi ilə Azərbaycan Respublikasında bütün sahələrdə dövlət quruculuğu prosesləri başlandı. Dövlət quruculuğunun mühüm sahələrindən biri olan siyasi sistemin formalaşdırılması, idarəçilik institutlarının yaradılması, demokratik idarəçilik rejiminin seçilməsi və bütün bunların ölkənin yeni Konstitusiyasına salınması da məhz bu dövrə təsadüf etdi. Keçən dövrdə bu sistem xalqın milli xüsusiyyətlərini və respublikanın tarixi şəraitinin reallıqlarını özündə əks etdirərək tamamlanmış və ciddi inkişaf yolu keçmişdir.

1995-ci il noyabrın 12-də Azərbaycan Respublikasının yeni Konstitusiyasının qəbul edilməsi və ilk çoxpartiyalı sistem əsasında parlamentin yaradılması ilə Azərbaycanın siyasi sisteminin formalaşması hüquqi cəhətdən əsasən başa çatmışdır.

Siyasi sistem bütün ölkələrdə cəmiyyətin siyasi həyatının institusional-hakimiyyət, təşkilatlandırıcı və istiqamətverici əsası kimi çıxış edir. Siyasi sistem özündə siyasi hakimiyyətin təşkilini, bütöv cəmiyyətlə, ayrı-ayrı siyasi və ictimai institutlarla dövlət arasındakı münasibətləri ehtiva edir, cəmiyyətin vahid orqanizm kimi mövcud olmasına təminat yaradır, proseslərin istiqamətlərini müəyyənləşdirir, subyektlərin vahid və inteqrasiya olunmuş məcmusunu ifadə edir.

Azərbaycanın siyasi sistemi demokratik idarəçilik rejiminə malik ölkələrdə olduğu kimi bir-biri ilə qarşılıqlı əlaqədə olan daxili struktur elementlərdən, daha doğrusu alt sistemlərdən *(institusional; normativ-tənzimləyici; kommunikativ; siyasi-ideoloji)* təşkil olunmuşdur.

Azərbaycanın müasir siyasi sisteminin banisi, ümummilli lider *Heydər Əliyev* öz çıxışlarında daim vurğulayırdı ki, demokratik xarakter daşıyan siyasi sistemlər o zaman üstün imkanlara və xüsusiyyətlərə malik olur ki, bütün milli və

vətəndaş resurslarını ictimai-siyasi proseslərə cəlb edə bilsin. 1993-cü ildən başlayaraq Azərbaycanın siyasi sistemində vətəndaşların ictimai-siyasi həyatda rolu artırıldı, insanların bir seçici, siyasi partiya üzvü, siyasi fəal və s. kimi proseslərdə iştirakı təmin olundu.

Lazımi siyasi resursları özünə cəlb etməsi Azərbaycanın demokratik siyasi sisteminin mövcudluğunun və inkişafının əsasında dayanan mühüm faktor oldu. Bu resurslar siyasi hakimiyyətə, bir tərəfdən vətəndaşların, sosial qrupların və siyasi institutların davranışını tənzimləməyə və koordinasiya etməyə, vətəndaş cəmiyyətinə məqsədyönlü şəkildə təsir göstərməyə şərait yaratdı. Digər tərəfdən vətəndaşların və sosial qrupların ictimai fayda götürməsini gerçəkləşdirdi və cəmiyyətin balanslı inkişafını təmin etdi.

Azərbaycanın siyasi sisteminin digər xarakterik xüsusiyyətlərindən biri də onun ictimaiyyətin müxtəlif tələblərini, vətəndaşların və sosial qrupların fərqli maraqlarını və mənafelərini nəzərə almasında, dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsində ümumi maraqlar balansını gözləməsindədir.

Bütün bunların təmin edilməsinin əsas şərti isə ilk növbədə ölkənin siyasi sisteminin açıq, demokratik və hüquqi xarakter daşıması, dövlətlə vətəndaş cəmiyyəti arasındakı münasibətlərin demokratik normalar çərçivəsində tənzimlənməsidir.

### *Dövlət quruluşu*

Konstitusiyaya görə Azərbaycan dövləti ***demokratik, hüquqi, dünyəvi*** və ***unitar*** respublikadır.

Azərbaycan Respublikasının demokratik dövlət olmasını şərtləndirən əsas meyarlardan biri qeyd etdiyimiz kimi xalqın (seçicinin) hakimiyyətin əsas mənbəyini təşkil etməsi və idarəçilik mandatının yalnız xalqa məxsus olmasıdır.

Konstitusiyaya görə Azərbaycan Respublikasında ***dövlət hakimiyyətinin əsas mənbəyi xalqdır.*** Ümumbəşəri dəyərlərə

əsaslanaraq özünün siyasi sistemini və idarəetmə formasını müəyyənləşdirmək Azərbaycan xalqının suveren hüququdur.

Azərbaycan Respublikasında şəxsiyyət, cəmiyyət və dövlət arasındakı qarşılıqlı münasibətlər tarazlandırılmış şəkildə formalaşır, vətəndaşların hüquq və azadlıqları sosial dəyər kimi qiymətləndirilir və qanunla müdafiə olunur. Bu məqsədlə müxtəlif sosial qrupların, siyasi-ideoloji mövqeyindən asılı olmayaraq bütün siyasi partiyaların və çoxsaylı ictimai təşkilatların sərbəst fəaliyyət göstərmələri üçün qanuni təminat verilir və dövlət tərəfindən lazımi şərait yaradılır.

Dövlətin demokratikliyi həm də onun əhalisinin əsas insan və vətəndaş hüquqlarına hörmətlə yanaşılmasını, hökumətin fəaliyyətinin və dövlətin idarəçilik prinsiplərinin xalqın idarəsinə söykənməsini tələb edir.

Azərbaycanda demokratik dövlət rejimi nümayəndəli demokratiyanın (seçkili orqanların fəaliyyəti) mövcudluğuna və əhalinin həyatı ilə bağlı qanunların, qərarların qəbulunda onların (parlament, bələdiyyə və s. şəklində) iştirakına əsaslanır.

Azərbaycan Respublikasının demokratik dövlət olmasının əsas şərti onun ***hüquqi*** xarakter daşımasıdır. Öz fəaliyyətində hüququ rəhbər tutmayan, əsas insan hüquq və azadlıqlarını təmin etməyən, qanunun aliliyinə söykənməyən, ictimai həyatın bütün sahələrini qanunlar əsasında idarə etməyən sistem hüquqi ola bilməz. Bu mənada Azərbaycanda hakimiyyətin əsas mənbəyi kimi xalqı (seçicini) və əsas məqsədi kimi onun maraqlarının təmin edilməsini qəbul etməsi, eyni zamanda hüquqi dövlətin mövcudluğunu şərtləndirir. Bu halda vətəndaşlar dövlətin işlərində yaxından iştirak edir, cəmiyyətin demokratik şəraitdən bəhrələnməklə özlərinin hüquq və azadlıqlarını reallaşdırırlar. Dövlət konstitusion normalar vasitəsi ilə ictimai-siyasi sistemin sabitliyinə, əhalinin təhlükəsizliyi və maraqlarına təhlükə yaradan bütün halların qarşısını alır.

Hüquqi dövlətin təşəkkülü və inkişafı vətəndaşların siyasi və iqtisadi hüquqları ilə sıx şəkildə bağlıdır. Mərkəzi və yerli icra hakimiyyəti orqanları hüquqi dövlətin inkişafını təmin edərkən hər şeydən əvvəl, Azərbaycan Respublikasının Konstitusiyasından və qanunlarından irəli gələn tələbləri və normaları rəhbər tutur. Bu isə təsadüfi deyil, çünki Konstitusiya və qanunlar hüquqi dövlətin əsas institutlarının özünüinkişafına və özünütəşkilatlandırmasına geniş imkanlar yaradır.

Azərbaycan Respublikasında dövlət hakimiyyəti daxili məsələlərdə yalnız hüquqla, xarici məsələlərdə isə ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn müddəalarla məhdudlaşır.

ABŞ-ın "Azad ev" təşkilatı yuxarıda qeyd etdiyimiz kimi Azərbaycanı digər postsovet respublikaları – Rusiya, Ukrayna, Moldova, Gürcüstan və s. ilə birlikdə "nisbətən azad" dövlət kimi dəyərləndirərək "demokratiya istiqamətində irəliləyən" ölkələr blokuna daxil edib.

"Azad ev" "nisbətən azad" ölkələrin siyasi sistemlərini bir neçə faktorla xarakterizə edir. Bunlardan: hakimiyyətə gəlmənin və onu idarə etmənin rəqabət prinsiplərinə, açıq və demokratik siyasi mübarizəyə söykənməsi; dövlətin vətəndaşların əsas hüquq və azadlıqlarını dönmədən təmin etməsi; hakimiyyət bölgüsü prinsiplərinin bərqərar olması; vətəndaşların dövlət həyatında, daxili idarəçilikdə, dövlət siyasətinin formalaşması və həyata keçirilməsində iştirakı; hakimiyyətin formalaşması və azad seçkilərin keçirilməsində vətəndaşların sərbəst iştirakı; azad mətbuatın mövcudluğu və s. bu təşkilatın diqqət yönəltdiyi əsas meyarlar hesab olunur. [2]

Əlbəttə, bütün bu parametrlər üzrə Azərbaycan "Azad ev"in standartlarına cavab verir və demokratik dövlət hesab olunur. Lakin "Azad ev"in təsnifatında "tam azad", "nisbətən

[2] Bax: Ə. Həsənov. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı, 1995. s. 176

azad" və "qeyri-azad" olmaq üzrə ölkələrin üç qrupa ayrılmasında başqa meyarlar da nəzərə alınır ki, bu da tədqiqatçılar arasında fikir ayrılığına səbəb olur.

Şübhəsiz, postsovet respublikalarında mövcud olan demokratik rejim və vətəndaş cəmiyyəti inkişaf etmiş Qərb dövlətlərindəki kimi (bu qrupu "Azad ev" təşkilatı birinci təsnifata aid edir) inkişaf etmiş və yetkin deyil. Bu özünü ilk növbədə onda göstərir ki, postsovet ölkələrinin Konstitusiyalarında təsbit olunmuş normalar real fəaliyyət üçün əsas deyil, prinsip xarakteri daşıyır. Konstitusiya normaları və prinsiplərinin reallaşması əlavə qanun yaradıcılığı tələb edir ki, bunu da "Azad ev" təşkilatı öz təsnifatında nəzərə alır.

Bundan başqa "nisbətən azad" ölkələrdəki vətəndaş cəmiyyətinin vəziyyəti də inkişaf etmiş Qərb dövlətlərindən xeyli aşağı səviyyədədir. Tədqiqatçılar bunu ilk növbədə, əhalinin siyasi mədəniyyətinin, mentalitetinin və psixoloji vəziyyətinin keçmiş sosialist sistemindən miras qalmış ənənələrindən tam azad ola bilməməsi ilə bağlayırlar. Onların fikrinə görə, Qərb standartlarına uyğun vətəndaş cəmiyyətini indiki deyil, növbəti nəsil həll edəcəkdir.

Azərbaycanın siyasi sistemində müxalifət partiyalarının rolu, siyasi və ictimai institutların yeri məsələsi də "Azad ev" təşkilatının təsnifatında nəzərə alınır. Əlbəttə, siyasi partiyaların mövcudluğu, sərbəst fəaliyyət göstərməsi, hakimiyyəti tənqid etməsi – bütün bunlar faktdır və "Azad ev" bunları siyasi rejimin demokratikliyinin əlaməti kimi təqdim edir. Lakin, partiyaların təşkilati, siyasi və maddi cəhətdən zəifliyi, cəmiyyət həyatına və hakimiyyət strukturlarına təsir imkanlarının çox cüzi olmasını "Azad ev" Azərbaycanın hələ keçid mərhələsində olması ilə əlaqələndirir.

Azərbaycan ***unitar respublikadır*** (maddə 7). Düzdür, Azərbaycan Respublikası tərkibində Naxçıvan Muxtar Respublikasının mövcud olması onu nəzəri cəhətdən ərazi federa-

siyası kimi səciyyələndirməyə əsas verir. Çünki Naxçıvan Muxtar Respublikası özünün inzibati-ərazi sərhədlərinə, qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarına, məxsusi Konstitusiyaya, qanunvericilik təşəbbüsü hüququna, müstəqil fərman vermək hüququna malik Ali Məclis sədrinə (ali vəzifəli şəxs) malikdir. Lakin bütün bu orqanlar Azərbaycan Respublikasının Konstitusiyasının müddəalarını rəhbər tutaraq öz səlahiyyətləri çərçivəsində hakimiyyəti həyata keçirir. Naxçıvan Muxtar Respublikası Azərbaycan dövlətinin ayrılmaz tərkib hissəsidir və Azərbaycan qanunları onun ərazisində tam gücə malikdir.

Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin ərazi bütövlüyü ilə yanaşı, həm də onun unitar xarakterinin qorunub saxlanılmasına hüquqi təminat verir.

Azərbaycan Respublikasını ***dünyəvi dövlət*** kimi səciyyələndirən əsas cəhət onun ərazisində dinin dövlətdən ayrı olmasıdır. Ölkədə dinin dövlət idarəçiliyinə qarışmaması, din xadimlərinin siyasi fəaliyyətlə məşğul olmasının qanunla qadağan edilməsi, heç bir dinə üstünlük verilməməsi, dini təşkilat və qurumların qanun qarşısında bərabərliyi də Azərbaycanın dünyəvi xarakterindən xəbər verir.

Göründüyü kimi Azərbaycan ***respublika tipli*** dövlətdir. Lakin Konstitusiyada bu dövlətin idarəetməsinin növü (Respublika idarəetməsinin dünyada parlamentli, Prezidentli və natamam Prezident idarəçiliyi olmaqla üç forması mövcuddur) müəyyən edilməmişdir. Konstitusiyaya görə, ölkəni daxildə və xarici aləmdə dövlət başçısı – Prezident təmsil etsə də, dövlət hakimiyyətinin təşkili hakimiyyətlərin bölünməsi prinsipi əsasında həyata keçirilir. Qanunvericilik hakimiyyətini Milli Məclis, icra hakimiyyətini Prezident, məhkəmə hakimiyyətini isə məhkəmələr həyata keçirirlər.

Dövlət hakimiyyətinin qanunvericilik, icra və məhkəmə hakimiyyətinə bölünməsi dünyanın demokratik dövlətlərinin

çoxunda mövcuddur. Hakimiyyət funksiyalarının müstəqil, bir-birindən asılı olmayan dövlət qurumları vasitəsi ilə həyata keçirilməsinin əsas məqsədi demokratik idarəetməyə, qarşılıqlı nəzarətə və əsas insan azadlıqlarına, hüququn dövlət və fəaliyyət üzərində üstünlüyünə təminat verilməsi ilə bağlıdır. Çünki, bu halda müvafiq dövlət institutları vasitəsilə qanunvericilik, icra və məhkəmə hakimiyyətinin fəaliyyətinin sərhədləri müəyyənləşir. Bundan əlavə, hakimiyyətin bölünməsi qarşılıqlı nəzarəti, hüququn aliliyini və maraq balansını təmin edir. Qanunvericilik hakimiyyəti hüquqi normaları yaradır, daha doğrusu müxtəlif hallara, konkret faktlara və şəraitə tətbiq oluna biləcək ümumi qaydaları formalaşdırır. Həmçinin, hüquqi normalarda ifadə olunan konkret hadisələrə və faktlara münasibətdə müvafiq davranış tərzini müəyyənləşdirir.

İcra hakimiyyəti ictimai münasibətləri hüquqi normalar əsasında qurur, tənzimləyir və sosial həyatda tətbiq edir. Konkret faktla və hərəkətlə hüquqi normalar arasında mübahisə yarandığı halda iş məhkəmə hakimiyyətinə keçir. Yalnız məhkəmə hakimiyyəti hüquqi normaların müəyyən fakta və yaxud hərəkətə uyğun olub-olmamasını araşdırmaq və mühakimə etmək səlahiyyətlərinə malikdir.

Hakimiyyətin bölünməsi prinsipi Milli Məclisin, Prezidentin və məhkəmələrin statusunu və səlahiyyətlərini müəyyənləşdirən konstitusion normalar çərçivəsində reallaşır və konkret xarakter daşıyır.

Qanunvericilik, icra və məhkəmə hakimiyyətləri qarşılıqlı şəkildə bir-birinin fəaliyyətini tənzimləyir. Məsələn, Milli Məclis Prezidentin təqdimatına əsasən Baş nazirin vəzifəyə təyin edilməsinə razılıq verir (Azərbaycan Respublikasının Konstitusiyası, maddə 95). Prezident isə Milli Məclisin qəbul etdiyi qanunları imzalayır və dərc edir (maddə 109). Milli Məclis Prezidentin təqdimatına əsasən Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və apelyasiya məhkəmələri hakimlərini

təyin edir (maddə 95). Konstitusiya Məhkəməsi isə Prezidentin fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının və mərkəzi icra hakimiyyəti orqanlarının normativ-hüquqi aktlarının Azərbaycan Respublikasının Konstitusiyasına uyğunluğu məsələlərini həll edir (maddə 130). Ən başlıcası, Konstitusiya Məhkəməsi qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələri həll edərək ali konstitusion nəzarət funksiyasını həyata keçirir.

### *Dövlət başçısı*

Konstitusiyaya görə Azərbaycan dövlətinin başçısı Azərbaycan Respublikasının Prezidentidir. O, ölkənin daxilində və xarici münasibətlərdə Azərbaycan dövlətini təmsil edir. Prezidentin Azərbaycan dövlətini ölkənin daxilində təmsil etməsi onun dövlət başçısı kimi hakimiyyət orqanlarının uzlaşdırılmış fəaliyyətinə və qarşılıqlı əlaqələrinə təminat yaratması, eyni zamanda cəmiyyətdə siyasi həmrəyliyə nail olmaq üçün arbitr funksiyasını yerinə yetirməsi ilə bağlıdır. Prezidentin Azərbaycan dövlətini xarici münasibətlərdə təmsil etməsi isə onun xalqın maraqlarına əsaslanaraq beynəlxalq müqavilələr və normalarla bağlı məsələləri həll etməsindən irəli gəlir.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının vahidliyini təcəssüm etdirir və Azərbaycan dövlətçiliyinin varisliyini təmin edir. Bu onu göstərir ki, Prezident öz fəaliyyəti zamanı hansısa sosial, siyasi, milli və s. qrupların mənafeyini deyil, bütün xalqın maraqlarını müdafiə edir və onun əsas məqsədi cəmiyyətin rifahına nail olmaqdır. Bu məsələlər özünün hüquqi ifadəsini Prezidentin andiçmə mərasiminin keçirilməsində və onun and içməsində tapır.

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan dövlətinin müstəqilliyinin, ərazi bütövlüyünün, təhlükəsizliyinin və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə riayət olunmasının təminatçısıdır. Bu öhdəlik Prezidentin həm də Ali Baş Koman-

dan kimi səlahiyyətlərini müəyyənləşdirir və ölkənin tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun gəlməyən istənilən qanuna "veto" qoymaq, icra hakimiyyəti orqanlarının, siyasi institutların, təşkilatların və s. qurumların xalqın iradəsinin əleyhinə yönəlmiş aktlarını ləğv etmək hüququnu yaradır.

Azərbaycan Respublikasının Prezidenti məhkəmə hakimiyyətinin müstəqilliyinin təminatçısıdır. Məhkəmə hakimiyyətinin müstəqilliyi məhkəmələrin hüquqi statusunu müəyyənləşdirən konstitusion prinsipdir. Məhkəmələrin müstəqilliyinin əsas şərti öz səlahiyyətlərini həyata keçirərkən yalnız qanunları rəhbər tutması və heç kimin onlara qanunazidd göstəriş vermək hüququnun olmamasıdır. Prezident icra hakimiyyəti orqanlarının və vəzifəli şəxslərin məhkəmələrə müdaxilələrinin qarşısını alır, məhkəmələrin müstəqilliyini və maddi təminatı məsələlərini həll edir.

Yaşı otuz beşdən aşağı olmayan, Azərbaycan Respublikasının ərazisində 10 ildən artıq daimi yaşayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ağır cinayətə görə məhkum olunmamış, başqa dövlətlər qarşısında öhdəlik götürməyən, ali təhsilli və ikili vətəndaşlığı olmayan Azərbaycan Respublikasının hər bir vətəndaşı Azərbaycan Respublikasının Prezidenti seçilə bilər. Azərbaycan Respublikasının Prezidenti vətəndaşlar tərəfindən birbaşa səsvermə yolu ilə 5 il müddətinə seçilir. Seçkilər ümumi, bərabər və birbaşa seçki hüquqi əsasında sərbəst və gizli səsvermə yolu ilə keçirilir.

Konstitusiyanın 101-ci maddəsinə görə Prezident səsvermədə iştirak edənlərin sadə səs çoxluğu ilə (50%+1) seçilir.

Azərbaycan Respublikasının Konstitusiyasının 106-cı maddəsinə görə Azərbaycan Respublikasının Prezidenti toxunulmazlıq hüququna malikdir, onun şərəf və ləyaqəti qanunla qorunur. Prezidentin toxunulmazlığı onun dövlət başçısı kimi fəaliyyət göstərməsinə hüquqi təminat yaradır. Prezidentin şəxsiyyətinin yüksək səviyyədə mühafizəsinin təmin edilmə-

sini nəzərdə tutur. Bu maddədən aydın olur ki, Prezidentə qarşı hər şeydən əvvəl cinayət işi qaldırıla bilməz. Prezident yalnız vəzifəsindən getdikdən sonra ona qarşı cinayət işinin qaldırılması mümkündür. Həmçinin, Prezident məcburi şəkildə məhkəməyə (məsələn, şahid qismində) gətirilə bilməz. Prezident həbs oluna və yaxud inzibati qaydada saxlanıla bilməz. Lakin, toxunulmazlıq heç də Prezidentin istənilən məsuliyyətdən azad olduğunu ifadə etmir. Çünki, Konstitusiyanın 107-ci maddəsində Prezidentin vəzifəsindən kənarlaşdırılmasının hüquqi mexanizmləri təsbit olunmuşdur.

Prezidentin vəzifədən kənarlaşdırılması məsələsi Prezident ağır cinayət törətdikdə Konstitusiya Məhkəməsinin təşəbbüsü ilə Ali Məhkəmənin 30 gün müddətində verilən rəyi əsasında Milli Məclis qarşısında irəli sürülə bilər.

Parlamentin deputatlarının 95 səs çoxluğu ilə qəbul olunmuş qərarı əsasında Prezident vəzifəsindən kənarlaşdırıla bilər. Bu qərar Konstitusiya Məhkəməsinin sədri tərəfindən imzalanır. Konstitusiya Məhkəməsi həmin qərarın imzalanmasına bir həftə ərzində tərəfdar çıxmazsa, qərar hüquqi baxımdan qüvvəyə minmir. Konstitusiyaya görə Prezidentin vəzifədən kənarlaşdırılması haqqında qərar Konstitusiya Məhkəməsinin Milli Məclisə müraciət etdiyi gündən başlayaraq 2 ay ərzində qəbul olunmalıdır. Bu müddətdə göstərilən qərar qəbul edilməzsə, Prezidentə qarşı irəli sürülmüş ittiham rədd edilmiş sayılır.

*Yeni Azərbaycan Partiyasının* sədri *İlham Heydər oğlu Əliyev* 15 oktyabr 2008-ci ildə keçirilmiş Prezident seçkilərində böyük üstünlüklə (87,34%) qalib gələrək ikinci dəfə beş il müddətinə Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

### *Qanunvericilik hakimiyyəti*

Azərbaycan Respublikasının dövlət quruluşuna uyğun olaraq, bütün nümayəndəli orqanların müstəqilliyinə və haki-

miyyətin şaquli bölgüsünə əsaslanaraq yaradılmış parlamentin – Milli Məclisin fəaliyyətinin əsas prinsiplərini də Azərbaycanın 1995-ci ildə qəbul olunmuş Konstitusiyası müəyyən edir.

Konstitusiyaya görə Milli Məclis nümayəndəli orqandır və hər şeydən əvvəl ümumi, azad seçkilər yolu ilə formalaşır. Konstitusiyaya görə Milli Məclis tam müstəqil bir qurum olsa da, öz səlahiyyətlərini icra hakimiyyəti ilə uzlaşdırılmış şəkildə həyata keçirir. Belə ki, Nazirlər Kabinetinin parlament qarşısındakı məsuliyyəti, Prezidentə etimad məsələsi, dövlət büdcəsindən istifadəyə nəzarət və bu məqsədlə müvafiq orqanların yaradılması, beynəlxalq müqavilələri ratifikasiya etmək hüququ və s. Milli Məclisin icra hakimiyyəti ilə uzlaşdırılmış səlahiyyətlərinin sırasına daxildir. Həmçinin, Milli Məclisin deputatlarının icra hakimiyyəti və məhkəmə orqanlarına sorğu göndərmək səlahiyyətlərinə malik olmaları da bura aiddir.

Milli Məclis inzibati, maliyyə müstəqilliyinə malikdir və fəaliyyətini daxili nizamnamə qaydalarına uyğun olaraq müəyyənləşdirir.

Azərbaycan Respublikasının Milli Məclisi 125 deputatdan ibarətdir. Qeyd edək ki, dünya praktikasında parlamentin təşkilinin ən geniş yayılmış üsulu və onun nümayəndəli orqan o-masının əsas əlaməti ümumxalq seçkiləridir. Bu baxımdan, Milli Məclisinin deputatları parlamentə majoritar seçki sistemi, ümumi, bərabər və birbaşa seçki hüququ əsasında sərbəst, şəxsi və gizli səsvermə yolu ilə seçilirlər. Deputatların səlahiyyət müddəti isə Milli Məclisə çağırışın səlahiyyət müddəti ilə məhdudlaşır.

Konstitusiyaya görə Milli Məclisin hər çağırışının səlahiyyət müddəti 5 ildir. Azərbaycan Respublikasının yaşı 25-dən aşağı olmayan hər bir vətəndaşı qanunla müəyyən edilmiş qaydada Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilə bilər. Qanunvericiliyə görə, ikili vətəndaşlığı və başqa dövlətlər qarşısında öhdəliyi olan, icra və ya məhkəmə haki-

miyyəti sistemlərində qulluq edən şəxslər, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi məhkəmə tərəfindən təsdiq edilən, ağır cinayətlərə görə məhkum olunmuş, məhkəmənin daimi qüvvəyə minmiş hökmü ilə azadlıqdan məhrum etmə yerlərində cəza çəkən vətəndaşlar Milli Məclisə deputat seçilə bilməzlər.

Milli Məclisə seçkilərin nəticələri qanunla müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsində yoxlanılır və təsdiq edilir. Deputatların səlahiyyətləri parlamentin yeni çağırışının ilk iclas günü bitir. Milli Məclis 83 deputatın səlahiyyətləri təsdiq olunduqda səlahiyyətli hesab edilir.

Milli Məclis hər il iki növbəti yaz və payız sessiyalarına yığılır. Milli Məclisin növbədənkənar sessiyalarını isə parlamentin sədri Azərbaycan Respublikası Prezidentinin və yaxud Milli Məclisin 42 deputatının tələbi əsasında çağırır.

Konstitusiyanın 89-cu maddəsinə görə Milli Məclisin deputatı seçkilər zamanı səslərin düzgün hesablanmadığı aşkar olunduqda, Azərbaycan Respublikası vətəndaşlığından çıxdıqda və ya başqa dövlətin vətəndaşlığını qəbul etdikdə, cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda, dövlət orqanlarında vəzifə tutduqda, din xadimi olduqda, sahibkarlıq, kommersiya və başqa ödənişli fəaliyyətlə məşğul olduqda (elmi, pedaqoji və yaradıcılıq fəaliyyəti istisna olmaqla) və özü imtina etdikdə mandatdan məhrum olunur. Milli Məclisin deputatları öz səlahiyyətlərini daimi icra edə bilmədikdə və qanunda nəzərdə tutulmuş digər hallarda onların səlahiyyətləri itirilir.

Səlahiyyət müddəti ərzində Milli Məclisin deputatının şəxsiyyəti toxunulmazdır. Milli Məclisin deputatı səlahiyyət müddəti ərzində cinayət başında yaxalanma hallarından başqa, cinayət məsuliyyətinə cəlb edilə və tutula bilməz. Onun barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirlərinin tətbiq edilməsi, axtarışa məruz qalması və şəxsi müayinə edilməsi

yolverilməzdir. Milli Məclisin deputatının toxunulmazlığına yalnız Baş prokurorun təqdimatına əsasən parlamentin qərarı ilə xitam verilə bilər.

Milli Məclisin sədri bülletenlərdən istifadə etməklə gizli səsvermə yolu ilə seçilir *(Parlamentin hazırkı sədri Oqtay Əsədovdur)*. Sədrin müavinlərinin sayını Milli Məclis özü müəyyənləşdirir. Milli Məclis sədrinin müavinləri açıq səsvermə yolu ilə seçilirlər.

Milli Məclis həmçinin Prezidentin təqdimatı ilə Azərbaycan Respublikasının diplomatik nümayəndəliklərini təsis edir, inzibati ərazi bölgüsü məsələlərini həll edir və bu istiqamətdə qanunlar qəbul edir, dövlətlərarası müqavilələri təsdiq və yaxud ləğv edir.

Qeyd edək ki, Mili Məclisdə təsdiq olunan müqavilələr və sazişlər təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunur. Müvafiq qanunun qəbul olunmasından sonra onlar Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkibinə çevrilir.

Bundan başqa, Milli Məclis Prezidentin təqdimatına əsasən Azərbaycan Respublikası dövlət büdcəsini təsdiq edir və onun icrasına nəzarəti həyata keçirir;

- Prezidentin təqdimatı ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkilini seçir;
- Prezidentin təqdimatına əsasən Azərbaycan Respublikasının hərbi doktrinasını təsdiq edir;
- Konstitusiyada nəzərdə tutulmuş hallarda Prezidentin fərmanlarını təsdiq edir;
- Prezidentin təqdimatına əsasən Baş nazirin vəzifəyə təyin edilməsinə razılıq verir;
- Prezidentin təqdimatı ilə Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və apelyasiya məhkəmələri hakimlərini təyin edir və vəzifədən kənarlaşdırır;

- Prezidentin təqdimatına əsasən Baş prokurorun vəzifəyə təyin və vəzifədən azad edilməsinə razılıq verir;

- Konstitusiya Məhkəməsinin təqdimatı ilə Azərbaycan Respublikası Prezidentini impiçment qaydasında vəzifədən kənarlaşdırır;

Prezidenti vəzifəsindən kənarlaşdırmaqla Milli Məclis dövlət başçısının hüquqi məsuliyyəti haqqında məsələni həll edir.

- Nazirlər Kabinetinə etimad məsələsini həll edir;

- Prezidentin təqdimatı ilə Mərkəzi Bankın İdarə Heyəti üzvlərinin vəzifəyə təyin və vəzifədən azad edilməsi məsələlərini həll edir;

- Prezidentin müraciətinə əsasən müharibə elan edilməsinə və sülh bağlanmasına razılıq verir;

- referendum təyin edir;

- amnistiya verir.

Konstitusiyanın 96-cı maddəsinə görə Milli Məclisdə qanunvericilik təşəbbüsü hüququ (qanun layihələrini və başqa məsələləri Milli Məclisin müzakirəsinə təqdim etmək hüququ) Milli Məclisin deputatlarına, Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Ali Məhkəməsinə, Azərbaycan Respublikasının Prokurorluğuna və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə mənsubdur.

### *İcra hakimiyyəti*

Azərbaycan Respublikasında icra hakimiyyətinə Prezident rəhbərlik edir. Qeyd edək ki, dünyanın demokratik siyasi sistemə malik bir çox ölkələrində də Prezident icra hakimiyyətinin başçısı hesab olunur. Məsələn, ABŞ-ın Prezidenti həm icra hakimiyyətini həyata keçirir, həm də dövlət başçısının funksiyalarını yerinə yetirir.

Azərbaycanda siyasi-hüquqi baxımdan Prezidentə həm də dövlət başçısı statusunun verilməsinin müəyyən əsasları vardır. Bu, hər şeydən əvvəl siyasi və hüquqi sistemi kövrək olan ölkələrdə dövlətin idarəetmə sisteminin davamlılığının və möhkəmliyinin təmin olunması tələbatlarından irəli gəlir. Çünki, keçid dövrünü yaşayan ölkələrdə hakimiyyət institutlarının və hüquqi sistemlərin nüfuzlu arbitrsiz fəaliyyət göstərməsi bir qayda olaraq hərc-mərclik yaradır. Prezident ilk növbədə, hakimiyyətin bölgüsü prinsipinə əməl edərək, dövlət hakimiyyətinin vahidliyini və idarə olunması mexanizminin sabitliyini təmin edir. Azərbaycan Respublikasının Prezidentlik modeli bir çox xüsusiyyətlərinə görə Fransanın idarəetmə sisteminə uyğun gəlir. Lakin, Azərbaycan Respublikasında milli, siyasi və iqtisadi inkişafın xüsusiyyətlərinə görə Prezident idarəüsulu Fransadan fərqli olaraq daha güclü və nüfuzludur. Bu isə Azərbaycanda cəmiyyətin bütün sahələrini əhatə edən radikal islahatların həyata keçirilməsi, keçmiş sinfi və sosialist ictimai-siyasi sisteminin dəyişilməsi və s. zərurətindən irəli gəlir.

Azərbaycanda icra hakimiyyətinin Prezidentə məxsus olmasında və onun dövlət başçısı kimi səlahiyyətlərini həyata keçirməsində xalqın iradəsi əsas imperativ kimi həlledici rol oynayır.

Azərbaycan Respublikasının Prezidenti həm dövlət, həm də icra hakimiyyətinin başçısı kimi qanunvericilik və məhkəmə hakimiyyətləri ilə uzlaşdırılmış şəkildə aşağıdakı səlahiyyətlərini həyata keçirir:

- Azərbaycan Respublikasının Milli Məclisinə seçkiləri təyin edir.
- Azərbaycan Respublikasının dövlət büdcəsini Milli Məclisinin təsdiqinə təqdim edir, dövlətin iqtisadi və sosial proqramlarını təsdiq edir.
- Milli Məclisin razılığı ilə Baş naziri vəzifəyə təyin və yaxud vəzifədən azad edir. Qeyd edək ki, bu praktika Prezi-

dent idarəçiliyinə əsaslanan əksər respublikalarda özünü göstərir. Baş nazirin parlamentin razılığı ilə vəzifəyə təyin olunması praktikası keçmiş SSRİ-nin ərazisində yaranmış müstəqil dövlətlərin əksəriyyətində mövcuddur.

- Nazirlər Kabinetinin üzvlərini vəzifəyə təyin və vəzifədən azad edir, zəruri hallarda isə Nazirlər Kabinetinin iclaslarına sədrliyi həyata keçirir;
- Nazirlər Kabinetinin istefası haqqında qərar qəbul edir;
- Azərbaycan Respublikasının dövlət büdcəsində icra hakimiyyəti üçün nəzərdə tutulmuş xərclər çərçivəsində mərkəzi və yerli icra hakimiyyəti orqanlarını yaradır;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının aktlarını ləğv edir;
- Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Azərbaycan Respublikasının Ali Məhkəməsi və Azərbaycan Respublikasının apelyasiya məhkəmələri hakimlərinin vəzifəyə təyin edilməsi haqqında Milli Məclisə təqdimatlar verir və digər məhkəmələrinin hakimlərini vəzifəyə təyin edir; Azərbaycan Respublikasının Baş prokurorunu Milli Məclisin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

Hakimliyə namizədlərin seçilməsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında xüsusi təsisat olan Məhkəmə-Hüquq Şurası fəaliyyət göstərir ki, bu qurum hakimliyə namizədlərlə bağlı Prezidentə müvafiq təkliflər verir. Bu cür təsisatlar bir çox xarici ölkələrdə də fəaliyyət göstərir və onlar kadr məsələlərinin həllində yaxından iştirak edirlər. İtaliyada, Fransada, Rumıniyada bu təsisatlar Ali Magistratura Şurası, İspaniyada Baş Məhkəmə Hakimiyyəti Şurası və s. adlanır.

Bundan başqa Prezident Azərbaycan Respublikasının hərbi doktrinasını Milli Məclisin təsdiqinə verir.

- Azərbaycan Respublikası Silahlı Qüvvələrinin ali komanda heyətini vəzifəyə təyin və vəzifədən azad edir. (Silahlı Qüvvələrin ali komanda heyətinə Müdafiə naziri və onun müavinləri, Silahlı Qüvvələrin Baş Qərargah rəisi və onun müavinləri, rota, diviziya komandirləri, Müdafiə Nazirliyinin idarə rəisləri daxildir).

- Azərbaycan Respublikası Prezidentinin ***Administrasiyasını*** təşkil edir və onun rəhbərini təyin edir. Prezidentin Administrasiyasının strukturuna dövlət müşavirləri institutu və Prezidentin köməkçiləri, administrasiyanın şöbələri, Prezidentin Katibliyi daxildir. "Dövlət qulluğu haqqında" Qanuna görə Administrasiyada bir sıra vəzifələrə təyinat siyasi xarakter daşıyır və bilavasitə Prezident tərəfindən həyata keçirilir.

- Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndəliklərinin təsis edilməsi haqqında Milli Məclisə təqdimat verir, Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda diplomatik nümayəndələrini təyin edir və geri çağırır.

- xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamə və övdətnamələrini qəbul edir;

- dövlətlərarası və hökumətlərarası beynəlxalq müqavilələr bağlayır, dövlətlərarası beynəlxalq müqavilələri təsdiq və ləğv olunmaq üçün *Milli Məclisə* təqdim edir və təsdiqnamələri imzalayır.

- referendum təyin edir. Referendum bu və ya digər məsələnin həlli ilə bağlı Prezidentlə Parlament arasındakı ziddiyyətlərin yeganə həlli üsuludur. Əgər meydana gələn ziddiyyətlər həlledilməz xarakter daşıyırsa və normal qaydalar çərçivəsində kompromisə nail olmaq mümkün deyilsə, bu halda referendumun keçirilməsi təyin olunur.

- qanunları imzalayır və dərc edir.

Yuxarıda göstərilən səlahiyyətlərlə yanaşı, Azərbaycan Respublikasının Prezidenti vətəndaşlıq və siyasi sığınacaq

verilməsi məsələsinin həll edilməsi, əfv etmək, fövqəladə və hərbi vəziyyət elan etmək, Milli Məclisin razılığı ilə müharibə elan etmək və sülh bağlamaq və digər məsələlərlə bağlı konstitusion səlahiyyətlərini həyata keçirir.

Prezident bütün icra hakimiyyəti sistemini müstəqil şəkildə formalaşdırmaq hüququna malikdir.

Konstitusiyaya görə Azərbaycan Respublikasının Prezidenti hərbi vəziyyət elan etmək və fövqəladə vəziyyət tətbiq etmək hüququna malikdir.

Prezident icra səlahiyyətlərinin həyata keçirilməsinin təşkili məqsədi ilə ***Nazirlər Kabinetini*** yaradır.

Nazirlər Kabineti Prezidentə tabedir və onun qarşısında cavabdehdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin iş qaydası Azərbaycan Respublikasının Prezidenti tərəfindən müəyyənləşdirilir. Nazirlər Kabinetinin tərkibinə Azərbaycan Respublikasının Baş naziri *(ölkənin hazırkı Baş naziri Artur Rasi-zadədir),* onun müavinləri, nazirlər və başqa mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri daxildirlər.

Azərbaycan Respublikasında icra hakimiyyəti orqanları üç qrupa bölünür: yuxarı, mərkəzi və yerli icra hakimiyyəti orqanları.

İcra hakimiyyətinin yuxarı orqanı Nazirlər Kabinetidir. İcra hakimiyyətinin yerli orqanları kateqoriyasına aid olmayan bütün digər orqanlar mərkəzi icra hakimiyyəti orqanları hesab olunur.

Azərbaycan Respublikasında mərkəzi icra hakimiyyəti orqanlarının aşağıdakı növləri vardır: nazirliklər, dövlət komitələri, Nazirlər Kabinetinin yanında Komitələr, İdarələr, Şuralar, agentliklər, xidmətlər və s.

Ölkəmizin sosial-iqtisadi və ictimai-siyasi həyatındakı dəyişikliklərə uyğun olaraq nazirliklərin və idarələrin strukturu dəyişikliklərə məruz qalır və onlar dövrün tələblərinə müvafiq şəkildə təkmilləşirlər.

Azərbaycan Respublikasının yeni Prezidentinin seçilməsi Nazirlər Kabinetinin istefası üçün əsas yaradır. Azərbaycan Respublikasının Konstitusiyasında Prezidentin 5 illik səlahiyyət müddəti ilə faktiki olaraq Nazirlər Kabinetinin səlahiyyət müddətinin məhdudlaşdırıldığı təsbit olunmuşdur.

Nazirlər Kabinetinin iclaslarına, bir qayda olaraq, Baş nazir sədrlik edir. Konstitusiyaya görə Azərbaycan Respublikasının Prezidenti lazım bildiyi hallarda Nazirlər Kabinetinin istənilən iclasına sədrlik etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Baş naziri Milli Məclisin razılığı ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin edilir.

Baş nazir vəzifəsinə namizədlik haqqında təklifi Prezident onun öz vəzifələrinin icrasına başladığı gündən bir ay və ya Nazirlər Kabinetinin istefa verdiyi gündən iki həftə müddətindən gec olmayaraq Milli Məclisin müzakirəsinə təqdim edir.

Konstitusiyanın 118-ci maddəsinə görə Milli Məclis Baş nazir vəzifəsinə namizədlik haqqında qərarı həmin namizədliyin təqdim edildiyi gündən bir həftədən gec olmayaraq qəbul edir. Göstərilən qayda pozularsa və ya Prezidentin təqdim etdiyi namizədlərin Baş nazir vəzifəsinə təyin olunmasına üç dəfə razılıq verilməzsə, Prezident Baş naziri Milli Məclisin razılığı olmadan vəzifəyə təyin etmək hüququna malikdir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti aşağıdakı səlahiyyətləri həyata keçirir:

- Azərbaycan Respublikası dövlət büdcəsinin layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edir. Azərbaycan Respublikasının dövlət büdcəsinin icrasını, maliyyə-kredit və pul siyasətinin həyata keçirilməsini, dövlət iqtisadi proqramlarının reallaşmasını və dövlət sosial təminat proqramlarının həyata keçirilməsini təmin edir. Nazirliklərə və digər mərkəzi icra hakimiyyəti orqanlarına rəhbərlik edir, on-

ların aktlarını ləğv edir və Azərbaycan Respublikası Prezidentinin onun səlahiyyətlərinə aid etdiyi digər məsələləri həll edir.

Baş nazir vəzifəsinə yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli və başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikası vətəndaşı təyin edilir.

Baş nazir yalnız Nazirlər Kabinetinə rəhbərlik etməklə kifayətlənmir, həmçinin onun işini təşkil edir və əsas fəaliyyət istiqamətlərini müəyyənləşdirir. Bundan başqa, Konstitusiyanın 105-ci maddəsinə müvafiq olaraq Prezident vaxtından əvvəl vəzifədən getdikdə yeni Prezident seçilənədək onun səlahiyyətlərini Baş nazir icra edir.

Baş nazirin müavinləri, nazirlər, digər mərkəzi icra hakimiyyəti orqanının rəhbəri vəzifəsinə yaşı 25-dən aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik, ali təhsilli və başqa dövlət qarşısında öhdəliyi olmayan Azərbaycan Respublikasının vətəndaşları təyin edilir.

Səlahiyyət müddəti ərzində Baş nazirin şəxsiyyəti toxunulmazdır. Baş nazir cinayət başında yaxalanma hallarından başqa, tutula və yaxud cinayət məsuliyyətinə cəlb edilə bilməz. Bu müddətdə Baş nazir barəsində məhkəmə qaydasında inzibati tənbeh tədbirlərinin tətbiq olunması yolverilməzdir.

Baş nazir yalnız cinayət başında yaxalandığı zaman tutula və yaxud həbs edilə bilər. Baş nazirin toxunulmazlığına yalnız Baş prokurorunun təqdimatına əsasən Prezident tərəfindən xitam verilə bilər.

Azərbaycan Respublikasında yerlərdə icra hakimiyyəti ***yerli icra hakimiyyətlərinin başçıları*** tərəfindən həyata keçirilir. Şəhər və rayonların icra hakimiyyətlərinin başçıları vəzifələrinə Prezident tərəfindən təyin olunur və yaxud azad edilirlər. Onlar icra hakimiyyətini yerlərdə şəxsən həyata keçirirlər. Yerli icra hakimiyyətlərinin səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti müəyyən edir.

Şəhər və rayonların icra hakimiyyətlərinin başçıları səlahiyyətlərinin həyata keçirilməsini təşkil etmək məqsədilə şəhərlərdə, qəsəbələrdə və kəndlərdə icra nümayəndələrini vəzifəyə təyin edirlər. Şəhər və rayon icra hakimiyyətlərinin başçıları yanında tərkibində 15 nəfərə qədər şəxsin təmsil oluna biləcəyi Şura yaradılır. Şuranın tərkibinə yerli icra hakimiyyətinin başçısı, onun müavinləri, icra hakimiyyəti aparatının rəhbəri, aparatın struktur şöbələrinin və müvafiq ərazidə yerləşən idarə və müəssisələrin rəhbərləri daxildir. Şuranın iclasları ayda iki dəfədən az olmayaraq keçirilir.

Azərbaycan Respublikasında yerli özünüidarə seçkilər əsasında yaradılan ***bələdiyyələr*** tərəfindən həyata keçirilir. Bələdiyyələrin statusu və səlahiyyətləri Azərbaycan Respublikasının Konstitusiyası, "Bələdiyyələr haqqında" Qanun və digər qanunvericilik aktları ilə müəyyənləşir. Bələdiyyələr öz fəaliyyətlərini iclaslar, daimi və başqa komissiyalar vasitəsi ilə həyata keçirirlər. Bələdiyyənin iclasları bələdiyyənin sədri tərəfindən çağırılır.

### *Məhkəmə hakimiyyəti*

Azərbaycan Respublikasında məhkəmə hakimiyyəti ədalət mühakiməsi yolu ilə yalnız məhkəmələr tərəfindən həyata keçirilir. Konstitusiyaya görə əgər qanunvericilik və icra hakimiyyəti iki yuxarı dövlət orqanına (ölkənin başçısına və parlamentə) həvalə olunursa, məhkəmə hakimiyyəti isə bütün məhkəmə orqanlarını əhatə edir. Hər bir məhkəmə orqanı Konstitusiyanı və qanunları rəhbər tutaraq müstəqil fəaliyyət göstərirlər.

Məhkəmə hakimiyyətini Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, apelyasiya məhkəmələri, ümumi və digər ixtisaslaşdırılmış məhkəmələr həyata keçirirlər.

Azərbaycan Respublikasının məhkəmə sisteminə aşağıdakı məhkəmələr daxildir:

rayon (şəhər) məhkəmələri;

Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının məhkəməsi;

Ağır cinayətlərə dair işlər üzrə Naxçıvan Muxtar Respublikasının məhkəməsi;

Hərbi məhkəmələr;

Ağır cinayətlərə dair işlər üzrə Azərbaycan Respublikasının hərbi məhkəməsi;

Yerli iqtisad məhkəmələri;

Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi;

Apelyasiya məhkəmələri;

Azərbaycan Respublikasının Ali Məhkəməsi.

Azərbaycan Respublikasının hər bir məhkəməsi müstəqil hüquqi şəxsdir. Azərbaycan Respublikasının məhkəmələrində işlərə qanunvericilikdə nəzərdə tutulmuş hallarda və qaydada kollegial və hakim tərəfindən təkbaşına: birinci instansiya məhkəməsində işlərə təkbaşına və ya üç hakimdən ibarət tərkibdə, yaxud andlı iclasçılardan ibarət tərkibdə; apelyasiya və kasasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət tərkibdə baxılır. Məhkəmələr işlərə baxarkən Azərbaycan Respublikasının Konstitusiyasını, qanunları və digər qanunvericilik aktlarını, eləcə də ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar.

Azərbaycanda məhkəmə hakimiyyəti Konstitusiya, mülki və cinayət məhkəmə icraatı və qanunla nəzərdə tutulmuş digər vasitələrlə həyata keçirilir. Məhkəmə hakimiyyətinin həyata keçirilməsinin üç forması (konstitusion, mülki və cinayət) eyni hüquqi statusa malikdir və onların hər biri özünəməxsusluğuna baxmayaraq vahid prinsiplərə əsaslanırlar.

Azərbaycan Respublikası məhkəmələrinin fəaliyyəti ədalət mühakiməsinin və məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəlmişdir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən Azərbaycan Respublikasının Konstitusiyasında təs-

bit edilmiş əsas insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir.

Azərbaycan Respublikasının Konstitusiyanın 25-ci maddəsinə uyğun olaraq ölkəmizdə ədalət mühakiməsi irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq hər bir şəxsin qanun və məhkəmə qarşısında hüquq bərabərliyi əsasında keçirilir.

Ədalət mühakiməsi həyata keçirilərkən Konstitusiyanın 63-cü maddəsində nəzərdə tutulmuş təqsirsizlik prezumpsiyası prinsipinə riayət olunması təmin edilir.

Konstitusiyaya əsasən, işlərə məhkəmənin qapalı iclaslarında baxılması halları istisna olmaqla, bütün məhkəmələrdə işlərin icraatı açıq aparılır. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, cinayət işlərinin qiyabi məhkəmə icraatına yol verilmir. Bütün hallarda məhkəmələrin qərarları açıq elan edilir.

Yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşları hakim ola bilərlər.

Konstitusiyaya əsasən ikili vətəndaşlığı, xarici dövlətlər qarşısında öhdəlikləri olanlar, din xadimləri, fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyəti məhkəmə tərəfindən təsdiq edilmiş, tibbi rəyə əsasən fiziki və əqli qüsurlarına görə hakim səlahiyyətlərini yerinə yetirməyə qadir olmayan, cinayət törətməyə görə əvvəllər məhkum olunmuş, hakim adı ilə bir araya sığmayan hərəkətlərə yol verdiyinə görə vəzifədən azad edilmiş şəxslər hakim ola bilməzlər.

Hakimlər müstəqildir, yalnız Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına tabedirlər və səlahiyyətləri müddətində dəyişilməzdirlər. "Məhkəmələr və hakimlər haqqında" Qanunun 100-cü maddəsinə görə hakimlərin müstəqilliyi onların səlahiyyəti dövründə siyasətsizləşdirilməsi, dəyişilməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin olunmasının, məsuliyyətə cəlb edilməsinin, vəzifədən kənarlaşdırılmasının və səlahiyyətlərinə xitam verilməsinin məhdudlaşdırılması ilə, məhkəmə hakimiyyətinin müstəqil fəaliyyət göstərməsi və ədalət mühakiməsinin qanunda nəzərdə tutulmuş qaydada həyata keçirilməsi ilə, məhkəmə icraatına hər hansı şəxs tərəfindən məhdudiyyət qoyulmasının və müdaxilə edilməzliyinin yolverilməzliyi ilə, hakimlərin şəxsi təhlükəsizliyinin təmin edilməsi yolu ilə həyata keçirilir və onlara vəzifələrinə uyğun maddi və sosial təminatlar verilir.

Hakimlər öz razılığı olmadan başqa vəzifəyə dəyişdirilə bilməz.

Hakimlər işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxırlar.

Cinayət başında yaxalanması halları istisna olmaqla, hakim tutula və ya həbs edilə, şəxsi axtarış və müayinəyə məruz qala, Məhkəmə-Hüquq Şurasının razılığı olmadan barəsində cinayət təqibi həyata keçirilə bilməz.

Hakimlərin vəzifədən kənarlaşdırılması təşəbbüsünü hakimlər cinayət törətdikdə Azərbaycan Respublikasının Prezidenti Ali Məhkəmənin rəyi əsasında Milli Məclis qarşısında irəli sürə bilər. Konstitusiya Məhkəməsi, Ali Məhkəmə və Apelyasiya məhkəmələri hakimlərinin işdən kənarlaşdırılması haqqında qərar Milli Məclisdə qəbul edilir.

Məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburidir.

Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin I hissəsinə uyğun olaraq Konstitusiya Məhkəməsi 9 hakimdən ibarətdir.

Konstitusiya Məhkəməsi işlərə palataların və Plenumun iclaslarında baxır.

Yaşı 30-dan aşağı olmayan, seçkilərdə iştirak etmək hüququna malik olan, ali hüquq təhsilli və hüquqşünas ixtisası üzrə 5 ildən artıq işləyən Azərbaycan Respublikasının vətəndaşı Konstitusiya Məhkəməsinin hakimi ola bilər.

Konstitusiya Məhkəməsinin hakimlərini Prezidentin təqdimatı ilə Milli Məclis təyin edir.

Konstitusiya Məhkəməsinin azı 7 hakimi təyin olunduqda Konstitusiya Məhkəməsi öz səlahiyyətlərinin icrasına başlaya bilər.

Azərbaycan Respublikasının ***Ali Məhkəməsi*** ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə ali məhkəmə orqanıdır; o, kasasiya qaydasında ədalət mühakiməsini həyata keçirir və məhkəmələrin praktikasına aid məsələlər üzrə izahatlar verir.

Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsinə uyğun olaraq Ali Məhkəmə ümumi və ixtisaslaşdırılmış məhkəmələrin icraatına aid edilən mülki (o cümlədən iqtisadi mübahisələrə dair), cinayət işləri və digər işlər üzrə ali məhkəmə orqanıdır.

Ali Məhkəmə kasasiya instansiyası məhkəməsi kimi qanunla müəyyən edilmiş prosessual qaydada ədalət mühakiməsini həyata keçirir.

Ali Məhkəmənin yurisdiksiyası Azərbaycan Respublikasının bütün ərazisinə şamil edilir.

Ali Məhkəmənin tərkibinə Ali Məhkəmənin sədri, onun müavini, kollegiya sədrləri və hakimləri daxildir.

Ali Məhkəmədə mülki işlər üzrə, iqtisadi mübahisələrə dair işlər üzrə, cinayət işləri və hərbi məhkəmələrin işləri üzrə məhkəmə kollegiyaları təşkil edilir.

Qanunların düzgün tətbiq olunması, qanunvericiliyin təkmilləşdirilməsi və elmi təkliflərin hazırlanması məqsədi ilə Ali Məhkəmənin yanında Elmi-Məsləhət Şurası fəaliyyət göstərir.

Ali Məhkəmənin hakimlərini Azərbaycan Respublikası Prezidentinin təqdimatı ilə Milli Məclis təyin edir.

Azərbaycan Respublikasının ***apelyasiya məhkəmələri*** qanunla onların səlahiyyətlərinə aid edilmiş işlər üzrə yuxarı instansiya məhkəmələridir.

Apelyasiya məhkəmələri Rəyasət Heyətindən, mülki işlər üzrə kollegiyadan, cinayət və inzibati xətalara dair işlər üzrə kollegiyadan və hərbi məhkəmələrin işləri üzrə kollegiyadan ibarətdir. Apelyasiya məhkəmələrinin kollegiyalarında işlərə baxmaq üçün məhkəmə tərkibləri yaradılır.

Apelyasiya məhkəmələri hakimlərinin tərkibinə məhkəmənin sədri, onun müavini, məhkəmə kollegiyasının sədrləri və hakimləri daxildirlər.

Azərbaycan Respublikasının apelyasiya məhkəmələrinin hakimlərini Prezidentin təqdimatı ilə Milli Məclis təyin edir.

Azərbaycan Respublikasının ***Prokurorluğu*** qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır və istintaq aparır, məhkəmədə dövlət ittihamını müdafiə edir və iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

Azərbaycan Respublikasının Baş Prokurorluğu prokurorluğun mərkəzi aparatıdır. Azərbaycan Respublikasının Baş Prokurorluğuna birinci müavini, müavinləri, böyük köməkçiləri və köməkçiləri olan Azərbaycan Respublikasının Baş prokuroru rəhbərlik edir.

Baş Prokurorluğunun strukturuna idarə, şöbə və digər qurumlar daxildir. İdarə və şöbələrin tərkibində Baş prokurorun

böyük köməkçiləri hesab edilən idarə rəisləri, köməkçiləri hesab edilən idarə rəislərinin müavinləri və şöbə rəisləri, habelə prokurorlar və müstəntiqlər vardır.

Azərbaycan Respublikasının Baş Prokurorluğu bütün prokurorluq orqanlarının fəaliyyətinə rəhbərlik edir.

Azərbaycan Respublikasının Baş prokurorunu Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Milli Məclisinin razılığı ilə vəzifəyə təyin və vəzifədən azad edir.

Baş prokurorun müavinlərini, respublika ixtisaslaşdırılmış prokurorluqlarına rəhbərlik edən prokurorları, Naxçıvan Muxtar Respublikasının prokurorunu Baş prokurorun təqdimatı ilə Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

Ərazi və ixtisaslaşdırılmış prokurorları Azərbaycan Respublikası Prezidentinin razılığı ilə Baş prokuror vəzifəyə təyin və vəzifədən azad edir.

Azərbaycan Respublikasının Prokurorluğu sisteminə aşağıdakı prokurorluqlar daxildir:

Azərbaycan Respublikasının Baş Prokurorluğu;

Azərbaycan Respublikasının Hərbi Prokurorluğu;

Naxçıvan Muxtar Respublikasının Prokurorluğu;

Rayon (şəhər) prokurorluqları;

Hərbi ixtisaslaşdırılmış prokurorluqlar;

Tədris-elm müəssisələri, mətbuat orqanları, mətbəə, sosial-məişət, təsərrüfat təyinatlı digər qurumlar.

***Siyasi partiyalar və ictimai təşkilatlar***

Siyasi partiyalar Azərbaycan Respublikasının siyasi sisteminin tərkib hissəsi olaraq müxtəlif ictimai, siyasi və sosial qrupların maraqlarının daşıyıcısı kimi hakimiyyətin formalaşmasında fəal şəkildə iştirak edir və seçkili dövlət orqanlarına namizədlər irəli sürür. Siyasi partiyaların fəaliyyətinin əsas xüsusiyyəti öz məqsədləri və proqramları ətrafında müxtəlif və-

təndaşları və qrupları birləşdirməyə çalışmaq və siyasi şüuru məqsədyönlü şəkildə formalaşdırmaqdan ibarətdir. Onlar mətbuat orqanları ilə birlikdə müəyyən mənada dövlətlə cəmiyyət arasındakı əlaqələri təmin edir və dövlətin siyasətinin formalaşmasına təsir göstərir. Azərbaycanda fəaliyyət göstərən əsas siyasi partiyalar sonuncu parlament seçkilərində iştirak edərək 125 deputat mandatını bölüşmüşlər.

2010-cu il noyabr ayının 7-də Mili Məclisə keçirilən son seçkilər nəticəsində *Yeni Azərbaycan Partiyası 72, Vətəndaş Həmrəyliyi Partiyası 3, Ana Vətən Partiyası 2, Sosial Rifah Partiyası 1, Ədalət Partiyası 1, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası 1, Böyük Quruluş Partiyası 1, Ümid Partiyası 1, Demokratik İslahatlar Partiyası 1, Vətəndaş Birliyi Partiyası 1,* müstəqil namizədlər isə 41 deputat yerinə sahib olmuşlar.

Azərbaycan Respublikasında 3000-ə yaxın qeyri-hökumət təşkilatı fəaliyyət göstərir və onlar vətəndaş cəmiyyətinin inkişafında aparıcı yer tuturlar. Bu təşkilatlar müxtəlif sahələr üzrə - ictimai, hüquqi, təhsil, mədəniyyət, ətraf mühit və s. üzrə fəaliyyət göstərərək müxtəlif qrup insanları öz tərkibində birləşdirir *(gənclər, qadınlar, milli-dini qruplar və s.*).

### *Naxçıvan Muxtar Respublikası*

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar respublikadır. Naxçıvan Muxtar Respublikası ərazi muxtariyyətinin yüksək formasına - dövlət statusuna malikdir. Qeyd edək ki, ərazi muxtariyyəti formaları (dövlət və yerli) bir-birindən fərqlənir.

Ərazi muxtariyyətinin dövlət forması dövlətin zahiri əlamətlərinə (parlament, hökumət, konstitusiya və s.) malikdir. Muxtariyyətin yerli forması isə bu cür əlamətlərə malik deyil və burada ərazi vahidlərinin inzibati hüquqları bir qayda olaraq adi qanunla müəyyənləşir. Unitar quruluşa malik olan xarici dövlətlərin konstitusiya və qanunlarında dövlətin tərkibində

muxtar ərazi təşkili nəzərdə tutulur, bir çox hallarda isə muxtar vahidlər onların daxili quruluşunu müəyyənləşdirən (konstitusiya, nizamnamələr, qaydalar, özünü idarəetmə xartiyaları və s.) normativ hüquqi aktlar işləyib hazırlayır və qəbul edir.

Naxçıvan Muxtar Respublikasının statusunu Azərbaycan Respublikasının Konstitusiyası, 16 mart 1921-ci il Moskva və 13 oktyabr 1921-ci il Qars beynəlxalq müqavilələri müəyyən edir.

Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsidir.

Azərbaycan Respublikası Konstitusiyası, qanunları, Azərbaycan Respublikası Prezidentinin fərmanları və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları Naxçıvan Muxtar Respublikasının ərazisində məcburi xarakter daşıyır.

Bütün bunlar göstərir ki, Azərbaycan Respublikası Konstitusiyasının, qanunlarının, Azərbaycan Respublikası Prezidentinin fərmanlarının və Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarlarının Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanları tərəfindən təsdiq edilməsinə ehtiyac yoxdur və onlar bilavasitə ölkənin bütün ərazisində tətbiq edilir. Bu baxımdan Naxçıvan Muxtar Respublikasının dövlət hakimiyyəti orqanları Azərbaycan Respublikasının qanunvericiliyi səviyyəsində tənzimlənən məsələlərə dəyişikliklər məqsədi ilə normativ hüquqi aktlar qəbul edə bilməz.

Naxçıvan Muxtar Respublikasının Konstitusiyası Azərbaycan Respublikasının Milli Məclisinə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təqdim edilir və Konstitusiya qanunu ilə təsdiq olunur.

Naxçıvan Muxtar Respublikasının qanunvericilik hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, icra hakimiyyətini Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti, məhkəmə hakimiyyətini isə Naxçıvan Muxtar Respublikasının məhkəmələri həyata keçirir.

Naxçıvan Muxtar Respublikası idarəetmə formasının xüsusiyyətlərinə görə Azərbaycan Respublikasından fərqlənir. Naxçıvan Muxtar Respublikası *parlamentli respublikadır* və burada icra hakimiyyəti orqanı olan Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasının Ali Məclisi tərəfindən formalaşdırılır və ona tabedir. Naxçıvanda hakimiyyətin bölünməsinin özünəməxsus xüsusiyyətlərindən biri Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin digər səlahiyyətlərlə yanaşı, həmçinin konstitusion nəzarət funksiyasını da yerinə yetirməsidir. Qanunvericiliyə görə Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi Azərbaycan Respublikası qanunvericilik aktlarının düzgün tətbiq edilməsi üçün tədbirlər görür, məhkəmə statistikasını təhlil edir, məhkəmə təcrübəsini öyrənir və ümumiləşdirir, muxtar respublikanın Ali Məhkəməsinin ərazi yuridiksiyasına aid olan birinci instansiya məhkəmələrinə metodik kömək göstərir və Azərbaycan Respublikasının qanunvericiliyi ilə ona aid edilmiş digər səlahiyyətləri həyata keçirir.

Azərbaycan Respublikasının Konstitusiyasına əsasən (maddə 135) Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan Respublikasının Konstitusiyası və qanunları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və Azərbaycan Respublikası Prezidentinin fərmanları ilə onun səlahiyyətlərinə aid edilən məsələlərin həllində, Naxçıvan Muxtar Respublikasının məhkəmələri isə Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə onların səlahiyyətlərinə aid edilən məsələlərin həllində müstəqildirlər.

Naxçıvan Muxtar Respublikası parlament idarə-üsuluna əsaslanan dövlət olduğundan muxtar respublikanın ali vəzifəli şəxsi parlament tərəfindən seçilir. Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədridir. Ali vəzifəli şəxs Naxçıvan Muxtar Res-

publikasının Konstitusiyasına uyğun olaraq həm qanunverici-lik, həm də icra hakimiyyəti sahələrində öz səlahiyyətlərini həyata keçirir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi 45 üzvdən ibarətdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səlahiyyət müddəti Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyət müddəti ilə eynidir və 5 ildir.

Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədrini və onun müa-vinlərini seçir, daimi və digər komissiyalar təşkil edir.

# II HİSSƏ

## DÜNYA DÖVLƏTLƏRİNİN SİYASİ SİSTEMLƏRİ

# III FƏSİL
## RESPUBLİKA İDARƏÇİLİK SİSTEMİ

Respublika quruluşlu dövlətlərdə hakimiyyətin əsas mənbəyi xalqdır. Bu idarəçilik sistemində dövlətin ali hakimiyyət orqanları və vəzifəli şəxsləri vətəndaşlar tərəfindən seçilir. Müasir dünya dövlətlərinin təxminən 3/4-ü respublika quruluşlu ölkələrdir. Monarxiya tipli dövlətlər kimi respublika quruluşu da qədim idarəetmə forması sayılır. Respublika idarəetmə formasında mürəkkəb struktura malik olan dövlət hakimiyyətinin bütün ali orqanlarına yalnız onlara məxsus olan müəyyən səlahiyyətlər verilir və bu orqanlar onların yerinə yetirilməməsi və ya lazımi səviyyədə icra edilməməsinə görə qanunla məsuliyyət daşıyırlar. Hakimiyyətin ali orqanlarının qəbul etdiyi qərarlar bir çox hallarda uzun müddət hazırlanır, müvafiq prosedurlar üzrə müzakirə edilir, ekspertizadan keçir. Bir qayda olaraq, qərarların qəbulu səsvermə yolu ilə həyata keçirilir. İxtisaslı və ya sadə çoxluğun qərarın "lehinə" səs verdiyi təqdirdə o, qəbul olunmuş sayılır.

Respublikanın idarə edilməsi - vahid dövlət hakimiyyətinin qanunverici, icraedici və məhkəmə hakimiyyətlərinə bölünməsi prinsiplərinə əsaslanır. Müasir dünyada respublikanın üç əsas növü mövcuddur: ***parlamentli respublika, Prezident idarə-üsuluna əsaslanan respublika*** və ***bunların qarışıq forması.***

***Prezident respublikasını*** hüquqi cəhətdən fərqləndirən cəhətlərdən biri də odur ki, ümumxalq seçkilərində seçilən Prezident, eyni zamanda dövlət və hökumət başçısı sayılır. O, Prezident qarşısında məsuliyyət daşıyan icra administrasiyasını və ya hökuməti formalaşdırır. Hökumətdə bir qayda olaraq

Baş nazir vəzifəsi olmur. Prezident Parlamenti buraxa bilməz, Parlament isə Administrasiyanı (Hökumət) istefaya göndərmək hüququna malik deyil.

***Parlament respublikasında*** tam hakimiyyətli orqan sayılan Parlament, qarşısında siyasi məsuliyyət daşıyan hökuməti formalaşdırır və dövlət başçısı *(hökumət başçısı deyil)* sayılan prezidenti seçir. Prezident öz səlahiyyətlərini bir qayda olaraq, yalnız Baş nazirin rəhbərlik etdiyi hökumətin təklifi ilə həyata keçirir. Əksər üzvlərinin dəstəyini qazanacağı təqdirdə parlament, etimadsızlıq rəyi bildirməklə hökuməti istefaya göndərə bilər. Bu halda Prezident hökumətin təklifi ilə parlamenti buraxmaq və vaxtından əvvəl seçkiləri elan etmək hüququna malikdir.

Respublika idarəçilik formasının digər bir növü qarışıq ***(yarı Prezident Respublikası) idarə-üsuluna əsaslanan respublikadır.*** Ona prezident respublikası ilə parlament respublikasının elementlərinin birləşdirilməsi əlamətləri xasdır. Real və hüquqi cəhətdən böyük səlahiyyətlərə malik olan prezident dövlət başçısı sayılır və bir qayda olaraq ümumi seçkilərdə seçilir. Lakin, hökumət parlament yolu ilə formalaşır və nəinki prezident, eləcə də parlament qarşısında məsuliyyət daşıyır. Prezident baş nazirin başçılıq etdiyi hökumət üzərində ümumi rəhbərliyi həyata keçirir. Prezident müəyyən səbəblər olduqda parlamenti buraxmaq hüququna malikdir. Qarışıq formalı respublikalar üçün icraedici hakimiyyətin dualizmi səciyyəvidir.

Belə formalı klassik respublikanın bariz nümunəsi Fransa sayılır. Habelə bu növə aid olan *Portuqaliya, Monako* və s, ölkələrlə yanaşı *Rusiya, Ukrayna, Rumıniya, Litva, Qırğızıstan* kimi postsosialist dövlətlər də dualist idarəetmə formalı respublikalar sayılır.

## §1. Prezident Respublikası quruluşlu ölkələrin siyasi sistemləri

Prezident respublikası – dövlət orqanları sistemində Prezidentin rolunun əhəmiyyətli dərəcədə genişliyi, habelə dövlət və hökumət başçısı səlahiyyətlərinin onun əlində birləşməsi ilə səciyyəvidir. Bu idarəetmə formasının digərlərindən fərqli cəhətlərinə diqqət yetirməklə tam təsəvvür formalaşdırmaq mümkündür:

Prezident parlamentdənkənar metodla - *Braziliya, Fransa* və s. ölkələrdə əhali tərəfindən və yaxud *ABŞ-da* olduğu kimi həm də seçicilər kollegiyası tərəfindən seçilir;

Hökumət parlamentdənkənar metodla, yəni prezident tərəfindən formalaşdırılır. Prezident ya formal və hüquqi baxımdan (ABŞ-da olduğu kimi) hökumət başçısı sayılır, ya da hökumətin başçısını təyin edir. Hökumət parlament qarşısında deyil, onu istefaya göndərmək hüququna malik olan prezident qarşısında məsuliyyət daşıyır.

Bütövlükdə idarəetmənin bu formasında prezident, parlament respublikasında olduğundan daha geniş səlahiyyətlərə malikdir. Lakin prezident respublikasında dövlət başçısı (prezident) bir qayda olaraq, parlamenti buraxmaq, parlament isə öz növbəsində hökumətə etimadsızlıq göstərmək hüququndan məhrumdurlar.

Prezident respublikası - hakimiyyətin möhkəmləndirilməsinə xidmət edən geniş səlahiyyətlərin prezidentin əlində cəmlənməsi üçün əlverişli zəmin yaradır. Bu da, keçid mərhələsində olan və ya monarxiya adət-ənənələrinin güclü olduğu, islahatların keçirildiyi müddətdə qeyri-sabit situasiyalarla üzüzə qalan *(Peru),* geniş əraziyə və çoxmillətli tərkibə malik *(ABŞ)* və nəhayət fövqəladə hadisələrin, müharibələrin baş verdiyi dövlətlər üçün *(Azərbaycan, Gürcüstan)* olduqca vacibdir.

Xalis şəkildə prezident idarəçiliyi forması *Amerika Birləşmiş Ştatlarında* qərarlaşıb. Hakimiyyətin bölgüsü prinsipi *ABŞ* konstitusiyasının əsasını təşkil edir. Bu konstitusiyaya görə qanunvericilik hakimiyyəti *Konqresə,* icraedici hakimiyyət *prezidentə,* məhkəmə hakimiyyəti *Ali Məhkəməyə* məxsusdur. Seçicilər kollegiyası tərəfindən seçilən Prezident hökuməti ona aid olan partiyanın üzvlərindən formalaşdırır.

Prezident respublikalarının daha geniş yayıldığı Latın Amerikası ölkələri ilə yanaşı, bir sıra Asiya və Afrika ölkələrində də idarəetmənin bu formasına rast gəlinir. Bununla belə, bəzən bu ölkələrdə, xüsusilə də superprezident respublikaları kimi səciyyələndirilən Latın Amerikası ölkələrində dövlət başçısının hakimiyyəti konstitusiya çərçivələrindən kənara çıxır.

# AMERİKA BİRLƏŞMİŞ ŞTATLARI







***Ümumi məlumat:*** Avropa müstəmləkəçilərinin *Şimali Amerika* qitəsinə ilk gəlişləri XVI əsrin əvvəllərinə təsadüf edir. Əsrlər boyu hindu tayfalarının və eskimosların yaşadıqları *Amerika Birləşmiş Ştatlarının* indiki ərazisində *(Virciniya ştatında)* ingilislər, ilk dəfə 1607-ci ildə daimi olaraq məskunlaşmışlar .

*Birləşmiş Ştatların* de-yure yaranması, 1776-cı ildə öz müstəqilliyini elan etmiş 13 Britaniya koloniyasının birləşməsi tarixindən başlamışdır. ABŞ-da müstəqillik uğrunda müharibə 1783-cü ilə qədər davam etmiş və kolonistlərin qələbəsi ilə yekunlaşmışdır.

1867-ci ildə Rusiyadan *Alyaskanın* və *Aluet adalarının* satın alınması, ölkənin indiki sərhədlərinin tam olaraq formalaşması ilə nəticələnmişdir.

*Şimali Amerikada* yerləşən və dünyanın fövqəldövləti sayılan *ABŞ-ın* paytaxtı *Vaşinqton* şəhəridir.

Ölkənin ərazisi 9,826,675 km², əhalisi *(2012)* 315,010,000 nəfərdir *(əhali sıxlığı 33.7 nəfər/km²)*.

ABŞ-da ingilis dili de-fakto rəsmi dövlət dili sayılır *(ölkə əhalisinin 80%-i ingilis dilli, 12%-dən çoxu isə ispan dilli vətəndaşlardır)*.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.910 - çox yüksəkdir *(4-cü yer)*.

***Dövlət quruluşu:*** 4 iyul 1776-cı ildə müstəqillik əldə edən Amerika Birləşmiş Ştatları – 50 ştatdan və Kolumbiya paytaxt

federal dairəsindən ibarət, güclü demokratik ənənəyə malik, məhdud hakimiyyətli prezident idarə-üsullu federativ respublikadır. 1789-cu ilin mart ayından qüvvəyə minmiş və o dövrdən bu günə qədər yalnız 27 düzəliş edilmiş 1787-ci il Konstitusiyasına uyğun olaraq idarə olunur. Hakimiyyətin federal orqanları ilk əvvəl yalnız müdafiə, beynəlxalq münasibətlər və ştatlararası məsələlərlə məşğul idilər, digər sahələr üzrə qanunvericilik fəaliyyətini isə müstəqil konstitusiyası, qanunvericilik məclisi, qubernatoru, Ali Məhkəməsi və yerli vergi sistemi olan ştatların hakim dairələri həyata keçirirdilər. Lakin F.Ruzveltin 1930-cu ildə tətbiq etdiyi "yeni kurs"la əlaqədar federal hökumət ştatların işlərinə fəal müdaxilə siyasəti yeritməyə başladı və dövlət gəlirlərinin bölünməsi və vergi yığımı üzrə əsas instituta çevrildi.

***İnzibati bölgüsü:*** Amerika Birləşmiş Ştatları 3141 rayondan ibarət 50 ştata *(Alabama, Alyaska, Arizona, Arkanzas, Aydaho, Ayova, Cənubi Dakota, Cənubi Karolina, Corciya, Delaver, Florida, Havay, İllinoys, İndiana, Kaliforniya, Kanzas, Kentukki, Kolorado, Konnektikut, Luiziana, Massaçusets, Men, Merilend, Miçiqan, Minnesota, Missisipi, Missuri, Montana, Nebraska, Nevada, Nyu Cersi, Nyu Hempşir, Nyu Meksiko, Nyu York, Ohayo, Oklahoma, Oreqon, Pensilvaniya, Qərbi Virciniya, Rod Aylend, Şimali Dakota, Şimali Karolina, Tennessi, Texas, Vaşinqton, Vayominq, Vermont, Virciniya, Viskonsin və Yuta), Kolumbiya* Federal Dairəsinə və asılı ərazilər sayılan 5 Federal Torpağa *(Amerika Samoası, Quam, Şimali Marian adaları, Puerto Riko, Virgin Adaları)* bölünür.

***Dövlət başçısı:*** *ABŞ Federal Hökuməti* hakimiyyətin üç qolunun (qanunvericilik, icraedici və məhkəmə) dəqiq bölgüsü ilə səciyyəvidir. İcraedici hakimiyyətin başında yetkinlik yaşına çatmış, vətəndaşlara verilmiş seçki hüququ əsasında, ümumxalq səsverməsi yolu ilə hər dörd ildən bir noyabr ayının müəyyən olunmuş günündə seçilən Prezident durur. Hər ştat milli seçicilər kollegiyasında Konqresdəki nümayəndələrinin

sayına bərabər miqdarda yer əldə edir. *Milli Seçicilər Kollegiyası* dekabr ayının ortalarında Prezidenti seçir. Ümumi seçkilərdə deyil, məhz seçki kollegiyasında daha çox səs toplayan namizəd Prezident seçilir.

ABŞ-da doğulmuş və yaşı 35-dən az olmayan ölkə vətəndaşı Amerika Birləşmiş Ştatlarının Prezidenti seçilə bilər. Seçildiyi andan Prezident dövlətin başçısı, silahlı qüvvələrin ali baş komandanı və dövlət xidmətinin başçısı olur.

Prezidentin bu postda qalması 1951-ci ildə qəbul edilmiş 22-ci düzəlişə əsasən 2 müddətlə məhdudlaşır. Seçildikdən sonra Prezident Konqresin təşəbbüsü ilə yalnız impiçment prosedurası qaydasında vəzifəsindən azad edilə bilər. 20-ci düzəlişə görə Prezidentlik müddəti ötən ilin noyabrında keçirilmiş seçkilərdən sonra yanvar ayının 20-də başlanır.

Prezident *Nazirlər Kabinetini* Senatın *(Senat üzvlərinin dövlətin qanunvericilik fəaliyyətində iştirakı qadağan olunmuşdur)* razılığı ilə özü seçir. Bu səbəbdən də, Nazirlər Kabinetinin tərkibi adətən siyasətə yaxın olan şəxslərdən deyil, iş adamlarından və alimlərdən ibarət olur. ABŞ Prezidenti yanında dövlətin vacib aspektlərinin fəaliyyətini koordinasiya edən, siyasi problemlərin həlli və münaqişələrin nizamlanması üzrə mütəxəssislərdən ibarət Ağ Evin Aparatı mövcuddur. Buraya Milli Təhlükəsizlik Şurası, Daxili İşlər üzrə Şura, inzibati-büdcə idarəsi və iqtisadi müşavirlər qrupu da daxildir.

20 yanvar 2009-cu il tarixindən etibarən *Amerika Birləşmiş Ştatlarının* hazırkı, sayca 44-cü Prezidenti *ABŞ Demokratlar Partiyasının* təmsilçisi *Barak Huseyn Obamadır (06 noyabr 2012-ci ildə keçirilmiş Prezident seçkilərində B.Obama 51% səslə yenidən dövlət başçısı seçilmişdir).*

*Hökumət* başçısı funksiyasını da yerinə yetirən *Prezidentə* səlahiyyətlərinin icrasında onunla eyni vaxtda və eyni müddətə seçilən vitse-prezident *(hazırda bu postda Co Bayden fəaliyyət göstərir)* assistentlik edir.

***Qanunvericilik hakimiyyəti:*** Qanunvericilik hakimiyyətini təmsil edən *Konqres* iki bərabərhüquqlu palatadan: 100 yerlik *Senatdan* və 435 deputatdan ibarət *Nümayəndələr Palatasından* ibarətdir.

Yaşı 30-dan aşağı olmamaq şərti ilə 6 illik müddətə seçilən senatorlar ərazisinin miqyasından və əhalisinin sayından asılı olmayaraq hər ştatdan iki üzvlə təmsil olunurlar. Üçüncü namizəd hər iki ildən bir seçilir, bununla belə təkrar seçilməyə heç bir məhdudiyyət qoyulmur.

Yaşı 25-dən yuxarı olan və təkrar seçilmələrinə heç bir məhdudiyyət qoyulmayan nümayəndələr, əhalisinin təxminən eyni sayda olduğu *(450-700 min)* hər seçki dairəsindən bir nəfər olmaqla 2 illik müddətə seçilirlər. Adətən nümayəndələr seçildikləri dairələrin sakinləri olurlar.

Konqres qanunvericilik hakimiyyətinə malikdir və hər iki palatada tutduqları yerlərin sayına uyğun partiyaların üzvlərindən ibarət xüsusi daimi, seçmə və tədqiqat komitələri əsasında fəaliyyət göstərir. Bu komitələr icra hakimiyyəti orqanları və digər sahələrdən çox sayda nümayəndələri dəvət etmək hüququna malikdirlər. Çox sayda müşavirləri və məsləhətçiləri olan komitələrə hakim partiyanın əsas üzvləri başçılıq edir.

*Senat* Konqresdə *Nümayəndələr Palatasından* daha çox qanunvericilik hakimiyyətinə malikdir. Hökumətdə hakim vəzifələrə təyinatların və beynəlxalq xarakterli sazişlərin imzalanması yalnız Konqresin bu palatasının razılığı ilə həyata keçirilir. Nümayəndələr Palatası təhqiqatın davam etdirilməsi üçün səs verdiyi təqdirdə isə Senatda həmçinin dövlətin vəzifəli şəxslərinin impiçment işinə baxılır. İmpiçment prosedurunun həyata keçirilməsi üçün Senatın 2/3-nin lehinə səsverməsi vacibdir. *Bill Klintondan (1998 il)* əvvəl yalnız bir Prezident – *Endryu Conson (1868 il)* impiçment prosedurasına məruz qalmış və vəzifəsindən azad edilməsindən onu yalnız bir səs xilas etmişdir.

Hakimiyyətin maliyyə sahəsində prioriteti *Nümayəndələr Palatasına* məxsusdur. Konstitusiyanın 1-ci maddəsinin 1-ci paraqrafına əsasən dövlət xərcləri ilə bağlı bütün qanun layihələrinə Konqresin bu palatasında baxılmalıdır. Bu səbəbdən də parlamentin büdcə və maliyyə komitələri son dərəcə vacibdir.

Siyasi proqramının *Konqres* tərəfindən qəbul edilməsi üçün Prezidentin bu orqanla birgə işləməsi vacibdir. Dövlət başçısı yanvar ayında Konqresdə illik müraciətlə çıxış edir, habelə adıçəkilən orqana müntəzəm olaraq müraciətlər və tövsiyələr göndərir.

Prezidentin müvəffəqiyyəti mənsub olduğu partiyanın *Konqresdəki* yerlərinin sayından, habelə onun komandasının üzvlərinin siyasi bacarığından, nüfuz və etibarından asılıdır. Ayrı-ayrı senatorların və *Nümayəndələr Palatasının* deputatlarının təklif etdiyi qanunvericilik layihələri xüsusi komissiyada işlənib hazırlanır. Lakin onun qəbul edilməsi üçün hər iki palatanın razılığı olmalıdır. Fikir ayrılığı yarandıqda *Konqresin* hər iki palatasının yüksək vəzifəli nümayəndələrindən ibarət Birgə xüsusi məclis qarşılıqlı güzəşt əsasında razılıq əldə edir. Lakin *Prezident* veto hüququna malikdir və bu hüquq hər iki palatanın üzvlərinin 2/3 səs çoxluğu ilə ləğv oluna bilər. Konstitusiyaya düzəlişlərin qəbul edilməsi üçün eyni sayda deputatların razılığı olmalıdır və daha sonra qanunverici orqanlar və ya heç olmazsa 38 ştat bu düzəlişləri təsdiq etməlidir.

06 noyabr 2012-ci il tarixində keçirilmiş son Parlament seçkiləri nəticəsində Konqresin hər iki palatasında mandatlar aşağıdakı qaydada bölüşdürülmüşdür:

*Respublikaçılar Partiyası – (53 senator; 201 deputat, lideri Debbi Vasserman-Şults),*

*Demokratlar Partiyası – (45 senator; 234 deputat, lideri Rayns Pribus)*

***Məhkəmə hakimiyyəti:*** Məhkəmə hakimiyyətinin başında ABŞ konstitusiyasının praktiki tətbiqi ilə məşğul olan *Ali*

*Məhkəmə* durur və bu da federal və yerli idarəetmə orqanları, həmçinin icraedici və qanunvericilik hakimiyyətləri arasında balansın saxlanmasında özünü büruzə verir. Məhkəmə hakimiyyəti 1-10 düzəlişlərində və 1791-ci ildə qəbul olunmuş *Bildə* göstərilmiş insan hüquqlarına əməl olunmasına nəzarət edir.

*Ali Məhkəmənin* tərkibinə Senatın məsləhəti və razılığı ilə *Prezident* tərəfindən təyin edilən və ömürlük bu vəzifədə qalan 9 hakim daxildir. Federal hakimin vəzifəsindən kənar edilməsi yalnız impiçment qaydasında mümkündür. Ali Məhkəmə son dərəcə nüfuzlu təsisat olaraq hakimiyyətin qanunverici və icraedici orqanları tərəfindən konstitusiya pozmalarının fəal şəkildə qarşısını alır.

Şərqi Samoa və Virgin adaları da daxil olmaqla, Sakit okeanın bir sıra adaları ABŞ-ın idarəçiliyi altındadır. Xüsusi qanunverici orqanlara malik olan bu əraziləri qubernator idarə edir. *Puerto-Riko* və *Quam* başda olmaqla yerli özünüidarə hüququna malik olan bu adaların hər biri seçkilərdə iştirak etməyən nümayəndələrini Nümayəndələr Palatasına göndərirlər.

***Siyasi Partiyalar:*** Amerika siyasətində ərazi yayımına və ideoloji baxışlarına görə müxtəlif iki böyük siyasi koalisiya - demokratlar və respublikaçılar hakim mövqe tuturlar. Seçki sistemi, prezident idarəetmə üsulu və hakim partiyaların geniş seçici dairəsinin baxışlarına cavab verməsi partiyaların qütbləşməsinə səbəb olur və yenilərinin yaranmasına maneə yaradır.

*ABŞ Demokrat Partiyası* federalistlərin yürütdüyü mərkəzləşdirmə siyasətinə qarşı ayrı-ayrı ştatların hüquqlarının müdafiəsi məqsədilə *Tomas Cefferson* tərəfindən 1792-ci ildə yaradılmışdır. Demokrat Partiyası ən azı beş mühüm fraksiyadan ibarətdir. Birinci – “Konqresin qanadı” sayılan və kiçilməsinə baxmayaraq hələ də kifayət qədər çoxsaylı olan cənubi mühafizəkar və ya neoliberal fraksiyasıdır. “Yeni kursun” şimali liberallar qrupu daha çoxsaylıdır və ənənəvi olaraq

liderdir. Üçüncü fraksiya Orta Qərb bölgəsinin kənd təsərrüfatı və sənaye ştatlarının, xüsusən də Minnesotanın radikal liberal-populistlərindən ibarətdir. Dördüncü (kiçik) fraksiya *Trumenin* tərəfdarları olan demokratlardan ibarətdir. Ultraliberal "Əlvan koalisiya" Konqresdən kənar şəhər idarəetmə orqanları səviyyəsində geniş hakimiyyətə malikdir və ABŞ Demokrat Partiyasının beşinci fraksiyası sayılır.

*"Böyük qədim partiya"* adı ilə də tanınan *Respublikaçılar Partiyası* 1854-cü ildə *Miçiqanda* köləliyə qarşı çıxışlarla müşayiət olunan hərəkat nəticəsində təsis edilmişdir. Avraam Linkoln 1860-cı ildə bu partiyadan namizəd olaraq Prezident seçilmişdir.

*Respublikaçılar Partiyasından* olan namizədlər ölkənin mərkəzi və qərb rayonlarının əhalisinin, habelə ağdərili protestantların və kifayət qədər yüksək gəlirli ailələrin sabit dəstəyinə malikdirlər. Bu partiya demokratların təsiri altında olmuş cənub ştatlarının ərazilərinə son dərəcə fəal şəkildə nüfuz etmişdir.

Hər iki iri partiya rəsmən üzvlüyü olmayan zəif milli təşkilata malikdir. Belə ki, bir partiyaya mənsub olan Konqres üzvləri müxtəlif problemlərin həlli üçün bir araya gəlsələr də, nadir hallarda əlbir olaraq səs verirlər. Hər dörd ildən bir yayda, Prezident seçkiləri ərəfəsində, hakim partiyalar seçkiqabağı siyasi platformalarının təsdiq edilməsi üçün milli partiya qurultaylarını keçirirlər. Bu yığıncağa, hər bir ştatda ilkin seçkilərin nəticələrinə görə və ya partiya yığıncaqlarında təyin edilmiş 2200-4200 nəfərdən ibarət nümayəndələr toplaşır. Nümayəndələr məcburi qaydada müəyyən namizədlərə səs verməlidirlər.

Qurultaylararası müddətdə partiyaların hər bir ştatdan seçdiyi milli komitə bu orqanların carı işləri ilə məşğul olur. Komitənin əsas vəzifəsi ilkin Prezident seçkilərinin keçirilməsi qaydalarının və milli partiya qurultaylarının müəyyən edilmə-

si, həmçinin partiyanın pul kapitalının artırılması üzrə fəaliyyətinə nəzarətdən ibarətdir. Ümumiyyətlə, partiyanın əsas özəyi yerli səviyyədə təmərküzləşir. Məhz burada amerika siyasətinin həqiqi siyasi sistemini tapmaq mümkündür. Namizədin seçilməsi isə ilkin seçki sisteminin köməkliyi ilə açıq şəkildə keçirilir və buna Prezident seçkilərində iştirakda namizədlərin maliyyə dəstəyi mənbələrinə güvənmələri imkan verir.

# BRAZİLİYA







***Ümumi məlumat:*** Avropalılar ilk dəfə Braziliya torpaqlarına 1500-cü ildə ayaq basmışlar. Təbii sərvətlərlə zəngin olan *Braziliya,* XIX əsrin əvvəllərinə qədər *Portuqaliyanın* müstəmləkəsi olmuş və yalnız 1822-ci ildə müstəqil imperiya, 1889-cu ildə isə respublika elan edilmişdir.

*Cənubi Amerikanının* ən böyük ölkəsi olan *Braziliya Respublikasının* paytaxtı *Brazilia* şəhəridir.

Ölkənin ərazisi 8,515,767 km², əhalisi *(2012)* 193,946,886 nəfərdir *(əhali sıxlığı 22 nəfər/km²).*

*Braziliyanın* rəsmi dövlət dili *portuqal* dilidir *(ölkə ərazisində ispan, ingilis, hindu, italyan və s. dillər də işlənilir.).*

Dövlətin İnsan İnkişafı İndeksi - 0.718 - yüksəkdir *(84-cü yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan Müstəqillik günü (1822) 7 sentyabr tarixində qeyd olunur. Ölkədə 5 oktyabr 1988-ci il Konstitusiyası qüvvədədir.

**İnzibati bölgüsü:** 26 ştata *(Akri, Alaqoas, Amazonas, Amapa, Baya, Qoyas, Maranyan, Matu-Qrosu, Matu-Qrosu-du-Sul, Minas-Jerays, Para, Paraiba, Parana, Pernambuku, Piaui, Rio-de-Joneyro, Riy-Qrandi-du-Norti, Riy-Qrandi-du-Sul, Rondoniya, Rorayma, Santa-Katarina, San-Paulu, Seara, Serjipi, Tokantins və Espiritu-Santu)* və *Braziliya* federal dairəsinə bölünür.

***Dövlət başçısı:*** Ölkə Prezidenti dövlətə və özünün formalaşdırdığı Hökumətə başçılıq edir. Prezident ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaqla 4 il müddətinə seçilir.

01 yanvar 2011-ci ildən etibarən Braziliyanın hazırkı, sayca 36-cı Prezidenti, *İşçi Partiyasının* təmsilçisi xanım *Dilma Rusefdir.*

***Qanunverici hakimiyyət:*** 1988-ci il Konstitusiyasına əsasən ABŞ federal sistemi modelinə uyğun iki palatalı orqan olan *Milli Konqresdir.* Konqres 2 palatadan - hər dörd ildən bir senatorların üçdə bir və yaxud üçdə iki hissəsi yenidən seçilmək şərti ilə, üzvləri üç mandatlı dairələrdən majoritar qaydada səlahiyyət müddəti 8 il olmaqla seçilən 81 yerlik *Senatdan (sədri 2009-cu ildən Joze Sarneydir)* və birbaşa ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən 513 yerlik *Deputatlar Palatasından (sədri 2010-cu ildən Marku Mayadır)* ibarətdir.

Deputatlar Palatasının üzvlərinin sayı hər bir ştatın əhalisinin sayından asılı olaraq dəyişir. Hər bir ərazi vahidi deputatla təmsil olunur. *Aşağı palataya* deputatlar ümumxalq səsverməsi yolu ilə, partiya siyahısı üzrə 4 il müddətinə seçilir. *Senata* seçkilər isə sadə səs çoxluğu sistemi üzrə keçirilir.

*3 oktyabr 2010-cu il tarixində keçirilmiş son seçkilər nəticəsində Braziliya Parlamentində təmsil olunan partiyalar:*

*İşçi Partiyası – (Deputatlar Palatası - 88 yer, Federal Senat – 15 yer)*

*Braziliya Demokratik Hərəkat Partiyası – (70 yer, 20 yer)*

*Braziliya Sosial-Demokrat Partiyası – (53 yer, 11 yer)*

*Demokratlar Partiyası - (43 yer, 6 yer)*

*Tərəqqi Partiyası – (41 yer, 4 yer)*

*Respublika Partiyası - (41 yer, 4 yer)*

*Braziliya Sosialist Partiyası - (34 yer, 3 yer)*

*Demokratik Əmək Partiyası – (28 yer, 4 yer)*

*Sosial Xristian Partiyası – (17 yer, 1 yer)*
*Braziliya Kommunist Partiyası - (15 yer, 2 yer).*

Hal-hazırda qüvvədə olan 1988-ci il *(1994 və 1997-ci illərdə edilmiş düzəlişlərlə)* Konstitusiyasına görə əsasını müstəqillik, vətəndaşlıq, insani ləyaqət, sosial dəyərlər, azad sahibkarlıq və siyasi plüralizm prinsipləri təşkil edən Braziliya demokratik hüquqi dövlətdir. Ölkə - 26 ştatdan və Braziliya paytaxt federal dairəsindən ibarət federativ prezident respublikasıdır. Mərkəzin federasiya subyektlərinin işlərinə müdaxiləsi ciddi nizamlanır və yalnız ştatlararası münaqişə, ictimai asayişin qorunması zərurəti və maliyyə intizamına riayət edilməməsi hallarında *(ərazi bütövlüyünün qorunması, xarici təcavüzdən müdafiə məqsədilə)* bu müdaxiləyə yol verilir.

Federasiya səviyyəsində qanunvericilik hakimiyyəti *Deputatlar Palatasından və Federal Senatdan* ibarət ikipalatalı *Milli Konqresə* mənsubdur. Hər iki palata bərabər səlahiyyətlərə malikdir. Parlament tərəfindən bəyənilmiş qanun layihəsi respublika Prezidentinin təsdiqinə göndərilir; dövlət başçısı qanunun təsdiqindən imtina etdikdə Konqres - hər iki palatanın birgə iclasında deputat və senatorların sadə səs çoxluğu ilə veto maneəsini aradan qaldırır.

Senatorların yaş həddi 35-dən, deputatların isə 21-dən aşağı olmamalıdır. Deputatlar Palatası 4 illik müddətə ümumi proporsional səsvermə əsasında seçilir. Lakin seçicilər səslərini bu və ya digər partiyaya deyil, bu partiyaların təklif etdiyi namizədlərə verirlər. Federal Senat - ştatların və federal dairənin əhali tərəfindən majoritar sistem üzrə seçilmiş nümayəndələrindən ibarətdir. Federasiyanın hər bir subyekti – nümayəndəliyinin 1/3 və 2/3 hissəsinin hər dörd ildən bir yeniləşməsi şərti ilə 8 il müddətinə seçilən 3 senatorla təmsil olunur.

Konqresin qərarı və ya vətəndaşların təşəbbüsü ilə ümumxalq referendumu təşkil edilə bilər. Onun reallaşması üçün hər

birində 0.3%-dən az olmamaqla minimum 5 ştatı təmsil edən seçicilərin səslərinin 1%-ni toplamaq kifayətdir. Xalq qanunvericilik təşəbbüsü əsasında qanunların Parlamentə təqdim edilməsi üçün eyni sayda səslərin toplanması vacibdir.

***İcraedici hakimiyyəti*** *Prezident* və onun başçılıq etdiyi hökumət – *Nazirlər Kabineti* həyata keçirir. Prezident və vitse-prezident rəsmən qeyd olunmuş siyasi partiya və koalisiyaların irəli sürdüyü namizədlərin arasından 4 illik müddətə seçilirlər. Bu posta seçilmək üçün səslərin mütləq əksəriyyətini toplamaq lazımdır və zərurət yarandıqda daha çox səs toplamış iki namizədin iştirakı ilə ikinci tur keçirilir. 1997-ci ildən başlayaraq təkrar müddətə seçilməyə icazə verilir.

*Dövlət başçısının* səlahiyyətlərinə: nazirlərin təyinatı və vəzifələrindən kənar edilməsi, qanunların imzalanması və dərc edilməsi, müvəqqəti aktların dərc olunması, diplomatik münasibətlərin qurulması və beynəlxalq müqavilələrin imzalanması, mühasirə vəziyyətində milli müdafiənin durumu haqqında dekretlərin dərc edilməsi *(bu tədbirlər Konqresdə təsdiqini tapmalıdır)* daxildir.

Prezident ali baş komandan sayılır və zəruri hallarda fövqəladə və müharibə vəziyyəti tətbiq etmək, müharibə elan etmək, amnistiya vermək və məhkəmə hökmünü yüngülləşdirmək hüququna malikdir. O, inkişaf planı və büdcə layihəsini baxılması üçün Konqresə göndərir.

Prezident yanında məşvərətçi orqanlar – tərkibinə vitse-prezidentin, Konqresin hər iki palatasının sədrlərinin, parlament çoxluğunun və müxalifətin liderlərinin, ədliyyə nazirinin və 6 görkəmli vətəndaşın daxil olduğu *Respublika Şurası* və tərkibinə vitse-Prezidentin, palataların sədrlərinin, ədliyyə, xarici işlər, planlaşdırma və müdafiə nazirlərinin daxil olduğu *Milli Müdafiə Şurası* fəaliyyət göstərirlər.

*Konqres* Prezidenti tutduğu vəzifədən kənarlaşdırmaq hüququna malikdir. Bunun üçün Deputatlar Palatasının üzvlə-

rinin *(Ali Federal Məhkəməsi Prezident tərəfindən cinayət törədilməsi ittihamı ilə çıxış etdikdə)* və ya senatorların *(Prezident öz vəzifəsinin öhdəsindən gələ bilmədikdə)* səslərinin 2/3 hissəsi vacibdir.

*İdarəetmədə* mərkəzi orqanların bəzi vəzifələrinin yerli orqanlara verilməsi çərçivəsində ştatların və yerli özünüidarələrin səlahiyyətləri genişləndirilmişdir. Ştatda icraedici hakimiyyət qubernatora məxsusdur. Qubernatorlar və vitse-qubernatorlar eyniliklə Prezident seçkisi prinsipi üzrə seçilirlər. Hər bir federasiya subyektinin seçkili qanunvericilik Assambleyası vardır. Yerlərdə seçkili merlər və nümayəndəli bələdiyyə orqanları mövcuddur.

***Məhkəmə hakimiyyəti:*** Braziliyanın məhkəmə sistemi yuxarıdan aşağıya ümumi və ixtisaslaşdırılmış məhkəmələrdən ibarətdir. Məhkəmə hakimiyyətinin ali orqanları *Ali Federal* və *Ali Ədalət* məhkəmələridir.

*Prezidentə, vitse-prezidentə, Konqresin* üzvlərinə, yüksək vəzifəli şəxslərə qarşı ittiham irəli sürüldükdə son qərar çıxaran, beynəlxalq və ştatlararası münaqişələri həll edən, Konstitusiyaya nəzarəti həyata keçirən orqan Ali Federal məhkəmədir. Ali Federal Məhkəmənin tərkibi Senatın razılığı ilə Prezident tərəfindən təyin edilən 11 nəfərdən ibarətdir. Ali Ədalət məhkəməsi qubernatorlara və ştatların digər vəzifəli şəxslərinə qarşı ittiham üzrə qərar çıxarır, aşağı məhkəmə orqanlarının qərarlarına zəruri hallarda yenidən baxır və qanunvericiliyin şərhi ilə məşğul olur. Ali Ədalət məhkəməsi Senatın razılığı ilə Prezident tərəfindən təcrübəli hüquqşünaslardan təyin olunur.

Braziliyada, eyni zamanda, əmək məsələləri üzrə Ali məhkəmə, Ali seçki məhkəməsi, Ali hərbi tribunal, ştatlar səviyyəsində ümumi və xüsusi məhkəmələr, yerli məhkəmələr və cinayət işlərinə baxmaq üçün andlılar məhkəmələri də fəaliyyət göstərir. Məhkəmə hakimiyyəti inzibati və iqtisadi muxtariyyətə malikdir.

***Siyasi partiyalar:*** Hazırda Braziliyada fəaliyyət göstərən və ölkə parlamentində təmsil olunan əsas partiyalar aşağıdakılardır: *Braziliya Demokratik Hərəkat Partiyası, İşçi Partiyası, Liberal Cəbhə Partiyası, Sosial-Demokrat Partiyası və Tərəqqi Partiyası.*

*İşçi Partiyası* - 1970-ci illərin fəhlə və digər sosial hərəkatları dalğasında, daha dəqiq – 1979-cu ildə *San-Paulu* şəhərində metallurqların həmkarlar ittifaqları qurultayının təşəbbüsü ilə yaradılmışdır. *İşçi Partiyası* gələcəkdə istismarçıların və istismar edilənlərin olmadığı bərabərhüquqlu cəmiyyət uğrunda, SSRİ-də mövcud olmuş "real sosializm"dən və ənənəvi sosial-demokratiyadan fərqlənən demokratik sosializm uğrunda çıxış edir. Hazırda üzvlərinin sayı 500 mindən artıq olan İşçi Partiyası - zəhmətkeşlərin Vahid həmkarlar ittifaqı mərkəzində və torpaqsız əməkçilər Hərəkatında üstün təsirə malikdir.

*Liberal Cəbhə Partiyası* - Sosial-demokratik partiyadan (hərbi rejim tərəfdarları təşkilatı) çıxmış siyasətçilər tərəfindən 1984-cü ildə təsis edilmişdir. İdeya cəhətdən LCP - özəl sahibkarlığı və güclü Prezident hakimiyyətini müdafiə edən, dövlətin iqtisadiyyata müdaxiləsinin məhdudiyyətinə səy göstərən neoliberal mövqeli sağçı partiyadır.

*Braziliya Demokratik Hərəkat Partiyası* – hərbi rejim dövründə fəaliyyət göstərən müxalifətçi Braziliya demokratik hərəkatının əsasında, 1981-ci ildə qeydə alınmışdır. Partiyada mühafizəkarlar, sosial-demokratlar, kommunistlər və sair müxtəlif daxili cərəyanlar mövcud olmuş və onların bəziləri bu gün də fəaliyyət göstərir.

1980-ci illərdən etibarən BDHP – mərkəzçi və sağ mərkəzçi partiyadır. Belə ki, o dövrdə partiya öz proqramında ölkənin demokratikləşməsinə xüsusi əhəmiyyət verirdi. Hazırda BDHP iqtisadi sahədə yoxsulluğun aradan qaldırılması, əhalinin alıcılıq qabiliyyətinin qorunması, gəlirlərin daha ədalətli

şəkildə bölüşdürülməsi, aqrar islahatlar və pulsuz orta təhsil uğrunda çıxış edir.

1988-ci ildə BDHP-dən ayrılmış sol mərkəzçi Braziliya Sosial-Demokrat Partiyasının ilk proqramı bazar prinsipləri ilə dövlət tənzimlənməsinin uyğunluğuna əsaslanırdı. Braziliya sosial-demokratları xüsusi mülkiyyəti iqtisadi sistemin əsası hesab edirdilər, ancaq eyni zamanda onlar mülkiyyətin kooperativ formada inkişafını və dövlət sektorunun effektiv fəaliyyətinin təminatını vəd edirdilər.

BSDP aqrar islahat, sosial ədalət, desentralizasiya, "demokratiyanın iştirakı" və pulsuz təhsil ideyalarını dəstəkləyir, yeni iş yerlərinin yaradılması, əmək haqlarının artırılması, işsizlərə müavinətlərin ödənilməsi, sahibkarlarla muzdlu işçilər arasında qarşılıqlı güzəştlərin olması tələbi ilə çıxış edir.

Ölkənin ən aparıcı və nüfuzlu sağçı partiyalarından biri olan *Braziliya Tərəqqi Partiyası* 1993-1995-ci illərdə *Sosial-Demokratik Partiyanın, Xristian-Demokratik, Tərəqqi və Respublika-Tərəqqi partiyalarının* birləşməsi nəticəsində meydana gəlmişdir. İqtisadi sahədə BTP bazar münasibətlərinin fəal inkişafı, xarici və transmilli kapitalın geniş surətdə cəlb edilməsi uğrunda, habelə dövlət tərəfindən təsərrüfat fəaliyyətinə müdaxilə əleyhinə mübarizə aparır. Partiya mühafizəkar məfkurə dəyərlərinə etiqad edir və silahlı qüvvələrə istinad edən güclü Prezident hakimiyyəti uğrunda çıxış edir.

Bütövlükdə, qeyd olunan partiyalarla yanaşı Braziliyada bir çox digər siyasi partiyalar *(Liberal partiya, Braziliya Kommunist partiyası, Demokratik trabalist partiya, Braziliya trabalist partiyası, Braziliya sosialist partiyası, Xalq sosialist partiyası, Yaşıllar partiyası və s.)* və ideyalı təşkilatlar *(Anarxistlər federasiyaları, Fəhlə sosialist cərəyanı və s.)* fəaliyyət göstərir.

# ANQOLA







***Ümumi məlumat:*** *Anqola* torpaqlarının *portuqal* müstəmləkəçiləri tərəfindən zəbt edilməsi XV əsrin sonlarından başlamış və XIX əsrin sonlarında başa çatmışdır.

1975-ci ildə *Anqola* dövlət müstəqilliyini elan etmişdir.

Cənub-Qərbi Afrikada yerləşən *Anqola Respublikasının* paytaxtı *Luanda* şəhəridir.

Ölkənin ərazisi 1 246 700 km², əhalisi *(2009)* 18,498,000 nəfərdir *(əhali sıxlığı* 14.8 *nəfər/km²)*.

*Anqolanın* rəsmi dövlət dili *portuqal* dilidir *(ölkə əhalisi paralel olaraq yerli afrika dillərindən də istifadə edir.)*.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.486 - aşağıdır *(148-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan Müstəqillik Günü (1975) 11 noyabr tarixində qeyd olunur. Anqolanın Yeni Konstitusiyası 21 yanvar 2010-cu ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Ölkə 157 bələdiyyədən ibarət olan 18 əyalətə *(Bie, Uambo, Luanda, Malanje, Uije, Benqela, Cənubi Kvanza, Uila, Moşiko, Namibe, Zaire, Benqo və s.)* bölünür.

***Dövlət başçısı:*** Yeni Konstitusiyaya görə dövlətin və hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı hesab olunan *Prezident* birbaşa seçkilər nəticəsində deyil, Parlament seçkilərində qalib gəlmiş partiyanın lideri

qismində avtomatik olaraq, iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilir.

Çox geniş səlahiyyətlərə malik olan dövlət başçısı bütün dövlət qurumlarına tam nəzarəti həyata keçirir, *Hökumət* üzvlərini *(nazirləri)* və *Ali Məhkəmənin* hakimlərini təyin edir, dövlətin təhlükəsizliyinə və beynəlxalq münasibətlər sistemindəki maraqlarına zidd olan qanunlara veto qoyur, habelə zəruri hallarda Parlamenti buraxır və erkən seçkilər təyin edir.

Hazırkı ölkə Prezidenti 10 sentyabr 1979-cu ildən etibarən *Joze Eduardu Duş Santuşdur.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 220 yerlik *Milli Assambleyadır (Parlament).* Milli Assambleyanın 130 üzvü proporsional nümayəndəlik sistemi üzrə, digər 90 üzvü isə əyalət dairələrindən majoritar sistem üzrə seçilirlər. Ölkə Parlamentinin fəaliyyət müddəti 2 ildən 4 ilə qədərdir. Bununla belə, dövlət başçısı Parlamenti buraxa və erkən seçkilər təyin edə bilər.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi, təsdiqi və icrasına nəzarət, beynəlxalq müqavilələrin ratifikasiyası və Konstitusiya ilə nəzərdə tutulmuş qanunvericiliklə bağlı digər funksiyalar *Anqola Milli Assambleyasının* səlahiyyətlərinə daxildir.

05 fevral 2010-cu ildən ölkə Parlamentinin sədri *MPLA-nın* təmsilçisi *Paulu Kassomadır.*

31 avqust 2012-ci il tarixlərində keçirilmiş son Parlament seçkilərində mandat qazanmış ölkənin əsas siyasi partiyaları:

*Anqolanın Azadlığı Uğrunda Xalq Hərəkat Partiyası (MPLA) – 71.87% yer,*

*Anqolanın Tam Müstəqilliyi Uğrunda Milli İttifaq Partiyası (UNİTA) – 18.65% yer,*

*CASA - CE - 6.06 %,*

*Sosial Yeniləşmə Partiyası – 1.69 %,*

*Anqola Xalq Azadlıq Cəbhəsi Partiyası – 1.08 %,*

*Yeni Demokratiya Partiyası – 0.22 %.*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* Anqola Respublikasının yuxarı icra hakimiyyət orqanıdır. Hökumətə Prezident tərəfindən təyin olunan vitse-prezident *(*2010-cu ildən *F. Duş Santuş)* rəhbərlik edir.

***Məhkəmə hakimiyyəti:*** Hakimləri Prezident tərəfindən təyin olunan və cinayət, mülki və hərbi məhkəmələri özündə ehtiva edən *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

Qüvvədə olan Konstitusiyaya görə, Anqola Respublikasının ümumi yurisdiksiyalı məhkəmə sisteminə *Ali Məhkəmə* ilə yanaşı *bələdiyyə və əyalət məhkəmələri* də daxildir.

# ARGENTİNA

  

***Ümumi məlumat:*** 1536-cı ildə *Argentinaya* gələn ispanlar hazırkı *Buenos-Ayres* şəhərinin yerləşdiyi yerdə ilk koloniyalarını yaratmışlar. 1777-cı ildə *La Plata* ümumi qubernatorluğu qurulmuş və *Buenos-Ayres* bu qubernatorluğun paytaxtı olmuşdur.

1816-cı ildə *Argentina* öz müstəqilliyini elan etmişdir.

*Cənubi Amerikanın* cənub-şərq hissəsində yerləşən *Argentina Federativ Respublikasının* paytaxtı *Buenos-Ayres* şəhəridir.

Ölkənin ərazisi 2 780 400 km², əhalisi *(2012)* 42,192,500 nəfərdir *(əhali sıxlığı* 15.17 *nəfər/km²).*

*Argentinanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.797 – çox yüksəkdir *(45-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan Müstəqillik günü (1816) 9 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1853-cü ildən (1860, 1898, 1957, 1994-cü illərdə edilmiş düzəlişlərlə) qüvvədədir.

***İnzibati bölgüsü:*** 23 əyalətə *(Korrientes, Santa-Krus, Mendosa, Kordova, Santa-Fe, Katamarka, Rio-Neqro, San-xuan, Salta və s.)* və 1 muxtar paytaxt dairəyə *(Buenos-Ayres)* bölünür.

***Dövlət başçısı:*** Ölkə *Prezidenti* dövlət və hökumət başçısıdır və təyin etdiyi *Nazirlər Kabinetinə* rəhbərlik edir (*Kabinetin başçısı 10 dekabr 2011-ci ildən Xuan Manuel Abal Medinadır*). Prezident ümumxalq səsverməsi yolu ilə iki dəfədən çox olmamaq şərti ilə 4 il müddətinə seçilir. *Senatın (Parlamentin Yuxarı Palatası)* sədri ölkənin *vitse-prezidenti* sayılır.

*Hökumət* üzvlərinin və *Ali Məhkəmənin* hakimlərinin təyin və yaxud azad edilməsi, qanunların imzalanması və dərc edilməsi, beynəlxalq müqavilə və sazişlərin imzalanması, silahlı qüvvələrin ali baş komandanı olaraq fövqəladə və müharibə vəziyyətinin tətbiqi, amnistiya verilməsi və s. mühüm məsələlər dövlət başçısının səlahiyyətlərinə aiddir.

Hazırkı, 55-ci ölkə Prezidenti 10 dekabr 2007-ci ildən etibarən *Qələbə Uğrunda Cəbhənin* lideri *Kristina Fernandes de Kirşnerdir (23 oktyabr 2011-ci ildə keçirilmiş son prezident seçkilərində xanım Kirşner 54.11 % səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir).*

***Ali qanunverici hakimiyyət:*** İki palatalı orqan olan *Milli Konqresdir.* Konqres 2 palatadan - 72 yerlik *Senatdan (Yuxarı Palatanın sədri Amodo Boudoudur, o, eyni zamanda 10 dekabr 2011-ci ildən ölkənin sayca 35-ci vitse-prezidentidir)* və birbaşa ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən 257 yerlik *Deputatlar Palatasından (tərkibinin 1/2 hissəsi hər iki ildən bir yenilənən Aşağı Palatanın sədri 06 dekabr 2011-ci ildən Julian Dominqesdir)* ibarətdir.

Mövcud konstitusiyaya əsasən, Parlament və İcra hakimiyyəti bir-birindən tam müstəqil, qarşılıqlı məsuliyyəti və öhdəliyi olmadan fəaliyyət göstərirlər.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, *Konqres* dövlət büdcəsinin təsdiqi, vergilərin müəyyən edilməsi, beynəlxalq müqavilələrin ratifikasiyası və s. məsələlər üzrə səlahiyyətlidir.

2011-ci ilin oktyabrında hər iki palataya keçirilmiş son seçkilər nəticəsində *Milli Konqresdə* yer almış ölkənin əsas siyasi partiyaları:

*Qələbə Uğrunda Cəbhə - Xustisialist Partiyası (31 senator, 115 deputat liderləri Kristina Fernandes de Kirşner və Daniel Skioli),*

*Radikal Vətəndaş İttifaqı (17 senator, 42 deputat, sədr Mario Barletta),*

*Peronist Cəbhə (21 deputat, sədr Ramon Puerta),*

*Sosialist partiyası (1 senator, 6 deputat, sədr Ruben Custiniani),*

*Santyaqo Uğrunda Vətəndaş Cəbhəsi (7 deputat),*

*PRO (11 deputat, sədr Maurisio Masri),*

*Xalq İttifaqı (5 deputat, sədr Luis Fernandes),*

*Vətəndaş Koalisiyası (5 deputat, sədr Elisa Karrio) və s.*

***Məhkəmə hakimiyyəti:*** *Magistratura Şurasının* təqdimatı və *Senatın* razılığı ilə *Prezident* tərəfindən təyin edilən 9 hakimin yer aldığı *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

Ölkədə federal məhkəmələrlə yanaşı, ixtisaslaşmış və əyalət məhkəmələri də fəaliyyət göstərir.

# BELARUS





***Ümumi məlumat:*** *Belarus* - Rusiya dövlətçiliyinin ən qədim mərkəzlərindən biridir. XIV-XVI əsrlərdə *Litva-Rusiya* dövlətinin, XVI-XVIII əsrlərdə isə *Reç Pospolitanın* tərkibinə daxil olmuş bu ölkə, 1772-1795-ci illərdə *Rusiyaya* birləşdirilmişdir. 1917-ci ilin dekabr ayında *Belarusda* sovet hakimiyyəti qurulmuş, 1919-cu ildə *BSSR* yaradılmış, 1922-ci il 30 dekabr tarixində isə SSRİ-nin tərkibinə daxil edilmişdir. 1939-cu ilin noyabr ayında *Belarus Sovet Sosialist Respublikası* Qərbi Belarusla birləşdirilmişdir.

1990-cı ilin iyulunda Respublika Ali Soveti tərəfindən Belarus Dövlətinin Suverenlik Bəyannaməsi qəbul edilmiş, 1991-ci ilin dekabr ayında isə *Sovet İttifaqının* ləğv edilməsi ilə əlaqədar *Belarus* müstəqil dövlətə çevrilmişdir.

*Şərqi Avropada* yerləşən *Belarus Respublikasının* paytaxtı *Minsk* şəhəridir.

Ölkənin ərazisi 207 595 $km^2$, əhalisi *(2012)* 9,457,500 nəfərdir *(əhali sıxlığı* 45.8 *nəfər/*$km^2$*)*.

*Belarusun* rəsmi dövlət dili *belorus və rus* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.756 – yüksəkdir *(65-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik respublikadır. Dövlət suverenliyi haqqında Bəyannamə 27 iyul 1990-cı ildə qəbul olunmuşdur. Milli bayram olan Dövlət Müstəqilliyi günü 3 iyulda - ölkənin alman faşist işğalçılarından azad olunması tarixində (1944) qeyd edilir.

Dövlətin Konstitusiyası 15 mart 1994-cü ildə qəbul edilmiş və 24 noyabr 1996-cı ildə Konstitusiyaya dəyişikliklər edilərək Prezidentin hüquqları genişləndirilmişdir.

***İnzibati bölgüsü:*** 12 şəhər və 118 rayondan ibarət olan 6 vilayətə *(Brest, Bitebsk, Mogilyov, Minsk, Qrodno və Qomel)* və *Minsk* paytaxt inzibati vahidliyinə bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə milli birliyin rəmzi, habelə dövlətin müstəqilliyinin və təhlükəsizliyinin, Konstitusiyanın və ərazi bütövlüyünün təminatçısı olan *Belarus Respublikasının Prezidenti* dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanıdır.

Çox geniş səlahiyyətlərə malik olan dövlət başçısı zərurət olduqda *Parlamenti* buraxa və yeni seçkilər təyin edə bilər. 17 oktyabr 2004-cü ildə Konstitusiyaya edilmiş son dəyişikliyə görə *Belarus Prezidenti* seçilmək üçün limit aradan qaldırılmışdır. Dövlət başçısının səlahiyyət müddəti 5 ildir.

20 iyul 1994-cü ildən etibarən fasiləsiz olaraq Respublikaya rəhbərlik edən *Aleksandr Lukaşenko,* 19 dekabr 2010-cu ildə keçirilmiş növbəti Prezident seçkilərində böyük üstünlüklə qalib gələrək 4-cü müddətə Belarus Respublikasının dövlət başçısı seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Belarusun nümayəndəli qanunverici orqanı sayılan *Milli Məclis* iki palatadan: *Nümayəndələr Palatasından* və *Respublika Şurasından* ibarətdir. Səlahiyyət müddəti 4 ildir. *Nümayəndələr palatası (Aşağı Palata)* 110 deputatdan ibarətdir. *Respublika Şurası (Yuxarı Palata)* ərazi təmsilçiliyi palatası hesab olunur və tərkibinə 64 deputat daxildir *(hər vilayətdən 8 üzv, 8 üzv isə Prezident tərəfindən təyin olunur).*

*Nümayəndələr Palatası* qanunların qəbulu, ölkədə Prezident seçkilərinin təyin edilməsi, *Baş nazirin* təyinatı üçün Prezidentə razılıq verilməsi, Hökumətə etimadsızlıq göstərilməsi və digər mühüm səlahiyyətlərə malikdir.

23 sentyabr 2012-ci ildə ali qanunvericilik orqanına keçirilmiş son seçkilərin nəticələrinə əsasən Parlamentin *(Nümayəndələr Palatası)* indiki tərkibi aşağıdakı sıralama qaydasında formalaşmışdır:

*Müstəqil deputatlar (əsasən icra hakimiyyəti orqanlarının və digər dövlət müəssisələrinin rəhbərləri)- 105,*

*Belarus Kommunist Partiyası – 3 yer,*

*Belarus Aqrar Partiyası – 1 yer,*

*Əmək və Ədalət Respublika Partiyası – 1.*

Bütövlükdə isə Belarusda fəaliyyət göstərən əsas partiyalar aşağıdakılardır:

*Aqrar Partiya,*

*Belorus Sosial-Demokrat Partiyası (Xalq Qramadası),*

*Ədalətli Dünya Partiyası (keçmiş Belarus Kommunistləri Partiyası),*

*Belarus Xalq Cəbhəsi Partiyası,*

*Belorus Kommunist Partiyası,*

*Əmək və Ədalət Respublika Partiyası və s..*

***İcraedici hakimiyyət:*** Hökumət *Nazirlər Şurası* və ona rəhbərlik edən *Baş nazir* tərəfindən həyata keçirilir. *Hökumətin* başçısı *Aşağı Palatanın* razılığı ilə *Prezident* tərəfindən təyin olunur.

*Nazirlər Şurası* öz fəaliyyətinə görə dövlət başçısına hesabat verir və ölkə *Parlamenti* qarşısında kollektiv məsuliyyət daşıyır.

28 dekabr 2010-cu ildən etibarən ölkənin hazırkı, sayca 7-ci *Baş naziri Mixail Myasnikoviçdir.*

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya əsasən ərazi və ixtisaslaşma prinsipləri əsasında qurulur. Dövlətdə normativ aktların Konstitusiyaya uyğunluğuna nəzarət edən, altı üzvü *Prezident* tərəfindən təyin edilən, digər altı hakimi isə *(hakimlərin səlahiyyət müddəti 11 ildir) Respublika Şurası* tərəfindən seçilən *Konstitusiya Məhkəməsi* Belorus Respublikasında məhkəmə hakimiyyətinin həyata keçirilməsində səlahiyyətlidir.

# BENİN RESPUBLİKASI





***Ümumi məlumat:*** İndiki *Benin Respublikasının* ərazisində avropalı müstəmləkəçilərin peyda olmalarına qədər erkən feodal krallığı mövcud olmuşdur. 1893-cü ildən etibarən *Dahomey* adı altında *Fransanın* torpaqları sayılan Benin, 1960-cı ildə öz müstəqilliyini elan etmişdir.

Qərbi Afrikada yerləşən *Benin Respublikasının* paytaxtı *Porto-Novo* şəhəridir.

Ölkənin ərazisi 112,622 km², əhalisi *(2012)* 9,598,787 nəfərdir *(əhali sıxlığı* 78.1 *nəfər/km²)*.

*Beninin* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.427 - aşağıdır *(167-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 01 avqust tarixində qeyd olunur. Ölkə Konstitusiyası 02 dekabr 1990-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Benin Respublikası 77 kommunadan ibarət olan 12 departamentə *(Alibori, Atakora, Kollinz, Kuffo, Plato, Zu, Ueme, Mono, Litoral, Donqa, Borqu və Atlantik )* bölünür.

***Dövlət başçısı:*** *Prezident* ümumxalq səsverməsi yolu ilə, iki dəfədən artıq olmamaq şərti ilə, 5 il müddətinə seçilir. Mövcud Konstitusiyaya görə azı 10 il Benində yaşamış, 40-70 yaşları arasında olan ölkə vətəndaşlarının dövlət başçısı seçilmək hüququ vardır.

Beninin müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün təminatçısı sayılan ölkə *Prezidenti* dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin Ali Baş Komandanı olmaqla yanaşı, qanunvericilik hakimiyyətinin həyata keçirilməsində bilavasitə iştirak edir.

Ölkənin hazırkı, 4-cü Prezidenti 06 aprel 2006-cı ildən etibarən *Yayi Bonidir (13 mart 2011-ci ildə keçirilmiş son prezident seçkilərində Y.Boni 53.18 % səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** 83 yerlik *Milli Assambleyadan (sədri 2007-ci ildən Demokratiya və İnkişaf Naminə İttifaq Partiyasının* lideri *Maturin Koffi Naqodur)* ibarət bir palatalı Parlamentdir. Milli Assambleyaya nümayəndələr proporsional sistem üzrə 5 illik müddətə seçilirlər.

*Milli Assambleya* qanunvericilik fəaliyyəti ilə yanaşı, eyni zamanda Hökumətin fəaliyyətinə nəzarət funksiyasını da həyata keçirir.

Mövcud Konstitusiyaya görə, səlahiyyət hüdudları məhdud olan *Benin Parlamenti* zəruri hallarda öz qanunvericilik funksiyalarının bir hissəsini müəyyən müddətə dövlət başçısına ötürə bilər.

30 aprel 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində mandat qazanmış ölkənin əsas siyasi partiyaları:

*CFEB (lideri Yayi Boni, 41 yer)*

*UN (Milli Birlik, lideri A.Houngbeji, 30 yer)*

Digər 6 partiyanın hər biri Milli Assambleyada 2 yerə sahibdir.

***İcraedici hakimiyyət:*** Ölkədə icraedici hakimiyyət əsasən vasitəçilik funksiyalarına malik və Prezidentə tabe olan yuxarı icra orqanı - *Hökumət* tərəfindən həyata keçirilir. Hökumət üzvləri Prezident tərəfindən təyin edilirlər və onun qarşısında fəaliyyətlərinə görə birbaşa məsuliyyət daşıyırlar.

13 illik *(1998-2011-ci illər)* fasilədən sonra *Baş Nazir* postu yenidən təsis edilmişdir və 28 may 2011-ci ildən etibarən *Paskal Kupaki* Benin Hökumətinə rəhbərliyi həyata keçirir.

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti – 3 üzvü Prezident, 4 hakimi isə Parlament tərəfindən təyin olunan 7 üzvdən ibarət *Konstitusiya Məhkəməsi* və hüquqi məsələlər yurisdiksiyası üzrə ən yüksək instansiya sayılan, sədri Parlamentin və Ədliyyə nazirinin tövsiyəsi ilə dövlət başçısı tərəfindən təyin edilən *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

Benin Respublikasının məhkəmə sisteminə *Apelyasiya və birinci instansiya məhkəmələri* də daxildir.

# BOLİVİYA





***Ümumi məlumat:*** 1530-cu illərdən etibarən *Boliviya (Yuxarı Peru adı altında)*, Amerikadakı ispan müstəmləkə torpaqlarının tərkibinə daxil edilmişdir.

*Boliviya* 1809-cu ildə *İspaniyadan* müstəqilliyini elan etməsinə baxmayaraq, ispan silahlı qüvvələrinin ölkədən çıxarılmasına yalnız 1825-ci ildə nail olmuş və nəticədə qəti olaraq dövlət müstəqilliyini əldə etmişdir.

*Cənubi Amerikada* yerləşən *Boliviya Respublikasının* paytaxtı *Sukre* şəhəridir.

Ölkənin ərazisi 1,098,581 km², əhalisi *(2010)* 10,907,778 nəfərdir *(əhali sıxlığı* 8.9 *nəfər/km²)*.

*Boliviyanın* rəsmi dili *ispan, keçua, aymara, quarini* və digər 33 dildir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.663 - ortadır *(108-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1825) 06 avqust qeyd olunur. Prezident *Evo Morales* tərəfindən təklif edilmiş və 29 yanvar 2009-cu il tarixli referendumda 62% səslə qəbul edilmiş ölkənin yeni Konstitusiyası iqtisadiyyatın hakim mövqeyə malik sektorlarına dövlətin nəzarətini təsbit edir, qaz ehtiyatları və digər təbii resursları milli sərvət elan edir. Yeni Konstitusiya katolikliyin ölkədəki rəsmi din statusunu ləğv edərək yerli sakinlərin –

hinduların hüquqlarını əhəmiyyətli şəkildə genişləndirir. Habelə ispan dili ilə yanaşı hindu xalqlarının bütün dillərinə dövlət dili statusu verilir. Bundan əlavə, yeni Konstitusiyaya görə ölkə parlamentində milli azlıqlardan ibarət qruplar üçün yerlər müəyyənləşdirilmiş, həmçinin hindu dillərinin ölkə boyu məcburi öyrənilməsi təsbit edilmişdir.

***İnzibati bölgüsü:*** Kantonları birləşdirən 12 əyalətdən ibarət 9 departamentə *(La-Pas, Koçabamba, Santa-Krus, Beni, Çukisaka, Oruro, Pando, Potosi və Tarixa)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə geniş səlahiyyətlərə malik *Prezident* dövlət və hökumət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanıdır. Prezident ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir. Sadə səs çoxluğu (50%-dən artıq) əldə etmiş namizəd seçilmiş hesab edilir. Qalib müəyyən edilmədiyi təqdirdə *Parlament* hər iki palatanın birgə iclasında daha çox səs toplamış iki namizəddən birini *Prezident* seçir.

*Prezident* Konstitusiyanın və hüquqi dövlətin qarantı sayılır, bununla belə qanunvericilik təşəbbüsü hüququ ilə çıxış etməkdə və dekretlər dərc etməkdə səlahiyyətli olan dövlət başçısının qanunvericilik fəaliyyəti bir qədər məhduddur.

Boliviya Prezidenti hər il Konqresə ənənəvi müraciət ünvanlayır, dövlət büdcəsini Parlamentin müzakirəsinə təqdim edir, milli gəlirlərinin bölünməsinə və vergi siyasətinin icrasına nəzarəti həyata keçirir.

22 yanvar 2006-cı ildən etibarən Boliviyanın hazırkı, sayca 80-ci Prezidenti *Evo Moralesdir (2009-cu ilin dekabr ayında keçirilmiş son Prezident seçkiləri nəticəsində Morales 63 % səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir).*

Ölkənin vitse-prezidenti 22 yanvar 2006-cı ildən etibarən *SNH-dən olan Alvaro Qarsiya Lineradır.*

***Qanunverici hakimiyyət:*** Qanunverici orqan *Milli Konqresdir.* Konqres 2 palatadan - *Senat* (36 yer) və *Nümayəndələr*

*Palatasından* (130 yer) ibarətdir. Senata üzvlər 9 departamentin hər birindən 35 yaşına çatmış 4 namizəd olmaqla proporsional nümayəndəlik sistemi üzrə 5 il müddətinə seçilirlər.

*Nümayəndələr Palatasının* üzvləri ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilirlər. Palatanın 77 üzvü bir mandatlı dairələr üzrə seçilir, digərləri isə (hal-hazırda 53 üzv) partiya siyahıları sistemi üzrə proporsional qaydada seçilirlər.

Mövcud konstitusiyaya görə, *Konqres* Hökumətin illik maliyyə hesabatını təsdiq edir, *Ali Məhkəmənin* üzvlərinin və personalının, habelə silahlı qüvvələrin sayını müəyyən edir, yüksək dövlət vəzifələrinə təyin olunması məqsədi ilə öz namizədlərinin təqdimatını Prezidentə verir və geniş spektri əhatə edən ən müxtəlif məsələlərlə bağlı təhqiqat komissiyaları yaradır.

09 dekabr 2009-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində mandat qazanmış əsas siyasi partiyalar:

*Sosializm Naminə Hərəkat (lideri Evo Morales, 88 deputat, 26 senator),*

*Milli Birləşmə (lideri Manfred Reyes Villa, 37 deputat, 10 senator),*

*Milli Birlik Cəbhəsi (3 deputat),*

*Sosial Alyans (2 deputat).*

***Məhkəmə hakimiyyəti:*** *Ali Məhkəmə, Konstitusiya Məhkəməsi* və *Məhkəmə Şurası* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Eyni zamanda Boliviyanın məhkəmə sisteminə *aqrar* və *ekoloji tribunallar, habelə ixtisaslaşmış* və *aşağı instansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

# BURUNDİ






***Ümumi məlumat:*** XVIII əsrdə ölkə ərazisində təşəkkül tapmış müstəqil *Burundi* feodal dövlətinin torpaqları, XX əsrin əvvəllərində *Almaniya* tərəfindən zəbt edilmişdir. Birinci dünya müharibəsinin gedişində *Belçika Krallığı Burundini* işğal etmiş və 1923-cü ildə Millətlər Liqasının qərarı ilə, *Krallığın* mandatı altında idarəetməni həyata keçirməyə başlamışdır.

1962-cı ildə *Burundi Krallığı* öz müstəqilliyini elan etmişdir *(1966-cı ildə monarxiya rejimi devrilmiş və Burundi Respublikası elan edilmişdir).*

*Mərkəzi Afrikada* yerləşən *Burundi Respublikasının* paytaxtı *Bujumbura* şəhəridir.

Ölkənin ərazisi 27,834 km², əhalisi *(2012)* 8,749,000 nəfərdir *(əhali sıxlığı* 314.3 *nəfər/km²).*

*Burundinin* rəsmi dili *kirundi və fransız* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.316 - aşağıdır *(185-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1962) iyul ayının 1-də qeyd olunur. Burundi Respublikasının hazırkı Konstitusiyası 2005-ci ilin fevralından qüvvədədir.

***İnzibati bölgüsü:*** 117 Kommunadan ibarət 17 əyalətə *(Bubanza, Bujumbura-Meri, Bujumbura-Rural, Bururi, Giteqa, Kayanza, Kankuzo, Karuzi, Kibitoke, Kirundo, Makamba və s.)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin və hökumətin başçısı, silahlı qüvvələrin ali baş komandanı, habelə hüquqi dövlətin və milli birliyin təminatçısı sayılan *Prezident, Milli Assambleya (Parlament)* tərəfindən birbaşa seçkilər əsasında, iki dəfədən çox olmamaq şərti ilə 5 illik müddətə seçilir.

Hökumət başçısı funksiyasını da yerinə yetirən Prezidentə səlahiyyətlərinin icrasında iki vitse-prezident assistentlik edir. Onlardan biri siyasi və inzibati, digəri isə sosial və iqtisadi sferaları koordinasiya edir. Hər iki vitse-prezident (*T.Sinunquruza* və *G.Rufyikiri*) *Milli Assambleya* ilə məsləhətləşmələrdən sonra dövlət başçısı tərəfindən təyin edilir.

Ölkənin hazırkı Prezidenti 26 avqust 2005-ci ildən *Pyer Nkurunzizadır* (28 iyun 2010-cu ildə müxalifət partiyalarının seçkiləri boykot etməsi nəticəsində o, alternativsiz namizəd kimi qalib gəlmişdir).

***Qanunverici hakimiyyət:*** İki palatadan – 49 yerlik *Senatdan* və 100 yerlik *Milli Assambleyadan* ibarət Parlamentdir. *Yuxarı Palatada (Senat)* 34 yer birbaşa olmayan səsvermə yolu ilə əldə edilir, qalan 15 yer isə keçmiş dövlət başçıları və etnik azlıqların nümayəndələri arasında bölüşdürülür.

Parlamentin *Aşağı Palatasında (Milli Assambleya)* 5 il müddətinə seçilən 100 yerin formalaşmasında etnik *(60 % xutu və 40 % tutsi)* və cinsi *(30% qadınlar)* prinsiplər nəzərə alınır. Milli Müstəqil Seçki Komissiyası habelə etnik azlıqların maraqları naminə əlavə üzvlər təyin edirlər.

Mövcud Konstitusiyaya görə Burundi Parlamentinin qanunvericilik funksiyaları məhduddur. Belə ki, ölkə Prezidenti *Konstitusiya Məhkəməsi* ilə məşvərət edərək, status və hüquqi baxımdan qanunlardan daha qüvvəli olan fərmanlar qəbul etməkdə səlahiyyətlidir.

2010-cu ilin iyul ayında keçirilmiş seçkilər *(müxalifət seçkiləri boykot etmişdir)* nəticəsində Parlamentdə təmsil olunan ölkənin əsas siyasi partiyaları:

*Demokratiya Müdafiəsi Naminə Xalq Şurası (81 deputat);*
*Milli Tərəqqi İttifaqı (17 deputat);*
*Burundi Demokratik Cəbhəsi (5 deputat);*
*Tva (etnik qrup) (3 deputat).*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti, mülki və cinayət işləri üzrə ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Apelyasiya Məhkəməsi və 1-ci İnstansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

Eyni zamanda Burundidə insan hüquq və azadlıqlarının pozulması və Konstitusiyanın şərhi məsələləri üzrə ixtisaslaşmış *Konstitusiya Məhkəməsi* fəaliyyət göstərir.

# CƏNUBİ AFRİKA RESPUBLİKASI

  

***Ümumi məlumat:*** *Cənubi Afrikada* müstəmləkəçilik siyasətinin əsasları 1632-ci ildə hollandiyalılar *(Kap Koloniyası)* tərəfindən qoyulmuşdur.

1806-cı ildə *Cənubi Afrika* torpaqlarını zəbt etmiş *Böyük Britaniyadan* ilk mühacirlər bu torpaqlarda 1820-ci ildə məskunlaşmağa başlamışlar. 1910-cu ildə bu ərazilər və *Kap koloniyası Cənubi Afrika İttifaqında* birləşərək *Böyük Britaniyanın* dominionuna çevrilmişdir.

1961-ci ildə Cənubi Afrika *Britaniya Millətlər Birliyinin* tərkibindən çıxaraq özünü müstəqil respublika elan etmişdir.

*Afrikanın* cənub hissəsində yerləşən *Cənubi Afrika Respublikasının* paytaxtı *Pretoriya* şəhəridir.

Ölkənin ərazisi 1,221,037 km$^2$, əhalisi *(2011)* 51,770,560 nəfərdir *(əhali sıxlığı* 42.4 *nəfər/km$^2$).*

*CAR-ın* mövcud Konstitusiyasına görə ölkədəki rəsmi dillərin sayı 11-dir *(ingilis, afrikaans, venda, zulu, kosa, ndebele, svati, sesoto, şimali soto, tsvana və tsonqa).*

Dövlətin İnsan İnkişafı İndeksi - 0.619 - ortadır *(123-cü yer).*

***Dövlət quruluşu:*** Parlamentin geniş səlahiyyətlərə malik olduğu məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1961) 31 may tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1997-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Şəhər və rayon dairələrindən ibarət olan 9 əyalətə *(Qərbi Kap, Şimali Kap, Şərqi Kap, Kvazulu-Natal, Müstəqil Dövlət, Şimal-Qərbi, Qautenq, Mpumalanqa və Limpopo)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin idarə edilməsində çox geniş səlahiyyətlərə malik olan dövlət və hökumət başçısı – *Prezident* eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanıdır. Hökumətin tərkibinin formalaşdığı Parlamentin *Aşağı Palatasında (Milli Assambleya)* çoxluq təşkil edən siyasi partiyanın lideri, bir qayda olaraq ölkə Prezidenti elan edilir.

Konstitusiyanı qorumaqda və milli birliyi təmin etməkdə məsul olan dövlət başçısı - Parlamentin qəbul etdiyi qanunları imzalayır, ali qanunverici orqanın palatalarını fövqəladə iclaslara toplayır, referendum elan edir, Konstitusiya və müvafiq qanunlar ilə nəzərdə tutulmuş hallarda yüksək vəzifələrə təyinatı həyata keçirir, əfv fərmanı imzalayır, dövlət mükafatları ilə təltif edir, Cənubi Afrika Respublikasının diplomatik nümayəndələrini təyin edir və vəzifələrindən geri çağırır, xarici dövlətlərin diplomatik təmsilçilərinin etimadnamələrini qəbul edir və səlahiyyətli olduğu digər məsələləri həyata keçirir.

Parlamentdə 20%-dən çox səs toplamış istənilən siyasi partiya, *Baş nazir* səlahiyyətlərinə bərabər olan *Prezident köməkçisi* postuna öz namizədini irəli sürür və daha sonra dövlət başçısı tərəfindən təsdiq edilir.

Hazırkı ölkə Prezidenti 9 may 2009-cu ildən etibarən *Afrika Milli Konqresinin* lideri *Ceykob Zumadır.*

***Qanunverici hakimiyyət:*** Əyalətlərin *Milli Şurasından (Yuxarı Palata, 90 yer)* və *Milli Assambleyadan (Aşağı Palata, 400 yer)* ibarət iki palatalı Parlamentdir. *Milli Assambleyaya* nümayəndələr proporsional sistem üzrə *(deputatların yarısı ümummilli siyahılarla, digər 200 üzv isə əyalətlərdən)* 5 illik müddətə seçilirlər. Əyalətlərin *Milli Şurasında (Yuxarı Palata)* hər əyalət, əhalisinin sayından asılı olmayaraq 10 üzvlə təmsil olunur.

*Parlament,* ölkə Prezidenti istisna olmaqla, onun qarşısında kollektiv məsuliyyət daşıyan və fəaliyyəti barədə ali qanunverici orqana mütəmadi hesabat verən Hökumət üzvlərinə səs çoxluğu ilə etimadsızlıq göstərmək və Kabineti istefaya göndərmək səlahiyyətinə malikdir.

*Aşağı Palatanın* sədri 6 may 2009-cu il tarixindən etibarən *AMK-nın* təmsilçisi *Maks Sisuludur.*

22 aprel 2009-cu il tarixində keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları aşağıdakılardır:

*Afrika Milli Konqresi (264 deputat, sədri C.Zuma),*
*Demokratik Alyans Partiyası (67 deputat, sədri H.Zille),*
*Xalq Konqresi (30 deputat, sədri M.Lekota),*
*İnkata – Azadlıq Partiyası (18 deputat, sədri M.Buthelezi).*

***Məhkəmə hakimiyyəti:*** Cənubi Afrika Respublikasının *Ali Məhkəməsi* ölkə ərazisində bütün məhkəmələrin fəaliyyətinə nəzarəti və idarə edilməsi üzərində hakimiyyəti həyata keçirir. Eyni zamanda CAR-ın qarışıq hüquq sisteminə əsaslanan məhkəmə sisteminə *Konstitusiya Məhkəməsi,* habelə *Yüksək Apelyasiya* və *Magistr məhkəmələri* də daxildir.

# CƏNUBİ KOREYA

  

***Ümumi məlumat:*** *Koreya* insan sivilizasiyasının ən qədim mərkəzlərindən biri sayılır. *Vahid Koreya* dövlətinin yaranması 668-ci ildə tam olaraq başa çatmışdır. 1910-1945-ci illər ərzində ölkə *Yaponiya İmperiyasının* tərkibinə *(General-qubernatorluq statusunda)* daxil edilmişdir.

1945-ci ilin sentyabr ayında *Koreyanın* 38-ci paraleldən cənuba doğru hissəsinin Amerika hərbi birləşmələrinin nəzarətinə keçməsi ilə, ölkənin iki yerə bölünməsinin əsası qoyulmuşdur. Nəticədə, 15 avqust 1948-ci il tarixində *Seul* şəhərində *Koreya Respublikası (Cənubi Koreya)*, həmin ilin 9 sentyabr tarixində isə *Pxenyanda Koreya Xalq-Demokratik Respublikası (Şimali Koreya)* rəsmən elan edilmişdir.

*Şərqi Asiyada, Koreya yarımadasının* cənub hissəsində yerləşən *Cənubi Koreya Respublikasının* paytaxtı *Seul* şəhəridir.

Ölkənin ərazisi 100,210 km², əhalisi *(2012)* 50,004,441 nəfərdir *(əhali sıxlığı* 491 *nəfər/km²).*

*Cənubi Koreyanın* rəsmi dövlət dili *koreya* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.897 – çox yüksəkdir *(15-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü *(1948, Yaponiyadan müstəqilliyini elan etmişdir)* avqust ayının 15-də qeyd olunur. Ölkənin 6-cı Konstitusiyası 1988-ci ilin fevralından qüvvədədir.

***İnzibati bölgüsü:*** 9 əyalətə *(Çxunçxon-Pukto, Çxunçxon-Namdo, Kanvondo, Kenqido, Kensan-Pukto, Kensan-Namdo, Çolla-Pukto, Çolla-Namdo və Cecudo)*, 6 əyalət statuslu şəhərə *(Pusan, Tequ, İnçxon, Kvancu, Tecon və Ulsan)* və xüsusi statusa malik *Seul* şəhərinə bölünür.

***Dövlət başçısı:*** Ölkədə siyasi hakimiyyət *Prezidentə* məxsusdur. Cənubi Koreya Respublikasının Prezidenti ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir.

Dövlətin milli müstəqilliyinin, ərazi bütövlüyünün, Konstitusiyanın müdafiəsinin təminatçısı olan, habelə silahlı qüvvələrin ali baş komandanı vəzifəsini də yerinə yetirən dövlət başçısı *Cənubi Koreyanı* xaricdə təmsil etməkdə, diplomatik nümayəndələrin təyinatında və qəbulunda, beynəlxalq müqavilələrin bağlanmasında və digər siyasi sahələrdə geniş səlahiyyətlərə malik olmaqla yanaşı, müharibə elan etmək və ya sülhə imza atmaq, habelə zəruri hallarda ölkədə fövqəladə vəziyyət elan etmək hüququnu özündə saxlayır.

25 fevral 2013-cü ildən etibarən *Cənubi Koreyanın* hazırkı, sayca 11-ci Prezidenti *xanım Pak Kın Xedir*.

***Qanunverici hakimiyyət:*** Qanunverici orqan - birpalatalı *Milli Assambleyadır*. Parlament 300 üzvdən ibarətdir və onlar 4 illik müddətə seçilirlər. Ümumi seçkilər yolu ilə seçilmiş deputatlar *Assambleyanın* tərkibinin 5/6 hissəsini təşkil edir, qalan yerlər isə proporsional olaraq ümumi seçkilər nəticəsində 5 və ya daha artıq yer qazanmış partiyalar arasında bölüşdürülür.

Qanunvericilik səlahiyyətləri ilə yanaşı, Parlament illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası, müharibəyə razılıq verilməsi, ölkə ərazisində xarici ölkələrin hərbi kontingentinin yerləşdirilməsi və s. funksiyaları da yerinə yetirir. Dövlət başçısı *Milli Assambleyanı* buraxmaq səlahiyyətlərinə malik deyildir, əksinə, qanunverici orqan Prezidentə etimadsızlıq göstərməkdə səlahiyyətlidir.

2012-ci il aprel ayının 11-də keçirilmiş son Parlament seçkilərinin nəticələrinə əsasən *Milli Assambleyada* yer almış ölkənin əsas siyasi partiyaları:

*"Senuri" Partiyası – (150 yer),*
*Birləşmiş Demokratik Partiya – (127 yer),*
*Birləşmiş Proqressiv Partiya – (13 yer),*
*Liberal Proqressiv Partiya (LFP, 5 yer),*
*Müstəqillər - (3 yer).*

*"Senuri"* Partiyasının seçkilərdə qalib gəlməsi xalqın mühafizəkarlara göstərdiyi böyük etimad kimi qiymətləndirilir.

***İcraedici hakimiyyət:*** Prezident *Baş naziri* Parlamentin razılığı ilə təyin edir. *Nazirlər Kabineti - Dövlət Şurası* Prezident tərəfindən Baş nazirin təqdimatı əsasında formalaşdırılır. Hökumətin tərkibinə müvafiq Nazirliklərlə yanaşı, Milli Kəşfiyyat Xidməti, eləcə də Dövlət qulluğu üzrə Komissiya daxildir.

*Dövlət Şurası* ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir, Baş prokurorun, komitə sədrlərinin və bir sıra digər vəzifəli şəxslərin təyinatını həyata keçirir.

*Cənubi Koreya* Hökumətinə 01 oktyabr 2010-cu ildən etibarən *Kim Xvan Sik başçılıq edir.*

***Məhkəmə hakimiyyəti:*** *Konstitusiya Məhkəməsi* və *Ali Məhkəmə* ölkədə ali məhkəmə hakimiyyətini həyata keçirirlər. Üzvləri *(9 hakim)* Prezident tərəfindən təyin edilən *Konstitusiya Məhkəməsi* ölkədə Konstitusiya nəzarətini həyata keçirməkdə və impiçmentlə bağlı son qərar verməkdə səlahiyyətlidir.

Digər məhkəmə məsələləri isə sədri *(Assambleyanın razılığı ilə)* və üzvləri Prezident tərəfindən təyin olunan *Ali Məhkəmənin* və digər ixtisaslaşmış məhkəmələrin *(Ailə Məhkəməsi və Hərbi Tribunal)* nəzarətindədir.

# CƏNUBİ SUDAN





***Ümumi məlumat:*** 9-15 yanvar 2011-ci il tarixlərində *Sudanın* cənub ərazisinin gələcək taleyi ilə bağlı keçirilmiş referendumun nəticələrinə əsasən, cənubluların böyük əksəriyyəti müstəqil dövlət yaradılmasının lehinə səs vermişlər.

09 iyul 2011-ci ildə *Sudan Respublikası* tərəfindən müstəqilliyi rəsmi şəkildə tanındıqdan sonra, hazırda BMT üzvü olan ən gənc dövlət - *Cənubi Sudan* öz müstəqilliyini elan etmişdir.

*Afrika* qitəsində yerləşən *Cənubi Sudan Respublikasının* paytaxtı *Cuba* şəhəridir.

Ölkənin ərazisi 619,745 km², əhalisi *(2008)* 8,260,490 nəfərdir *(əhali sıxlığı* 13,33 *nəfər/km²)*.

Ölkənin rəsmi dili *ingilis* dilidir.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (2011) 09 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 2011-ci ilin iyul ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** Üç region üzrə *(Ekvatoriya -3, Bəhr əl-Qəzəl- 4 və yuxarı Nil -3 vilayət)* 76 dairədən ibarət olan 10 ştata *(Varab, Yuxarı Nil, Şərqi Ekvatoriya, Conqli, Qərbi Ekvatoriya, Qərbi Bəhr-el-Qəzəl, Qərbi Yuxarı Nil, Göl, Şimali Bəhr-əl-Qəzəl və Mərkəzi Ekvatoriya)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin və Hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılan Cənubi

Sudan Respublikasının *Prezidenti* ümumxalq səsverməsi yolu ilə seçilir.

Dövlətin idarə edilməsində bilavasitə iştirak edən *vitse-prezidenti (09 iyul 2011-ci ildən etibarən Rik Maçaradır)* və *Hökumət* üzvlərini təyin edən ölkə *Prezidenti*, eyni zamanda dünya birliyi dövlətləri arasında ən gənc respublika olan Cənubi Sudanın ali təmsilçisi olaraq, xarici siyasət kursunun formalaşmasında müstəsna səlahiyyətlərə malikdir.

Cənubi Sudanın ilk və hazırkı *Prezidenti* 11-15 aprel 2010-cu il tarixlərində keçirilmiş Prezident seçkiləri nəticəsində 93% səs toplayaraq qalib gəlmiş *Salva Kiir Mayarditdir.*

***Qanunverici hakimiyyət:*** 2011-ci ildən fəaliyyətə başlamış *Milli Assambleya: Ştatlar Şurasından (Yuxarı Palata)* və *Milli Qanunvericilik Assambleyasından (Aşağı Palatanın spikeri 9 iyul 2011-ci ildən etibarən Ceyms İqqadır)* ibarət iki palatalı *Parlamentdir.*

*Milli Assambleya* ənənəvi qanunvericilik səlahiyyətləri ilə yanaşı, Milli Dövlət İcrasına nəzarət, *Milli Hökumətin* fəaliyyət proqramının və planlarının təsdiq edilməsi, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin, konvensiyaların və sazişlərin ratifikasiyası, habelə bəzi təyinatları və digər mühüm funksiyaları həyata keçirir.

2010-cu ilin aprelində keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Qanunvericilik Assambleyasında* təmsil olunmaq hüququ əldə etmiş ölkənin iki əsas siyasi partiyaları aşağıdakılardır:

*NASO (93%);*

*Demokratiya Uğrunda Sudan Milli azadlıq Hərəkatı (7%).*

***Məhkəmə hakimiyyəti:*** Cənubi Sudan Respublikasının ən yüksək məhkəmə instansiyası olaraq, hakimiyyətin müstəqil qollarından biri sayılan *məhkəmə sisteminə* ümumi nəzarəti həyata keçirən və üzvləri dövlət başçısı tərəfindən təyin edilən *Ali Məhkəmədir.*

# ÇAD





***Ümumi məlumat:*** X əsrdən etibarən indiki *Çadın* ərazisində bir sıra erkən feodal dövlətləri mövcud olmuşdur. 1890-cu ildə fransız müstəmləkəçiləri ölkə ərazisinin işğalına başlamış və bu proses 1914-cü ildə tam olaraq başa çatdırılmışdır.

1960-cı ildə *Çad* dövlət müstəqilliyini elan etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Çad Respublikasının* paytaxtı *Ncamena* şəhəridir.

Ölkənin ərazisi 1,284,000 km², əhalisi *(2009)* 10,329,208 nəfərdir *(əhali sıxlığı* 8,0 *nəfər/km²)*.

*Çadın* rəsmi dövlət dili *fransız və ərəb* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.328 – aşağıdır *(183-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik Günü (1960) 11 avqust tarixində qeyd olunur. Ölkə Konstitusiyası 31 mart 1996-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 22 regiona *(Batxa, Çari-Baqirmi, Xacer- Lamis, Vadi-Fera, Bəhr-əl Qəzəl, Borku, Ennedi, Qera, Kanem, Lak, Qərbi Loqon, Şərqi Loqon, Salamat, Sila və s.)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* qüvvədə olan Konstitusiyaya edilmiş 6 iyun 2005-ci il tarixli düzəlişinə əsasən birbaşa seçkilərdə gizli səsvermə sistemi üzrə, məhdudiyyətsiz sayda 5 il müddətinə seçilir.

Geniş səlahiyyətlərə malik Prezidentin *Baş naziri* və *Hökumət* üzvlərini, habelə məhkəmə hakimlərini və digər yüksək vəzifəli şəxsləri təyin etmək, Hökumətin iclaslarını çağırmaq və onlara sədrlik etmək, zəruri hallarda Parlamentin razılığı ilə ölkədə fövqəladə vəziyyət elan etmək və Konstitusiya ilə müəyyən edilmiş digər müstəsna hüquqları vardır.

Ölkənin hazırkı, sayca 5-ci prezidenti 02 dekabr 1990-cı ildən etibarən *İdris Debidir (25 aprel 2011-ci ildə keçirilmiş son Prezident seçkilərində Debi 83.59% səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı 188 yerlik *Milli Məclisdir*. Parlamentə deputatlar ümumi və birbaşa seçkilərdə gizli səsvermə sistemi üzrə 4 illik müddətə seçilirlər.

Mövcud Konstitusiyaya əsasən, Parlament Hökumət başçısı olan Baş nazirin dövlət planını təsdiq etməlidir. *Milli Məclis,* eyni zamanda Hökumətə etimadsızlıq göstərməklə Baş naziri və onun komandasını istefaya göndərmək səlahiyyətinə malikdir.

Parlamentin hazırkı sədri 2011-ci ilin iyun ayından etibarən *Harun Kəbədidir.*

13-20 fevral 2011-ci il tarixlərində keçirilmiş son parlament seçkilərində mandat qazanmış ölkənin əsas siyasi partiyaları:

*Qurtuluş Vətən Hərəkatı Partiyası – 110 yer,*
*Demokratiya və Yeniləşmə Naminə Milli İttifaq – 11 yer,*
*Demokratik Bərpa İttifaqı Partiyası – 8 yer,*
*Demokratik Çad Naminə Hərəkat – 8 yer.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyəti ilə yanaşı, Parlamentlə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirən *Hökumətə* Prezident tərəfindən təyin edilən *Baş nazir* rəhbərlik edir.

Təyinatından dərhal sonra Baş nazirin təqdimatında Hökumətin fəaliyyət proqramının Parlament üzvləri tərəfindən

səs çoxluğu ilə təsdiq edilməsi əsas şərtdir. Bu baxımdan, Hökumət üzvləri öz fəaliyyətlərinə görə *Milli Məclis* qarşısında kollektiv məsuliyyət daşıyırlar.

Çadın hazırkı *Baş naziri* 21 yanvar 2013-cü ildən etibarən *Qurtuluş Vətən Hərəkatı Partiyasının təmsilçisi Cimranqar Dadnacidir*.

***Məhkəmə hakimiyyəti:*** Çadın ən yüksək məhkəmə instansiyası sayılan 15 üzvdən ibarət *Ali Məhkəmə* və üzvləri 9 il müddətinə təyin olunan 9 hakimdən ibarət *Konstitusiya Məhkəməsi,* eləcə də bir sıra ixtisaslaşmış və yerli məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# ÇİLİ





***Ümumi məlumat:*** Hal-hazırda yerli hinduların, ölkə əhalisinin sadəcə 3,2%-ni təşkil etdiyi *Çilinin* ərazisi XVI əsrin əvvəllərindən etibarən, ispan müstəmləkə imperiyasının bir hissəsi olsa da, ölkəyə avropalı mühacirlərin kütləvi axını yalnız XIX əsrdə baş vermişdir.

*Çili* 1810-cu ildə dövlət müstəqilliyini elan etmişdir.

Cənubi Amerikanın cənub-qərbində yerləşən *Çili Respublikasının* paytaxtı *Santyaqo* şəhəridir.

Ölkənin ərazisi 756,096 km², əhalisi *(2012)* 16,572,475 nəfərdir *(əhali sıxlığı* 23,0 *nəfər/km²)*.

*Çilinin* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.805 – çox yüksəkdir *(44-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarə-etmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1810) 18 sentyabrda qeyd olunur. 11 mart 1981-ci ildən qüvvədə olan ölkə Konstitusiyasında 1990-cı ildə bir sıra əhəmiyyətli dəyişikliklər edilmişdir.

***İnzibati bölgüsü:*** *Santyaqo* paytaxt dairəsi də daxil olmaqla 53 əyalətdən ibarət 15 regiona *(Tarapaka, Antofaqasta, Atakama, Kokimbo, Valparaiso, O`Hiqqins, Maule, Bio-Bio, Araukaniya, Los-Laqos, Arsen, Maqalyanes və Çili Antarktikası, Santyaqo, Los-Rios, Arika və Parinakota)* bölünür.

***Dövlət başçısı:*** *Prezident* dövlətin və *Hökumətin* başçısı, habelə Silahlı Qüvvələrin Ali Baş Komandanıdır. Təkrar

seçilmək hüququ olmayan Çili *Prezidenti* ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilir.

Dövlət başçısı yuxarı icra orqanı olan *Nazirlər Kabinetini* formalaşdırır, *Ali və Apelyasiya Məhkəmələrinin* tərkibini müəyyənləşdirir, səfirləri və digər diplomatik nümayəndələri, habelə bütün növ silahlı qüvvələrin başçılarını və *Milli Polis* rəisini təyin edir.

Bundan əlavə, Prezident qanunvericilik təşəbbüsü qaydasında Parlamentə qanun layihələrini təqdim etmək hüququna da malikdir.

11 mart 2010-cu ildən etibarən ölkə Prezidenti *Miqel Xuan Sebastyan Pinyera Eçenikedir*.

***Qanunverici hakimiyyət:*** Çili Respublikasının ali qanunverici orqanı olan *Milli Konqres* 2 palatadan – 38 yerlik *Senatdan (Yuxarı Palatanın sədri 20 mart 2012-ci ildən etibarən K.Eskalonadır)* və 24 Parlament komissiyasını özündə birləşdirən 120 yerlik *Deputatlar Palatasından (Aşağı Palatanın sədri 20 mart 2012-ci ildən etibarən N.Monskeberqdir)* ibarətdir.

*Senata* üzvlər regionlardan və subregionlardan əhali tərəfindən 8 il müddətinə seçilir və tərkibinin ½-i hər 4 ildən bir yenilənir.

*Deputatlar Palatasının* üzvləri ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə (60 seçki dairəsinin hər birindən 2 deputat olmaqla) seçilirlər. *Aşağı Palatanın* fəaliyyətinin əsas qayəsi Senat və Prezidentlə birlikdə qanunların qəbulu, habelə dövlət orqanları üzərində nəzarətin həyata keçirilməsidir.

Mövcud Konstitusiyaya görə Prezidentin, habelə bir və ya bir neçə millət vəkilinin qanunvericilik təşəbbüsü hüququnda təqdim etdikləri bəzi qanun layihələri yalnız *Senata* və yaxud istisnasız olaraq *Deputatlar Palatasına (vergi qanunvericiliyi, dövlət administrasiyalarının büdcələri, çağırış məsələləri)* verilə bilər.

13 dekabr 2009-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Senatda və Deputatlar Palatasında* təmsil olunan siyasi partiyalar:

*Xristian Demokratik Partiyası (9 senator, 19 deputat),*
*Müstəqil Demokratik İttifaq (8 senator, 37 deputat),*
*Milli Yenilənmə (4 senator, 18 deputat),*
*Demokratik Partiya (4 senator, 18 deputat),*
*Sosialist Partiyası (5 senator, 11 deputat),*
*Radikal Sosial-Demokratik Partiya (1 senator, 5 deputat),*
*Kommunist Partiyası (3 deputat).*

***Məhkəmə hakimiyyəti:*** Çili Respublikasının ən yüksək məhkəmə instansiyası sayılan və üzvləri Prezident tərəfindən təyin olunan 21 hakimdən ibarət *Ali Məhkəmə,* ölkədə Konstitusiya nəzarəti orqanı funksiyasını yerinə yetirən *Konstitusiya Məhkəməsi,* habelə *16 apelyasiya, 7 tribunal* və bir çox yerli ixtisaslaşmış məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

## DOMİNİKAN RESPUBLİKASI





***Ümumi məlumat:*** *Haiti* adası *Kolumb* tərəfindən 1492-ci ildə kəşf edilmiş və qısa müddətdən sonra ispan müstəmləkəsinə çevrilmişdir. 1821-ci ildə adanın şərq hissəsi *(Dominikan Respublikasının indiki ərazisi)* müstəqilliyini elan etsə də, bir il sonra *Haiti Respublikası* tərəfindən işğal edilmişdir.

1844-cü ildə *Haiti* əleyhinə baş vermiş üsyan nəticəsində yeni dövlət - *Dominikan Respublikası* yaranmışdır.

*Karib Hövzəsində (Amerika qitəsinin Vest-Hind coğrafi regionu)* yerləşən *Dominikan Respublikasının* paytaxtı *Santo-Dominqo* şəhəridir.

Ölkənin ərazisi 48,442 km$^2$, əhalisi *(2012)* 9,445,281 nəfərdir *(əhali sıxlığı* 193,6 *nəfər/km$^2$).*

*Dominikan Respublikasının* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.689 - ortadır *(98-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1844) fevral ayının 27-də qeyd olunur. Dominikan Respublikasının Konstitusiyası 1966-cı il 28 noyabr tarixindən qüvvədədir.

***İnzibati bölgüsü:*** 31 əyalətə *(Asua, Baoruko, Baraona, Daxabon, Duarte, Elias-Pinya, El-Seybo, Espaylyat, Ato-Mayor, İntependensiya, La-Veqa, La-Romana, Samana, Sançes-Ramires, La-Altaqrasiya, Valverde, Santo-Dominqo,*

*San-Pedro-de-Makoris, San-Xose-de-Okoa, Puerto-Plata, Santyaqo-Rodriqes, San-Kristobal, Ermanas-Mirabal, Peravi-ya, Pedernales və s.)* və inzibati mərkəzi *Santo-Dominqo* olan *milli dairəyə* bölünür.

***Dövlət başçısı:*** Ölkədə milli birliyin və müstəqilliyin rəmzi, hüquqi dövlətin, Konstitusiyanın, ərazi bütövlüyünün, milli təhlükəsizliyin ali təminatçısı, dövlətin və hökumətin başçısı - *Prezident* bir turdan ibarət ümumi, birbaşa seçkilər əsasında 4 illik müddətə seçilir.

Hökumət başçısı funksiyasını da yerinə yetirən Prezident *Nazirlər Kabinetinin* tərkibinə daxil olan nazirləri və 31 əyalətin qubernatorlarını təyin etmək və onların fəaliyyətini nəzarətdə saxlamaq, zəruri hallarda isə vəzifələrindən geri çağırmaq səlahiyyətlərinə malikdir.

Zərurət yarandıqda dövlət başçısını *vitse-prezident (16 avqust 2012-ci ildən ölkənin 1-ci xanımı Marqarita Fernan-dezdir),* o olmadıqda isə *Ali Məhkəmənin* sədri əvəz edir.

Ölkənin hazırkı dövlət başçısı 20 may 2012-ci ildə keçirilmiş son Prezident seçkilərində *51.21%* səslə qalib gəlmiş və 16 avqust 2012-ci il tarixindən etibarən səlahiyyətlərinin icrasına başlamış *Dominikan Azadlıq Partiyasının* nümayəndəsi *Danilo Medina Sançesdir.*

***Qanunverici hakimiyyət:*** Sədrləri hər il dəyişən iki palatadan ibarət *Konqres* və ya *Milli Assambleya* Dominikan Respublikasında qanunvericilik hakimiyyətini həyata keçirir. 32 yerlik *Yuxarı Palatada (Senat)* 31 əyalətin və milli dairənin hər biri bir senatorla təmsil olunur, *Aşağı Palata (Deputatlar Palatası)* isə bir turdan ibarət ümumi və birbaşa səsvermə yolu ilə, proporsional təmsilçilik sistemi üzrə seçilmiş 183 deputatdan ibarətdir.

Qanunların qəbul edilməsi ilə yanaşı, *Mərkəzi Seçki Komissiyasının* sədrinin və komissiya üzvlərinin, habelə *İctimai*

*Palatanın* üzvlərinin təyin edilməsi *Senatın* səlahiyyətlərinə aiddir.

2010-cu ilin may ayında keçirilmiş seçkilər nəticəsində Parlamentdə təmsil olunan ölkənin əsas siyasi partiyaları:

*Dominikan Azadlıq Partiyası (31 senator, 105 deputat);*

*Dominikan İnqilab Partiyası (75 deputat);*

*Xristian Sosial İslahatlar Partiyası (1 senator, 3 deputat).*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri *Milli Magistratura Şurası* tərəfindən təyin olunan Dominikan Respublikasının ən yüksək məhkəmə instansiyası - *Ali Məhkəmə,* habelə *Apelyasiya Məhkəməsi və birinci İnstansiya məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# EKVADOR





***Ümumi məlumat:*** XVI əsrin 30-cu illərindən XIX əsrin əvvəllərinə qədər indiki *Ekvador* ərazisi ispan müstəmləkə imperiyasının tərkibinə daxil olmuşdur. 1822-ci ildə, müstəqillik uğrunda mübarizədən sonra *Kito (ölkənin tarixi adı)* vilayəti *Böyük Kolumbiyanın* tərkibinə daxil olmuş, 1830-cu ildə isə müstəqil dövlət elan edilmişdir.

*Cənubi Amerikanın* şimal-qərb hissəsində yerləşən *Ekvador Respublikasının* paytaxtı *Kito* şəhəridir.

Ölkənin ərazisi 258,238 km², əhalisi *(2011)* 15,223,680 nəfərdir *(əhali sıxlığı* 58,95 *nəfər/km²)*.

*Ekvadorun* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.720 - yüksəkdir *(83-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1822) may ayının 24-də qeyd olunur. Ölkənin Yeni Konstitusiyası 2008-ci ilin sentyabrından qüvvədədir.

***İnzibati bölgüsü:*** 24 əyalətə *(Asuay, Bolivar, Qalapaqos, Quayas, İmbabura, Kanyar, Karçi, Kotopaksi, Los-Rios, Loxa, Manabi, Morona-Santyaqo, Napo, Opelyana, Piçinça, Pastasa, Samora-Çinçipe, Santa-Elena, Esmeraldas və s.)* və *Kito* paytaxt vilayətinə bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə, ardıcıl iki dəfədən çox olmamaqla 4 il müddətinə seçilən *Prezident* döv-

lətin və hökumətin başçısıdır. Müxtəlif sahələr üzrə 28 nazirliyi birləşdirən yuxarı icra orqanını - *Nazirlər Kabinetini* Prezident formalaşdırır və təyin edir.

İcra hakimiyyətinin həyata keçirilməsində dövlət başçısına *vitse-prezident (15 yanvar 2007-ci ildən etibarən Lenin Morenodur)* köməklik edir.

Dövlət başçısı *Milli Assambleyaya* iqtisadi məsələlər üzrə təcili qanun layihələri təqdim etmək səlahiyyətinə malikdir. Mövcud Konstitusiyaya görə, 30 gün müddətində Parlament bu layihələri müzakirə və qəbul etmədiyi təqdirdə, Prezident həmin məsələyə müvafiq dekret-qanun dərc edə bilər.

Ölkənin hazırkı, sayca 55-ci *Prezidenti* 15 yanvar 2007-ci ildən etibarən *PAİS Alyansının* lideri *Rafael Korreadır (17 fevral 2013-cü ildə keçirilmiş sonuncu prezident seçkilərində Korrea 57.17% səslə qalib gələrək ardıcıl olaraq 3-cü dəfə dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** *Milli Konqresi əvəz edən və* 2009-cu ildən qanunvericilik hakimiyyətini həyata keçirən birpalatalı 137 yerlik *Milli Assambleyadır.* Ekvador Konstitusiyasına əsasən 18 yaşına çatmış və siyasi hüquqlar əldə etmiş ölkə vətəndaşları Parlamentə seçilmək imkanı əldə edirlər.

*Milli Assambleyada* qanunlar adətən deputatların sadə səs çoxluğu ilə qəbul edilir. Prezident qəbul olunmuş qanun layihəsinə veto qoymaq hüququna malik olsa da, Parlamentin 2/3 səs çoxluğu ilə bu vetonu dəf etmək səlahiyyəti Konstitusiya ilə təsbit edilmişdir.

Qanunvericilik səlahiyyətləri ilə yanaşı, *Ekvador Parlamenti* illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyası, habelə bir sıra digər funksiyaları da həyata keçirir.

26 aprel 2009-cu ildən etibarən *Milli Assambleyanın* sədri *PAİS Alyansının* təmsilçisi *Fernando Cordero Quevodur.*

17 fevral 2013-cü ildə keçirilmiş son parlament seçkiləri nəticəsində *Milli Assambleyada* mandat əldə etmiş əsas siyasi partiyalar:

*PAİS Alyansı – (91 yer, lideri Rafael Korrea),*

*GREO – (12 yer, lideri Çezar Monqe),*

*21 Yanvar Vətənpərvər Cəmiyyət Partiyası – (6 yer, lideri Lusio Quterres),*

*Sosial-Xristian Partiyası – 6 yer,*

*CONAİE (Hindu xalqlarının konfederasiyası)– 6 yer,*

*Partido Avanza – 5 yer,*

*Ekvador Roldosist Partiyası – 1 yer,*

*Müstəqillər – 3 yer.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti 9 il müddətinə seçilən 21 hakimdən ibarət *Milli Məhkəmə*, 9 hakimdən ibarət *Konstitusiya Tribunalı,* habelə hər biri 3 hakimdən ibarət olan 5 palatalı *Ali Məhkəmə* və digər ixtisaslaşmış məhkəmələr tərəfindən həyata keçirilir.

# EKVATORİAL QVİNEYA






***Ümumi məlumat:*** 1492-ci ildə portuqal ekspedisiyasının kəşf etdiyi *Ekvatorial Qvineyanın* indiki ərazisi, 1592-ci ildən *Portuqaliyanın* müstəmləkəsinə çevrilmişdir. 1877-1878-ci illərdə ölkənin adalar hissəsi, 1900-cu ildə isə kontinental hissə *İspaniya* tərəfindən işğal edilmişdir.

1968-ci ildə *Ekvatorial Qvineya Respublikası* müstəqilliyini elan etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Ekvatorial Qvineyanın* paytaxtı *Malabo* şəhəridir.

Ölkənin ərazisi 28,050 km², əhalisi *(2009)* 676,000 nəfərdir *(əhali sıxlığı* 24,1 *nəfər/km²)*.

*Ekvatorial Qvineyanın* rəsmi dövlət dili *ispan, fransız və portuqal* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.537 - ortadır *(136-cı yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1968) oktyabr ayının 12-də qeyd olunur. Ölkə Konstitusiyası 17 noyabr 1991-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** İkisi *Bioko* və biri *Annobon* adalarında yerləşən 7 əyalətə *(Annobon, Şimali Bioko, Cənubi Bioko, Mərkəzi-Sur, Ke-Ntem, Litoral və Vele-Nzas)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə birbaşa seçkilərdə 7 il müddətinə seçilən *Prezident,* Ekvatorial Qvine-

yanın ərazi bütövlüyünün və təhlükəsizliyinin təminatçısı, ölkə daxilində və xaricdə Respublikanın ali təmsilçisidir.

Mövcud Konstitusiyaya görə dövlət başçısı, silahlı qüvvələrin ali baş komandanı və müdafiə naziri olan *Prezident - Nazirlər Kabinetini* istefaya göndərmək, beynəlxalq müqavilələri imzalamaq, *Baş naziri, Ali Məhkəmənin* sədrini, məhkəmə hakimlərini təyin etmək və s. mühüm səlahiyyətləri yerinə yetirir.

Ekvatorial Qvineyada dövlətin qoruyucusu və nəzarətçisi funksiyasına malik *Dövlət Şurası (Prezident vəfat etdikdə və ya fiziki cəhətdən qabiliyyətsiz olduqda hakimiyyət Dövlət Şurasına keçir)* fəaliyyət göstərir.

Ölkənin hazırkı, sayca 2-ci Prezidenti 03 avqust 1979-cu ildən *Teodoro Obianq Nqema Mbasoqodur (29 noyabr 2009-cu ildə keçirilmiş növbəti seçkilərdə T.Obianq 96% səslə yenidən qalib gəlmişdir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı 100 yerlik *Xalq Nümayəndələr Palatasıdır. Parlamentə* üzvlər çoxmandatlı seçki dairələrindən proporsional nümayəndəlik sistemi üzrə 4 illik müddətə seçilirlər.

Ölkədə çoxpartiyalı sistem mövcud olsa da, real hakimiyyət faktiki olaraq bir siyasi partiyanın - *Ekvatorial Qvineya Demokratik Partiyasının* hegemonluğu üzərində qurulmuşdur. Kiçik siyasi partiyalar hegemon partiyanın dominantlığını qəbul etməyə borcludurlar.

*Xalq Nümayəndələr Palatasının* hazırkı sədri *Anqel Serafin Douqan Malabodur.*

04 may 2008-ci ildə keçirilmiş son Parlament seçkilərində mandat qazanmış əsas siyasi partiyalar:

*Ekvatorial Qvineya Demokratik Partiyası – 99 yer,*

*Sosial Demokratiya Üçün Yaxınlaşma – 1 yer.*

***İcraedici hakimiyyət:*** Hökumət *Baş nazir*dən və nazirlərdən təşkil edilir. Ölkə Prezidenti *Baş naziri* vəzifəyə təyin və

azad edir. Tərkibi *Xalq Nümayəndələr Palatasının* üzvlərindən ibarət *Nazirlər Şurasını* Prezident formalaşdırır və Palata üzvləri tərəfindən təsdiq edilir.

Dövlət əməliyyatlarının idarə olunması, büdcə layihəsinin hazırlanması və pul-kredit siyasətinin müəyyənləşdirilməsi ölkə Prezidentinin rəhbərliyi ilə *Nazirlər Şurasına* həvalə edilmişdir.

Ölkənin hazırkı, sayca 8-ci *Baş naziri* 21 may 2012-ci ildən etibarən *Ekvatorial Qvineya Demokratik Partiyasının* təmsilçisi *Visente Ehato Tomidir.*

***Məhkəmə hakimiyyəti:*** Sədri və hakimləri Prezident tərəfindən təyin olunan *Ali Məhkəmə,* Konstitusiya nəzarəti orqanı sayılan və Ali Məhkəmə çərçivəsində fəaliyyət göstərən *Konstitusiya Məhkəməsi,* habelə *Apelyasiya* və yerli məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# ERİTREYA





***Ümumi məlumat:*** XVI əsrdən başlayaraq XIX yüzilliyin ortalarına qədər olan dövr ərzində *Osmanlı İmperiyasının* nəzarətində olan müasir *Eritreya* ərazisi, 1890-1941-ci illərdə isə *İtaliyanın* müstəmləkəsinə çevrilmişdir. 1950-1993-cü illər ərzində *Eritreya* adi əyalət statusunda *Efiopiyanın* tərkibinə daxil edilmişdir.

1993-cü ilin may ayında keçirilmiş referendumun nəticələrinə əsasən *(99.8% lehinə) Eritreya* müstəqilliyini elan etmişdir.

*Afrikanın* şimal-şərqində yerləşən *Eritreyanın* paytaxtı *Asmera* şəhəridir.

Ölkənin ərazisi 117,600 km², əhalisi *(2012)* 6,086,495 nəfərdir *(əhali sıxlığı* 51,8 *nəfər/km²)*.

*Eritreyanın* rəsmi dili *tiqrinya, ərəb və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.349 - aşağıdır *(177-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayramı günü olan müstəqillik günü (1993) 24 may tarixində qeyd edilir. Ölkə Konstitusiyası 1997-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 6 əyalətə *(Maekel, Debub, Qaş Barka, Anseba, Semien-Key-Bahri və Debub-Key-Bahri)* bölünür.

***Dövlət başçısı:*** Ölkədə milli birliyin rəmzi, milli müstəqilliyin, ərazi bütövlüyünün və dövlət təhlükəsizliyinin təminatçısı olan *Eritreya Prezidenti* - dövlətin və Hökumətin başçısı,

habelə silahlı qüvvələrin ali baş komandanıdır. Mövcud Konstitusiyaya görə, Prezident Parlament tərəfindən 5 il müddətinə seçilir.

Dövlət başçısı *Nazirlər Kabinetini* formalaşdırır və onun üzvlərini təyin edir. Prezidentin birbaşa rəhbərliyi altında fəaliyyət göstərən nazirlər onun qarşısında fərdi məsuliyyət daşıyırlar.

24 may 1993-cü il tarixindən etibarən Eritreya Respublikasının hazırkı və ilk Prezidenti *Demokratiya və Ədalət Naminə Xalq Cəbhəsi Partiyasının* lideri *İsayyas Afeverkidir.*

***Qanunverici hakimiyyət:*** *Eritreyanın* ali qanunverici orqanı 104 yerlik, bir palatalı *Milli Assambleyadır.* Parlamentin 64 deputatı əhali tərəfindən seçilir, digər 40 mandat isə, ölkədə yeganə leqal partiya sayılan *Demokratiya və Ədalət Naminə Xalq Cəbhəsi Partiyasının* təmsilçilərinə məxsusdur.

Qanunvericilik hakimiyyəti orqanı olan *Milli Assambleya* qanunların hazırlanması və qəbulunda, dövlət büdcəsinin müzakirəsi və təsdiqində, habelə ölkənin daxili və xarici siyasətinin müəyyən edilərək həyata keçirilməsində mühüm səlahiyyətlərə malikdir.

***İcraedici hakimiyyət:*** *Dövlət Şurası* və ona rəhbərlik edən *Prezident* ölkədə icra hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. Mövcud konstitusiyaya görə, *Hökumət* üzvləri, həm *Milli Assambleyanın* deputatlarının, həm də digər şəxslərin arasından formalaşaraq dövlət başçısı tərəfindən təyin və *Parlamentdə* təsdiq edilir.

***Məhkəmə hakimiyyəti:*** Ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *vilayət və yerli icma məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# ERMƏNİSTAN





***Ümumi məlumat:*** *İrəvan xanlığı* 1747-ci ildə *Nadir Şah Əfşarın* ölümündən sonra əsası qoyulmuş müstəqil xanlıq olmuşdur. Ərazisi müasir *Ermənistanı*, habelə indiki *Naxçıvan Muxtar Respublikasının Şərur və Sədərək* rayonlarını və *Türkiyənin İqdır ilini* əhatə etmişdir. 1828-ci ildə *Rusiya İmperiyası* ilə *Qacar Şahənşahlığı* arasında imzalanmış *Türkmənçay* müqaviləsinə əsasən bu ərazi *Rusiyanın* tərkibinə daxil edilmişdir.

1920-ci ildə ölkədə sovet hakimiyyəti qurulmuş və *Ermənistan* 1922-ci ildə müttəfiq respublika statusunda SSRİ-nin tərkibinə daxil olmuşdur.

1991-ci ildən müstəqil ölkədir.

*Cənubi Qafqazda* yerləşən *Ermənistan Respublikasının* paytaxtı *İrəvan* şəhəridir.

Ölkənin ərazisi 29,743 km², əhalisi *(2012)* 3,277,000 nəfərdir *(əhali sıxlığı 110,2 nəfər/km²).*

*Ermənistanın* rəsmi dili *erməni* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.716 – yüksəkdir *(86-cı yer).*

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1918) – 28 mayda qeyd olunur. Ölkə Konstitusiyası 5 iyul 1995-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Ölkə inzibati cəhətdən 11 vilayətə (marz) bölünür: *Araqatsotn (Aştarak), Ararat (Artaşat), Arma-*

*vir (Armavir), Geğarkunik (Qavar), Kotayk (Razdan), Lori (Vanadzor), Şirak (Gümrü), Syunik (Qafan), Tavuş (İcevan), Vayotsdzor (Exeqnadzor)* və paytaxt *İrəvan.*

***Dövlət başçısı:*** *Prezident* - ümumxalq səsverməsi yolu ilə və iki dəfədən çox olmamaq şərti ilə 5 il müddətinə seçilir. 35 yaşına çatmış və son 10 il ərzində ölkə ərazisində yaşayan Ermənistan Respublikasının vətəndaşı, müvafiq şərtlər daxilində dövlət başçısı seçilə bilər.

Prezident qanunvericilik və icra filiallarının normal fəaliyyətini təmin edir, Ermənistanı ölkə daxilində və xaricdə təmsil edir, habelə dövlətin adından beynəlxalq müqavilələri imzalayır. Konstitusiyaya görə, dövlət hakimiyyət institutlarının fəaliyyəti üçün təhlükə yarandığı halda Prezidentə fövqəladə səlahiyyətlər verilir.

*Ermənistan Respublikaçılar Partiyasının* sədri *Serj Sarqsyan* 09 aprel 2008-ci ildən etibarən Ermənistanın hazırkı, sayca 3-cü prezidentidir *(2013-cü il fevral ayının 18-də keçirilmiş son prezident seçkilərində S.Sarqsyan ardıcıl ikinci dəfə qalib gələrək yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət*:** 41 üzvü birmandatlı dairələrdən, 90 üzvü isə proporsional təmsilçilik - partiya siyahısı üzrə ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilən 131 yerlik, bir palatalı *Parlament (Ermənistan Respublikasının Milli Məclisi)* ölkədə qanunvericilik hakimiyyətini həyata keçirir.

Mövcud Konstitusiyaya görə *Parlament* - qanunların qəbulunda, illik dövlət büdcəsinin təsdiqində və onun icrasına nəzarətdə, Hökumətin fəaliyyətinə nəzarətdə və ona etimadsızlıq göstərilməsində, beynəlxalq müqavilələrin ratifikasiyasında, dövlət başçısının təklifinə əsasən amnistiya aktının qəbulunda, habelə Konstitusiya Məhkəməsi hakimlərinin təyinatında, İnsan Hüquqları Üzrə Müvəkkilin seçilməsində, Prezidentin təqdimatı əsasında Baş Prokurorun, Mərkəzi Bankın və

Nəzarət Palatasının sədrlərinin təyin edilməsində səlahiyyətlidir.

31 may 2012-ci ildən *Milli Məclisin* sədri Respublikaçılar Partiyasından olan *Hovik Abrahamyandır.*

06 may 2012-ci ildə keçirilmiş son seçkilər nəticəsində Parlamentdə təmsil olunan siyasi partiyalar:

*Ermənistan Respublikaçılar Partiyası - (lideri S.Sarqsyan, 69 yer),*

*Çiçəklənən Ermənistan Partiyası - (lideri Q.Tsarukyan, 37 yer),*

*Erməni Milli Konqresi - (lideri L.T.Petrosyan, 7 yer),*

*Qanunilik Ölkəsi Partiyası - (lideri A.Baqdasaryan, 6 yer),*

*Daşnaksutyun Partiyası - (lideri H.Markaryan, 5 yer),*

*İrs Partiyası - (lideri R.Ovanesyan, 5 yer),*

*Bitərəflər - (2 yer).*

***İcraedici hakimiyyət:*** Nazirlərdən təşkil edilən *Hökumətə Baş nazir* rəhbərlik edir. Ölkə Prezidenti *Milli Məclisdə* deputat fraksiyaları ilə məsləhətləşmələrdən sonra *Baş naziri* vəzifəyə təyin və azad edir, həmçinin Baş nazirin təqdimatı ilə *Hökumət* strukturunu və onun üzvlərini təsdiq edir.

Parlamentin Hökumətə etimadsızlıq göstərmək səlahiyyəti ölkə Konstitusiyasında təsbit edilmişdir. Bu baxımdan nazirlər Prezident qarşısında fərdi, Milli Məclis qarşısında isə kollektiv məsuliyyət daşıyırlar.

09 aprel 2008-ci il tarixindən etibarən Hökumətə *Ermənistan Respublikaçılar Partiyasının* nümayəndəsi *Tiqran Sarkisyan* başçılıq edir.

***Məhkəmə hakimiyyəti:*** Konstitusiya məsələlərinə müdaxilə etməmək şərti ilə, məhkəmə hakimiyyətini *Kasasiya Məhkəməsi* həyata keçirir. Məhkəmə sistemi yerli apelyasiya və kasasiya məhkəmələrindən ibarətdir *(həmçinin iqtisadi, hərbi və digər məhkəmələr də vardır).*

# ƏFQANISTAN





***Ümumi məlumat:*** Əfqanıstan ərazisində ilk mərkəzləşdirilmiş – *Durrani dövləti* XVIII əsrin ortalarında təşəkkül tapmışdır. XIX-XX əsrlərdə baş vermiş ingilis-əfqan müharibələri zamanı dövlətçiliyini qoruyub saxlamağa müvəffəq olmuş *Əfqanıstan,* 1919-cu ildə *Britaniyanın* nəzarətindən azad olmuş və müstəqilliyini elan etmişdir.

1923-1973-cü illərdə konstitusiyalı monarxiya, 1973-cü ildə isə *Əfqanıstan Respublikası* elan edilmişdir.

*Asiyanın* cənub-qərb hissəsində yerləşən *Əfqanıstan İslam Respublikasının* paytaxtı *Kabil* şəhəridir.

Ölkənin ərazisi 647,500 $km^2$, əhalisi *(2012)* 30,419,928 nəfərdir *(əhali sıxlığı 43,5 nəfər/$km^2$)*.

*Əfqanıstanın* rəsmi dili *puştu və dari* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.398 - aşağıdır *(172-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik islam respublikasıdır. Milli bayram günü olan müstəqillik günü (1919) avqust ayının 19-da qeyd olunur. Əfqanıstanın 160 maddədən ibarət yeni Konstitusiyası 04 yanvar 2004-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Rayonlardan ibarət olan 34 vilayətə *(Bağlan, Bədəxşan, Badğis, Bəlx, Bamiyan, Vərdək, Herat, Daykündi, Cövzcan, Zabul, paytaxt Kabil şəhəri, Qəndəhar, Fərah, Fəryab, Hilmənd, Xust, Kapisa, Kündüz, Künər, Qəzni, Qövr, Lağman,*

*Lövgər, Nəngərhar, Nimruz, Nuristan, Pəktika, Pəktiya, Pəncşir, Pərvan. Səməngan, Səri-Pul, Təxar, Uruzqan)* bölünür.

***Dövlət başçısı:*** Əfqanıstanın birliyinin və suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün, ölkə Konstitusiyanın və qanunların aliliyinin, eləcə də vətəndaşların hüquq və azadlıqlarının ali təminatçısı sayılan *Prezident* ümumxalq səsverməsi yolu ilə birbaşa və gizli seçkilərdə, ardıcıl iki dəfədən çox olmamaq şərti ilə, 5 il müddətinə seçilir.

Mövcud Konstitusiyaya əsasən dövlətin idarə olunmasında geniş səlahiyyətlərə malik olan dövlət başçısı *Nazirlər Kabinetinə* rəhbərlik edir, *Əfqanıstanı* ölkə daxilində və beynəlxalq münasibətlərdə təmsil edir, nazirləri və digər ali vəzifəli şəxsləri Parlamentin razılığı ilə təyin və vəzifədən azad edir.

Ölkə Prezidentinə dövlətin idarə edilməsində iki vitse-prezident *(2009-cu ildən etibarən marşal Məhəmməd Fahim və 09 oktyabr 2004-cü ildən Məhəmməd Kərim Xəlili)* yaxından köməklik edirlər.

Eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılan dövlət başçısının dövlət siyasəti sahəsindəki qərarları, o cümlədən ölkədə müharibə və sülhün elan edilməsi, fövqəladə vəziyyətin tətbiqi və milli silahlı qüvvələrin kontingentinin digər dövlətlərə göndərilməsi qərarı Parlamentdə təsdiq olunmalıdır.

09 oktyabr 2004-cu ildən etibarən Əfqanıstanın hazırkı, sayca 4-cü Prezidenti *Həmid Karzaydır*. 20 avqust 2009-cu il tarixində, *taliblərin* seçki günü həyata keçirdikləri 70-dən çox terror aktları ilə müşayiət olunan son Prezident seçkiləri nəticəsində *Həmid Karzay* ardıcıl olaraq ikinci dəfə qalib gələrək növbəti 5 il müddətinə ölkə *Prezidenti* seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Qüvvədə olan Konstitusiyaya əsasən *Parlament (Milli Məclis)* iki palatadan – 102 yerlik *Mişranu Cirqadan (Yuxarı Palata)* və 249 yerlik *Volesi Cirqadan (Xalq Palatasına üzvlər birbaşa və ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilirlər)* ibarətdir.

*Yuxarı Palatanın* üzvlərinin 34-ü əyalət şuralarının 4 il müddətinə seçilən nümayəndələrindən, 34 üzvü rayon şuralarının 3 il müddətinə seçilən təmsilçilərindən, digər 1/3 hissəsi isə *Prezident* tərəfindən 5 illik müddətə təyin olunan üzvlərdən ibarətdir.

Ölkədə qanunların hazırlanması və qəbulu, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası və Konstitusiya ilə müəyyən olunmuş digər qanunvericilik fəaliyyətini *Aşağı Palata* həyata keçirir.

Əfqanıstan ali orqanlarının dövlət idarəçilik strukturunda təmsilçilik hakimiyyətinin ənənəvi orqanı – *Loya Cirqa (Ali Şura)* da fəaliyyət göstərir. *Loya Cirqanın* tərkibinə Parlamentin hər iki palatasının üzvləri, habelə əyalət və dairə şuralarının sədrləri daxildir. *Ali Şuranın* işində həmçinin, səsvermə hüququ olmayan Kabinet üzvləri (nazirlər), Ali Məhkəmənin hakimləri və Hökumətin sədri iştirak edirlər. Bu orqanın iclasları, bir qayda olaraq müstəqillik, milli suverenlik, ərazi bütövlüyü, Konstitusiyaya düzəlişlərin edilməsi, habelə Prezidentin məhkəmə məsuliyyəti məsələləri ilə bağlı mühüm və taleyüklü qərarların qəbul edilməsi məqsədilə keçirilir.

Ölkədə siyasi partiyalar de-yure fəaliyyət göstərsə də, onların nümayəndələri Parlamentdə təmsil olunmurlar.

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabinetinə* rəhbərlik edən *Prezident,* Parlamentin razılığı ilə *Kabinet* üzvlərini *(27 üzvdən ibarətdir)* təyin edir. Hökumət ali qanunverici orqana qanun layihələrini təqdim edir, normativlər və təlimatlar dərc edir, hər büdcə ilinin sonunda Parlament qarşısında hesabat verir, büdcə layihələrini və inkişaf proqramını hazırlayır, fövqəladə vəziyyətdə fərmanlar vasitəsi ilə qanunvericilik fəaliyyətini həyata keçirir.

Əfqanıstan Hökumətinin hazırkı tərkibi 23 dekabr 2004-cü ildə formalaşmışdır.

***Məhkəmə hakimiyyəti:*** Ənənəvi *Şəriət* hüququnu və Avropa hüquq məktəbinin əsas elementlərini özündə ehtiva edən

Əfqanıstanın məhkəmə-hüquq sisteminin əsas fundamental prinsipini, qanunların islam normaları ilə ziddiyyət təşkil etməməsindən ibarətdir.

Sədri və hakimləri Prezident tərəfindən 10 il müddətinə təyin edilən və ölkədə mülki, cinayət və inzibati sahələr üzrə ən yüksək məhkəmə orqanı sayılan *Ali Məhkəmə Əfqanıstanda* məhkəmə hakimiyyətini həyata keçirir.

Bundan əlavə ölkədə, *Əfqanıstanın Ali Məhkəməsinə* tabe olan *yüksək əyalət məhkəmələri,* habelə *apelyasiya və ixtisaslaşmış birinci instansiya məhkəmələri* də fəaliyyət göstərir.

# FİLİPPİN






***Ümumi məlumat:*** XV-XVI əsrlərdə *Filippində* bir neçə feodal knyazlıqları mövcud olmuşdur. 1565-1898-ci illərdə *İspaniyanın,* 1899-1946-cı illərdə isə *ABŞ-ın* müstəmləkəsi olmuş *Filippində*, 1934-cü ildən muxtar idarəetmə tətbiq edilmişdir.

4 iyul 1946-cı il tarixində dövlət müstəqilliyini elan etmişdir.

*Asiyanın* cənub-şərq hissəsində, 7100 adada yerləşən *Filippin Respublikasının* paytaxtı *Manila* şəhəridir.

Ölkənin ərazisi 300,000 km², əhalisi *(2010)* 92,337,852 nəfərdir *(əhali sıxlığı 308,0 nəfər/km²).*

*Filippinin* rəsmi dili *filippin (taqal) və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.644 - ortadır *(112-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1898) - 12 iyunda qeyd olunur. 11 fevral 1987-ci ildən qüvvədə olan ölkə Konstitusiyasına görə Filippinin idarəetmə sistemi Prezident hakimiyyətinin ABŞ modelinə uyğundur.

***İnzibati bölgüsü:*** *Filippin* 3 adalar qrupunda *(Luson, Visay və Mindanao)* birləşən 17 regiona *(İlokos, Kaqayan, Mərkəzi Luson, Kalabarson, Mimaropa, Bikol, Kordilyer inzibati regionu, Qərbi Visayi, Mərkəzi Visayi, Şərqi Visayi, Zamboanqa yarımadası, Şimali Mindanao, Karaqa, Davao,*

*Sokksksarxen və Müsəlman Mindanao regionu)*, 80 əyalətə, 1494 bələdiyyəyə, 140 şəhərə və 41995 baranqaya *(məntəqə)* bölünür.

***Dövlət başçısı:*** *Prezident* dövlətin və hökumətin başçısı, silahlı qüvvələrin ali baş komandanıdır. İcra hakimiyyətini həyata keçirən *Nazirlər Kabinetinin* üzvləri *Təyinat Komissiyasının* razılığı ilə ölkə Prezidenti tərəfindən təyin edilir.

Dövlət başçısı və dövlətin idarəetməsində ona bilavasitə köməklik edən *vitse-prezident* azad, bərabər və gizli seçkilərdə ümumxalq səsverməsi yolu ilə 6 il müddətinə seçilirlər.

*Prezident* icra hakimiyyətinin bütün departament, büro və xidmətlərinin idarə edilməsində, habelə qanunların icrasının təmin olunmasında səlahiyyətlidir. Bundan əlavə, dövlət başçısı *Konqresin* əksər üzvlərinin razılığı ilə amnistiya aktını imzalaya və dövlətin səlahiyyətli nümayəndəsi olaraq *Senatda* ratifikasiya olunan müqavilələri bağlaya bilər.

Filippin Respublikasının hazırkı, sayca 15-ci *Prezidenti* 30 iyun 2010-cu ildən etibarən *III Beniqno Akinodur*.

***Qanunverici hakimiyyət:*** Qanunverici orqan olan *Konqres* 2 palatadan – 24 yerlik *Senatdan* və 286 yerlik *Nümayəndələr Palatasından* ibarətdir. *Senata* üzvlər proporsional nümayəndəlik sistemi üzrə 6 il müddətinə seçilir. Senatın ½-i hər 3 ildən bir yenilənir. *Nümayəndələr Palatasının* üzvləri ümumxalq səsverməsi yolu ilə 3 il müddətinə seçilirlər. Palatanın 229 üzvü bir mandatlı dairələr üzrə seçilir, digər deputatlar isə *(hal-hazırda 24 üzv)* mürəkkəb partiya siyahıları sistemi üzrə dövlət başçısı tərəfindən təyin edilirlər.

Hər iki Palatanın üzvləri icraedici hakimiyyətə sorğu ilə müraciət etməkdə bərabər hüquqlara malik olsalar da, onların səlahiyyətləri arasında müəyyən fərqlər mövcuddur. Belə ki, maliyyə tutumlu qanun layihələri ilə bağlı təşəbbüs yalnız *Aşağı Palataya,* beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası isə *Senata* aiddir.

Ölkə Prezidenti *Konqresdə* qəbul edilən qanun layihələrinə veto qoymaq hüququna malik olsa da, Parlamentdə 2/3 səs çoxluğu ilə veto dəf edilə bilər.

10 may 2010-cu ildə Filippin Parlamentinin hər iki palatasına keçirilmiş son seçkilərdə qalib gəlmiş əsas siyasi partiyalar:

*Xalqın Gücü – Xristian və Müsəlman Demokratları Partiyası (6 senator, 107 deputat),*

*Liberal Partiya (4 senator, 87 deputat),*

*Millətçilər Partiyası (5 senator, 21 deputat),*

*Milli Xalq Koalisiyası (2 senator, 5 deputat) və s.*

***Məhkəmə hakimiyyəti:*** 15 üzvdən ibarət olan *Ali Məhkəmə (eyni zamanda Konstitusiyaya nəzarət funksiyasını da həyata keçirir), Apelyasiya Məhkəməsi, regional məhkəmələr, Vergi Apelyasiya Məhkəməsi,* habelə paytaxt və bələdiyyə məhkəmələri Filippində məhkəmə hakimiyyətini həyata keçirir.

# HONDURAS





***Ümumi məlumat:*** 1522-ci ildə *Hondurasın* indiki ərazisi ispanlar tərəfindən işğal edilmişdir. 1821-ci ildə dövlət müstəqilliyini elan etmiş *Honduras,* 1823-1839-cu illərdə *Mərkəzi Amerika Birləşmiş Federasiyasının* tərkibinə daxil olmuşdur.

*Mərkəzi Amerikada* yerləşən *Honduras Respublikasının* paytaxtı *Tequsiqalpa* şəhəridir.

Ölkənin ərazisi 112,492 km², əhalisi *(2010)* 8,249,574 nəfərdir *(əhali sıxlığı 64,0 nəfər/km²).*

*Hondurasın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.625 - ortadır *(121-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) sentyabr ayının 15-də qeyd olunur. Ölkə Konstitusiyası 20 yanvar 1982-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 18 departamentə *(Atlantida, Çoluteka, Kolon, Komayaqua, Kopan, Kortes, El-Paraiso, Fransisko-Morasan, İntibuka, İslas-de-la-Baya, Qrasiyas-a Dyos, La-Pas, Lempira, Santa-Barbara, Okotepeke, Olanço, Balye və Yoro) və Fransisko Morasan* departamentinin daxilində *Mərkəz dairəsinə* bölünür.

***Dövlət başçısı:*** *Prezident* – icraedici hakimiyyəti dövlətin nazirləri ilə birlikdə həyata keçirir. Dövlət başçısı, silahlı qüvvələrin ali baş komandanı və konstitusiyanın qarantı olan Prezident nazirləri və onların müavinlərini, bankların prezi-

dentlərini və vitse-prezidentlərini təyin və azad etmək səlahiyyətlərinə malikdir. Dövlət başçısı mühüm qərarların qəbul edilməsi məqsədilə *Nazirlər Şurasını* çağırır və onun iclaslarına sədrlik edir.

Ölkə Prezidenti və dövlətin idarə olunmasında ona bilavasitə köməklik edən *vitse-prezidentlər* yalnız bir müddətə seçilmək şərti ilə, ümumxalq seçkilərində birbaşa, bərabər, gizli və ölkə vətəndaşlarının məcburi səsverməsi yolu ilə 4 illik müddətə seçilirlər.

27 yanvar 2010-cu ildən etibarən Honduras Respublikasına sayca 24-cü ölkə *Prezidenti, Honduras Milli Partiyasının* üzvü *Porfirio Lobo Sosa* rəhbərlik edir.

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 128 yerlik *Milli Konqresdir*. Honduras Parlamentinin deputatları ümumxalq seçkilərində proporsional sistem üzrə 18 dairədə birbaşa, bərabər, gizli və ölkə vətəndaşlarının məcburi səsverməsi yolu ilə 4 illik müddətə seçilirlər.

Ənənəvi qanunvericilik səlahiyyətləri ilə yanaşı, *Milli Konqres* Ali Məhkəmənin sədrini və üzvlərini, ölkənin Baş prokurorunu və onun müavinlərini seçir, icraedici hakimiyyətin təqdim etdiyi illik büdcə layihəsini müzakirə və təsdiq edir, beynəlxalq müqavilələri və sazişləri ratifikasiya edir, nazirləri və digər qurumların rəhbərlərini sorğu edir, habelə xarici sərmayələrin və kreditlərin ölkəyə cəlb edilməsi haqqında qərarlar qəbul edir.

*Honduras Parlamentinin* hazırkı sədri 25 yanvar 2010-cu ildən etibarən *Xuan Hernandesdir.*

29 noyabr 2009-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Konqresdə* mandat əldə etmiş əsas siyasi partiyalar:

*Honduras Milli Partiyası (71 yer),*
*Liberal Partiya (45 yer),*
*Honduras Xristian-Demokratik Partiyası (5 yer),*

*Demokratik Birlik Partiyası (4 yer),*

*Yeniləşmə və Birlik Partiyası (3 yer).*

***Məhkəmə hakimiyyəti:*** Sədri və hakimləri *Milli Konqres* tərəfindən 4 illik müddətə seçilən *Ali Məhkəmə (9 əsas hakimdən və 7 müavindən ibarət tərkibə malikdir), Konstitusiya Məhkəməsi, Apelyasiya,* habelə ixtisaslaşmış yerli və birinci instansiya məhkəmələri *Hondurasda* məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidirlər.

# İNDONEZİYA





***Ümumi məlumat:*** Hazırkı *İndoneziya* ərazisində dövlətçilik elementləri eramızın ilk əsrlərində meydana gəlmişdir. XIV əsrdə İslam *İndoneziyaya* nüfuz etmiş və nəticədə bir sıra müsəlman knyazlıqları yaranmışdır. XVI əsrdən etibarən *arxipelaq* avropalıların işğalına məruz qalmış və XX əsrin əvvəllərində tam olaraq hollandların nəzarətinə keçmişdir.

Milli-azadlıq mübarizəsi nəticəsində, 1945-ci ilin avqustunda *İndoneziya* müstəqil respublika elan edilmişdir.

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *İndoneziya Respublikasının* paytaxtı *Cakarta* şəhəridir.

Ölkənin ərazisi 1,904,569 km², əhalisi *(2011)* 237,424,363 nəfərdir *(əhali sıxlığı 123,76 nəfər/km²)*.

*İndoneziyanın* rəsmi dili *indoneziya* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.617 - ortadır *(124-cü yer)*.

***Dövlət quruluşu:*** İndoneziya məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü *(1945)* avqust ayının 17-də qeyd olunur. Ölkə Konstitusiyası 1945-ci ilin avqustundan *(1950, 1969, 1998, 2001 və 2004-cü illərdə edilmiş düzəlişlərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** Ölkə 31 əyalətə *(Açex, Papua və Qərbi Papua əyalətləri xüsusi statusa malikdir)*, əyalət statusuna malik 2 xüsusi inzibati vahidliyə - *Cakyakarta xüsusi dairəsinə* və paytaxt *Cakarta* dairəsinə bölünür.

***Dövlət başçısı:*** Milli birliyin rəmzi, hüquqi dövlətin, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, İndoneziya

Respublikasının daxildə və xaricdə ali təmsilçisi sayılan *Prezident* dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin ali baş komandanıdır. Dövlət başçısı, üzvləri Parlamentdə *(XMK)* təmsil olunmayan *Nazirlər Kabinetinə* rəhbərlik edir, ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsinə məsuliyyət daşıyır.

Dövlətin idarə edilməsində vitse-prezident (20 oktyabr 2009-cu ildən *Boediono*) dövlət başçısına yaxından köməklik göstərir.

Prezident Xalq Məşvərət Məclisi qarşısında məsuliyyət daşıyır, belə ki, *Məclis* növbədənkənar sessiya çağıraraq ona impiçment elan edə bilər.

20 sentyabr 2004-cü ildə 122 milyon ölkə vətəndaşının iştirak etdiyi ilk ümumxalq seçkilərində *(əvvəlki illərdə Prezident Parlament tərəfindən seçilirdi)* 60 %-dən çox səs toplamış *Susilo Bambanq Yudoyono* İndoneziyanın Prezidenti seçilmişdir. 2009-cu il iyul ayının 8-də keçirilmiş növbəti prezident seçkilərində o, böyük səs çoxluğu ilə qalib gələrək növbəti 5 il müddətinə dövlət başçısı vəzifəsini qoruyub saxlamağa müvəffəq olmuşdur.

*Hazırkı İndoneziya Prezidenti Parlamentdə dəstəyə malikdir. Belə ki, onun rəhbərlik etdiyi Demokratik Partiya 2009-cü il parlament seçkilərində 20.85% səs qazanaraq digər siyasi partiyaları qabaqlaya bilmişdir.*

***Qanunverici hakimiyyət:*** *Xalq Məşvərət Məclisi* 2004-cü ildə İndoneziya Konstitusiyasına edilən dəyişikliklərə əsasən ali qanunverici orqan statusunu itirmişdir və ikipalatalı parlamentə - *Xalq Nümayəndələr Şurasına* və *Regional Nümayəndələr Şurasına* çevrilmişdir. 5 ildə bir dəfə çağırılan *Xalq Məşvərət Məclisi Xalq Nümayəndələr Şurasının* və *Regional Nümayəndələr Şurasının* üzvlərindən ibarətdir. Qurum Prezidentin inauqurasiyası və impiçmenti, konstitusiyaya düzəlişlər etmək səlahiyyətinə malikdir, qanunvericiliklə məşğul olmur.

*Yuxarı Palata* – Regional Nümayəndələr Şurası 2001-ci ildə qanunverici orqanın yeni strukturu kimi yaradılmışdır. 33 əyalətdən hər birindən 4 nümayəndə olmaqla 132 üzvü var. 5 illik müddətə seçilən deputatlar partiya üzvü ola bilməzlər. İldə iki dəfə toplanan Şura regionlarla bağlı qanunların hazırlanmasında və qəbul edilməsində Nümayəndələr Palatasına yardım edir.

*Aşağı Palata* – Xalq Nümayəndələr Şurası *Nümayəndələr Palatası* da adlanır. Faktiki olaraq birpalatalı parlament kimi bütün qanunvericilik funksiyalarını həyata keçirir və qanunların icrasına nəzarət edir. Palata proporsional - siyahı sistemi üzrə çoxmandatlı dairələrdən 5 il müddətinə birbaşa seçilən 560 deputatdan ibarətdir.

09 aprel 2009-cü ildə keçirilmiş son parlament seçkiləri nəticəsində *Xalq Nümayəndələr Şurasına* mandat əldə etmiş əsas siyasi partiyalar:

*Demokratik Partiya – 148,*
*“Qolkar” Partiyası – 106 yer,*
*Demokratik Partiya – 94 (mübarizə aparan),*
*Ədalətin Təntənəsi Partiyası – 57,*
*Milli Mandat Partiyası – 46,*
*Birlik və İnkişaf Partiyası – 38,*
*Xalq Oyanış Partiyası – 28,*
*Böyük İndoneziya Uğrunda Hərəkat Partiyası – 26,*
*Xalq Vicdan Partiyası – 17.*

***Məhkəmə hakimiyyəti:*** Üzvləri *(60 hakim) Xalq Nümayəndələr Şurasının* təqdimatı ilə Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə,* 2003-cü ildə yaradılmış və dövlət başçısının təyin etdiyi 9 üzvdən *(3 hakim Xalq Nümayəndələri Şurasının, 3 üzv Ali Məhkəmənin, digər 3-ü isə Prezidentin təqdimatı ilə təyin olunur)* ibarət olan *Konstitusiya Məhkəməsi,* habelə *İndoneziya Məhkəmə Komissiyası* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# İSVEÇRƏ





***Ümumi məlumat:*** Müasir İsveçrə ərazisi eramızdan əvvəl 58-ci ildə romalılar tərəfindən işğal etmiş, 536-cı ildə isə *Frank Dövlətinin tərkibinə daxil olmuşdur. Müqəddəs Roma İmperiyasının* daxilində *İsveçrə Konfederasiyasının* rəsmi yaranma tarixi 01 avqust 1291-ci ilə təsadüf edir.

1499-cu ildə *İsveçrə* de-fakto müstəqillik əldə etmişdir. 1798-ci ildə fransız ordusu ölkə ərazisinə daxil olmuş və yalnız 1815-ci ildə *Vyana Konqresi* İsveçrənin milli müstəqilliyini bərpa edərək onun "əbədi neytrallığını" elan etmişdir.

1848-ci ildən etibarən *İsveçrə* federativ dövlətdir.

*Avropanın* mərkəzi hissəsində yerləşən *İsveçrə Konfederasiyasının* paytaxtı *Bern* şəhəridir.

Ölkənin ərazisi 41,285 km², əhalisi *(2012)* 8,000,000 nəfərdir *(əhali sıxlığı 188,00 nəfər/km²).*

*İsveçrənin* rəsmi dövlət dili *alman, fransız, italyan və reto-roman* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.903 - çox yüksəkdir *(11-ci yer).*

***Dövlət quruluşu:*** Ölkə parlamentinin geniş səlahiyyətlərə malik olduğu spesifik prezident idarəetmə üsuluna malik konfederasiyadır. Milli bayram günü olan müstəqillik günü (1648) 24 oktyabr tarixində qeyd olunur. *İsveçrənin* yeni Konstitusiyası 01 yanvar 2000-ci ildən qüvvədədir.

**İnzibati bölgüsü:** 2551 icmadan *(bələdiyyə)* ibarət olan 26 muxtar vilayətə - 20 kantona *(Arqau, Appensel-Ausser-redon, Appensel-İnnerroden, Bazel-Ştat, Bazel-Land, Bern, Vale, Vo, Qlarus, Qraubyunden, Cenevrə, Zoloturn, Lüsern, Sürix,Yura, Fribur, Tiçino və s.)* və 6 yarımkantona bölünür.

***Dövlət başçısı:*** Digər dünya birliyi dövlətlərindən fərqli olaraq xarici siyasətdə *"əbədi neytrallıq"* kursunu seçmiş, habelə mövcud siyasi sistemində təməl prinsiplərinin spesifikliyi ilə fərqlənən İsveçrə Konfederasiyasında *Prezident* dövlət və ya hökumət başçısı sayılmır.

Bu funksiyalar *Federal Şura* tərəfindən kollegial olaraq yerinə yetirilir. Federal Şurada səslərin nisbəti bərabər olduqda Prezidentin səsi həlledici olur. *Prezident* İttifaq *(Federal)* Məclisi tərəfindən İttifaq *(Federal)* Şurasının üzvlərinin tərkibindən 1 il müddətinə seçilir.

2013-cü ilin yanvar ayından *İsveçrə Konfederasiyasının* hazırkı, sayca 165-ci prezidenti *Uli Maurerdir.*

***Qanunverici hakimiyyət:*** *Federal Şura və Ali Məhkəmə* ilə yanaşı, hakimiyyətin üç qolundan biri olan və qanunvericilik orqanı funksiyasını yerinə yetirən *Federal Məclis: 200 yerlik Milli Şuradan (Aşağı palata)* və 46 yerlik *Kantonlar Şurasından (Yuxarı palata)* ibarət iki palatalı Parlamentdir.

*Milli Şuraya* deputatlar proporsional nümayəndəlik sistemi üzrə 4 illik müddətə, *Kantonlar Şurasına* isə üzvlər 20 iki mandatlı və 6 birmandatlı *(hər kantondan iki, yarımkantondan isə 1 nümayəndə)* dairədən majoritar seçki sistemi üzrə 4 illik *(bəzi kantonlarda 3 illik)* müddətə seçilirlər.

Bütün qanun layihələri hər iki palatadan keçərək təsdiq olunur. Layihəyə hansı palatanın birinci baxacağına palata sədrləri birgə qərar verirlər. Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və Konstitusiyada təsbit edilmiş digər funksiyaların həyata keçirilməsində səlahiyyətli olan

Parlamentin qəbul etdiyi bəzi qanunlar ümumxalq referendumunda təsdiq edilməlidir.

23 oktyabr 2011-ci ildə keçirilmiş son Parlament seçkilərində qalib gəlmiş siyasi partiyalar:

*İsveçrə Xalq Partiyası (Kantonlar Şurasında 5 yer, Milli Şurada 54 yer),*

*İsveçrə Sosial-Demokrat Partiyası ( 11 və 46 yer),*

*Xristian Xalq Demokratik Partiyası ( 13 və 28 yer).*

***İcraedici hakimiyyət:*** Ölkədə ali icraedici hakimiyyət hər biri departamentlərə *(nazirliklərə)* rəhbərlik edən 7 üzvdən ibarət *İttifaq Şurasına (Hökumət)* məxsusdur. Konfederasiyanın daxili və xarici siyasi kursunu müəyyənləşdirən və həyata keçirilməsində səlahiyyətli olan *İttifaq Şurasının* üzvləri Parlamentin hər iki palatasının birgə iclasında seçilirlər və növbəlilik prinsipi əsasında *Prezident* və *vitse-prezident* vəzifələrini icra edirlər.

***Məhkəmə hakimiyyəti:*** Üzvləri İsveçrə Konfederasiyasının *Federal Məclisi* tərəfindən 6 il müddətinə seçilən, Cinayət və İnzibati məhkəmələrdən ibarət olan *İsveçrə Federal Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Tərkibinə 28 hakimin və 11-13 andlının daxil olduğu *Federal Məhkəmə* faktiki olaraq *Ali Məhkəmənin* funksiyalarını yerinə yetirir.

# KAMERUN





***Ümumi məlumat:*** *Kamerunun* şimalında ilk dövlət birlikləri XV-XVI əsrlərdə, mərkəz və cənub bölgələrində isə XVIII-XIX əsrin əvvəllərində meydana gəlmişdir. 1884-1914-cü illərdə ölkə ərazisi *Almaniya* tərəfindən tam işğal edilmiş, 1922-ci ildə isə, *Millətlər Liqasının* qərarı ilə *Şərqi Kamerun Fransanın, Qərbi Kamerun* isə *İngiltərənin* mandatlığına verilmişdir.

1960-cı ildə *Fransa Şərqi Kameruna* müstəqillik vermiş, 1961-ci ildə *Qərbi Kamerunun* cənub hissəsi *Kameruna,* şimal hissəsi isə *Nigeriyaya* birləşdirilmişdir. Nəticədə, *Kamerun Federativ Respublikası* yaradılmış, 1984-cü ildən isə ölkə *Kamerun Respublikası* adlandırılmışdır.

*Mərkəzi Afrikanın* şimal-qərb hissəsində yerləşən *Kamerun Respublikasının* paytaxtı *Yaunde* şəhəridir.

Ölkənin ərazisi 475,442 km², əhalisi *(2012)* 20,129,878 nəfərdir *(əhali sıxlığı 39,7 nəfər/km²).*

*Kamerunun* rəsmi dövlət dili *fransız və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.482 - aşağıdır *(150-ci yer).*

***Dövlət quruluşu:*** 1960-cı ildən məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 01 yanvar tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1972-cü ildən (1975, 1991, 1995 və 2008-ci illərdə edilmiş düzəlişlərlə) qüvvədədir.

***İnzibati bölgüsü:*** 10 regiona *(Adamava, Şimal, Uzaq Şimal, Şimal-Qərb, Qərb, Şərq, Cənub, Cənub-Qərb, Mərkəzi, Sahilyanı)* bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya edilmiş 2008-ci il düzəlişinə əsasən Kamerun Respublikasının *Prezidenti* birbaşa seçkilərdə sadə səs çoxluğu sistemi üzrə, qeyri-məhdud sayda 7 il müddətinə seçilir. Dövlət başçısı statusuna malik olan və ölkədə çox geniş səlahiyyətlərə malik olan Prezident, eyni zamanda Silahlı Qüvvələrin ali baş komandanıdır.

Kamerun Prezidenti, *Baş nazir* də daxil olmaqla bütün səviyyələrdə dövlətin vəzifəli şəxslərini, məhkəmə korpusunun bütün hakimlərini, əyalət qubernatorlarını təyin edir, ölkəni daxildə və xaricdə təmsil edir, habelə Kamerun Respublikasının adından apardığı ikitərəfli və çoxtərəfli danışıqlar müstəvisində beynəlxalq saziş və müqavilələri imzalayır.

6 noyabr 1982-ci ildən etibarən ölkə Prezidenti *Pol Biyadır (09 oktyabr 2011-ci ildə keçirilmiş Prezident seçkilərində P.Biya 78% səslə qalib gələrək yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Birpalatalı, 180 yerlik *Milli Məclisdir*. Parlamentə nümayəndələr proporsional nümayəndəlik sistemi üzrə 49 seçki dairəsindən 5 illik müddətə seçilirlər.

Milli Məclis deputatların böyük səs çoxluğu ilə qanunları qəbul edir, illik dövlət büdcəsini müzakirə və təsdiq edir, beynəlxalq müqavilələri ratifikasiya edir, bəzi təyinatları və istisnasız olaraq ali qanunvericilik hakimiyyətinin digər funksiyalarını həyata keçirir.

*Kamerun Xalq Demokratik Hərəkat Partiyasının* üzvü *Kavae Veque Cibrel* 1992-ci ildən etibarən *Kamerun Milli Məclisinin* sədridir.

2007-ci ilin 22 iyul - 30 sentyabr tarixlərində keçirilmiş Parlament seçkiləri nəticəsində *Milli Məclisdə* təmsil olunan əsas siyasi partiyalar:

*Kamerun Xalq Demokratik Hərəkat Partiyası (153 yer),*
*Sosial Demokratik Cəbhə (16 yer),*
*Milli Demokratiya və İnkişaf Birliyi (6 yer),*
*Kamerun Demokratik İttifaqı (4 yer),*
*Tərəqqi Hərəkatı (1 yer).*

***İcraedici hakimiyyət:*** *Hökumətə (Nazirlər Kabineti)* Prezidentin təyin etdiyi *Baş nazir* rəhbərlik edir. Ölkənin daxili və xarici siyasət kursunu müəyyənləşdirən *Nazirlər Kabineti* öz fəaliyyətini tam olaraq dövlət başçısının iradəsinə uyğun şəkildə həyata keçirir.

*Kamerun Xalq Demokratik Hərəkat Partiyasının* təmsilçisi *Filemon Yanq* 30 iyun 2009-cu ildən etibarən Kamerunun *12-ci Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** *Ədliyyə Nazirliyinin* tabeliyindədir. Üzvləri Kamerun Parlamenti tərəfindən seçilən 9 hakimdən ibarət *Ali Məhkəmə* yalnız Prezidentin razılığı ilə qanunların Konstitusiyaya uyğunluğunu araşdırıb müəyyən edə bilər.

*Ali Məhkəmə* ilə yanaşı ölkədə digər ixtisaslaşmış və yerli məhkəmələr də fəaliyyət göstərir.

# KİPR RESPUBLİKASI

  

***Ümumi məlumat:*** Əsrlər boyu *Bizans İmperiyasının, Venesiyanın*, səlib yürüşçülərinin, 1570-ci ildən *Osmanlı İmperiyasının,* 1878-ci ildən isə *Britaniya* müstəmləkələrinin tərkibinə daxil olmuş *Kipr,* 1960-cı ilin avqust ayında dövlət müstəqilliyini əldə etmişdir.

*Asiyanın* qərb hissəsində yerləşən *Kipr Respublikasının* paytaxtı *Nikosiya* şəhəridir.

Ölkənin ərazisi 9,251 $km^2$, əhalisi *(2011)* 1,099,341 nəfərdir *(əhali sıxlığı 117,0 nəfər/$km^2$).*

*Kiprin* rəsmi dövlət dili *yunan və türk* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.840 – çox yüksəkdir *(31-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) avqust ayının 16-da qeyd olunur. Ölkə Konstitusiyası 16 avqust 1960-cı ildən qüvvədədir.

*(1983-cü ildə Kipr adasının Türk icmasının məskunlaşdığı şimal hissəsində yaradılmış Şimali Kipr Türk Respublikası beynəlxalq aləmdə Türkiyədən başqa heç bir dövlət tərəfindən tanınmayan dövlət qurumudur. ŞKTR 1974-cü ildə yunan millətçilərinin qiyamından sonra Türkiyə tərəfindən adadakı türk icmasının təhlükəsizliyini qorumaq məqsədilə həyata keçirilən hərbi müdaxilə nəticəsində türk ordusunun nəzarətinə keçən torpaqlarda yaradılmışdır.*

*Adanın üçdə bir hissəsinə nəzarət edən ŞKTR-i dünya dövlətləri münaqişənin hüquqi həllinə qədər rəsmən tanımaq istəməsələr də, onlardan bir çoxu ŞKTR ilə qeyri-rəsmi iqtisadi və mədəni əlaqələr saxlayırlar).*

***İnzibati bölgüsü:*** 33 bələdiyyəni *(icma)* birləşdirən *Nikosiya (Şimali Kipr Türk Respublikasının bir hissəsi), Kireneya (ŞKTR-ın böyük hissəsi), Larnaka (ŞKTR-ın bir hissəsi), Limasol, Pafos və Famaqusta (ŞKTR-ın tam hissəsi)* rayonlarına *(eparxiya)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə, 5 il müddətinə seçilən *Prezident* dövlət və hökumət başçısıdır. Prezident icra hakimiyyətini *Nazirlər Şurasının* vasitəsi ilə həyata keçirir. Dövlət başçısının səlahiyyəti dövlət siyasətinin mühüm məsələləri ilə bağlı vitse-prezidentə *(münaqişə ilə əlaqədar olaraq vakant yerdir)* veto hüququ verməklə məhdudlaşır.

Üzvləri *(nazirlər) Nümayəndələr Palatasında* seçilən Kipr Hökuməti İcra hakimiyyəti ilə yanaşı, Parlamentlə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir.

Hakim *Demokratik Birlik Partiyasının* lideri *Nikos Anastasiadis* 01 mart 2013-cü ildən etibarən ölkənin hazırkı, sayca 7-ci *Prezidentidir (N.Anastasiadis 17-24 fevral 2013-cü il tarixlərində keçirilmiş iki turdan ibarət sonuncu prezident seçkilərində 57,48% səslə qalib gəlmişdir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı *Nümayəndələr Palatasıdır.* Parlamentin 59 üzvündən 56-sı proporsional nümayəndəlik sistemi üzrə partiya siyahıları ilə, etnik azlıqları təmsil edən digər üç nəfər isə müşahidəçi üzv qismində 5 il müddətinə seçilir. Ölkədəki siyasi situasiya ilə əlaqədar olaraq Türk icması üçün nəzərdə tutulmuş 24 yer 1964-cü ildən açıq qalır.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası, *Nazirlər Şurasının* fəaliyyətinə ümumi nəzarət və

Konstitusiya ilə nəzərdə tutulmuş digər mühüm funksiyalar bilavasitə *Nümayəndələr Palatasının* səlahiyyətlərinə aiddir.

22 may 2011-ci ildə keçirilmiş son Parlament seçkilərində mandat qazanmış əsas siyasi partiyalar:

*Demokratik Birlik – 20 yer, lideri Nikos Anastasiadis,*

*Əməkçi Kipr Xalqının Tərəqqi Partiyası – 19 yer, lideri Andros Kiprianu,*

*Demokratik Partiya – 9 yer, lideri Marius Qaroyan,*

*Sosial-Demokratiya Naminə Hərəkat – 5 yer, lideri Yannakis Omiru,*

*Avropa Partiyası – 2 yer, lideri Demetris Sullouris,*

*Yaşıllar Partiyası – 1 yer, lideri Corc Perdikis.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti, ən yüksək apelyasiya instansiyası sayılan *Ali Məhkəmə,* həmçinin hərbi, əmək, ailə, nəzarət və s. məsələlər üzrə ixtisaslaşmış dairə məhkəmələri tərəfindən həyata keçirilir.

# KİRİBATİ







***Ümumi məlumat:*** Avropalıların indiki *Kiribati* ərazisinə *(adalarına)* gəlmələrinə qədər yerli əhali ibtidai-icma quruluşuna malik həyat tərzi sürürdü. 1892-1915-ci illərdə *Kiribati* Böyük Britaniyanın protektoratı, daha sonra isə müstəmləkəsi olmuşdur.

1979-cu ildən etibarən müstəqil dövlətdir.

*Sakit okeanın* qərb, ekvatorial hissəsində yerləşən *Kiribati Respublikasının* paytaxtı *Tarava* şəhəridir.

Ölkənin ərazisi 811 km², əhalisi *(2010)* 103,500 nəfərdir *(əhali sıxlığı 135,0 nəfər/km²)*.

*Kiribatinin* rəsmi dövlət dili *kiribati və ingilis* dilləridir.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1979) 12 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 12 iyul 1979-cu ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Kiribati 3 adalar qrupuna *(Gilbert, Layn və Feniks adaları)* bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya görə ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən ölkə *Prezidenti (Beretitenti)* dövlətin və hökumətin başçısıdır. Prezidentlik müddəti 3 dəfədən çox olmamaqla maksimum 12 il nəzərdə tutulmuşdur.

Prezident vitse-prezidenti və nazirləri təyin etmək, Nazirlər Kabinetinin iclasını çağırmaq və ona sədrlik etmək, ölkə qanunlarını pozmuş və Respublikanın hüdudları daxilində

cinayət törətmiş istənilən məhkumun cəzasını yüngülləşdirmək və ya əfv etmək səlahiyyətinə malikdir.

Ölkənin hazırkı Prezidenti 10 iyul 2003-cü ildən *Anote Tonqdur (13 yanvar 2012-ci ildə keçirilmiş son prezident seçkilərində A.Tonq 42.18 % səs toplayaraq 3-cü dəfə ardıcıl olaraq dövlət başçısı seçilmişdir).*

***Ali qanunverici hakimiyyət:*** Birpalatalı *Məclis Evi (Maneaba ni Maungatabu)* 46 deputatdan ibarətdir. 44 üzv birmandatlı və çoxmandatlı dairələrdən seçilir, bir nümayəndə Fici ilə Rabi adası üzrə Banaban icmasından, digər üzv isə Baş prokuror statusunda təyin olunur. Parlamentin deputatlarının səlahiyyət müddəti 4 ildir.

21 yaşına çatmış Kiribati Respublikasının vətəndaşı Parlamentə üzv ola bilər. *Məclis Evinin* qəbul etdiyi yeni qanunlar Prezident tərəfindən təsdiq olunmalıdır. Prezident, ona təqdim edilmiş yeni qanunu Konstitusiyaya zidd hesab edərsə, qanun Parlamentdə yenidən baxılması üçün geri göndərilir. İkinci dəfə Prezident qanunun qəbulunu əngəlləyərsə, o zaman məsələyə Kiribati Ali Məhkəməsində baxılır. Qanunun Konstitusiyaya uyğunluğu barədə Ali Məhkəmənin qərarı müsbət olduqda, Prezident onu təsdiq etməlidir.

Habelə Parlamentin də Konstitusiyaya əlavə və dəyişikliklər etməsi hüququ vardır. Bunun üçün düzəlişləri *Məclis Evi* üzvlərinin 2/3-si ikinci oxunuşda təqdir etməlidirlər.

21-28 oktyabr 2011-ci ildə keçirilmiş iki turdan ibarət Parlament seçkilərində uğur qazanmış əsas siyasi partiyalar:

*Həqiqətin Əsasları – (15 yer),*
*Birləşmiş Koalisiya Partiyası – (10 yer),*
*Maurin Kiribati Pati – (3 yer),*
*Müstəqillər - (16 yer).*

***İcraedici hakimiyyət:*** *Kiribatinin* qüvvədə olan Konstitusiyasına uyğun olaraq *Kabinet Prezidentdən, vitse-prezidentdən*, 10 nazirdən və *Baş prokurordan* formalaşır. Kabinetinin

üzvləri Parlamentinin üzvləri arasından seçilməklə dövlət başçısı tərəfindən təyin edilirlər və siyasi, iqtisadi, sosial, mədəni sahələr üzrə onun qoyduğu vəzifələri yerinə yetirirlər.

Ölkə Prezidenti *Hökumətin* bütün iclaslarına sədrlik etməklə yanaşı, iclasın gündəliyini elan etməlidir. Azı 5 nazirin iştirak etdiyi *Kabinetin* iclasında qəbul edilmiş qərar hüquqi qüvvəyə malikdir.

***Məhkəmə hakimiyyəti:*** Kiribatinin məhkəmə sistemi *magistratura* məhkəmələri, *Ali Məhkəmə* və *Apelyasiya Məhkəməsindən* ibarətdir. Məhkəmə sisteminin fəaliyyətdə olan bütün hakimləri *İctimai Xidmət Komissiyasının* tövsiyəsi ilə ölkə Prezidenti tərəfindən təyin edilir.

# KOLUMBİYA





***Ümumi məlumat:*** 1530-cu illərdə ölkə ispan konkistadorları tərəfindən istila edilmiş və *Yeni Qranada* adını almışdır. 1810-1819-cu illərdə müstəqillik uğrunda gedən müharibə nəticəsində, *Kolumbiya* ərazisi müstəmləkə hökmranlığından azad olaraq *Böyük Kolumbiya Respublikasının (1886-cı ildən Kolumbiya Respublikası)* tərkibinə daxil olmuşdur.

*Cənubi Amerikanın* şimal-qərb hissəsində yerləşən *Kolumbiya Respublikasının* paytaxtı *Boqota* şəhəridir.

Ölkənin ərazisi 1,141,748 km², əhalisi *(2012)* 46,366,364 nəfərdir *(əhali sıxlığı 40,74 nəfər/km²)*.

*Kolumbiyanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.710 –yüksəkdir *(87-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1810) 20 iyul tarixində qeyd olunur. Kolumbiya Konstitusiyası 1991-ci ilin iyul ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** Bələdiyyələrdən ibarət olan 32 departamentə *(Amasonas, Arauka, Atlantiko, Bolivar, Boyaka, Kaldas, Kaketa, Sesar, Kordoba, Quaxira, Maqdalena, Kindio, Santander, Tolima, Viçada, Norte-de-Santander və s.)* və *Boqota* paytaxt dairəsinə bölünür.

***Dövlət başçısı:*** *Prezident* majoritar seçki sistemi əsasında, 2 mərhələdən ibarət olan birbaşa ümumxalq səsverməsi yolu ilə, bir dəfədən çox olmamaqla 4 il müddətinə seçilir.

Dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* dövlətə və özünün formalaşdırdığı hökumətə başçılıq edir. Hökumət qanunvericilik təşəbbüsü hüququnda Parlamentə Milli İnkişaf Planını və dövlət büdcəsini təqdim edir, həmçinin ali qanunverici orqanın qarşısında fəaliyyəti ilə bağlı hesabat verir.

07 avqust 2010-cu ildən etibarən Kolumbiya Prezidenti *Milli Birlik Sosial Partiyasının* lideri *Xuan Manuel Santosdur (2010-cu ilin 30 may - 20 iyun tarixlərində keçirilmiş sonuncu Prezident seçkilərində X.M.Santos 60.06% səs toplayaraq qalib gəlmişdir).*

7 avqust 2010-cu ildən vitse-prezident *Milli Birlik Sosial Partiyasını* təmsil edən *Anjelino Qarsondur*

***Qanunverici hakimiyyət:*** 1991-ci il Konstitusiyasına əsasən iki palatalı qanunverici orqan - *Konqresdir.* Birbaşa və ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən Konqres 2 palatadan – *Senatdan* (102 yer) və *Nümayəndələr Palatasından* (166 yer) ibarətdir. 166 yerlik Nümayəndələr Palatasında 23 dövlət departamentinin hər biri 2 deputatla təmsil olunur. Senatda və Aşağı Palatada 2 yer etnik qrupların nümayəndələri üçün nəzərdə tutulur.

*Konqresin* səlahiyyətlərinə, milli inkişaf planının və dövlət investisiya proqramının qəbulu maliyyə, birja və sığorta fəaliyyətinin tənzimlənməsi, əmək haqqı və sosial ödənişlərin qanunvericilik fəaliyyəti ilə nizamlanması, ictimai resurslar, maliyyə və pul siyasəti, beynəlxalq ticarət və gömrük qanunvericiliyi məsələləri və s. daxildir.

*Konqres* nazirliklərin və digər idarəetmə orqanlarının strukturunu və səlahiyyətlərini müəyyən edir. Parlament hökumət rəsmilərinin və özəl sektorun, fiziki və hüquqi şəxslərin səriştəsizliyi nəticəsində baş vermiş və ya törədilmiş cinayətlər ilə əlaqədar amnistiya hüququna malikdir.

2010-cu il mart ayında keçirilmiş seçkilər nəticəsində Parlamentdə təmsil olunan əsas siyasi partiyalar:

*Milli Birlik Sosial Partiyası (27 senator, 48 deputat),*
*Mühafizəkarlar Partiyası (23 senator, 38 deputat),*
*Liberal Partiya (18 senator, 39 deputat),*
*Milli inteqrasiya partiyası (8 senator, 12 deputat),*
*Radikal Dəyişikliklər Partiyası (8 senator, 14 deputat),*
*Alternativ Demokratik Qütb (8 senator, 4 deputat),*
*Yaşıllar partiyası (5 senator, 3 deputat).*

***Məhkəmə hakimiyyəti:*** Kolumbiyada məhkəmə hakimiyyəti - 3 palatadan *(mülki, cinayət və əmək)* ibarət ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* inzibati ədliyyə sisteminin ali məhkəməsi olan *Dövlət Şurası,* habelə *Konstitusiya Məhkəməsi və Üst Məhkəmə Şurası* tərəfindən həyata keçirilir.

# KOMOR ADALARI

  

***Ümumi məlumat:*** XVI əsrdən başlayaraq *Komor Adalarında Ərəb* hökmranlığının bərqərar olması, nəticə etibarilə bu torpaqlarda İslam dininin və mədəniyyətinin geniş yayılmasına səbəb olmuşdur. 1886-ci ildə *Fransa* adalar üzərində tam nəzarəti ələ keçirmiş və yalnız 1975-ci ildə *Komor* müstəqilliyini elan etmişdir.

*Hind Okeanında* yerləşən *Komor Adalarının* paytaxtı *Moroni* şəhəridir.

Ölkənin ərazisi 2,235 km², əhalisi *(2010)* 798,000 nəfərdir *(əhali sıxlığı 275 nəfər/km²).*

*Komor Adaları İttifaqının* rəsmi dövlət dili *komor, fransız və ərəb* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.433 –aşağıdır *(163-cü yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1975) 05 iyun tarixində qeyd olunur. Ölkə Konstitusiyası 21 dekabr 2001-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Ölkə 4 bələdiyyədən *(Moroni, Mutsamudu, Domoni və Fomboni)* ibarət olan 3 muxtar regiona *(Qrand-komor, Anjuan və Moxeli inzibati vahidlikləri)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən ölkə Prezidenti *Komor Adaları Respublikasının* milli və dini birliyinin rəmzi, milli müstəqilliyin, təhlükəsizliyin və ərazi bütövlüyünün, insan hüquq və azadlıqlarının təminatçısı, dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin ali baş komandanıdır.

Prezidentliyə namizəd 3 adadan mürəkkəb, lakin şəffaf seçki sisteminə əsaslanan növbəlilik prinsipi ilə irəli sürülür. Prezidentin rəhbəri olduğu Hökumətin tərkibi də 3 adanın hər birindən proporsional şəkildə formalaşır.

Geniş səlahiyyətlərə malik olan 3 vitse-prezident dövlət başçısına *Komor Adalarının* daxili və xarici siyasətinin həyata keçirilməsində müxtəlif sahələr üzrə köməklik göstərir.

26 may 2011-ci il tarixindən etibarən *Komor Adaları Respublikasının* hazırkı, sayca 15-ci dövlət başçısı, *Prezident Partiyasının (Baobab)* nümayəndəsi olan *İkililu Duanindir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı *Komor İttifaqı Assambleyası* 33 deputatdan ibarətdir. Parlamentə 18 üzv majoritar qaydada iki turdan ibarət olan seçkilərdə mandat əldə edir, 15 deputat isə 3 adanın kifayət qədər geniş səlahiyyətlərə malik olan regional assambleyaları tərəfindən təyin olunur. *Assambleyanın* deputatlarının səlahiyyət müddəti 5 ildir.

Ölkədə ali qanunverici hakimiyyət ənənəvi qanunvericilik funksiyalarını *(qanunların hazırlanması və qəbul edilməsi)* yerinə yetirməkdə səlahiyyətli olan *Parlament* və fəaliyyətinə *Komor İttifaqı Assambleyasının* nəzarət etdiyi yuxarı icra orqanı sayılan *Hökumət* tərəfindən həyata keçirilir.

06-20 dekabr 2009-cu il tarixlərində keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Komor İttifaqı Assambleyasına* mandat əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Prezident Partiyası (Baobab) – (16 yer),*
*Prezidentin Müttəfiqləri – (3 yer),*
*Müxalifət – (5 yer),*
*Regional Assambleyaların Nümayəndələri - (9 yer).*

***Məhkəmə hakimiyyəti:*** 2 üzvü ölkə Prezidenti tərəfindən təyin edilən, 2 üzvü *Komor İttifaqı Assambleyasında* seçilən, hər adadan bir hakimlə təmsil olunan və nəhayət sabiq prezidentlərin yer aldığı ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

# KONQO RESPUBLİKASI

  

***Ümumi məlumat:*** Artıq X-XIII əsrlərdə Konqo çayının hövzəsində meydana gəlmiş erkən dövlət birləşmələri XVI yüzilliyin sonlarına qədər mövcud olmuşdur. XIX əsrin sonlarında müasir *Konqo Respublikasının* ərazisi fransız müstəmləkəçiləri tərəfindən zəbt edilmiş və yalnız 1960-cı ildə *Konqo* dövlət müstəqilliyini əldə etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Konqo Respublikasının* paytaxtı *Brazzavil* şəhəridir.

Ölkənin ərazisi 342,000 km², əhalisi *(2010)* 4,366,266 nəfərdir *(əhali sıxlığı 12,8 nəfər/km²)*.

*Konqo Respublikasının* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.533 - ortadır *(137-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) avqust ayının 15-də qeyd olunur. *Konqo Respublikasının* Konstitusiyası 20 yanvar 2002-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 11 departamentdən *(Buenza, Qərbi Kyuvet, Kuilu, Kyuvet, Lekumu, Likuala, Niari, Plato, Pul, Puent-Nuar və Sanqa)* və paytaxt *Brazzavil* şəhərindən ibarətdir.

***Dövlət başçısı:*** Ölkə vətəndaşları tərəfindən ardıcıl iki dəfədən çox olmamaq şərti ilə, 7 illik müddətə seçilən *Prezident* – Konstitusiyanın, hüquqi dövlətin milli müstəqilliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün ali təminatçısı, dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin ali baş komandanıdır. Hökumətə rəhbərliyi həyata keçirən ölkə *Prezidenti* formalaşdırdığı Kabinetin üzvlərini təyin və azad etmək səlahiyyətlərinə malikdir.

İcra hakimiyyəti ilə yanaşı, dövlət başçısı Parlamentlə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir.

25 oktyabr 1997-ci ildən ölkəyə hazırkı, sayca 5-ci Prezident *Deni Sassu Nqessu* rəhbərlik edir (*12 iyul 2009-ci il tarixində keçirilmiş sonuncu Prezident seçkiləri nəticəsində Deni Nqessu 78.6% səs toplayaraq qalib gəlmiş və növbəti dəfə dövlət başçısı seçilmişdir*).

***Qanunverici hakimiyyət:*** Ümumi səsvermə yolu ilə birmandatlı seçki dairələrindən 5 il müddətinə seçilən 153 yerlik *Milli Məclisdən* və 12 departamentin hər birindən 6 nəfər olmaqla, yerli və regional şuralar tərəfindən 6 il müddətinə seçilən 72 yerlik *Senatdan* ibarət iki palatalı Parlamentdir.

*Senatın (Yuxarı Palata)* tərkibinin 1/3-i növbəlilik prinsipi ilə hər iki ildən bir dəyişir. Senatorlar mütləq Konqo vətəndaşı olmalıdır və onların aşağı yaş həddi 50-dən az olmamalıdır.

Parlamentin hər iki palatası öz səlahiyyətləri çərçivəsində qanunvericilik fəaliyyətini həyata keçirməklə yanaşı, mövcud Konstitusiya ilə nəzərdə tutulmuş digər funksiyaları da yerinə yetirirlər.

15 iyul *(1-ci tur)* və 29 iyul *(2-ci tur)* 2012-ci il tarixlərində *Milli Assambleyaya* keçirilən seçkilər nəticəsində ölkənin əsas siyasi partiyası olan *Konqoleziya Əmək Partiyası*

böyük üstünlüklə qalib gələrək *Parlamentdə* təmsil olunmaq hüququ əldə etmişdir:

*Konqoleziya Əmək Partiyası (89 deputat,* lideri *Deni Sassu Nqessu),*

*Demokratiya və İnteqral İnkişaf Naminə Konqoleziya Hərəkatı (7 deputat),*

*Sosial-Demokratlar üçün Pan-Afrika İttifaqı (7 deputat),*

*Müstəqillər (12 deputat) və s.*

***Məhkəmə hakimiyyəti:*** Konqo Respublikasında ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Apelyasiya və 1-ci instansiya məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Konqoda yetkinlik yaşına çatmayanların işləri üzrə ixtisaslaşmış məhkəmələr fəaliyyət göstərir.

Əyalətlərdə və kənd yerlərində mülki mübahisə və hüquqpozmalarla bağlı işlərin böyük əksəriyyəti yerli məhkəmələr tərəfindən baxılır.

# KOSTA-RİKA





***Ümumi məlumat:*** 1502-ci ildə *X.Kolumb* tərəfindən kəşf edilmiş indiki *Kosta-Rika* ərazisi, 1509-cu ildə ispanların işğalına məruz qalmışdır.

1821-ci ildə *Kosta-Rika* müstəqilliyini elan etmiş, bununla belə, 1822-1838-ci illərdə qonşu dövlətlərlə federasiya yaradaraq *Meksika İmperiyasının* tərkibinə daxil olmuşdur.

*Mərkəzi Amerikada* yerləşən *Kosta-Rika Respublikasının* paytaxtı *San-Xose* şəhəridir.

Ölkənin ərazisi 51,100 $km^2$, əhalisi *(2011)* 4,301,712 nəfərdir *(əhali sıxlığı 84 nəfər/$km^2$).*

*Kosta-Rika Respublikasının* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.744 – yüksəkdir *(69-cu yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarə-etmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) sentyabr ayının 15-də qeyd olunur. Ölkə Konstitusiyası 07 noyabr 1949-cu ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** *Kantonlardan* ibarət olan 7 əyalətə *(Alaxuela, Kartaqo, Quanakaste, Erediya, Limon, Puntarenas və San-Xose)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə, bir dəfədən çox olmamaqla 4 il müddətinə seçilən *Prezident* - dövlət və hökumət başçısı, silahlı qüvvələrin ali baş komandanıdır. *Nazirlər Kabineti* Prezident tərəfindən formalaşır və onun üzvləri Parlamentdə mandata sahib olmayan şəxslərdən təyin edilir.

*President* qanunvericilik təşəbbüsü hüququna malikdir və zəruri hallarda xüsusi iclaslarını çağırdığı Parlamentin qərarlarına veto qoymaqda səlahiyyətlidir. Əyalət qubernatorları dövlət başçısı tərəfindən təyin edilir və yerlərdə onun birbaşa səlahiyyətli nümayəndələri sayılırlar.

*Kosta-Rikanın* hazırkı və ilk qadın Prezidenti 8 may 2010-cu ildən etibarən *Milli Azadlıq Partiyasının* təmsilçisi *xanım Laura Çinçilyadır.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı *Assambleyadır.* Parlamentin 57 üzvü partiya siyahıları ilə proporsional nümayəndəlik sistemi üzrə 4 il müddətinə *(səsvermə məcburidir)* seçilir. Parlament 2/3 səs çoxluğu ilə ölkə Prezidenti tərəfindən qoyulan vetonu ləğv edə bilər.

*Assambleya* dövlət büdcəsini müzakirə və təsdiq etməkdə, qanunları qəbul və ya onlara dəyişikliklər etməkdə, beynəlxalq müqavilələri ləğv və ya ratifikasiya etməkdə, üzvlərinin arasından formalaşdırdığı Parlament təhqiqat komissiyaları vasitəsilə istənilən məsələ ilə bağlı müstəqil araşdırmalar aparmaqda, milli vergiləri tətbiq etməkdə və bələdiyyə vergilərinin funksionallağına razılıq verməkdə, Ali Məhkəmənin sədrini, onun müavinini və üzvlərini təyin etməkdə və Konstitusiya ilə nəzərdə tutulmuş digər məsələlər üzrə səlahiyyətlidir.

Ölkə Parlamentinin hazırkı sədri *Victor Emilio Granados Kalvodur.*

2010–cu ilin fevral ayında ölkə Parlamentinə seçkilərdə qalib gəlmiş əsas siyasi partiyalar:

*Milli Azadlıq Partiyası (24 deputat),*

*Vətəndaş Hərəkatı Partiyası (12 deputat),*

*Libertarian Hərəkat Partiyası (9 deputat),*

*Birləşmiş Xristian-Sosialist Partiyası (6 deputat) və s.*

***Məhkəmə hakimiyyəti:*** *Qanunvericilik Assambleyası* tərəfindən 8 il müddətinə seçilmiş 22 hakimdən ibarət *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Ali Məhkəmənin tərkibində fəaliyyət göstərən *Konstitusiya Palatası*, qanunvericiliyin konstitusiyaya uyğunluğunu yoxlayır.

# LİBERİYA







***Ümumi məlumat:*** 1821-ci ildə indiki *Liberiya* ərazisinə *Amerika Birləşmiş Ştatlarında* köləlikdən azad edilmiş zəncilərin köçürülməsinə başlanılmışdır. 1847-ci ildə isə *Liberiya Respublikasının* yaradılması müstəmləkəçilər tərəfindən rəsmən elan edilmişdir.

*Qərbi Afrikada* yerləşən *Liberiya Respublikasının* paytaxtı *Monroviya* şəhəridir.

Ölkənin ərazisi 111,369 km², əhalisi *(2011)* 4,128,572 nəfərdir *(əhali sıxlığı 35.5 nəfər/km²)*.

*Liberiya Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.329 – aşağıdır *(182-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1847) 26 iyulda qeyd olunur. Ölkə Konstitusiyası 06 yanvar 1986-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Liberiya Respublikası 53 *dairəni (rayonu)* birləşdirən 15 Qraflığa *(Bomi, Bonq, Qbarpolu, Qrand-Basa, Qrand-Keyp-Maunt, Qrant-Qede, Qrand-Kru, Lofa, Marqibi, Merilend, Montserrado, Nimba, River-Sess, River-Qi və Sinoe)* bölünür.

***Dövlət başçısı:*** *Dövlətin* və *Hökumətin* başçısı olan *Prezident*, eyni zamanda silahlı qüvvələrin ali baş komandanıdır. Dövlət başçısının digər vəzifələri arasında qanun layihələrinin imzalanması və ya onlara veto qoyulması, əfv etmə, *Kabinet*

üzvlərinin, hakimlərin və digər vəzifəli şəxslərin təyin edilməsi və s. qeyd olunmalıdır. *Ölkə Prezidenti (vitse-prezidentlə birlikdə)* ümumi seçki hüququ əsasında 2 turdan ibarət səsvermədə, iki dəfədən çox olmamaqla 6 il müddətinə seçilir.

Ölkənin hazırkı, sayca 24-cü Prezidenti 16 yanvar 2006-cı ildən etibarən *Vəhdət Partiyasının* lideri xanım *Elen-Conson Serlifdir.*

Konstitusiyaya uyğun olaraq, öz vəzifələrini yerinə yetirmək imkanının qeyri-mümkün olduğu fəaliyyət qabiliyyətsizliyi halında Prezidenti əvəz edən vitse-prezident vəzifəsi təsbit edilmişdir. Vitse-prezidentliyə namizədlər üçün dövlət başçısı seçilməsi üçün qeyd olunan şərtlərə uyğun tələblər qoyulur.

15 yanvar 2006-cı ildən etibarən vitse-prezident *Vəhdət Partiyasının* təmsilçisi *Cosef Bokaydır.*

***Qanunverici hakimiyyət:*** Ümumi səsvermə yolu ilə 6 il müddətinə seçilən 73 yerlik *Nümayəndələr Palatasından* və seçkilərdə daha çox səs toplamış senatorların 9 il müddətinə, səsvermədə ikinci olmuş üzvlərin isə 6 il müddətinə yer aldığı 30 yerlik *Senatdan* ibarət iki palatalı Parlamentdir.

Liberiya Respublikasının vitse-prezidenti (*Cosef Bokay)* Senatın sədridir və o, səsvermə zamanı səslərin bərabər olduğu hallar istisna olmaqla, səsvermə hüququna malik deyil.

Nümayəndələr Palatasının və Senatın birgə sessiyalarında bir qayda olaraq iclaslara Palatanın spikeri *(Aleks Tayler)* sədrlik edir.

11 oktyabr 2011-ci il tarixində hər iki palataya keçirilən seçkilər nəticəsində ölkənin əsas siyasi partiyası olan *Vəhdət Partiyası* böyük üstünlüklə qalib gələrək Parlamentdə təmsil olunmaq hüququ əldə etmişdir:

*Vəhdət Partiyası (24 deputat, 10 senator),*

*Demokratik İslahatlar Naminə Konqres (11 deputat, 3 senator),*

*Azadlıq Partiyası (7 deputat, 1 senator),*

*Demokratik İnkişaf Naminə Milli Birlik (6 deputat, 2 senator),*

*Milli Demokratik Koalisiya (5 deputat, 1 senator),*

*Milli Vətən Partiyası (3 deputat, 6 senator),*

*Sülh və Demokratiya Naminə Alyans (3 deputat, 2 senator) və s.*

***Məhkəmə hakimiyyəti:*** Tamhüquqlu üzv-hakimlərlə yanaşı Prezident tərəfindən irəli sürülən və Senatda təsdiq edilən 4 assosiativ üzvlərin də yer aldığı *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

# QABON

  

***Ümumi məlumat:*** *Qabonun* ərazisi XIX əsrin ikinci yarısından etibarən fransızların nəzarətində olmuş, 1903-cü ildən isə rəsmən *Fransanın* müstəmləkəsinə çevrilmişdir.

*Qabon* 1960-cı ildə dövlət müstəqilliyini elan etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Qabon Respublikasının* paytaxtı *Librevil* şəhəridir.

Ölkənin ərazisi 267,667 km², əhalisi *(2009)* 1,475,000 nəfərdir *(əhali sıxlığı 5.5 nəfər/km²).*

*Qabon Respublikasının* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.674 – ortadır *(106-cı yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) avqust ayının 17-də qeyd olunur. Ölkə Konstitusiyası 26 mart 1991-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 37 departamentə bölünmüş 9 əyalətdən *(Estuare, Yuxarı Oqove, Orta Oqove, Nquni, Nyanqa, Oqove-İvindo, Oqove-Lolo, Oqove-Maritim və Volyu-Ntem)* ibarətdir.

***Dövlət başçısı:*** Ölkə vətəndaşları tərəfindən 7 illik müddətə seçilən *Prezidentdir.* 2003-cü ildə Konstitusiyaya edilən düzəlişlərə əsasən Prezidentlik müddəti üçün nəzərdə tutulmuş məhdudiyyət ləğv edilmişdir.

Bütövlükdə, Fransanın dövlət başçısının geniş səlahiyyətlərinə uyğunlaşdırılmış Qabon Prezidentinin səlahiyyətinə Hökumətlə birlikdə xalqın milli siyasi kursunu müəyyən et-

mək, Baş naziri, Nazirlər Kabinetinin üzvlərini və müstəqil Ali Məhkəmənin hakimlərini təyin və azad etmək daxildir.

Ölkə Prezidenti *Milli Assambleyanı* buraxmaq, qanunların qüvvəyə minməsini gecikdirmək və referendum təyin etmək hüququna malikdir.

16 oktyabr 2009-cu ildən ölkəyə hazırkı, sayca 5-ci Prezident *Ali Ben Bonqo Ondimba (Qabon Demokratik Partiyası)* rəhbərlik edir.

***Qanunverici hakimiyyət:*** Ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilən 120 yerlik *Milli Assambleyadan* və Bələdiyyə Şuraları, habelə Regional Assambleyalar tərəfindən birmandatlı dairələrdən 6 il müddətinə seçilən 102 yerlik *Senatdan* ibarət iki palatalı Parlamentdir.

*Senat* 1990-1991-ci illərdə ölkədə baş vermiş konstitusion dəyişikliklərdən sonra yaradılsa da, 1997-ci il seçkilərindən sonra fəaliyyətə başlamışdır. 2009-cu il seçkilərindən başlayaraq bəzi dairələrdən iki senator seçilməsi mümkündür. Prezident öz vəzifəsini yerinə yetirmək iqtidarında olmadığı təqdirdə Senatın sədri *(Rouz Fransin Rogombe)* onu əvəz etmək səlahiyyətinə malikdir.

17 dekabr 2011-ci il tarixində *Milli Assambleyaya* və 18 yanvar 2009-ci ildə *Senata* keçirilən seçkilər nəticəsində ölkənin əsas siyasi partiyası olan *Demokratik Partiya* böyük üstünlüklə qalib gələrək Parlamentdə təmsil olunmaq hüququ əldə etmişdir:

*Qabon Demokratik Partiyası (115 deputat, 92 senator),*

*Qabon Naminə Ralli (3 deputat, 2 senator),*

*Liberal İslahatçılar Dairəsi Partiyası (1 deputat, 1 senator),*

*Sosial Demokratik Partiya (1 deputat, 1 senator) və s.*

***İcraedici hakimiyyət:*** *Hökumətə* Prezident tərəfindən təyin edilən *Baş nazir* başçılıq edir. Dövlət başçısı Baş naziri öz təşəbbüsü ilə, habelə Hökumət başçısının xahişi və *Milli*

*Assambleya* tərəfindən göstərilən etimadsızlıq səbəbindən azad edə bilər. Hökumət Prezident və Parlament qarşısında məsuliyyət daşıyır.

Mühüm əhəmiyyət kəsb edən qərarların qəbulu məqsədilə, dövlət başçısı Nazirlər Kabinetinin iclasını çağırır və ona sədrlik edir.

27 fevral 2012-ci ildən hökumətə rəhbərliyi *Qabon Demokratik Partiyasından* olan *Raymond Ndong Sima* həyata keçirir.

***Məhkəmə hakimiyyəti:*** Üç palatadan ibarət *Ali Məhkəmə,* habelə *Dövlət Təhlükəsizlik Məhkəməsi, Konstitusiya Məhkəməsi* və *Apelyasiya məhkəmələri* Qabonda məhkəmə hakimiyyətini həyata keçirir.

# QAMBİYA





***Ümumi məlumat:*** XIII əsrdə ölkə ərazisi *Mali* dövlətinin tərkibinə daxil idi. XV əsrin sonlarından *Qambiya* Avropa ekspansiyaları üçün obyektə çevrilsə də, ölkənin müstəmləkələşdirilməsi yalnız 1902-ci ildə bütün ərazilər üzərində *Britaniya* protektoratının bərqərar olması ilə başa çatmışdır.

1965-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqilliyini elan etmiş *Qambiya* 1970-ci ildən respublikadır.

*Qərbi Afrikada* yerləşən *Qambiya Respublikasının* paytaxtı *Bancul* şəhəridir.

Ölkənin ərazisi 11,295 km², əhalisi *(2009)* 1,782,893 nəfərdir *(əhali sıxlığı 164.2 nəfər/km²)*.

*Qambiya Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.420 – aşağıdır *(168-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1965) 18 fevralda qeyd olunur. Ölkə Konstitusiyası 16 yanvar 1997-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** *Qambiya* paytaxt *Bancul* şəhərinə və 37 rayonu özündə birləşdirən beş dairəyə *(Aşağı Çay, Mərkəzi Çay, Şimali Sahil, Yuxarı Çay və Qərb rayonu)* bölünür.

***Dövlət başçısı:*** Milli müstəqilliyin və ərazi bütövlüyünün, ölkədə vətəndaş hüquq və azadlıqlarının təminatçısı, dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş

komandanı olan ölkə prezidenti ümumi seçki hüququ əsasında 5 il müddətinə seçilir.

Orta və ya ali təhsilli, ölkə ərazisində ən azı 5 il yaşamış və *Milli Assambleyaya* deputat seçilmiş 30-65 yaşlarında Qambiya Respublikasının vətəndaşı dövlət başçısı ola bilər.

*Hökumət* ona rəhbərliyi həyata keçirən ölkə prezidentindən və mövcud konstitusiyaya görə onun təyin etdiyi, *Milli Assambleyanın* üzvü olmayan ən azı 15 nazirdən (katib) ibarətdir.

Qambiya Respublikasının hazırkı, sayca 2-ci Prezidenti 18 oktyabr 1996-cı ildən etibarən *Vətənpərvər İstiqamətlənmə və Yaradıcılıq Naminə Alyansı Partiyasının* lideri *Yahya Cammedir.*

Konstitusiya öz vəzifələrini yerinə yetirmək imkanının mümkün olmadığı fəaliyyət qabiliyyətsizliyi halında Prezidenti əvəz edən vitse-prezident vəzifəsini təsbit etmişdir. Vitse-prezidentliyə namizədlər üçün Milli Assambleyanın üzvlüyü istisna olmaqla, dövlət başçısı seçilməsi üçün qeyd olunan şərtlərə uyğun tələblər qoyulur.

20 mart 1997-ci ildən vitse-prezident *Vətənpərvər İstiqamətlənmə və Yaradıcılıq Naminə Alyansı Partiyasının* təmsilçisi *xanım İsatu Niye Saididir.*

***Qanunverici hakimiyyət:*** Konstitusiyaya görə bir palatalı 53 yerlik *Milli Assambleyadır.* Parlamentə 48 deputat birmandatlı dairələrdən seçilir, 5 üzv isə prezident tərəfindən təyin olunur. Ölkə ərazisində ən azı bir il yaşayan, ingilis dilini bilən və yaşı 21-dən az olmayan şəxslər 5 il müddətinə *Milli Assambleyaya* üzv seçilə bilərlər.

Qanunların qəbulu, dövlət büdcəsinin təsdiq edilməsi, icra hakimiyyəti ilə qarşılıqlı nəzarət mexanizminin tətbiqi və s. məsələlər Parlamentin səlahiyyətlərinə aiddir.

*Milli Assambleyanın* hazırkı, sayca 9-cu sədri 2010-cu ilin noyabr ayından etibarən *Abdulla Bojanqdır.*

29 mart 2012-ci il tarixində keçirilmiş son Parlament seçkiləri nəticəsində qalib gəlmiş ölkənin əsas siyasi partiyaları:

*Vətənpərvər İstiqamətlənmə və Yaradıcılıq Naminə Alyans – 43 yer,*

*Milli Barışıq Partiyası – 1,*

*Müstəqillər – 4.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə-hüquq sistemi ingilis ümumi hüquq normalarına, habelə müsəlmanlar arasında məhkəmə çəkişmələri zamanı istifadə edilən və *Şəriət* elementlərini özündə ehtiva edən Milli Assambleyanın qanunvericilik aktlarına əsaslanır.

Qambiyada məhkəmə hakimiyyəti *Ali Məhkəmə, Apelyasiya Məhkəməsi, Yüksək Məhkəmə, Xüsusi Cinayət Məhkəməsi, Magistrat* və dairə məhkəmələri tərəfindən həyata keçirilir.

# QANA





***Ümumi məlumat:*** Müstəmləkə dövründən əvvəl *Qana* ərazisində erkən feodal dövlətləri və tayfa ittifaqları mövcud olmuşdur. Ölkənin avropalılar tərəfindən işğal edilməsi hələ 1482-ci ildə başlasa da, yalnız 1901-ci ildə *İngiltərə* müasir Qananın bütün torpaqları üzərində tam nəzarəti ələ keçirməyə müvəffəq olmuşdur.

1957-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqilliyini elan etmiş *Qana* 1960-ci ildən respublikadır.

*Qərbi Afrikada* yerləşən *Qana Respublikasının* paytaxtı *Akkra* şəhəridir.

Ölkənin ərazisi 238,535 km$^2$, əhalisi *(2010)* 24,200,000 nəfərdir *(əhali sıxlığı 101.5 nəfər/km$^2$)*.

*Qana Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.541 – ortadır *(135-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1957) 6 martda qeyd olunur. Ölkə Konstitusiyası 07 yanvar 1993-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 170 rayonu, o cümlədən 40 bələdiyyə qurumunu və 6 metropolu birləşdirən 10 vilayətə *(Aşanti, Böyük Akkra, Bronq-Axafo, Yuxarı Şərqi, Yuxarı Qərbi, Volta, Şərqi, Qərbi, Şimali, Mərkəzi)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə, dövlətin ali təmsilçisi, milli birliyin rəmzi, dövlət və hökumət başçısı,

silahlı qüvvələrin ali baş komandanı sayılan *Qana Prezidenti* ümumi və birbaşa seçkilərdə, 2 dəfədən çox olmamaq şərti ilə, 4 il müddətinə seçilir.

*Parlamentdə* yer alan *Hökumət* üzvləri Prezident tərəfindən təyin edilir. Hökumətin nəzdində *Milli Təhlükəsizlik Şurası*, habelə Prezidentin təyin etdiyi hüquq-mühafizə orqanlarının və hər əyalətdən bir nümayəndənin yer aldığı *Dövlət Şurası* fəaliyyət göstərir. Mövcud Konstitusiyaya uyğun olaraq, dövlət başçısı təyinatlar da daxil olmaqla, bütün mühüm qərarları *Dövlət Şurasının* məsləhəti və tövsiyəsi əsasında qəbul etməlidir.

24 iyul 2012-ci il tarixindən etibarən Qana Respublikasının hazırkı, sayca 9-cu Prezidenti, *Qana Milli Demokratik Konqres Partiyasının* təmsilçisi *Con Dramani Mahamadır.*

***Qanunverici hakimiyyət:*** Qüvvədə olan Konstitusiyaya görə bir palatalı, 230 yerlik *Parlamentdir*. Ənənəvi olaraq qanunvericilik fəaliyyətini həyata keçirən *Qana Respublikasının Parlamentinə* üzvlər birmandatlı dairələrdən, ümumi və bərabər seçkilər yolu ilə 5 il müddətinə seçilirlər.

Prezident Parlamentin razılığı ilə, əksəriyyəti ali qanunverici orqanda təmsil olunan nazirləri təyin edir və bu baxımdan da Hökumət üzvləri Parlament qarşısında kollektiv məsuliyyət daşıyırlar.

Ölkə *Parlamentinin* hazırkı sədri 07 yanvar 2009-cu ildən *Coys Adelin Bamford-Addodur.*

07 dekabr 2008-ci il tarixində keçirilmiş son Parlament seçkiləri nəticəsində qalib gəlmiş əsas siyasi partiyalar:

*Milli Demokratik Konqres – (116 yer, lideri Con Atta Millz),*

*Xalq Milli Konvensiyası – (2 yer, lideri Edvard Mahama),*

*Xalq Partiyasının Konvensiyası – (1 yer, lideri Samia Nkrumah),*

*Müstəqillər – 4.*

***Məhkəmə hakimiyyəti:*** İyerarxik forması Britaniya ümumi hüquq sisteminə əsaslanan Qana Respublikasının məhkəmə hakimiyyəti, geniş səlahiyyətlərə malik olan, mülki və cinayət işləri üzrə ən yüksək apelyasiya instansiyası sayılan və Konstitusiyaya nəzarət orqanının səlahiyyətlərini özündə ehtiva edən *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

Ölkə ərazisində fəaliyyət göstərən Apelyasiya Məhkəməsi, Yüksək Məhkəmə, 10 vilayət məhkəməsi və aşağı instansiya sayılan dairə məhkəmələri orqanları cinayət və mülki məsələləri həll etmək səlahiyyətinə malikdir.

# QAZAXISTAN





***Ümumi məlumat:*** Müasir *Qazaxıstanın* kökləri 1400-cü illərə - müxtəlif türk tayfalarının birləşməsi ilə *Mərkəzi Asiyada* yeni bir boyun yarandığı dövrə qədər gedib çıxır. *Qızıl Orda* dövləti dağıldıqdan sonra türk tayfalarının *Noqay xan* ətrafında birləşərək qurduqları *Noqay Xanlığı,* XV əsrin ortalarından etibarən *Qazax Xanlığına* çevrilmiş və və üç juza – *(Kiçik, Orta və Böyük)* bölünmüşdür.

1860-cı ildə hər üç juz *Rusiya İmperiyasının* tərkibinə daxil olmuş, 1920-ci ildən sonra isə ölkədə SSRİ dövrü başlanmışdır.

1991-ci ildən etibarən *Qazaxıstan* müstəqil dövlətdir.

*Avrasiyanın* mərkəzi hissəsində yerləşən *Qazaxıstan Respublikasının* paytaxtı *Astana* şəhəridir.

Ölkənin ərazisi 2,724,900 $km^2$, əhalisi *(2012)* 16,878,000 nəfərdir *(əhali sıxlığı 6.12 nəfər/$km^2$)*.

*Qazaxıstan Respublikasının* rəsmi dövlət dili *qazax* dili olsa da, ölkədə rus dilindən də geniş istifadə olunur.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.745 – yüksəkdir *(68-ci yer)* ***Dövlət quruluşu:*** Güclü prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1991) dekabr ayının 16-da qeyd olunur. Müstəqillik əldə edildikdən sonra ilk Konstitusiya 28 yanvar 1993-cü ildə qəbul edilsə də, 30 avqust 1995-ci ildə keçirilmiş ümumxalq referendumu

nəticəsində qəbul edilmiş yeni Konstitusiya *(1998, 2007 və 2011-ci illərdə edilmiş dəyişikliklərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** Qazaxıstan Respublikası 14 əyalətə *(Karaqanda, Akmoli, Aktobe, Almatı, Şimkent, Qızılorda, Jambul, Pavlodar, Kostanay, Şərqi Qazaxıstan, Şimali Qazaxıstan, Cənubi Qazaxıstan, Qərbi Qazaxıstan və Manqıstau)*, iki əyalət statusunda şəhərə *(paytaxt Astana və ölkənin ən böyük şəhəri olan Almatı)*, 83 şəhərə *(o cümlədən, RF-nin federal əhəmiyyətli Baykonur şəhərinə)*, 160 yaşayış məntəqəsinə, 200 qəsəbəyə, 7743 kəndə bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya əsasən çox geniş səlahiyyətlərə malik olan dövlət başçısı və Silahlı Qüvvələrin ali baş komandanı olan *Prezident* ümumxalq səsverməsi yolu ilə, birbaşa və gizli seçkilərdə 7 il müddətinə seçilir.

*Qazaxıstan Respublikasının Prezidenti* ölkənin daxili və xarici siyasətinin əsas istiqamətlərini müəyyənləşdirir, hakimiyyətin bütün orqanlarının razılaşdırılmış fəaliyyətini təmin edir. Parlamenti buraxmaq və yeni seçkilər təyin etmək, Parlamentin razılığı ilə Baş naziri və hökumət üzvlərini, eləcə də digər yüksək vəzifəli şəxsləri təyin etmək, dövlət proqramlarını və beynəlxalq müqavilələri imzalamaq, zəruri hallarda ölkədə fövqəladə vəziyyət tətbiq etmək və s. məsələlər dövlət başçısının səlahiyyətlərinə aiddir.

Qazaxıstanda sonuncu Prezident seçkiləri 3 aprel 2011-ci il tarixində keçirilmişdir və *Nur Otan Partiyasının* lideri *Nursultan Nazarbayev* 95.5% səs toplayaraq ardıcıl olaraq 4-cü müddətə Prezident seçilmişdir.

27 iyun 2000-ci il tarixində Qazaxıstan Parlamenti ölkənin birinci Prezidenti və onun hüquqları haqqında qanun qəbul etmişdir. Qanuna görə *Nursultan Nazarbayev* istefaya getdikdən sonra xalqa müraciət etmək, Parlamentdə və Hökumətin iclaslarında çıxış etmək, Təhlükəsizlik Şurasının üzvü olmaq və Qazaxıstan xalqları Məclisinə başçılıq etmək hüquqlarına malikdir.

***Qanunverici hakimiyyət**: Senat (Yuxarı Palata) və Məclisdən (Aşağı Palata)* ibarət İkipalatalı *Parlamentdir*. 47 yerlik Senata 7 senator ölkə Prezidenti tərəfindən təyin edilir, digər üzvlər ümumi seçkilər nəticəsində, hər vilayətdən iki nəfər olmaqla 6 il müddətinə seçilir.

Qazaxıstan Parlamenti Prezidentin təklifi əsasında Konstitusiyaya dəyişiklik edir, dövlətin büdcə və proqramlarını, habelə hökumətin hesabatların təsdiq, qanunları qəbul edir, müharibə və sülh təşəbbüsü ilə çıxış edir, beynəlxalq müqavilələri ratifikasiya edir.

*Senatın* hazırkı sədri 15 aprel 2011-ci ildən *etibarən Kayrat Mamidir.*

67 yerlik *Məclisə (Aşağı Palata)* 57 üzv birmandatlı dairələrdən ümumi seçkilər yolu ilə, digər 10 deputat isə proporsional sistem əsasında partiya siyahıları üzrə 5 il müddətinə seçilirlər.

*Məclisin* hazırkı sədri 2012-ci ilin yanvar ayının 20-dən *Nurlan Niqmatulindir.*

Aşağı Palataya 2012-ci il yanvar ayının 15-də keçirilmiş sonuncu seçkilərdə iştirak etmiş 7 siyasi partiyadan yalnız 3-ü Məclisdə təmsil olunmaq hüququ əldə etmişdir:

*Nur Otan Partiyası (83 deputat),*
*Ak Yol Partiyası (8 deputat),*
*Qazaxıstan Xalq Kommunist Partiyası (7 deputat),*
*Adilet Partiyası ,*
*Auıl Partiyası,*
*Azat Partiyası,*
*Qazaxıstan Vətənpərvərlər Partiyası.*

***İcraedici hakimiyyət:*** Hökumətə rəhbərliyi həyata keçirən *Baş nazir, Dövlət katibi*, Baş nazirin birinci müavini və *Nazirlər Kabinetinin* digər üzvləri *(nazirlər)* Prezident tərəfindən təyin edilir. Dövlət başçısı icra hakimiyyətini Nazirlər Kabinetinin vasitəçiliyi ilə həyata keçirir.

24 sentyabr 2012-ci ildən etibarən Qazaxıstan Respublikasının Baş naziri *Serik Axmetovdur.*

***Məhkəmə hakimiyyəti:*** Hüquqi sistem mülki hüquq sisteminə əsaslanır. Məhkəmə hakimiyyəti *Ali Məhkəmə* və 15 üzvü *(5 hakim Prezident, 5 üzv Yuxarı palata və 5-i Məclis tərəfindən təyin olunur)* 13 il müddətinə təyin edilən *Konstitusiya Şurası* tərəfindən həyata keçirilir. Ölkədə vilayət, şəhər, rayon, hərbi və ixtisaslaşmış məhkəmələr də fəaliyyət göstərir.

# QVATEMALA

  

***Ümumi məlumat:*** Avropalıların gəlmələrinə qədər yerli hindu qəbilələrinin məskunlaşdığı hazırkı *Qvatemala* ərazisi, ispanlar tərəfindən XVI əsrin əvvəllərində işğal edilmişdir.

1821-ci ildə müstəqilliyini elan etmiş Qvatemala, 1823-1839-cu illərdə *Mərkəzi Amerika Birləşmiş Əyalətləri Federasiyasının* tərkibinə daxil olmuşdur.

*Mərkəzi Amerikada* yerləşən *Qvatemala Respublikasının* paytaxtı *Qvatemala* şəhəridir.

Ölkənin ərazisi 108,889 km², əhalisi *(2011)* 13,824,463 nəfərdir *(əhali sıxlığı 129 nəfər/km²)*.

*Qvatemala Respublikasının* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.574 – ortadır *(131-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) 15 sentyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 14 yanvar 1986-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Qvatemala 332 bələdiyyəni özündə birləşdirən 22 departamentə *(Alta-Verapas, Baxa-Verapas, Çimaltenanqo, Çikimula, Peten Flores, El-Proqreso, San-Markos, Kiçe, Eskuintla, Qvatemala, Ueuetenanqo, İsabal, Xalapa, Santa-Rosa və s.)* bölünür.

***Dövlət başçısı:*** Ölkə *Prezidenti* dövlətə və özünün formalaşdırdığı *Nazirlər Kabinetinə* başçılıq edir. Prezident və ona dövlətin idarə edilməsində bilavasitə köməklik edən vitse-

prezident *(14 yanvar 2012-ci ildən etibarən Vətən Partiyasının üzvü xanım Roksana Baldettidir)* majoritar sistem əsasında iki mərhələli, birbaşa ümumxalq səsverməsi yolu ilə, bir dəfədən çox olmamaqla 4 il müddətinə seçilir. Mövcud Konstitusiyaya görə vitse-prezident, vəzifə müddətinin bitməsindən 4 il sonra Prezident seçkilərində iştirak edə bilər.

Dövlət başçısı qarşısında kollektiv məsuliyyət daşıyan *Hökumət* vasitəsilə icra hakimiyyətini həyata keçirir.

Hazırkı ölkə Prezidenti 14 yanvar 2012-ci ildən *Vətən Partiyasının* təmsilçisi *Otto Peres Molinadır.*

***Qanunverici hakimiyyət:*** Mövcud konstitusiyaya görə bir palatalı qanunverici orqan *Konqresdir.* 158 yerlik Parlamentə 29 deputat ümummilli siyahı üzrə, qalan 129 üzv isə yerli departamentlərin müəyyənləşdirdiyi siyahılar üzrə birbaşa seçkilərdə 4 il müddətinə seçilir.

Konqres mütləq səs çoxluğu ilə onun və Prezidentin qarşısında məsuliyyət daşıyan istənilən nazirə etimadsızlıq göstərə bilər və bu da sonuncunun istefası ilə nəticələnə bilər. Prezident nazirin istefasına razılıq verməzsə, Parlament 2/3 səs çoxluğu ilə istefanı təkid edə bilər.

11 sentyabr 2011-cu ildə keçirilmiş son seçkilər nəticəsində Parlamentdə təmsil olunan əsas siyasi partiyalar:

*Vətən Partiyası- (56 deputat),*
*UNE – GANA -(48 deputat),*
*Milliyyətçi Dəyşiklik İttifaqı- (14 deputat),*
*Yenilənmiş Demoratik Azadlıq - (14 deputat),*
*Kompromis, Yenilənmə və Qanun (12 deputat),*
*VİVA – (6 deputat) və s.*

***Məhkəmə hakimiyyəti:*** 5 illik müddətə seçilən 13 üzvdən ibarət *Ali Məhkəmə,* habelə eyni müddətə *ölkə Prezidenti, Konqres, Ali Məhkəmə, Qvatemala Universitetinin Ali Şurası və Vəkillər Kollegiyası* tərəfindən seçilən 5 üzvdən ibarət *Konstitusiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# QVİNEYA







***Ümumi məlumat:*** Müstəmləkə dövründən əvvəl indiki *Qvineya* ərazisində müxtəlif erkən feodal dövlətləri mövcud olmuşdur. XIX əsrin sonlarında ölkə ərazisi fransız müstəmləkəçiləri tərəfindən işğal edilmişdir.

1958-ci ildən etibarən *Qvineya* müstəqil dövlətdir.

*Qərbi Afrikada* yerləşən *Qvineya Respublikasının* paytaxtı *Konakri* şəhəridir.

Ölkənin ərazisi 245,857 km², əhalisi *(2009)* 10,057,975 nəfərdir *(əhali sıxlığı 40.9 nəfər/km²)*.

*Qvineya Respublikasının* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.344 – aşağıdır *(178-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1958) oktyabr ayının 2-də qeyd olunur. Ölkə Konstitusiyası 23 dekabr 1990-cı ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Ölkə 8 əyalətə *(Boki, Farana, Nzerekore, Mamu, Kankan, Kindiya, Labe əyalətləri və onlara bərabər tutulan paytaxt Konakri)* və 33 prefekturaya bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə 7 il müddətinə seçilən *prezident* dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanıdır. Dövlətin idarə olunmasında kifayət qədər geniş səlahiyyətlərə malik olan Prezident icra hakimiyyətinə rəhbərliyi 8 region və 33 prefektura üzrə həyata keçirir və bu fəaliyyətində dövlət başçısına, təyin və azad etdiyi 25 nazirdən ibarət olan *Hökumət üzvləri* kömək edirlər.

Mövcud Konstitusiyada təsbit edilməsə də, məhdud səlahiyyətə malik olan Qambiyanın *Baş naziri* qarşısında birbaşa məsuliyyət daşıdığı Prezident tərəfindən təyin edilir.

Dövlət başçısı aralarında prinsipial dövlət məsələləri ilə bağlı tənzimlənməsi mümkün olmayan fikir ayrılığı yarandığı hallarda *Milli Assambleyanı* buraxmaq və erkən seçkiləri elan etmək səlahiyyətinə malikdir.

2010-cu ilin 27 iyun *(I tur)* və 07 noyabr *(II tur)* tarixlərində, ölkə vətəndaşlarının iştirak etdiyi son Prezident seçkilərində 52.52% səs toplamış *Alfa Konde* Qvineya Respublikasının dövlət başçısı seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Birpalatalı, 114 yerlik *Milli Assambleyadır.* Parlamentin 38 deputatı majoritar, 76 üzvü isə proporsional seçki sistemi üzrə 5 il müddətinə seçilir.

Son Parlament seçkiləri 2002-ci ildə keçirilmişdir. 2008-ci ildə ölkədə baş vermiş hərbi çevrilişdən sonra ölkədə Parlament fəaliyyətini dayandırmışdır *(İlkin versiyalara görə Qvineyada növbəti Parlament seçkilərinin 11 illik fasilədən sonra, 2013-cü ilin martında keçirilməsi nəzərdə tutulur ).*

***İcraedici hakimiyyət:*** *Hökumət (Nazirlər Kabineti)* Qambiya Respublikasında icra hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. 24 dekabr 2010-cu ildən etibarən *Məhəmməd Səid Fofana* ölkə Prezidenti tərəfindən sayca 12-ci *Baş nazir* vəzifəsinə təyin edilmişdir.

*Fofananın* təyinatı dövlət başçısının *susu* və cənub bölgəsinin digər əhalisinin seçkilərdə ona verdikləri dəstəyə cavab olaraq minnətdarlıq jesti kimi qəbul edilir. Belə ki, Baş nazir təyinatından əvvəl o qədər də tanınmayan *M.S.Fofana susu* xalqının nümayəndəsidir.

***Məhkəmə hakimiyyəti:*** Hakimləri Prezident tərəfindən təyin edilən və ölkədə Konstitusiya nəzarəti orqanının səlahiyyətlərini həyata keçirən *Ali Məhkəmə,* habelə *Apelyasiya və birinci instansiya məhkəmələri* Qvineyanın məhkəmə hakimiyyətini həyata keçirir.

# LİVİYA





***Ümumi məlumat:*** Qədim dövrlərdə *misirlilərin, finikiyalıların, romalıların* və *Bizansın* hakimiyyəti altında olmuş *Liviya* VII əsrdə ərəb qəbilələri tərəfindən işğal edilmişdir. XVI-XX əsrin əvvəllərində ölkə *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuş, 1911-ci ildən *İtaliyanın* müstəmləkəsi sayılmış, 1943-cü ildən isə *İngiltərə və Fransa* tərəfindən işğal edilmişdir.

1951-ci ildən etibarən *Liviya* müstəqil dövlətdir.

*Şimali Afrikada* yerləşən *Liviya Respublikasının* paytaxtı *Tripoli* şəhəridir.

Ölkənin ərazisi 1,759,541 $km^2$, əhalisi *(2009)* 6,365,563 nəfərdir *(əhali sıxlığı 3.2 nəfər/$km^2$)*.

*Liviya Respublikasının* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.760 – yüksəkdir *(64-cü yer)*.

***Dövlət quruluşu:*** 2011-ci ildə baş vermiş vətəndaş müharibəsindən *(Ərəb inqilabları dalğasından qaynaqlanan)* sonra dövlətin idarə edilməsi tərkibi ölkənin 31 böyük şəhərlərinin təmsilçilərindən ibarət olan *Liviya Milli Keçid Şurası* tərəfindən həyata keçirilmiş, 2012-ci ilin avqustunda isə müvəqqəti Konstitusiyaya əsasən *Milli Keçid Şurası* siyasi hakimiyyəti ölkənin legitim Parlamenti sayılan *Liviya Ümummilli Konqresinə* təhvil vermişdir.

Milli Bayram günü olan müstəqillik günü (1951) 24 dekabrda qeyd olunur. 11 dekabr 1969-cu ildə qəbul edilmiş

Konstitusiya 2011-ci ildə baş vermiş siyasi hadisələr *(vətəndaş müharibəsi)* nəticəsində hüquqi qüvvəsini itirdiyindən, hazırda yeni Konstitusiyanın qəbul edilməsinə qədərki dövr ərzində onu referendumda ratifikasiya edilmiş və 03 avqust 2011-ci ildən qüvvədə olan, 37 maddədən ibarət *Konstitusiya Bəyannaməsi* müvəqqəti olaraq əvəz edir.

***İnzibati bölgüsü:*** Ölkə 22 bələdiyyəyə *(Əl-Butnan, Dərna, Əl-Cəbal-əl-Axdar, Əl-Mərc, Benqazi, Əl-Vaxat, Əl-Küfrə, Sirt, Misurata, Əl-Mərqab, Tarabulus, Əl-Cifara, Əz-Zəviyə, Ən-Nuqat-əl-Xüms, Əl-Cabal-əl-Qərbi, Nalut, Əl-Cüfrə, Vadi-əş-Şati, Sabha, Vadi-əl-Həyat, Qat və Mərzuk)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin idarə edilməsində ali mövqeyə malik olan və 09 avqust 2012-ci ildən etibarən *Liviya Ümummilli Konqresinin* hazırkı və sayca 1-ci sədri - *Məhəmməd Əl-Məkarif* qarşıdan gələn *Prezident* seçkilərində dövlət başçısı postuna ən iddialı namizəd sayılır.

Liviya dövlətinin siyasi böhrandan tam qurtula bilməməsi, habelə Yeni Konstitusiyanın hələ ki, qəbul edilməməsi səbəbindən, dövlət başçısının səlahiyyət hüdudları tam dəqiqliyi ilə müəyyən edilməmişdir.

***Qanunvericilik hakimiyyəti:*** *Liviya Ümummilli Konqresi* dövlətin əsas struktur elementi olaraq ölkədə qanunvericilik hakimiyyətini həyata keçirməklə yanaşı, müasir Liviyada siyasi idarəetmənin fövqündə yer alır və hazırkı keçid dövründə müstəsna hüquqlara malikdir.

Belə ki, ilk növbədə *Liviya Ümummilli Konqresi,* onun qarşısında siyasi və kollektiv məsuliyyət daşıdığı *Kabinetin* tərkibini təsdiq etməkdə və zəruri hallarda ona etimadsızlıq göstərməkdə səlahiyyətlidir.

200 yerlik *Parlamentə (Liviya Ümummilli Konqresi)* 80 deputat partiya siyahıları ilə proporsional təmsilçilik sistemi üzrə, digər 120 üzv isə müstəqil namizəd qismində müəyyən edilmiş dairələrdən seçilir.

07 iyul 2012-ci ildə keçirilmiş Parlament seçkiləri nəticəsində *Ümummilli Konqresdə* mandat əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Milli Alyans Qüvvələri – 39 yer,*
*Ədalət və Quruculuq – 17,*
*Milli Cəbhə - 3,*
*Vətən Naminə İttifaq – 2,*
*Milli Mərkəzçi Partiya – 2,*
*Vadi-əl-Həya – 2,*
*Digər partiyalar – 15,*
*Müstəqil deputatlar – 120.*

***İcraedici hakimiyyət:*** Dövlətin yeni siyasi prinsiplərinə uyğun olaraq *Hökumət (Nazirlər Kabineti) Liviyada* yaşayan bütün millətlərin maraqlarını və kəmiyyət balansını qorumaq məqsədilə müxtəlif coğrafi regionları təmsil edən nümayəndələrin tərkibindən formalaşır.

*Baş nazirin* təqdimatı əsasında 27 nazirin daxil olduğu *Kabinetin* tərkibi *Ümummilli Konqresdə* təsdiq edilir və *Hökumət* cari fəaliyyətinə görə Parlament qarşısında bilavasitə cavabdehlik daşıyır.

31 oktyabr 2012-ci ildən etibarən *Əli Zeydan Məhəmməd Liviya Ümummilli Konqresinin* hazırkı, sayca 2-ci *Baş naziridi*r.

***Məhkəmə hakimiyyəti:*** *Liviya Konstitusiya bəyannaməsinin* 30, 31 və 32-ci maddələrinə uyğun olaraq məhkəmə hakimiyyəti ölkədə ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə*, habelə *Apelyasiya və birinci instansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

# MALAVİ RESPUBLİKASI

  

***Ümumi məlumat:*** 1891-ci ildən 1964-cü ilə qədər olan dövr ərzində *Nyasalend* adı altında *Böyük Britaniyanın* protektoratı olmuş *Malavi Birləşmiş Krallığın* tərkibində 1964-cü ildən müstəqil dövlətdir.

*Afrikanın* cənub-şərq hissəsində yerləşən *Malavi Respublikasının* paytaxtı *Lilonqve* şəhəridir.

Ölkənin ərazisi 118,484 km², əhalisi *(2010)* 14,901,000 nəfərdir *(əhali sıxlığı 128.8 nəfər/km²)*.

*Malavi Respublikasının* rəsmi dövlət dili *ingilis* və *nyanca* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.400 – aşağıdır *(171-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1964) 06 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 16 may 1994-cü ildə qəbul edilmişdir *(1995-ci ildən qüvvədədir)*.

***İnzibati bölgüsü:*** 3 regionun *(Şimali, Mərkəzi və Cənubi)* tərkibində 28 əyalətdən *(Dedza, Doua, Kasunqu, Lilonqve, Mçinci, Nxotakota, Nitçeu, Ntçisi, Salima, Çitipa, Karonqa, Likoma və s.)* ibarətdir.

***Dövlət başçısı:*** Malavinin milli birliyinin rəmzi, Konstitusiyanın, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali

baş komandanı sayılan *Prezident* ümumi və birbaşa səsvermə yolu ilə, 5 illik müddətə seçilir.

Mövcud Konstitusiyaya uyğun olaraq, Malavi Federativ Respublikasının vitse-prezidentini *(13 aprel 2012-ci ildən etibarən Xumbo Kaşalidir)* və *Hökumət* üzvlərini təyin edən ölkə Prezidenti zərurət yarandığı hallarda ikinci vitse-prezidenti təyin etməkdə də səlahiyyətlidir.

İcraedici hakimiyyət *Prezident* və onun qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Kifayət qədər geniş səlahiyyətlərə malik olan dövlət başçısı dövlət əhəmiyyətli mühüm qərarların qəbul olunduğu *Kabinetin* iclaslarına özü sədrlik edir.

Malavi Respublikasının hazırkı, sayca 4-cü Prezidenti 07 aprel 2012-ci ildən etibarən xanım *Coys Bandadır.*

***Qanunverici hakimiyyət:*** 193 yerlik bir palatalı *Milli Məclisdir.* 1994-cü ildən çoxpartiyalı sistemin mövcud olduğu Malavidə Parlamentə deputatlar majoritar sistem üzrə 5 illik müddətə seçilirlər.

Qanunların hazırlanması və qəbulu, dövlət büdcəsinin müzakirəsi və təsdiq edilməsi, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası və s. mühüm məsələlərdə səlahiyyətli orqan sayılan *Parlament* qanunvericilik hakimiyyətini *Hökumətlə* birlikdə həyata keçirir.

15 iyun 2009-cu ildən etibarən Malavi Respublikası Parlamentinin sədri *Henri Çimuntu Bandadır*.

2009-cu ilin may ayında keçirilmiş son Parlament seçkiləri nəticəsində qalib gəlmiş ölkənin əsas siyasi partiyaları:

*Demokratik İnkişaf Partiyası (114 deputat),*
*Malavi Konqres Partiyası (26 deputat),*
*Birləşmiş Demokratik Cəbhə (17 deputat),*
*Digər partiyaların nümayəndələri (4 deputat),*
*Müstəqillər (32).*

***Məhkəmə hakimiyyəti:*** *Malavinin* məhkəmə-hüquq sistemi, ingilis ümumi hüquq sisteminin elementlərinə və Afrika hüquq sisteminə *(ailə-nikah, vərəsəlik, torpaq məsələləri və s.)* əsaslanır.

Ölkədə məhkəmə hakimiyyəti sədri Parlamentin razılığı ilə Prezident tərəfindən təyin edilən və ən yüksək məhkəmə instansiyası sayılan *Apelyasiya Məhkəməsi,* habelə *Ali Məhkəmə,* magistrat və yerli məhkəmələr tərəfindən həyata keçirilir.

# MALDİV RESPUBLİKASI





***Ümumi məlumat:*** XII əsrdən etibarən müstəqil *sultanlıq,* 1887-1965-ci illər ərzində isə *Böyük Britaniyanın* protektoratı olmuş *Maldiv* 1965-ci ilin iyul ayında müstəqilliyini elan etmişdir *(1968-ci ildən respublikadır).*

*Hind Okeanının* şimal-qərb hissəsində yerləşən *Maldiv Respublikasının* paytaxtı *Male* şəhəridir.

Ölkənin ərazisi 298 km², əhalisi *(2012)* 328,536 nəfərdir *(əhali sıxlığı 1.102.5 nəfər/km²).*

*Maldiv Respublikasının* rəsmi dövlət dili *maldiv* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.661 – ortadır *(109-cu yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1965) iyul ayının 26-da qeyd olunur. Ölkə Konstitusiyası 07 avqust 2008-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Paytaxt *Male* və 20 adalar qrupundan ibarət olan 8 regiona *(Uzaq Şimal, Şimal, Mərkəzi-Şimal, Mərkəzi, Mərkəzi-Cənub, Cənub, Uzaq Cənub və Paytaxt)* bölünür.

***Dövlət başçısı:*** Dövlət və hökumət başçısı olan *Prezident* ölkə Parlamenti tərəfindən seçilir. Lakin Prezidentliyə namizəd şəxs ilk növbədə ümumxalq referendumunda təsdiq edilməli və ən azı 51% səs toplamalıdır. Prezidentin ümumi səlahiyyət müddəti qeyri-məhduddur.

Tərkibi Parlamentin deputatlarından və dövlət qulluqçularının korpusundan təşkil olunan *Nazirlər Kabinetinə* Prezi-

dent rəhbərlik edir. Dövlət başçısı müstəsna səlahiyyətlərindən istifadə edərək 14 nazirin hər birini təyin və yaxud azad edə bilər və buna görə Parlament qarşısında heç bir məsuliyyət daşımır.

Maldiv Respublikasının hazırkı Prezidenti 7 fevral 2012-cu ildən etibarən *Məhəmməd Vahid Həsən Manikdir (Ölkənin vitse-prezidenti 15 fevral 2012-ci ildən Məhəmməd Vahid Dindir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı *Xalq Məclisidir.* Parlamentin 77 üzvü ümumi seçki sistemi üzrə 5 il müddətinə seçilir. Parlamentin səlahiyyətlərinə ölkə Konstitusiyası istisna olmaqla bütün qanunların baxılması və qəbulu, dövlətin illik büdcənin təsdiqi, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası və s. məsələlər daxildir.

Maldiv Respublikası Parlamentinin hazırkı sədri *Maldiv Xalq Partiyasının* təmsilçisi *Abdulla Şahiddir.*

2009-cu il may ayının 9-da ölkə Parlamentinə keçirilmiş seçkilərdə qalib gəlmiş əsas siyasi partiyalar:

*Maldiv Xalq Partiyası (28 yer),*
*Maldiv Demokratik Partiyası (26 yer, Prezident partiyası),*
*Xalq Alyansı (7 yer),*
*DQP (2 yer),*
*Respublika Partiyası (1 yer),*
*Müstəqillər (13 yer).*

***Məhkəmə hakimiyyəti:*** *Ali Məhkəmə, 8 aşağı instansiya məhkəməsi və 19 yerli şəhər məhkəmələr*i ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

Prezident tərəfindən təyin edilən, dövlət başçısının və formal olaraq Hökumətin qarşısında məsuliyyət daşıyan inzibati vahidliklərin rəhbərləri də kifayət qədər məhkəmə səlahiyyətlərinə malikdirlər. Yerlərdə şəriət hüquq sisteminin elementlərindən geniş istifadə edilir.

# MARŞAL ADALARI





***Ümumi məlumat:*** *Marşal Adaları* XVII-XIX əsrlərdə *İspaniyanın,* 1885-1914-cü illər ərzində *Almaniyanın,* 1920-ci ildən *Yaponiyanın,* 1947-ci ildən isə *ABŞ-ın* rəhbərliyi ilə *BMT-nin* qəyyumluğu altında olan ərazisi sayılmışdır.

*Marşal Adaları Respublikası* 1986-cı ildən etibarən *ABŞ-la* "azad assosiasiya" statusunda olan müstəqil dövlətdir.

*Sakit Okeanının* qərb hissəsində yerləşən *Marşal Adaları Respublikasının* paytaxtı *Macuro* şəhəridir.

Ölkənin ərazisi 181 $km^2$, əhalisi *(2009)* 68,000 nəfərdir *(əhali sıxlığı 342.5 nəfər/$km^2$).*

*Marşal Adaları Respublikasının* rəsmi dövlət dili *ingilis və marşal* dilləridir.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarə-etmə üsuluna malik unitar respublikadır. Milli bayram günü olan müstəqillik günü (1986) 21 oktyabr tarixində qeyd olunur. *Marşal Adalarının* Konstitusiyası 1 may 1979-cu ildə qəbul edilmişdir.

Mövcud Konstitusiyaya əsasən, Britaniya və Amerika siyasi sistemlərinin elementlərini özündə ehtiva edən *Marşal Adaları,* 1986-cı ildən etibarən ABŞ-la "azad assosiasiya" müstəvisində özünüidarə edən müstəqil dövlət statusuna malikdir. Bununla belə, ölkə iqtisadiyyatının maliyyələşdirilməsi, 1986-cı ildə bağlanmış *azad assosiasiya sazişinə* əsasən ABŞ-ın müstəsna səlahiyyətlərinə aiddir.

***İnzibati bölgüsü:*** 33 bələdiyyədən *(Ailinqiane, Ailinqlaplap, Ailuk, Arno, Aur, Bikar, Bikini, Bokak, Voto, Cabat, Caluit, Cemo, Kili, Kvacaleyn, Lae, Lib, Likiep, Macuro, Mecit, Mili, Namorik, Namu, Ronqelap, Ronqerik, Taka, Ucae, Ucalanq, Utirik, Ebon, Enivetok və Erikub)* ibarətdir.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə dövlətin və hökumətin başçısı, habelə vətəndaşların hüquqlarının təminatçısı sayılan, bütövlükdə ölkənin idarə edilməsində geniş səlahiyyətlərə malik olan *Prezident Nitijelanın (Aşağı Palata)* üzvləri arasından sadə səs çoxluğu ilə 4 il müddətinə seçilir.

Eyni zamanda *Kabinetin* və *Nitijelanın* üzvü olan dövlət başçısı Prezident seçildiyi andan ötən 7 gün ərzində minimum 6 nazirin namizədliyini təqdim etməzsə, onun vəzifə səlahiyyətlərinə Parlamentdə səs çoxluğu ilə xitam verilir və dərhal yeni seçkilərin vaxtı təyin edilir.

Bununla belə, yeni seçilmiş Prezident tərəfindən 30 günlük müddət ərzində *Kabinetin* tərkibi formalaşdırılmadığı və 2 dəfə ardıcıl olaraq dövlət başçısına etimadsızlıq göstərildiyi təqdirdə Parlament buraxıla bilər.

10 yanvar 2012-ci ildən etibarən *Marşal Adalarının* hazırkı, sayca 7-ci *Prezidenti Kristofer Loikdir.*

***Qanunverici Hakimiyyət*:** *Marşal Adalarının Parlamenti* 2 palatadan – 12 yerlik *Rəhbərlər Şurasından (Yuxarı Palata)* və 33 yerlik *Nitijeladan (Aşağı Palata)* ibarətdir. 21 yaşına çatmış ölkə vətəndaşları ümumi seçki hüququ əsasında və sadə səs çoxluğu ilə 4 il müddətinə *Nitijelaya* üzv seçilə bilərlər.

*Yuxarı Palata* Marşal Adalarına aid olan istənilən məsələləri müzakirə etmək, *Nazirlər Kabinetinə* münasibətdə öz mövqeyini bildirmək, ümumi hüquqla bağlı istisnasız olaraq bütün qanunlara yenidən baxmağı tələb etmək və bir sıra digər mühüm səlahiyyətlərə malikdir.

*Aşağı Palatanın* səlahiyyətlərinə qanunların hazırlanması və qəbulu, beynəlxalq müqavilələr və sazişlərin ratifikasiyası,

habelə mövcud Konstitusiya ilə təsbit edilmiş digər məsələlər aiddir.

Ölkədə siyasi partiyalar rəsmən fəaliyyət göstərmir və bu baxımdan Parlamentin tərkibi bitərəflərdən ibarətdir.

***İcraedici hakimiyyət:*** Ölkə vətəndaşlarının rifah halının yüksəldilməsi istiqamətində ali qanunverici orqan qarşısında kollektiv məsuliyyət daşıyan, tərkibinə Prezidentin və Parlament üzvlərinin də daxil olduğu *Nazirlər Kabineti, Marşal Adalarının* daxili və xarici siyasətinin həyata keçirilməsində və ona nəzarətdə, *Nitijelaya* mühüm və təxirəsalınmaz qanun layihələrinin təqdim edilməsində, dövlət rüsumlarının tətbiqində, səhiyyə, təhsil və digər sosial yönümlü layihələrin həyata keçirilməsində, əfv verilməsində və s. əhəmiyyətli məsələlərin həllində geniş səlahiyyətlərə malik olan yuxarı icra orqanıdır.

Tərkibində minimum 6, maksimum isə 10 nazirliyin *(Maliyyə, Xarici İşlər, Kommunikasiya və Nəqliyyat, İnkişaf və Resurslar, Sosial Təminat, İctimai İşlər və s.)* yer aldığı *Nazirlər Kabinetini Aşağı Palatanın* razılığı ilə Prezident təyin edir və ona rəhbərlik edir.

***Məhkəmə hakimiyyəti:*** *Marşal Adalarında* məhkəmə hakimiyyəti hakimləri *(yuxarı yaş həddi 72-dir) Məhkəmə Xidməti Komissiyasının* təqdimatı ilə *Nazirlər Kabineti* tərəfindən təyin olunan *Ali və Yüksək Məhkəmələr, habelə ənənəvi hüquq və dairə məhkəmələri* tərəfindən həyata keçirilir.

Ölkədə fəaliyyət göstərən bütün məhkəmə instansiyaları kifayət qədər geniş və müstəqil səlahiyyətlərə malikdirlər.

# MEKSİKA

  

***Ümumi məlumat:*** *Meksikanın* indiki ərazisində qədim zamanlarda yüksək inkişaf səviyyəsinə nail olmuş hindu qəbilələri *(asteklər, mayalar, tolteklər, olmeklər və s.)* məskunlaşmışlar. Amerikanın ispanlar tərəfindən kəşf edilməsinə qədər *Meksika* torpaqlarında *mayaların və asteklərin* dövləti mövcud olmuşdur

İspanların 1518-ci ildə bu torpaqlara ilk gəlişlərindən sonra *Meksika* XVI əsrdən XIX əsrin əvvəllərinə qədər olan dövrdə *İspaniyanın* müstəmləkəsinə çevrilmiş və yalnız 1821-ci ildə dövlət müstəqilliyini əldə etmişdir.

*Şimali Amerikanın* cənub hissəsində yerləşən *Meksika Federativ Respublikasının* paytaxtı *Mexiko* şəhəridir.

Ölkənin ərazisi 1,972,550 km², əhalisi *(2012)* 115,296,767 nəfərdir *(əhali sıxlığı 57 nəfər/km²)*.

*Meksikanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.770 – yüksəkdir *(57-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1810) sentyabr ayının 16-da qeyd olunur. Ölkə Konstitusiyası 05 fevral 1917-ci ildən *(sonuncu dəfə 1993-cü ildə edilən əlavələrlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** 2438 bələdiyyədən ibarət olan 31 ştata *(Puebla, Tabasko, Verakruz-Lave, Yukatan, Zakatekas, Duranqo, Baya Kaliforniya, Distrito Federal, Qerrero, İdalqo,*

*Keretaro, Kolima, Sinaloa, Nayarit və s.)* və *Mexiko* paytaxt federal dairəsinə bölünür.

***Dövlət başçısı:*** Birbaşa seçkilərdə 6 il müddətinə seçilən və təkrar seçilmək hüququ olmayan *Prezident* dövlət və hökumət başçısı, dövlət aparatının rəhbəri və silahlı qüvvələrin ali baş komandanıdır. Hökumət üzvləri və ali vəzifə sahibləri Prezident tərəfindən formalaşdırılır, təyin edilir və vəzifələrindən azad edilirlər. Zəruri hallarda *Prezident Kabinetin* geniş tərkibini təyin etməkdə səlahiyyətlidir.

Dövlət başçısı qanunvericilik təşəbbüsü hüququna malikdir və Konqresin müzakirə və qəbul etdiyi qanun layihələrinin böyük əksəriyyəti icra hakimiyyəti tərəfindən təqdim edilir.

Prezident veto hüququna malikdir, lakin dövlət başçısı qanunvericilik prosesini tam nəzarətdə saxladığı üçün, veto hüququndan istifadə praktikada çox az hallarda mümkündür.

Qanun qüvvəsinə malik olan fərmanlar imzalamaq, fövqəladə vəziyyət elan etmək, konstitusiya təminatlarını dayandırmaq və s. mühüm məsələlərdə dövlət başçısı səlahiyyət sahibi olsa da, Konstitusiyaya görə onun fəaliyyətində məhdudiyyətlər *(aqrar islahatlar, neft sektorunun milliləşdirilməsi, demokratik proseslərdə iştirakın təmin edilməsi və s.)* də mövcuddur.

01 iyul 2012-ci ildə keçirilmiş son Prezident seçkiləri nəticəsində *İnstitusional İnqilab Partiyasının* nümayəndəsi *Enrike Penya* 38.21% səs toplayaraq Meksikanın yeni, sayca 37-ci Prezidenti seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Konstitusiyaya əsasən Meksikada icra hakimiyyəti ilə qanunvericilik hakimiyyətinin səlahiyyət hüdudları dəqiq müəyyən edilmişdir. Bu baxımdan, ali qanunverici orqan - *Milli Konqres* fəaliyyətini tam müstəqil şəkildə həyata keçirir.

Konqres 2 palatadan - *Senat* (hər ştatın və federal dairənin 4 senatorla təmsil olunduğu - *128 yer*) və *Nümayəndələr Palatasından* (300 yer majoritar sistem üzrə seçilməklə - *500 yer*)

ibarətdir. Senata hər ştatdan 3 nəfər majoritar, 1 nümayəndə isə proporsional sistem üzrə 6 il müddətinə seçilir. Nümayəndələr Palatasının 300 üzvü ümumxalq seçki yolu ilə 3 il müddətinə seçilir.

*Konqresin* əsas funksiyası Federasiyanın səlahiyyətlərinə aid olan qanun və fərmanların qəbulundan, habelə yeni ştatların yaradılmasından, vergilərin müəyyən edilməsindən və s. ibarətdir.

*Nümayəndələr Palatasının* səlahiyyətlərinə qanunların hazırlanması və qəbulu, illik federal büdcənin müzakirəsi, təsdiqi və onun icrasına nəzarət, beynəlxalq müqavilələrin ratifikasiyası və s. məsələlər aiddir.

Bundan əlavə, Parlamentin hər iki palatası federal nazirliklərin, inzibati departamentlərin və dövlət müəssisələrinin fəaliyyətini araşdırmaq məqsədilə komissiya yaratmaq hüququna malikdir.

2012-ci ilin 1 iyul tarixində *Nümayəndələr Palatasına (sədri 1 sentyabr 2011-ci ildən Emilio Çuayffetdir)* və *Senata (sədri 1 sentyabr 2011-ci ildən Joze Qonzales Morfindir)* keçirilən seçkilər nəticəsində ölkənin əsas siyasi partiyaları *Parlamentdə* təmsil olunmaq hüququ əldə etmişdir:

*İnqilabi İnstitut və Ekoloji Yaşıllar partiyası (246 deputat, 36 senator),*

*Demokratik İnqilab və Əmək Partiyası (140 deputat, 31 senator),*

*Milli Hərəkat Partiyası - (53 deputat, 50 senator),*

*İnqilabi İnstitut Partiyası – (51 deputat, 10 senator),*

*Yaşıllar partiyası - (3 deputat).*

***Məhkəmə hakimiyyəti:*** *Konstitusiya Məhkəməsinin* funksiyalarını da həyata keçirən *Xalq Ədliyyə Ali Məhkəməsi (Suprema Corte de Justicia de la Nación (SCJN)* Meksika Ştatlarının ən yüksək federal məhkəməsidir. *Ali Məhkəmənin* sədri və on hakimi, Meksika Prezidentinin təqdim etdiyi siyahı üzrə *Yuxarı Palata (Senat)* tərəfindən təsdiq edilir.

# MƏRKƏZİ AFRİKA RESPUBLİKASI







***Ümumi məlumat:*** *Mərkəzi Afrika Respublikasının* müasir ərazisi 1894-cü ildə fransız müstəmləkəçiləri tərəfindən işğal edilmiş və *Ubanqi-Şari* adı altında *Fransız Ekvatorial Afrikasının* tərkibinə daxil olmuşdur.

*Mərkəzi Afrika Respublikası* 1960-cı ildən etibarən müstəqil dövlətdir.

*Afrikanın* mərkəzi hissəsində yerləşən *MAR-ın* paytaxtı *Bangi* şəhəridir.

Ölkənin ərazisi 622,984 km², əhalisi *(2009)* 4,422,000 nəfərdir *(əhali sıxlığı 7.1 nəfər/km²)*.

*Mərkəzi Afrika Respublikasının* rəsmi dövlət dili *fransız* və *sanqo* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.343 – aşağıdır *(179-cu yer)*.

***Dövlət quruluşu:*** 18 iyun 1953-cü ildən məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü 13 avqustda (1960) qeyd olunur. *Mərkəzi Afrika Respublikasının* Konstitusiyası 05 dekabr 2004-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Xüsusi inzibati vahidlik olan paytaxt *Banqi* şəhəri də daxil olmaqla 17 prefekturaya *(Bambinqi-Banqoran, Vakaqa, Yuxarı Kotto, Yuxarı Mbomu, Kemo, Lobae, Membere-Kadei, Mbomu, Nana-Qrebizi, Nana-Mambere, Aşağı Kotto, Ombella-Mpoko, Sanqa-Mbaere, Uaka, Uam və Uam-Pende )* bölünür.

***Dövlət başçısı:*** Hüquqi dövlətin, Konstitusiyanın, ərazi bütövlüyünün və milli təhlükəsizliyin təminatçısı, dövlət və hökumət başçısı, habelə silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* ümumxalq səsverməsi yolu ilə, ardıcıl iki dəfədən çox olmamaq şərti ilə 6 il müddətinə seçilir.

Dövlət başçısı üzvlərini vəzifəyə təyin etdiyi, qanunvericilik təşəbbüsü hüququna malik olan və hökumətin fəaliyyətinə ümumi nəzarəti həyata keçirən *Nazirlər Şurasına* sədrlik edir. *Nazirlər Şurasına* rəhbərlik edən *Baş nazir* ölkə Prezidenti tərəfindən təyin olunur.

*Mərkəzi Afrika Respublikasının* hazırkı, sayca 7-ci Prezidenti 24 mart 2013-cü ildən etibarən *Mişel Djotodiyadır (23 yanvar 2011-ci ildə keçirilmiş sonuncu Prezident seçkilərində 64.37% səslə qalib gələn Fransua Bozize, 2013-cü ilin mart ayında hərbi çevriliş nəticəsində vəzifəsindən kənarlaşdırılmış və ölkəni tərk etmişdir).*

***Qanunverici hakimiyyət:*** Konstitusiyaya görə bir palatalı 105 yerlik *Milli Assambleyadır.* Parlamentin üzvləri iki turdan ibarət olan ümumxalq seçkilərində 5 illik müddətə seçilirlər.

Qanunvericilik hakimiyyətinin təməl prinsiplərini ehtiva edən fəaliyyətində *Milli Assambleya* qanunların hazırlanması və qəbulu, dövlət büdcəsinin müzakirəsi və təsdiqi, Hökumətin illik hesabatlarının dinlənilməsi və s. məsələləri həyata keçirməkdə səlahiyyətlidir.

*Milli Assambleyanın* hazırkı sədri 14 iyun 2005-ci ildən etibarən *Selestin Lerou Quambaletdir.*

2011-ci ilin 23 yanvar və 27 mart tarixlərində keçirilmiş iki raundlu Parlament seçkiləri nəticəsində qalib gəlmiş ölkənin əsas siyasi partiyaları:

*"Kva Na Kva" – 61 yer,*
*Müstəqillər – 26,*
*Prezident Çoxluğu – 11,*
*Mərkəzi Afrika Xalqının Azadlığı Uğrunda Hərəkat – 1,*

*Mərkəzi Afrika Demokratik Rallisi -1.*

***İcraedici hakimiyyət:*** *Mərkəzi Afrika Respublikasının* daxili və xarici siyasətini həyata keçirməkdə səlahiyyətli olan *Nazirlər Kabinetini* Prezident təyin edir və Kabinetə *Baş nazir* rəhbərlik edir.

17 yanvar 2013-cü ildən etibarən *MAR-ın* hazırkı, sayca 22-ci *Baş naziri Nikolas Tyanqaedir.*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri Prezident tərəfindən təyin olunan ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə qanunvericilik aktlarının ölkənin Əsas Qanununa *(Konstitusiyaya)* uyğunluğunu nəzarətdə saxlayan *Konstitusiya Məhkəməsi Mərkəzi Afrika Respublikasının* məhkəmə hakimiyyətini həyata keçirir.

# MİKRONEZİYA FEDERATİV ŞTATLARI





***Ümumi məlumat:*** *Mikroneziya* XVII-XIX əsrlərdə *İspaniyanın,* 1898-1914-cü illər ərzində *Almaniyanın,* 1920-ci ildən *Yaponiyanın* ərazisi, 1947-ci ildən isə *ABŞ-ın* rəhbərliyi ilə *BMT-nin* qəyyumluğu altında olan ərazi sayılmışdır.

*Mikroneziya Federativ Respublikası* 1986-cı ildən etibarən *ABŞ-la* "azad assosiasiya" statusunda olan müstəqil dövlətdir.

*Sakit Okeanda* yerləşən *Mikroneziya Respublikasının* paytaxtı *Palikir* şəhəridir.

Ölkənin ərazisi 702 km², əhalisi *(2009)* 111,000 nəfərdir *(əhali sıxlığı 158.1 nəfər/km²).*

*Mikroneziya Federativ Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.636 – ortadır *(116-cı yer).*

***Dövlət quruluşu:*** Prezident üsul-idarəsinin elementlərini özündə ehtiva edən xüsusi tipli federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1986) 03 noyabr tarixində qeyd olunur. 1979-cu ildən qüvvədə olan Mikroneziya Federativ Ştatlarının Konstitusiyası ABŞ Konstitusiyasının nümunəsi əsasında tərtib edilmişdir.

1986-cı ildən *Mikroneziya Federativ Ştatları* ABŞ-la "azad assosiasiya" müstəvisində müstəqil dövlət statusuna malikdir. Belə ki, mövcud Konstitusiyaya əsasən suveren dövlət sayılan Mikroneziyanın müdafiə və təhlükəsizlik məsələləri ABŞ-ın müstəsna səlahiyyətlərinə aiddir.

***İnzibati bölgüsü:*** Hər birinin Konstitusiyası, seçkili qanunverici orqanı və qubernatoru olan 4 ştatdan *(Çuuk, Kosrae, Ponpei və Yap)* ibarətdir.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə dövlət və Hökumət başçısı sayılan, bütövlükdə dövlətin idarə edilməsində geniş səlahiyyətlərə malik olan *Prezident,* habelə dövlətin idarə olunmasında ona bilavasitə köməklik edən vitse-prezident xüsusi tapşırıqlar üzrə mükəlləfiyyətli olan 4 senatorun arasından 4 il müddətinə seçilir. Dövlət başçısı eyni zamanda Parlamentin üzvü ola bilməz.

Təyin edilən *Kabinet* yuxarı icra orqanı sayılır və öz fəaliyyətində Prezidentin və vitse-prezidentin siyasi dəstəyindən maksimum yararlanır.

İmpiçment və ya səhhəti ilə bağlı fəaliyyət qabiliyyətsizliyi yarandıqda dövlət başçısının səlahiyyətinə Parlamentdə səs çoxluğu ilə vaxtından əvvəl xitam verilir və dərhal yeni seçkilərin vaxtı təyin edilir.

11 may 2007-ci ildən etibarən *Mikroneziya Federativ Ştatlarının* hazırkı, sayca 7-ci *Prezidenti İmmanuil Moridir.*

***Qanunverici Hakimiyyət*:** Mikroneziya Federativ Ştatlarının Konqresi - 10 senatoru birmandatlı dairələrdən iki il müddətinə, 4 senatoru isə proporsional təmsilçilik sistemi əsasında 4 illik müddətə seçilən 14 yerlik bir palatalı Parlamentdir. Mikroneziyanın Konstitusiyasına görə bitərəflərin yer aldığı *(Federal Ştatların ərazisində siyasi partiyalar fəaliyyət göstərmir)* ölkə Parlamenti qanunvericilik hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir.

*Mikroneziya Federativ Ştatları Parlamentinin* spikeri 11 may 2007-ci il tarixindən etibarən *İsaak Figirdir.*

***Məhkəmə hakimiyyəti:*** Mikroneziya Federativ Ştatlarında məhkəmə hakimiyyətini birinci və apelyasiya instansiyalarından ibarət olan və hakimləri Konqresin razılığı ilə Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə* həyata keçirir.

Eyni zamanda, hər bir ştatda *Federal Ali Məhkəmənin* analoji strukturuna uyğun olan *Ali Məhkəmə,* habelə adalar üzrə yerli məhkəmələr fəaliyyət göstərir.

# MOZAMBIK

  

***Ümumi məlumat:*** X əsrdə *Mozambikin* indiki ərazisində erkən feodal dövləti olan *Monomotapa* təşəkkül tapmışdır. 1495-ci ildə ölkənin portuqal müstəmləkəçiləri tərəfindən işğalının əsası qoyulmuş və bu proses yalnız XX əsrin əvvəllərində yekunlaşmışdır.

1962-ci ildə başlanmış müstəqillik uğrunda mübarizə 1975-ci ilin iyun ayında *Mozambik Respublikasının* öz müstəqilliyini elan etməsi ilə nəticələnmişdir.

*Afrikanın* cənub-şərq hissəsində yerləşən *Mozambikin* paytaxtı *Maputu* şəhəridir.

Ölkənin ərazisi 801,590 km², əhalisi *(2009)* 22,894,000 nəfərdir *(əhali sıxlığı 28.7 nəfər/km²)*.

*Mozambikin* rəsmi dövlət dili *portuqal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.322 – aşağıdır *(184-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1975-ci il) 25 iyun tarixində qeyd edilir. Ölkə Konstitusiyası 1990-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 11 əyalətə *(Kabu-Delqadu, Qaza, İnyambane, Manika, paytaxt Maputu şəhəri, Maputu-əyalət, Nampula, Nyasa, Sofala, Tete, Zambeziya)* bölünür.

***Dövlət başçısı:*** Ölkədə milli birliyin rəmzi, milli müstəqilliyin, ərazi bütövlüyünün və dövlət təhlükəsizliyinin təminatçısı olan *Mozambik Prezidenti* - dövlətin və hökumətin başçısı,

habelə silahlı qüvvələrin ali baş komandanıdır. Prezident ümumi səsvermə yolu ilə, ardıcıl iki dəfədən artıq olmamaqla 5 il müddətinə seçilir. Seçkilərin birinci turunda namizədlərin heç biri səslərin yarıdan çoxunu qazanmadığı təqdirdə, ən yaxşı nəticə göstərmiş iki namizəd arasından prezident seçkilərinin növbəti, ikinci turunda qalib müəyyən edilir.

Dövlət başçısı *Nazirlər Kabinetini* və ona rəhbərliyi həyata keçirən *Baş naziri* təyin və azad edir. Baş nazir dövlət başçısının tapşırığı ilə *Nazirlər Kabinetinin* iclaslarına sədrlik edir.

16 yanvar 2004-cü ilin dekabrında keçirilmiş Prezident seçkilərində *Armandu Emilio Qebuza* Prezident seçilmişdir *(rəsmən bu vəzifədə 02 fevral 2005-ci ildən fəaliyyət göstərir). FRELİMO* Partiyasının təmsilçisi A.Qebuza 28 oktyabr 2009-cu ildə sonuncu ümumxalq səsverməsində qalib gələrək ikinci dəfə beş illik müddətə dövlət başçısı seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Mozambikin ali qanunverici orqanı bir palatalı *Assambleyadır*. 250 deputat proporsional təmsilçilik sistemi üzrə, partiya siyahıları ilə 5 il müddətinə əhali tərəfindən seçilir. Parlamentdə mandat qazanmaq üçün partiyalar ən azı 5 % səs toplamalıdırlar.

Qanunvericilik fəaliyyətinin əsas funksiyası qanunların hazırlanmasından və qəbulundan, habelə dövlət büdcəsinin müzakirəsindən və təsdiq edilməsindən ibarət olan *Assambleya* Hökumətin proqramını qəbul etmədiyi halda, Prezident tərəfindən buraxıla bilər.

2009-cu ilin oktyabr ayında keçirilmiş son Parlament seçkiləri nəticəsində *Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

*FRELİMO (Mozambik Azadlıq Cəbhəsi) - 191 deputat, lideri Armando Qebuza,*

*RENAMO – 51 deputat,*

*Demokratik Hərəkat - 8 deputat.*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabinetinin* formalaşması və üzvlərinin təyin edilməsini Prezident həyata keçirsə də, bu proses zamanı bir qayda olaraq nazirliklərin əlaqələndiricisi funksiyasını yerinə yetirən Baş nazirin məsləhətləri və tövsiyəsi nəzərə alınır.

Konstitusiyaya görə *Nazirlər Kabineti* eyni zamanda həm *Prezident,* həm də *Parlament* qarşısında məsuliyyət daşıyır. Assambleya Hökumətin təqdim etdiyi fəaliyyət proqramını iki dəfə rədd etdiyi təqdirdə, *Mozambik Prezidenti* onun tərkibini dəyişməyə məcburdur.

08 oktyabr 2012-ci ildə *FRELİMO* Partiyasının təmsilçisi *Albertu Vakina Mozambikin* sayca 6-cı *Baş naziri* təyin olunmuşdur.

***Məhkəmə hakimiyyəti:*** Ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Konstitusiya Şurası, İnzibati Məhkəmə, əyalət, rayon və bələdiyyə məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# MYANMA

  

***Ümumi məlumat:*** *Myanma (Birma)* cənub-şərqi *Asiyanın* ən qədim dövlətlərindən biri sayılır. XI-XIII əsrlərdə ölkə ərazisində buddizmin kök saldığı *Paqan* dövləti mövcud olmuşdur. *Myanma* XIX əsrdə *Böyük Britaniya* tərəfindən işğal edilərək onun müstəmləkəsinə çevrilmişdir. *Birma (Myanma)* 1886-1937-ci illərdə *Britaniya Hindistanının* tərkibinə daxil olmuş, sonralar isə ayrı müstəmləkəyə çevrilmişdir.

*Myanma* 1948-ci ildən etibarən müstəqil dövlətdir.

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *Myanmanın* paytaxtı *Neypido* şəhəridir.

Ölkənin ərazisi 676,578 $km^2$, əhalisi *(2010)* 60,280,000 nəfərdir *(əhali sıxlığı 73.9 nəfər/$km^2$)*.

*Myanma Respublikasının* rəsmi dövlət dili *birma* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.483 – aşağıdır *(149-cu yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1948) yanvar ayının 4-də qeyd olunur. Ölkənin yeni Konstitusiyası 10 may 2008-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Rayonlara bölünən 7 inzibati vilayətdən *(Mandalay, Pequ, İravadi, Maque, Sikayn, Tanintayi və Yanqon)* və 7 ştatdan *(Rakxayn, Çin, Kaçin, Şan, Kaya, Karen və Mon)* ibarətdir.

***Dövlət başçısı:*** Ölkədə milli birliyin və müstəqilliyin rəmzi, hüquqi dövlətin, ərazi bütövlüyünün və milli təhlükəsizliyin

təminatçısı, dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* ölkə Parlamenti tərəfindən seçilir. Dövlətin idarə edilməsində Prezidentə müxtəlif sahələr üzrə geniş səlahiyyətlərə malik olan iki vitse-prezident köməklik edir.

45 yaşına çatmış və ən azı son 20 ilini ölkə ərazisində yaşamış şəxs Prezident seçkilərində namizədliyini irəli sürə bilər.

30 mart 2011-ci ildən etibarən Myanma Birliyi Respublikasının hazırkı, sayca 1-ci Prezidenti, *Həmrəylik və İnkişaf Partiyasının* sədri *Teyn Seyndir.*

***Qanunverici hakimiyyət:*** *İttifaq Məclisi: Milli Assambleyadan (Yuxarı Palata, 224 yer, sədri 31 yanvar 2011-ci ildən K.A.Myintdir*) və *Nümayəndələr Palatasından (Aşağı Palata, 440 yer, spikeri 31 yanvar 2011-ci ildən T.Ş.Manndır)* ibarət iki palatalı Parlamentdir.

Mövcud Konstitusiyaya görə *Parlamentin* tərkibinin ¼-i hərbçilər üçün nəzərdə tutulmuşdur. Bu baxımdan *Yuxarı Palataya* 58, *Aşağı Palataya* isə 110 deputat yeri Myanma (Birma) Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı tərəfindən təyin olunan hərbçilərdən formalaşır.

Ölkə Parlamenti qanunvericilik fəaliyyətinin əsas qayəsini təşkil edən funksiyaları: qanunların hazırlanmasını və qəbulunu, habelə illik dövlət büdcəsinin müzakirə və təsdiq edilməsini, beynəlxalq müqavilələrin ratifikasiyasını və bir sıra digər məsələləri həyata keçirir.

7 noyabr 2011-ci ildə keçirilmiş seçkilər nəticəsində Parlamentdə təmsil olunan ölkənin əsas siyasi partiyaları:

*Həmrəylik və İnkişaf Partiyası (259 deputat, 129 yer),*
*Şan Demokratik Liqası (18; 3),*
*Milli Birlik Partiyası (12;5),*
*Milli Demokratik Qüvvələr (12;5),*
*Rakxayn Milli İnkişaf Partiyası (9;7),*
*Mon Demokratik Partiyası (3;3),*

*Çin Milli Partiyası (2;2),*

***İcraedici hakimiyyət:*** Böyük əksəriyyəti *Parlament* seçkilərində qalib gəlmiş siyasi partiyanın nümayəndələrindən təşkil olunmuş *Hökuməti (Nazirlər Kabineti)* Prezident formalaşdırır və təyin edir. Ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsində səlahiyyətli olan *Hökumət*in üzvü 40 yaşına çatmış və ölkə ərazisində ən azı 10 il yaşamış şəxs olmalıdır.

***Məhkəmə hakimiyyəti:*** İcra Hakimiyyətindən müstəqil olan *Ali Məhkəmə,* habelə *vilayət, rayon (şəhər) və məhəlli məhkəmələr* Myanmada məhkəmə hakimiyyətini həyata keçirir.

# NAMİBİYA







***Ümumi məlumat:*** 1884-cü ildən *Namibiyanın* indiki ərazisi, alman protektoratı altında olmuş, 1915-ci ildə Cənubi Afrika hərbi birləşmələri tərəfindən işğal edilmiş, 1920-ci ildən *Millətlər Liqasının* mandatlığı altında *Cənubi-Afrika İttifaqının (1961-cı ildən etibarən CAR adlanır)* idarəçiliyinə verilmişdir. İkinci dünya müharibəsindən sonra *CAR* tərəfindən de-fakto ilhaq edilmiş *Namibiya* 1990-cı ildə dövlət müstəqilliyini əldə etmişdir.

*Afrikanın* cənub-qərb hissəsində yerləşən *Namibiyanın* paytaxtı *Vindhuk* şəhəridir.

Ölkənin ərazisi 825,418 km², əhalisi *(2011)* 2,100,000 nəfərdir *(əhali sıxlığı 2.54 nəfər/km²)*.

*Namibiya Respublikasında* rəsmi dövlət dili *ingilis dili,* digər milli dillər isə *alman, afrikaans, qereri* və *oşivambo* dilləri sayılır.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.625 – ortadır *(120-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1990) mart ayının 21-də qeyd olunur. Ölkə Konstitusiyası 9 fevral 1990-cı ildə qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** 102 dairədən ibarət 13 vilayətə *(Kaprivi, Eronqo, Xardap, Karas, Okavanqo, Kxomas, Kunene, Oxanqvena, Omaxeke, Omusati, Oşana, Oşikoto və Oçosondyupa)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin və Hökumətin başçısı olan *Prezident* ümumxalq səsverməsi yolu ilə, ardıcıl iki dəfədən çox olmamaqla, azad, bərabər və gizli seçki sistemi əsasında 5 il müddətinə seçilir.

Mövcud Konstitusiyaya əsasən, kifayət qədər geniş səlahiyyətlərə malik olan, ölkənin daxilində və xaricdə dövləti təmsil edən *Namibiya Respublikasının Prezidenti* icra hakimiyyətini, *Milli Assambleyanın* üzvləri arasından formalaşdırdığı *Hökumət* vasitəsilə həyata keçirir.

Ölkə Prezidenti 21 mart 2005-ci ildən etibarən *Xifikepunye Lukas Pohambadır (2009-cu ilin dekabr ayında keçirilmiş son Prezident seçkilərində X.L.Pohamba 75%-dən artıq səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir.*

***Qanunverici hakimiyyət:*** *Milli Assambleyadan (Aşağı Palata, 78 yer, spikeri 20 mart 2005-ci ildən Teo-Ben Qurirabdır)* və *Milli Şuradan (Yuxarı Palata, 26 yer, sədri 16 dekabr 2004-cü ildən Asser Kuveri Kaperedir)* ibarət iki palatalı Parlamentdir.

*Yuxarı Palatada* hər vilayət, əhalisinin sayından asılı olmayaraq seçilmiş 2 nümayəndə ilə 6 illik müddətə təmsil olunur. *Aşağı Palataya* 72 deputat birbaşa səsvermədə proporsional təmsilçilik sistemi üzrə 5 illik müddətə seçilirlər. Digər 6 üzv isə *Prezident* tərəfindən təyin olunur.

*Milli Assambleya* bilavasitə qanunvericilik fəaliyyəti ilə məşğul olur, *Milli Şura* isə daha çox məşvərətçi orqanın funksiyasını həyata keçirir. *Assambleya* Hökumətə "qeyri-effektiv idarəetmə" səbəbindən etimadsızlıq göstərdiyi təqdirdə, *Kabinetin* məsləhəti ilə *Prezident* tərəfindən buraxıla və eyni tarixdə erkən *Parlament* və *Prezident* seçkiləri keçirilə bilər.

27-28 noyabr 2009-cu ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində mandat almış siyasi partiyalar:

*Cənub-Qərbi Afrika Xalqları Təşkilatı (SWAPO) - 54 yer*

*Demokratiya və Tərəqqi Naminə Birlik - 8 yer*

*Turnhal Demokratik Alyansı - 2 yer*
*Milli İctimai Demokrat Partiyası - 2 yer*
*Birləşmiş Xalq Cəbhəsi – 2 yer*
*Ümumxalq Partiyası - 1 yer*
*Respublikaçılar Partiyası - 1 yer*
*Demokratlar Konqresi - 1 yer*
*Cənub-Qərbi Afrika Milli İttifaqı - 1 yer*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* və ona rəhbərlik edən *Baş nazir* Prezident tərəfindən təyin edilir. Tərkibinə Prezidentin, Baş nazirin və nazirlərin daxil olduğu Hökumət icra hakimiyyəti ilə yanaşı, Parlamentlə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirməkdə səlahiyyətlidir.

*Kabinetin* iclaslarına *Prezident,* o olmadıqda isə *Baş nazir* sədrlik edir. Bundan əlavə, *Baş nazir* Hökuməti *Parlamentdə* təmsil edir, nazirliklərin fəaliyyətini əlaqələndirir, Hökumət başçısı funksiyalarının yerinə yetirilməsi üçün dövlət başçısına məsləhətlərini verir və ona bilavasitəköməklik göstərir.

Mövcud Konstitusiyaya görə *Kabinetin* üzvləri Prezident və Parlament qarşısında kollektiv məsuliyyət daşıyırlar, belə ki, *Milli Assambleya* Hökumətin hər hansı bir üzvünə etimadsızlıq göstərdiyi təqdirdə, dövlət başçısı onu vəzifəsindən azad etməlidir.

Namibiya Respublikasının hazırkı, sayca 4-cü *Baş naziri* 04 dekabr 2012-ci ildən etibarən *Cənub-Qərbi Afrika Xalqları Təşkilatının* təmsilçisi *Hage Geyngobdur.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə hüquq sistemi Holland-Roma hüququna əsaslanır. Namibiya Respublikasında məhkəmə hakimiyyətini, hakimləri *Məhkəmə Xidməti üzrə Komissiyanın* təqdimatı ilə Prezident tərəfindən təyin olunan, eyni zamanda *Apelyasiya Məhkəməsinin* və *Konstitusiya Nəzarəti orqanının* funksiyalarını özündə ehtiva edən *Ali Məhkəmə* həyata keçirir.

# NİKARAQUA





***Ümumi məlumat:*** XVI əsrin əvvəllərində *Nikaraquanın* indiki ərazisi ispanlar tərəfindən işğal edilmişdir. 1821-ci ildə *Nikaraqua* müstəqilliyini elan etsə də, 1823-1838-ci illərdə *Mərkəzi Amerika Birləşmiş Əyalətləri Federasiyasının* tərkibinə daxil olmuşdur. 1838-ci ildən müstəqil dövlətdir.

*Mərkəzi Amerikada* yerləşən *Nikaraquanın* paytaxtı *Manaqua* şəhəridir.

Ölkənin ərazisi 130,373 km², əhalisi *(2010)* 5,891,199 nəfərdir *(əhali sıxlığı 42 nəfər/km²)*.

*Nikaraqua Respublikasının* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.589 – ortadır *(129-cu yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) noyabr ayının 3-də qeyd olunur. Ölkə Konstitusiyası 1986-cı ildən *(1994-cü ilin noyabrında edilmiş düzəlişlərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** 15 departamentə *(Boako, Karaso, Çinandeqa, Çontales, Esteli, Qranada, Xinoteqa, Leon, Madris, Manaqua, Masaya, Mataqalpa, Nueva-Seqoviya, Rivas, San-Xuan)* və 2 muxtar regiona *(Şimali Atlantik və Cənubi Atlantik)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə, bir dəfədən çox olmamaqla 5 il müddətinə seçilən *Prezident* dövlətin və hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin və milli

təhlükəsizlik orqanlarının ali baş komandanıdır. Nikaraquanın yuxarı icra orqanı olan *Nazirlər Kabineti* və onun tərkibi Prezident tərəfindən formalaşdırılır və təyin edilir. Mövcud Konstitusiyaya görə *Nazirlər Kabinetinin* iclaslarına dövlət başçısı sədrlik edir.

Dövlətin idarə edilməsində *prezidentə*, eyni seçki sistemi əsasında seçilən vitse-prezident *(10 yanvar 2012-ci ildən etibarən Moises Omar Halleslevens Asevedodur)* köməklik edir.

Ölkənin hazırkı Prezidenti 2007-cı il yanvar ayının 10-dan etibarən *Sandinist Milli-Azadlıq Cəbhəsi Partiyasının* lideri *Daniel Orteqadır (2011-ci il noyabr ayının 6-da keçirilmiş son prezident seçkilərində D.Orteqa 62.46 % səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Birpalatalı *Milli Assambleyadır.* Parlamentin 92 üzvü birbaşa ümumxalq səsverməsi yolu ilə, 5 il müddətinə seçilir. Onlardan 20-si bütün ölkə boyu, 70 üzv isə muxtar vilayətlərin dairələrindən seçilirlər. Prezident və onun son seçkilərdə məğlub olmuş əsas rəqibi ölkə Parlamentinə seçkisiz üzv olmaq hüququna malikdir.

Milli Assambleya qanunvericilik təşəbbüsü hüququnda Parlamentə daxil olmuş qanun layihələrini hazırlayır və qəbul edir, Nazirlər Kabinetinin təqdim etdiyi illik dövlət büdcəsini müzakirə və təsdiq edir, Hökumətin və digər dövlət qurumlarının illik hesabatlarını dinləyir.

Ölkə Parlamentinin hazırkı sədri 2007-cı il yanvar ayının 10-dan *etibarən Rene Nunes Telyesdir.*

06 noyabr 2011-ci il Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş əsas siyasi partiyalar:

*Sandinist Milli-Azadlıq Cəbhəsi Partiyası (60,85% səs,* lideri *Daniel Orteqa),*

*Müstəqil Liberal Partiya (31,59%, Fabio Mantilla),*

*Liberal Konstitusional Partiya (6,44%, Arnoldo Aleman),*

*Nikaraqua Liberal İttifaq Partiyası (0,76%, Enrike Quinones),*

*Respublika Uğrunda İttifaq (0,36%, Mixel Qarsiya).*

***Məhkəmə hakimiyyəti:*** Məhkəmə sisteminə ümumi nəzarət funksiyası, ölkədə ən yüksək məhkəmə instansiyası sayılan və tərkibi Parlamentdə yer almış siyasi partiyaların təqdimatı ilə Milli Assambleyada 7 il müddətinə təyin olunan 16 üzvdən ibarət *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

Bundan əlavə, *Nikaraquada* hakimləri 5 illik müddətə təyin olunan Apelyasiya məhkəmələri, habelə *Ali Məhkəməyə* tabe olan hərbi, dairə və yerli məhkəmələr də fəaliyyət göstərir.

# NİGERİYA





***Ümumi məlumat:*** Müstəmləkəçilərin gəlişinə qədər *Nigeriyanın* indiki ərazisində, eramızın ilk əsrlərindən kiçik dövlətlərə malik çoxsaylı tayfalar yaşamışlar. *Nigeriyanın* şimal hissəsi ərəb mədəniyyətinin təsiri altında olmuşdur. 1861-1900-cu illər ərzində *Nigeriya* ingilislər tərəfindən işğal edilmişdir. 1947-ci ildə ölkə *Qərb, Şimal və Şərq* vilayətlərinə bölünmüş, 1960-cı ildə isə *Nigeriya* siyasi müstəqilliyini əldə etməyə müvəffəq olmuşdur.

*Qərbi Afrikada* yerləşən *Nigeriya Federativ Respublikasının* paytaxtı *Abuca* şəhəridir.

Ölkənin ərazisi 923,768 $km^2$, əhalisi *(2012)* 170,123,740 nəfərdir *(əhali sıxlığı 184.2 nəfər/$km^2$).*

*Nigeriya Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.459 – aşağıdır *(156-cı yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 01 oktyabr tarixində qeyd olunur. *Nigeriya Respublikasının* Konstitusiyası 1999-cu ilin may ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** 36 ştatdan *(Abia, Adamava, Akva İbom, Anambra, Bauçi, Bayelsa, Benue, Borno, Kross-River, Delta, Eboni, Edo, Ekiti, Enutu, Qombe, İmo, Ciqava, Kaduna, Kano, Kasina, Kebbe, Ko-Qi, Kvara, Laqos, Nasarava, Niqer, Oqun,*

*Ondo, Osun, Oyo, Plato, Rivers, Sokoto, Taraba, Yobe və Zamfara)* və *Abuca* paytaxt dairəsindən ibarətdir.

***Dövlət başçısı:*** Dövlət və Hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı - *Prezident* birbaşa və gizli səsvermə yolu ilə, iki dəfədən çox olmamaqla 4 illik müddətə seçilir.

*Hökumət* üzvlərini və *vitse-prezidenti (19 may 2010-cu ildən etibarən Xalq Demokratik Partiyasının təmsilçisi Namadi Sambodur)* təyin edən *Nigeriya Federativ Respublikasının Prezidenti Milli Assambleyada* qəbul edilən qanun layihələrinə veto qoymaq hüququna malik olsa da, bu hüquq Parlament üzvləri tərəfindən 2/3 səs çoxluğu ilə dəf edilə bilər.

Federasiyanın hazırkı, sayca 14-cü Prezidenti 05 may 2010-cu ildən etibarən hakim *Xalq Demokratik Partiyasının* üzvü *Qudlak Conatandır (2006-cı ildə Senat, bir şəxsin üçüncü müddətə Prezident seçilməsi ilə bağlı Konstitusiyaya ediləcək dəyişikliyi qəbul etməkdən imtina etmişdir).*

***Qanunverici hakimiyyət:*** *Milli Assambleya:* 109 yerlik *Senatdan (Yuxarı Palatanın sədri 6 iyun 2007-ci ildən etibarən Devid Markdır)* və 360 yerlik *Nümayəndələr Palatasından (Aşağı Palatanın spikeri 6 iyun 2011-ci ildən etibarən Aminu Vaziri Tambuvaldır)* ibarət iki palatalı Parlamentdir. Hər hansı bir qanun layihəsinin qəbul edilməsi üçün hər iki palatanın razılığı olmalıdır və daha sonra layihə *Nigeriya Prezidenti* tərəfindən təsdiq edilməlidir.

Hakimlərin, seçki komissiyaları rəhbərlərinin, habelə digər yüksək vəzifəli məmurların impiçment qaydasında vəzifəsindən azad edilməsi ilə bağlı unikal səlahiyyətlərə malik *Senatda* hər ştat, əhalisinin sayından asılı olmayaraq majoritar sistem üzrə seçilmiş 3 üzvlə, bir mandatlı *Abuca* dairəsi isə eyni qaydada seçilmiş bir nümayəndə ilə təmsil olunur.

Geniş nəzarət funksiyalarına və Hökumət üzvlərinin fəaliyyətini diqqətlə öyrənmək üçün komitələr yaratmaq səlahiy-

yətinə malik olan *Nümayəndələr Palatasına* deputatlar majoritar sistem üzrə 4 illik müddətə seçilirlər.

2011-ci ilin aprelində keçirilmiş son Parlament seçkilərində hər iki palatada təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Xalq Demokratik Partiyası (150 deputat, 72 senator),*

*Nigeriya Hərəkatı Konqresi (74 deputat, 18 senator),*

*Proqressiv Dəyişiklik Naminə Konqres.*

***Məhkəmə hakimiyyəti:*** Milli Məhkəmə Şurasının təqdimatına əsasən ölkə Prezidenti tərəfindən təyin və Senatda təsdiq edilən 13 hakimdən ibarət *Ali Məhkəmə* tərəfindən həyata keçirilir. Nigeriyanın bəzi bölgələrində şəriət məhkəmələri də fəaliyyət göstərir.

# ÖZBƏKİSTAN

  

***Ümumi məlumat:*** Müxtəlif *Türk* tayfalarının *Özbəkistanın* indiki ərazisində məskunlaşması prosesi hələ qədim dövrlərdən başlanmışdır. Eramızdan əvvəl III əsrdə bu əraziyə köç edən tayfalar arasında *hunlar* da olmuşdur. VIII yüzillikdə *Ərəb Xilafətinin* işğalından sonra bu torpaqlar, *Xilafətin* sosial və mədəni həyatında əsas rol oynayan regionlarından birinə çevrilmişdir.

Ərəb istilasından sonra ərazi ardıcıl olaraq müxtəlif Türk dövlətlərinin – *Çingiz Ulusunun, Qızıl Orda Dövlətinin və Teymurilər imperiyasının* ərazisinə daxil olmuşdur.

XVI-XVIII əsrlərdə *Özbəkistanın* ərazisində *Buxara, Xivə və Kokand* xanlıqları mövcud olmuşdur. XIX əsrin sonlarında Özbəkistan ayrı-ayrı xanlıqlara parçalanmış şəkildə *Rusiya İmperiyası* tərəfindən işğal edilmiş, 1920-ci ildən sonra isə ölkədə SSRİ dövrü başlanmışdır.

1991-ci ildən etibarən *Özbəkistan* müstəqil dövlətdir.

*Mərkəzi Asiyanın* mərkəzi və şimal-qərb hissəsində yerləşən *Özbəkistan Respublikasının* paytaxtı *Daşkənd* şəhəridir.

Ölkənin ərazisi 447,400 $km^2$, əhalisi *(2012)* 29,559,100 nəfərdir *(əhali sıxlığı 61.4 nəfər/$km^2$)*.

*Özbəkistan Respublikasının* rəsmi dövlət dili *özbək* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.641 – ortadır *(115-ci yer)*.

***Dövlət quruluşu:*** Güclü prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1991) sentyabr ayının 1-də qeyd olunur. Ölkə Konstitusiyası 8 dekabr 1992-ci ildə qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** 12 vilayətə *(Buxara, Cizzəx, Nəvai, Qaşqadərya, Səmərqənd, Sırdərya, Surxandərya, Daşkənd, Fərqanə, Əndican, Namanqan və Xarəzm)*, *Qaraqalpaq Muxtar Respublikasına* və *Daşkənd* paytaxt şəhərinə bölünür.

***Dövlət başçısı:*** Özbəkistanın suverenliyinin, təhlükəsizliyinin və ərazi bütövlüyünün, ölkə Konstitusiyanın və qanunlarının, eləcə də vətəndaşların hüquq və azadlıqlarının qarantı olan *Prezident* ümumxalq səsverməsi yolu ilə 7 il müddətinə seçilir.

Mövcud Konstitusiyaya əsasən dövlətin idarə olunmasında çox geniş səlahiyyətlərə malik olan dövlət başçısı *Özbəkistan Respublikasını* ölkə daxilində və beynəlxalq münasibətlərdə təmsil edir, Baş naziri və digər nazirləri, Baş Prokuroru, məhkəmə hakimlərini, ali komanda heyətini, əyalət qubernatorlarını təyin və vəzifədən azad edir.

Eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılan dövlət başçısı, zərurət yarandıqda ölkədə müharibə vəziyyəti və səfərbərlik elan edərək qəbul etdiyi qərarını 3 gün ərzində Parlamentin təsdiqinə təqdim etməkdə səlahiyyətlidir.

14 mart 1990-cı ildən etibarən Özbəkistan Respublikasının Prezidenti *İslam Kərimovdur*. 23 dekabr 2007-ci il tarixində keçirilmiş son Prezident seçkilərində *İ.Kərimov* 88.1% səs toplayaraq böyük üstünlüklə qalib gəlmişdir.

***Qanunverici hakimiyyət:*** 2002-ci ildə keçirilmiş referendum nəticəsində Özbəkistan Respublikasının *Ali Məclisinə* növbəti seçkilər zamanı iki palatalı *(Senat və Qanunverici palata)* Parlamentin yaradılması haqqında qərar qəbul edilmişdir. Konstitusiyaya əsasən *Parlament (Ali Məclis)* iki palatadan – 100 yerlik *Senatdan (sədri İlgizar Sabirov olan Yuxarı*

*Palataya – senatorların 84-ü yerli icra şuraları tərəfindən səsvermə yolu ilə 5 il müddətinə seçilir, 16-sı Prezident tərəfindən təyin edilir)* və 150 yerlik *Qanunverici Palatadan (135-i ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilirlər)* ibarətdir.

Ölkədə qanunvericilik fəaliyyətini həyata keçirən hər iki palatanın birgə iclasları Özbəkistan Prezidentinin andiçmə mərasimində, dövlət başçısının ölkənin sosial-iqtisadi həyatının, daxili və xarici siyasətinin çox mühüm məsələləri üzrə çıxışı, xarici ölkələrin dövlət başçılarının rəsmi səfərləri çərçivəsində Parlamentdə söylədikləri nitqlər və digər taleyüklü məsələlərin müzakirəsi zamanı baş tutur.

23 yanvar 2008-ci ildən etibarən *Qanunverici Palatanın* sədri xanım *Diloram Taşmuxamedovadır.*

27 dekabr 2009 *(I tur)* və 10 yanvar 2010-cu il *(II tur)* tarixlərində keçirilmiş son Parlament seçkiləri nəticəsində mandat qazanmış əsas siyasi partiyalar:

*Liberal-Demokratik Partiya - 53 yer*
*Xalq Demokratik Partiyası - 32 yer*
*Özbəkistan Milli Demokratik Tıklanış Partiyası - 31 yer*
*Sosial Ədalət Demokratik Partiya - 19 yer*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* və ona rəhbərlik edən *Baş nazir* Özbəkistan *Prezidenti* tərəfindən təyin və *Ali Məclis* tərəfindən təsdiq edilir.

Prezident və Parlament qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabineti* dövlət başçısının sərəncam və fərmanlarının, *Ali Məclisin* qərarlarının, Özbəkistan Respublikasının qanunlarının icrasını təmin edir, habelə iqtisadi, sosial və mədəni sahələrin effektiv fəaliyyətinə rəhbərliyi həyata keçirir.

*Baş nazir* Nazirlər Kabinetinin fəaliyyətini təşkil edir və ona rəhbərliyi həyata keçirir, Kabinetin işinin səmərəliliyinə görə fərdi məsuliyyət daşıyır, Hökumətin iclaslarına sədrlik edir və onun qərarlarını imzalayır, dövlət başçısının göstərişi

ilə Özbəkistan Respublikasını beynəlxalq münasibətlərdə təmsil edir və mövcud Konstitusiyada təsbit edilmiş digər mühüm funksiyaları yerinə yetirir.

Respublikanın hazırkı, 3-cü *Baş naziri* 12 dekabr 2003-cü il tarixindən etibarən *Şafkat Mirziyayevdir.*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri 5 il müddətinə Prezident tərəfindən təyin və Ali Məclis tərəfindən təsdiq olunan, ölkədə mülki, cinayət və inzibati sahələr üzrə ən yüksək məhkəmə orqanı sayılan *Ali Məhkəmə,* habelə qanunvericilik və icra hakimiyyətinin normativ-hüquqi aktlarının Konstitusiyaya uyğunluğu ilə bağlı işlərə nəzarət edən *Konstitusiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

Bundan əlavə, Özbəkistan Respublikasında hakimləri 5 illik müddətə Prezident tərəfindən təyin edilən, istər dövlət, istərsə də özəl təşkilatlar arasında iqtisadi mübahisələrin işləri üzrə məhkəmə orqanı olan *Ali Təsərrüfat Məhkəməsi, Qaraqalpaq Muxtar Respublikasının mülki və cinayət işləri üzrə Ali Məhkəməsi və Təsərrüfat Məhkəməsi* də fəaliyyət göstərir.

# PALAU







***Ümumi məlumat:*** *Palau* XVI-XIX əsrlərdə *İspaniyanın,* 1898-1914-cü illər ərzində *Almaniyanın,* 1920-ci ildən *Yaponiyanın* ərazisi, 1947-ci ildən isə *ABŞ-ın* rəhbərliyi ilə *BMT-nin* qəyyumluğu altında olan adalar ərazisi sayılmışdır.

*Palau Respublikası* 1993-cü ilin noyabr ayından etibarən *ABŞ-la* "azad assosiasiya" statusunda olan dövlətdir. Bu status çərçivəsində Palau 1994-cü ilin oktyabr ayında müstəqilliyini elan etmişdir.

*Sakit Okeanın* qərb hissəsində yerləşən *Palau Respublikasının* paytaxtı *Nqerulmud* şəhəridir.

Ölkənin ərazisi 459 km², əhalisi *(2011)* 20,956 nəfərdir *(əhali sıxlığı 28.4 nəfər/km²).*

*Palau Respublikasının* rəsmi dövlət dili *ingilis və palau* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.782 – yüksəkdir *(49-cu yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1994) 01 oktyabr tarixində qeyd olunur. *Palau Respublikasının* qüvvədə olan konstitusiyası 01 yanvar 1980-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Palau, hər biri öz müstəqil Konstitusiyasına malik olan 16 ştatdan *(Kayangel, Aimeliik, Airai, Melekeok, Nqaraard, Nqardmau, Nqaremlenqui, Nqarxelonq,*

*Nqatpanq, Nqival, Nqxesar, Anqaur, Koror, Peleliu, Sonsorol, Xatoxobei)* ibarətdir.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən ölkə *Prezidenti* dövlət və hökumət başçısıdır və təyin edilən *Nazirlər Kabinetinə* rəhbərlik edir. Dövlətin idarə olunmasında geniş səlahiyyətlərə malik olan Prezidentə vitse-prezident *(ölkənin sayca 7-ci vitse-prezidenti 15 yanvar 2009-cu ildən etibarən Kerai Mariurdur)* köməklik edir və o da eyni səsvermə günü bənzər prosedur qayda üzrə 4 ildən bir seçilir.

Ölkədə digər konstitusional orqanlarla yanaşı, *Prezident yanında Rəhbərlər Şurası* da fəaliyyət göstərir. Hər ştatdan bir nümayəndənin təmsil olunduğu 16 üzvdən ibarət Şura dövlət başçısına Konstitusiya və Palau qanunlarına münasibətdə ənənəvi hüquqla bağlı məsləhətlər verir.

Ölkənin hazırkı, sayca 8-ci Prezidenti 15 yanvar 2013-cu ildən etibarən *Tomas Remenqesaudur.*

***Ali qanunverici hakimiyyət:*** İki bərabər hüquqlu palatadan - *Senatdan (Yuxarı Palata)* və *Nümayəndələr Palatasından (Aşağı Palata)* ibarət *Parlamentdir.* Mövcud Konstitusiyaya uyğun olaraq, yalnız bitərəflərin təmsil olunduğu hər iki palatanın səlahiyyət müddəti 4 ildir.

Ali qanunverici orqan icra hakimiyyəti orqanlarını və digər sahələrdən çox sayda nümayəndələri Parlamentə dəvət etmək və onların hesabatlarını dinləmək hüququna malikdir.

Fəaliyyət müstəvisinə görə *Palau Respublikasının Parlamenti* eyniliklə ABŞ-ın *Parlament (Konqres)* modelini özündə ehtiva edir. Bununla belə ölkədə heç bir siyasi partiya fəaliyyət göstərmir və onların fəaliyyətini tənzimləyən qanunvericilik aktları mövcud deyil.

*Senata (9 yer, sədri Mlib Tmetuçl)* və *Nümayəndələr Palatasına (16 yer, sədri Noa İdeçonq)* deputatlar birmandatlı dairələrdən seçilirlər. Ştatlar Aşağı Palatada bir üzvlə təmsil

olunur. Bununla belə hər bir ştat özünün qubernatorunu və qanunverici orqanını seçir.

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə-hüquq sistemi *Amerika Birləşmiş Ştatlarının* hüquqi modelinə uyğundur.

Palau Respublikasında məhkəmə hakimiyyəti *Apelyasiya və birinci instansiya* bölmələrindən ibarət olan, hakimləri *Məhkəmə Təyinatları Komissiyasının (7 üzv)* təqdimatı əsasında ölkə Prezidenti tərəfindən qeyri-məhdud müddətə təyin edilən *Palau Ali Məhkəməsi,* habelə *Milli, Ümumi, Torpaq* və digər ixtisaslaşmış məhkəmələr tərəfindən həyata keçirilir.

# PANAMA

  

***Ümumi məlumat:*** XVI əsrin əvvəllərindən *Panamanın* indiki ərazisi ispanlar tərəfindən işğal edilmişdir. 1821-ci ildə *Panama* İspaniyadan müstəqilliyini elan edərək *Böyük Kolumbiyanın* tərkibinə daxil olmuşdur.

1903-cü ildə *ABŞ-ın* bilavasitə köməkliyi ilə *Kolumbiya-dan* ayrılmış və dövlət müstəqilliyini elan etmişdir.

*Mərkəzi Amerikada* yerləşən *Panama Respublikasının* paytaxtı *Panama* şəhəridir.

Ölkənin ərazisi 75,517 km², əhalisi *(2012)* 3,595,490 nəfərdir *(əhali sıxlığı 47.6 nəfər/km²)*.

*Panamanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.768 – yüksəkdir *(58-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarə-etmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1903) 03 noyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 11 oktyabr 1972-ci ildən (1978, 1983, 1993, 1994 və 2004-cü illərdə edilmiş dəyişikliklərlə) qüvvədədir.

***İnzibati bölgüsü:*** Panama 9 əyalətə *(Bokas-del-Toro, Çiriki, Kokle, Kolon, Daryen, Errera, Los-Santos, Panama, Veraquas )* və *Embera-Vounaan, Kuna-Yala* və *Nqobe-Buqle* muxtar vilayətlərinə *(komarka)* bölünür. Daha iki komarka *(Kuna-de-Maduqande və Kuna-de-Varqandi) Panama* və *Daryen* əyalətlərinin tərkibində olan dairə statusundadır.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə ölkədə milli birliyinin rəmzi, habelə dövlətin ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təminatçısı sayılan dövlət və hökumət başçısı, eyni zamanda Panama silahlı qüvvələrinin ali baş komandanı - *Prezident* ümumxalq səsverməsi yolu ilə və bir dəfədən çox olmamaq şərti ilə 5 illik müddətə seçilir *(ölkənin vitse-prezidenti də eyni seçki sistemi əsasında seçilir, 01 iyul 2009-cu ildən Milliyyətçi Panama Partiyasının lideri Xuan-Karlos Varela bu posta sahibdir)*.

Faktiki olaraq Baş nazir funksiyalarını da özündə cəmləşdirən Prezident, təyin etdiyi Hökumətin tərkibində yer alan dövlət nazirləri ilə birlikdə icra hakimiyyətini həyata keçirir və vitse-prezident bu fəaliyyətdə dövlət başçısına bilavasitə köməklik göstərir.

Panama Respublikasının hazırkı, sayca 43-cü Prezidenti 01 iyul 2009-cu ildən etibarən *Demokratik Dəyişiklik Partiyasının* lideri *Rikardo Martinellidir (03 may 2009-cu il tarixində keçirilmiş sonuncu Prezident seçkilərində R.Martinelli 60% səs toplayaraq qalib gəlmişdir).*

***Qanunverici hakimiyyət:*** Birpalatalı 71 yerlik *Milli Assambleyadır.* Parlamentin kənd rayonlarından olan deputatları birmandatlı seçki dairələrindən sadə səs çoxluğu sistemi üzrə, şəhər dairələrindən olan deputatlar isə proporsional təmsilçilik sistemi ilə seçilirlər.

Parlament qanunvericilik fəaliyyətini İcra Hakimiyyəti *(Hökumət)* ilə birgə həyata keçirir. Belə ki, fundamental qanunların qəbulu, illik dövlət büdcəsinin təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və digər mühüm məsələlərin həlli, hər iki orqanın qarşılıqlı razılığı əsasında mümkün olur.

*Assambleyanın* deputatlarının səlahiyyət müddəti 5 ildir *(Parlamentin hazırkı sədri Serxio Rafael Galves Eversdir).*

03 may 2009-cu il tarixlərində keçirilmiş son Parlament seçkilərində *Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Demokratik İnqilab Partiyası (26 deputat),*
*Milliyyətçi Panama Partiyası (22 deputat),*
*Demokratik Dəyişiklik (14 yer)*
*Vətən İttifaqı (4 yer),*
*MOLİRENA (2 yer),*
*Xalq Partiyası (1 yer).*

***Məhkəmə hakimiyyəti:*** Qüvvədə olan Konstitusiyaya əsasən, *Panama Respublikasında* ən yüksək apelyasiya instansiyası sayılan və ədalət mühakiməsini müstəqil və operativ şəkildə həyata keçirən *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətinin fövqündə yer alır.

# PARAQVAY








***Ümumi məlumat:*** İspanların gəlişinədək yerli *quarani (hindu xalqları)* tayfalarının məskunlaşdıqları *Paraqvayın* indiki ərazisi, XVI yüzilliyin əvvəllərindən XVIII əsrin ilk onilliyinə qədər olan dövr ərzində *İspaniyanın* müstəmləkəsinə çevrilmişdir.

1811-ci ildə *Paraqvay* dövlət müstəqilliyini elan etmişdir.

*Cənubi Amerikada* yerləşən *Paraqvay Respublikasının* paytaxtı *Asunson* şəhəridir.

Ölkənin ərazisi 406,752 km², əhalisi *(2009)* 6,454,548 nəfərdir *(əhali sıxlığı 14.2 nəfər/km²)*.

*Paraqvayın* rəsmi dövlət dili *ispan və quarani* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.665 – ortadır *(107-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1811) 15 may tarixində qeyd olunur. Paraqvayın qüvvədə olan Konstitusiyası 20 iyun 1992-ci il tarixində qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Paraqvay Respublikası 129 dairədən ibarət 17 departamentə *(Alto-Paraqbay, Alto-Parana, Amambay, Bokeron, Kaaquasu, Kaasapa, Kanendiyu, Sentral, Konsepsyon, Kordilera, Quayra, İtapua, Misyones, Nyembuku, Paraquari, Presidente-Aes, San-Pedro)* və eyni statusa malik olan *Asunson* paytaxt dairəsinə bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə, yalnız bir dəfə 5 il müddətinə seçilən ölkə *Prezidenti* dövlət və hökumət başçısıdır. Mövcud Konstitusiyaya görə, eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanı sayılan Paraqvay Respublikasının Prezidenti *Nazirlər Kabinetinin və Ali Məhkəmənin* üzvləri ilə yanaşı, ali hərbi komanda heyətinin və yerli administrasiyaların rəhbərlərini də təyin edir.

Dövlətin idarə olunmasında kifayət qədər səlahiyyətlərə malik olan dövlət başçısına vitse-prezident (*Oskar Denis 2012-ci ilin iyun ayından etibarən bu posta sahibdir)* köməklik edir.

Ölkənin hazırkı, sayca 53-cü Prezidenti 22 iyun 2012-ci ildən *Autentik Radikal Liberal Partiyasının* təmsilçisi *Federiko Frankodur.*

***Ali qanunverici hakimiyyət:*** İki palatadan - *Senatdan* (Yuxarı Palata, *Kamara de Senadores*) və *Deputatlar Palatasından* (Aşağı Palata, *Kamara de Diputados*) ibarət *Milli Konqresdir.*

*Senata* (45 yer, sədri 2010-cu ildən *Oskar Alberto Qonsalesdir*) və *Deputatlar Palatasına* (80 yer) deputatlar proporsional təmsilçilik sistemi üzrə seçilirlər. Konqresin hər iki palatasının üzvlərinin səlahiyyət müddəti 5 ildir.

*Yuxarı Palata (Senat)* Ali Məhkəmənin, Silahlı Qüvvələrin, Polisin və Mərkəzi Bankın rəhbərlərinin Prezident tərəfindən təyinatlarını təsdiq etməkdə səlahiyyətlidir.

*Senat* və ya *Deputatlar Palatası* tərəfindən təqdim olunan qanun layihələri hər iki palatada müzakirə edilərək qəbul olunur. Palatalardan hər hansı biri, layihənin əleyhinə səs verərsə, bu sənəd digər palatada üzvlərin mütləq səs çoxluğu ilə yenidən qəbul edilə bilər. Bundan əlavə, qanunlara qoyulan Prezident vetosu hər iki palata üzvlərinin mütləq səs çoxluğu ilə aradan qaldırıla bilər.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, *Milli Konqres* icra hakimiyyətinin fəaliyyətinə nəzarəti həyata keçirmək və zərurət yarandıqda Paraqvay Respublikasının Prezidentini - *"öz vəzifəsini layiqincə yerinə yetirə bilmədiyinə"*, habelə Konstitusiyada nəzərdə tutulmuş digər səbəblərə görə mütləq səs çoxluğu ilə istefaya göndərmək səlahiyyətinə malikdir.

20 aprel 2008-ci il tarixində keçirilmiş Parlament seçkilərində uğur qazanmış əsas siyasi partiyalar:

*Kolarado Partiyası - (15 senator, 29 deputat),*

*Autentik Radikal Liberal Partiyası - (14 senator, 26 deputat),*

*Etik Vətəndaşların Milli Birliyi Partiyası (UNACE) - (9 senator, 16 deputat),*

*Sevimli Vətən Hərəkatı Partiyası – (4 senator, 3 deputat),*

*Dəyişiklik Uğrunda Vətən Alyansı Partiyası – (2 deputat) və s.*

***Məhkəmə hakimiyyəti:*** Ölkə Prezidentinin təyin və Yuxarı Palatanın *(Senatın)* təsdiq etdiyi 9 üzvdən ibarət *Ali Məhkəmə (Konstitusiya)* tərəfindən həyata keçirilir. *Ali Məhkəmənin* strukturuna, *Konstitusiya Palatası* ilə yanaşı bir neçə digər ixtisaslaşmış palatalar daxildir.

# PERU

  

***Ümumi məlumat:*** Müstəmləkə dövründən əvvəl *Perunun* indiki ərazisi *İnk Krallığının (İmperiyasının)* mərkəzi olmuşdur. 1532-1536-cı illərdə ölkə ispanlar tərəfindən işğal edilmişdir.

1821-ci ildə *Peru* müstəqilliyini elan etmişdir.

*Cənubi Amerikanın* qərb hissəsində yerləşən *Peru Respublikasının* paytaxtı *Lima* şəhəridir.

Ölkənin ərazisi 1,285,216 km², əhalisi *(2012)* 30,135,875 nəfərdir *(əhali sıxlığı 23 nəfər/km²).*

*Perunun* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.725 – yüksəkdir *(80-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) iyul ayının 28-də qeyd olunur. Ölkədə 31 oktyabr 1993-cü ildə qəbul edilmiş Konstitusiya *(edilmiş çoxsaylı dəyişikliklərlə)* qüvvədədir.

**İnzibati bölgüsü:** 1833 rayondan təşkil olunmuş 195 əyalətdən ibarət olan 25 regiona *(Amasonas, Ankaş, Apurimak, Arekipa, Ayakuço, İka, Kaxamarka, Kalyao, Kusko, La-Libertad, Lambaeke, Lima-region, Loreto, Madre-de-Dyos, Mokequa, Pasko, Pyura, Puno, Takna, Tumbes, San-Martin, Ukayali, Uankavelika, Uanuko və Xunin)* və *Lima-Metropolitana* paytaxt regionuna bölünür.

***Dövlət başçısı:*** Konstitusiyanın və hüquqi dövlətin təminatçısı olan dövlət və hökumət başçısı - *Prezident* ümumi, birbaşa və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir.

Peru Respublikasının Prezidenti ölkəni daxildə və xaricdə təmsil edir, Hökumətin ümumi siyasətini yönləndirir, daxili asayişin və xarici təhlükəsizliyin mühafizəsinə nəzarət edir, beynəlxalq müqavilələri imzalayır, *Konqresi* məlumatlandırmaqla və *Nazirlər Şurasının* razılığı ilə səfirləri və digər diplomatik nümayəndələri təyin, habelə xarici dövlətlərin səfirlərinin etimadnamələrini qəbul edir.

*Peru Prezidenti* üzvlərini təyin etdiyi *Nazirlər Şurası* vasitəsilə icra hakimiyyətini həyata keçirir. Bundan əlavə, silahlı qüvvələrin ali baş komandanı sayılan dövlət başçısı milli orduya nəzarəti həyata keçirir, Silahlı Qüvvələri və Milli Polisi təsisatlandırır. Konqresin razılığı ilə müharibə elan edir və sülh bağlayır, habelə ali zabit heyətini və yüksək komanda rəhbərlərini təyin və vəzifələrindən azad edir.

Dövlət başçısına ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsində eyni seçki qaydalarına uyğun olaraq seçilən vitse-prezident *(28 iyul 2011-ci ildən etibarən xanım Marisol Espinozadır*) köməklik göstərir.

Ölkənin hazırkı, 48-ci Prezidenti 28 iyul 2011-ci ildən etibarən *Peru Milliyyətçi Partiyasının* lideri *Ollanta Humaladır.*

***Qanunverici hakimiyyət:*** Birpalatalı, 130 yerlik *Konqresdir.* Parlamentin üzvləri proporsional təmsilçilik sistemi ilə seçilirlər. Deputatlığa namizəd 25 yaşına çatmış və səsvermə hüququna malik Peru vətəndaşı ola bilər. *Konqresin (sədri 26 iyul 2012-ci ildən Viktor İsladır)* deputatlarının səlahiyyət müddəti 5 ildir.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyası, habelə mövcud Konstitusiyada nəzərdə tutulmuş digər mühüm məsələlər ali qanunvericilik orqanının səlahiyyətlərinə aiddir.

10 aprel 2011-ci il tarixində keçirilmiş son Parlament seçkiləri nəticəsində *Konqresdə* mandat əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Peru Vins – (47 yer, lideri Ollanta Humala),*

*Forse 2011 – (37 yer, lideri Kriko Fujimori),*

*Mümkün Olan Peru – (21 yer, lideri Alehandro Toledo),*

*Böyük Dəyişikliklər Naminə Alyans – (12 yer, lideri Pedro Pablo Kuçinski),*

*Milli Həmrəylik Partiyası - (9 yer, lideri Luis Kasteneda),*

*Amerikanın Xalq İnqilabi Partiyası - (4 yer, lideri alan Qarsiya Peres).*

***İcraedici hakimiyyət:*** *Nazirlər Şurasının* sədri *(Baş Nazir)* və üzvləri Prezident tərəfindən təyin edilir və Konqres tərəfindən təsdiq edilir (*Latın Amerikası ölkələri arasında Baş Nazir postu yalnız Peruda bərqərardır*). Nazirlər Şurasının sədri nazirliklərin fəaliyyətini əlaqələndirir və Prezidentin fərman və qətnamələrinə öz imzasını atmaqla onları icraya yönəldir.

*Nazirlər Şurasının* üzvləri fəaliyyətləri çərçivəsində *Prezident* qarşısında fərdi, *Konqres* qarşısında isə siyasi məsuliyyət daşıyırlar.

*Peru Respublikasının* hazırkı *Baş naziri* 24 iyul 2012-ci il tarixindən etibarən *Juan Jimenes Mayordur.*

***Məhkəmə hakimiyyəti:*** *Perunun* hüquq sistemi ənənəvi mülki hüquq sisteminə əsaslanır.

Ölkədə məhkəmə hakimiyyəti *Milli Magistratura Şurasının* təyin etdiyi 16 hakimdən ibarət olan *Ali Məhkəmə* tərəfindən həyata keçirilir. Eyni zamanda Peruda *Konstitusiya Tribunalı,* habelə müxtəlif sahələr üzrə ixtisaslaşmış aşağı instansiya məhkəmələri fəaliyyət göstərir.

# RUANDA

  

***Ümumi məlumat:*** XV əsrdə *Ruanda Feodal Krallığı* təşəkkül tapmışdır. XIX əsrin sonlarında *Almaniya* tərəfindən istila edilmiş ölkə, *Birinci Dünya Müharibəsi* zamanı *Belçika* tərəfindən işğal olunmuş və 1923-cü ildə *Millətlər Liqasının* qərarına əsasən onun mandatlığına verilmişdir *(1946-cı ildən BMT-nin nəzarəti altında olmuşdur).*

*Ruanda* 1962-ci ildə dövlət müstəqilliyini elan etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Ruandanın* paytaxtı *Kiqali* şəhəridir.

Ölkənin ərazisi 26,338 km², əhalisi *(2011)* 11,689,696 nəfərdir *(əhali sıxlığı 419.8 nəfər/km²).*

*Ruanda Respublikasının* rəsmi dövlət dili *ruanda, fransız* və *ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.429 – aşağıdır *(166-cı yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarə-etmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1962) 01 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 26 may 2003-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 30 dairədən *(Buqesera, Qatsibo, Kaenza, Kirexe, Nqoma, Nyaqatare, Qasabo, Burera, Qisaqara, Karonci, Qakenke, Musanze, Rulindo, Muxanqa, Rubavu, Rusizi, Nyamaşeke və s.)* ibarət olan 5 əyalətə *(Şimal, Şərq, Cənub, Qərb və Kiqali)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* ümumi seçkilərdə, ardıcıl olaraq 2 dəfədən çox olmamaqla, 7 illik müddətə seçilir.

Mövcud Konstitusiyaya əsasən, dövlətin idarə olunmasında geniş səlahiyyətlərə malik olan dövlət başçısı Ruanda Respublikasını ölkə daxilində və beynəlxalq münasibətlərdə təmsil edir, Baş naziri və digər nazirləri, Baş Prokuroru, məhkəmə hakimlərini, ali komanda heyətini təyin və vəzifədən azad edir.

Ruandanın hazırkı prezidenti 24 mart 2000-ci ildən etibarən *Pol Kaqamedir.* 2010-ci ilin sentyabrında keçirilmiş son Prezident seçkilərində *Kaqame* növbəti dəfə qalib gələrək dövlət başçısı vəzifəsini qoruya bilmişdir.

***Qanunverici hakimiyyət:*** İki palatalı Parlamentdir (*Senat və Deputatlar Palatası*). 26 yerlik Senata üzvlərin 12-si yerli Şuralardan seçilir, 8 üzv prezident, 4 senator siyasi təşkilatların forumları, 2 üzv isə ali təhsil müəssisələri tərəfindən təyin olunur. Senatorların səlahiyyət müddəti 8 ildir.

80 yerlik Deputatlar Palatasının 53 üzvü əhali tərəfindən, 24 qadın deputat yerli şuralardan və 3 üzv isə gənclər və əlillər təşkilatları tərəfindən 5 il müddətinə seçilirlər.

Parlament qanunvericilik fəaliyyətini Hökumətlə birlikdə, "üfüqi nəzarət" prinsipi üzrə həyata keçirir.

15-18 sentyabr 2008-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Deputatlar Palatasında* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Ruanda Vətən Cəbhəsi (42 deputat, lideri Pol Kaqame),*
*Sosial Demokratik Partiya (7 deputat),*
*Liberal Partiya (4 deputat).*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyətini həyata keçirən *Hökumətə* Prezident tərəfindən təyin edilən *Baş nazir* başçılıq edir. Ölkənin daxili və xarici siyasət prioritetlərinin müəyyən

edilməsində səlahiyyətlərə malik olan *Hökumət,* eyni zamanda Parlamentin hər iki palatası ilə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir və onun qarşısında kollektiv məsuliyyət daşıyır.

07 oktyabr 2011-ci ildən Prezidentin formalaşdırdığı hökumətə rəhbərliyi *Pyer Damyen Xabumuremyi* həyata keçirir.

***Məhkəmə hakimiyyəti*:** Digər məhkəmə orqanlarının fövqündə duran və ölkədə Ali məhkəmə instansiyası sayılan *Kasasiya Məhkəməsi,* habelə *Apelyasiya, 1-ci instansiya, kantonal və hərbi* məhkəmələr tərəfindən həyata keçirilir.

Məhkəmə hakimləri *Ədliyyə nazirinin* təqdimatı və *Ali Magistratura Şurasının* mövqeyinin nəzərə alınması şərti ilə Ruanda Respublikasının Prezidenti tərəfindən təyin edilir.

## SALVADOR





***Ümumi məlumat:*** *Salvador* XVI əsrin əvvəllərində ispanlar tərəfindən işğal edilmişdir. 1821-ci ildə ölkədə müstəmləkə əsarəti devrilmiş, 1841-ci ildə *Mərkəzi Amerika Federasiyasının* süqutundan sonra müstəqil *Salvador Respublikası* yaradılmışdır.

*Mərkəzi Amerikada, Sakit Okeanın* sahilində yerləşən *Salvadorun* paytaxtı *San-Salvador* şəhəridir.

Ölkənin ərazisi 21,040 km², əhalisi *(2009)* 6,134,000 nəfərdir *(əhali sıxlığı 341.5 nəfər/km²)*.

*Salvador Respublikasının* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.674 – ortadır *(105-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) sentyabr ayının 15-də qeyd olunur. Ölkə Konstitusiyası 16 dekabr 1983-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Salvador 262 bələdiyyə vahidini özündə birləşdirən 14 departamentə *(Auaçapan, Kabanyas, Kuskatpan, La-Libertad, La-Pas, La-Union, Morasan, San-Migel, San-Visente, San-Salvador, Santa-Ana, Sansonate, Usulutan, Çapatenanqo)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə birbaşa seçkilərdə, yalnız bir dəfə seçilmək şərti ilə 5 il müddətinə seçilən *Prezident* dövlət və Hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanıdır.

İcra hakimiyyətini həyata keçirən *Hökumət (Nazirlər Kabineti)* üzvləri *Salvador Respublikasının Prezidenti* tərəfindən formalaşdırılır və təyin edilir. Prezident dövlət əhəmiyyətli mühüm qərarları ən yaxın siyasi silahdaşı olan vitse-prezidentin (*01 iyun 2009-cu ildən* etibarən *Farabundo Marti Adına Sol Milli Azadlıq Cəbhəsinin nümayəndəsi olan Salvador Sançes Serendir*) və digər nazirlərin də iştirak etdiyi *Nazirlər Kabinetinin* iclaslarında qəbul edir.

Ölkənin hazırkı, sayca 65-ci *(Yeni Salvadorun 4-cü)* Prezidenti 01 iyun 2009-cu ildən etibarən *Farabundo Marti Adına Sol Milli Azadlıq Cəbhəsi Partiyasının təmsilçisi Maurisio Funesdir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 84 yerlik *Qanunvericilik Assambleyasıdır.* Parlamentdə 64 deputat yerinə namizədlər Salvadorun 14 departamenti üzrə, digər 20 yerə isə ümumdövlət siyahıları üzrə 3 illik müddətə seçilirlər.

*Qanunvericilik Assambleyası* qanunların hazırlanması və qəbulunu, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyasını, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqini və s. funksiyaları özündə ehtiva edən qanunvericilik fəaliyyətini *Nazirlər Kabineti (Hökumət)* ilə birlikdə həyata keçirir.

01 fevral 2011-ci ildən etibarən *Qanunvericilik Assambleyasının* sədri *Siqfrido Reyes Moralesdir.*

10 mart 2012-ci ildə keçirilmiş son Parlament seçkilərində mandat qazanmış əsas siyasi partiyalar:

*Milliyyətçi Respublikaçı Alyans – (33 yer, lideri Alfredo Kristiani),*

*Farabundo Marti adına Milli Azadlıq Cəbhəsi – (31 yer, lideri Medardo Qonsales),*

*Milli Birlik Naminə Böyük Alyans – (11 yer, lideri Elios Antonio Saka)*

*Milli Koalisiya – ( 7 yer),*

*Ümid Partiyası – (1 yer, lideri Rodolfo Antonio Parker Soto),*

*Demokratik Dəyişiklik Partiyası – (1 yer).*

***Məhkəmə hakimiyyəti*****:** Hakimləri *Qanunvericilik Assambleyası* tərəfindən, *Milli Magistratura Şurasının* təqdim etdiyi namizədlərin siyahısı arasından seçilən və 4 müxtəlif kameralardan, 3 apelyasiya və Konstitusiya məhkəməsini özündə birləşdirən *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

# SEYŞEL ADALARI





***Ümumi məlumat:*** XVI əsrin əvvəllərində, hələ əhalinin məskunlaşmadığı *Seyşel Adaları* portuqallar tərəfindən kəşf edilmişdir. XVIII əsrdə *Fransa,* 1794-cü ildə isə *İngiltərə* tərəfindən işğal edilən *adalar,* 1814-cü ildə *Paris Müqaviləsinə* əsasən rəsmən *Britaniyanın* nəzarətinə verilmişdir.

*Seyşel Adaları Respublikası*1976-cı ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Hind Okeanının* qərb hissəsində, *Afrikanın* şərq sahilində yerləşən *Seyşel Adaları Respublikasının* paytaxtı *Viktoriya* şəhəridir.

Ölkənin ərazisi 451 km², əhalisi *(2009)* 84,000 nəfərdir *(əhali sıxlığı 186.2 nəfər/km²).*

*Seyşel Adalarının* rəsmi dövlət dili *ingilis, fransız və kreol* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.773 – yüksəkdir *(52-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1976) iyun ayının 29-da qeyd olunur. *Seyşel Adalarının* qüvvədə olan Konstitusiyası 18 iyun 1993-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Daxili adalardan ibarət 25 dairəyə *(Bel-Er, La-Rivyer-Anqlez, Mon-Bakston, Mon-Fleri, Plezans, Sen-Lui, Le-Mamel, Ro-Kayman, Ans-o-Men, O-Kap, Kaskad, Ans-Bualo, Port-Qlod, Qlasi, Be-Lazar, Takamaka və s.)* və

heç bir dairəyə bölünməyən *Korall adalarına (xarici adalar)* bölünür.

***Dövlət başçısı:*** Hüquqi dövlətin, Konstitusiyanın, vətəndaşların hüquq və azadlıqlarının, habelə ölkənin ərazi bütövlüyünün və təhlükəsizliyinin təminatçısı və ölkənin daxildə və xaricdə ali təmsilçisi sayılan *Prezident* ümumxalq səsverməsi yolu ilə, ardıcıl iki dəfədən çox olmamaqla, 5 il müddətinə seçilir.

Dövlətin və hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılan *Seyşel Adalarının* Prezidenti, rəhbəri olduğu icra hakimiyyətini özünün formalaşdırdığı və üzvlərini təyin etdiyi *Nazirlər Kabineti* vasitəsilə həyata keçirir.

Ölkənin hazırkı Prezidenti 16 aprel 2004-cü ildən etibarən *Seyşel Xalq Tərəqqi Partiyasının* lideri *Ceyms Mişeldir (*vitse-prezident 1 iyul 2010-cu ildən *SXTP-nin* üzvü *Danni Fauredir ).*

19-21 may 2011-ci il tarixlərində keçirilmiş sonuncu Prezident seçkiləri nəticəsində *Ceyms Mişel* səslərin 56%-ni qazanaraq yenidən Seyşel Adalarının dövlət başçısı seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Birpalatalı 31 yerlik *Milli Assambleyadır.* Parlamentin 25 üzvü birmandatlı seçki dairələrindən sadə səs çoxluğu sistemi üzrə, digər 9 deputat isə proporsional təmsilçilik sistemi ilə seçilirlər. *Milli Assambleyanın (sədri 29 may 2007-ci ildən etibarən Seyşel Xalq Partiyasının təmsilçisi Patrik Herminiedir)* deputatlarının səlahiyyət müddəti 5 ildir.

Ölkə Parlamenti qanunvericilik hakimiyyətini, geniş səlahiyyətlərə malik olan, eyni zamanda *Milli Assambleya* qarşısında kollektiv məsuliyyət daşıyan Hökumətlə birlikdə həyata keçirir.

Zəruri hallarda Parlament üzvlərinin 2/3 səs çoxluğu ilə istənilən nazirliyin fəaliyyətinə etimadsızlıq göstərmək və ona

rəhbərlik edən naziri istefaya göndərmək *Milli Assambleyanın* səlahiyyətlərinə aiddir.

01 oktyabr 2011-ci il tarixində keçirilmiş sonuncu Parlament seçkilərində *Seyşel Xalq Partiyası* 88.56% səslə qalib gələrək Milli Assambleyanın bütün mandatlarına sahib olmuşdur.

***Məhkəmə hakimiyyəti*:** Adaların qarışıq məhkəmə-hüquq sistemi fransız *(mülki hüquq)* və ingilis *(konstitusiya, cinayət, cinayət-prosessual, əmək və ticarət hüququ)* modelinə əsaslanır.

Ölkədə məhkəmə hakimiyyətini, üzvləri Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə* və Seyşel Adalarının ən yüksək məhkəmə instansiyası sayılan *Apelyasiya Məhkəməsi* həyata keçirir.

# SUDAN





***Ümumi məlumat:*** VII əsrdə *Sudan* ərəblər tərəfindən fəth edilmiş, XVI yüzillikdə isə bu ərazidə iri *Funq və Darfur sultanlıqları* təşəkkül tapmışdır. 1820-1840-cı illərdə ölkə *Misirin* hakimiyyəti altında olmuş, XIX əsrin sonlarından isə *Sudan* faktiki olaraq *Britaniya*nın koloniyasına çevrilmişdir *(1951-ci ilə qədər formal olaraq ingilis-misir idarəçiliyinə tabe olmuşdur).*

*Sudan* 1956-cı ildə dövlət müstəqilliyini elan etmişdir. 2011-ci ildə ölkənin cənub hissəsi *Sudandan* ayrılaraq yeni *Cənubi Sudan* dövləti yaratmışdır.

*Şimali Afrikada* yerləşən *Sudanın* paytaxtı *Xartum* şəhəridir.

Ölkənin ərazisi 1,886,068 km², əhalisi *(2008)* 30,894,000 nəfərdir *(əhali sıxlığı 16.4 nəfər/km²).*

*Sudan Respublikasının* rəsmi dövlət dili *ərəb* və *ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.408 – aşağıdır *(169-cu yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1956) 01 yanvar tarixində qeyd olunur. 2005-ci ildən etibarən ölkədə keçid Konstitusiyası qüvvədədir.

***İnzibati bölgüsü:*** Cənubi Sudan öz müstəqilliyini elan etdikdən sonra Sudan Respublikası 17 ştata *(Ağ Nil, Qedaref, Mavi Nil, Qərbi Darfur, Kassala, Qırmızı dəniz, Nil, Şimal,*

*Şimali Darfur, Şimali Kordofan, Sennar, Xartum, Əl-Cəzirə, Cənubi Darfur, Cənubi Kordofan, Şərqi Darfur və Mərkəzi Darfur)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya əsasən dövlət və hökumət başçısı, habelə silahlı qüvvələrin ali baş komandanı sayılan *Sudan Prezidenti* ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir.

Çox geniş səlahiyyətlərə malik olan prezidentə dövlətin idarə edilməsində vitse-prezident *(09 iyul 2011-ci ildən etibarən Sudan Respublikasının vitse-prezidenti Əli Osman Məhəmməd Tahadır)* bilavasitə köməklik göstərir.

Vitse-prezident və hökumət üzvləri, habelə silahlı qüvvələrin ali hərbi zabit heyəti və digər yüksək vəzifəli məmurlar dövlət başçısı tərəfindən təyin edilirlər. Bundan əlavə, Prezident ölkədə müharibə hazırlığı və fövqəladə vəziyyət elan etmək, məhkəmənin qərarı ilə ölüm hökmünün icrasını təsdiq və cəzadan azad etmək səlahiyyətlərinə malikdir.

Sudanın hazırkı prezidenti 16 oktyabr 1993-cü ildən etibarən *Ömər Həsən Əl-Başirdir* (*2010-cu il 11-15 aprel tarixlərində keçirilmiş son Prezident seçkilərində 68,24% səs toplayaraq yenidən dövlət başçısı seçilmişdir*).

***Qanunverici hakimiyyət:*** Nümayəndələri dolayısı ilə ştatların qanunverici orqanları tərəfindən 6 illik müddətə seçilən 50 üzvlük *Ştatlar Şurasından* və tərkibində hökumət üzvlərinin, keçmiş qiyamçıların, müxalifətçilərin yer aldığı 450 yerlik *Milli Assambleyadan* ibarət iki palatalı *Parlament* ölkədə qanunvericilik hakimiyyətini həyata keçirilir.

Qanunların hazırlanması və qəbulu ilə yanaşı, illik dövlət büdcəsinin təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası, Konstitusiyaya düzəlişlər edilməsi və icra hakimiyyətinin fəaliyyətinə nəzarət olunması Parlamentin səlahiyyətlərinə daxildir.

2010-cu ilin aprel ayında keçirilmiş və hər iki palatada *Milli Konqres Partiyasının* qələbəsi ilə nəticələnmiş sonuncu Parlament seçkilərində *Ştatlar Şurasında və Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları aşağıdakılardır:

*Milli Konqres Partiyası (323 deputat, 25 senator),*
*Sudan Xalq Azadlıq Hərəkatı (99 deputat, 21 senator),*
*FUP (9 yer),*
*Xalq konqresi (4 yer),*
*DUP (4 yer) və s.*

***Məhkəmə hakimiyyəti*:** Mövcud Konstitusiyaya uyğun olaraq, hakimləri ölkə Prezidenti tərəfindən təyin edilən və onun qarşısında məsuliyyət daşıyan *Ali Məhkəmə* və *Xüsusi İnqilab* məhkəmələri, habelə aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

# SURİNAM





***Ümumi məlumat:*** *Surinamın* indiki ərazisini 1499-cu ildə ispanlar kəşf edərək öz əraziləri elan etmişlər. Ölkə 1667-ci ildən *Hollandiyanın* müstəmləkəsinə çevrilmiş və yalnız 1975-ci ildə dövlət müstəqilliyini əldə etmişdir.

*Cənubi Amerikanın* şimal-şərq hissəsində yerləşən *Surinam Respublikasının* paytaxtı *Paramaribo* şəhəridir.

Ölkənin ərazisi 163,821 km², əhalisi *(2012)* 560,157 nəfərdir *(əhali sıxlığı 2.9 nəfər/km²)*.

*Surinamın* rəsmi dövlət dili *niderland* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.680 – ortadır *(104-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli Prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1975) noyabr ayının 25-də qeyd olunur. Surinam Respublikasının qüvvədə olan Konstitusiyası 30 sentyabr 1987-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Prezidentin tərəfindən təyin və azad olunan rayon komissarlarının idarə etdikləri 10 dairədən *(Brokopondo, Kommeveyne, Koroni, Maroveyne, Nikkeri, Para, Paramaribo, Saramakka, Sipalivini və Vanika)* ibarətdir.

***Dövlət başçısı:*** Milli birliyin və ərazi bütövlüyünün təminatçısı, dövlət və hökumət başçısı, silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* Parlament tərəfindən 2/3 səs çoxluğu ilə 5 il müddətinə seçilir. Ölkənin vitse-prezidenti *(2010-*

*cu ilin avqustundan etibarən Robert Ameeralidir)* də eyni prosedur qaydalarına uyğun olaraq seçilir.

Prezident icra hakimiyyətini özünün formalaşdırdığı və üzvlərini təyin etdiyi *Nazirlər Kabineti* vasitəsilə həyata keçirir, zəruri hallarda *Kabinetin* iclaslarını çağırır və ona rəhbərlik edir.

Mövcud Konstitusiyaya görə *vitse-prezident* və *Nazirlər Kabineti* Surinam Hökumətinin iki əsas komponentini təşkil edir. Vitse-prezident Nazirlər Kabinetinin gündəlik fəaliyyətinə rəhbərliyi həyata keçirir və bununla bağlı Prezident qarşısında məsuliyyət daşıyır.

Parlamentdə təmsil olunan siyasi partiyaların proporsional təmsilçilik üzrə 11 nümayəndəsinin, habelə 2 əmək və 2 işəgötürənlər təşkilatı nümayəndəsinin təmsil olunduğu 15 üzvdən ibarət *Məsləhət Şurası* Prezidentə *(Şuranın sədrinə)* siyasi idarəçiliklə bağlı məsləhətlər verir.

*Surinamın* hazırkı, sayca 9-cu Prezidenti 12 avqust 2010-cu ildən etibarən *Dezi Bautersedir.*

***Qanunverici hakimiyyət:*** Geniş səlahiyyətlərə malik, birpalatalı, 51 yerlik *Milli Assambleyadır.* Parlamentin üzvləri proporsional təmsilçilik sistemi ilə seçilirlər. *Assambleyanın (sədri 30 iyun 2010-cu il tarixindən etibarən Cennifer Simonsdur)* deputatlarının səlahiyyət müddəti 5 ildir.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və digər mühüm qanunvericilik funksiyaları ilə yanaşı, *Milli Assambleya* Prezidentin və vitse-prezidentin seçilməsində müstəsna səlahiyyətlərə malikdir.

25 may 2010-cu il tarixində keçirilmiş Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* mandat əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Meqa Kombinatie – 23 yer,*

*Demokratiya və İnkişaf Uğrunda Yeni Cəbhə – 14,*

*A-Kombinatie – 7,*
*Tərəqqi Naminə Xalq Alyansı – 6,*
*Tanzaniya Əmək Partiyası -1,*
*Demokratiya və İnkişaf Naminə Birlik Partiyası - 1.*

***Məhkəmə hakimiyyəti*:** Ümumi və digər yurisdiksiyalı məhkəmələrə nəzarət edən *Ali Məhkəmə* tərəfindən həyata keçirilir. Ali Məhkəmənin üzvləri *Dövlət Məsləhət Şurasının* razılığı ilə Prezident tərəfindən ömürlük təyin edilir və təyinatlar *Milli Assambleyada* təsdiq edilir.

# SYERRA-LEONE





***Ümumi məlumat:*** XVIII əsrdə *Syerra-Leonenin* indiki sahillərini işğal etmiş ingilislər, 1808-ci ildə bu torpaqları öz müstəmləkələri elan etmişlər.

1896-cı ildən etibarən daxili rayonları ingilis protektoratı sayılan *Syerra-Leone*, 1961-ci ildə *Böyük Britaniyanın* dominionu statusunda müstəqillik əldə etmiş, 1971-ci ildə isə *Birləşmiş Krallığın* tərkibində respublika elan edilmişdir.

*Qərbi Afrikada, Atlantik Okeanının* sahilində yerləşən *Syerra-Leonenin* paytaxtı *Fritaun* şəhəridir.

Ölkənin ərazisi 71,740 km², əhalisi *(2009)* 5,485,998 nəfərdir *(əhali sıxlığı 79.4 nəfər/km²)*.

*Syerra-Leone Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.336 – aşağıdır *(180-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1961) aprel ayının 27-də qeyd olunur. Syerra-Leonenin qüvvədə olan Konstitusiyası 1990-cı ilin avqustunda qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** Ölkə 15 dairəyə *(Fritaun-şəhər, Fritaun-kənd, Kaylaxun, Kenema, Kono, Bombali, Kambiya, Koynaduqu, Port Loko, Tonkilili, Bo, Bonfe, Moyamba və Pucexun)* bölünən 3 əyalətdən və *Qərb vilayətindən (paytaxt Fritaun)* ibarətdir.

***Dövlət başçısı:*** Konstitusiyanın və hüquqi dövlətin, milli müstəqilliyin, təhlükəsizliyin və ərazi bütövlüyünün təminatçısı, milli birliyin rəmzi, dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı - *Prezident* ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir. *Syerra-Leonenin Prezidenti* seçilmək üçün namizəd, səslərin ən azı 55%-ni əldə etməlidir. Namizədlərdən heç biri buna nail olmadığı təqdirdə, ilk turda ən çox səs toplamış iki namizəd növbəti tur seçkilərində qalibi müəyyən edirlər.

Geniş səlahiyyətlərə malik olan ölkə Prezidenti dövlətin idarə edilməsində ona yardımçı olan vitse-prezidenti *(17 sentyabr 2007-ci ildən etibarən Samuel Sam Sumanadır)* və Hökumət üzvlərini təyin edir, eyni zamanda formalaşdırdığı *Nazirlər Kabinetinə* rəhbərliyi həyata keçirir. Bununla belə, mövcud Konstitusiyaya görə *Syerra-Leone* Prezidentinin təyinatları *Nümayəndələr Palatası* tərəfindən mütləq təsdiq edilməlidir.

Ölkənin hazırkı, sayca 6-cı Prezidenti 17 sentyabr 2007-ci il tarixindən etibarən *Ümumxalq Konqresi Partiyasının* lideri *Ernest Bay Koromadır (17 noyabr 2012-ci il tarixində keçirilmiş Prezident seçkilərində 58.7% səslə qalib gəlmiş E.B.Koroma, 2-ci dəfə ardıcıl olaraq növbəti 5 il müddətinə dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı 124 yerlik *Nümayəndələr Palatasıdır. Syerra-Leone Parlamentin*in 112 üzvü birbaşa seçkilərdə proporsional sistem üzrə seçilir, qalan yerlərdə isə əyalətin ali rəhbərlərinin təyinatı əsasında əyalət *(dairə)* üzvləri təmsil olunur.

Qanunvericilik hakimiyyətinin həyata keçirilməsində müstəsna səlahiyyət sahibi olan Parlamentin üzvləri, eyni zamanda ölkədə çox böyük nüfuza və *Hökumətə* birbaşa təsir etmək imkanına malikdirlər. *Syerra-Leone Prezidenti* dövlət

əhəmiyyətli bütün məsələlərin həllində Parlamentlə hesablaşmağa məcburdur.

*Nümayəndələr Palatasının (sədri 28 sentyabr 2007-ci ildən etibarən Abel Nataniel Bankole Stronqedir)* deputatlarının səlahiyyət müddəti 5 ildir.

17 noyabr 2012-ci il tarixində keçirilmiş sonuncu Parlament seçkilərində qalib gəlmiş əsas siyasi partiyalar:

*Ümumxalq Konqresi (67 yer, lideri Ernest Bay Koroma),*

*Syerra-Leone Xalq partiyası (42 yer).*

***Məhkəmə hakimiyyəti*: **Üzvləri *Nümayəndələr Palatasının* razılığı və *Məhkəmə-Hüquq Komissiyasının* təqdimatı əsasında Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə və Apelyasiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

Bununla yanaşı, *Syerra-Leonedə Magistrat və Yüksək Məhkəmə*, habelə ənənəvi yerli məhkəmələr də fəaliyyət göstərir.

# TANZANİYA BİRLƏŞMİŞ RESPUBLİKASI





***Ümumi məlumat:*** XIX sonlarında *Tanzaniyanın* indiki materik hissəsi *Almaniya* tərəfindən işğal edilmişdir. 1890-cı ildə *Zanzibar* üzərində *Britaniya* protektoratı qurulmuşdur. 1920-ci ildən *Tanqanika Böyük Britaniyanın* mandatına aid ərazi sayılmış, 1946-1961-ci illərdə isə ölkə, *Britaniyanın* idarəçiliyi altında *BMT-nin* hamilik etdiyi torpaqları elan edilmişdir.

1961-ci ildə *Tanqanika* müstəqillik əldə etmiş, 1963-cü ildə isə *Böyük Britaniya Zanzibara* müstəqillik vermişdir.

1964-cü ildə *Tanqanika və Zanzibarın* birləşməsi nəticəsində *Tanzaniya Birləşmiş Respublikası* yaradılmışdır.

*Şərqi Afrikada, Hind Okeanının* sahilində yerləşən *Tanzaniya Birləşmiş Respublikasının* paytaxtı *Dodoma* şəhəridir.

Ölkənin ərazisi 945,203 km², əhalisi *(2012)* 44,929,002 nəfərdir *(əhali sıxlığı 46.3 nəfər/km²).*

*Tanzaniya Respublikasının* rəsmi dövlət dili *svahili və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.466 – aşağıdır *(152-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan *Respublika günü* 26 apreldə (1964) qeyd olunur. *Tanzaniya Birləşmiş Respublikasının* Konstitusiyası 25 aprel 1977-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 5 vilayəti *Zanzibar Muxtar Respublikasına* aid olmaq şərti ilə, 26 vilayətə *(Aruşa, Dar-əs-Salam, Dodoma, Qərbi Zanzibar, Şimali Zanzibar, Cənub-Mərkəzi Zanzibar, İrinqa, Kaqera, Kiqoma, Kilimancaro, Lindi, Manyara, Mara, Mbeya, Mvanza, Moroqoro, Mtvara, Şimali Pemba, Cənubi Pemba, Pvani, Ruvuma, Rukva, Sinqida, Tabora, Tanqa və Şinyanqa,)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident,* ümumxalq seçkilərində ardıcıl iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilir. Dövlət başçısı *Baş Naziri* və Parlamentin üzvləri arasından seçdiyi *Nazirlər Kabinetinin* üzvlərini təyin edir. Bundan əlavə, *Prezident* Milli Məclisə üzv olmayan 10 nəfərin *Hökumətdə* təmsil olunması üçün təyinat vermək səlahiyyətinə malikdir.

Dövlətin idarə edilməsində dövlət başçısına vitse-prezident *(06 noyabr 2010-cu ildən Məhəmməd Qərib Bilaldır)* köməklik edir.

21 dekabr 2005-ci ildən etibarən *Tanzaniyanın* hazırkı Prezidenti *Çama Ça Mapinduzi (İnqilab) Partiyasının* sədri *Cakaya Kikvetidir (31 dekabr 2010-cu ildə keçirilmiş növbəti Prezident seçkilərində C.Kikveti 62.83% səslə qalib gələrək yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Konstitusiyaya görə üzvləri 5 illik müddətə seçilən, bir palatalı 357 yerlik *Milli Məclisdir*. Parlamentə 260 üzv ümumxalq səsverməsi yolu ilə, 5 deputat isə *Zanzibar Nümayəndələr Palatası* vasitəsilə seçilir, habelə dövlət başçısının səlahiyyətinə aid olan 81 yer qadınlar üçün nəzərdə tutulur və 11 üzv Prezident tərəfindən təyin edilir.

Qanunvericilik hakimiyyətini *Nazirlər Kabineti* ilə birlikdə həyata keçirən ali qanunverici orqan həm Federasiya, həm də xüsusi olaraq ölkənin materik hissəsi üçün qanunlar qəbul edir.

Milli Məclisin hazırkı sədri 12 noyabr 2010-cu ildən etibarən *Anne Makindadır.*

31 oktyabr 2010-cu il tarixində keçirilmiş Parlament seçkiləri nəticəsində *Milli Məclisdə* mandat qazanmış ölkənin əsas siyasi partiyaları:

*Çama Ça Mapinduzi (İnqilabi Partiya) – 258 yer,*
*Çadema (Demokratiya və İnkişaf Partiyası) – 44,*
*Vətəndaş Birliyi Cəbhəsi – 34,*
*Quruculuq və İslahat Məsələləri Üzrə Milli Konvensiya – 4,*
*Tanzaniya Əmək Partiyası -1,*
*Birləşmiş Demokratik Partiya - 1.*

***İcraedici hakimiyyət:*** Prezidentin, vitse-prezidentin, Baş nazirin, Zanzibar Muxtar Respublikası Prezidentinin və bütün nazirlərin üzv olduğu *Nazirlər Kabinetinə (26 nazirlikdən ibarətdir)* Prezidentin təyin və Parlamentin təsdiq etdiyi *Baş nazir* rəhbərlik edir.

*Nazirlər Kabineti* və ona rəhbərlik edən *Baş nazir* nazirliklərin fəaliyyətini əlaqələndirmək, habelə ölkə Prezidentinin fərman və sərəncamlarını icraya yönəltmək səlahiyyətlərinə malikdir.

09 fevral 2008-ci ildən etibarən Tanzaniya Birləşmiş Respublikasının hazırkı, sayca 13-cü Baş naziri *İnqilabi Partiyanın (ÇÇM)* təmsilçisi *Mizenqo Pindadır.*

***Məhkəmə hakimiyyəti*:** Britaniya, islam və qəbilə məhkəmə-hüquq sisteminə əsaslanan Tanzaniyanın məhkəmə sistemi, hakimləri Prezident tərəfindən təyin edilən *Ali Məhkəmədən, Apelyasiya Məhkəməsindən,* habelə hərbi və digər ixtisaslaşmış yerli məhkəmələrdən ibarətdir.

# TOQO








***Ümumi məlumat:*** XIX əsrin sonlarından etibarən *Almaniyanın* protektoratı olmuş *Toqo,* Birinci Dünya Müharibəsi illərində *Böyük Britaniya* və *Fransanın* işğalına məruz qalmışdır. Nəticədə, 1919-cu ildə *Toqonun* qərb hissəsi *Böyük Britaniyanın*, şərq əraziləri isə *Fransanın* idarəçiliyinə verilmişdir.

İkinci Dünya Müharibəsindən sonra de-fakto *Fransanın* müstəmləkəsi sayılan şərqi torpaqlar *(müasir Toqonun ərazisi) BMT-nin* qəyyumluğuna verilmişdir.

*Toqo* 1960-cı ildə dövlət müstəqilliyini elan etmişdir.

*Qərbi Afrikada* yerləşən *Toqo Respublikasının* paytaxtı *Lome* şəhəridir.

Ölkənin ərazisi 56,785 km², əhalisi *(2009)* 6,619,000 nəfərdir *(əhali sıxlığı 116.6 nəfər/km²)*.

*Toqo Respublikasının* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.435 – aşağıdır *(162-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 27 aprel tarixində qeyd olunur. Ölkə Konstitusiyası 27 sentyabr 1992-ci il tarixində qəbul edilmişdir (2002 və 2005-ci illərdə Toqonun Konstitusiyasına bir sıra dəyişikliklər edilmişdir).

***İnzibati bölgüsü:*** 30 prefekturadan *(Keran, Dufelqoi, Billax, Kozax, Assoli, Bassar, Dankpen, Ave, Zio, Yoto, Laks, Vo, Qolfe, Aqou, Amou, Danyi, Şərqi Mono, Xaxo, Kloto, Vava, Oqou, Mərkəzi Mono, Klencal, Oti, Tancuare, Tyone, Blita, Sotubua, Tçamba və Tuaco)* və *Lamo* kommunasından ibarət olan 5 regiona *(Kara, Sahil, Mərkəzi, Plato və Savann)* bölünür.

***Dövlət başçısı:*** Dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı - *Prezident* ümumxalq səsverməsi yolu ilə 5 illik müddətə seçilir.

Ölkə Prezidenti icra hakimiyyətini *Baş nazirin* başçılıq etdiyi Hökumətlə birlikdə həyata keçirir. Dövlət başçısı *Baş naziri* sonuncu *Parlament* seçkiləri nəticəsində qalib gəlmiş siyasi partiyanın üzvləri arasından təyin edir. *Baş nazirin* təqdimatı ilə *Prezident* digər *Hökumət* üzvlərini vəzifəyə təyin və ya azad edir. Dövlət başçısı daha mühüm və taleyüklü qərarların qəbul edilməsi üçün Nazirlər Kabinetinin iclasını çağırır və ona sədrlik edir.

Toqonun hazırkı, sayca 4-cü *Prezidenti* 04 may 2005-ci ildən etibarən *For Qnassinqbedir.* 2010-cu ilin mart ayında keçirilmiş sonuncu Prezident seçkilərində *Qnassinqbe* 61%-dən artıq səslə qalib gələrək yenidən dövlət başçısı seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 81 yerlik *Milli Assambleyadır.* Parlament üzvləri birmandatlı seçki dairələrindən proporsional təmsilçilik sistemi üzrə 5 il müddətinə seçilirlər.

Parlament qanunvericilik hakimiyyətini, onun qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Şurası (Hökumət)* ilə birlikdə həyata keçirir. Parlament Hökumətə etimadsızlıq göstərməkdə səlahiyyətlidir.

Bununla yanaşı, Parlament seçkilərindən ən azı bir il keçdikdən sonra, Prezident Baş nazirlə və Milli Assambleyanın sədri ilə məsləhətləşmələr nəticəsində Parlamenti buraxmaq səlahiyyətinə malikdir.

2005-ci ildən etibarən *Bonfo Abbas Milli Assambleyaya* sədrlik edir.

14 oktyabr 2007-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində Milli Məclisdə təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Toqo Xalq Rallisi (50 deputat),*

*Dəyişiklik Uğrunda Qüvvələr Birliyi (27 deputat),*

*Bərpa Fəaliyyəti komitəsi (4 deputat).*

***İcraedici hakimiyyət:*** Hökumətə Prezident tərəfindən təyin edilən *Baş nazir (adətən parlamentdə çoxluğa sahib olan hakim partiyanın nümayəndəsi bu posta daha real namizəd sayılır)* rəhbərlik edir. 22 nazirdən ibarət Hökumət üzvləri Baş nazirin təqdimatı ilə Prezident tərəfindən təyin edilir.

Təyin edildikdən dərhal sonra, *Baş nazir* Hökumətin fəaliyyət planını *Milli Assambleyaya* təqdim etməli və mütləq səs çoxluğu ilə Parlament üzvlərinin etimadını qazanmalıdır.

23 iyul 2012-ci ildən etibarən *Nazirlər Kabinetinə* rəhbərliyi, sayca 13-cü *Baş nazir* olan *Kvesi Axumey-Zunu* həyata keçirir.

***Məhkəmə hakimiyyəti*:** Toqonun məhkəmə-hüquq sistemi qarışıq xarakter daşısa da, əsasən fransız hüquq sisteminin elementlərini özündə ehtiva edir.

Ölkədə məhkəmə hakimiyyəti, hakimləri *Nazirlər Kabinetində Ali Magistratura Şurasının* təqdimatı ilə Prezident fərmanı ilə təyin edilən, iki palatadan *(məhkəmə və inzibati)* ibarət olan və Toqo Respublikasının ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Apelyasiya Məhkəməsi, hərbi* və *birinci instansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

# TÜRKMƏNİSTAN

  

***Ümumi məlumat:*** X yüzillikdə müasir oğuzların *(indiki türkmənlərin əcdadlarının)* köçüb gəldikləri *Türkmənistan* ərazisində, XIII əsrdə *Səlcuq* dövləti qurulmuşdur. XVI əsrdən etibarən *Xivə və Buxara* xanlıqlarının tabeçiliyi altında olan *Türkmənistan* ərazisi, *Rusiya İmperiyası* tərəfindən 1869-cı ildə işğal edilmişdir. Ölkə 1921-ci ildə *Türküstanın,* 1924-cü ildə isə SSRİ-nin tərkibinə daxil olmuşdur.

1991-ci ildən etibarən *Türkmənistan* müstəqil dövlətdir *(1995-ci ildən BMT-nin qərarına uyğun olaraq daimi neytrallığını elan etmişdir).*

*Mərkəzi Asiyanın* cənub-qərb hissəsində yerləşən *Türkmənistan Respublikasının* paytaxtı *Aşqabad* şəhəridir.

Ölkənin ərazisi 491,210 km², əhalisi *(2012)* 5,125,693 nəfərdir *(əhali sıxlığı 10.5 nəfər/km²).*

*Türkmənistan Respublikasının* rəsmi dövlət dili *türkmən* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.686 – ortadır *(102-ci yer).*

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik respublikadır. 1991-ci ilin oktyabrında *(Milli bayram günü olan müstəqillik günü oktyabr ayının 27-də qeyd olunur)* ölkədə müstəqillik elan edildikdən sonra 18 may 1992-ci ildə ilk Konstitusiya qəbul edilmişdir *(1995, 1999, 2003, 2006, 2008-ci illərdə əlavə və dəyişikliklər edilmişdir).*

***İnzibati bölgüsü:*** *Etraplardan* ibarət olan 5 vilayətə *(Ahal, Balkan, Daşoğuz, Lebap və Marı)* və *Aşqabad* paytaxt dairəsinə bölünür.

***Dövlət başçısı:*** Türkmənistanın ən yüksək vəzifəli şəxsi olan *prezident* dövlətin və icra hakimiyyətinin başçısı, silahlı qüvvələrin ali baş komandanı, milli müstəqilliyin, Türkmənistanın ərazi bütövlüyünün, Konstitusiyaya hörmətin, beynəlxalq saziş və müqavilələrin təminatçısıdır.

*Milli Məclis, Nazirlər Kabineti* və *Ali Məhkəmə* ilə yanaşı, ölkənin ali dövlət hakimiyyətini həyata keçirən *Prezident* 5 il müddətinə birbaşa və gizli səsvermə yolu ilə məhdudiyyətsiz sayda seçilir.

Konstitusiyanın və qanunların tətbiqi, xarici siyasət strategiyasının həyata keçirilməsi, hökumətlərarası və beynəlxalq təşkilatların etimadnamələrinin, xarici dövlətlərin diplomatik nümayəndələrinin övdətnamələrinin, habelə Türkmənistan Respublikası vətəndaşlığının verilməsi barədə qərarların qəbulu, Parlamentin razılığı ilə Ali Məhkəmə sədrinin, Baş prokurorun, daxili işlər və ədliyyə nazirinin vəzifəyə təyin və ya vəzifədən azad edilməsi, əfv və ya amnistiya verilməsi və mövcud Konstitusiyaya əsasən bir çox digər mühüm səlahiyyətli məsələlər dövlət başçısı tərəfindən həyata keçirilir.

14 fevral 2007-ci ildən ölkə Prezidenti *Qurbanqulu Berdımuxamedovdur (12 fevral 2012-ci ildə keçirilmiş növbəti Prezident seçkilərində hazırkı dövlət başçısı 97% səslə qalib gələrək ikinci müddətə ölkə Prezidenti seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Ölkə Konstitusiyasına edilən son dəyişikliyə əsasən iki palatalı parlament sistemi 125 yerlik bir palatalı *Məclislə (Parlament)* əvəz edilmişdir. Deputatlar birmandatlı dairələrdən ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilir.

Əsasən qanunvericilik fəaliyyətini həyata keçirən *(qanunların qəbulu, illik büdcənin təsdiqi, beynəlxalq müqavilələrin*

*ratifikasiyası, Konstitusiyaya düzəlişlər etmək və s.) Məclisin* səlahiyyətləri de-fakto o qədər də geniş olmadığından icra hakimiyyətinə təsiri də məhduddur.

14 dekabr 2008-ci ildə *Məclisə* keçirilmiş son seçkilər nəticəsində Parlamentdəki bütün deputat yerlərini *Türkmənistan Demokrat Partiyası (TDP)* təmsilçiləri qazanmışlar .

*Türkmənistan Parlamentinin* hazırkı sədri 23 fevral 2007-ci ildən etibarən *Akca Nurberdıyevadır.*

Parlamentdə təmsil olunan ölkənin siyasi partiyası: Türkmənistan Demokrat Partiyası - Vaxtilə *Saparmurad Niyazov* tərəfindən yaradılmış partiyaya ömrünün sonunadək *Türkmənbaşı* özü rəhbərlik edib. Onun ölümündən sonra isə partiyaya hazırkı Prezident *Qurbanqulu Berdıməhəmmədov* sədrlik edir.

*(10 yanvar 2011-ci il tarixində Türkmənistan Parlamenti "Çoxpartiyalılıq haqqında" Qanun qəbul etsə də, Türkmənistan Demokratik Partiyası ölkədə de-fakto yeganə siyasi partiya sayılır).*

***Məhkəmə hakimiyyəti*: *Türkmənistan Respublikasında*** hüquqi sistem mülki hüquq sisteminə əsaslanır.

Məhkəmə hakimiyyəti, üzvləri ölkə Prezidenti tərəfindən təyin edilən *Ali Məhkəmə, Aşqabad şəhər məhkəməsi*, habelə vilayət, hərbi, inzibati və digər ixtisaslaşmış məhkəmələr tərəfindən həyata keçirilir.

# UQANDA

  

***Ümumi məlumat:*** X əsrdən etibarən indiki ərazisində erkən feodal dövlətlərinin təşəkkül tapdığı *Uqanda,* 1894-cü ildən etibarən *Britaniyanın* protektoratı, 1962-ci ildən isə *Britaniya* dominionu sayılmışdır.

1963-cü ildə *Birləşmiş Krallığın* tərkibində müstəqillik əldə etmiş *Uqanda* 1967-ci ildən respublikadır.

*Şərqi Afrikada* yerləşən *Uqanda Respublikasının* paytaxtı *Kampala* şəhəridir.

Ölkənin ərazisi 236,040 km$^2$, əhalisi *(2012)* 35,873,253 nəfərdir *(əhali sıxlığı 137.1 nəfər/km$^2$).*

*Uqanda Respublikasının* rəsmi dövlət dili *ingilis və svahili* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.446 – aşağıdır *(161-ci yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1962) 09 oktyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1995-ci ilin sentyabr ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** Uqanda 111 dairəni özündə birləşdirən, habelə xüsusi statusa malik *Kampala* paytaxt dairəsindən ibarət olan 4 vilayətə *(Şimali, Qərbi, Mərkəzi, Şərqi)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin və hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* ümumi seçkilərdə 5 illik müddətə seçilir.

İcra hakimiyyətinə rəhbərliyi *Nazirlər Kabineti* vasitəsilə həyata keçirən Uqanda Prezidenti, Parlamentin razılığı ilə dövlətin idarə edilməsində ona bilavasitə köməklik göstərən *vitse-prezidenti (24 may 2011-ci ildən MMHP-nin üzvü Edvard Ssekandidir) və Baş naziri* təyin və azad etmək səlahiyyətinə malikdir.

Dövlət başçısının Milli Məclisin üzvləri arasından təyin etdiyi nazirlər, rəhbərlik etdikləri nazirliklərin fəaliyyətinə görə Prezident qarşısında fərdi, *Kabinetin* qəbul etdiyi istənilən qərara görə isə birlikdə kollektiv məsuliyyət daşıyırlar.

Respublikanın hazırkı, sayca 10-cu Prezidenti 29 yanvar 1986-cı ildən etibarən *Milli Müqavimət Hərəkatı Partiyasının lideri Yoveri Musevenidir.* 18 fevral 2011-ci il tarixində keçirilmiş son Prezident seçkilərində *Y.Museveni* 68% səs toplayaraq növbəti dəfə qalib gəlmişdir.

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 332 yerlik *Milli Məclisdir.* 5 il müddətinə seçilən Parlament üzvlərinin 104-ü qadın və ordu da daxil olmaqla, maraq qrupları tərəfindən irəli sürülür. Qalan üzvlər isə ümumi seçkilərdə Parlamentdə mandat uğrunda mübarizə aparırlar.

Kifayət qədər geniş səlahiyyətlərə malik olan Parlament ənənəvi qanunvericilik fəaliyyəti ilə yanaşı, bir sıra mühüm dövlət təyinatlarının təsdiq edilməsində müstəsna hüquqlara sahibdir.

2005-ci ildən digər siyasi partiyaların seçkilərdə iştirakına icazə verilsə də, ölkədə dominant partiya *Milli Müqavimət Hərəkatı Partiyasıdır.*

18 fevral 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Məclisdə* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Milli Müqavimət Hərəkatı Partiyası (263 deputat),*
*Demokratik Dəyişiklik Uğrunda Forum (34 deputat),*
*Demokratik Partiya (12 deputat),*

*Uqanda Xalq Partiyası (10 deputat),*
*Mühafizəkarlar Partiyası (1 deputat),*
*Ədliyyə Forumu (1 deputat).*

***İcraedici hakimiyyət:*** Dövlət başçısının Parlament üzvlərindən formalaşdırdığı və kifayət qədər geniş tərkibə malik olan Hökumətə *(31 nazirlik)* Prezident tərəfindən təyin edilən və nazirliklərin fəaliyyətlərini əlaqələndirməklə onlara rəhbərlik edən *Baş nazir* başçılıq edir.

Ölkə Parlamenti Uqanda Prezidenti qarşısında fərdi və kollektiv məsuliyyət daşıyan hər bir nazirə etimadsızlıq göstərmək və onu istefaya göndərmək səlahiyyətinə malikdir.

24 may 2011-ci ildən Uqanda Hökumətinə rəhbərliyi *Milli Müqavimət Hərəkatı* Partiyasının təmsilçisi *Amama Mbabazi* həyata keçirir.

***Məhkəmə hakimiyyəti*:** Üzvləri Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə* və hakimləri Prezident tərəfindən təyin və ali qanunverici orqan tərəfindən təsdiq edilən *Apelyasiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

Bundan əlavə, Uqanda Respublikasında hakimləri *Məhkəmə Xidməti Komissiyası* tərəfindən təyin olunan digər ixtisaslaşmış və aşağı instansiya məhkəmələri də fəaliyyət göstərirlər.

# URUQVAY

  

***Ümumi məlumat:*** İspanların gəlişinədək yerli *çarrua (hindu xalqları)* tayfalarının məskunlaşdıqları *Uruqvayın* indiki torpaqları, XVI əsrdən XIX əsrin əvvəllərinə qədər olan dövr ərzində *İspaniyanın* müstəmləkəsi sayılmışdır.

1828-ci ildə *Uruqvay* dövlət müstəqilliyini elan etmişdir.

*Cənubi Amerikada* yerləşən *Uruqvay Respublikasının* paytaxtı *Montevideo* şəhəridir.

Ölkənin ərazisi 176,215 $km^2$, əhalisi *(2011)* 3,318,535 nəfərdir *(əhali sıxlığı 18.65 nəfər/$km^2$)*.

*Uruqvayın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.783 – yüksəkdir *(48-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1825) 28 avqust tarixində qeyd olunur. Uruqvay Respublikasının Konstitusiyası 1966-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 19 departamentə *(Takuarembo, Serro-Larqo, Roça, Salto, Artiqas, Florida, Lavalyexa, Maldonado, Rivera, Montevideo, Paysandu, Durasno, Flores, Koloniya, Rio-Neqro, San-Xose, Soryanu, Kanelones və Treynta-i-Tres)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə və yalnız bir dəfə 5 il müddətinə seçilən *Prezident* – dövlətin və hökumətin başçısı, silahlı qüvvələrin ali baş komandanı, milli

birliyin rəmzi, hüquqi dövlətin, mövcud Konstitusiyanın, ərazi bütövlüyünün və təhlükəsizliyinin təminatçısı, habelə *Uruqvay Respublikasının* ölkə daxilində və xaricdə ali təmsilçisidir.

Dövlət başçısı, üzvlərini təyin etdiyi və formalaşdırdığı *Nazirlər Kabinetinə* rəhbərliyi həyata keçirir. Ölkə Prezidentinə dövlətin idarə edilməsində, de fakto və de-yure geniş səlahiyyətlərə malik olan vitse-prezident *(Konstitusiyaya görə vitse-prezident eyni zamanda Senatın sədridir və 01 mart 2010-cu ildən Danilo Astori bu iki mühüm vəzifəni həyata keçirir)* köməklik edir.

*Uruqvayın* hazırkı *Prezidenti* 01 mart 2010-cu il tarixindən etibarən *Geniş Cəbhə Partiyasının* təmsilçisi *Xose Alberto Muxika Kordanodur.*

***Ali qanunverici hakimiyyət:*** İki palatadan - *Senatdan* (Yuxarı Palata) və *Nümayəndələr Palatasından (Aşağı Palata)* ibarət ali qanunverici orqan *Baş Assambleyadır.*

*Senata (30 yer, sədri 1 mart 2010-cu ildən Danilo Astoridir)* və *Nümayəndələr Palatasına (99 yer, sədri 1 mart 2010-cu ildən etibarən İvonne Passadadır)* deputatlar proporsional sistem üzrə seçilirlər. Hər bir departament Nümayəndələr Palatasında 2 üzvdən az olmamaqla təmsil olunur. *Baş Assambleyanın* deputatlarının səlahiyyət müddəti 5 ildir.

*Senatda* və *Nümayəndələr Palatasında* hazırlanmış qanun layihələri, hər iki palatada mütləq şəkildə təsdiq edildikdən sonra baxılması üçün icra hakimiyyətinə göndərilir. Uruqvay Prezidentinin qanunlara ümumi və fəsillər üzrə veto qoymaq hüququ vardır.

Mövcud Konstitusiyaya əsasən ölkə *Parlamenti,* onun qarşısında qismən məsuliyyət daşıyan *Hökumətə,* yalnız bəzi məsələlər çərçivəsində etimadsızlıq göstərmək səlahiyyətinə malikdir.

2009-cu ilin oktyabr ayında keçirilmiş Parlament seçkilərində uğur qazanmış əsas siyasi partiyalar aşağıdakılardır:

*Geniş Cəbhə (tərkibinə 7 partiya, o cümlədən Kommunist Partiyası daxildir) - (16 senator, 50 deputat),*

*Milli Partiya (Blanke) - (9 senator, 30 deputat),*

*Kolorado Partiyası - (5 senator, 17 deputat),*

*Müstəqil Partiya – (2 deputat).*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri Baş Assambleya tərəfindən 10 illik müddətə seçilən və eyni zamanda, ölkədə Konstitusiya nəzarəti orqanının funksiyalarını da yerinə yetirən *Ali Məhkəmə,* habelə 6 apelyasiya və digər ixtisaslaşmış aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

# VENESUELA





***Ümumi məlumat:*** *Venesuelanın* indiki ərazisi XVI əsrdə *İspaniya* tərəfindən işğal edilmişdir.

1811-ci ilin iyul ayında ölkə öz müstəqilliyini əldə etmiş, 1830-cu ildə isə *Venesuela Respublikası* elan edilmişdir *(İspan ordusu ölkə ərazisini tam olaraq 1823-cü ildə tərk etmişdir).*

*Cənubi Amerikada* yerləşən *Venesuela Bolivar Respublikasının* paytaxtı *Karakas* şəhəridir.

Ölkənin ərazisi 916,445 km², əhalisi *(2011)* 28,946,101 nəfərdir *(əhali sıxlığı 30.2 nəfər/km²).*

*Venesuelanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.735 – yüksəkdir *(73-cü yer).*

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü *(1811)* 5 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1999-cu ildən *(2009-cu ildə edilmiş dəyişikliklərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** *Venesuela Federativ Respublikası* 23 ştata *(Amazonas, Ansoategi, Apure, Aragua, Barinas, Bolivar, Guariko, Delta Amakuro, Sulia, Karabobo, Koxedes, Lara, Merida, Miranda, Monagas, Nueva Esparta, Portugesa, Sukre, Taçira, Truxilyo, Falkoy və Yarakuy ştatları), Karakas* federal dairəsinə və *Miranda* federal ərazisinə bölünür.

***Dövlət başçısı:*** Birbaşa ümumxalq səsverməsi yolu ilə və sadə səs çoxluğu sistemi üzrə 6 il müddətinə *(iki dəfə ardıcıl*

*seçilmək hüququ ilə)* seçilən *ölkə Prezidenti* dövlət və hökumət başçısıdır.

Mövcud Konstitusiyaya görə, çox geniş səlahiyyətlərə malik olan *Prezident,* dövlətin idarə edilməsində ona birbaşa köməklik edən vitse-prezidenti və digər ali vəzifəli şəxsləri təyin edir, Hökumətin strukturu və tərkibi haqqında qərar qəbul edir və *Parlamentin* razılığı ilə *Hökumət* üzvlərini formalaşdırır.

Qanunvericilik təşəbbüsü hüququna malik olan ölkə *Prezidenti* mövcud qanunvericiliyə dəyişikliklər təklif edə bilər, lakin bu təkliflər *Milli Assambleyada* səs çoxluğu ilə qəbul edilməyə bilər.

02 fevral 1999 - 05 mart 2013 illəri əhatə edən 14 illik müddət ərzində *Venesuela Federativ Respublikasının Prezidenti və Venesuela Vahid Sosialist Partiyasının* lideri olmuş *Uqo Çaves Friasın* ölümündən sonra, *VVSP-nın* yeni lideri *Nikolas Maduro* 14 aprel 2013-cü ildə keçirilmiş növbədənkənar prezident seçkilərində qalib gələrək *Venesuelanın* dövlət başçısı seçilmişdir.

***Ali qanunverici hakimiyyət:*** Qarışıq seçki sistemi əsasında formalaşan 165 yerlik bir palatalı *Milli Assambleyadır.* Parlamentin 110 deputatı majoritar və 52 üzvü proporsional seçki sistemi üzrə çoxmandatlı dairələrdən seçilirlər. Digər 3 yer isə Venesuelanın yerli xalqlarının nümayəndələri üçün nəzərdə tutulur. Maksimum üç çağırış dövründə seçilmək hüququna malik *Milli Assambleya* deputatlarının səlahiyyət müddəti 5 ildir.

Parlamentin əsas funksiyalarına qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası, daimi diplomatik missiya rəhbərlərinin təyinatına və ali hərbi rütbələrin təltifinə razılığın verilməsi və s. aiddir.

*Hökumətə* etimadsızlıq göstərmək və onu istefaya göndərmək səlahiyyətinə malik olan *Milli Assambleya,* eyni zamanda qanunlar üzərində Prezident vetosunu mütləq səs çoxluğu ilə dəf edə bilər.

26 sentyabr 2010-cu ildə keçirilmiş son Parlament seçkilərində qalib gəlmiş ölkənin əsas siyasi partiyaları:

*Venesuela Vahid Sosialist Partiyası (98 yer),*

*Demokratik Birlik Uğrunda koalisiya (65) ,*

*"Patria Para Todos" ( "Vətən Hamı Üçün") (2),*

*Müstəqil deputatlar (9).*

***Məhkəmə hakimiyyəti:*** Magistratları Parlament tərəfindən 12 illik müddətə seçilən, siyasi-inzibati, seçki, mülki, sosial və cinayət işləri üzrə səlahiyyətli olan, habelə ölkədə Konstitusiya nəzarəti orqanının funksiyalarını yerinə yetirən və hər biri 5 hakimdən ibarət olan 6 kameralı *Ali Ədliyyə Tribunalıdır*.

# YƏMƏN

  

***Ümumi məlumat:*** Əsrlər boyu *Yəmən* növbə ilə *Aksuma, Persiya, Ərəb Xilafəti, Misir və Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur. 1839-cu ildə *Cənubi Yəmən (Aden)* ingilislər tərəfindən işğal edilmişdir. *Osmanlı İmperiyasının* süqutundan sonra 1918-ci ildə *Şimali Yəmən* müstəqil krallıq elan edilmişdir.

1962-ci ildə baş vermiş antifeodal inqilabı nəticəsində ölkənin şimalında *Yəmən Ərəb Respublikası,* 1967-ci ildə isə müstəqillik uğrunda gedən şiddətli mübarizə nəticəsində *Cənubi Yəmən* dövləti *(1970-ci ildən Yəmən Xalq Demokratik Respublikası)* öz müstəqilliyini elan etmişdir.

1990-cı ildə bu iki dövlətin birləşməsi nəticəsində vahid *Yəmən Respublikası* yaradılmışdır.

*Ərəbistan Yarımadasının* cənub və cənub-qərbində yerləşən *Yəmən Respublikasının* paytaxtı *Sana* şəhəridir.

Ölkənin ərazisi 527,829 km², əhalisi *(2011)* 25,130,000 nəfərdir *(əhali sıxlığı 44.7 nəfər/km²)*.

*Yəmən Respublikasının* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.462 – aşağıdır *(154-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan *birlik günü* (1990) 22 mayda qeyd olunur. Ölkə Konstitusiyası 16 may 1991-ci ildən *(1994 və 2001-ci illərdə əlavələr edilməklə)* qüvvədədir.

***İnzibati ərazi bölgüsü:*** *Şimali (14 muhafaz)* və *Cənubi Yəmən (6 muhafaz)* üzrə 333 rayonu, 2210 qəsəbəni və 38284 kəndi birləşdirən 20 vilayətdən *(Amran, Əl-Beyda, Əl-Dali, Damar, Əl-Cauf, İbb,Marib, Mahvit, Rayma, Saada, Taiz, Xaca, Xodeyda, Abyan, Aden, Lahc, Əl-Mahra, Xadramaut və Şabva)* və *Sana* paytaxt dairəsindən ibarətdir.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə ölkədə milli birliyin rəmzi, vətəndaşların hüquq və azadlıqlarının, dini-mənəvi dəyərlərinin təminatçısı, dövlətin daxildə və xarici ölkələrdə ali təmsilçisi, dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı - *Prezident* ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaq şərti ilə 7 il müddətinə seçilir.

Geniş səlahiyyətlərə malik olan dövlət başçısı, dövlətin idarə edilməsində ona bilavasitə yardımçı olan *vitse-prezidenti, Hökumətə* rəhbərlik edən *Baş naziri* və onun müavinlərini, Milli Müdafiə Şurasının və Baş nazirin təqdimatına əsasən *Nazirlər Şurasının* üzvlərini təyin və vəzifələrindən azad edir, habelə ümumxalq referendumu və *Nümayəndələr Palatasına* seçkiləri təyin edir, qanunların icrası ilə bağlı fərmanlar imzalayır.

Yəmən Respublikasının hazırkı, sayca 2-ci *Prezidenti* 27 fevral 2012-ci ildən etibarən *Əl-Hadi Abd Rabbodur*.

***Qanunvericilik hakimiyyəti:*** Qüvvədə olan 1991-ci il Konstitusiyasına müvafiq olaraq ölkədə iki palatalı *Parlament* - nümayəndələri Yəmən Prezidenti tərəfindən təyin edilən 59 yerlik *Yuxarı Palata (Məşvərət Şurası)* və üzvləri ümumi, gizli və birbaşa seçkilər yolu ilə 6 illik müddətə seçilən, 301 yerlik *Aşağı Palata (Nümayəndələr Palatası)* fəaliyyət göstərir.

Qanunvericilik sistemi islam, türk, ingilis hüquq sistemi ilə yanaşı, eyni zamanda qəbilə münasibətlərinə də əsaslanır və dünya parlamentarizminin fundamental prinsiplərini özündə ehtiva edir.

27 aprel 2003-cü ildə keçirilmiş sonuncu parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* yer almış ölkənin əsas siyasi partiyaları:

*Ümumxalq Konqresi - (238 deputat),*
*Əl-İslah Partiyası - (46 deputat),*
*Yəmən Sosialist Partiyası - (8 deputat),*
*Nasir Xalq Birliyi Partiyası - (3 deputat),*
*Ərəb Milli Sosialist BƏƏS Partiyası - (2 deputat) və s.*

***İcraedici hakimiyyət:*** Parlamentin *Nümayəndələr Palatası* qarşısında fərdi və kollektiv məsuliyyət daşıyan Hökumətin *(Nazirlər Şurası)* tərkibini Yəmən Prezidenti formalaşdırır. *Nazirlər Şurasına* rəhbərliyi həyata keçirən *Baş nazir də* dövlət başçısı tərəfindən təyin edilir.

Mövcud Konstitusiyaya görə, *Nazirlər Şurasının* tərkibi formalaşdıqdan dərhal sonra Baş nazir Hökumətin fəaliyyət proqramını *Aşağı Palataya* təqdim etməli və səs çoxluğu ilə *Nümayəndələr Palatasının* deputatlarının etimadını qazanmalıdır. Yalnız etimad göstərildiyi təqdirdə, *Nazirlər Şurasının* üzvləri proqramın icrası üçün fəaliyyətə başlaya bilərlər.

10 dekabr 2011-ci il tarixindən etibarən ölkənin hazırkı, sayca 8-ci *Baş naziri Məhəmməd Basindavadır.*

***Məhkəmə hakimiyyəti:*** Konstitusiyaya görə məhkəmə hakimiyyətini müstəqil olaraq *Ali Məhkəmə* həyata keçirir. Ölkədə Quran bütün qanunlardan yüksəkdədir və hüquqi aktlar ona zidd olmamalıdır. Bu baxımdan, ölkədə hakimlərin əksəriyyəti dini alimlərdirlər və məhkəmə prosesi qanunların dini zəmində müzakirəsi müstəvisində həyata keçirilir.

# ZAMBİYA

  

***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər *Zambiya-nın* indiki ərazisində bir sıra kiçik dövlətlər və qəbilə birlikləri mövcud olmuşdur. XIX əsrin sonlarında bu torpaqlar ingilis-lərin işğalına məruz qalmış, 1924-1964-cü illərdə isə *Şimali Rodeziya (Zambiya)* üzərində *Britaniya* protektoratı qurul-muşdur.

1964-cü ildə *Zambiya Birləşmiş Krallığın* tərkibində müstəqillik əldə etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Zambiya Respublikasının* pay-taxtı *Lusaka* şəhəridir.

Ölkənin ərazisi 752,618 km², əhalisi *(2012)* 14,309,466 nəfərdir *(əhali sıxlığı 17.2 nəfər/km²)*.

*Zambiya Respublikasının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.430 – aşağıdır *(164-cü yer)*.

***Dövlət quruluşu:*** Məhdud hakimiyyətli prezident idarə-etmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1964) 24 oktyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 2 avqust 1991-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** *Zambiya Respublikası* rayonlara bölü-nən 9 əyalətdən *(Mərkəzi, Kopperbelt, Şərqi, Luapula, Lusaka, Şimali, Şimal-Qərbi, Cənubi və Qərbi)* ibarətdir.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə, 2 dəfədən çox olmamaqla 5 il müddətinə seçilən *Prezident,* Konstitusiyanın, milli müstəqilliyin və hüquqi dövlətin təminatçısı, dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvələrin ali baş komandanıdır.

Dövlət başçısı *Milli Assambleyanın* üzvləri arasından formalaşdırdığı *Nazirlər Kabinetinə* rəhbərliyi və *Hökumətin* iclaslarına sədrliyi həyata keçirir. Mövcud Konstitusiyaya əsasən, icraedici hakimiyyətlə yanaşı qanunvericilik hakimiyyəti də bütövlükdə Prezidentin əlində cəmlənmişdir.

*Prezidentə* dövlətin idarə edilməsində, Parlamentin deputatları arasından təyin etdiyi vitse-prezident köməklik edir *(29 sentyabr 2011-ci ildən etibarən vitse-prezident Qay Skottdur).*

Zambiya Respublikasının hazırkı, sayca 5-ci *Prezidenti* 23 sentyabr 2011-ci ildən etibarən *Mişel Satadır.*

***Ali qanunverici hakimiyyət:*** Bir palatalı 158 yerlik *Milli Assambleyadır.* Parlamentə 150 üzv birmandatlı dairələrdən, birbaşa səsvermədə sadə səs çoxluğu ilə seçilir, 8 deputat isə ali qanunverici orqana Prezident tərəfindən təyin olunur. *Milli Assambleyanın* deputatlarının səlahiyyət müddəti 5 ildir.

Mövcud Konstitusiyaya əsasən, məhdud səlahiyyətlərə malik olan *Milli Assambleya* qanunvericilik fəaliyyətini, öz üzvləri arasından formalaşdırılmış *Hökumətlə* birlikdə həyata keçirir.

2011-ci il sentyabr ayının 20-də keçirilmiş parlament seçkilərində uğur qazanmış əsas siyasi partiyalar:

*Vətən Cəbhəsi (60 deputat, lideri M.Sata),*

*Çoxpartiyalı Demokratiya Uğrunda Hərəkat (55 deputat, lideri R.Banda),*

*Milli İnkişaf Partiyası (28 deputat),*

*Demokratiya və İnkişaf Forumu (1 deputat),*

*Demokratiya və İnkişaf Alyansı (1 deputat),*

*Müstəqillər (3 deputat).*

***Məhkəmə hakimiyyəti:*** Zambiyanın hüquq sistemi ailə-nikah, vərəsəlik və torpaq münasibətlərini tənzimləyən, qarışıq elementlərlə zəngin afrika hüquq sistemini və ingilis ümumi hüquq modelini özündə ehtiva edir.

Məhkəmə hakimiyyəti, üzvləri ölkə Prezidenti tərəfindən təyin və *Milli Assambleyada* təsdiq olunan, eyni zamanda Zambiya Respublikasının ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə magistr və aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

## § 2. Parlament respublikaları

***Parlament respublikası*** – Hökumətin öz fəaliyyətinə görə qarşısında tam məsuliyyət daşıdığı ali qanunverici orqanın *(parlamentin)* aliliyi prinsipinin elan edilməsi ilə səciyyəvidir. Bu tip respublikada Hökumət, Parlamentdə səs çoxluğuna sahib olan partiyaların deputatlarının sıralarından parlament yolu ilə formalaşır. Parlament çoxluğunun dəstəyinə sahib olduğu müddət ərzində hökumət hakimiyyətdə qalır. Bu dəstəyi itirdiyi təqdirdə hökumət ya istefaya çıxır, ya da dövlət başçısı vasitəsilə parlamentin buraxılmasına və yeni seçkilərin təyin edilməsinə nail olunur. Belə idarəetmə forması inkişaf etmiş, əhəmiyyətli dərəcədə özünü nizamlayan iqtisadiyyata malik ölkələrdə *(İtaliya, Finlandiya, Türkiyə, Almaniya, Yunanıstan, İsrail)* mövcuddur. Bu cür demokratiya sistemində seçkilər adətən partiya siyahıları üzrə keçirilir, yəni seçicilər namizədə deyil, partiyaya səs verirlər.

Parlamentin qanunvericilikdən əlavə əsas funksiyası hökumətə nəzarətdir. Bundan başqa, parlament mühüm maliyyə səlahiyyətlərinə malikdir, belə ki, o dövlət büdcəsini işləyib hazırlayır və qəbul edir; ölkənin sosial-iqtisadi inkişaf yollarını müəyyənləşdirir; dövlətin daxili, xarici və müdafiə siyasəti ilə bağlı əsas məsələləri həll edir.

Parlament respublikalarında dövlət başçısı, bir qayda olaraq, parlament və ya parlament üzvləri ilə yanaşı federasiya subyektlərinin və ya regional özünüidarə orqanlarının nümayəndəliklərinin daxil olduğu xüsusi təşkil olunmuş daha geniş kollegiya tərəfindən seçilir. Məsələn, İtaliyada Prezident hər iki palatanın üzvlərinin birgə iclasında seçilir, buna baxmayaraq, hər bir vilayətin şuraları tərəfindən seçilmiş üç nümayəndə bu seçkilərdə iştirak edir. *Almaniya Federativ Respublikasında* Prezident – *Bundestaqın* üzvlərindən və eyni sayda landtaqların (əyalətlərin parlamentləri) seçdiyi nümayəndələrdən ibarət olan Federal məclis tərəfindən seçilir.

Parlament respublikalarında ölkə başçısı təkcə parlamentdə deyil, həm də ümumi seçkidə seçilə bilər. Məsələn, *Avstriyada* Prezident əhali tərəfindən 6 illik müddətə seçilir. Dövlət idarəçiliyinin bu formada mövcudluğu şəraitində Prezident əsasən yalnız ona ayrılmış konkret vəzifələrin icrası ilə məşğul olur. Buna baxmayaraq, bu cür idarəetmə formasında dövlət başçısı kifayət qədər geniş səlahiyyətlərə malikdir. O, qanunları və dekretləri dərc edir, parlamenti buraxmaq hüququna malikdir, formal olaraq hökumətin başçısını *(seçkilərdə qalib gələn partiyanın başçısı)* təyin edir, silahlı qüvvələrin ali baş komandanı sayılır, məhkumları əfv etmək hüququna sahibdir.

Parlament respublikalarında formal olaraq, Prezident dövlət başçısı olsa da, icraedici hakimiyyətin, daha doğrusu, hökumətin başçısı sayılmır. Baş nazir formal olaraq, Prezident tərəfindən təyin edilir, lakin bu şəxs yalnız parlament çoxluğuna sahib olan fraksiyanın rəhbəri ola bilər. Qeyd etmək lazımdır ki, hökumət yalnız parlamentin etimadına malik olduqda dövlətin idarə edilməsinə səlahiyyətlidir.

# ALMANİYA





***Ümumi məlumat:*** Orta və yeni əsrlər tarixinə aid edilən dövr ərzində Almaniya parçalanmış feodal dövləti olmuşdur. 1701-ci ildə ən iri alman dövlətlərindən biri olan *Prussiya* Krallığa çevrilmişdir. 1871-ci ildə ölkənin birləşməsi başa çatmış və *Almaniya İmperiyasının* yaradıldığı elan edilmişdir.

1918-ci ilin noyabrında ölkədə baş vermiş inqilab nəticəsində monarxiya devrilmiş və 1919-cu ildə demokratik *Veymar Konstitusiyası* qəbul edilmişdir.

1919-1933 illər ərzində *Almaniyada Veymar Respublikası*, 1933-1945 illərdə isə *Milli Sosialist diktatura* mövcud olmuşdur.

1949-cu ildə *ABŞ-ın, İngiltərənin* və *Fransanın* işğal zonasında *Almaniya Federativ Respublikasının, Sovet* işğal zonasında isə *Almaniya Demokratik Respublikasının* yaradılması elan edilmişdir.

1990-cı ildə *Almaniyanın* birləşməsi baş vermişdir.

*Avropanın* mərkəzi hissəsində yerləşən *Almaniya Federativ Respublikasının* paytaxtı *Berlin* şəhəridir.

Ölkənin ərazisi 357,021 km$^2$, əhalisi *(2010)* 81,799,600 nəfərdir *(əhali sıxlığı 229,00 nəfər/km$^2$)*.

*Almaniyanın* rəsmi dövlət dili *alman* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.905 - çox yüksəkdir *(9-cu yer)*.

***Dövlət quruluşu:*** Almaniya parlament formasında idarəetmə üsuluna malik federativ respublikadır. 1949-cu ildə

müttəfiq qüvvələrin hərbi və Almaniyanın regional rəhbərləri hakimiyyətin bölünməsi və azadlığın müdafiəsi sayəsində sabit parlament formasında idarəetmə üsulu qurmaq məqsədini özündə ehtiva edən *AFR Konstitusiyasının* layihəsini hazırladılar. Əsas qanun adlandırılan bu sənəd *Böyük Britaniyanın, Amerika Birləşmiş Ştatlarının* və digər qonşu Avropa ölkələrinin Konstitusiya modellərinin xüsusiyyətlərini özündə birləşdirirdi.

1990-cı ilin oktyabr ayında düzəlişlər edilmiş 1949-cu il Konstitusiyasında - hakimiyyətin üç qolunun qarşılıqlı asılılıq və qarşılıqlı məhdudiyyət prinsipinə əsaslanan möhkəm parlament demokratiyasının yaradılması əsas məqam sayılır.

***İnzibati bölgüsü:*** Hakimiyyətin hədsiz dərəcədə mərkəzləşməsinin qarşısını almaq üçün əvvəlcə 10 ölkənin birləşməsindən (1990-cı il), sonra isə 439 rayonun daxil olduğu 16 əyalət *(Baden-Vürtemberq, Bavariya, Berlin, Barandenburq, Bremen, Hamburq, Hessen, Maklenburq-Ön Pomeraniya, Aşağı Saksoniya, Şimali Reyn-Vestfaliya, Reynland-Pfalts, Saarland, Saksoniya, Saksoniya-Anhalt, Şlezviq-Holşteyn və Türingiya)* bölgüsünə əsaslanan federal idarəetmə sistemi təsis edildi.

Hər bir əyalət özünün konstitusiyasına, nazir-qubernatorun rəhbərlik etdiyi hökumətin seçildiyi birpalatalı qanunverici orqanına *(seçkili)* malikdir. İstisna olaraq, Bavariyada qanunverici hakimiyyət iki palata ilə təmsil olunur. Əyalətlər təhsilə, hüquq qaydalarının mühafizəsinə, yerli özünüidarəyə, mədəniyyətə, ətraf mühitin mühafizəsinə dair məsələlərin həll edilməsində səlahiyyətlidirlər və özlərinin dövlət xidmətləri vasitəsilə həyata keçirilən federal qanunların icrasına məsuliyyət daşıyırlar.

***Dövlət başçısı:*** *Almaniya Federativ Respublikasının başçısı Federal Prezidentdir.* O, xüsusi çağırılmış Federal Məclis tərəfindən sadə səs çoxluğu ilə 5 il müddətinə seçilir və yalnız

bir dəfə yenidən seçilə bilər. Federal Məclis Bundestaqın sədri tərəfindən çağırılır. Məclis Bundestaqın deputatlarından və eyni sayda landtaqların *(əyalətlərin parlamentləri)* seçdiyi nümayəndələrdən ibarətdir. Federal Prezident ölkəni beynəlxalq hüquqi münasibətlərdə təmsil edir. O, Federasiyanın adından xarici dövlətlərlə müqavilələr imzalayır, səfirləri qəbul və akkreditə edir. Federal Prezident Federal hakimləri və zabitləri təyin etmək və istefaya göndərmək hüququna malikdir. Prezidentin fəaliyyət qabiliyyəti olmadıqda və ya vəfat etdikdə onun səlahiyyətlərini *Bundesratın* sədri icra edir.

23 mart 2012-ci ildən etibarən ölkənin sayca 11-ci federal Prezidenti *Yoaxim Qaukdur.*

**Qanunverici hakimiyyət** *Bundestaq* və *Bundesratdan* ibarət ikipalatalı Parlament tərəfindən həyata keçirilir.

*Bundestaq* - xalq tərəfindən 4 il müddətinə seçilir. Deputatların yarısı birbaşa səsvermə ilə seçki dairələrində majoritar sistem *(birinci səs),* digər hissəsi isə ayrı-ayrı əyalətlərdə irəli sürülən partiya siyahıları əsasında proporsional sistem *(ikinci səs)* üzrə seçilir. Seçici səslərinin ən azı 5%-ni və ya heç olmazsa "birinci səs"in verilməsi ilə üç yer qazanmış siyasi partiyalar siyahılar üzrə yer əldə etmək hüququna malik olur. Bundestaqın istisna hallarda buraxılması Federal Prezidentin səlahiyyətinə aiddir. Bundestaqın əsas vəzifələri qanunvericilik, Federal Kanslerin seçilməsi və Federal hökumətin işinə nəzarətdir.

*Bundesrat* - əyalət hökumətlərinin 4 il müddətinə təyin etdiyi deputatlardan *(əhalinin sayından asılı olaraq 3-6 üzv)* ibarətdir. Bu səbəbdən də Bundesrat heç vaxt buraxılmır, yalnız əyalət hökumətləri formalaşdıqda və ya buraxıldıqda onun tərkibi dəyişir.

Federal məclisin iki palatası arasında Bundestaq daha üstün mövqe tutur. Məhz Bundestaqın tərkibindəki hakim koalisiyanın sıralarından Prezidentin təklifi ilə *Federal kansler (Baş nazir)* səs çoxluğu ilə seçilir.

Bundestaqın və Bundesratın fəaliyyəti tərkibinə bütün partiyaların nümayəndələrinin daxil olduğu *funksional komitələrin* geniş sistemi hesabına həyata keçirilir. Bundestaq qanun yaradıcılığı prosesində üstün mövqe tutur. Lakin qanun layihələrinin yaradılmasında hüququnun daha az olmasına baxmayaraq, Bundesrat veto qoymaq hüququnu saxlayır. Bundestaqda qəbul edilmiş qanunların 60%-nin aid olduğu yəni əyalətlərin vəzifələrinə dair məsələlərlə bağlı bütün qanunvericilik Bundesratda təsdiq edilməlidir. Üstəlik, konstitusiyaya edilən düzəlişlər *(1949-cu ildən bu günə qədər 30-dan artıq)* Bundesratda deputatların üçdə ikisi və Bundestaqda üzvlərin əksəriyyəti tərəfindən təqdir edilməlidir. Digər hallarda Bundesrata - Bundestaqın dərc etdiyi qanunlara düzəlişlər təklif etməyə, habelə mübahisəli məsələləri baxılması üçün hər iki palatanın üzvlərindən ibarət saziş komitəsinə göndərməyə icazə verilir.

***Siyasi Partiyalar:*** Almaniyada fəaliyyət göstərən və Parlamentdə təmsil olunan əsas partiyalar aşağıdakılardır:

*Xristian-Demokratik İttifaqı - XDİ.* 1945-ci ildən fəaliyyət göstərir. Vahid partiyaya 1950-ci ildə çevrilib. XDİ-nın birinci ümumalman qurultayı 1-2 oktyabr 1990-cı ildə Hamburq şəhərində keçirilib. Sədri *Anqela Merkel,* mətbu orqanı *"Zonde"* jurnalıdır. 2009-cu ildə keçirilmiş son parlament seçkilərində Bundestaqda 194 yer qazanmışdır.

*Xristian-Sosialist İttifaqı - XSİ.* 1945-ci ildə yaranıb. Bavariyada fəaliyyət göstərir. Bundestaqda XDİ ilə vahid fraksiya təşkil edir. Lakin təşkilati məsələlərdə müstəqildir. 1983-cü ilin noyabrında XSİ-dan bir sıra üzvlər çıxdılar və müstəqil partiya yaratdılar *(Respublika Partiyası).* Sədri *Xorst Zeexofer,* mətbu orqanı *"Bayernkurir"* qəzetidir. Son parlament seçkiləri nəticəsində Bundestaqda 45 yerə sahibdir.

*Sosial Demokratlar Partiyası - ASDP.* 1946-cı ildə AFR-də siyasi partiya kimi yaranmışdır. 26-28 sentyabr 1990-cı ildə ADR-in ərazisində fəaliyyət göstərən Almaniyanın Sosial-

Demokrat partiyası ilə birləşdirici qurultay keçirilmiş və ASDP birliyinin bərpası haqqında manifest qəbul olunmuşdur. Sosialist Beynəlmiləlinə daxildir. Sədri – *Ziqmar Qabriel*, mətbu orqanı "Noye qezelşaft" jurnalıdır. 2009-cu ildə keçirilmiş son parlament seçkilərində Bundestaqda 146 yerə sahib olmuşdur.

*Azad Demokratlar Partiyası - ADP.* 1990-cı ilin 11-12 avqustunda Hannover şəhərində AFR və ADR liberallarının birləşdirici qurultayında yaranmışdır. Almaniya Azad Demokrat Partiyası *(1948-ci ilin dekabrında yaranıb),* Almaniya Milli Demokratik Partiyası *(1948-ci ildə keçmiş ADR ərazisində yaranmışdır),* Almaniya Liberal Demokratik Partiyası *(5 iyul 1945-ci ildə keçmiş ADR ərazisində yaranmışdır),* "Azad Demokratlar Birliyi və "Forum" alman partiyası ADP-yə daxildirlər. Sədri *Filip Reslerdir.* Hal-hazırda Bundestaqda 93 deputatla təmsil olunur.

*"Sol Partiya* - 16 iyun 2007-ci ildə təsis qurultayında sol təmayüllü üç partiyanın birləşməsi nəticəsində yaradılmışdır. Demokratik sosializm müstəvisində fəaliyyət göstərən *Sol Partiya* Şərqi Almaniyada daha çox dəstəyə malikdir. Həmsədrləri *Qezine Letç* və *Klaus Ernstdir.* 2009-cu ildə keçirilmiş son parlament seçkilərində Bundestaqda 76 yerə sahib olmuşdur.

*"İttifaq 90/Yaşıllar" Partiyası* - 14-16 may 1993-cü ildə Leypsiq şəhərində keçirilən iki siyasi təşkilatın - Şərqi alman "İttifaqı - 90" təşkilatının və 1979-cu ildə yaradılmış "Yaşıllar" federal partiyasının birləşdirici qurultayında təsis edilmişdir. Həmsədrləri *Cem Özdemir* və *Klaudiya Rotdur*. Bundestaqın hazırkı tərkibində 68 mandata sahibdir.

***İcraedici hakimiyyət*** Federal Kanslerin başçılıq etdiyi Federal Hökumət tərəfindən həyata keçirilir. Nazirlər Federal Kanslerin təklifi ilə Prezident tərəfindən təyin edilirlər. Almaniyanın hazırkı Federal kansleri 2005-ci ildə seçilmiş *Anqela Merkeldir (XDİ və XSİ).*

Xeyli səlahiyyətlərə malik olan Kanslerin fəaliyyətinə tərkibində 400 nəfərin olduğu şəxsi dəftərxanası köməklik göstərir. Ümumilikdə, Bundestaqın deputatlarının çoxluq təşkil etdikləri Almaniya nazirlər kabinetinə Qərbi Avropanın bir çox digər ölkələrinin hakimiyyətində olan universal nazirlərdən fərqli olaraq, hakimiyyətdə uzun müddət qərarlaşan və departamentlərinin məsələləri üzrə ixtisaslaşan texnokratlar daxildirlər.

***Məhkəmə hakimiyyəti:*** Almaniya Federativ Respublikasının *Ali məhkəmə orqanı Federal Konstitusiya Məhkəməsidir.* Məhkəmənin hakimlərinin yarısı Bundestaq, digər yarısı Bundesrat tərəfindən seçilir. Hakimlər 12 il müddətinə qədər vəzifələrini icra edirlər. Məhkəmə vətəndaş azadlıqlarının qarantı kimi çıxış edir və federal və əyalət hökumətləri arasında müxtəlif məsələlərlə bağlı mübahisələrin həllinə xidmət edir. Oxşar konstitusiya məhkəmələri regional səviyyədə də fəaliyyət göstərir.

# FİNLANDİYA





***Ümumi məlumat:*** Eramızın I minilliyində *Finlandiyanın* indiki ərazisində, öz dövlətçiliyini yaratmağa müvəffəq ola bilməyən fin tayfaları məskunlaşmışlar. XII-XIII əsrlərdə *İsveçin* işğalına məruz qalmış *Finlandiya*, 1581-ci ildə *Böyük Hersoqluq* elan edilmiş, 1809-cu ildə isə muxtar statusda *Rusiya İmperiyasının* tərkibinə daxil olmuşdur.

*Finlandiya* 1917-ci ildə dövlət müstəqilliyini elan etmişdir *(1919-cu ildən etibarən respublikadır)*.

*Avropanın* şimal hissəsində yerləşən *Finlandiya Respublikasının* paytaxtı *Helsinki* şəhəridir.

Ölkənin ərazisi 338,424 km², əhalisi *(2012)* 5,421,827 nəfərdir *(əhali sıxlığı 16 nəfər/km²)*.

*Finlandiyanın* rəsmi dövlət dili *fin və isveç* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.882 - çox yüksəkdir *(22-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1917) 6 dekabrda qeyd olunur. Ölkə Konstitusiyası 1 mart 2000-ci ildən qüvvədədir.

1919-cu ildə qəbul edilmiş birinci konstitusiyanı əhəmiyyətli dərəcədə müasirləşdirən və təkmilləşdirən 2000-ci il konstitusiyası - Finlandiya Respublikasının dövlət quruluşunu müəyyən edən əsas sənəd sayılır.

***İnzibati bölgüsü:*** *İnzibati* cəhətdən Finlandiya 01 yanvar 2010-cu il tarixindən etibarən 342 kommunanı birləşdirən 72

rayondan ibarət 20 vilayətə *(Laplandiya, Poxoys-Poxyanmaa, Kaynuu, Poxoys-Karyala, Şimali Savo, Etelya Savo, Etelya-Poxyanmaa, Poxyanmaa, Pirkanmaa, Satakunta, Keski-Poxyanmaa, Mərkəzi Finlyandiya, Qədim Finlyandiya, Etelya-Karyala, Pyayat-Xyame, Kanta-Xyame, Uusimaa, Kyumenlaakso və Aland adaları)* bölünür.

İsveç əhalisinin çoxluq təşkil etdiyi *Axvenenmaa (Aland adaları)* vilayəti geniş muxtariyyətə malikdir. *Aland Adalarının* öz Parlamenti və bayrağı var, ölkə Parlamentində isə bir deputatla təmsil edilir. Ən aşağı inzibati-ərazi vahidi icma-bələdiyyə xidmətlərinə cavabdehdir və öz vergilərini yığır. İcmalar üzvlərinin proporsional nümayəndəlik prinsipi üzrə 4 illik müddətə seçilən şuralar tərəfindən idarə olunur.

***Dövlət başçısı:*** Ali icraedici hakimiyyət birbaşa ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaqla, altı illik müddətə seçilən *Prezidentə (1988-ci ilə kimi seçicilər kollegiyası tərəfindən seçilirdi)* məxsusdur.

Prezident geniş səlahiyyətlərə malikdir: *Baş naziri* və *Hökumət* üzvlərini təyin və vəzifədən azad edir; bundan əlavə, qanunları təsdiq edir və veto hüququna malikdir. Prezident ölkənin silahlı qüvvələrinin baş komandanıdır və onun xarici siyasətinə rəhbərlik edir, parlamentin razılığı ilə hərb və sülh məsələlərini həll edir. Prezident – hökuməti formalaşdırmaq üçün qalib gəlmiş partiya və ya koalisiyanı təmsil edən *şəxsi* təyin edir.

01 mart 2012-ci ildən etibarən Finlandiya Respublikasının Prezidenti *Niynistye Saulidir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, *Eduskuntanın (Parlament)* tərkibi - proporsional nümayəndəlik əsasında ümumi seçkilər yolu ilə 4 illik müddətə seçilən 200 deputatdan ibarətdir. Bütün qanunvericilik hakimiyyətini təmərküzləşdirən Parlament qanun layihələrinin hazırlanması və qəbul edilməsi, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, dövlət vəzifələ-

rinə təyinatları, müqavilələrin və digər beynəlxalq sazişlərin ratifikasiyası hüququna malikdir.

Parlamentin hazırkı sədri 23 iyun 2011-ci ildən *Sosial-Demokratik Partiyanın* təmsilçisi *Eero Heynyaluomadır.*

17 aprel 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Eduskuntada* yer almış ölkənin əsas siyasi partiyaları:

*Milli Koalisiya Partiyası - 44 yer;* Mühafizəkar Milli Koalisiya Partiyası (MKP) iqtisadiyyat üzərində dövlət nəzarətinə qarşı çıxır, bununla belə sosial proqramların genişləndirilməsini müdafiə edir.

*SDP Partiyası – 42;* Fin Sosial-Demokrat Partiyası sənayedə çalışan fəhlələrin və qulluqçuların dəstəyinə arxalanır. Fin sosial-demokratları Avropanın digər sosialist partiyaları kimi, öz ilkin məqsədlərindən, yəni sənaye kompleksinin dövlətin mülkiyyətinə verilməsindən mahiyyətcə imtina etmələrinə baxmayaraq, iqtisadiyyatın planlaşdırılmasını və sosial təminat sisteminin təkmilləşdirilməsini davamlı olaraq müdafiə edirlər.

*"Əsl finlər" Partiyası - 39,*

*Fin Mərkəz Partiyası – 35; (1965-ci ilə kimi – Aqrar ittifaq, 1988-ci ilə kimi – Mərkəz partiyası adlanırdı)* 1947-ci ildən etibarən demək olar ki, hər koalisiyaya daxil olurdu. Fin Mərkəz Partiyası fermerlərin mənafelərini təmsil etsə də, daha çox şəhər əhalisindən dəstək alır.

*Solçu İttifaq Partiyası – 14;* Keçmişdə sovetyönlü sol partiyaların koalisiyası olan və 1990-cı ilə kimi Fin Kommunist Partiyasının təsiri altında fəaliyyət göstərən Fin Xalq Demokratik İttifaqı həmin ildə digər sol qruplaşmalarla Fin Solçu İttifaqında birləşdilər.

*Yaşıllar İttifaqı Partiyası - 10;* 1970-ci illərin sonunda meydana gələn və ətraf mühitin mühafizəsi uğrunda çıxış edən - Fin "Yaşıllar" İttifaqı (FYİ) - 1983-cü ildən başlayaraq parla-

mentdə daim təmsil olunur. Avropa səviyyəsində ilk dəfə məhz Finlandiyada "yaşıllar" hərəkatı belə bir uğur qazandı.

*İsveç Xalq Partiyası – 9;* İsveç Xalq Partiyası (İXP) isveç dilli əhalinin mənafelərini özündə əks etdirir. 1959-cu ildə Fin Kəndli Partiyasından ayrılan Fin Aqrar Partiyası - kiçik fermerlərin müxalifətçi hərəkatını əks etdirməklə 1960-cı illərin sonunda əhəmiyyətli təsirə malik idi.

*Xristian-Demokratlar Partiyası - 6.*

Finlandiyanın partiya sistemi üçün: partiyaları əhalinin iqtisadi və sosial strukturları ilə və iri ideoloji cərəyanlarla sıx əlaqədə olan mühafizəkarlardan – liberallardan – sosialistlərdən ibarət üç üzvlü bölgü səciyyəvidir. Bundan əlavə, fin sosial modeli - şəhər və kənd mənafelərinin bölgüsünə əsaslanan daha bir qütbü özündə ehtiva edir.

Çoxpartiyalı ölkə sayılan və hakim mövqeyə malik partiyanın olmadığı Finlandiyada hökumətin formalaşmasında koalisiyalar böyük əhəmiyyət daşıyır. 1987-ci ildən etibarən Finlandiyada - koalisiyalar istisna hal kimi mühafizəkarlarla sosial-demokratların ittifaqından qurulur.

***İcraedici hakimiyyət:*** *Dövlət Şurasını (Valtioneuvosto)* Prezident təyin edir və Parlament təsdiqləyir. Hökumət başçısı Parlamentdə üstünlük təşkil edən partiyadan seçilir.

Baş nazirin başçılığı ilə 16 üzvdən ibarət Dövlət Şurası (Nazirlər Kabineti) icraedici hakimiyyətin "pay sahibidir". Hökumət prinsipial məsələlər üzrə qərarlar qəbul edərkən parlament çoxluğunun dəstəyinə malik olmalıdır. Partiyalardan heç biri çoxluğa sahib olmadıqda, hökumət koalision əsaslarla formalaşır.

Hökumət başçısı sayılan *Baş nazir* 22 iyun 2011-ci il tarixindən *Kokoomus (Milli Koalisiya)* partiyasından olan *Yurki Tapani Kataynendir.*

***Məhkəmə hakimiyyəti:*** *Finlandiyanın hüquq sistemində* ilkin mühakimə üsulu dairə *(kənd yerləri üçün)* və bələdiyyə

*(şəhərlər üçün)* məhkəmələri şəbəkəsinə əsaslanır. Dairə məhkəmələri 5-7 andlı iclasçıdan, habelə iclası idarə edən və müstəsna hal kimi bəzən andlıların yekdil rəyinə zidd olaraq hökm çıxarmaq hüququna malik – hakimdən ibarətdir. Bələdiyyə məhkəmələrinin iclaslarına - iki və ya daha çox hakim köməkçiləri ilə - *burqomistr (mer)* başçılıq edir.

İşlərin apelyasiya instansiyasında baxılması üçün Finlandiyanın müxtəlif rayonlarında bir neçə hakimdən ibarət *(üç nəfər kvorum təşkil edir)* 6 apelyasiya məhkəməsi fəaliyyət göstərir.

*Ali Məhkəmə* ölkənin paytaxtı *Helsinkidə* yerləşir. Bir sıra hallarda ilkin mühakimə üsulunu həyata keçirən *Ali Məhkəmə* adətən - əfv məsələləri ilə bağlı xahişləri nəzərdən keçirir, apelyasiyaları dinləyir və bu və ya digər qanunların Konstitusiyaya uyğunluğu ilə əlaqədar məsələləri həll edir.

Məhkəmələr – məhkəmə qərarlarına müdaxilə etməyən Ədliyyə Nazirliyinin tabeliyindədir. Ölkədə həm məhkəmə hakimiyyətinin, həm də Daxili İşlər Nazirliyinin ixtiyarında olan polisin fəaliyyətinə nəzarət Parlament tərəfindən həyata keçirilir.

# İSRAİL





***Ümumi məlumat:*** Eramızdan əvvəl XI-X əsrlərdə qədim yəhudi dövlətləri olan *İsrail və İvrit Krallığı* təşəkkül tapmışdır. Fələstin torpaqlarının e.ə. I əsrdə *romalılar* tərəfindən fəth edildiyi dövrə qədər bu ərazidə, fasilələrlə qədim yəhudi dövlətçiliyi mövcud olmuşdur.

VI əsrdə *ərəblərin*, XI yüzillikdə *səlibçilərin*, XIII əsrdə *misirlilərin*, XVI əsrdə isə *osmanlı türklərinin* işğalına məruz qalmış indiki *İsrail* ərazisinə XIX əsrin sonlarından etibarən yəhudilərin emiqrasiyası başlanmışdır. 1914-1918-ci illərdə *Fələstin* torpaqları *Millətlər Liqasından* mandat almış ingilislərin idarəçiliyinə verilmişdir.

1948-ci ildə *İsrail* dövlətinin yaradılması elan edilmişdir.

*Qərbi Asiyada, Aralıq dənizinin* sahilində yerləşən *İsrail Respublikasının* paytaxtı *Tel-Əviv* şəhəridir.

Ölkənin ərazisi 20,770 $km^2$, əhalisi *(2012)* 7,968,300 nəfərdir *(əhali sıxlığı 359 nəfər/*$km^2$*)*.

*İsrailin* rəsmi dövlət dili *ivrit və ərəb* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.888 - çox yüksəkdir *(17-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1948) 14 mayda qeyd olunur. Ölkədə rəsmi Konstitusiya mövcud deyil.

***İnzibati bölgüsü:*** 50 dairədən ibarət olan 6 rayona *(Mərkəz, Hayfa, Qüds, Şimal, Cənub, Tel-Əviv)* bölünür.

*(qeyd: İsrail 1950-ci ildə Qüdsü özünün paytaxtı elan etmişdir, lakin ABŞ və başqa ölkələrin səfirlikləri Tel-Əvivdə yerləşir).*

***Dövlət başçısı:*** *Knesset* tərəfindən 7 illik müddətə seçilən Prezidentdir. 15 iyul 2007-ci ildən ölkənin Prezidenti *Şimon Peresdir.*

***Qanunverici hakimiyyət:*** Ölkədə ali hakimiyyət ümumxalq səsverməsi yolu ilə proporsional sistem üzrə 4 il müddətinə *(bu müddət ərzində Parlament buraxıla bilər)* seçilən bir palatalı Parlamentə - *Knessetə (120 yer, son seçkilər 22 yanvar 2013-cü ildə keçirilmişdir)* məxsusdur.

2013-cü ilin fevral ayından etibarən *Parlamentin (Knesset)* sədri *Binyamin Ben-Eliezerdir (Əmək Partiyası).*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* ümumi seçkilərdə 4 illik müddətə seçilən Baş nazir tərəfindən formalaşır və Knesset tərəfindən təsdiq olunur. Hökumət Başçısı 01 aprel 2009-cu ildən etibarən *Benyamin Netanyahudur.*

***Ölkənin əsas siyasi partiyaları:***

*Likud partiyası*

Avoda (Əmək partiyası)

*Kadima Partiyası*

***Məhkəmə hakimiyyəti:*** *Yerusəlimdə* yerləşən *Ali Məhkəmə* İsrailin ən yüksək məhkəməsi sayılır və onun yurisdiksiyası dövlətin bütün ərazisinə yayılır.

İsrail qanunvericilik, icra və məhkəmə hakimiyyətinə söykənən parlament formalı demokratik ölkədir. Onun institutları Knesset (Parlament), *Hökumət (Nazirlər Kabineti)* və ədliyyə sistemindən ibarətdir. Dövlətə *Prezident* başçılıq edir. İsrailin siyasi quruluşu hakimiyyətin qollarının bölünməsi, qarşılıqlı nəzarəti və tarazlığı prinsipinə əsaslanır. Hökumət Knessetə tabedir, məhkəmənin müstəqilliyi qanunla təmin edilir.

Ölkədə rəsmi *Konstitusiya* mövcud deyil, *"Dövlətin Yaranması haqqında Deklarasiya" (1948-ci il),* Parlamentin əsas qanunları və İsrail vətəndaş hüququ adlı sənədlərlə idarəçilik

funksiyaları müəyyən edilir. Qanun sisteminə gəldikdə, ölkədə ümumi Britaniya qanunları və Britaniya Mandatının qarışığından, habelə xüsusi işlərdə yəhudi, xristian və müsəlman qanunlarından istifadə olunur.

***Prezident*** dövlət başçısı olaraq millətin birliyini təmsil edir və dövlət maraqlarını partiya maraqlarından uca tutur. Prezident, irəli sürülən namizədlər sırasından, onların şəxsi keyfiyyətləri və dövlət qarşısında xidmətləri əsasında, Knessetin sadə səs çoxluğu ilə yeddi illiyə seçilir; o, öz vəzifəsini iki müddətdən çox tuta bilməz. Prezidentin vəzifələri əsasən formal və rəsmi qanunla müəyyən edilib. Onların sırasına yeni tərkibli *Knessetin* birinci sessiyasının açılışı; xarici səfirlərin etimadnamələrinin qəbul edilməsi; Knessetin qəbul etdiyi müqavilə və qanunların imzalanması; münasib təşkilatların tövsiyəsi ilə hakimlərin, Dövlət Bankının direktorunun və xaricdə İsrail diplomatik missiyaları başçılarının təyin edilməsi; ədliyyə nazirinin zəmanəti ilə məhkum olunmuş şəxslərin əfv edilməsi və habelə saxlanma müddətinin qısaldılması daxildir.

Bundan başqa Prezident ictimai funksiyaları və qeyri-formal vəzifələri də icra edir: vətəndaşların müraciətnamələrini qəbul edir; bir sıra ictimai təşkilatların fəxri üzvü olur və cəmiyyətin güzəranını yaxşılaşdırmağa yönəldilən tədbirləri dəstəkləyir.

***Knesset*** *(bir palatalı İsrail parlamenti, 120 yer)* dövlətin qanunvericilik orqanıdır. Onun adı Böyük Məclis – "Knesset xa – Qdola"dan iqtibas edilmişdir.

Yeni tərkibli Knesset onun tərkibini müəyyənləşdirən ümumi seçkilərdən sonra işə başlayır. İlk iclasda deputatlar prosedur qaydalarına uyğun olaraq Knesset sədrini və onun müavinlərini seçirlər.

Ölkədə ali qanunverici hakimiyyət orqanı ümumxalq səsverməsi yolu ilə proporsional sistem üzrə 4 il müddətinə seçilir, lakin bu müddət tamam olmadan da öz-özünün buraxılmasını elan edə və *Baş nazir* tərəfindən buraxıla bilər. Seç-

kilərin keçirilməsinə və yeni Knessetin təşkil edilməsinə qədər bütün səlahiyyətlər əvvəlki *Knesset* tərkibinin əlində qalır.

*Parlament* öz funksiyalarını ümumi iclaslarda və 14 daimi fəaliyyət göstərən komissiyalarda icra edir. Qanun layihələrinin qanuna çevrilməsi üçün o, Knesset tərəfindən üç oxunuşda qəbul edilməlidir. Üçüncü oxunuşda əksəriyyət "səs" verdikdən və sədrlik edən onu imzaladıqdan sonra qanun layihəsi rəsmi olaraq dövlət mətbuat orqanında dövlət Prezidenti, Baş nazir, Knesset sədri və həmin qanunun icrasına cavabdeh olan nazirin imzası ilə dərc edilir. Son nəticədə Ədliyyə naziri sənədi dövlət möhürü ilə nişanlayır və qanun layihəsi qanuni qüvvəyə minir.

*İcra hakimiyyəti* daxili və xarici işlərin, o cümlədən müdafiə məsələlərinin həlli üçün səlahiyyətlər həvalə edilmiş hökumətə mənsubdur. Hökumətin funksiyaları olduqca genişdir: o, başqa bir inzibati quruma qanunla həvalə edilməmiş hər bir məsələyə müdaxilə etmək hüququna malikdir. Hökumət öz işini və qərar qəbuletmə qaydasını özü müəyyənləşdirir. Adətən iclaslar həftədə bir dəfə keçirilsə də, zəruri hallarda əlavə iclaslar da keçirilir. İndiyədək bütün hökumətlər bir neçə partiyanı təmsil edən nümayəndələrdən ibarət olurdu, çünki heç bir partiya hökuməti təkbaşına formalaşdırmaq üçün *Knessetdə* kifayət qədər mandat ala bilmirdi. Hökuməti formalaşdırmaq üçün yeni seçilən *Baş nazir* seçkilərin nəticələri dərc olunandan sonra 45 gün müddətində nazirlərin siyahısını və əsas məsələlər üzrə hökumət fəaliyyətinin proqramını Knessetin təsdiqinə təqdim etməlidir.

***Baş nazir*** *vəzifəsinə* namizədlər cari çağırış Knessetdə ən azı on yer tutan partiyalar və ya 50 min seçici tərəfindən irəli sürülə bilərlər. Seçici səslərinin yarıdan çoxunu almış namizəd *Baş nazir* olur. Namizədlərdən heç biri səslərin yarısından artıq ala bilmədikdə iki həftədən sonra seçkilərin ikinci turu keçirilir; bu mərhələdə ən çox səs toplamış iki namizəd iştirak edir. İkinci turda iştirak edən namizədlərdən hər hansı biri öz

namizədliyini geri götürdüyü təqdirdə, onun yerini topladığı səslər üzrə ardınca gələn namizəd tutur.

Nazirlər öz vəzifələrinin icrasına görə *Baş nazir* qarşısında cavabdehdirlər və fəaliyyəti üzrə parlamentə hesabat verməlidirlər. Nazirlərin ən azı yarısı *Knessetin* üzvü olmalı, eyni zamanda hamısı Parlamentə seçilmək hüququna malik olmalıdır. *Hökumətin* səlahiyyət müddəti dörd ildir; *Baş nazirin* istefası və ya vəfatı səbəbindən, habelə *Knessetin* etimadsızlıq qərarı çıxardığı halda bu müddət azaldıla bilər.

*Knessetə* seçkilər *Baş nazirin* seçilməsi ilə eyni zamanda keçirilir. Bütün ölkə vahid seçki dairəsi sayılır; səsvermə prosedurası gizli keçir; seçicilər iki bülletendə Baş nazir vəzifəsinə namizədlərdən birinə və hər hansı siyasi partiyaya səs verməklə - öz mövqelərini ifadə edirlər.

*Parlamentə* seçkilər konkret şəxsiyyətə deyil, bu və ya digər siyasi partiyaya səsvermədir və *Knessetdə* təmsil olunmaq istəyən partiyaların çoxsaylılığı əqidə və məramların geniş spektrindən xəbər verir.

Seçkilər ərəfəsində hər partiya öz platformasını və Knessetə namizədlərinin siyahısını dərc etdirir; bu siyahı daxili partiya seçkilərində və digər daxili tədbirlərdə müəyyənləşdirilir.

*Knessetdə* təmsil edilən partiyalar avtomatik şəkildə yenidən seçilməyə namizəd olaraq saxlanılırlar, qalan partiyalar, səsvermə hüququ olan vətəndaşlardan ən azı 2500 imza topladıqda və beh verdikdə seçkilərdə səs qoya bilərlər. Partiyalar minimal səs sayından artıq, lakin əlavə yer almaq üçün yetərli olmayan səs topladıqda, bu səslər qalan partiyalar arasında onların təmsilçiliyinə, yaxud seçkiqabağı razılaşmalara mütənasib olaraq bölüşdürülür.

Ölkədə fəaliyyət göstərən və *Knessetdə* 22 yanvar 2013-cü ildə keçirilmiş seçkilərin nəticələrinə əsasən təmsil olunan *əsas partiyalar* aşağıdakılardır:

*Likud Partiyası - (Knessetdə 31 deputatla təmsil olunur, lideri Benyamin Netanyahudur),*

*Yeş Atid (Gələcək Var) Partiyası - (19 yer, lideri Yair Lapid),*

*Avoda (Əmək) partiyası - (15 yer, sədri Şeli Yaximoviç),*

*Yəhudi Evi partiyası - (12 yer, lideri Naftali Bennet),*

*ŞAS partiyası - (11 yer, sədri Eliyaqu İşay),*

*Yaxadut xa-Tora partiyası - (7 yer, lideri Yaakov Litsman),*

*Kadima Partiyası - (2 yer, lideri Şaul Mofaz, yaradıcısı Şimon Peresdir) və s.*

İki başlıca partiya – sosial-demokratik *Avoda (Əmək partiyası)* və milli-liberal *Likud partiyası* öz kökləri və ənənələri ilə İsrail dövlətinin yaranmasından əvvəlki dövrə bağlıdırlar; onlar 1965-ci ildən etibarən indiki şəklə düşməyə başlamışlar. Daha solçu və sağçı partiyalara nisbətən son zamanlar populist və praqmatik mövqedən çıxış edən *Avoda* və *Likud* heç bir zaman *Knessetdə* həlledici üstünlük qazana bilməmişdir. Onilliklər boyu bu iki partiya birlikdə mandatların təxminən 2/3 hissəsini əldə etmiş, qalanları isə daha kiçik, şərti olaraq bir neçə dəstəyə bölünə biləcək partiyalara *(milli-dini, dini ultra mühafizəkar, mərkəzçilər, solçular, millətçilər, repatriantlar partiyası və ərəb partiyaları)* qismət olmuşdur.

2005-ci ildə *Ariel Şaron* və onun yaxın tərəfdarları ilə *"Likud" Partiyasının* rəhbərliyi arasında prinsipial fikir ayrılığı yarandı. İxtilafa əsas səbəb – İsrail ordusunun Qəzza bölgəsindən çıxarılması və 1967-ci ildən sonra orada mövcud olan yəhudi yaşayış məntəqələrinin dağıdılması idi. Bu səbəbdən də *Ariel Şaron "Likud"dan* ayrılaraq 24 noyabr 2005-ci il tarixində *Kadima (İrəli) Partiyasını* təsis etdi.

2009-2013-cü illərdə Knessetdə 31 mandata sahib olan və hakim partiya qismində fəaliyyət göstərən *Kadimanın* üzvləri əvvəlki *Kabinetin* əsasını təşkil etsələr də, son Parlament seçkilərində bu partiya cəmi 2 səs toplaya bilmişdir.

# İTALİYA








***Ümumi məlumat:*** Çox qədim tarixə malik olan *İtaliya* bəşər sivilizasiyasının mərkəzlərindən biri sayılır. Eramızdan əvvəl VIII əsrdə təşəkkül tapmış *Roma şəhəri* eramızın əvvəllərində nəhəng quldarlıq imperiyasının mərkəzinə çevrilmişdir. 395-ci ildə *Roma İmperiyası Qərb və Şərq (Bizans)* olmaqla iki hissəyə bölünmüşdür.

Orta və yeni əsrlər dövrü ərzində *İtaliya* feodal dövlətlərin, xarici ölkələrə məxsus torpaqların və müstəqil şəhər respublikaların konqlameratı sayılırdı.

1861-cı ildə vahid *İtaliya Krallığı* yaradılmış, 1929-cu ildə *Roma* şəhərinin ərazisində *Vatikan* dini dövlətinin yaradılması ilə bağlı katolik kilsəsinin rəhbəri ilə razılaşma əldə edilmiş, 1922-1943-cü illərdə ölkədə *Mussolini* faşist rejimi qurulmuş, 1947-ci ildə isə *İtaliya* respublika elan edilmişdir.

*Avropanın* cənub hissəsində yerləşən *İtaliya Respublikasının* paytaxtı *Roma* şəhəridir.

Ölkənin ərazisi 301,338 km², əhalisi *(2011)* 60,813,326 nəfərdir *(əhali sıxlığı 201,8 nəfər/km²)*.

*İtaliyanın* rəsmi dövlət dili *italyan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.874 - çox yüksəkdir *(24-cü yer)*.

***Dövlət quruluşu:*** İtaliya prezident idarəetmə üsuluna malik parlament respublikasıdır. İtaliyanın dövlət quruluşu 22 dekabr 1947-ci ildə qəbul edilmiş və 01 yanvar 1948-ci ildən qüvvədə olan konstitusiya ilə müəyyən edilir. Konstitusiya bu

günə qədər demək olar ki, düzəlişlər olmadan qüvvədədir və dünyanın ən demokratik əsas qanunlarından biri sayılır. Əsas demokratik prinsiplərlə yanaşı müharibə və faşizm əleyhinə o dövrün əhval-ruhiyyəsi duyulan İtaliya Konstitusiyası geniş sahədə hüquq və azadlıqları təsbit etmiş, xalq hakimiyyətini elan etmiş, antifaşizmi rəsmi dövlət siyasəti kimi bəyan etmişdir.

İtaliyada idarəetmə forması olaraq dövlətin tərkibində geniş əraziyə malik muxtar vilayətlər üçün klassik modelə yaxın unitar formalı dövlət quruluşu seçilmişdir.

İtaliya dövlət hakimiyyəti mərkəzi orqanlarının sistemi - hakimiyyətlərin bölünməsi prinsipi əsasında qurulur: *qanunvericilik hakimiyyəti* ikipalatalı parlamentə həvalə edilmişdir, *icraedici hakimiyyət* Prezidenti və Hökuməti *Nazirlər Şurasına* daxil edən ikili struktura malikdir. Əsas qanunun normalarına uyğun olaraq dövlət sisteminin fəaliyyətini təmin edən *Konstitusiya Məhkəməsi* mərkəzi orqanlar sisteminin tərkib hissəsi sayılır.

***İnzibatı bölgüsü:*** 8092 Kommunanı özündə birləşdirən 110 əyalətdən ibarət 20 vilayətə *(Valle-d-Aosta, Lombardiya, Trentino-Alto Adice, Friuli-Venesiya Culiya, Pyemont, Liquriya, Veneto, Toskana, Umbriya, Emiliya-Romanya, Marke, Abrusso, Lasio, Molize, Bazilikata, Kampaniya, Kalabriya, Apulya, Sardiniya və Siciliya)* bölünür.

Onlardan etnik azlıqların kompakt şəkildə yaşadığı 5 vilayət *(Valle-d-Aosta, Trentino-Alto Adice, Friuli-Venesiya Culiya, Sardiniya və Siciliya)* xüsusi muxtar statusa malikdir.

***Dövlət başçısı:*** İtaliyanın milli birliyini ifadə edən *konstitusiyalı dövlət başçısı - Prezident* hesab olunur. Prezident və onun 58 əyalət nümayəndəsi parlamentin hər iki palatasından ibarət seçki kollegiyası tərəfindən 7 il müddətinə seçilir. Prezident kollektiv surətdə Parlament qarşısında məsuliyyət daşıyan Baş naziri və Nazirlər Şurası adlandırılan Kabineti təyin edir,

qanunları təsdiq edir, parlamenti buraxmaq və yeni seçkilər təyin etmək hüququna malikdir. Lakin, Prezident seçkilərinə 6 ay qaldıqda Parlament buraxıla bilməz.

Dövlət başçısı Konstitusiya ilə nəzərdə tutulan hallarda xalq referendumunu, qanunla nəzərdə tutulan hallarda isə dövlətin vəzifəli şəxslərini təyin edir. Silahlı qüvvələrin ali baş komandanı olan Prezident qanuna əsasən, yaradılan Ali müdafiə Şurasında sədrlik edir və palataların qərarı ilə müharibə elan edir.

Məhkəmə hakimiyyətinə münasibətdə onun səlahiyyətləri Ali Magistratura Şurasında sədrlikdən, habelə əfv və cəzaların yüngülləşdirməsindən ibarətdir.

İtaliyanın hazırkı, sayca 11-ci Prezidenti 15 may 2006-cı ildən etibarən *Corcio Napolitanodur.*

***Qanunvericilik hakimiyyəti:*** 1948-ci il Konstitusiyasına görə *ali qanunverici orqan:* 315 nəfərin daxil olduğu *Senatdan (Yuxarı palata)* və 630 deputatın daxil olduğu *Deputatlar Palatasından (Aşağı palata)* ibarət ikipalatalı parlamentdir.

*Senata* ümumxalq səsverməsi yolu ilə seçilən və regionları təmsil edən 315 üzvdən 232 nəfəri birbaşa, 83-ü regional proporsional təmsilçilik əsasında 5 il müddətinə seçilir. Ölkənin eks-prezidentlərinin də daxil olduğu az sayda ömürlük senatorlarla birlikdə, *Yuxarı palatanın* üzvlüyünə Prezident elm, ədəbiyyat, incəsənət sahələrində böyük nailiyyətləri ilə ölkəni şöhrətləndirmiş 5 fəxri vətəndaşı da təyin edə bilər.

*Deputatlar Palatasının* 630 üzvündən 617-si çoxmandatlı 26 dairədən, 1 deputatı birmandatlı *Valle De-Osta* dairəsindən, 12 deputatı isə xaricdə yaşayan italyanlar arasında təşkil edilən 4 dairədən proporsional sistem üzrə seçilir. 475-i birbaşa, 155 üzvü isə regional proporsional təmsilçilik əsasında 5 il müddətinə seçilir.

Senator seçkilərində iştirak etmək üçün yaş senzi 25-dən, deputat seçkilərində iştirakda isə 18 yaşdan aşağı olmamalıdır.

Böyük səlahiyyətlərə malik palatalar dövlət büdcəsinin və beynəlxalq müqavilələrin təsdiq edilməsi, zaymlar və kreditlərin verilməsi və s. məsələləri həll edirlər.

Konstitusiyaya əsasən Prezidentin andının qəbul edilməsi, Parlament üzvlərindən hər hansı birinin parlament toxunulmazlığından məhrum olunması, müharibə elan edilməsi, Prezidentin, Nazirlər Şurası sədrinin və nazirlərin məhkəməyə verilməsi ilə bağlı hər iki palatanın birgə iclasları keçirilir.

Qanunvericilik təşəbbüsü parlamentarilərə, Hökumətə, vilayət şuralarına, Milli İqtisadi və Əmək Şurasına, habelə 50 mindən çox seçiciləri olan xalq təşəbbüsü qruplarına məxsusdur. Eyni zamanda qanun yaradıcılığı subyektinin səlahiyyətlərindən asılı olaraq qanunvericilik təşəbbüsünün sərt iyerarxiyası mövcuddur. Belə ki, vilayətlərin layihələri yalnız onların həyatına aid ola bilər, vilayətlərdə seçicilər hökumətin ehtiyatda saxladığı layihələri irəli sürə bilməzlər və s.

Qeyd olunmalıdır ki, Hökumət Parlamentin palataları qarşısında kollektiv məsuliyyət daşıyır və tərkibini müəyyən edərkən hər iki palatanın etimadını qazanmalıdır.

24-25 fevral 2013-cü il tarixlərində İtaliyada keçirilmiş son parlament seçkiləri nəticəsində *Pyer Luici Bersaninin* rəhbərlik etdiyi *İtaliya Demokratik Partiyası qalib gəlmiş, Silvio Berluskoninin lideri olduğu Azadlıq Xalqı Partiyası isə ikinci yerlə kifayətlənməli olmuşdur.*

***İcra hakimiyyəti:*** *Nazirlər Şurası* sədrinin və nazirlərin daxil olduğu *İtaliya Hökuməti* icraedici hakimiyyətin daha aktiv orqanıdır. Hökumətin təyinatı ümumilikdə parlament palatalarından, onların siyasi qüvvələrlə qarşılıqlı münasibətlərindən asılıdır.

Hökumət hər iki palata qarşısında həmrəy olaraq məsuliyyətlidir. Sədr ümumi siyasətə, nazirlər isə kollektiv surətdə nazirlər Şurasının və fərdi olaraq öz müəssisələrinin fəaliyyətinə məsuliyyət daşıyırlar.

Hökumət ölkəni mahiyyət etibarı ilə parlament çoxluğunun iradəsinə uyğun idarə edir: qanunları icra edir, idarəetmə üzrə reqlamentlər, dekretlər və müxtəlif növ qərarlar qəbul edir. Konstitusiya ilə Prezidentə verilmiş səlahiyyətlər faktiki olaraq hökumət tərəfindən həyata keçirilir. Praktikada isə İtaliya hökuməti digər ölkələrlə müqayisədə Parlament palatalarının iradəsindən daha çox asılıdır.

*İtaliya Demokratik Partiyasının təmsilçisi Enriko Letta 28 aprel 2013-cü ildən etibarən ölkənin Baş naziridir.*

***Siyasi partiyalar:*** İtaliyanın *partiya sisteminin* ən mühüm əlamətlərindən biri çoxpartiyalılıqdır. Partiya arenasında həqiqi partiyalardan başqa siyasi proseslərdə digər iştirakçılar: fəhlə həmkarlar ittifaqları, sahibkar təşkilatları, kənd təsərrüfatı və digər ittifaqlar çıxış edirlər. Ölkənin mərkəzində yerləşən Vatikanda mənzil qərargaha malik katolik kilsəsi də ənənəvi olaraq güclü mövqeyə malikdir.

İtaliyanın siyasi partiyaları əsasən iki əsas koalisiyada: *Pyer Luici Bersaninin* rəhbəri *olduğu "Demokratik Partiya"nın (Sol-mərkəzçi Birlik)* və *Silvio Berluskoninin* liderlik etdiyi sağ-mərkəzçi *"Azadlıq Xalqı"* partiyalarının koalisiyalarında birləşərək fəaliyyət göstərirlər.

Son illərdə İtaliya hökumətinin formalaşdırılmasında iştirak edən əsas siyasi partiyalar aşağıdakılardır:

*1. Demokratik Partiya* - sol qüvvələrin demokratik partiyası, 28 oktyabr 2007-ci ildə solmərkəzçi cəbhədə baş vermiş islahatlar nəticəsində Milanda təsis edilmişdir – sosial demokratların ənənəvi ideallarına tərəfdar çıxan və köməklik edən

mötədil sol təmayüllü partiyadır. İDP 24-25 fevral 2013-cü ildə keçirilmiş son parlament seçkilərində qalib gələrək *Senatda* 121, *Deputatlar Palatasında* isə 345 deputat yeri qazanmışdır *(sədri Pyer Luici Bersanidir)*.

*2. Azadlıq Xalqı* - sağmərkəzçi təmayüllü partiya, 18 noyabr 2007-ci ildə yaradılsa da, rəsmən 27-29 mart 2009-cu ildə - *Forsa İtaliya (*bazar iqtisadiyyatı prinsiplərini müdafiə edən və sağ mərkəzçi siyasi qüvvələrin birliyinə çalışan burjua partiyası*)* və *Milli Alyansın (*əvvəllər İtaliya sosialist hərəkatının bir hissəsi olan neofaşist partiyası*)* birləşməsi ilə təsis edilmişdir. 13-14 aprel 2008-ci ildən 2011-ci ilədək olan dövr ərzində *"Şimal Liqası"* və onun cənubdakı analoqu olan *"Muxtariyyət Naminə Hərəkat"* partiyaları ilə koalisiyada İtaliya hökumətini formalaşdırmış *"Azadlıq Xalqı"* Partiyası, Avropa Xalq Partiyasının (EPP) tərkibinə daxildir. *"Azadlıq Xalqı"* koalisiyası 24-25 fevral 2013-cü ildə keçirilmiş son parlament seçkiləri nəticəsində *Senatda* 117, *Deputatlar Palatasında* isə 125 mandat əldə etmişdir *(sədri Silvio Berluskonidir).*

*3. "Beş Ulduz Hərəkatı" Partiyası* – ilkin olaraq Milli Azadlıq Hərəkatı kimi tanınan bu siyasi partiya 04 oktyabr 2009-cu ildə təsis edilmişdir. Beş Ulduz Hərəkatı Partiyasının məramnaməsinin ana xəttini birbaşa demokratiyanın müdafiəsi və korrupsiyaya qarşı amansız təşkil edir. 24-25 fevral 2013-cü ildə keçirilmiş son parlament seçkilərində qalib gələrək *Senatda* 54, *Deputatlar Palatasında* isə 109 deputat yeri qazanmışdır *(lideri Beppe Qrillodur)*.

*4. "Vətəndaş Seçimi" Partiyası* – 2013-cü il parlament seçkilərində *Mario Montini* və onun islahatlaırını dəstəkləmək üçün yaradılmış və mərkəzçi mövqedən çıxış edən yeni siyasi partiyadır. Yaradıcısı və lideri keçmiş Baş nazir *Mario Monti*

olan bu partiya son parlament seçkiləri nəticəsində *Senatda* 19, *Aşağı Palatada* 47 yerə sahib olmuşdur.

5. *"Padaniya Naminə Şimal Liqası"* – İtaliyanın şimal əyalətlərinə müstəqillik verilməsi və paytaxtı Milan olmaqla müstəqil Padaniya dövlətinin yaradılması ideyaları ilə çıxış edən siyasi partiya. Partiyanın yaradıcısı və lideri Umberto Bossidir. Son parlament seçkilərinə "Azadlıq Xalqı" koalisiyasının tərkibində qatılan bu partiya hər iki palatada 18 yerə sahib olmuşdur.

İtaliya həmkarlar ittifaqları hərəkatlarının fərqli xüsusiyyəti ondadır ki, daha nüfuzlu və iri milli həmkarlar ittifaqı birlikləri aparıcı siyasi partiyalarla əlaqəlidirlər:

- *Ümumitalyan Əmək Konfederasiyası - İtaliya Kommunistləri (SQDP) – 4.5 milyon üzv;*
- *İtaliya Fəhlə Həmkarlar İttifaqları Konfederasiyası – XDP - 3.5 milyon üzv;*
- *İtaliya əmək ittifaqı – İSDP – 1.5 milyon üzv.*

***Məhkəmə hakimiyyəti:*** 1947-ci ildə İtaliya Konstitusiyası ilə təsis edilmiş və 1956-cı ildən fəaliyyətdə olan *Konstitusiya məhkəməsi* 9 il müddətinə seçilən 15 hakimi özündə birləşdirir.

Parlamentin palatalarının birgə iclaslarında, həmçinin Prezident və ali magistratura tərəfindən təyin edilən hakimlər palatalara bölünmədən vahid kollegiya şəklində fəaliyyət göstərirlər. Məhkəmənin ən yüksək səlahiyyəti konstitusiya qanunlarına və aktlarına, qüvvədə olan qanunlara nəzarətdir.

# HİNDİSTAN








***Ümumi məlumat:*** Çox qədim dövlətçilik tarixinə və zəngin mədəniyyətə malik olan *Hindistanın* indiki ərazisində ilk dövlətlərin meydana gəlməsi eramızdan əvvəl I minilliyə təsadüf edir.

Əsrlər boyu bir sıra nəhəng və xırda dövlətlərin mövcud olduğu *Hindistan* torpaqlarının XVI əsrdən etibarən tədricən müstəmləkələşdirilməsi baş verir.

XVIII əsrdən XIX əsrin birinci yarısınadək olan dövr ərzində bütün *Hindistan* ərazisi işğal nəticəsində *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmişdir.

1947-ci ildə dominion statusuna malik olan *Hindistan* müstəqillik əldə etmiş, 1050-ci ildə isə respublika elan edilmişdir.

*Asiyanın* cənub hissəsində yerləşən *Hindistan Respublikasının* paytaxtı *Nyu Dehli* şəhəridir.

Ölkənin ərazisi 3,287,263 km², əhalisi *(2011)* 1, 210, 193, 422 nəfərdir *(əhali sıxlığı 371,8 nəfər/km²)*.

*Hindistanın* rəsmi dövlət dili *hind və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.547 - ortadır *(134-cü yer)*.

***Dövlət quruluşu:*** 1950-ci ilin yanvar ayında tərtib edilmiş, 397 maddədən və 9 kitabçadan ibarət olan, *Amerika* və *Britaniya* idarəetmə sistemlərinin elementlərini özündə ehtiva edərək dünyanın ən uzun konstitusiyasına malik *Hindistan* - parlament üsul-idarəsinə malik *federativ respublikadır.*

***İnzibati bölgüsü:*** *Hindistanın* tərkibinə - *Baş nazirin* məsləhəti əsasında federal Prezidentin 5 illik müddətə təyin etdiyi

qubernatorların idarə etdiyi və hər birinin qanunvericilik orqanı *(Assambleya)* və Hökuməti *(Kabinet)* olan 25 muxtar ştat *(Andxra-Pradeş, Arunaçap-Pradeş, Assam, Bixar, Qoa, Qucarat, Cammu və Kəşmir, Qərbi Benqaliya, Karnataka, Tamilnad, Pəncab, Tripura, Uttar-Pradeş, Mizoram, Manipur və s.)* və 7 ittifaq ərazisi daxildir.

Hindistanda mövcud olan *Andaman və Nikobar adaları, Çandiqarx, Dadra və Naqarxaveli, Daman və Diu, Lakşadvip və Puttuççeri (Pondişeri)* adlanan ittifaq əraziləri və *Dehli* paytaxt ərazisinın hər biri federal Prezidentin təyin etdiyi qubernator və ya administrator tərəfindən idarə edilir. *Dehli və Pondişeri* də seçkili qanunverici orqanlara və ya şuralara malikdir.

***Dövlət başçısı:*** *Prezident* - ştatların qanunverici məclislərinin üzvləri ilə Parlamentin hər iki palatasının seçici üzvlərindən ibarət seçki kollegiyası tərəfindən 5 illik müddətə seçilir. Prezident ştatların qanunverici məclislərini buraxmaq, ştatların hökumətlərini ləğv etmək və onların yerinə Prezident üsul-idarəsi tətbiq etmək (ştatların idarəsi qubernatorların ixtiyarına keçir) səlahiyyətlərinə malikdir. Prezident ölkədə olmadığı və ya vəfat etdiyi halda, Parlamentin hər iki palatasının üzvləri tərəfindən 5 il müddətinə seçilən vitse-prezident onun səlahiyyətlərini icra edir. Vitse-prezident eyni zamanda, ştatlar şurasının sədridir. Ölkədə icraedici hakimiyyət prezident və vitse-prezident tərəfindən həyata keçirilir.

Ölkənin hazırkı, sayca 13-cü *Prezidenti* 25 iyul 2012-ci ildən etibarən *Pranab Mukercidirdir.*

Hindistanın vitse-prezidenti 7 avqust 2007-ci ildən *Məhəmməd Həmid Ənsaridir.*

***Qanunverici hakimiyyət:*** Ştatlar Şurası "Raja Sabxa"dan və Xalq Palatası "Lok Sabxa"dan ibarət olan ikipalatalı Parlament tərəfindən həyata keçirilir. Ştatlar Şurası ən çoxu 250 nəfərdən ibarətdir və bunlardan 12-si Prezident tərəfindən təyin

olunur. Qalan üzvlər isə ştatların qanunverici orqanlarının seçici üzvləri tərəfindən 6 illiyə proporsional sistem üzrə seçilir. Üzvlərin 1/3 hissəsi 2 ildən bir yenidən seçilir.

Qanun layihələri hər iki palatada təqdir edildikdən və Prezidentin formal razılığı alındıqdan sonra qüvvəyə minir. Konstitusiyaya təklif edilən düzəlişlər - hər bir palatanın üzvlərinin 2/3 hissəsinin və bütün üzvlərin sadə səs çoxluğunun razılığı ilə həyata keçirilir və *Prezidentin* icazəsi ilə müşayiət olunur.

Lakin, mərkəzlə ştatlar arasında səlahiyyətlərin bölgüsünə, ştatların Parlamentdəki nümayəndəliklərinə, Ali Məhkəmənin və yüksək məhkəmələrin fəaliyyətinə dair düzəlişlərin qanuni qüvvəyə minməsi üçün ştatların qanunverici orqanlarının, heç olmazsa yarısının ratifikasiyası tələb olunur. 1950-ci ildən bu günə qədər 80-dən çox düzəlişlər qəbul edilmişdir.

Hər bir ştat 5 illik müddətə seçilən və üzvlərinin sayı 32 - 425 arasında dəyişən Qanunvericilik orqanına və ya *Vidxan Sabxaya* malikdir. Beş daha böyük: *Bixar, Cammu və Kəşmir, Karnataka, Maxaraştra və Uttar-Pradeş* ştatları Qanunvericilik şurası və ya *Vidxan Parişad* adlandırılan Qanunvericilik palatası tərəfindən həyata keçirilir. Xalq palatası ən çoxu 545 üzvdən ibarətdir. Deputatlar xalq tərəfindən ümumi və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Hər ştatın öz qanunverici məclisi və hökuməti vardır. İttifaq bölgələri mərkəzi hökumət tərəfindən idarə olunur.

***İcraedici hakimiyyət:*** *Hindistanda* icra hakimiyyəti, həm Prezident, həm də Parlament çoxluğunu qazanmış *Federal Hökumət* tərəfindən həyata keçirilir.

Nazirlərin İcraedici Şurasına - qarşısında məsuliyyət daşıdığı Qanunvericilik orqanından olan hökumət başçısı rəhbərlik edir. Belə ki, bu orqanın dəstəyi olmadan *Baş nazir* vəzifəsinə seçilmək mümkün deyil. Ştatlar təhsil, səhiyyə, polis və yerli hakimiyyət orqanları üzərində ilkin nəzarəti həyata keçirir, iqtisadi sahədə isə mərkəzin göstərişlərinə uyğun fəaliyyət gös-

tərirlər. Böhran zamanı mərkəzi hökumət və ya Prezident hökumətin idarə edilməsini müvəqqəti olaraq öz əlinə götürə bilər.

Federal hökumət Konstitusiyanın 97 maddəsinin tərkibinə aid olan vətəndaşlıq, müdafiə, xarici ticarət və xarici işlər sahələrində təkbaşına məsuliyyət daşıyır və iqtisadi məsələlərdə həlledici rol oynayır. Bütün bunlar – federal hökumətin inhisarına daxil olan gəlir, korporativ, gömrük və aksiz vergiləri, ştatların bel bağladıqları torpaq və satış vergiləri, habelə federal qrantlar Hindistana hind federal sistemini ABŞ federal modelinə yaxınlaşdırmasına kömək etdi.

22 may 2004-cü ildən etibarən *Hindistanın* hazırkı, sayca 14-cü *Baş naziri Manmohan Sinqhdir.*

***Siyasi partiyalar:*** Hazırda Hindistanda iki əsas və bir sıra nüfuzlu *partiyalar* mövcuddur. Yüz ildən artıq tarixi ərzində dəfələrlə parçalanmalara məruz qalmış *Hindistan Milli Konqresi* partiyasını dəqiqlik üçün bəzən *HMK(İ) - Hindistan milli konqresi (İndira Qandi)* adlandırırlar. Bu solmərkəzçi hakim partiya ölkəni, qısa fasilələrlə uzun müddətdir ki (1947-1977, 1980-1990, 1991-1996 və 2004-cü ildən) idarə edir. 2009-cu ilin aprel-may aylarında keçirilmiş son parlament seçkilərində *Ştatlar Şurası "Raja Sabxa"da* 71, *Xalq Palatası "Lok Sabxa"da* 206 mandat qazanaraq qalib gəlmişdir

Müasir Konqres – siyasətdə mötədil solmərkəzçi yanaşmaya və xarici işlərə qarışmamaq siyasətinə riayət edən bütün kasta və dinlərin azad koalisiyasıdır. Bu koalisiya aparıcı hind sənaye konqlomeratları tərəfindən maliyyələşdirilir. Konqresi ənənəvi olaraq onun aparıcı liderlərinin çoxluğunun mənsub olduğu Hindistanın şimali və mərkəzi vilayətlərinin və ona qonşu olan qərbi Hindistanın daxil olduğu “hind qurşağı” dəstəkləyir. Milyonlarla insanların daxil olduğu bu iri partiya 20 üzvdən ibarət Konqresin işi üzrə Komitə tərəfindən idarə edilir.

Sağ milliyyətçi partiya sayılan və ideologiyasında hind dəyərlərinə xüsusi önəm verilən *Hindistan Xalq Partiyası (Bxaratiya Canata Parti) Atal Bixarı Vicapi və Lal Krişna Advani* tərəfindən 1980-ci ildə yaradılmışdır. 1996 və 1998-2004-cü illər ərzində hakim partiya olmuş *HXP* bu müddətdə ölkəni idarə etmişdir. Son Parlament seçkilərində *Yuxarı Palatada* 50, *Xalq Palatasında* isə 114 yer əldə edərək ikinci olmuşdur.

Milli səviyyədə mühüm rol oynayan digər partiyalar da mövcuddur ki, onlar bir qayda olaraq yalnız 2-3 ştatda güclü mövqelərə malikdirlər: 1964-cü ildə yaradılmış və 100 minlərlə ölkə əhalisinin üzvü olduğu Hindistan Kommunist Partiyası (marksist) öz siyasi orientasiyasını torpağı olmayan adi kənd fəhlələrinə istiqamətləndirir. Hazırkı parlamentdə *Ştatlar Şurasında 11, "Lok Sabxa"da 16* üzvlə təmsil olunur.

Dörd əhəmiyyətli mərkəzçi və solmərkəzçi: Canata (1977), Lok Dal-B (1984), Sosialist Konqresi (1984) və Can Morça (Xalq cəbhəsi, 1987) partiyalarının birləşməsi nəticəsində 1988-ci ilin oktyabr ayında formalaşmış Canata Dal (Xalq) Partiyası İndira Qandi Konqresinə müxalifət olaraq yaradılmışdır. Lakin yaradıcısı və lideri Can Morçi Sinqx olan bu partiya 1990-cı ildə hakimiyyətə gəldikdən sonra parçalandı. Bunun ardınca bir sıra ayrılmalar baş verdi ki, onlar da ilk əvvəl Çandra Şekxaranın başçılığı altında 1991-ci ildə yaradılmış, daha sonra isə Malayama Sinqx Yadavın rəhbərliyi ilə fəaliyyət göstərmiş Canata Samacvati Partiyasına (SP; Sosialist partiyası) və Lalu Prasada Yadavın başçılığı ilə 1997-ci ildə təsis edilmiş Raştriia Canata Dal (RCD) partiyasına aid idi. Milli təşkilatlarla yanaşı ölkədə bir çox federal yönlü partiyalar da mövcuddur.

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyətini ən yüksək məhkəmə instansiyası sayılan, sədri və üzvləri *(Ali Məhkəmənin sədrinin təqdimatı əsasında)* Prezident tərəfindən təyin olunan *Ali Məhkəmə* həyata keçirir.

# TÜRKİYƏ





***Ümumi məlumat:*** Müasir *Türkiyənin* yerləşdiyi və bir çox sivilizasiyaların mərkəzi olmuş *Anadolu* yarımadasına türklərin gəlişi XI əsrə təsadüf etmişdir. 1071-ci ildə *Bizansı* məğlub etmiş və türk dövlətinin əsasını qoymuş səlcuqluların XIII əsrin sonlarında zəifləməsi nəticəsində 1326-cı ildə yeni siyasi idarəçilik forması - *Osmanlı* qurulmuşdur.

1453-cü ildə *Konstantinopolun* tutulması ilə şəhərin adı dəyişdirilmiş və paytaxt *İstanbul* elan edilmişdir. Dünya tarixində *Osmanlı İmperiyası* ən uzunömürlü (624 il) və ən qüdrətli imperiyalardan biri hesab olunur.

XIX əsrin sonlarında zəif idarəçilik, imperiya daxilində separatçılığın güclənməsi və Avropa ərazisində *Osmanlının* vaxtaşırı məğlubiyyəti, o cümlədən *Birinci Dünya Müharibəsindəki* uğursuzluq, üç qitədə torpaqları olmuş İmperiyanı hədsiz zəiflətdi.

Müharibədən sonrakı dövrdə Avropa dövlətlərinin öz aralarında imzaladıqları müqavilələrin faktiki məqsədi *Osmanlı Türkiyəsinin* bölüşdürülməsi idi. *İzmir* şəhəri *Yunanıstanın* payına düşmüşdü və 15 may 1919-cu ildə yunanlar *İzmirə* daxil oldular.

1919-1923-cü illərdə *Mustafa Kamal Paşanın (Atatürk)* rəhbərliyi ilə həyata keçirilən İstiqlal mübarizəsi nəticəsində *Türkiyə* öz müstəqilliyini bərpa etdi, rejim dəyişikliyi reallaşdırılaraq monarxiya cümhuriyyətlə əvəzləndi.

Ərazisinin böyük bir hissəsi *Asiyanın* cənub-qərb və bir hissəsi *Avropanın* cənub hissəsində yerləşən *Türkiyə Respublikasının* paytaxtı *Ankara* şəhəridir.

Ölkənin ərazisi 783,562 km², əhalisi *(2012)* 74,724,269 nəfərdir *(əhali sıxlığı 97 nəfər/km²)*.

*Türkiyənin* rəsmi dövlət dili *türk* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.699 – yüksəkdir *(92-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan Cümhuriyyət Günü (1923) 29 oktyabrda qeyd olunur. Ölkə Konstitusiyası 1982-ci ildən (1987, 2007, 2010-cu illərdə düzəlişlər edilməklə) qüvvədədir.

***İnzibati bölgüsü:*** 957 ilçeni (rayon) birləşdirən 81 ildən *(vilayət)* ibarətdir. Qeyri-rəsmi olaraq 7 bölgəyə *(Ege, Qara dəniz, Mərkəzi Anadolu, Şərqi Anadolu, Marmara, Aralıq dənizi və Cənub-Şərqi Anadolu)* bölünür.

***Dövlət başçısı:*** Ölkə Konstitusiyasına edilmiş 21 oktyabr 2007-ci il tarixli düzəlişə əsasən Prezident xalq tərəfindən 5 il müddətinə iki dəfədən çox olmamaqla seçilir. Prezidentin fəaliyyət qabiliyyəti olmadıqda və ya vəfat etdikdə onun səlahiyyətlərini TBMM-nin sədri icra edir. 28 avqust 2007-ci ildə *Abdulla Gül* Türkiyə Prezidenti seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Qanunvericilik hakimiyyəti birpalatalı Parlament tərəfindən həyata keçirilir. *Türkiyə Böyük Millət Məclisi* gizli səsvermə yolu ilə 550 deputat tərkibi ilə 4 il müddətinə seçilir. Deputatlar partiya siyahıları üzrə proporsional sistem ilə seçilirlər. Parlamentin sədri 4 iyul 2011-ci ildən *Cəmil Çiçəkdir.*.

***İcraedici hakimiyyət:*** İcraedici hakimiyyət *Baş nazirin* başçılıq etdiyi Nazirlər Kabineti tərəfindən həyata keçirilir. Baş nazir Prezidentin təklifi ilə Parlament tərəfindən 4 turdan ibarət səsvermə yolu ilə seçilir. Nazirlərin siyahısı Baş nazirin

təklifi ilə Parlamentdə müzakirə edilir və təsdiq üçün Prezidentə təqdim olunur. Ölkənin hazırkı Baş naziri 14 mart 2003-cü ildən *Rəcəb Təyyub Ərdoğandır.*

***Məhkəmə hakimiyyəti:*** Konstitusiya məhkəməsi *(hakimlər Prezident tərəfindən təyin olunur),* Apelyasiya Məhkəməsi və Dövlət Hüquq Şurası *(Hakimlər və Prokurorlar Ali Şurası tərəfindən 4 il müddətinə seçilir).*

***Məşvərət orqanı:*** Milli Təhlükəsizlik Şurası. Tərkibi, bir qayda olaraq, ümumi seçkilərdən sonra müəyyən edilir. Son tərkibi 2011-ci ildə, ümumi seçkilərdən sonra təşkil olunmuşdur. Tərkibinə Prezident, Baş nazir, hökumətdə təmsil olunan siyasi partiyaların sədrləri, daxili və xarici işlər nazirləri, təhlükəsizlik təşkilatı və ordu rəhbərliyi daxildir. Şura ölkənin daxili və xarici siyasətinə dair hökumətə tövsiyələr verir.

Demokratik respublika olan Türkiyə Cümhuriyyəti 624 illik Osmanlı dövlətinin tarixi mirası üzərində qurulmuşdur. Türkiyə Cümhuriyyəti Osmanlı dövlətinin I Dünya müharibəsi və digər səbəblərlə süqutundan sonra, 1923-cü ildə Türk Qurtuluş Savaşı ilə Mustafa Kamal Atatürk liderliyində qurulmuşdur. Yeni dövrün tələblərinə və türk millətinin xarakterinə uyğun həyata keçirilən islahatlar Atatürk İnqilabları olaraq Türkiyə Respublikasının əsas prinsipləri kimi qəbul edilir və yaşadılır. Türkiyə Respublikasının paytaxtı Ankara, ən böyük şəhəri İstanbuldur. Türkiyə Birləşmiş Millətlər Təşkilatı, NATO, Avropa Şurası və İslam Konfransı Təşkilatı kimi bir neçə beynəlxalq təşkilatın üzvüdür və 3 oktyabr 2005-ci ildən etibarən Avropa İttifaqına tam üzvlük üçün müzakirələri başlamışdır.

Türkiyədə konstitusional hərəkatlar XIX əsrin ikinci yarısında başlamış və Osmanlı imperatorluğunun son zamanlarında, 1876-cı ildə Qanuni-Əsasi adlı ilk konstitusiyası "Kanuni Esası" qəbul edilmişdir. Qurtuluş savaşı illərində müharibə şəraitinin məcbur etdiyi qaydalar əsasında yazılmış

ikinci Konstitusiya 1921-ci ildə qəbul edilmişdir. Türkiyə Respublika üsul-idarəsinə keçdikdən sonra 3 konstitusiya, 1924-cü, 1961-ci və hal-hazırda qüvvədə olan sonuncu konstitusiya 1982-ci ildə qəbul edilmişdir.

Türkiyə Konstitusiyasına əsasən hakimiyyət qeyd-şərtsiz millətə məxsusdur. Xalq hakimiyyətini vasitəli *(səlahiyyətli orqanların vasitəsi ilə)* və birbaşa *(konstitusiyanın təyin etdiyi prinsiplər əsasında həyata keçirilən seçkilər vasitəsilə)* həyata keçirir. Xalq hakimiyyətini vasitəli şəkildə həyata keçirən orqanlar qanunverici, icraedici və məhkəmə orqanlarıdır. Türkiyə Respublikasının siyasi rejimi müasir demokratik quruluşun tələblərindən olan hakimiyyət bölgüsü prinsipinə əsaslanır.

Konstitusiyaya əsasən Türkiyə dövləti insan hüquqlarını qoruyan, Atatürk milliyyətçiliyinə sadiq, demokratik, dünyəvi, hüquqi və sosial respublika kimi müəyyənləşdirilmişdir. Hüquqi dövlət prinsipi dövlət və ictimai həyat üçün qanunun aliliyi və hüququn üstünlüyünü təmin edir. Hüquqi dövlətin əsas prinsiplərindən biri hakimiyyət bölgüsüdür, yəni qanunverici və icraedici hakimiyyətin səlahiyyətlərinin məhkəmə hakimiyyəti ilə məhdudlaşdırılması və tarazlaşdırılmasıdır. Bu yolla dövlət idarəçiliyində demokratiya təmin edilir.

Dünyəvilik prinsipinə əsasən heç kim dövlətin sosial, iqtisadi və hüquqi əsaslarını qismən belə dini qaydalara əsaslandıra bilməz, siyasi, şəxsi mənfəət və ya nüfuz sahibi olmaq məqsədi ilə hər hansı bir şəkildə dini, dini hiss və düşüncələri və ya dinə əsasən müqəddəs əşyaları sui-istifadə edə bilməz.

Sosial dövlət prinsipi ənənəvi hüquq dövləti prinsipini tamamlayıcı müasir ünsürdür. Bu ünsür cəmiyyət üzvlərinin zəruri maddi ehtiyaclarının ödənilməsi, sosial ədalətin və sosial təminatın həyata keçirilməsi, sosial nizamın təmin edilməsi kimi vəzifələrə sahibdir.

Konstitusiyaya əsasən Türkiyə "unitar dövlət" sistemi içində müxtəlif mədəniyyətlərin birləşməsindən yaranan "tək

xalq" prinsipinə əsaslanmışdır, yəni, tək millət, tam ərazi və bir dövlətdir.

Türkiyə Respublikasının Konstitusiyasında bəzi maddələrin dəyişdirilməsinin təklif edilməsi qadağan olunmuşdur. Bunlar Türkiyə dövlətinin respublika üsul idarəsi olduğuna, dövlətin unitar strukturuna, dövlətin əsaslarına, bayrağın formasına, İstiqlal marşının dövlət himni, dilinin türk dili və paytaxtın Ankara olduğuna aid hökmlərdir. Bu maddələrin xaricində qalan konstitusiya maddələrin dəyişdirilməsi üçün *Türkiyə Böyük Millət Məclisi* üzvlərinin ən az üçdə birinin yazılı təklifi parlamentdə 2 dəfə müzakirə edilməli və beşdə üç çoxluğun gizli səsverməsi ilə qəbul edilməlidir. Prezidentin konstitusiya dəyişikliyi ilə əlaqəli maddələri bir daha müzakirə edilmək üçün Milli Məclisə geri göndərmə və referenduma göndərmə səlahiyyəti vardır.

Hakimiyyət bölgüsü prinsipinə əsaslanan konstitusiyada qanunverici, icraedici və məhkəmə fəaliyyətləri müvafiq dövlət qurumları vasitəsi ilə həyata keçirilir.

Qanunverici fəaliyyət 1923-cü il 23 aprel tarixində yaradılmış *Türkiyə Böyük Millət Məclisi (TBMM)* tərəfindən icra edilir. TBMM-nin qanunvericilik vəzifəsindən başqa icra orqanlarına nəzarət, başqa ölkələrə qarşı müharibə elan etmə və s. kimi funksiyaları da var. TBMM 550 millət vəkilindən ibarətdir və seçkilər beş ildə bir dəfə keçirilir. Ara seçimlərin keçirilməsi iki formatda nəzərdə tutulmuşdur: Türkiyə Böyük Millət Məclisi, zamanı gəlmədən seçkilərin yenilənməsi haqqında qərar verməsi və ya Prezidentin konstitusiyaya əsaslanan səlahiyyətləri daxilində yenidən seçkilərin keçirilməsinə qərar verməsi halında. Müharibə şəraitində Məclis, seçkilərin bir il gecikdirilməsinə qərar verə bilər.

Seçkilər azad, bərabər, birbaşa, gizli, bir pilləli, ümumxalq səsverməsi yolu ilə həyata keçirilir və səslərin hesablanması prosesi məhkəmə orqanlarının ümumi idarəçiliyi və

nəzarəti ilə həyata keçirilir. Seçki nəticələri Ali Seçki Komissiyası adlı seçki qurumu tərəfindən elan olunur. On səkkiz yaşı tamam olmuş hər bir Türk vətəndaşının seçmə, otuz yaşı tamam olmuş və orta məktəb bitirmiş hər Türk vətəndaşının seçilmə hüququ var. Seçkilər konstitusiyada göstərilmiş "təmsildə ədalət və hakimiyyətdə sabitlik" prinsipinə əsaslanır. Millət vəkillərinin parlamentdəki fəaliyyətləri zamanı səsvermə və bəyan etdikləri ifadə və düşüncələrində sərbəstliklərini təmin etmək üçün toxunulmazlıq hüquqları vardır.

TBMM–nin fəaliyyətləri konstitusiya və daxili nizamnaməyə əsasən həyata keçirilir. Fəaliyyətlər müxtəlif sahələrdə ixtisaslaşmış komissiyalarda hazırlanır və məclisə təqdim edilir.

TBMM-nin, konstitusiyada müəyyənləşdirilmiş xüsusi vəzifə və səlahiyyətləri ilə birlikdə qanun qəbul etmə, dəyişdirmə, ləğv etmə; Nazirlər kabinetinə və nazirlərə nəzarət, müəyyən mövzularda Nazirlər Kabinetinə qanun hökmündə qərarnamə (qətnamə) qəbul etmə səlahiyyətinin verilməsi, büdcə layihələrini qəbul etmə və s. kimi vəzifə və səlahiyyətləri vardır. Bundan emissiya, müharibə və ya fövqəladə vəziyyət elan etmə, beynəlxalq müqavilələrin imzalanmasını təsdiq etmə, ümumi və xüsusi əfv qərarının çıxarılması və məhkəmə tərəfindən qəbul edilən ölüm cəzasının icra edilməsi haqqında qərar vermək məclisin səlahiyyətlərinə aiddir.

İcraedici hakimiyyət ***Cumhurbaşkanı (Prezident)*** adlanan dövlət başçısı və Nazirlər Kabineti tərəfindən həyata keçirilir. İdarəetmə qurumları arasında yer tutan və “konstitusional qurumlar” statusu almış ali təhsil müəssisələri, dövlət qurumu olaraq qəbul edilən peşə müəssisələri, Türkiyə Radio Televiziya Qurumu, Atatürk Kültür Dil və Tarix Ali Qurumu və Diyanət İşləri Başqanlığı adlı dini rəhbərlik kimi qurumlar da mövcuddur.

Prezident Konstitusiyanın tətbiqinə, dövlət orqanlarının fəaliyyətinin qanuna uyğun olmasına nəzarət edir. Qanunveri-

cilik, icra və məhkəmə fəaliyyətinə aid vəzifə və səlahiyyətlər daşıyır. Qanunvericiliyə aid vəzifələri; lazım gələrsə TBMM-ni iclasa çağırmaq, qanunları dərc etmək və lazım gələrsə qanunları yenidən müzakirə üçün parlamentə geri göndərmək, Konstitusiyada dəyişiklik etmək üçün referendum təşkil etmək, qanunvericilik aktları tərtib etmək, zərurət olarsa Parlament seçkilərinin yenidən keçirilməsinə qərar vermək və s. Məhkəmə hakimiyyətinə aid vəzifələri isə ali məhkəmələrin üzvlərini təyin etməkdən ibarətdir.

Prezident Baş naziri və onun təklifinə əsasən nazirləri vəzifəyə təyin edir. Xarici ölkələrə Türk Dövlətinin nümayəndələrini (səfir və s.) göndərir, Türkiyə Respublikasına göndərilən xarici ölkə səfirlərinin etimadnamələrini qəbul edir.

Konstitusiyanın Prezidentliyə aid bölməsində iki konstitusion quruma xüsusi yer verilmişdir: Prezidentin aparatının Baş Katibliyi və Dövlət Nəzarət Komitəsi. Dövlət Nəzarət Komitəsinin vəzifəsi icra fəaliyyətinin qanunauyğunluğuna nəzarət etmək, icra hakimiyyətinin fəaliyyətinin sistemli və səmərəli qurulmasını təmin etməkdir. Prezidentin tələbi ilə, bütün dövlət idarə, müəssisə və təşkilatlarının, ictimai birliklərin və Qeyri Hökumət Təşkilatlarının işinə nəzarət edir, inzibati binalarında yoxlamalar aparır. Silahlı Qüvvələr və məhkəmə orqanları üzərində nəzarət Dövlət Nəzarət Komitəsinin səlahiyyətinə aid deyil.

***Nazirlər Kabineti*** *Baş nazir* və digər nazirlərdən ibarət kollektiv orqandır. Baş nazir Prezident tərəfindən və millət vəkillərinin içərisindən təyin olunur. Nazirlər millət vəkilləri və ya millət vəkili seçilə bilmə səlahiyyətinə sahib olan şəxslər arasından Baş nazirin təqdimatı əsasında Prezident tərəfindən təyin olunur. Nazirlərin səlahiyyətlərinə Baş nazirin təklifi əsasında Prezident tərəfindən xitam verilə bilər.

*Nazirlər Kabineti* təşkil edildikdən sonra parlamentin etimadnaməsini almaq üçün müraciət olunur. Etimadnaməni

alan hökumət vəzifələrinin icrasına başlayır. Nazirlər Kabineti ümumi siyasətin icrasına məsuliyyət daşıyır. Nazirliklərin təşkili, ləğvi, səlahiyyətlərinin müəyyənləşdirilməsi qanunlarla tənzimlənir. Hər bir nazirliyin səlahiyyətlərini və təşkilatı quruluşunu müəyyən edən qanunlar vardır.

Ölkə konstitusiyasının *Nazirlər Kabineti* ilə əlaqədar bölməsində milli təhlükəsizlik məsələlərinə də toxunulmuşdur. Bu bölmədə Baş Qərargah İdarəsi, Milli Təhlükəsizlik Şurası və Ali Komandanlığın vəzifə və səlahiyyətləri müəyyənləşdirilmişdir.

***Milli Təhlükəsizlik Şurası*** Prezidentin başçılığında Baş nazir, Baş Qərargah Rəisi, Müdafiə, Daxili İşlər və Xarici İşlər nazirləri, Quru, Dəniz və Hava Qoşunlarının Baş Komandirləri və Hərbi Polis İdarəsinin Baş Komandirindən ibarətdir. Şura milli təhlükəsizlik siyasətinin müəyyənləşdirilməsi və icra olunması ilə əlaqədar qərarlar qəbul edir. Bu qərarlar icra üçün Nazirlər Kabinetinə tövsiyə olunur. Şuranın dövlətin müstəqilliyi, ölkənin bütövlüyü və bölünməzliyi, cəmiyyətin təhlükəsizliyinin təmin edilməsi ilə əlaqədar tədbirləri özündə əks etdirən qərarı Nazirlər Kabineti tərəfindən qərar qəbulu zamanı nəzərə alınır.

Türkiyədə məhkəmə hakimiyyəti müstəqil məhkəmələr və ali məhkəmə orqanları tərəfindən həyata keçirilir. Konstitusiyada məhkəmələrin və hakimlərin statusu hüquqi dövlət prinsiplərinə uyğun müəyyənləşdirilmişdir. Məhkəmə hakimlərinin toxunulmazlığına təminat verilir.

Məhkəmə iclasları *(xüsusi hallar üçün qapalı keçirilməsi nəzərdə tutulmayıbsa)* açıq keçirilir. Cəza verilməsi zamanı qanunçuluq prinsipi, təqsirsizlik prezumpsiyasının olması və s. kimi hallar nəzərə alınır. Hər kəs hakim qarşısında öz hüququnu müdafiə edə bilər.

Konstitusiyada funksional olaraq üç pilləli məhkəmə sistemi müəyyən olunmuşdur. Bu bölgüyə əsasən məhkəmələr

ədalət mühakiməsini həyata keçirən məhkəmələr *(adli yargı),* inzibati məhkəmələr *(idari yargı)* və xüsusi məhkəmələrə ayrılır. Xüsusi məhkəmələrə hərbi məhkəmələr və Dövlət Təhlükəsizlik Məhkəmələri *(DGM)* daxildir.

Konstitusiya Məhkəməsi, Ali Məhkəmə, Ali İnzibati Məhkəmə, Ali Hərbi Məhkəmələr Konstitusiyanın Məhkəmələr bölməsində yer verilən ali məhkəmələrə daxildir.

Paytaxt Ankarada yerləşən ***Konstitusiya Məhkəməsi*** 1962-ci ildə qurulmuşdur. Bu məhkəmənin əsas vəzifəsi insan hüquq və azadlıqlarının qorunması və inkişafı, qanun, qətnamə və TBMM daxili nizamnaməsinin forma və mahiyyət baxımından Konstitusiyaya uyğunluğuna nəzarət etməklə yanaşı konstitusiyada müəyyən edilmiş digər səlahiyyətlərin icrasıdır. Konstitusiya məhkəməsinin qərarları qətidir, bu qərarlar heç bir vəchlə gecikdirilə və ya ləğv edilə bilməz. Bütün dövlət qurum və quruluşları bu qərarlara tabedir.

Dövlətdə qanunvericilik, icra hakimiyyəti və məhkəmənin vəhdəti, hüquq və qanunun birliyi var. Bu birliyi təmin etmək mərkəzi icra orqanlarının səlahiyyəti daxilindədir. Dövlət orqanları mərkəzi və yerli idarəetmə orqanları şəklində təşkil olunmuşdur. Qanunverici orqan və məhkəmə orqanları xaricindəki mərkəzi orqanlar Nazirlər Kabineti və digər funksional nazirliklərdən ibarətdir. Bunlardan başqa nazirliklərə bağlı bir sıra dövlət qurumları da mövcuddur.

Türkiyə Respublikası, mərkəzləşmiş unitar dövlət modelini deyil, qeyri-mərkəzləşmiş unitar dövlət modelini mənimsəməklə yerli idarəetmə orqanlarına geniş səlahiyyətlər vermişdir. Əksər dövlət xidmətləri mərkəzi dövlət orqanları ilə bərabər, fərqli regionlarda yaşayan yerli əhalinin seçdiyi orqanlar tərəfindən göstərilir. Yerli idarəetmə təşkilatları (yerli icra hakimiyyətləri, bələdiyyələr və kənd məclisləri) hüquqi şəxs statusuna, vəzifə və səlahiyyətlərə, ayrıca əmlaka malikdirlər.

Yerli əhəmiyyətli xidmətlərin göstərilməsi haqqında qərar bələdiyyə məclisləri tərəfindən verilir. Yerli özünüidarəetmə orqanları öz işlərini qanun çərçivəsində qurur, fəaliyyətlərinə qanundan kənar hərəkətlərə yol vermirlər. Yerli özünüidarəetmə orqanlarında partiya mənfəətlərinin önə çıxmaması və vətəndaşlar arasında ayrı-seçkiliyin salınıb, bərabərliyin pozulmaması üçün mərkəzi hakimiyyət orqanları yerli orqanlar üzərində "inzibati nəzarət" mexanizmləri həyata keçirir. Bu mexanizm vasitəsi ilə yerli orqanların qərarlarının, fəaliyyətlərinin qanuna uyğun olması təmin edilir. Lakin mərkəzi orqanlar yerli özünüidarəetmə orqanlarının səlahiyyətlərinin icrasına müdaxilə etmir.

Konstitusiyaya əsasən 18 yaşı tamam olan hər bir Türkiyə vətəndaşının siyasi partiya qurmaq, siyasi partiyalara üzv olmaq və üzvlükdən çıxmaq hüququ var. Dövlət qulluqçuları, hakimlər, hərbi qulluqçular partiyalara üzv qəbul edilə bilməzlər.

Siyasi partiyalar şəffaf demokratik sistemin əhəmiyyətli elementləridir. Millət vəkili seçilmə hüququna sahib olan ən az 30 nəfər tərəfindən təsis olunan partiyanın hüquqi şəxs statusuna sahib olması üçün Daxili İşlər Nazirliyinə məlumat verilməsi kifayətdir. Siyasi partiyalar fəaliyyətlərini Konstitusiya və qanunlar çərçivəsində davam etdirirlər. Siyasi partiyalar fəaliyyətlərində demokratik prinsiplərə riayət etmək məcburiyyətindədirlər.

Siyasi partiyaların nizamnamələri, proqramları və fəaliyyətləri dövlətin müstəqilliyinə, insan hüquq və azadlıqlarına, hüquqi dövlət prinsiplərinə, demokratik və dünyəvi dövlət prinsiplərinə zidd ola bilməz. Siyasi partiyaların nizamnamələri və proqramları bu müddəalara ziddiyyət təşkil edərsə partiyanın fəaliyyəti Konstitusiya Məhkəməsi tərəfindən dayandırıla bilər. Ləğv olunan partiya başqa adla yenidən təsis oluna bilməz.

Türkiyədə seçkilər bir pilləlidir. Seçkilər nisbi çoxluq prinsipinə əsaslanaraq, ümumi, bərabər və gizli səsvermə yolu ilə keçirilir. Nisbi çoxluq prinsipində əsas fikir, hər partiyanın topladığı səs çoxluğuna görə parlamentdə təmsil olunmasıdır. Səslərin hesablanması və protokollaşdırılması prosesi şəffaf keçirilir.

Türkiyənin seçki qanunvericiliyinə əsasən Milli Məclisə 550 millət vəkili seçilir. Əvvəlcə hər rayona bir millət vəkili yeri ayrılır. Sonra ölkənin nüfuz sayı qalan millət vəkilləri sayına, hər rayonun nüfuz sayı da alınan rəqəmə bölünməklə hər bir rayondan parlamentdə təmsil olunacaq millət vəkillərinin sayı müəyyənləşdirilir. Siyasi partiyaların parlamentdə təmsil olunmaq üçün ümumi səslərin ən az 10%-ni toplaması zəruridir.

12 iyun 2011-ci ildə keçirilmiş son seçkilər nəticəsində Türkiyənin 25-ci çağırış TBMM-nın tərkibi aşağıdakı qaydada formalaşmışdır:

| | |
|---|---|
| *AKP (Ədalət və İnkişaf Partiyası)* | *326 deputat Sədr - R.T.Ərdoğan* |
| *CHP (Cümhuriyyət Xalq Partiyası)* | *135 deputat Sədr - K.Kılıcdaroğlu* |
| *MHP (Milliyətçi Hərəkat Partiyası)* | *52 deputat Sədri - D.Bahçeli* |
| *BDP (Barış və Demokratiya Partiyası)* | *36 deputat Sədr – S.Demirtaş* |
| *Müstəqillər* | *6 deputat* |

# ALBANİYA





***Ümumi məlumat:*** XVI əsrin sonlarından XX əsrin əvvəllərinə qədər olan dövr ərzində *Albaniya* kifayət qədər geniş muxtariyyətə malik olmaqla, *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur.

*Albaniya* 1912-ci ildə isə dövlət müstəqilliyini əldə etmişdir.

*Avropanın* cənub hissəsində, *Balkan yarımadasında* yerləşən *Albaniya Respublikasının* paytaxtı *Tirana* şəhəridir.

Ölkənin ərazisi 28,748 $km^2$, əhalisi *(2011)* 2,821,977 nəfərdir *(əhali sıxlığı 98,5 nəfər/$km^2$)*.

*Albaniyanın* rəsmi dövlət dili *alban* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.739 - yüksəkdir *(70-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1912) 28 noyabrda, respublika günü isə (1946) 11 yanvarda qeyd olunur. Ölkə Konstitusiyası 28 noyabr 1998-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 373 bələdiyyəni birləşdirən 36 dairədən ibarət 12 vilayətə *(Berat, Vlera, Qirokastra, Dibra, Durres, Korça, Kukes, Leja, Tirana, Fieri, Şkoder, Elbasan)* bölünür.

***Dövlət başçısı:*** Albaniyanın Konstitusiyasının və qanunlarının, vətəndaşların hüquq və azadlıqlarının təminatçısı, dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı – *Prezi-*

*dent Xalq Məclisi* tərəfindən gizli səsvermə yolu ilə, deputatların 2/3 səs çoxluğunu əldə etməklə 5 il müddətinə seçilir.

Prezidentin *Baş naziri* və onun təqdimatı ilə Hökumət üzvlərini təyin etmək, qanunları dərc etmək və onlara veto qoymaq, Konstitusiyaya və müvafiq qanuna uyğun olaraq zəruri hallarda *(Baş naziri seçə bilmədikdə)* Parlamenti buraxmaq və növbəti 45 gün ərzində erkən seçkilər təyin etmək, Parlamentdə dərhal sonra təsdiq edilməsi şərti ilə müharibə və fövqəladə vəziyyət elan etmək, Baş nazirin razılığı ilə beynəlxalq müqavilələri imzalamaq, diplomatik təmsilçiləri təyin etmək və geri çağırmaq səlahiyyətlərinə malikdir.

Hazırkı, sayca 6-cı ölkə Prezidenti 24 iyul 2012-ci ildən etibarən *Demokratik Partiyanın* təmsilçisi *Boyar Nişanidir.*

***Qanunverici hakimiyyət:*** *Albaniyanın* ali qanunverici orqanı bir palatadan – 100 üzvü majoritar sistem üzrə birmandatlı dairələrdən iki turdan ibarət, digər 40 üzvü isə partiya siyahıları üzrə 4 faizli baryeri aşmaq şərti ilə ümumi və bərabər seçki əsasında gizli səsvermə yolu ilə 4 il müddətinə seçilən 140 üzvü olan *Xalq Məclisindən* ibarətdir.

Konstitusiyada nəzərdə tutulmuş mütləq səs çoxluğu ilə qəbul edilən azsaylı qərarlar istisna olmaqla, Məclis bir qayda olaraq qərarlarını deputatların sadə səs çoxluğu ilə qəbul edir. Məclis üzvlərinin azı 3/5-nin səs çoxluğu ilə Konstitusiyada nəzərdə tutulmuş təsisatların təşkili və fəaliyyəti haqqında, vətəndaşlıq haqqında, ümumi və yerli seçkilər haqqında, referendum haqqında, fövqəladə vəziyyət haqqında, dövlət qulluqçularının statusu haqqında, amnistiya haqqında, Respublikanın inzibati bölgüsü haqqında və s. qanunların və bütün məcəllələrin qəbulu Parlamentin səlahiyyətlərinə aiddir.

Parlamentdə qəbul edilən qanunlara Prezident veto qoya bilər və bu halda bütün deputatların mütləq səs çoxluğu ilə vetonu dəf etmək qaydası təsbit edilmişdir.

*Xalq Məclisinin* hazırkı sədri 03 sentyabr 2005-ci ildən etibarən *Jozefina Topallidir (DP).*

28 iyun 2009-cu ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Xalq Məclisində* təmsil olunan əsas siyasi partiyalar:

*Dəyişikliklər Naminə Alyans (Sağ mərkəzçilər) – 70 yer,*
*Dəyişikliklər Üçün Unifikasiya (Sol mərkəzçilər) – 66 yer,*
*Sosialist Alyansı (Proqressiv solçular) – 4 yer.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyətini həyata keçirmək *Nazirlər (kabinet) Şurasının* üzərinə düşür. *Şura* sədri *(Baş nazir)* və onun təqdimatı əsasında hökumət üzvləri *(nazirlər) Albaniya Respublikasının Prezidenti* tərəfindən təyin və *Xalq Məclisində* təsdiq olunur.

Nazirlər Şurası dövlətin ümumi siyasətinin əsas istiqamətlərini müəyyən edir, nazirliklərin və digər dövlət orqanlarının fəaliyyətini istiqamətləndirir və onlara nəzarət edir, eyni zamanda ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsinin prinsiplərini özündə ehtiva edən fəaliyyət proqramını təsdiq üçün, qarşısında siyasi məsuliyyət daşıdığı Parlamentə təqdim edir.

Bundan əlavə, *Nazirlər Şurası* qərar və təlimatlar, istisna hallarda isə qanun qüvvəsinə bərabər olan normativ aktlar dərc etmək səlahiyyətinə malikdir. Konstitusiyaya görə, normativ aktlar dərc edildikdən dərhal sonra Xalq Məclisinə təqdim edilməli və 45 gün ərzində Məclisdə təsdiq olunmalıdır, əks halda sənəd öz hüquqi qüvvəsini itirir.

11 sentyabr 2005-ci ildən etibarən ölkənin hazırkı, sayca 45-ci *Baş naziri Demokratik Partiyanın* lideri *Sali Berişadır.*

***Məhkəmə hakimiyyəti:*** 9 üzvdən ibarət *Konstitusiya Məhkəməsi*, 11 üzvlük *Kasasiya Məhkəməsi, apelyasiya* və rayon məhkəmələrindən ibarətdir. Konstitusiya Məhkəməsinin 9 üzvü Xalq Məclisi tərəfindən maksimum 9 il müddətinə təyin olunur.

Konstitusiya Məhkəməsi konstitusiyanın şərhini verir, qanunların konstitusiyaya uyğunluğuna nəzarət edir, yerli və hakimiyyət orqanları arasında mövcud olan fikir ayrılıqlarını həll edir. Digər məhkəmələr 3 istiqamət üzrə cinayət, mülki və hərbi yurisdiksiyalara bölünür.

# AVSTRİYA







***Ümumi məlumat:*** Avstriya dövlətinin formalaşması tarixi, 1156-cı ildə müstəqil *Avstriya Hersoqluğunun* yaradılmasından başlayır. XVI-XVIII əsrlərdə qurulmuş çoxmillətli Avstriya imperiyası, daha sonra, 1867-ci ildə ikili *Avstriya-Macarıstan* monarxiyasına çevrilmişdir.

1918-ci ildə *İmperiyanın* süqutu ilə *Avstriya Respublikası* elan edilmişdir.

Mərkəzi Avropada yerləşən *Avstriya Respublikasının* paytaxtı *Vyana* şəhəridir.

Ölkənin ərazisi 83 855 $km^2$, əhalisi *(2012)* 8 443 018 nəfərdir *(əhali sıxlığı 95,8 nəfər/$km^2$)*.

Avstriya Konstitusiyasına görə alman dili rəsmi dövlət dilidir *(ölkə vətəndaşlarının 95,48%-nin ana dili sayılır)*.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.885* - çox yüksəkdir *(19-cu yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan respublika günü (1955) 26 oktyabrda qeyd olunur. Ölkə Konstitusiyası 10 noyabr 1920-ci ildən (1929-cu il düzəlişləri əlavə olunmaqla) qüvvədədir. Qanunverici orqanlar xalq tərəfindən seçilir.

***İnzibati bölgüsü:*** Muxtar Parlamenti, Hökuməti və Konstitusiyası olan 9 federal torpağa *(Burqenland, Karintiya, Aşağı Avstriya, Yuxarı Avstriya, Zalsburq, Ştiriya, Tirol, Forarlberq və Vyana)* bölünür.

***Dövlət başçısı:*** Dövlət başçısı *Federal Prezidentdir*. Federal Prezident bərabər, birbaşa, gizli və ümumi səsvermə yolu ilə xalq tərəfindən 6 il müddətinə seçilir. Əgər Prezident seçkilərində yalnız bir namizəd iştirak edirsə, onda seçki referendum şəklini alır. İkinci müddətə yalnız bir dəfə seçilmək olar.

Parlamentin növbəti və növbədənkənar sessiyalarının çağırılması, onun buraxılması, yüksək dövlət məmurlarının təyinatı, peşəkar rütbələrin verilməsi, əfv fərmanının imzalanması, Avstriyanı digər dövlətlərlə münasibətdə təmsil etmə, səfirlərin qəbulu və s. *Federal Prezidentin* səlahiyyətlərinə daxildir. Bununla belə, fəaliyyətinə görə Federal Məclis qarşısında cavabdeh olan dövlət başçısı, öz funksiyalarını Hökumətin təklif və tövsiyələri əsasında yerinə yetirir. Belə ki, Avstriya Prezidentinin bütün qərarları, üzərində yalnız Federal Kanslerin və ya müvafiq sahə üzrə cavabdeh olan federal nazirin imzası olduqda hüquqi qüvvəyə malik olur.

Federal Prezident fəaliyyət qabiliyyətini itirərsə, ilkin olaraq onun vəzifələrini Federal Kansler öz üzərinə götürür. Əgər belə hal 20 gündən artıq davam edərsə, onda onun vəzifələrini kollegial əsasda *Milli Şuranın* sədri və onun birinci və ikinci müavinləri sadə səs çoxluğu ilə qərarları qəbul edərək icra edirlər.

Hazırkı ölkə Prezidenti 8 iyul 2004-cü ildən etibarən *Avstriya Sosial Demokrat Partiyasının təmsilçisi Haynts Fişerdir (25 aprel 2010-cu ildə keçirilmiş son prezident seçkilərində 79.3% səslə yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Federal qanunvericilik: *Aşağı palata* olan *Milli Şuradan (Nationalrat)* və Yuxarı palata sayılan *Federal Şuradan (Bundesrat)* ibarət ikipalatalı Parlament tərəfindən həyata keçirilir. Federal əyalətləri təmsil edən 62 yerlik *Bundesratın (Federal Şuranın)* üzvlərinin namizədliyi əyalətlərin parlamentləri tərəfindən irəli sürülür.

*Milli Şuradakı* 183 deputat xalq tərəfindən dörd il müddətinə seçilir. Əyalətlərin parlamentləri müvafiq əyalətlərin əhalisi tərəfindən seçilir.

Milli Şuranın deputatları ilə yanaşı, Federal Hökumətin üzvləri də qanunvericilik təşəbbüsü hüququna malikdir. *Milli Şuranın* qəbul etdiyi qanunlar *Bundesrat* tərəfindən təqdir edilməlidir. Bununla belə, ölkənin siyasi həyatına təsir gücü zəif olan *Yuxarı Palata* bəzi qanunların qəbuluna ümumiyyətlə müdaxilə etmir. Dövlət üçün vacib və taleyüklü məsələlər hər iki palatada birlikdə müzakirə edilir və bu formatda tədbir *Bundesferzammlunq* adlanır.

*Milli Şuranın* hazırkı sədri 30 oktyabr 2006-ci ildən etibarən, *Avstriya Sosial Demokrat Partiyasının* təmsilçisi *xanım Barbara Prammerdir.*

28 sentyabr 2008-ci ildə keçirilmiş son Parlament seçkilərində *Nationalratda* yer almış əsas siyasi partiyalar:

*SPÖ (Avstriya Sosial Demokrat Partiyası, 57 deputat),*
*ÖVP (Avstriya Xalq Partiyası, 51 ),*
*FPÖ (Avstriya Azadlıq Partiyası, 34 ),*
*BZÖ (Avstriyanın Gələcəyi naminə Alyans, 21),*
*Grünen (Yaşıllar, 20).*

***İcraedici hakimiyyət:*** *Federal Kanslerin (Baş nazir)* başçılıq etdiyi *Federal Hökumət, Avstriya Silahlı Qüvvələri, Polis,* periferiyalarda isə *əyalət hökumətləri* tərəfindən həyata keçirilir.

Mövcud konstitusiyaya görə ölkədə ali idarəetməni həyata keçirən Federal Hökumətin üzvləri Federal Kanslerin təqdimatı əsasında, Federal Kansler isə Milli Şuranın razılığı ilə Federal Prezident tərəfindən təyin edilirlər. Federal Hökumətin üzvləri öz fəaliyyətlərinə görə Milli Şura qarşısında kollektiv məsuliyyət daşıyırlar və Parlament onlara etimadsızlıq göstərdiyi təqdirdə vəzifə səlahiyyətlərinə xitam verirlər.

Bundan əlavə, Prezident qanunvericiliklə müəyyən olunmuş qaydada Hökuməti buraxa və onun üzvlərini fərdi olaraq vəzifələrindən kənarlaşdıra bilər.

2 dekabr 2008-ci ildən etibarən ölkənin hazırkı, 12-ci *Baş naziri (Federal Kansler) Avstriya Sosial Demokrat Partiyasının* lideri *Verner Faymandır.*

***Məhkəmə hakimiyyəti:*** Avstriyanın hüquq sistemi *Roman-German* hüquq sisteminə əsaslanır.

Ölkədə məhkəmə hakimiyyəti *Ali Məhkəmə, Konstitusiya Məhkəməsi (1920-ci ildə yaradılmış ən qədim Konstitusiya Məhkəməsidir), 4 apelyasiya məhkəməsi, yerli, torpaq və dairə məhkəmələri* tərəfindən həyata keçirilir.

## BANQLADEŞ

  

***Ümumi məlumat:*** 1947-ci ilə qədər *Şərqi Benqal* kolonial *Hindistanın* tərkibinə daxil olmuşdur. Dini zəmində keçmiş *Britaniya* müstəmləkəsinin *Hindistana* və *Pakistana* bölünməsi nəticəsində, *Banqladeşin* indiki ərazisi *Şərqi Pakistan* adlandırılmış və 1971-ci ildə silah gücünə öz müstəqilliyini əldə etmişdir.

*Cənubi Asiyada* yerləşən *Banqladeş Respublikasının* paytaxtı *Dəkkə* şəhəridir.

Ölkənin ərazisi 147 570 km², əhalisi *(2012)* 161 083 804 nəfərdir *(əhali sıxlığı 1,033,5 nəfər/km²)*.

*Banqladeşin* rəsmi dövlət dili *benqal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.500* - aşağıdır *(146-cı yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1971) 26 mart tarixində qeyd olunur. Ölkə Konstitusiyası 04 noyabr 1972-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 64 dairəni *(zilanı)* özündə birləşdirən, paytaxt *Dəkkə* şəhərinin də daxil olduğu 7 inzibati rayona *(Dəkkə, Çittaqonq, Kxulna, Narayanqanc, Racşaxi, Silxet, Barisal və Ranqpur)* bölünür.

***Dövlət başçısı:*** Əsasən mərasim funksiyalarını yerinə yetirən *Prezident* Parlament tərəfindən 5 il müddətinə seçilir.

Konstitusiyaya görə, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılan dövlət başçısı, Banqladeş Respub-

likasının xarici siyasətinin məqsədyönlü və ardıcıl şəkildə həyata keçirilməsinə nəzarət etmək, zəruri hallarda *Milli Assambleyanı* çağırmaq və buraxmaq, fövqəladə vəziyyət elan etmək, Parlamentlə razılaşdırmadan Ali Məhkəmənin üzvlərini və aşağı instansiya məhkəmələrinin hakimlərini təyin etmək səlahiyyətlərinə malikdir.

Banqladeşdə unikal sistem kimi tətbiq olunan "*Müvəqqəti hökumətin" (seçkilərin keçirilməsinə və hakimiyyətin ötürülməsinə məsuliyyət daşıyır)* keçid hakimiyyəti dövründə dövlət başçısının səlahiyyətləri genişlənir, digər hallarda isə real hakimiyyət Prezidentin təyin etdiyi Baş nazirin əlində cəmlənir. Bu zaman, dövlət başçısı səlahiyyətlərinin böyük bir qisminin icrasını Baş nazirin məsləhətinə uyğun olaraq həyata keçirir.

Avama Liq Partiyasının təmsilçisi Əbdül Həmid 24 aprel 2013-cü ildən etibarən Banqladeş Respublikasının Prezidentidir.

***Qanunverici hakimiyyət:*** Banqladeşin ali qanunverici orqanı bir palatadan – ümumi və bərabər seçki əsasında gizli səsvermə yolu ilə 5 il müddətinə seçilən 345 üzvü olan *Milli Assambleyadan (Jatio Sanqşad)* ibarətdir. Parlamentdə 45 deputat yeri birmandatlı dairələrdən seçilən qadın deputatlar üçün nəzərdə tutulmuşdur.

Milli Assambleyanın əsas funksiyalarına qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və s. mühüm məsələlər aiddir.

Maliyyə tutumlu qanun layihələri yalnız Prezidentin tövsiyəsi ilə *Milli Assambleyaya* təqdim edilir. Parlament üzvləri tərəfindən səs çoxluğu ilə qəbul edilən qanun layihələri Prezidentin imzasına təqdim olunur. Dövlət başçısı 15 gün ərzində onları təkrar oxunuşda qəbul edilməsi üçün yenidən *Assambleyaya* göndərməkdə səlahiyyətlidir.

*Milli Assambleyanın* hazırkı, sayca 5-ci sədri 25 yanvar 2009-cu ildən etibarən *Əbdül Həmiddir.*

29 dekabr 2008-ci ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Jatio Sanqşadda* təmsil olunan əsas siyasi partiyalar:

*Avami Liq – 230 yer (lideri V.Xasina),*
*Banqladeş Milliyətçi Partiyası - 30,*
*Jatia Partiyası - 27,*
*JSD (Milli Sosialist Partiyası) - 3,*
*Banqladeş Fəhlə Partiyası -2,*
*Banqladeş İslam Cəmiyyəti -2,*
*Liberal Demokratik Partiya - 1,*
*Müstəqillər – 4.*

***İcraedici hakimiyyət:*** *Hökumət başçısı (Baş nazir)* formal olaraq Prezident tərəfindən təyin edilsə də, bir qayda olaraq Parlamentdə çoxluq təşkil edən partiyanın lideri bu posta sahib olur.

Dövlətin idarə olunmasında geniş səlahiyyətlərə malik olan *Baş nazir* Hökuməti və onun üzvlərini özü formalaşdırır.

Mövcud Konstitusiyaya görə, *Kabinet* Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Belə ki, Baş nazir parlament çoxluğunun dəstəyindən məhrum olarsa, ya istefa verməli, yaxud da dövlət başçısından Parlamentin buraxılmasını xahiş etməlidir. Banqladeş Konstitusiyasına edilmiş çoxsaylı düzəlişlər nəticəsində, hazırda *Hökumət Milli Assambleyadan* praktikada daha çox səlahiyyətə malikdir.

*Avami Liq Partiyasının* lideri xanım *Şeyx Xasina Vazed* 06 yanvar 2009-cu ildən etibarən ölkənin hazırkı, sayca 13-cü *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Məhkəmə-hüquq sistemi ənənəvi ingilis ümumi hüquq sisteminə əsaslanan Banqladeş Respublikasında məhkəmə hakimiyyəti, hakimləri Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə* və ona tabe olan iki bölmə: ölkədə Konstitusiyaya nəzarət funksiyasını yerinə yetirən *Yüksək Məhkəmə*, habelə mülki və cinayət işləri üzrə ən yüksək məhkəmə instansiyası sayılan Apelyasiya Məhkəməsi tərəfindən həyata keçirilir.

# BOLQARISTAN





***Ümumi məlumat:*** *Bolqarların* ilk dövləti VII əsrdə təşəkkül tapmış və paytaxt şəhəri *Fanaqoriya* olmuş *Böyük Bolqarıstan* (632-671) sayılır. *Bolqarıstan* XIV əsrin sonlarından 1878-ci il *Türk-Rus* müharibəsinə qədər *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur.

Bolqarıstan de-fakto 1878-ci ildən, de-yure isə 1908-ci ildən müstəqil dövlətdir *(1946-cı ildən respublikadır).*

*Cənub-Şərqi Avropada,* Balkan yarımadasının şərq hissəsində yerləşən *Bolqarıstan Respublikasının* paytaxtı *Sofiya* şəhəridir.

Ölkənin ərazisi 110 994 km², əhalisi *(2011)* 7 364 570 nəfərdir *(əhali sıxlığı 66,2 nəfər/km²).*

*Bolqarıstanın* rəsmi dövlət dili *bolqar* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.771* – yüksəkdir *(55-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik Günü (1908) sentyabr ayının 22-də qeyd olunur. Respublika Konstitusiyası 12 iyul 1991-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Bolqarıstan 264 bələdiyyədən ibarət 28 vilayəti *(Sofiya, Plovdiv, Varna, Burqas, Ruse, Stara Zaqora, Pleven, Sofiya-siti, Sliven, Dobriç, Şumen, Pernik, Haskovo, Yambol, Pazarçik, Blaqoyevqrad, Veliko Trnovo, Vratsa, Qabrovo, Vidin, Kirsali, Kyustendil, Montana, Tırqovişte, Loveç, Silistra, Razqrad və Smolyan)* birləşdirən 2 birinci

*(Şimal və Cənub Şərqi, Cənub Qərbi və Mərkəzi Cənub)* və 6 ikinci *(Şimal Qərbi, Mərkəzi Şimal, Şimal Şərqi, Cənub Şərqi, Cənub Qərbi, Mərkəzi Cənub)* dərəcəli regionlara bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya uyğun olaraq, ümumi, birbaşa və gizli səsvermə yolu ilə, iki dəfədən çox olmamaq şərti ilə seçilən dövlət başçısı - *Prezident* Bolqarıstan milli birliyinin rəmzi, eyni zamanda Bolqarıstan silahlı qüvvələrinin ali baş komandanıdır.

Ölkədə seçki və referendumu təyin etmək, Bolqarıstanı xaricdə təmsil etmək, beynəlxalq müqavilə və sazişləri imzalamaq, *Milli Təhlükəsizlik Üzrə Məsləhət Şurasına* rəhbərlik etmək Prezidentin səlahiyyətlərinə aiddir. Prezident, veto hüququndan istifadə edərək qanunvericilik aktlarını yenidən Parlamentə qaytara bilər, lakin *Xalq Məclisi* həmin sənədi dövlət başçısının təkrar müdaxiləsi olmadan mütləq səs çoxluğu ilə yenidən qəbul edə bilər.

Hazırkı, sayca 13-cü dövlət başçısı 22 yanvar 2012-ci ildən etibarən *Rosen Pnevnelievdir (2011-cı il 23-30 oktyabr tarixlərində keçirilmiş Prezident seçkilərində 52.58% səslə qalib gələrək ölkənin 5-ci Prezidenti seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Bolqarıstan Respublikasının ali qanunverici orqanı bir palatadan – 240 üzvü ümumi və bərabər seçki əsasında gizli səsvermə yolu ilə 4 il müddətinə seçilən *Xalq Məclisindən* ibarətdir.

*Parlament* Yeni Konstitusiyanın müzakirəsi və təsdiqi, dövlət quruluşunun dəyişdirilməsi, qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, Prezident seçkilərinin keçirilməsi, Baş nazirin və digər nazirlərin seçilməsi və vəzifədən azad olunması, müharibə elan edilməsi, ölkə hüdudlarından kənarda Bolqarıstan qoşunlarının yerləşdirilməsi, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası və s. mühüm məsələlərin həllində səlahiyyətlidir.

*Narodnoye Sobraniyenin* hazırkı, 41-ci çağırışının sədri 14 iyul 2009-cu ildən etibarən *Tsetska Tsaçevadır (GERB).*

05 iyul 2009-cu ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Bolqarıstan Xalq Məclisində təmsil olunan əsas siyasi partiyalar:*

*QERB – 116 yer,*

*Bolqarıstan naminə koalisiya (Bolqarıstan Sosialist Partiyası) - 40,*

*II Simeon naminə Milli Hərəkat (NMS2)- 53,*

*Hüquqlar və azadlıq naminə hərəkat (DPS) - 38,*

*Milli Hücum Birliyi (ATAKA)-21,*

*Mavi Koalisiya- 15,*

*Qayda, Qanun və Ədalət – 10.*

***İcraedici hakimiyyət:*** *Nazirlər Şurası* icra hakimiyyətinin əsas orqandır. Bir qayda olaraq, Bolqarıstan Hökuməti Parlamentdə yerlərin əksəriyyətinə sahib olan partiya və ya koalisiya tərəfindən formalaşır. Nazirlər Şurasına rəhbərliyi həyata keçirən *Baş nazir* dövlət siyasətinin həyata keçirilməsi, dövlət büdcəsinin idarə olunması, habelə qanun və asayişin qorunması üçün məsuliyyət daşıyır.

Parlament tərəfindən irəli sürülən və ölkə Prezidenti tərəfindən təsdiq olunan Hökumətə istənilən zaman *Xalq Məclisində* istefa ilə nəticələnən etimadsızlıq göstərilə bilər.

13 mart 2013-cü ildən etibarən Bolqarıstan Nazirlər Şurasının hazırkı sayca 63-cü sədri Marin Raykovdur.

***Məhkəmə hakimiyyəti:*** *Ali İnzibati İşlər Üzrə Məhkəmə, Ali Kasasiya Məhkəməsi, Konstitusiya Məhkəməsi (Konstitusiya məhkəmənin hakimləri 9 il müddətinə təyin olunur yaxud seçilir),* habelə *Ali Məhkəmə Şurası (iki Ali Məhkəmənin sədri, Baş Prokuror və 22 digər hakimlərdən ibarətdir)* Bolqarıstanda məhkəmə hakimiyyətini həyata keçirirlər.

## BOSNİYA VƏ HERSOQOVİNA





***Ümumi məlumat:*** XII-XIV əsrlərdə *Bosniya və Hersoqovinanın* indiki ərazisində slavyan feodal dövlətləri mövcud olmuşdur. XV əsrdə ölkə *Osmanlı İmperiyası* tərəfindən fəth edilmiş, 1878-ci ildə isə *Avstriya-Macarıstanın* işğalına məruz qalmış, 1918-ci ildə isə serb, xorvat və sloveniya *Krallığının (1929-cu ildən etibarən Yuqoslaviya Krallığı)* tərkibinə daxil olmuşdur. İkinci Dünya Müharibəsindən sonra *Yuqoslaviya Federativ Respublikasının* tərkibində 6 respublikadan biri olmuşdur.

*Bosniya və Hersoqovina* 1992-ci ildən müstəqil dövlətdir.

*Avropanın* cənub-şərq hissəsində, Balkan yarımadasında yerləşən *Bosniya və Hersoqovina Respublikasının* paytaxtı *Sarayevo* şəhəridir.

Ölkənin ərazisi 51,197 km², əhalisi *(2011)* 3 839 737 nəfərdir *(əhali sıxlığı 75 nəfər/km²).*

*Bosniya və Hersoqovinanın* rəsmi dövlət dili *bosniya, xorvat və serb* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.733* – yüksəkdir *(74-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1992) 3 mart tarixində qeyd olunur. Bosniya və Herseqovinanın konstitusiyalı quruluşunun əsaslarını qoymuş *Deyton Sazişinin* təməl prinsiplərini özündə ehtiva edən ölkə

Konstitusiyası *(Deyton Konstitusiyası)* 14 dekabr 1995-ci ildən (2009-cu ilin mart ayında edilmiş düzəlişlərlə) qüvvədədir.

***İnzibati bölgüsü:*** *Bosniya və Herseqovina Federasiyası (10 kantondan ibarətdir), Serb Respublikası (63 bələdiyyədən ibarət 7 bölgəyə bölünür)* və *Brçko dairəsindən (eyni zamanda həm Bosniya və Herseqovina Federasiyasının, həm də Serb Respublikasının tərkib hissəsidir)* ibarətdir.

***Dövlət başçısı:*** *Prezident Şurasının* sədridir. Şuranın üzvləri ümumi səsvermə yolu ilə 4 il müddətinə seçilirlər və 8 aydan bir rotasiya qaydasında Prezident Şurasına sədrlik edirlər. Seçkilər zamanı Şuraya sədrlik edən şəxs daha çox səs toplayarsa, yenidən Şuranın sədri olur.

Xarici siyasət strategiyasının həyata keçirilməsinə ümumi nəzarət, səfirlərin və ölkəni beynəlxalq təşkilatlarda təmsil edən digər diplomatik nümayəndələrin təyin edilməsi, Parlamentə büdcə ilə bağlı təkliflərin verilməsi və digər məsələlər dövlət başçısının səlahiyyətlərinə daxildir.

Hal-hazırda Prezident Şurasının üzvləri serb *Noboysa Radmanoviç,* boşnak *Bekir İzzetbekoviç (10 mart 2012-ci ildən Şuranın hazırkı sədridir)* və xorvat *Jelko Komşiçdir.*

***Qanunverici hakimiyyət:*** Bosniya və Hersoqovinanın ali qanunverici orqanı olan *Parlament Skupşinası* iki palatadan: 28 üzvü Federasiyadan, 14 millət vəkili isə Serb Respublikasından seçilən 42 yerlik *Milli Nümayəndələr Evindən (Predstavniçki Dom)* və boşnak, xorvat və serblərin hər birinin proporsional qaydada 5 nümayəndə ilə təmsil olunduğu 15 yerlik *Xalqlar Evindən (Dom Naroda)* ibarətdir. *Skupşinanın* hər iki palatasına nümayəndələr 4 il müddətinə seçilir.

*Şkupşinanın* əsas funksiyalarına, ənənəvi olaraq qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və s. məsələlər aiddir. İstənilən Qanunun qəbul edilməsi üçün hər iki palatanın razılığı olmalıdır.

*Şkupşina* Hökumətə etimadsızlıq göstərməklə onu istefaya göndərmək səlahiyyətinə malikdir.

3 oktyabr 2010-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Nümayəndələr Evində* təmsil olunan əsas siyasi partiyalar aşağıdakılardır:

*Sosial Demokrat Partiyası – 8 deputat,*
*Müstəqil Sosial Demokratlar İttifaqı - 8,*
*Demokratik Fəaliyyət Partiyası - 7,*
*Serb Demokratik Partiyası - 4,*
*Bosniya və Hersoqovinanın Gələcəyi Naminə Alyans – 4,*
*Xorvat Demokratik İttifaqı – 3,*
*Bosniya və Hersoqovina Naminə Partiya – 2,*
*Xorvat koalisiyası – 2,*
*Digər partiyalar - 4.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyəti Parlament tərəfindən irəli sürülən və Prezident tərəfindən təsdiq olunan *Nazirlər Şurası* tərəfindən həyata keçirilir. *Nazirlər Şurasının sədri* Prezident Şurasının sədri, nazirlər isə Nazirlər Şurasının sədri tərəfindən təyin edilir və *Milli Nümayəndələr Evi* bu təyinatları təsdiqləyir.

Mövcud Konstitusiyaya uyğun olaraq, *Nazirlər Şurasının sədri* Hökumətin milli fəaliyyət proqramını səs çoxluğu ilə qəbul edilməsi üçün, qarşısında kollektiv məsuliyyət daşıdığı *Aşağı Palataya* təqdim edir və ona etimad göstərildiyi andan fəaliyyətinin icrasına başlayır.

12 yanvar 2012-ci ildən etibarən *Nazirlər Şurasının* sədri *Xorvat Demokratik İttifaqının* nümayəndəsi *Vekoslav Bevandadır.*

***Məhkəmə hakimiyyəti:*** 4 üzvü Federasiyanın Nümayəndələr Palatası, 2 üzvü Serb Respublikasının Milli Assambleyası, 3 üzvü isə Avropa İnsan Haqları Məhkəməsinin Prezidenti tərəfindən seçilən 9 hakimdən ibarət *Konstitusiya Məhkəməsidir.*

# BOTSVANA








***Ümumi məlumat:*** Avropalıların *Botsvananın* indiki ərazilərinə ilk gəlişi XIX əsrin əvvəllərinə təsadüf etmişdir və bu dövrə qədər yerli tayfalar dövlətçiliyə malik olmamışlar.

1885-ci ildə bu torpaqlarda ingilislərin *Beçuanalend* protektoratı yaradılmış, 1966-cı ildə isə *Botsvana Birləşmiş Krallığın* tərkibində öz müstəqilliyini elan etmişdir.

*Afrikanın* cənub hissəsində yerləşən *Botsvana Respublikasının* paytaxtı *Qaborone* şəhəridir.

Ölkənin ərazisi 581,730 km², əhalisi *(2010)* 2 029 307 nəfərdir *(əhali sıxlığı 3.4 nəfər/km²).*

*Botsvananın* rəsmi dövlət dili *ingilis və tsvana* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.633* – ortadır *(118-ci yer).*

***Dövlət quruluşu:*** Prezident üsul-idarəsinin müəyyən elementlərini özündə ehtiva edən parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1966) 30 sentyabr tarixində qeyd olunur. *Botsvana Respublikasının* Konstitusiyası 1966-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Ölkə 9 inzibati dairəyə *(Mərkəzi dairə, Qanzi, Kqalaqidi, Kqatlenq, Kvenenq, Şimal-Şərq dairəsi, Şimal-Qərb dairəsi, Cənub-Şərq dairəsi və Cənub dairəsi)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə milli birliyin rəmzi, dövlət müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısı, dövlətin və hökumətin başçısı, habelə silahlı qüvvə-

lərin ali baş komandanı sayılan, bütövlükdə dövlətin idarə edilməsində geniş səlahiyyətlərə malik olan *Prezident, Milli Assambleyanın* üzvləri arasından sadə səs çoxluğu ilə 5 il müddətinə seçilir.

Dövlət başçısı *Nazirlər Kabinetinin (Hökumət)* üzvlərini və dövlətin idarə edilməsində ona bilavasitə yardımçı olan vitse-prezidenti *(01 aprel 2008-ci ildən etibarən Mompati Seboqodi Merafedir)* təyin və vəzifədən azad etmək, müharibə və sülh məsələlərini həll etmək, *Milli Assambleyanı (Parlament)* çağırmaq, ali qanunverici orqanın qəbul etdiyi qanun layihələrinə veto qoymaq və Konstitusiya ilə nəzərdə tutulmuş digər səlahiyyətlərə malikdir.

01 aprel 2008-ci ildən etibarən *Botsvananın* hazırkı, sayca 4-cü *Prezidenti, Botsvana Demokratik Partiyasının* lideri *Yan Kxamadır.*

***Qanunverici Hakimiyyət*:** 61+2 yerlik *Milli Assambleyadan (Aşağı Palataya 57 üzv birbaşa seçkilər nəticəsində 5 illik müddətə mandat əldə edir, digər 4 deputat Parlament seçkilərində qalib gəlmiş siyasi partiya tərəfindən təyin edilir, 2 üzv isə Prezident və Baş prokurordur)* və 35 üzvlük məşvərətçi orqan sayılan *Rəhbərlər Palatasından (5 illik müddət ərzində fəaliyyət göstərən Yuxarı Palataya 22 üzv dolayı yolla seçilir, 5 üzv Prezident, digər 8-i isə irsi qəbilə başçıları tərəfindən təyin edilir)* ibarət iki palatalı Parlament tərəfindən həyata keçirilir.

Hökumət üzvlərinə bilavasitə təsir və nəzarət mexanizmini qoruyub saxlasa da, qanunvericilik sahəsi üzrə *Rəhbərlər Palatası* sırf məsləhət orqanı kimi fəaliyyət göstərir və heç bir qanunvericilik və ya veto hüququna malik deyil. Bununla belə, Konstitusiyaya dəyişikliklər edildikdə, *Yuxarı Palatanın* üzvlərinə müraciət olunmalı və onların təklif və tövsiyələri nəzərə alınmalıdır.

Qanun layihələrinin qəbulu və qanunların dərc edilməsi, beynəlxalq müqavilələrin ratifikasiyası, habelə Konstitusiya ilə müəyyən edilmiş digər qanunvericilik səlahiyyətləri *Parlamentin Aşağı Palatasına* məxsusdur.

16 oktyabr 2009-cu ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Milli Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

| | |
|---|---|
| *Botsvana Demokratik Partiyası* | *– 45 yer,* |
| *Botsvana Milli Cəbhəsi* | *– 6 yer,* |
| *Botsvana Konqres Partiyası* | *– 4 yer,* |
| *Botsvana Alyans Hərəkatı* | *– 1 yer,* |
| *Müstəqillər* | *– 1 yer.* |

***İcraedici hakimiyyət:*** Yuxarı icra orqanı olan və fəaliyyət proqramının icrasına görə Parlament qarşısında kollektiv, dövlət başçısı qarşısında isə fərdi məsuliyyət daşıyan Botsvananın *Nazirlər Kabineti* ölkədə icraedici hakimiyyəti həyata keçirməkdə səlahiyyətlidir.

***Məhkəmə hakimiyyəti:*** *Botsvana Respublikasının Ali Məhkəməsi*, *Apelyasiya Məhkəməsi,* habelə 1-ci, 2-ci və 3-cü dərəcəli Magistr məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidirlər. Bundan əlavə, yerlərdə əhali tərəfindən seçilən və fəaliyyət göstərən *Kənd Şuraları* bəzi məsələlərdə məhkəmələri əvəz edə bilir.

Prezident tərəfindən təyin olunan və *Hüquq Xidməti Üzrə Komissiyanın sədri sayılan Ədliyyə naziri* hakimliyə namizədləri təyin edilməsi üçün dövlət başçısına təqdim etmək səlahiyyətinə malikdir.

# ÇEX RESPUBLİKASI

  

***Ümumi məlumat:*** *Çex* torpaqları XVI əsrdən etibarən *Avstriya İmperiyasının* tərkibinə daxil olmuşdur. 1918-ci ildə, *Avstriya-Macarıstanın* süqutu nəticəsində müstəqil *Çexoslovakiya* dövləti yaradılmışdır.

1969-cu ildə çex torpaqları *Çexoslovakiya Federativ Sosialist Respublikasının* tərkibində *respublika* statusu almışdır.

*Çex Respublikası* 1 yanvar 1993-cü ildən etibarən müstəqil dövlətdir.

*Mərkəzi Avropada* yerləşən *Çex Respublikasının* paytaxtı *Praqa* şəhəridir.

Ölkənin ərazisi 78 866 km², əhalisi *(2012)* 10 513 209 nəfərdir *(əhali sıxlığı 134 nəfər/km²)*.

*Çexiyanın* rəsmi dövlət dili *çex* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.865* – çox yüksəkdir *(27-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1918) 28 oktyabrda qeyd olunur. Ölkə Konstitusiyası 01 yanvar 1993-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Paytaxt *Praqa* şəhərinə və 77 rayondan ibarət olan 13 vilayətə *(Vısoçina, Zlinskiy, Karlovarı, Kraloveqradetsk, Liberetsk, Moravskosilezsk, Olomouzsk, Pardubitsa, Plzen, Sredneçex, Ustets, Cənubi Moraviya və Cənubi Çexiya kraylarına)* bölünür.

***Dövlət başçısı:*** 2012-ci ildən etibarən *Çexiyada,* ölkə prezidentinin ardıcıl olaraq iki dəfədən çox olmamaq şərti ilə, 5 il

müddətinə birbaşa və ümumxalq səsverməsi yolu ilə seçilməsini tənzimləyən Qanun qüvvəyə minmişdir.

Prezidentə *Konstitusiya Məhkəməsi* hakimlərinin namizədliklərini təklif etmək, müəyyən şərtlər daxilində *Parlamenti* buraxmaq, qanunlara veto qoymaq və s. bu kimi xüsusi səlahiyyətlər verilir.

Dövlət başçısı, həmçinin daxili və xarici siyasət istiqamətində dövlətin əsas strategiyasını müəyyənləşdirir, *Baş naziri* və onun təqdimatına əsasən *Nazirlər Kabinetinin* digər üzvlərini təyin edir.

2013-cü ilin yanvar ayında *(seçkilərin I turu 11-12 yanvar, II mərhələsi isə 25-26 yanvar tarixlərində baş tutmuşdur)* yeni formatda keçirilmiş seçkilərdə *Miloş Zeman* 54.8% səslə qalib gələrək *Çexiya Respublikasının Prezidenti* seçilmişdir.

***Qanunverici hakimiyyət:*** İki palatalı Parlament – *Senatdan (81 yer, ümumi seçkilərlə 6 il müddətinə, 1/3 hissəsi isə hər iki ildən bir seçilir, son seçkilər 22-23 oktyabr 2010-cu ildə keçirilib)* və *Deputatlar Palatasından (200 yer, 4 il müddətinə seçilir, son seçkilər 28-29 may 2010-cu ildə baş tutub)* ibarətdir.

Deputatlar Palatasının qəbul etdiyi qanunlar *Senatda* təqdir və ya dəf edilə bilər. *Yuxarı Palatadan* fərqli olaraq *Deputatlar Palatası* Prezident tərəfindən erkən buraxıla və yeni seçkilər təyin edilə bilər.

*Senatın* Prezidenti 24 noyabr 2010-cu ildən *Milan Ştex*, Deputatlar Palatasını sədri isə 24 iyun 2010-cu ildən etibarən *Miroslava Nemtsovadır.*

Son seçkilər *(22-23 oktyabr 2010-cu il və 19-20 oktyabr 2012-ci il)* nəticəsində *Senatda* təmsil olunan Çexiyanın əsas siyasi partiyaları:

*Çexiya Sosial Demokratik Partiyası - 46 yer,*
*Vətəndaş Demokratik Partiyası - 15 yer,*
*TOP 09 – 4 yer,*

*Xristian və Demokrat İttifaqı - Çexoslovakiya Xalq Partiyası – 4 yer,*

*Bohemiya və Moraviya Kommunist Partiyası - 2 yer,*

*Yaşıllar Partiyası – 1 yer,*

*Çex Pirat Partiyası - 1 yer.*

28-29 may 2010-cu il tarixlərində *Deputatlar Palatasına* keçirilmiş son seçkilər nəticəsində mandat almış siyasi partiyalar:

*Çexiya Sosial Demokratik Partiyası – 56 yer,*

*Vətəndaş Demokratik Partiyası – 53 yer,*

*TOP 09 – 41 yer,*

*Bohemiya və Moraviya Kommunist Partiyası – 26 yer,*

*İctimai İşlər – 24 yer.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyətinin ali orqanı sayılan *Çexiya Hökuməti - Prezident* tərəfindən təyin edilən *Baş nazirdən*, onun müavinlərindən və Baş nazirin təqdimatı ilə dövlət başçısının təyin etdiyi nazirlərdən ibarətdir. Qərarlarını kollegial şəkildə qəbul edən Nazirlər Kabineti, ona zəruri hallarda etimadsızlıq göstərmək səlahiyyətinə malik olan Parlamentin Aşağı Palatası qarşısında birbaşa məsuliyyət daşıyır.

Hökumətin başçısı *Prezident* tərəfindən təyin edilən *Baş nazirdir.* Ölkənin daxili və xarici siyasətinin yürüdülməsində geniş səlahiyyətlərə malik olan *Baş nazir,* eyni zamanda Hökumətin nazirlərini seçməkdə, Parlament çoxluğunu səfərbər etməkdə səlahiyyət sahibidir.

*Vətəndaş Demokratik Partiyasının* lideri *Petr Neças* 28 iyun 2010-cu ildən etibarən *Baş nazir* vəzifəsinə təyin edilmişdir.

***Məhkəmə hakimiyyəti:*** Hakimləri Çexiya Prezidenti tərəfindən 10 il müddətinə təyin edilən *Konstitusiya Məhkəməsi (konstitusion hüquqların pozulması və yaxud məhdudlaşdırılması ilə bağlı),* ən yüksək apelyasiya instansiyası sayılan *Ali Məhkəmə (gündəlik hüquq və cinayət işləri ilə əlaqədar), Ali İnzibati Məhkəmə (Hüquqi prosedurlar və siyasi məsələlər üzrə),* habelə vilayət və rayon məhkəmələri tərəfindən həyata keçirilir.

# ÇERNOQORİYA (MONTENEQRO)





***Ümumi məlumat:*** 1878-ci ildə imzalanmış *Berlin Sazişinə* uyğun olaraq *Çernoqoriya,* 380 illik asılılıqdan sonra *Osmanlı İmperiyasından* ayrılmış və Birinci Dünya müharibəsinin nəticələrinə əsasən *Yuqoslaviyanın* tərkibinə daxil olmuşdur.

*Çernoqoriya* 2006-cı ildən etibarən müstəqil dövlətdir.

*Avropanın* cənub-şərq hissəsində, *Balkan* yarımadasının *Adriatik dənizi* sahilində yerləşən *Çernoqoriya Respublikasının* paytaxtı *Podqoritsa* şəhəridir.

Ölkənin ərazisi 13,812 km², əhalisi *(2011)* 625 266 nəfərdir *(əhali sıxlığı 50 nəfər/km²).*

*Çernoqoriyanın* rəsmi dövlət dili *çernoqor* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.771* – yüksəkdir *(54-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik Respublikadır. Milli bayram günü olan müstəqillik Günü (2006) iyun ayının 3-də qeyd olunur. Ölkə Konstitusiyası 19 oktyabr 2007-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 21 əyalətə *(Andreyevitsa, Bar, Berane, Bielo-Pole, Budva, Danilovqrad, Jablyak, Kolaşin, Kotor, Maykovats, Nikşiç, Plav, Plevlya, Plujine, əsas şəhər sayılan Podqoritsa, Rojae, Tivat, Ultsin, Herseq-Novi, paytaxt Setine və Şavnik obşinalarına)* bölünür.

***Dövlət başçısı:*** Birbaşa və gizli səsvermə yolu və iki dəfədən artıq olmamaq şərti ilə 5 il müddətinə seçilən *Prezident* bir

sıra icraedici funksiyalarla yanaşı, əsas etibarı ilə mərasim funksiyalarını yerinə yetirir.

Mövcud Konstitusiyaya görə, ölkə daxilində və onun hüdudlarından kənarda *Çernoqoriya Respublikasının* ali təmsilçisi sayılan, milli birliyin, ərazi bütövlüyünün və təhlükəsizliyinin, dövlət müstəqilliyinin, insan hüquq və azadlıqlarının təminatçısı olan dövlət başçısının səlahiyyət müddəti müharibə vəziyyətində uzadıla bilər, bununla belə *Çernoqoriya (Monteneqro) Prezidenti* vəzifə səlahiyyətlərini aşarsa, Konstitusiya Məhkəməsinin qərarına əsasən *Skupşina (Parlament)* tərəfindən vəzifəsindən geri çağırıla bilər.

Hazırkı, sayca 3-cü ölkə Prezidenti 21 may 2008-ci ildən (*06 aprel 2008-ci ildə keçirilmiş Prezident seçkilərində səslərin 51.9 %-ni, 07 aprel 2013-cü ildə isə 51.2%-ni qazanaraq qalib gəlmiş) Filip Vuyanoviçdir.*

***Qanunverici hakimiyyət:*** *Çernoqoriyanın (Monteneqronun)* ali qanunverici orqanı ümumi, bərabər və gizli seçki sistemi əsasında 4 il müddətinə seçilən, bir palatalı, 81 yerlik *Skupşinadan* ibarətdir.

Qanunların hazırlanmasını və qəbulunu, dövlət büdcəsinin müzakirəsini və təsdiq edilməsini, beynəlxalq müqavilələrin ratifikasiyasını, məhkəmə hakimlərinin təyinatını və Konstitusiya ilə müəyyən olunmuş digər vəzifələri həyata keçirən Parlament böyük səs çoxluğu ilə öz tərkibindən formalaşmış *Nazirlər Kabinetinə* etimadsızlıq göstərmək səlahiyyətlərinə malikdir.

*Şkupşinanın* hazırkı sədri 03 iyun 2006-cı ildən etibarən *Ranko Krivokapiçdir (Sosial-Demokratik Partiya).*

29 mart 2009-cu ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Skupşinada* təmsil olunan əsas siyasi partiyalar:

*Monteneqro Sosialistlərinin Demokratik Partiyası – 34 yer,*
*Monteneqro Sosialist Xalq Partiyası – 16 yer,*
*Monteneqro Sosial Demokratik Partiya – 9 yer,*

*Yeni Serb Demokratiyası – 8 yer,*
*Dəyişikliklər Partiyası – 6 yer,*
*Boşnak Partiyası – 3 yer və s.*

***İcraedici hakimiyyət:*** Tərkibi *Assambleya* tərəfindən səs çoxluğu ilə təsdiq edilən *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Qarşısında kollektiv məsuliyyət daşıdığı Parlamentdə çoxluq təşkil edən siyasi partiyanın üzvlərindən formalaşmış *Hökumət* xarici siyasət strategiyasını hazırlayır və həyata keçirir, fərman və digər normativ-hüquqi aktları qəbul edir, beynəlxalq müqavilələri imzalayır və Konstitusiyada təsbit edilən digər mühüm vəzifələri həyata keçirir.

*Baş nazir Hökumətin* işinə rəhbərlik edir və təklif olunan nazirlərin siyahısını, o cümlədən fəaliyyət proqramını *Şkupşinaya* təqdim edir.

04 dekabr 2012-ci il tarixindən etibarən *Çernoqoriyanın Baş naziri Monteneqro Sosialistlərinin Demokratik Partiyasının* təmsilçisi *Milo Cukanoviçdir*.

***Məhkəmə hakimiyyəti:*** Üzvləri *Şkupşina* tərəfindən təyin olunan iki kameralı *Ali Məhkəmə,* habelə *Konstitusiya Məhkəməsi* və müstəqil muxtar məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# DOMİNİKA





***Ümumi məlumat:*** *Dominika* 1493-cü ildə *Kolumb* tərəfindən kəşf edilmiş, XVII-XVIII əsrlərdə növbə ilə *Fransanın* və *İngiltərənin* ərazisi hesab edilmişdir. 1783-cü ildə qəti olaraq *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmişdir.

*Dominika* 1978-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Karib* dənizindəki *Kiçik Maldiv* adalarında yerləşən *Dominikanın* paytaxtı *Rozo* şəhəridir.

Ölkənin ərazisi 750 km², əhalisi *(2009)* 72 660 nəfərdir *(əhali sıxlığı 105 nəfər/km²).*

*Dominikanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.724* – yüksəkdir *(81-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü *(1978-ci il)* 03 noyabr tarixində qeyd edilir. Ölkə Konstitusiyası 1978-cı ilin noyabr ayından qüvvədədir.

**İnzibati bölgüsü:** Ölkə 10 məhəlli dairəyə *(Sent-Endryu, Sent-Devid, Sent-Corc, Sent-Con, Sent-Cozef, Sent-Lyuk, Sent-Mark, Sent-Patrik, Sent-Pol və Sent-Piter)* bölünür.

***Dövlət başçısı:*** Ardıcıl olaraq iki dəfədən çox olmamaq şərti ilə, 5 il müddətinə Parlament tərəfindən seçilən *Prezidentdir*. Dövlət başçısı müxalifət lideri ilə *(19 iyul 2010-cu ildən Hektor Con, UWP)* məsləhətləşdikdən sonra *Baş naziri*

və onun təqdimatına əsasən *Nazirlər Kabinetinin* digər üzvlərini təyin edir.

Prezident, səlahiyyətlərinin böyük bir qismini Hökumətin və ya aidiyyəti üzrə müvafiq nazirliyin tövsiyələri əsasında həyata keçirir. Dövlət başçısı istənilən anda *Baş nazirin* məsləhəti ilə Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək səlahiyyətlərinə malikdir.

*Dominika Leyborist Partiyasının* təmsilçisi *Eliud Uilyams* 17 sentyabr 2012-ci ildən etibarən Dominikanın hazırkı, sayca 7-ci Prezidentidir.

***Qanunverici hakimiyyət:*** Dominikanın ali qanunverici orqanı bir palatadan – 32 yerlik 5 il müddətinə seçilən *Assambleyadan* ibarətdir. Parlamentin 21 deputatı ümumi səsvermə yolu ilə çoxpartiyalı əsaslarla seçilirlər. 5 üzvü Baş nazirin, 4-ü isə müxalifət liderinin təqdimatı əsasında Prezident tərəfindən təyin olunan digər 9 deputat yerlərindən əlavə Assambleyanın 2 xüsusi statuslu üzvü vardır.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və bir sıra digər funksiyaları həyata keçirən Parlament, eyni zamanda *Hökumətə* etimadsızlıq göstərməklə onu istefaya göndərmək səlahiyyətinə malikdir.

17 aprel 2000-ci ildən etibarən Assambleyaya *Aleks Boyd Knayts* rəhbərlik edir.

4 dekabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində yalnız 2 siyasi partiya *Assambleyada* təmsil olunmaq hüququ əldə etmişdir:

*Dominika Leyborist Partiyası (Sosial-Demokratlar) - 18 yer, lideri Ruzvelt Skerrit,*

*Birləşmiş Fəhlə Partiyası - 3 yer, lideri Edison Ceyms.*

***İcraedici hakimiyyət:*** Hökumətə rəhbərliyi həyata keçirən *Baş nazir* və onun təqdim etdiyi hökumət üzvləri *(Assambleyada çoxluq təşkil edən Partiyanın üzvləri olmalıdır)* Prezident tərəfindən təyin olunur.

İcra hakimiyyətinə rəhbərlik edən *Hökumət,* Parlamentlə birlikdə qanunverici hakimiyyətin həyata keçirilməsində də müəyyən səlahiyyətlərə malikdir.

Dominika Respublikasının *Baş naziri* 08 yanvar 2004-cü ildən etibarən *Ruzvelt Skerritdir (DLP)*.

***Məhkəmə hakimiyyəti:*** Dominika məhkəmə-hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanır.

Eyni zamanda Konstitusiya nəzarəti orqanının səlahiyyətlərini də özündə ehtiva edən *Ali Məhkəmə,* habelə *Apelyasiya və aşağı instansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

# EFİOPİYA





***Ümumi məlumat:*** *Efiopiya Afrikanın* ən qədim dövlətçilik mərkəzlərindən biri sayılır. Eramızın əvvəllərində *Şimali Efiopiyanın* ərazisində iri quldar dövləti – *Aksum* meydana gəlmiş, XIII-XIV əsrlərdə isə, sonralar müstəqil knyazlıqlara parçalanmış *Efiopiya* feodal dövləti təşəkkül tapmışdır. Müstəmləkə istilaları dövründə ölkə öz müstəqilliyini qorumağa müvəffəq olmuşdur *(1936-1941-ci illərdə italyan işğalı istisna olmaqla).*

1993-cü ildə *Eritriya* rəsmən *Efiopiyanın* tərkibindən çıxmışdır.

*Şərqi Afrikada* yerləşən *Efiopiyanın* paytaxtı *Əddis-Əbəbə* şəhəridir.

Ölkənin ərazisi 1,104,300 km², əhalisi *(2012)* 91,195,675 nəfərdir *(əhali sıxlığı 76,4 nəfər/km²).*

*Efiopiyanın* rəsmi dövlət dili *amhar* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.363* – aşağıdır *(174-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik federal respublikadır. Ölkə Konstitusiyası 1995-ci ilin avqustundan qüvvədədir.

***İnzibati bölgüsü:*** Federal Respublika etnik əsaslara uyğun bölünmüş 9 rayondan *(Afar, Amxara, Benişanqul-Qumuz, Qambela, Xarari, Oromiya, Somali, Cənub Xalqları və Tıqray ştatları)* və 2 inzibati şəhər dairəsindən *(Əddis-Əbəbə və Dıre-Daua)* ibarətdir.

***Dövlət başçısı:*** *Prezident* Parlament *(Xalq Nümayəndələr Palatası)* tərəfindən, iki dəfədən çox olmamaq şərti ilə 6 il müddətinə seçilir.

Efiopiyada İcraedici hakimiyyətin həyata keçirilməsində dövlət başçısının səlahiyyətləri Baş nazirə nisbətən daha məhduddur. Belə ki, mövcud Konstitusiyaya görə, əsasən mərasim funksiyalarına malik olan ölkə Prezidenti, Baş nazirin təqdimatı ilə səfirlərin və digər diplomatik nümayəndələrin təyinatında, xarici ölkə səfirlərinin və xüsusi missiya rəhbərlərinin etimadnamələrini qəbul etməkdə, əfv fərmanı imzalamaqda, *Aşağı Palatanın* razılığı ilə qanunları və beynəlxalq müqavilələri rəsmən dərc etməkdə səlahiyyətlidir.

08 oktyabr 2001-ci ildən etibarən *Efiopiya Xalqlarının İnqilabi-Demokratik Cəbhəsi Partiyasının* təmsilçisi *Qırma Uolde-Giorgis Luça* Efiopiya Respublikasının hazırkı, sayca 4-cü *Prezidentidir (09 oktyabr 2009-cu ildə Parlament böyük səs çoxluğu ilə onu yenidən dövlət başçısı seçmişdir).*

***Qanunverici hakimiyyət:*** *Ölkə Parlamenti* 2 palatadan - *Federasiya Şurasından (Yuxarı Palata, 112 yer)* və *Xalq Nümayəndələr Palatasından (Aşağı Palata, 547 yer)* ibarətdir.

Efiopiya Konstitusiyasına görə *Federasiya Şurasında* ölkə ərazisində yaşayan xalqların hər birindən minimum bir nümayəndə təmsil olunur. Bundan başqa, əhalinin *(xalqların)* hər milyon nəfərinə bir üzv *Şurada* yer alır. *Yuxarı palata* Regionlar Şurası tərəfindən formalaşır.

*Xalq Nümayəndələr Palatasının* üzvləri ümumi seçkilərdə majoritar seçki sistemi əsasında 5 il müddətinə seçilirlər. *Aşağı Palatada* 22 deputat yeri etnik icmalar üçün nəzərdə tutulmuşdur.

Qanunların qəbulu ilə yanaşı beynəlxalq müqavilələrin ratifikasiyası, vergilərin tətbiqi və ləğvi, iqtisadi siyasətin ümumi istiqamətlərinin müəyyən edilməsi, fövqəladə vəziyyə-

tin tətbiqi və müharibə vəziyyəti elan edilməsi *Xalq Nümayəndələr Palatasının* səlahiyyətlərinə daxildir.

23 may 2010-cu ildə keçirilmiş son Parlament seçkilərində *Xalq Nümayəndələr Palatasına* mandat uğrunda mübarizə aparmış 63 partiya arasından qalib gəlmiş əsas siyasi partiyalar aşağıdakılardır:

*Efiopiya Xalqlarının İnqilabi-Demokratik Cəbhəsi – 499 yer,*
*Somalilərin Demokratik Partiyası - 24 yer,*
*Benişanqul-Qumuza Xalqlarının Demokratik Partiyası – 9 yer,*
*Afar Milli-Demokratik Partiyası – 8 yer,*
*Qambel Xalqlarının Birlik Demokratik Hərəkatı – 3 yer,*
*Xarara Milli Liqası – 1 yer,*
*Arqobba Xalqının Demokratik Təşkilatı – 1 yer,*
*Efiopiya Demokratik Birlik Forumu - 1 yer,*
*Müstəqillər – 1 yer.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyəti geniş səlahiyyətlərə malik olan və *Aşağı Palata* qarşısında kollektiv məsuliyyət daşıyan *Hökumət (Nazirlər Kabineti)* tərəfindən həyata keçirilir. Parlamentdə daha çox mandat əldə edən siyasi partiya tərəfindən formalaşdırılan Hökumətə *Xalq Nümayəndələr Palatası tərəfindən* seçilən *Baş nazir* başçılıq edir.

İcra hakimiyyəti strukturlarına rəhbərliklə yanaşı, *Nazirlər Kabineti* qanunvericilik və büdcə təşəbbüsü hüququna da malikdir.

21 sentyabr 2012-ci ildən etibarən *Efiopiya Xalqlarının İnqilabi-Demokratik Cəbhəsi Partiyasının* nümayəndəsi *Xaylemariam Desalen* ölkənin *Baş nazirdir.*

***Məhkəmə orqanı:*** Ən yüksək məhkəmə instansiyası sayılan *Federal Ali Məhkəmə* Efiopiyada məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. *FAM-ın* Prezidenti və vitse-prezidenti *Baş nazirin* təqdimatı ilə *Xalq Nümayəndələr Palatası* tərəfindən təyin edilir.

# ESTONİYA







***Ümumi məlumat:*** XIII-XVI əsrlərdə *Estoniyanın* indiki ərazisi alman dini-cəngavər ordenlərinə, sonrakı iki əsrlik dövrdə isə *İsveçə* məxsus olmuşdur.

*Estoniya* 1721-ci ildə *Rusiyanın* tərkibinə daxil olmuş, 1918-ci ildə dövlət müstəqilliyini elan etmiş, 1940-cı ildə isə sovet işğalına məruz qalaraq müttəfiq respublika statusunda SSRİ-nin tərkibinə daxil edilmişdir.

1990-cı ilin may ayında *Estoniya Respublikası* dövlət müstəqilliyini bərpa etmişdir.

*Şərqi Avropanın* şimal-qərb hissəsində, *Baltik* dənizinin sahilində yerləşən *Estoniyanın* paytaxtı *Tallin* şəhəridir.

Ölkənin ərazisi 45,227 km², əhalisi *(2012)* 1,294,236 nəfərdir *(əhali sıxlığı 29 nəfər/km²)*.

*Estoniyanın* rəsmi dövlət dili *eston* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.835* – çox yüksəkdir *(34-cü yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1918) 24 fevralda qeyd olunur. Estoniya Konstitusiyası 28 iyun 1992-ci ildə qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** 39 şəhər bələdiyyəsi də daxil olmaqla bütövlükdə 241 bələdiyyədən ibarət olan 15 *uyezdə (İda-Virumaa, Yıqevamaa, Lyanemaa, Lyane-Virumaa, Pılvamaa, Pyarnumaa, Raplamaa, Saaremaa, Tartumaa, mərkəzi paytaxt*

*Tallin olan Xaryumaa, Xiyumaa, Yarvamaa, Vırumaa, Vilyandimaa və Valqamaa maakondlarına*) bölünür.

***Dövlət başçısı:*** *Prezident Parlament* tərəfindən iki dəfədən çox olmamaqla 3 turdan ibarət seçkilərdə 5 il müddətinə seçilir. Prezidentliyə namizəd 3-cü turdan sonra səslərin 2/3-ni toplamazsa, o zaman Parlament və yerli bələdiyyə üzvləri tərəfindən yaradılmış seçki komissiyası daha çox səs toplamış iki namizədin arasından dövlət başçısını seçir.

Nominal olaraq Prezident siyasi həyatın əsas sahələri üzrə geniş səlahiyyətlərə malikdir. Belə ki, dövlət başçısı dövlətin müdafiəsinə rəhbərlik edir, Estoniya Respublikasını beynəlxalq münasibətlərdə təmsil edir, Hökumətin təqdimatı əsasında ölkənin diplomatik nümayəndələrini təyin və azad edir, qanunvericilik sahəsində qanunları dərc edir, zəruri hallarda 14 gün ərzində baxılması və qəbul edilməsi vacib olan qanun layihələrini *Riyqikoquya* geri qaytarır.

Qüvvədə olan Konstitusiyaya görə, Baş nazirin, Hökumət üzvlərinin və ona bərabər tutulan ali vəzifəli şəxslərin təyinatı və azad edilməsi dövlət başçısının səlahiyyətinə aiddir. Bununla belə, praktikada ölkə Prezidentinin səlahiyyətləri, dövlətə de-fakto rəhbərliyi həyata keçirən Baş nazirin səlahiyyətlərinə nisbətən daha məhduddur.

09 oktyabr 2006-cı ildən etibarən ölkənin hazırkı, sayca 4-cü Prezidenti *Estoniya Sosial Demokrat Partiyasının* təmsilçisi *Tomas Xendrik İlvesdir.*

***Qanunverici hakimiyyət:*** 4 il müddətinə seçilmiş 101 deputatdan ibarət birpalatalı Parlament – *Riyqikoqu* Estoniyanın ali qanunverici orqanıdır və xalq tərəfindən ümumi, birbaşa səsvermə yolu ilə seçilir.

Mövcud Konstitusiyaya əsasən qanun və qərarların qəbulu, referendum təyin edilməsi, Respublika Prezidentinin seçilməsi, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası və denonsasiyası, dövlət büdcəsinin qəbulu, hakimlərin və Milli

Bankın sədrinin seçilməsi, Hökuməti formalaşdırmaq üçün *Baş nazirə* geniş səlahiyyətlərin verilməsi, ölkədə fövqəladə vəziyyətin elan edilməsi, *Hökumətə* etimadsızlıq göstərilməsi və s. mühüm məsələlər Parlamentin səlahiyyətlərinə aiddir.

Parlamentin hazırkı, sayca 14-cü sədri 02 aprel 2007-ci ildən etibarən *Vətən İttifaqı və Respublika Partiyasının* üzvü *xanım Ene Erqmadır.*

6 mart 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Riyqikoquda* təmsil olunan partiyalar:

*Estoniya İslahatlar Partiyası – 33 yer,*
*Mərkəzçi Partiya – 26 yer,*
*Vətən İttifaqı və Respublika Partiyası – 23 yer,*
*Estoniya Sosial Demokrat Partiyası – 19 yer.*

***İcraedici hakimiyyət:*** Geniş səlahiyyətlərə malik olan və namizədliyi *Prezident* tərəfindən təsdiq olunan *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Şurası* ölkədə icra hakimiyyətini həyata keçirir. Bir qayda olaraq, Parlament seçkilərində üstünlük qazanmış siyasi partiyanın lideri Baş nazir təyin olunur.

*Nazirlər Şurasının* səlahiyyətlərinə dövlətin daxili və xarici siyasətini həyata keçirmək, dövlət idarə və müəssisələrinin fəaliyyətini istiqamətləndirmək və koordinasiya etmək, *Riyqikoquya* qanun layihələrini və xarici dövlətlərlə müqavilələri denonsasiya və ratifikasiya üçün təqdim etmək, dövlət büdcəsinin layihəsini işləyib hazırlamaq və Parlamentə təqdim etmək, digər dövlətlərlə münasibətləri qurmaq və inkişaf etdirmək, təbii fəlakət nəticəsində infeksion xəstəliklərin yayılmasının qarşısını almaq məqsədilə ölkədə və yaxud onun ayrı-ayrı bölgələrində fövqəladə vəziyyət tətbiq etmək və s. məsələlər daxildir.

Ölkənin hazırkı, sayca 10-cu *Baş naziri* 13 aprel 2005-ci ildən etibarən *Estoniya İslahatlar Partiyasının* lideri *Andrus Ansipdir.*

***Məhkəmə hakimiyyəti:*** Məhkəmə qərarlarına kasasiya qaydasında yenidən baxan və ölkədə konstitusional nəzarəti həyata keçirən *Estoniya Ali Məhkəməsi (Estoniya Dövlət Məhkəməsi)* ölkənin ən yüksək məhkəmə instansiyasıdır.

Dövlət Məhkəməsinin sədri Respublika Prezidentinin, üzvləri isə Parlamentin sədrinin təqdimatı ilə *Riyqikoqu* tərəfindən ömürlük təyin olunur. Digər məhkəmələrin hakimləri *Estoniya Dövlət Məhkəməsinin* təqdimatı ilə dövlət başçısı tərəfindən ömürlük təyin edilir.

# FİCİ





***Ümumi məlumat:*** XIX əsrin əvvəllərində avropalıların *Ficiyə* gəlişi, adalarda ibtidai-icma quruluşunun dağılması ilə nəticələnmiş, 1874-cü ildən isə bu torpaqlar tam olaraq *Böyük Britaniyanın* koloniyasına çevrilmişdir.

*Fici* 1970-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub hissəsində yerləşən *Ficinin* paytaxtı *Suva* şəhəridir.

Ölkənin ərazisi 18,274 km², əhalisi *(2009)* 849,000 nəfərdir *(əhali sıxlığı 46.4 nəfər/km²)*.

*Ficinin* rəsmi dövlət dili *ingilis və fici* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.688* – ortadır *(100-cü yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1970) 10 oktyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1997-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** *Fici* 4 inzibati *(Şərqi, Qərbi, Şimali, Mərkəzi)* və 1 tabeli dairəyə *(Rotum)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan Prezident - *Rəhbərlərin Böyük Şurası* tərəfindən 5 illik müddətə seçilir.

*Ficidə* Prezident Britaniya monarxiya modeli nümunəsi əsasında idarəetmə sisteminə uyğun olaraq, yalnız milli böhran

dövründə tətbiq edilməsi nəzərdə tutulan müəyyən hakimiyyət səlahiyyətlərinə malikdir.

Ölkədə ən nüfuzlu icma liderlərindən ibarət *Rəhbərlərin Böyük Şurası* və dövlət əhəmiyyətli məsələlərlə bağlı Prezidentə məsləhət verən *Prezident Şurası* da fəaliyyət göstərir.

Fici Respublikasının hazırkı, sayca 5-ci *Prezidenti* 30 iyul 2009-cu ildən etibarən *Epeli Nailatikaudur.*

***Qanunverici hakimiyyət:*** *Fici Parlamenti* 2 palatadan - *Senat* (32 yer) və *Nümayəndələr Palatasından (71 yer*) ibarətdir. Senata üzvlər Rəhbərlərin Böyük Şurasının (14), Baş nazirin (9), müxalifət liderinin (8) və Rotum Adaları Şurasının (1) təqdimatlarına əsasən formal olaraq Prezident tərəfindən seçilirlər. Nümayəndələr Palatasının 25 üzvü ümumi seçkilərdə 5 il müddətinə seçilirlər. Palatanın qalan 46 yeri isə etnik icmalar üçün nəzərdə tutulur *(ficili - 23, hind-ficili - 19, rotumlu - 1, avropalıları, çinliləri və digər azlıqları təmsil edən - 3 ümumi namizəd).*

Mövcud Konstitusiyaya görə *Senat (Yuxarı Palata) Nümayəndələr Palatasına (Aşağı Palata)* nisbətən daha məhdud hakimiyyətə malikdir.

06-13 may 2006-ci il tarixlərində keçirilmiş son Parlament seçkilərində *Nümayəndələr Palatasında* mandat uğrunda mübarizə aparmış əsas siyasi partiyalar:

*SDL (44.59% səs),*
*Fici Əmək Partiyası (39.18%),*
*Milli Federasiya Partiyası (6.20%),*
*Fici Milli Alyans Partiyası (2.93%),*
*Xalq Birliyi Partiyası (0.84%).*

***İcraedici hakimiyyət:*** Prezident formal olaraq *Nümayəndələr Palatası* üzvlərinin əksəriyyətinin dəstəyini qazanmalı olan Baş naziri təyin edir. Təcrübə göstərir ki, adətən iri siyasi partiyanın və ya koalisiyanın lideri Baş nazir olur və bu baxımdan Baş nazirin Prezident tərəfindən təyinatı formal

sayılır. Lakin, bəzi hallarda Parlamentdə razılıq əldə edilmədikdə Prezident arbitr rolunu üzərinə götürür və bütün siyasi fraksiyalarla müzakirələrdən sonra *Nümayəndələr Palatasının* əksəriyyətinin dəstəklədiyi şəxsi Baş nazir təyin edir.

*Baş nazirin* təyinatı ilə yanaşı, icraedici hakimiyyəti təmsil edən 10-25 nazirdən ibarət *Kabineti* də formal olaraq Prezident təyin edir. Konstitusiyaya görə Kabinet *Nümayəndələr Palatasının* siyasi tərkibini əks etdirməlidir *(Palatada 8-dən artıq yer əldə etmiş hər bir partiya Kabinetdə proporsional qaydaya uyğun yerlərə sahib olur).*

Ficinin hazırkı, sayca 11-ci *Baş naziri* 05 yanvar 2007-ci ildən etibarən *Frenk Mbainimaramadır.*

***Məhkəmə hakimiyyəti:*** Fici Respublikasının hüquq sistemi Britaniya hüquq sisteminə əsaslanır.

Ölkədə məhkəmə hakimiyyəti, hakimləri ölkə Prezidenti tərəfindən təyin olunan *Ali Məhkəmə,* habelə *Apelyasiya, Magistrat* və *1-ci instansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

# XORVATİYA

  

***Ümumi məlumat:*** VI-VII əsrlərdə *Xorvatiyanın* indiki ərazisində slavyanlar məskunlaşmış, 1102-ci ildə ölkə özünü-idarəetmə statusunu saxlamaq şərti ilə, macar krallarının hakimiyyətinə tabe edilmişdir.

XVI əsrin sonlarında *Xorvatiya* ərazisinin böyük bir hissəsi *Osmanlı İmperiyası* tərəfindən fəth edilmiş, XVII əsrin ikinci yarısında isə *Avstriya İmperiyasının* təsir dairəsinə daxil olmuşdur. Birinci dünya müharibəsinin nəticələrinə əsasən ölkə *Yuqoslaviyanın* tərkibinə daxil edilmişdir. 1941-ci ildə müstəqilliyini elan etmiş *Xorvatiya,* 1945-ci ildən *YSFR-in* tərkibində respublika olmuşdur.

1991-ci ildən etibarən müstəqil dövlətdir.

*Avropanın* cənub-şərq hissəsində yerləşən *Xorvatiya Respublikasının* paytaxtı *Zaqreb* şəhəridir.

Ölkənin ərazisi 56,594 km², əhalisi *(2011)* 4,290,612 nəfərdir *(əhali sıxlığı 75,8 nəfər/km²).*

*Xorvatiyanın* rəsmi dövlət dili *xorvat* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.796* – çox yüksəkdir *(46-cı yer).*

***Dövlət quruluşu:*** Parlament idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1991-ci il) 30 may tarixində qeyd edilir. Ölkə Konstitusiyası 1990-cı ilin dekabr ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** 21 jupaniyə *(Belovarsk-Biloqorsk, Brodsk-Pasovsk, Primorsk-Qoransk, Varajdinsk, Viroviti-*

*Podravsk, Vukavarsko-Sremsk, Dubrovnisk-Neretvansk, Zaqreb-şəhər, Zaqreb-vilayət, Zadar, İstriya, Karlovaska, Split-Dalmatinsk. Şibensk-Kninsk və s.)* bölünür.

***Dövlət başçısı:*** Ümumi səsvermə yolu ilə, iki dəfədən artıq olmamaq şərti ilə, 5 il müddətinə seçilən *Prezident* Xorvatiyanın dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanıdır.

Xorvatiya Respublikasının ölkə daxilində və xarici əlaqələr sistemində ali təmsilçisi, habelə Konstitusiyanın və dövlət orqanlarının müntəzəm fəaliyyətinin təminatçısı sayılan Prezident *Saborun* razılığı ilə *Baş naziri* təyin etmək, Parlamentlə birlikdə xarici siyasət kursunu həyata keçirmək və Konstitusiya ilə nəzərdə tutulan digər məsələlərin həllində mühüm səlahiyyətlərə malikdir.

10 yanvar 2010-cu ildə keçirilmiş Prezident seçkilərində *İvo Yosipoviç* qalib gələrək dövlət başçısı seçilmişdir.

***Qanunverici hakimiyyət:*** *Xorvatiyanın* ali qanunverici orqanı bir palatadan - *Assambleyadan (Sabordan,* 151 nəfər) ibarətdir. Parlamentin üzvləri ümumi səsvermə yolu ilə dörd il müddətinə seçilirlər.

*Sabor* yeni Konstitusiyanın qəbulunda və mövcud Konstitusiyaya düzəlişlər edilməsində, qanunların hazırlanması və qəbulunda, dövlət büdcəsinin təsdiq edilməsində, sülh və müharibə ilə bağlı qərarların verilməsində, Respublikanın sərhədlərinin dəyişdirilməsində, amnistiya və referendum məsələləri üzrə qərarların qəbulunda, habelə *Hökumətin* strukturlarının ümumi fəaliyyətinə nəzarət edilməsində səlahiyyətlidir.

Eyni zamanda Parlament, qanunvericilik fəaliyyəti ilə yanaşı icra hakimiyyətinə nəzarət funksiyasını həyata keçirmək səlahiyyətinə də malikdir.

04 dekabr 2011-ci ildə keçirilmiş son parlament seçkiləri nəticəsində *Assambleyada* təmsil olunan partiyalar:

*Sosial Demokratlar Partiyası (SDP) - 60,*

*Xorvatiya Demokratik Birliyi (HDR) - 45,*
*Xorvatiya Xalq Partiyası (HNS)-14,*
*Əmək Partiyası (Leyboristlər) – 6,*
*İstriya Demokratik Assambleyası(İDS)- 3,*
*Xorvatiya Təqaüdçülər Partiyası (HSU)-3,*
*Müstəqil Demokratik Serb Partiyası (SDSS)-3*
*Xorvatiya Vətəndaş Partiyası – 2,*
*Digərləri - 15.*

***İcraedici hakimiyyət:*** *Hökumətə* rəhbərliyi həyata keçirən *Baş nazir* tərəfindən təqdim edilmiş 17 hökumət üzvü *(baş nazirin müavinləri və nazirlər)* ölkə Parlamenti tərəfindən təsdiq edilir.

Hökumət qanunvericiliyə və büdcəyə edilən təkliflərə, qanunların icrasına, habelə onun rəhbərliyi ilə birlikdə yürüdülən daxili və xarici siyasət kursuna görə Prezident və Parlament qarşısında kollektiv məsuliyyət daşıyır.

*Sosial Demokratlar Partiyasının* lideri *Zoran Milanoviç* 23 dekabr 2011-ci ildən *Baş nazir (İcraedici hakimiyyətin başçısı)* təyin olunmuşdur.

***Məhkəmə hakimiyyəti:*** *Ali Məhkəmə və Konstitusiya Məhkəməsi tərəfindən həyata keçirilir.* Hər iki məhkəmənin hakimləri Assambleyanın seçdiyi *Respublika Hakimlər Şurası* tərəfindən 8 il müddətinə təyin olunur.

Bundan əlavə, Xorvatiyada bir sıra ixtisaslaşmış və aşağı *(yerli)* instansiya məhkəmələri də fəaliyyət göstərir.

# İRAQ









***Ümumi məlumat:*** Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri sayılan *Aşağı Mesopotamiya* bölgəsində qurulmuş *İraq* dövlətinin indiki ərazisi 633-642-ci illər arasında *Ərəb Xilafəti* torpaqlarına daxil edilmiş, *Əməvilər və Abbasilər* xilafəti dönəmində özünün ən parlaq dövrünü yaşamışdır.

637-ci ildə müsəlmanlar tərəfindən fəth edilmiş *İraq, Xəlifə Əlinin* dövründə İslamın mərkəzi halına gətirilmiş və xilafətin paytaxtı *Kufəyə* köçürülmüşdür. *Əməvilər* dövründən sonra *Abbasilər* bölgəyə hakim olmuş, daha sonra 1055-ci ildən etibarən bu ərazi *Səlcuqluların* hakimiyyətinə tabe olmuşdur.

*İraq* ərazisi 1258-ci ildən etibarən iki əsrlik *Monqol* istilasına məruz qalmışdır.

XVII əsrdən 1918-ci ilə qədər *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuş *İraq,* 1920-ci ildə ingilis mandatına verilmişdir.

1930-cu ildə *İraq* hökuməti müstəqil bir dövlət olmaq yolunda *İngiltərə* ilə razılıq əldə etmiş və 1932-ci ildə müstəqilliyini elan etmişdir *(1958-ci ildən respublikadır).*

*Asiyanın* cənub-qərb hissəsində, *Yaxın Şərq* bölgəsində yerləşən *İraq Respublikasının* paytaxtı *Bağdad* şəhəridir.

Ölkənin ərazisi 438,317 km², əhalisi *(2012)* 31,129,225 nəfərdir *(əhali sıxlığı 71 nəfər/km²).*

*İraqın* rəsmi dövlət dili *ərəb və kürd* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.573* – ortadır *(132-ci yer).*

***Dövlət quruluşu:*** 2005-ci ildən qüvvədə olan ölkə Konstitusiyasına görə *İraq* - parlament formasında idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1932) 03 oktyabrda qeyd olunur.

***İnzibati bölgüsü:*** 18 bölgədən *(mühafazatdan*) ibarətdir *(Əl-Anbar, Əl-Bəsrə, Əl-Müthənnə, Əl-Qədisiyyə, Ən-Nəcəf, Ərbil, Əs-Süleyməniyyə, Ət-Təmim, Bəbil, Bağdad, Dahuk, Di Qar, Diyala, Kərbəla, Meysən, Ninava, Sələhəddin, Vəsit).*

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə İraqın müstəqilliyinin və suverenliyinin, habelə ölkədə milli birliyin qarantı olan *Prezident - Nümayəndələr Məclisi (Parlament)* tərəfindən 2/3 səs çoxluğu ilə, iki dəfədən artıq olmamaq şərti ilə, 4 il müddətinə seçilir.

İraq Prezidenti *Nümayəndələr Məclisi* tərəfindən qəbul olunan müqavilələri və qanunları ratifikasiya edir, Baş nazirin təqdimatına əsasən əfv fərmanı imzalayır, "təntənəli və fəxri" məqsədlər üçün silahlı qüvvələrinin Ali Baş Komandanı vəzifəsini həyata keçirir.

2005-cı ilin aprel ayından İraqın Prezidenti *Calal Talibanidir.* 2010-cu il noyabr ayının 11-də keçirilmiş növbəti Prezident seçkilərində o, böyük səs çoxluğu ilə qalib gələrək yenidən dövlət başçısı seçilmişdir.

Dövlətin idarə edilməsində Prezidentə vitse-prezident *(31 may 2011-ci ildən etibarən Tariq əl-Haşimidir)* köməklik edir.

***Qanunverici hakimiyyət:*** 5 ildən bir seçki əsasında formalaşan *Nümayəndələr Məclisidir.* Qanunvericilik məsələləri ilə məşğul olan 325 üzvdən ibarət *Nümayəndələr Məclisi* aşağı palata sayılır. Nəzərdə tutulan *Yuxarı Palata (İttifaq Şurası)* hələ formalaşmamışdır.

Qanunvericilik hakimiyyəti ilə yanaşı İraq Prezidentinin seçilməsi, Federal Kasasiya Məhkəməsi üzvlərinin, Baş Pro-

kurorun, Ali Məhkəmə Şurasının təklifi ilə Məhkəmə Nəzarət Komissiyasının Prezidentinin, Ordu və qərargah rəisinin təyin və təsdiq edilməsi Parlamentin səlahiyyətlərinə aiddir.

*Nümayəndələr Məclisinin* 07 mart 2010-cu ildə seçilmiş siyasi partiyalardan ibarət hazırkı tərkibi:

*Əl İraqiyyə – 91,*
*Qanuni Dövlətə Dəstək Koalisiyası – 89,*
*İraq Milli Alyansı – 70,*
*Kürdüstan – 43,*
*İslahatlar Uğrunda Hərəkat – 8,*
*Kürd İslam İttifaqı – 6,*
*İraq Birliyi – 3.*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* başçılıq etdiyi *Hökumət (Nazirlər Kabineti)* iri parlament fraksiyasından formalaşaraq icra hakimiyyətini həyata keçirir.

Yeni konstitusiyaya əsasən, dövlətin daxili və xarici siyasət kursunu həyata keçirən *İraq hökumətinin* idarə edilməsində *Baş nazirə* əlavə olaraq geniş səlahiyyətlər vermişdir.

20 may 2006-cı il tarixindən etibarən *İraq Respublikasının* hazırkı *Baş naziri Nuri əl-Malikidir.*

***Məhkəmə hakimiyyəti:*** *İraqın* Federal məhkəmə sistemi *Ali Məhkəmə Şurası, Ali Məhkəmə, Federal Kasasiya Məhkəməsi, İctimai Prokurorluq İdarəsi, Məhkəmə Nəzarət Komissiyası,* habelə digər federal və bir sıra ixtisaslaşmış yerli məhkəmələrdən ibarətdir.

# İRLANDİYA

  

***Ümumi məlumat:*** Erkən orta əsrlərdə *İrlandiya adasında* bir-biri ilə müharibə edən bir neçə feodal dövləti təşəkkül tapmışdır. XII-XVI əsrlərdə *İrlandiya Böyük Britaniya* tərəfindən işğal edilərək ingilis koloniyasına çevrilmişdir. 1921-ci ildə İrlandiyanın böyük bir hissəsi *Böyük Britaniyanın* dominionu statusunu almışdır.

1937-ci ildə müstəqilliyini elan etmiş *İrlandiya,* 1949-cu ildə *Birləşmiş Krallığın* tərkibindən çıxmaqla, dövlət səviyyəsində *Böyük Britaniya* ilə bütün rəsmi əlaqələrinə son qoymuşdur.

Bununla belə, adanın şimal hissəsi *(Şimali İrlandiya) Böyük Britaniyanın tərkibinə daxildir.*

*Qərbi Avropada* yerləşən *İrlandiya Respublikasının* paytaxtı *Dublin* şəhəridir.

Ölkənin ərazisi 70,273 km², əhalisi *(2011)* 4,588,252 nəfərdir *(əhali sıxlığı 65,3 nəfər/km²).*

*İrlandiyanın* rəsmi dövlət dili *irland və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.908* – çox yüksəkdir *(7-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1922) 6 dekabrda qeyd olunur. Ölkə Konstitusiyası 29 dekabr 1937-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 26 dairədən ibarət 4 əyalətə *(Konnaxt, Lenster, Manster və Olster)* bölünür.

***Dövlət başçısı:*** Əhali tərəfindən 7 illik müddətə seçilən və daha çox mərasim funksiyalarını yerinə yetirən *Prezident* - Hökumətin təklifi əsasında Parlamentin *Aşağı Palatasını* çağırmaq və buraxmaq, qanunları imzalamaq, hakimləri və digər yüksək vəzifəli şəxsləri təyin və azad etmək, habelə silahlı qüvvələrə rəhbərlik etmək hüququna malikdir.

35 yaşına çatmış İrlandiya Respublikasının vətəndaşı Prezidentliyə namizəd ola bilər. Prezidentliyin birinci müddəti üçün seçkilər ərəfəsində iddiaçının namizədliyi ölkə Parlamentinin ən azı 20 üzvü və ya minimum 4 Şəhər Şurası tərəfindən irəli sürülməlidir. Prezidentliyin İkinci müddətinə isə, iddiaçı namizədliyini müstəqil şəkildə irəli sürə bilər.

Ölkənin hazırkı, sayca 9-cu Prezidenti 11 noyabr 2011-ci ildən etibarən *Maykl Xiqqinsdir*.

***Qanunverici hakimiyyət:*** Prezidentin də daxil olduğu ikipalatalı *Parlament* - ölkə əhalisi tərəfindən ümumi, birbaşa və gizli səsvermə əsasında, proporsional nümayəndəlik sistemi üzrə seçilən *Nümayəndələr Palatasından (160-170 yer, sədri 09 mart 2011-ci ildən Şon Barretdir)* və 11 üzvü Baş nazir tərəfindən təyin olunan, 6 üzvü Milli və Dublin Universitetləri tərəfindən seçilən, 43 üzvü isə dolayı yolla keçirilən seçkilərdə xüsusi siyahılar üzrə *(bu siyahıya namizədlər müxtəlif təşkilatlar və birliklər tərəfindən irəli sürülür)* seçilən *Senatdan (60 yer, sədri Peddi Byorkdur)* ibarətdir.

Senata seçkilər üzrə *Seçki kollegiyası* Nümayəndələr Palatasının, Bələdiyyə və Qraflıq Şurasının üzvlərindən ibarət olan 900 nəfərdən ibarətdir. Hər iki palatanın səlahiyyət müddəti 7 ildir.

*Senat* və *Nümayəndələr Palatası* Konstitusiyaya görə geniş səlahiyyətlərə malik olsa da, Hökumətin fəaliyyətinə münasibətdə onların hüquqları eyni deyil *(Aşağı Palata bu baxımdan üstün mövqeyə malikdir)*.

2011-ci il Parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* təmsil olunan əsas siyasi partiyalar:

*Fine Qeyl Partiyası (lideri Kenni Enda, 76 deputat),*
*Leyboristlər Partiyası (lideri İmon Gilmor, 37),*
*Fianna Fayl Partiyası (lideri Maykl Martin, 19),*
*Şin Feyn Partiyası (lideri Cerri Adams, 14),*
*Sosialist Partiyası (lideri Co Xiqqins, 2).*

***İcraedici hakimiyyət:*** Ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsində bilavasitə iştirak edən icra Hakimiyyətinin faktiki başçısı *Nümayəndələr Palatası* tərəfindən irəli sürülən və ölkə Prezidenti tərəfindən təsdiq edilən *Baş nazirdir.* 7-15 üzvdən ibarət olan və Parlamentdə yer alan Hökumət üzvləri ilə birlikdə Baş nazir Hökuməti idarə edir.

Mövcud Konstitusiyada *Hökumətin* qanunvericilik hüququ təsbit olunmasa da, Parlamentin tapşırığı əsasında Kabinetin ayrı-ayrı üzvləri qanunvericilik hakimiyyətini həyata keçirə bilərlər. *İrlandiya Hökuməti* öz fəaliyyətinə görə ali qanunverici orqan qarşısında kollektiv məsuliyyət daşıyır.

Ölkənin hazırkı *Baş naziri* 09 mart 2011-ci ildən etibarən *Fine Qeyl Partiyasının* lideri *Enda Kennidir*.

***Məhkəmə hakimiyyəti:*** İrlandiya Respublikasının məhkəmələri Prezident tərəfindən təyin edilən və ən yüksək məhkəmə instansiyası sayılan, 7 hakimdən ibarət *Ali Məhkəmədən*, *Cinayət Apelyasiya Məhkəməsindən,* habelə dairə və rayon məhkəmələrindən ibarətdir.

# İSLANDİYA

  

***Ümumi məlumat:*** *İslandiya,* 1380-ci ildən XX əsrin əvvəllərinə qədər beş yarım əsrlik dövr ərzində *Danimarkanın* ərazisi sayılmışdır.

1918-ci ildə *İttifaqda* qalmaq şərti ilə, müstəqilliyini əldə etməyə müvəffəq olmuş *İslandiya,* 1944-cü ildən etibarən respublikadır.

*Atlantik okeanının* şimal hissəsində yerləşən *İslandiya Respublikasının* paytaxtı *Reykyavik* şəhəridir.

Ölkənin ərazisi 103,001 km², əhalisi *(2012)* 320,060 nəfərdir *(əhali sıxlığı 3,1 nəfər/km²).*

*İslandiyanın* rəsmi dövlət dili *island* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.898* – çox yüksəkdir *(14-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram olan müstəqillik günü (1944) 17 iyunda qeyd olunur. Ölkə Konstitusiyası 1944-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 23 sislaya *(Dalasisla, Strandasisla, Arnessisla, Vestur-Hunavatnsisla, Vestur-Skaftafellsisla və s.)* və 24 inzibati şəhər dairələrinə *(Akranes, Reykyavik, Dalvik, Keblavik, Selfoss, Oulavsfik və s.)* bölünən 8 regiondan *(Vesturland, Vestfirdir, Nordyurland-Vestra, Nordyurland-Eystra, Sudurnes, Syudyurland, Xevyurdborqarsvaydid və Eystyurland)* ibarətdir.

***Dövlət başçısı:*** *Prezident* əhali tərəfindən birbaşa ümumi seçkilərdə 4 illik müddətə seçilir. Mövcud Konstitusiyaya görə, Prezident digər dövlət orqanları ilə birlikdə icra hakimiyyətini, o cümlədən *Altinqlə* birlikdə qanunverici hakimiyyəti həyata keçirir. Bu baxımdan, dövlət başçısı həm icraedici, həm də qanunverici hakimiyyətin daşıyıcısıdır.

29 iyun 1996-cı ildən İslandiya *Prezidenti Oulavyur Raqnar Qrimssondur (29 iyun 2000-ci ildə digər namizədlərin olmaması səbəbindən 2-ci müddətə, 26 iyun 2004-cü ildə 3-cü müddətə , 01 avqust 2008-ci ildə isə alternativsiz 4-cü müddətə Prezident seçilmişdir*).

***Qanunverici hakimiyyət:*** Üzvləri birbaşa seçkilərdə 4 il müddətinə seçilən 63 yerlik birpalatalı *Parlamentdir (Altinq).* Parlament üzvləri ölkə Prezidentini öz aralarından seçirlər.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və funksiyaları ilə yanaşı, *Altinqin* Hökumətin fəaliyyətinə nəzarət etmək və zəruri hallarda ona etimadsızlıq göstərmək səlahiyyətləri də vardır.

14 may 2009-cu ildən etibarən *Altinqin* sədri *Asta Yohanesdortdur.*

27 aprel 2013-cü il tarixində keçirilmiş son parlament seçkilərində Altinqdə yer almış ölkənin əsas siyasi partiyaları:

*Müstəqillik Partiyası (19 yer),*
*Tərəqqi Partiyası (19),*
*Sosial-Demokratik Alyans (9),*
*Sol Yaşıllar Hərəkatı (7),*
*İşıqlı Gələcək (6)*
*Pirat Partiyası (3).*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyəti funksiyalarının böyük bir hissəsi İslandiya Respublikasının Prezidenti tərəfindən təyin olunan *Baş Nazirin* və onun rəhbərlik etdiyi *Nazirlər Kabinetinin* əlində cəmlənmişdir. Geniş səlahiyyət-

lərə malik olan *İslandiya Kabinetin* tərkibi *Altinqə* seçkilərdən dərhal sonra dövlət başçısı tərəfindən təyin olunur. İslandiya Hökuməti hal-hazırda iki siyasi partiyanın: *Sosial-Demokratların* və *Sol Yaşılların* nümayəndələrindən ibarətdir.

01 fevral 2009-cu ildən etibarən ölkənin hazırkı, sayca 37-ci Baş naziri *xanım Yohanna Siqurdardottirdir (Sosial-Demokratik Alyans).*

***Məhkəmə hakimiyyəti:*** Skandinav hüquq sisteminə daxil olan İslandiyada məhkəmə hakimiyyəti, hakimləri ölkənin Ədliyyə naziri tərəfindən ömürlük təyin edilən *Ali Məhkəmə, habelə 8 dairə məhkəməsi* tərəfindən həyata keçirilir.

Eyni zamanda ölkədə ixtisaslaşmış *(əmək, dini və s.)* məhkəmələr də fəaliyyət göstərir.

# KABO – VERDE





***Ümumi məlumat:*** XV əsrin ortalarından etibarən *Kabo-Verde* adaları portuqallar tərəfindən işğal edilərək müstəmləkəyə çevrilmişdir.

1975-ci ildə *Kabo-Verde* dövlət müstəqilliyini elan etmişdir.

*Afrikanın* qərb sahillərində yerləşən *Kabo-Verde Respublikasının* paytaxtı *Praya* şəhəridir.

Ölkənin ərazisi 4,033 km², əhalisi *(2010)* 567,000 nəfərdir *(əhali sıxlığı 125,5 nəfər/km²)*.

*Kabo-Verdenin* rəsmi dövlət dili *portuqal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.568* – ortadır *(133-cü yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1975) 05 iyulda qeyd olunur. 1980-ci ildə qəbul edilmiş ilk ölkə Konstitusiyasına 25 sentyabr 1992-ci ildə çox mühüm və zəruri dəyişikliklər edilmiş və Yeni Konstitusiya qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 22 bələdiyyəyə *(Portu-Novu, Paul, Tarrafal, San-Mihel, San-Salvador Mundu, Santa-Kruz, San-Dominqus, Praya, Santa-Katarina, Brava, Boavişta, San-Visente, Sal, Ribeyra-Qrande de Santyaqu, Tarrafal-de San-Nikolau, San-Filipe, Muşteyruş, San-Lorense duş Orqayş, Mayu, Ribeyra-Brava və Ribeyra-Qrande)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilən *Prezident* milli birliyin və dövlətçiliyin, ərazi bütövlüyünün və milli müstəqilliyin, Konstitusiyanın və beynəlxalq sazişlərin qorunmasının təminatçısıdır.

Dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan Kabo-Verde Prezidenti Parlamentin təqdimatına əsasən *Baş naziri, Hökumət* başçısının tövsiyəsinə uyğun olaraq isə digər nazirləri təyin və zəruri hallarda vəzifələrindən kollektiv şəkildə azad edir.

*Kabo-Verdenin* hazırkı, sayca 4-cü Prezidenti 09 sentyabr 2011-ci ildən etibarən *"Demokratiya Naminə Hərəkat"* Partiyasının nümayəndəsi *Jorje Karluş Fonsekadır.*

***Qanunverici hakimiyyət:*** Üzvləri proporsional təmsilçilik sistemi üzrə 5 il müddətinə seçilən 72 yerlik birpalatalı *Parlamentdir (Milli Assambleya, sədri Basilio Mosso Ramosdur).*

*Milli Assambleya* fundamental qanunların qəbulunu, illik dövlət büdcəsinin təsdiqini, beynəlxalq müqavilələrin imzalanmasını və qüvvədə olan Konstitusiyaya nəzarəti təmin edir.

06 noyabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş əsas siyasi partiyalar:

*PAİCV (Müstəqil Kabo-Verde Afrika Partiyası) – 37 yer, lideri J.M.Neves,*

*Demokratiya Naminə Hərəkat Partiyası - 33 yer, lideri Karlos Veyqa,*

*Demokratik və Müstəqil Kabo-Verde İttifaqı- 2 yer.*

***İcraedici hakimiyyət:*** Dövlətin daxili və xarici siyasət strategiyasının həyata keçirilməsində səlahiyyətli olan və fəaliyyəti ilə bağlı *Milli Assambleya* qarşısında kollektiv siyasi məsuliyyət daşıyan *Hökumətin* başçısı, Parlament tərəfindən seçilən və *Kabo-Verde Prezidenti* tərəfindən təyin edilən *Baş nazirdir.*

Dövlət başçısının təsdiq etməli olduğu *Hökumətin* kollegial orqanının - *Nazirlər Kabinetinin (Prezident bəzi hallarda Baş nazirin xahişi ilə Kabinetin iclaslarına sədrlik edir)* tərkibini formalaşdırmaq *Baş nazirin* səlahiyyətlərinə daxildir.

*Kabo-Verdenin Baş naziri* 01 fevral 2001-ci il tarixindən etibarən *Joze Mariya Nevesdir (PAİCV)*.

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti 5 hakimdən ibarət *Ali Məhkəmə* və regional məhkəmələr tərəfindən həyata keçirilir. Ali Məhkəmənin üzvlərinin biri *Prezident*, digəri *Milli Assambleya*, digər 3 hakimi isə *Ali Məhkəmə Şurası* tərəfindən təyin edilir.

Ən azı üç hakimdən ibarət olan *Konstitusiya Məhkəməsi* ölkə ərazisində Konstitusiya nəzarətini həyata keçirir, dövlət başçısının fəaliyyət qabiliyyətsizliyini müəyyənləşdirir, siyasi partiyaların fəaliyyətinin qanunauyğunluğunu və seçki prosesinin şəffaflığını araşdırır.

# LATVİYA





***Ümumi məlumat:*** Orta əsrlərdə *Latviyanın* indiki ərazisi *alman* dini-cəngavər ordenlərinin, habelə *Polşa və İsveçin* tərkibinə daxil olmuşdur.

*Riqa* şəhəri ilə birlikdə müasir *Latviyanın* əsas hissəsi 1721-ci ildə, digər torpaqları isə 1795-ci ildə *Rusiya İmperiyasının* tərkibinə daxil olmuşdur. 1920-ci ildə dövlət müstəqilliyini elan etsə də, 20 il sonra - 1940-cı ildə isə sovet qoşunları tərəfindən işğal edilmiş *Latviya,* müttəfiq respublika statusunda SSRİ-nin tərkibinə daxil edilmişdir.

1990-cı ilin may ayında *Latviya Respublikası* dövlət müstəqilliyini bərpa etmişdir.

*Şərqi Avropanın* şimal-qərb hissəsində, *Baltik* dənizinin sahilində yerləşən *Latviyanın* paytaxtı *Riqa* şəhəridir.

Ölkənin ərazisi 64,589 $km^2$, əhalisi *(2012)* 2,217,053 nəfərdir *(əhali sıxlığı 34,3 nəfər/*$km^2$*)*.

*Latviyanın* rəsmi dövlət dili *latış* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.805* – çox yüksəkdir *(43-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1918) 18 noyabrda qeyd olunur. 4 may 1990-cı ildə Latviya öz müstəqilliyini bərpa etmişdir. 07 noyabr 1922-ci ildən qüvvəyə minmiş və o dövrdən bu günə qədər 11 düzəliş edilmiş Konstitusiya qüvvədədir.

***İnzibati bölgüsü:*** 483 bələdiyyədən ibarət 110 vilayətə və 9 respublika *(Riqa, Dauqavpils, Liepaya, Yelqava, Yurmala, Ventspils, Rezekne, Valmiera və Ekabpils)* əhəmiyyətli şəhərə bölünür.

***Dövlət başçısı:*** Respublikanın *Prezidenti* Parlament tərəfindən 4 il müddətinə seçilir. Konstitusiyaya əsasən eyni şəxs ardıcıl olaraq yalnız iki dəfə Prezident seçilə bilər. 40 yaşına çatmış və Latviya vətəndaşı olan istənilən şəxs Prezident seçilmək hüququna malikdir.

*Prezident* Parlamentdə qəbul edilmiş qanunları imzası ilə təsdiq etmək, *Baş naziri* vəzifəyə təyin etmək, Respublikanı ikitərəfli və çoxtərəfli beynəlxalq münasibətlər sistemində təmsil etmək, habelə dövlət başçısı kimi özünün də siyasi karyerası üçün kifayət qədər riskli addım sayılan Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək səlahiyyətlərinə malikdir.

08 iyul 2011-ci ildən etibarən Latviyanın Prezidenti *Yaşıllar və Kəndlilər İttifaqı Partiyasının* təmsilçisi *Andris Berzinşdir.*

***Qanunverici hakimiyyət:*** Proporsional seçki sistemi üzrə 4 il müddətində seçilən Latviya Parlamenti (*Seym)* bir palatalıdır və 100 deputatdan ibarətdir.

Seym Hökumətin tərkibini formalaşdırır, ölkə Prezidentini seçir, qanunvericilik aktlarını müzakirə və qəbul edir, dövlət başçısı tərəfindən təyin edilən *Baş nazirin* namizədliyini təsdiq və ya rədd edir.

2010-cu ildən Latviya Parlamentinin sədri *Vəhdət Partiyasının təmsilçisi olan* xanım *Solvita Aboltinyadır.*

01 oktyabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Seymdə təmsil olunan əsas siyasi partiyalar:*

*Razılıq Mərkəzi Partiyası - 31 yer,*
*Zatlersin İslahatları partiyası – 22 yer,*
*Vəhdət Partiyası – 20 yer,*

*Hər Şey Latviya Üçün Partiyası – 14 yer,*
*Yaşıllar və Kəndlilər İttifaqı – 13 yer.*

***İcraedici hakimiyyət*****:** Latviya Respublikasının *Nazirlər Şurasıdır*. Şuraya *Baş nazir* rəhbərlik edir. *Baş nazirin* namizədliyi Prezident tərəfindən irəli sürülür və Parlamentdə təsdiq edilir. Adətən parlament seçkilərində deputat yerlərinin əksəriyyətini qazanmış siyasi partiyanın lideri *Baş nazir* təyin olunur. Nazirlər Şurasının üzvləri Baş nazirin təqdimatı əsasında *Seym* tərəfindən təsdiq olunur.

*Seym* qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Şurası* ilk növbədə, fəaliyyət proqramını Parlamentə təqdim edərək onun etimadını qazanmalı və daha sonra funksiyalarının icrasına başlamalıdır. Mövcud Konstitusiyaya görə, *Seym Hökumətə* etimadsızlıq göstərdiyi təqdirdə, *Nazirlər Şurası* tam tərkibdə istefaya getməlidir.

Ölkənin hazırkı Baş naziri 12 mart 2009-cu ildən etibarən *Vəhdət Partiyasının* nümayəndəsi *Valdis Dombrovskisdir.*

***Məhkəmə hakimiyyəti:*** Üzvlərinin yuxarı yaş həddi 65 olan *Ali Məhkəmə* və *Konstitusiya Məhkəməsi* tərəfindən həyata keçirilir.

*Ali Məhkəmə* hakimlərinin təyinatı Parlament tərəfindən təsdiq edilir. Qanunların Konstitusiya ilə uyğunluğuna nəzarət edən və qərar vermək səlahiyyəti olan *Konstitusiya Məhkəməsinin* 7 üzvü də gizli səsvermə yolu ilə, Parlamentin mütləq səs çoxluğu ilə 10 il müddətinə təsdiq edilir.

*Latviya Respublikasında* rayon *(şəhər)* və dairə məhkəmələri, habelə İnzibati rayon *(birinci instansiya)* və İnzibati dairə *(apelyasiya)* məhkəmələri də fəaliyyət göstərir.

# LİVAN





***Ümumi məlumat:*** Eramızdan əvvəl IV-II əsrlərdə *Livan* ərazisində *Finikiya* şəhər-dövlətləri təşəkkül tapmışdır.

VII əsrdə *ərəblər* tərəfindən fəth edilmiş *Livan* torpaqları, 1517-1918-ci illərdə *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur. Birinci dünya müharibəsi zamanı *İngiltərə və Fransanın* işğalına məruz qalmış ölkə, 1922-ci ildə *Millətlər Liqasından* mandat almış fransızların idarəetməsinə verilmişdir.

1926-cı ildə formal olaraq *(Livanın xarici siyasət və müdafiə məsələlərinə Fransa nəzarət etmişdir)*, 1943-cü ildə isə de-fakto və de-yure dövlət müstəqilliyi elan edilmişdir.

*Qərbi Asiyada, Aralıq dənizinin* şərq sahilində yerləşən *Livan Respublikasının* paytaxtı *Beyrut* şəhəridir.

Ölkənin ərazisi 10,452 km$^2$, əhalisi *(2008)* 4,224,000 nəfərdir *(əhali sıxlığı 404 nəfər/km$^2$)*.

*Livanın* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.739 - yüksəkdir *(71-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1943) 22 noyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 23 may 1926-cı ildə qəbul edilmişdir.

Bütün dini konfessiaların dövlətin idarə edilməsində iştirakını təmin etmək məqsədilə, xristian və müsəlman icmaları liderlərinin 1943-cü ildə imzaladıqları *Milli Pakta* əsasən

ölkənin *Prezidenti* yalnız xristian maronit, *Baş nazir* sünni-müsəlman, *Parlamentin sədri* şiə-müsəlman, onun müavini isə pravoslav olmalıdır.

***İnzibati bölgüsü:*** Livan Respublikası - hər biri bir şəhəri (*Beyrut, Cubeyl, Tripoli, Bəaləbək, Sayqa, Nəbatiyyə*) və bir neçə kəndi birləşdirən 25 qəzadan ibarət olan 6 əyalətə *(Beyrut, Dağlıq Livan, Şimali Livan, Cənubi Livan, Bəqa və Nəbatiyyə mühafazalarına)* bölünür.

***Dövlət başçısı:*** *Prezident* Parlament tərəfindən, bir dəfədən çox olmamaqla 6 il müddətinə seçilir. Dövlət başçısı *Milli Məclisin* təqdimatı ilə *Baş naziri* və onun 1-ci müavinini təyin edir.

Livanda tolerantlığın və milli birliyin rəmzi olan Prezident - *Milli Məclisin* hazırladığı və qəbul etdiyi qanunvericilik aktlarını dərc etmək, qanunların icrası məqsədilə əlavə qaydalar müəyyən etmək, beynəlxalq saziş və müqavilələri ratifikasiya etmək və s. mühüm səlahiyyətinə malikdir.

25 may 2008-ci ildən etibarən ölkənin hazırkı, 12-ci Prezidenti *Mişel Süleymandır (xristian maronit).*

***Qanunverici hakimiyyət:*** Livanın ali qanunverici orqanı bir palatadan – dini icmalardan olan nümayəndələrin ümumxalq səsverməsi yolu ilə, proporsional sistem əsasında 4 il müddətinə seçilən 128 üzvü olan *(64 müsəlman və 64 xristian) Milli Məclisdən* ibarətdir.

Parlamentin Livan prezidentini seçmək, *Hökumətin (Nazirlər Kabineti)* tərkibini formalaşdırmaq, dövlət büdcəsini təsdiq və qanunları qəbul etmək və s. məsələlərlə bağlı Konstitusiya ilə müəyyən edilmiş səlahiyyətləri vardır.

*Milli Məclisin* hazırkı sədri 20 oktyabr 1992-ci ildən etibarən *Nebih Berridir (şiə-müsəlman).*

07 iyun 2009-cu ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Milli Məclisdə* təmsil olunan əsas siyasi partiyalar:

*14 mart Koalisiyası (M 14) – 71 yer:*

*("Müstəqbəl" Azad Milli Hərəkatı -26 deputat, Livan Mütərəqqi Sosialist Partiyası – 11, Livan Qüvvələri Partiyası – 8, Livan Sosial-Demokratik Partiyası – 5, Müstəqillər 13 və s.)*

*8 mart Koalisiyası (M 8) – 57 yer:*

*(Azad Milli Hərəkatı - 18 deputat, Əməl Hərəkatı – 13 deputat, Hizbulla – 12, Livan Demokratik Partiyası – 4 və s.).*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* rəhbərliyi ilə *Nazirlər Kabinetinə* məxsusdur. Baş nazir və müavinləri *Milli Məclis* ilə məsləhətləşmələr nəticəsində *Prezident* tərəfindən, *Nazirlər Kabinetinin* digər üzvləri isə Prezident və Milli Məclis ilə məsləhətləşmələrdən sonra Baş nazir tərəfindən təyin edilir.

Konstitusiyaya görə, Livan Hökuməti geniş səlahiyyətlərə malik olsa da, dövlət məsələlərini yalnız Prezidentin razılığı ilə həll edə bilər. Hökumət, yalnız dövlət başçısı ilə razılaşdırıldıqdan sonra, qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək Parlamentə qanun layihəsi təqdim edə bilər. Livan Hökuməti, zəruri hallarda ona etimadsızlıq göstərmək və istefaya göndərmək səlahiyyətinə malik olan Parlament qarşısında kollektiv məsuliyyət daşıyır.

Sünni-müsəlman olan *Nəcib Əzmi Mikati* 13 iyun 2011-ci ildən etibarən ölkənin hazırkı, sayca 48-ci *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Napoleon Məcəlləsinə əsaslanan *Livan* məhkəmə sistemi *Ali Məhkəmədən, Konstitusiya Şurasından,* 4 Kasasiya (3 mülki və 1 cinayət işləri üzrə) məhkəməsi və Hərbi məhkəmələrdən ibarətdir. Livan məhkəmələrində münsiflərdən istifadə olunmur.

Öz icmaları daxilində nikah, boşanma kimi məsələlərə dair qaydaları və miras və digər şəxsi statuslu məsələləri həll etmək səlahiyyətinə malik olan dini məhkəmə sistemi də mövcuddur.

# MACARISTAN







***Ümumi məlumat:*** XVII əsrin sonlarından bütün ərazisi *Avstriya* tərəfindən idarə olunmuş *Macarıstan*, 1867-ci ildə ikili *Avstriya-Macarıstan* monarxiyasının tərkibində geniş muxtariyyət əldə etmişdir.

1918-ci ildə *Avstriya-Macarıstan İmperiyasının* süqutu ilə *Macarıstan Respublikası* elan edilmişdir.

*Mərkəzi Avropada* yerləşən *Macarıstanın* paytaxtı *Bud-peşt* şəhəridir.

Ölkənin ərazisi 93 030 km², əhalisi *(2012)* 9,942,000 nəfərdir *(əhali sıxlığı 107,2 nəfər/km²)*.

*Macarıstan Respublikasının* rəsmi dövlət dili *macar* dili-dir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.816* - çox yüksəkdir *(38-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsulu-na malik respublikadır. Milli bayram günü olan Macar İnqilabı günü *(1848)* 15 martda, müstəqillik günü isə (1918) 17 oktyabrda qeyd olunur. Ölkənin Yeni Konstitusiyası 01 yanvar 2012-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 173 rayonu özündə birləşdirən 19 med-yedən *(Baranya, Baç-Kişkun, Bekeş, Borşod-Abuay, Zemplen, Vaş, Vesprem, Dyer-Moşon-Şopron, Zala, Komarom-Esterqom, Noqrad, Sabolç-Satmar-Bereq, Xaydu-Bixar, Xeveş, Çonqrad, Şomod, Yas-Nadkun-Solnok, Tolna və Feyer)* və

xüsusi statusa malik paytaxt *Budapeştdən* ibarət 7 regiona *(Şimali Macarıstan, Şimali Alfeld, Cənubi Alfeld, Mərkəzi Macarıstan, Mərkəzi Zadunay Diyarı, Qərbi Zadunay Diyarı və Cənubi Zadunay Diyarı)* bölünür.

***Dövlət başçısı:*** Əsasən mərasim funksiyalarını həyata keçirən, bununla belə Parlamentdə seçilmiş *Baş naziri* təyin etmək səlahiyyətinə malik olan və silahlı qüvvələrin ali baş komandanı vəzifəsini yerinə yetirən *Prezident Milli Assambleya* tərəfindən 5 il müddətinə maksimum iki dəfə seçilə bilər. Bunun üçün Prezidentliyə namizəd seçkilərin ilk iki raundunda səslərin üçdə ikisini və ya üçüncü raundda adi səs çoxluğu əldə etməlidir.

10 may 2012-cu ildən etibarən ölkə Prezidenti *"Fides" – Macarıstan Vətəndaş İttifaqı Partiyasının* nümayəndəsi *Yanoş Aderdir*.

***Qanunverici hakimiyyət:*** Qanunvericilik hakimiyyəti bir palatalı, 386 yerlik *Milli Assambleya* tərəfindən həyata keçirilir. Deputatlar partiya siyahıları üzrə kifayət qədər mürəkkəb proporsional və birbaşa sistem ilə 4 il müddətinə seçilirlər *(Milli Assambleyanın 386 deputatından 152-si iri seçki dairələri üzrə, 58-i isə ümummilli dairə, yəni bütün ölkə üzrə seçilir)*.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası ilə yanaşı, ölkə Prezidentinin, Baş nazirin, Konstitusiya Məhkəməsi üzvlərinin, Ali Məhkəmə sədrinin, Ombudsmanın və Baş prokurorun seçilməsi də *Milli Assambleyanın* səlahiyyətlərinə aiddir.

06 avqust 2010-cu ildən etibarən Parlamentin hazırkı sədri *"Fides" – Macarıstan Vətəndaş İttifaqı Partiyasının* təmsilçisi *Laslo Keverdir.*

2010-cu il 11-25 aprel tarixlərində Macarıstan Parlamentinə keçirilmiş son seçkilər nəticəsində *Milli Assambleyanın* tərkibi aşağıdakı siyasi partiyalar tərəfindən bölünmüşdür:

*"Fides" – Macarıstan Vətəndaş İttifaqı Partiyası – 263 yer,*

*Macarıstan Sosialist Partiyası - MSP - 59 yer,*

*Daha Güclü Macarıstan Üçün (Yobbik) - 47 yer,*

*LMP - 16 yer.*

***İcraedici hakimiyyət:*** Qüvvədə olan Konstitusiyaya görə ölkənin ali vəzifəli şəxsi sayılan *Baş nazirin* başçılıq etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir.

Geniş səlahiyyətlərə malik olan Baş nazir Prezidentin təklifi ilə Parlament tərəfindən səsvermə yolu ilə seçilir. Nazirlərin siyahısı Baş nazirin təklifi ilə *Milli Assambleyada* müzakirə edilir və təsdiq edilməsi üçün dövlət başçısına təqdim olunur. Nazirlərin vəzifələrindən azad edilməsi isə hökumət başçısının müstəsna səlahiyyətinə aiddir.

Ölkənin hazırkı Baş naziri 29 may 2010-cu ildən etibarən *"Fides" – Macarıstan Vətəndaş İttifaqı Partiyasının* lideri *Viktor Orbandır.*

***Məhkəmə hakimiyyəti:*** Mülki və cinayət işləri üzrə səlahiyyətli məhkəmə instansiyası sayılan, sədri və müavinləri Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə* və hakimləri Parlament tərəfindən 9 il müddətinə təyin olunan *Konstitusiya Məhkəməsi,* habelə vilayət, şəhər, yerli və ixtisaslaşmış məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# MAKEDONİYA

  

***Ümumi məlumat:*** Əsasən slavyanların məskunlaşdığı *Makedoniya,* XIV yüzillikdən XX əsrin əvvəllərinə qədər olan dövr ərzində *Osmanlı İmperiyası* tərəfindən idarə olunmuşdur. İkinci Balkan müharibəsindən *(1913-cü il)* sonra *Makedoniyanın* qərb və mərkəzi hissəsi *(Vardar Makedoniyası) Serbiyanın*, 1918-ci ildə isə *serb, xorvat və sloveniya krallığının (1929-cu ildən etibarən Yuqoslaviya Krallığı)* tərkibinə daxil olmuşdur.

1945-ci ildən federativ *Yuqoslaviyanın* tərkibində 6 respublikadan biri olmuş *Makedoniya* 1991-ci ildə dövlət müstəqilliyini əldə etmişdir.

*Avropanın* cənub-şərqində, Balkan yarımadasının cənub hissəsində yerləşən *Makedoniya Respublikasının* paytaxtı *Skopye* şəhəridir.

Ölkənin ərazisi 25,713 km$^2$, əhalisi *(2011)* 2,058,539 nəfərdir *(əhali sıxlığı 80,1 nəfər/km$^2$).*

*Makedoniyanın* rəsmi dövlət dili *makedon* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.728* – yüksəkdir *(78-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik Günü (1991) sentyabr ayının 8-də qeyd olunur. Makedoniya Respublikasının Konstitusiyası 20 noyabr 1991-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 84 bələdiyyəni *(Böyük Skopye 10 bələdiyyədən ibarətdir)* və yerli özünüidarəetmənin müstəqil va-

hidliyi sayılan paytaxt *Skopyeni* birləşdirən 8 statistik regiona *(Vardar, Şərq, Pelaqoniya, Polojsk, Şimal Şərqi, Skopsk, Cənub-Şərqi və Cənub-Qərbi )* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə və iki turdan ibarət seçkilərdə 5 il müddətinə seçilən *Prezidentdir*. Dövlət başçısı postuna namizəd mütləq Makedoniya Respublikasının vətəndaşı olmalı, son 15 ilin ən azı 10 ilini Makedoniyada yaşamalı və yaşı 40-dan yuxarı olmalıdır.

Makedoniyanın daxildə və xaricdə ali təmsilçisi sayılan, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı və Təhlükəsizlik Şurasının sədri olan *Prezident* - Makedoniya Respublikasının hüdudlarından kənarda ölkəni təmsil edən səfirlərin və digər diplomatik nümayəndələrin təyin və azad edilməsində, digər ölkələrin diplomatik nümayəndələrinin etimadnamələrinin qəbul edilməsində, təltif, fəxri adlar, dövlət mükafatları və əfv fərmanlarının verilməsində, 2 hakimin Konstitusiya Məhkəməsinə və 2 üzvün namizədliyinin Respublika Məhkəmə Şurasına təqdim edilməsində, habelə 3 nəfərin Respublika Təhlükəsizlik Şurasına təyin edilməsində və bir sıra digər mühüm məsələlərdə səlahiyyətlidir.

Hazırkı, 4-cü ölkə Prezidenti 12 may 2009-cu ildən *VMRO-DPMNE-ni təmsil edən George İvanovdur (2009-cu ilin 22 mart - 05 aprel tarixlərində keçirilmiş sonuncu Prezident seçkilərində G.İvanov ikinci turda səslərin 63.14%-ni qazanaraq qalib gəlmişdir).*

***Qanunverici hakimiyyət:*** Makedoniyanın ali qanunverici orqanı ümumi, bərabər və gizli seçki sistemi əsasında 4 il müddətinə seçilən, geniş səlahiyyətlərə malik bir palatalı, 120 yerlik *Assambleyadan (Sobranie)* ibarətdir.

Ölkə Konstitusiyasının 68-ci maddəsinə əsasən, Konstitusiyaya dəyişikliklər edilməsi, qanunların təqdimatı və onların şərh edilməsi, dövlət büdcəsinin təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası, müharibə və sülh elan edilməsi, hakimlə-

rin təyinatı, amnistiya verilməsi və s. mühüm vəzifələr Makedoniya *Assambleyasının* səlahiyyətlərinə aiddir.

*Parlamentin* hazırkı, sayca 8-ci sədri 08 avqust 2008-ci ildən etibarən *Trayko Velyanoskidir (VMRO-DPMNE).*

05 iyun 2011-ci ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

*VMRO-DPMNE (Makedoniyanın Daxili İnqilabi Təşkilatı – Makedoniya Milli Birlik Naminə Demokrat Partiyası) – 56 yer, lideri Nikola Qruyevski,*

*Makedoniyanın Sosial-Demokratik İttifaqı* - 42 yer,

*İnteqrasiya Naminə Demokratik İttifaq - 15 yer,*

*Albanların Demokratik Partiyası - 8 yer,*

*Milli Demokratik Dirçəliş Partiyası - 2 yer.*

***İcraedici hakimiyyət:*** Üzvləri *Assambleya* tərəfindən səs çoxluğu ilə təsdiq edilən *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Parlamentdə çoxluq təşkil edən partiyanın üzvlərindən formalaşmış hökumətə hakim siyasi partiyanın və yaxud koalisiyanın lideri - Parlament tərəfindən seçilmiş *Baş nazir* başçılıq edir.

*Nazirlər Kabineti*, qarşısında cavabdehlik daşıdığı *Sobraniyenin* qəbul etdiyi qanunların və digər qanunvericilik aktlarının əsasında *Makedoniyanın* siyasi kursunu müəyyən edir və onun həyata keçirilməsində məsuliyyət daşıyır, habelə müvafiq Nazirliklərin fəaliyyətini əlaqələndirir və onlara nəzarət edir.

27 avqust 2006-cı il tarixindən etibarən *Makedoniyanın* hazırkı, sayca 9-cu *Baş naziri VMRO-DPMNE-nin* lideri olan *Nikola Qruyevskidir.*

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya görə, 3 səviyyədən *(Bələdiyyə, Dairə və Ali Məhkəmə)* ibarət Makedoniyanın məhkəmə-hüquq sistemində, hakimləri Assambleya tərəfindən məhdudiyyəti olmayan müddətə təyin olunan *Ali Məhkəmə, Konstitusiya Məhkəməsi* və *Respublika Hakimlər Şurası* məhkəmə hakimiyyətini həyata keçirir.

# MAVRİKİ





***Ümumi məlumat:*** 1511-ci ildə portuqalların zəbt etdikləri *Mavriki* ərazisi 1598-ci ildə *Hollandiyanın* işğalına məruz qalmış, 1715-1810-ci illər ərzində fransızların, daha sonra isə ingilislərin müstəmləkəsinə çevrilmişdir.

1968-ci ildə *Birləşmiş Krallığın* tərkibində dövlət müstəqilliyini elan etmiş *Mavriki*, 1992-ci ildən respublikadır.

*Afrikada, Hind okeanının* cənub-qərb hissəsində yerləşən *Mavriki Respublikasının* paytaxtı *Port-Lui* şəhəridir.

Ölkənin ərazisi 2,040 $km^2$, əhalisi *(2010)* 1,291,456 nəfərdir *(əhali sıxlığı 630 nəfər/$km^2$).*

*Mavrikinin* rəsmi dövlət dili *ingilis və kreol* dilləridir.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1968) 12 mart tarixində qeyd olunur. Ölkə Konstitusiyası 12 mart 1968-ci il tarixindən qüvvədədir.

***İnzibati bölgüsü:*** 9 dairədən *(Rivyer-Nuar, Flak, Qran-Port, Moka, Pamplemus, Plen-Vilem, Port-Lui, Rivyer-dyu-Rampar və Savan)* və 3 asılı ərazidən *(Aqaleqa adaları, Karqados-Karaxos arxipelaqı və Rodriqes adası)* ibarətdir.

***Dövlət başçısı:*** *Prezident* dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı statusuna malik olsa da, ölkədə real hakimiyyəti *Hökumətlə* bölüşdürmək məcburiyyətindədir. Ölkə Prezidenti *Baş nazirin* təqdimatı ilə, *Parlament* tərəfindən sadə səs çoxluğu ilə 5 il müddətinə seçilir.

Konstitusiya ilə nəzərdə tutulmuş bir sıra hallar istisna olmaqla, bir qayda olaraq mərasim funksiyalarını yerinə yetirən dövlət başçısı, öz səlahiyyətlərinin icrasını *Hökumətin* tövsiyə və məsləhətlərinə uyğun şəkildə reallaşdırır. Qüvvədə olan Konstitusiyaya görə, Mavriki Prezidentinin *Baş naziri* və onun təqdimatı ilə digər nazirləri təyin etmək, *Hökumət* başçısının xahişi ilə *Parlamenti* buraxmaq və s. səlahiyyətləri vardır.

21 iyul 2012-ci il tarixindən etibarən Mavrikinin hazırkı, sayca 4-cü Prezidenti *Mavriki Əmək Partiyasının* təmsilçisi *Rackeşvur Purriaqdır.*

***Qanunverici Hakimiyyət*:** Tərkibinə 70 deputatın və Mavriki Prezidentinin də daxil olduğu bir palatalı *Parlament* ölkədə qanunvericilik hakimiyyətini həyata keçirir. Ali qanunverici orqanın 60 deputatı birmandatlı seçki dairələrindən *(20 dairənin hər birindən 3 nəfər olmaq şərti ilə)* seçilir, 8 deputat isə seçkilər nəticəsində məğlub, lakin əhalinin daha çox dəstəyini qazanmış namizədlərin arasından *Seçki Komissiyası* tərəfindən müəyyən olunur.

Parlament seçkilərində qalib gəlmiş siyasi partiya *Hökuməti* formalaşdırır və bu baxımdan *Baş prokuror* istisna olmaqla, *Kabinetin* bütün üzvləri deputat mandatına sahib olmalıdır.

*Q*anun layihələrinin hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası*, Hökumətin* fəaliyyətinə nəzarət və s. səlahiyyətlər *Parlamentə* məxsusdur.

05 may 2010-cu ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində ali qanunverici orqanda təmsil olunmaq hüququ əldə etmiş əsas siyasi partiyalar:

*Gələcəyin Alyansı (Mavriki Əmək Partiyası + Mavriki Sosial Demokrat Partiyası+Mübariz Sosialist Hərəkatı) – 45 yer,*

*Qəlb Alyansı (Mübariz Mavriki Hərəkatı + Milli Birlik+ Mavriki Sosialist Demokrat Hərəkatı) - 20 yer,*

*Rodriqes Hərəkatı - 2 yer,*
*Rodriqes Xalq Təşkilatı Partiyası - 1 yer,*
*Mavriki Həmrəylik Cəbhəsi Partiyası – 1 yer.*

***İcraedici hakimiyyət:*** Mövcud Konstitusiyaya görə, ölkənin daxili və xarici siyasətinin müəyyən edilməsində və icrasında kifayət qədər geniş səlahiyyətlərə malik olan *Nazirlər Kabineti* və ona rəhbərlik edən *Baş nazir,* dövlət başçısı ilə birlikdə ölkədə icra hakimiyyətini həyata keçirir. *Hökumət* başçısı, bir qayda olaraq Parlamentdə çoxluq təşkil edən partiyanın və ya koalisiyanın təmsilçisi olur və Prezident tərəfindən təyin edilir. *Nazirlər Kabinetinin* üzvləri, *Baş nazirin* təqdimatı ilə dövlət başçısı tərəfindən təyin olunur.

Hökumət, ona etimadsızlıq göstərmək və *Kabineti* istefaya göndərmək səlahiyyətlərinə malik olan Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Bununla belə, dövlət başçısı *Baş nazirin* xahişi ilə Parlamenti buraxa bilər.

05 iyul 2005-ci ildən etibarən ölkənin hazırkı, sayca 6-cı *Baş naziri Mavriki Əmək Partiyasının* lideri olan *Navinçandra Ramqulamdır.*

***Məhkəmə hakimiyyəti:*** İngilis və fransız ümumi hüquq sisteminin əsas elementlərini özündə ehtiva edən Mavriki Respublikasının hüquq sisteminin strukturu qarışıq xarakterə malikdir.

Ölkədə məhkəmə hakimiyyəti: sədri *Baş nazirin* məsləhəti, bir üzvü *Ali Məhkəmə* sədrinin tövsiyəsi, qalan hakimləri isə *Hüquq və Məhkəmə Xidmət komissiyasının* məsləhəti ilə *Prezident* tərəfindən təyin olunan və cinayət və mülki işlər üzrə ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə ixtisaslaşmış və dairə məhkəmələri tərəfindən həyata keçirilir.

# MALTA







***Ümumi məlumat:*** Əsrlər boyu *Malta* növbə ilə *romalılar, bizanslılar, ərəblər,* habelə *norman və alman* tayfaları tərəfindən idarə edilmişdir. 1530-cu ildə *Malta ordeni* adada öz hakimiyyətini bərqərar etmişdir.

1800-ci ildən *Böyük Britaniyanın* müstəmləkəsi olmuş *Malta,* 1964-cü ildə *Birləşmiş Krallığın* çərçivəsində müstəqillik əldə etmişdir.

*Avropa qitəsində, Aralıq dənizinin* mərkəzi hissəsində yerləşən *Malta Respublikasının* paytaxtı *Valetta* şəhəridir.

Ölkənin ərazisi 316 km², əhalisi *(2011)* 452,515 nəfərdir *(əhali sıxlığı 1,306,8 nəfər/km²).*

*Malta Respublikasının* rəsmi dövlət dili *malta və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.832* - çox yüksəkdir *(36-cı yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik olan respublikadır. Milli bayram günü olan müstəqillik günü (1964) 21 sentyabrda qeyd olunur. Ölkə Konstitusiyası 21 sentyabr 1964-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 68 bələdiyyəni özündə birləşdirən 6 dairəyə *(Daxili Qavan, Xarici Qavan, Şimal, Qərb, Cənub-Şərq, Qoso və Kamino)* və 3 regiona *(Qozo, Malta Magistral və Malta Xlokk)* bölünür.

***Dövlət başçısı:*** Parlament tərəfindən 5 illik müddətə seçilən *Prezident, Baş naziri* və formal olaraq digər Hökumət

üzvlərini, habelə *Ali məhkəmənin sədrini, hakimləri və Baş prokuroru* təyin edir.

Eyni zamanda dövlət başçısı, *Nümayəndələr Palatasında* "etimadsızlıq" təhlükəsi ilə üzləşən Hökumətə rəhbərliyi həyata keçirən *Baş nazirin* xahişi əsasında ölkə Parlamentini buraxmaq, Baş nazirin razılığı ilə konstitusional orqanların üzvlərinin böyük əksəriyyətini təyin etmək, əfv fərmanı vermək və digər mühüm səlahiyyətlərə malikdir.

04 aprel 2009-cu il tarixindən etibarən ölkənin hazırkı, sayca 8-ci Prezidenti *Leyboristlər Partiyasının* təmsilçisi *Corc Abeladır.*

***Qanunverici hakimiyyət:*** *Maltada* ali qanunverici orqan birpalatalı *Parlamentdir (Nümayəndələr Palatası).* 69 yerlik Palataya ümumi səsvermə yolu ilə proporsional seçki sistemi əsasında 5 il müddətinə seçilirlər. Konstitusiyaya görə *Baş nazir* də daxil olmaqla, bütün nazirlər *Nümayəndələr Palatasının* üzvü olmalıdırlar.

Mövcud Konstitusiyaya görə, Malta Parlamenti ölkədə "sülhün, sabitliyin, habelə normal idarəçiliyin təminatı naminə" və Konstitusiyanın təməl prinsiplərinə uyğun olaraq qanunların hazırlanmasında və qəbul edilməsində, illik dövlət büdcəsini təsdiq və beynəlxalq müqavilələri ratifikasiya etməkdə səlahiyyətlidir.

29 aprel 2010-cu ildən etibarən Parlamentin hazırkı sədri *Milliyyətçi Partiyanın* təmsilçisi *Mişel Frendodur.*

09 mart 2013-cü il Parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* təmsil olunan ölkənin əsas siyasi partiyaları:

*Leyboristlər Partiyası - (55,1%, lideri Cozef Muskat),*

*Milliyyətçi Partiya - (43,1%, lideri Laurens Qonsi),*

*Alternativ Demokratik Partiya – (1,8% lideri Mikael Briquqlio).*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyəti *Nazirlər Kabineti* və onun fəaliyyətinə yardım etmək məqsədilə nazirliklərə təyin olunan *Parlament Katibləri tərəfindən həyata keçirilir.* Maltada icra hakimiyyətinin başçısı, *Nümayəndələr Palatasının* təqdimatı ilə *Prezident* tərəfindən təyin edilən *Baş nazirdir.* Bir qayda olaraq Palatada daha çox mandata sahib partiyanın lideri *Baş nazir* təyin olunur. Hökumətin tərkibi Baş nazirin razılığı ilə Prezident tərəfindən formalaşdırılır.

*Leyboristlər Partiyasının* lideri *Cosef Muskat* 11 mart 2013-cü ildən etibarən ölkənin hazırkı *Baş naziridir*.

***Məhkəmə hakimiyyəti:*** Ölkənin ən yüksək məhkəmə instansiyası sayılan *Konstitusiya Məhkəməsi*, sədri və üzvləri *Baş nazirin* təqdimatına əsasən Prezident tərəfindən təyin edilən *Malta Ali Məhkəməsi*, habelə apelyasiya, mülki işlər və cinayət işləri üzrə məhkəmələr tərəfindən həyata keçirilir.

# MOLDOVA RESPUBLİKASI





***Ümumi məlumat:*** XIV əsrdə formalaşmış *moldovan* xalqının ilk müstəqil Knyazlığı 1359-cu ildə təşəkkül tapmışdır. *Moldova Knyazlığı* öz muxtariyyətini müəyyən çərçivədə qoruyub saxlamaq şərti ilə, XVI-XVIII əsrlərdə *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur.

XVIII əsrin sonunda *Dnestrin sol sahili*, 1812-ci ildə isə *Bessarabiya* şəhəri *Rusiyanın* tərkibinə daxil olmuşdur. 1918-ci ildə *Bessarabiya Rumıniya* tərəfindən işğal edilmişdir.

1924-cü ildə Ukrayna SSR-in tərkibində *Dnestrin* sol sahilini əhatə edən *Moldova Muxtar Sovet Sosialist Respublikası* yaradılmışdır. 1940-cı ildə SSRİ-nin tələbi ilə *Bessarabiya Rumıniyadan* geri alınmış və onun ərazisində, *Moldova MSSR* ilə birlikdə müttəfiq *Moldova SSR* yaradılmışdır.

1991-ci ilin avqust ayında *Moldova* müstəqilliyini elan etmişdir.

*Avropanın* cənub-şərq hissəsində yerləşən *Moldova Respublikasının* paytaxtı *Kişinyov* şəhəridir.

Ölkənin ərazisi 33,846 km², əhalisi *(2012)* 3,559,500 nəfərdir *(əhali sıxlığı* 121,9 *nəfər/km²)*.

*Moldovanın* rəsmi dövlət dili *moldovan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - 0.649 – ortadır *(111-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik

günü (1991) 27 avqustda qeyd olunur. Ölkə Konstitusiyası 29 iyul 1994-cü ildə qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** 32 rayona *(Bessarabiya, Briçansk, Qlodyansk, Dubossarı, Sorok, Ştefan-Vodsk, Straşensk, Nisporensk, Kantemirsk, Tarakliysk, Ungensk, Yalovensk, Kaqulsk, Orgeyevsk, Novoanensk, Sınjeriysk, Leovsk, Şoldaneştsk, Faleştsk və s.)*, 5 bələdiyyəyə *(Balti, Bender, Kişinyov, Comrat, Tiraspol),* bir muxtar ərazi vahidinə *(Qaqauziya)* və xüsusi statusa malik olan *Dnestryanı muxtar ərazi vahidinə* bölünür.

***Dövlət başçısı:*** 2000-ci ilin iyun ayında *Moldova Parlamenti* ümumxalq prezident seçkilər sistemini ləğv etmiş, əvəzində ali qanunverici orqan vasitəsilə 4 il müddətinə dövlət başçısının seçilməsi sistemi tətbiq edilmişdir.

Mövcud Konstitusiyaya görə, dövlətin ali təmsilçisi, Moldovanın suverenliyinin, milli müstəqilliyinin, ərazi bütövlüyünün və birliyinin təminatçısı, habelə dövlətin başçı və silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* - qanunvericilik təşəbbüsü hüququnda qanun layihəsi təqdim etdiyi Parlamenti çağırmaq və ya buraxmaq, Baş naziri təyin etmək və zəruri hallarda formalaşdırdığı hökumətin iclaslarına sədrlik etmək, xarici siyasət sahəsində danışıqlar aparmaq, ölkənin adından beynəlxalq müqavilələr bağlamaq və onları qanunla müəyyən olunmuş müddətdə ratifikasiyası üçün Parlamentə təqdim etmək səlahiyyətlərinə malikdir.

Bundan əlavə, dövlət başçısı *Hökumətin* təqdimatı ilə *Moldova Respublikasının* diplomatik nümayəndələrini akkreditasiya etməkdə və yaxud geri çağırmaqda, ali qanunverici orqanın razılığı ilə qismən və ya tam səfərbərlik elan etməkdə, əfv fərmanı imzalamaqda, ali dövlət vəzifələrinə təyinatda, yüksək rütbələrlə və ali dövlət mükafatları ilə təltif etməkdə, vətəndaşlıq və siyasi sığınacaq məsələlərini həll etməkdə və digər mühüm məsələlərdə də səlahiyyətlidir.

23 mart 2012-ci ildən etibarən Moldovanın hazırkı, 4-cü Prezidenti *Nikolay Timoftidir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı Parlamentdir. 101 yerlik Parlamentə ümumi səsvermə yolu ilə, beş faizlik baraj səddini keçməklə və proporsional seçki sistemi əsasında 4 il müddətinə seçilirlər.

Konstitusiyaya görə, qanunvericilik hakimiyyətinin həyata keçirilməsində müstəsna hüquqa sahib olan Moldova Parlamenti, qanunların və qərarların qəbulunda, referendum təyin edilməsində, dövlətin daxili və xarici siyasətinin əsas istiqamətlərinin, habelə hərbi doktrinasının təsdiqində, icra hakimiyyəti üzərində Parlament nəzarətinin həyata keçirilməsində, Moldova Respublikasının bağladığı beynəlxalq müqavilələrin ratifikasiya, denonsasiya və ləğv edilməsində, illik dövlət büdcəsinin təsdiqində və onun icrasına nəzarətdə, amnistiya aktlarının qəbulunda və digər əhəmiyyətli məsələlərdə səlahiyyətlidir.

30 dekabr 2010-cu ildən etibarən Parlamentin hazırkı sədri *Moldova Demokratik Partiyasının* lideri *Marian Lupudur.*

28 noyabr 2010-cu ildə keçirilmiş son seçkilər nəticəsində Parlamentdə yer almış ölkənin əsas siyasi partiyaları:

*Moldova Respublikasının Kommunist Partiyası - 39.34% (42 yer,* lideri *Vladimir Voronin),*

*Moldova Liberal Demokrat Partiyası - 29.42% (32 yer),*

*Moldova Demokratik Partiyası - 12.7% (15 yer),*

*Liberal Partiya - 9.96% (12 yer).*

***İcraedici hakimiyyət:*** *Baş nazir* və onun rəhbərlik etdiyi, dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsini təmin edən *Hökumət* Parlamentin etimadı ilə Prezident tərəfindən təyin edilir və formalaşır.

*Baş Nazir* Kabinetlə birlikdə və Parlamentin onu dəstəkləməsi şərti ilə icra hakimiyyətini həyata keçirir. Belə ki, səlahiyyətlərinin icrası zamanı Hökumət, üzərinə düşən funk-

siyaları Parlamentdə səs çoxluğu ilə təsdiq edilmiş fəaliyyət proqramına uyğun surətdə reallaşdırır.

*Kabinet*, Konstitusiya ilə müəyyən edilmiş qaydada, qarşısında kollektiv məsuliyyət daşıdığı Parlamentin müvafiq komissiyalarına və üzvlərinə zəruri informasiyaları və sənədləri təqdim etməlidirlər.

25 aprel 2013-cü ildən etibarən Yurie Lyanke (MLDP) Moldova Respublikasının Baş nazirinin səlahiyyətlərini icra edir.

***Məhkəmə hakimiyyəti:*** Sosialist hüququnun elementlərini müəyyən mənada qoruyub saxlamış Moldovanın məhkəmə-hüquq sistemi əsasən roman-alman hüquq sistemi üzərində qurulmuşdur.

Hakimləri *Ali Magistratura Şurasının* təqdimatı əsasında Prezident tərəfindən təyin edilən *Ali Məhkəmə* və *Konstitusiya Məhkəməsi,* habelə digər ixtisaslaşmış məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirilir.

# NAURU







***Ümumi məlumat:*** Avropalıların indiki *Nauru* ərazisinə ilk gəlişi 1798-ci ilə təsadüf etmişdir. Bu torpaqlar 1888-ci ildə *Almaniya,* 1914-cü ildə isə *Avstraliya* tərəfindən işğal edilmişdir. *Naurunun* idarə edilməsi ilə bağlı, *Millətlər Liqasının* mandatını almış *Avstraliya,* 1919-cu ildə *Böyük Britaniya və Yeni Zelandiya* ilə birlikdə ölkə üzərində rəhbərliyi həyata keçirmişdir.

*Nauru* 1968-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Nauru Respublikasının* paytaxtı *Yaren* şəhəridir.

Ölkənin ərazisi 21 km², əhalisi *(2011)* 9,378 nəfərdir *(əhali sıxlığı 447 nəfər/km²).*

*Naurunun* rəsmi dövlət dili *nauru və ingilis* dilləridir.

***Dövlət quruluşu:*** Prezident üsul-idarəsinin müəyyən elementlərini özündə ehtiva edən parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1968) 31 yanvar tarixində qeyd olunur. 29 yanvar 1968-ci ildə qəbul olunmuş *Nauru Respublikasının* Konstitusiyası, edilmiş əlavələrlə birlikdə 17 may 1968-ci ildən etibarən qüvvədədir.

***İnzibati bölgüsü:*** 8 seçki dairəsinə *(Ayvo, Anabar, Anetan, Boe, Buada, Menenq, Ubenid və Yaren)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə, dövlət və hökumət başçısı sayılan, bütövlükdə dövlətin idarə edilmə-

sində geniş səlahiyyətlərə malik olan *Prezident,* ali qanunverici orqanın üzvləri arasından sadə səs çoxluğu ilə 3 il müddətinə seçilir. Dövlət başçısı eyni zamanda Parlamentin üzvü ola bilməz.

Qanunazidd fəaliyyəti ilə əlaqədar ona qarşı elan edilən impiçment nəticəsində, habelə səhhəti ilə bağlı fəaliyyət qabiliyyətsizliyi yarandıqda dövlət başçısının səlahiyyətinə vaxtından əvvəl xitam verilir. Prezidentin vəzifədən kənarlaşdırılması üçün Parlamentin bütün deputatlarının mütləq əksəriyyətinin razılığı olmalıdır. İmpiçmentdən dərhal sonra, növbədənkənar Prezident seçkiləri təyin edildikdən sonrakı 7 gün ərzində ölkənin yeni dövlət başçısı seçilmədiyi təqdirdə, Nauru Parlamenti avtomatik olaraq buraxılır.

15 noyabr 2011-ci ildən etibarən *Nauru Respublikasının* hazırkı, sayca 29-cu *Prezidenti Sprent Dabvidodur.*

***Qanunverici Hakimiyyət*:** Bir palatalı Parlament tərəfindən həyata keçirilir. Mövcud Konstitusiyaya əsasən, majoritar seçki sisteminin elementlərini özündə ehtiva edən Nauru Parlamenti ümumi seçki hüququ əsasında 3 il müddətinə seçilən 18 deputatdan ibarətdir. 20 yaşına çatmış və seçilmək hüququna malik Nauru vətəndaşları Parlament seçkilərində iştirak etmək hüququna malikdir.

Növbəti çağırışın ilk sessiyasının birinci iclasında Parlament üzvləri spikeri və onun müavinlərini, daha sonra isə öz aralarından ölkə Prezidentini seçirlər.

Zəruri hallar yarandıqda, dövlət başçısı ilə məsləhətləşmələrdən sonra, spiker Parlamentin buraxılması haqqında qərar verir və nəticədə ali qanunverici orqanın səlahiyyətlərinə dərhal xitam verilir.

Qanun layihələrinin qəbulu və qanunların dərc edilməsi, beynəlxalq müqavilələrin ratifikasiyası, habelə Konstitusiya ilə müəyyən edilmiş digər qanunvericilik səlahiyyətləri *Parlamentə* məxsusdur.

*Nauru Parlamentinin* spikeri 01 noyabr 2010-cu ildən etibarən *Lüdviq Skottidir.*

Ölkədə fəaliyyət göstərən, bununla belə siyasi proseslərə o qədər də aktiv müdaxilə edə bilmək iqtidarında olmayan 3 siyasi partiyanın *(Nauru Demokratik Partiyası, Naoero Amo Partiyası və Mərkəz Partiyası)* heç biri *Nauru Parlamentində* təmsil olunmur.

***İcraedici hakimiyyət:*** Yuxarı icra orqanı olan və Parlament qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabineti* ölkədə icraedici hakimiyyəti həyata keçirməkdə səlahiyyətlidir. Prezidentin də daxil olduğu, 5 və ya 6 nazirdən ibarət olan *Nazirlər Kabinetinin* üzvlərinin sayı *Prezident* tərəfindən deputatların tərkibindən formalaşdırılır.

Qanunvericiliyin müəyyən etdiyi qaydada, *Hökumətə (Nazirlər Kabineti)* rəhbərliyi həyata keçirən Prezident fövqəladə vəziyyət tətbiq etməkdə, əfv məsələlərini həll etməkdə, habelə *Nauru Respublikası Ali Məhkəməsinin* hakimlərini təyin etməkdə səlahiyyətlidir.

***Məhkəmə hakimiyyəti:*** *Nauru Respublikasının* məhkəmə-hüquq sisteminə və mövcud Konstitusiyanın 48-ci maddəsinə uyğun olaraq məhkəmə hakimiyyəti, sədri və yuxarı yaş həddi 65 olan hakimləri *Prezident* tərəfindən təyin olunan *Ali Məhkəmə, Apelyasiya Məhkəməsi,* habelə dairə və ailə məsələləri üzrə məhkəmələr tərəfindən həyata keçirilir.

*"Naurunun Torpaq Komitəsi haqqında" fərmana* uyğun olaraq ölkədə torpaq mübahisələrini həll etməkdə və *Naurunun Ali Məhkəməsinə* apelyasiya şikayəti verməkdə səlahiyyətli olan *Torpaq Komitəsi* fəaliyyət göstərir.

Bir çox məsələlərdə *Nauru Respublikasında* ən yüksək məhkəmə instansiyası *Avstraliyanın Ali Məhkəməsi* sayılır.

# NEPAL

  

***Ümumi məlumat:*** *Nepalın* indiki ərazisində ilk dövlətlər eramızdan əvvəl VIII əsrdə təşəkkül tapmışdır. *Nepal* bir dövlət kimi 1769-cu ildə parçalanmış feodal knyazlıqlarının birləşməsi nəticəsində yaranmışdır.

1815-ci ildən formal olaraq müstəqil dövlət olan *Nepalın* xarici siyasi əlaqələri üzərində nəzarəti ingilislər həyata keçirmişlər.

1851-ci illərdə ingilislərin maraqlarının ifadəçisi olan *Kral* faktiki olaraq hakimiyyətdən uzaqlaşdırılmışdır.

*Nepal* 2008-ci ildən respublikadır.

*Cənubi Asiyada* yerləşən *Nepal Respublikasının* paytaxtı *Katmandu* şəhəridir.

Ölkənin ərazisi 147,181 km², əhalisi *(2011)* 26,494,504 nəfərdir *(əhali sıxlığı 180 nəfər/km²)*.

*Nepalın* rəsmi dövlət dili *nepal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.458* - aşağıdır *(157-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik federativ respublikadır *(28 may 2008-ci il tarixinə qədər ölkədə konstitusiyalı monarxiya quruluşu mövcud olmuşdur)*. Milli bayram günü olan respublika günü (2008) 28 may tarixində qeyd olunur. 14 yanvar 2007-ci ildə *Nepalın* müvəqqəti (keçid) Konstitusiyası qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 5 region üzrə *(Şərqi region, Mərkəzi region, Qərbi region, Mərkəzi Qərb və Uzaq Qərb regionları)* qruplaşmış 14 zonaya *(Baqmati, Bxeri, Kosi, Lumbini, Maxakali, Meçi, Saqarmatxa, Rapti, Setxi, Dxaulaqiri, Canakpur, Qandaki, Narayani və Karnali ançollarına)* və 75 rayona *(pançayat)* bölünür.

***Dövlət başçısı:*** *Prezident Parlament* tərəfindən siyasi konsensus əsasında Yeni Konstitusiyanın qəbul olunacağı müddətədək seçilir. Milli birliyin rəmzi və ərazi bütövlüyünün təminatçısı olan dövlət başçısının əsas vəzifəsi ölkə Konstitusiyasını qorumaq və ona dəstək olmaqdır.

Mövcud Konstitusiyaya əsasən, vitse-prezident siyasi fəaliyyəti dövründə, ölkənin idarə edilməsində dövlət başçısına köməklik göstərir, zərurət yarandıqda onu bu postda əvəz edir.

23 iyul 2008-ci ildən etibarən ölkənin Prezidenti *Nepal Konqresi Partiyasının* nümayəndəsi *Ram Baran Yadavdır.*

***Qanunverici hakimiyyət:*** *Nepal Federativ Respublikasının* ali qanunverici orqanı 4 il müddətinə fəaliyyət göstərən bir palatadan – 240 üzvü ümumi və bərabər seçki əsasında gizli səsvermə yolu birmandatlı dairələrdən, 335 üzvü proporsional nümayəndəlik sistemi əsasında partiya siyahıları üzrə seçilən, digər 26 mandat isə təyin edilən deputatlar üçün nəzərdə tutulan 601 yerlik *Müəssislər Məclisindən (Parlament)* ibarətdir.

Yaşı 25-ə çatmış və Nepal Cinayət Kodeksinin mənəvi əxlaqsızlıq maddəsi ilə məhkum edilməmiş istənilən ölkə vətəndaşı *Parlament* seçkilərində namizədliyini irəli sürə bilər.

Parlamentdə qanun layihələri qəbul edildikdən sonra imzalanması üçün dövlət başçısına göndərilir. Dövlət başçısı qanun layihəsini imzalamaq və ya onu geri qaytarmaq səlahiyyətinə malikdir. Lakin ölkədə ali qanunverici orqanın nüfuzu yüksək və səlahiyyətləri geniş olduğundan bu prosedur, bir qayda olaraq formal xarakter daşıyır.

*Müəssislər Məclisinin* hazırkı sədri *Subaş Çandra Nemvanqdır (Nepal Konstitusiyasına görə Parlamentin sədri və onun müavini eyni partiyanın təmsilçisi ola bilməzlər).*

10 aprel 2008-ci ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Müəssislər Məclisində* təmsil olunan əsas siyasi partiyalar:

*Nepal Kommunist Partiyası (maosist) – 229 yer (lideri Puşpa Kamal Dahal),*

*Nepal Konqresi - 115,*

*Nepal Kommunist Partiyası (Birləşmiş marksizm-leninizm) – 108*

*MJAF Partiyası - 54,*

*TMLP - 21,*

*Nepal Kommunist Partiyası (marksist-leninçi) – 9,*

*Nepal Sadbhavana Partiyası – 9,*

*Milli Demokratik Partiya – 8 və s.*

***İcraedici hakimiyyət:*** Siyasi konsensus əsasında fəaliyyət göstərən *Nazirlər Şurası* və ona rəhbərlik edən *Baş nazir* ölkədə icra hakimiyyətini həyata keçirir. *Baş nazir* müvafiq siyasi partiyanın təqdimatı ilə *Müəssislər Məclisinin* üzvləri arasından hökumət üzvlərini - *nazirləri* təyin edir.

Öz fəaliyyətlərinə görə Baş nazir və digər nazirlər *Müəssislər Məclisinin qarşısında* kollektiv məsuliyyət, nazirlər isə Baş nazir və Parlament qarşısında fərdi məsuliyyət daşıyırlar.

*14 mart 2013-cü ildən etibarən Nepalın Baş naziri Xil Rac Reqmidir.*

***Məhkəmə hakimiyyəti:*** Əsas funksiyaları ilə yanaşı, ölkədə Konstitusiya nəzarəti orqanının səlahiyyətlərini də yerinə yetirən və ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Apelyasiya, rayon* və ixtisaslaşmış *hərbi məhkəmələr Nepalda* məhkəmə hakimiyyətini həyata keçirirlər.

# PAKİSTAN





***Ümumi məlumat:*** *Pakistan* dövləti, XIX əsrdən ərazisinin daxil edildiyi *Britaniya Hindistanının* dini zəmində bölünməsi nəticəsində, 1947-ci ilin avqust ayında yaradılmışdır.

*Britaniyanın* dominionu olmuş *Pakistan,* 1956-cı ildən respublikadır.

*Pakistan Azərbaycanın* ərazilərini işğal etdiyi üçün Ermənistanın dövlət müstəqilliyini tanımayan yeganə BMT üzv dövlətidir.

*Cənubi Asiyada* yerləşən *Pakistan Respublikasının* paytaxtı *İslamabad* şəhəridir.

Ölkənin ərazisi 796,095 km², əhalisi *(2012)* 180,440,005 nəfərdir *(əhali sıxlığı 226.6 nəfər/km²).*

*Pakistanın* rəsmi dövlət dili *ingilis və urdu* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.504* - aşağıdır *(145-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik federativ respublikadır. 1947-ci il avqustun 14-də *Pakistanın* müstəqilliyi elan edilmişdir. 1956-cı il martın 23-də *Pakistan İslam Respublikası* elan edilmişdir. Ölkə Konstitusiyası 1973-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Pakistan İslam Respublikası 4 əyalətdən ibarətdir: *Pəncab, Sind, Bəlucistan və Şimal-Qərbi Sərhəd əyalətləri; federal paytaxt vilayəti İslamabad* və mərkəzi *Hökumət* tərəfindən idarə olunan qəbilə zonaları Pakistan Respublikasının ərazisini təşkil edir.

***Dövlət başçısı:*** Ölkədə siyasi hakimiyyət Prezidentin və Hökumətin əlindədir. Ölkə Prezidenti *Seçicilər Kollegiyası (tərkibinə Parlamentin hər iki palatasının üzvləri, habelə Pəncab, Sind, Bəlucistan və Şimal-Qərbi Sərhəd əyalətləri parlamentlərinin deputatları daxildir)* tərəfindən, iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilir. Seçildikdən sonra Prezident Parlamentin təşəbbüsü və 2/3 səs çoxluğu ilə yalnız impiçment prosedurası qaydasında vəzifəsindən azad edilə bilər.

Pakistanda Prezident postu ənənəvi olaraq nominal vəzifə sayıldığından ölkədə real hakimiyyət *Baş nazirin* əlində cəmlənmişdir. Mövcud Konstitusiyaya görə, Pakistan Prezidenti *Milli Assambleyanı* buraxmaq, yeni seçkiləri təyin etmək, əfv fərmanı imzalamaq, Baş naziri *(bu məsələdə Ali Məhkəmənin veto hüququ vardır).* Hökumət üzvlərini, əyalət qubernatorlarını, Ali Məhkəmənin hakimlərini, Seçki Komissiyasının üzvlərini, ali hərbi rəhbər heyətini təyin etmək və istefaya göndərmək səlahiyyətlərinə malikdir. O, həmçinin *Milli Təhlükəsizlik Şurasının* rəhbəri və Silahlı Qüvvələrin Ali Baş Komandanıdır.

09 sentyabr 2008-ci il tarixindən etibarən *Pakistan İslam Respublikasının* hazırkı, sayca 11-ci Prezidenti, *Pakistan Xalq Partiyasının* həmsədri olan *Asif Əli Zərdaridir.*

***Qanunverici hakimiyyət*:** İkipalatalı Parlament - *Milli Assambleya (əhali tərəfindən 4 il müddətinə seçilmiş, 60-ı qadın, 10-u dini azlıqların nümayəndələri olmaqla 342 deputat, sədri 19 mart 2008-ci ildən Fehmida Mirzədir)* və *Senat (əyalətlərin qanunverici məclisləri tərəfindən ümumi səsvermə yolu ilə 6 il müddətinə seçilmiş 100 deputat, sədri 12 mart 2009-cu ildən Faruk Həmid Naekdir)* məhdud qanunverici səlahiyyətə malikdir.

Əsas qanunvericilik funksiyaları ilə yanaşı, Parlament Hökumətə etimadsızlıq göstərmək və onu istefaya göndərmək səlahiyyətlərinə malikdir.

18 fevral 2008-ci ildə keçirilmiş seçkilər nəticəsində Parlamentdə təmsil olunan əsas siyasi partiyalar:

*Pakistan Xalq Partiyası (PPP) - 121 deputat, 27 senator,*

*Pakistan Müsəlman Liqası (PML –Q) - 91 deputat, 21 senator,*

*PML (F) - 54 deputat, 7 senator,*

*İslam Ruhanilərinin Yığıncağı - 25 deputat, 10 senator,*

*ANP - 13 deputat, 6 senator,*

*Müttəhide Məclise Amal (6 dini-siyasi partiyanı özündə birləşdirir) – 6 deputat, 6 senator.*

***İcraedici hakimiyyət:*** *Baş nazir Hökumətin* başçısıdır və Parlamentin tərkibindən Prezident tərəfindən təyin edilir. Baş nazir mütləq müsəlman olmalı və Parlamentdə çoxluq təşkil edən partiyanın təmsilçisi olmalıdır. Hökumət üzvləri Baş nazirin təqdimatı ilə Prezident tərəfindən formalaşır.

Mövcud Konstitusiyaya görə, Hökumətin əsas funksiyası dövlət idarəçiliyinin həyata keçirməsində Prezidentə məsləhət verməkdən və köməklik göstərməkdən ibarətdir.

Ölkənin hazırkı *Baş naziri* 22 iyun 2012-ci ildən etibarən *Pakistan Xalq Partiyasının* nümayəndəsi *Raca Pərviz Əşrəfdir.*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri Prezident tərəfindən təyin olunan *Ali Məhkəmə* və ölkə qanunlarının İslam dininin tələblərinə uyğunluğunu nəzarətdə saxlayan *İslam Federal Şəriət Məhkəməsidir.*

Əyalətlərdə fəaliyyət göstərən yüksək məhkəmə orqanlarının üzvləri də Prezident tərəfindən təyin edilir.

# POLŞA





***Ümumi məlumat:*** *Polşanın* indiki ərazisində 966-cı ildə təşəkkül tapmış ilk polyak dövləti 1025-ci ildə *Krallığa* çevrilmiş, 1569-cu ildə isə *Böyük Litva* hersoqluğu ilə birləşərək *Polşa-Litva* birliyinin *(Reç Pospolita)* əsasını qoymuşdur *(Reç Pospolita İttifaqı yalnız 1795-ci ildə dağılmışdır)*.

1918-ci ildə müstəqilliyini yenidən qazanmış *Polşa* İkinci Dünya Müharibəsi dövründə *Almaniya* tərəfindən işğal olunmuş, 1945-1989-cu illər ərzində isə SSRİ-nin nəzarət etdiyi *Şərq (sosialist) Blokuna* daxil olmuşdur.

1989-cu ildə kommunist rejimi devrildikdən sonra *Polşada* "Üçüncü Respublika" qurulmuşdur.

*Mərkəzi Avropada* yerləşən *Polşanın* paytaxtı *Varşava* şəhəridir.

Ölkənin ərazisi 312,685 km², əhalisi *(2010)* 38,186,860 nəfərdir *(əhali sıxlığı 120 nəfər/km²)*.

*Polşa Respublikasının* rəsmi dövlət dili *polyak* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.813* - çox yüksəkdir *(39-cu yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1918) 11 noyabrda qeyd olunur. Ölkə Konstitusiyası 17 oktyabr 1997-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 379 povyatdan ibarət 16 voyevodalığa *(Mazovetsk, Nijnesilezsk, Kuyavsko-Pomorsk, Lyublinsk, Lyubuşsk, Lodzinsk, Malopolsk, Opolsk, Podkarpatsk,*

*Podlyaşsk, Pomorsk, Sventokşiskoe, Silezskoe, Velikopolsk, Varminsk-Mazursk və Qərbi Pomorsk)* bölünür.

***Dövlət başçısı:*** Dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* ümumxalq, bərabər, birbaşa və gizli səsvermə yolu ilə 5 il müddətinə (iki dəfədən çox olmamaqla) seçilir. Prezidentin Parlament seçkilərini, referendumu və ali vəzifə sahiblərini təyin və ölkədə hərbi vəziyyət rejimi tətbiq etmək, habelə qanunlara veto qoymaq hüququndan istifadə etmək səlahiyyətləri vardır.

Ölkə Konstitusiyasına əsasən Polşanın xaricdəki diplomatik korpus rəhbərlərinin və bəzi hakimlərin təyinatı, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyası, əfv fərmanı verilməsi və s. mühüm vəzifələr də ölkə Prezidentinin səlahiyyətlərinə aiddir.

06 avqust 2010-cu ildə *Vətəndaş Platforması Partiyasının* təmsilçisi *Bronislav Komarovski* Polşa Respublikasının 9-cu Prezidenti seçilmişdir.

***Qanunverici hakimiyyət:*** İkipalatalı Parlament *(Xalq Assambleyası) - Senatdan (100 yer)* və *Seymdən (Aşağı Palata, 460 yer)* ibarətdir. Sədri *Vlodzimej Çimoşeviç olan Seymə* deputatlar proporsional nümayəndəlik sistemi üzrə, azad çoxpartiyalı seçkilərdə 4 il müddətinə, *Senata* isə hər əyalət 2 senatorla təmsil olunmaqla, 4 il müddətinə seçilirlər.

Parlamentin hər iki palatası qanunvericiik fəaliyyətini *(qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və s.)* birlikdə həyata keçirirlər. Əsas funksiyalarla yanaşı, *Aşağı Palata (Seym)* Hökumətin fəaliyyətinə ümumi nəzarətdə, habelə dövlət başçısının təklifi ilə *Baş nazirin* seçilməsində və *Baş nazirin* təqdimatı əsasında *Nazirlər Şurası* üzvlərinin təsdiq edilməsində səlahiyyətlərə malikdir.

09 oktyabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Senatda və Seymdə* təmsil olunan siyasi partiyalar:

*Vətəndaş Platforması Partiyası* - (63 senator, 206 deputat),

*Hüquq və Ədalət Partiyası* – (31 senator, 157 deputat),
*Polşa Kəndli Partiyası* - (2 senator, 28 deputat),
*Palikot Hərəkatı*- ( 40 deputat),
*Sol Demokratik Alyans Partiyası* - (27 deputat).

Polşa Senatının Prezidenti 20 oktyabr 2005-ci ildən *Boqdan Boruseviç*, Seymin sədri isə 08 noyabr 2011-ci ildən *Yeva Kopaçdır.*

***İcraedici hakimiyyət:*** İcraedici hakimiyyət *Baş nazirin* başçılıq etdiyi *Nazirlər Şurası* tərəfindən həyata keçirilir. Baş nazirin namizədliyi Parlamentdə çoxluq təşkil edən partiya və ya qrup tərəfindən dövlət başçısına təqdim olunur və daha sonra Prezidentin təklifi ilə Parlament tərəfindən səsvermə yolu ilə seçilir. Nazirlərin siyahısı Baş nazirin təklifi ilə Parlamentə təqdim edilir və ali qanunverici orqan tərəfindən müzakirə edilərək təsdiq olunur.

Konstitusiyaya əsasən, *Nazirlər Şurası* Polşa Respublikasının daxili və xarici siyasətini həyata keçirir, qanunların icrasını təmin edir, Hökumət administrasiyasının orqanlarının işini əlaqələndirir və onlara nəzarət edir, ictimai asayişi və dövlətin daxili və xarici təhlükəsizliyini təmin edir, büdcəsinin icrasına nəzarət edir, ratifikasiya tələb edən beynəlxalq müqavilələr bağlayır və digər beynəlxalq sazişləri təsdiq və denonsasiya edir.

Polşa Respublikasının hazırkı, sayca 14-cü Baş naziri 16 noyabr 2007-ci ildən *Vətəndaş Platforması Partiyasının* lideri *Donald Tuskdur.*

***Məhkəmə hakimiyyəti:*** Polşa *Ali Məhkəməsi,* habelə ümumi, inzibati və hərbi məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər. Polşa Məhkəmə sistemi 4 pilləli olduğundan *Konstitusiya Məhkəməsi* və *Dövlət Tribunalı Polşa* məhkəmə sisteminə birbaşa deyil, dolayısı ilə daxildir. Ümumi məhkəmələr apelyasiya məhkəmələrinə bölünür.

Məhkəmə hakimləri *Krayova Rada Sądovnictva (Məhkəmə Milli Şurası)* tərəfindən irəli sürülür və Polşa prezidenti tərəfindən ömürlük təyin edilir.

# SAMOA





***Ümumi məlumat:*** XIX əsrin əvvəllərində avropalıların *Samoaya* gəlişi, adalarda ibtidai-icma quruluşunun son mərhələsi ilə üst-üstə düşmüşdür. 1889-cu ildə arxipelaq üzərində *Almaniyanın, ABŞ-ın* və *Böyük Britaniyanın* protektoratı bərqərar olmuş, 1899-cu ildə arxipelaqın qərb hissəsi *Almaniyanın,* şərq hissəsi isə yenidən *ABŞ-ın* idarəçiliyinə keçmişdir.

1914-cü ildə Qərbi Samoa *Yeni Zelandiya* tərəfindən işğal edilmiş, 1920-ci ildə *Millətlər Liqası* bu ərazinin idarəedilməsi üçün *Yeni Zelandiyaya* mandat vermişdir *(1946-cı ildən BMT-nin qəyyumluğu altında olmuşdur).*

*Samoa* 1962-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub hissəsində yerləşən *Samoanın* paytaxtı *Apia* şəhəridir.

Ölkənin ərazisi 2,831 km², əhalisi *(2012)* 194,320 nəfərdir *(əhali sıxlığı 63.2 nəfər/km²).*

*Samoanın* rəsmi dövlət dili *samoan və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.688* - ortadır *(99-cu yer).*

***Dövlət quruluşu:*** Parlament idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1962-ci il) 01 yanvar tarixində qeyd edilir. Ölkə Konstitusiyası 1960-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 11 itumaloya *(Tuamasaqa, Aana, Atua, Aiqa-i-le-Tai, Vaa-o-Fonoti, Faasaleleaqa, Qaqaemauqa,*

*Qaqaifomauqa, Vaisiqano, Satupaitea və Palauli dairələrinə)* bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya görə Parlament tərəfindən qeyri-məhdud sayda 5 il müddətinə seçilən *O le Ao o le Malodur (Hökumət rəhbəri)*. İcra hakimiyyətinə rəhbərliyi həyata keçirən dövlət başçısı, əsasən təmsilçilik funksiyalarını yerinə yetirir, bununla belə o, *Samoa Milli Qanunvericilik Məclisinin* qərarlarına veto qoymaq hüququna malikdir.

Parlamentin razılığı ilə *Baş naziri*, Baş nazirin məsləhəti ilə *Müəssislər Məclisinin* tərkibindən nazirləri, *Məhkəmə Komissiyasının* təqdimatı ilə *Ali Məhkəmənin* üzvlərini təyin etmək Prezidentin səlahiyyətlərinə daxildir.

20 iyun 2007-ci ildən etibarən dövlət başçısı *Tuiatua Tupua Tamasese Efidir* (19 iyul 2012-ci ildə *Parlamentdə* keçirilmiş son seçkilərdə *Tupua Efi* qalib gələrək ikinci müddətə *O le Ao o le Malo* seçilmişdir).

***Qanunverici hakimiyyət:*** *Samoanın* ali qanunverici orqanı bir palatadan – ümumi seçki hüququ əsasında 5 il müddətinə seçilən 49 yerlik *Milli Qanunvericilik Məclisindən* ibarətdir. Yalnız Samoa vətəndaşlarının seçilmək hüququ olduğu *Parlamentin* tərkibi - 41 seçki dairəsinin hər birindən 1 deputat, 6 əlavə üzv və qeyri-samoa xalqları nümayəndələrinin seçdikləri 2 deputatdan formalaşır.

*Parlament* qanun layihələrini qəbul və qanunları dərc edir. Qanun layihələri *Parlamentdə* təqdir edildikdən sonra baxılması üçün dövlət başçısına göndərilir. Dövlət başçısı *Baş nazirin* tövsiyəsi ilə qanun layihəsini imzalamaq və ya onu geri qaytarmaq səlahiyyətinə malikdir. Dövlət başçısı istənilən zaman ölkə *Parlamentinin* işində fasilə yarada və ya *Baş nazirlə* məsləhətləşmələrdən sonra *Milli Qanunvericilik Məclisini* buraxa bilər.

2006-ci il tarixindən etibarən *Tolofuaivalelei Falemoe Leiataua Samoa Milli Qanunvericilik Məclisinin* sədridir.

4 mart 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində yalnız 2 siyasi partiya *Məclisdə* təmsil olunmaq hüququ əldə etmişdir:

*İnsan Haqlarının Müdafiəsi Partiyası - 36 yer,*

*Tautua Samoa Partiyası - 13 yer.*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* ölkənin icra hakimiyyətinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirir, habelə Parlament qarşısında kollektiv surətdə məsuliyyət daşıyır. Hökumətə rəhbərliyi həyata keçirən *Baş nazir* Parlamentin təqdimatı ilə *O le Ao o le Malo* tərəfindən təyin olunur.

Eyni zamanda dövlət başçısı *Baş nazirin* məsləhəti ilə Parlamentin deputatları arasından minimum 8, maksimum 12 nazir təyin edir.

*Samoa Respublikasının Baş naziri* 23 noyabr 1998-ci ildən etibarən *Tuilaepa Sailele Malieleqaoidir (İnsan Haqlarının Müdafiəsi Partiyası).*

***Məhkəmə hakimiyyəti:*** Sədri *Baş nazirin*, üzvləri isə *Məhkəmə Komissiyasının* təqdimatı ilə dövlət başçısı tərəfindən təyin edilən, cinayət və mülki işlər üzrə birinci instansiya məhkəməsi sayılan *Ali Məhkəmə,* habelə *Apelyasiya,* mülki işlərə baxan *Magistrat, fono (kəndli) və torpaq məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

*Ali Məhkəmənin* sədri və hakimləri *Apelyasiya Məhkəməsinin* əsasını təşkil edir.

# SAN-MARİNO





***Ümumi məlumat:*** Avropanın ən qədim dövlətlərindən biri olan *San-Marino* 301-ci ildə yaranmışdır. X əsrdən etibarən respublika olan *San-Marino,* 1862-ci ildən italyan protektoratına tabedir.

*Avropada, Apennin yarımadasının* şimal-şərq hissəsində yerləşən *San-Marino Respublikasının* paytaxtı *San-Marino* şəhəridir.

Ölkənin ərazisi 61,2 km², əhalisi *(2012)* 32,404 nəfərdir *(əhali sıxlığı 520 nəfər/km²).*

*San-Marinonun* rəsmi dövlət dili *italyan* dilidir.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan Dövlətin yaranma günü (301) 03 sentyabr tarixində qeyd olunur.

Dünyanın ən qədim konstitusiyalarından biri olan *San-Marino Konstitusiyası (1600)* faktiki olaraq iki normativ aktdan: 08 oktyabr 1600-cı ildə qəbul edilmiş *San-Marino Respublikasının Qanunvericilik Statutundan* və 1974-cü ildə *Qanunvericilik Statutuna* əlavə edilmiş *Vətəndaş hüquqlarının və Hökumətin əsas prinsiplərinin Bəyannaməsindən* ibarətdir.

***İnzibati bölgüsü:*** Ölkə 9 *kastelliyə (Akkvaviva, Borqo-Madjore, Domanyano, Kyezanuova, Monte-Cardino, San-Marino, Serravalle, Faetano və Fyorentino vilayətlərinə)* bölünür.

***Dövlət başçısı:*** *San-Marinonun* kollektiv dövlət və hökumət başçıları Roma Respublikası Konsullarının nümunəsi əsasında təsis edilmiş *Kapitan-Regentlərdir.* Siyasi hakimiyyətdə balansı qoruyub saxlamaq məqsədilə iki əks qütblü partiyaların nümayəndələri arasından Dövlət Şurasının 6 ay müddətinə seçdiyi *2 kapitan-regent* hər ilin aprel və oktyabr aylarının 1-dən vəzifələrinin icrasına başlayırlar.

Səlahiyyət müddətləri başa çatmış *kapitan-regentlər* eyni vəzifəyə yalnız 3 ildən sonra təkrar seçilə bilərlər. Birgə fəaliyyət göstərən və bir-birlərinə münasibətdə veto hüququna malik olan bu iki ali vəzifə sahibləri həm Parlamentdə, həm də Hökumətdə sədrliyi həyata keçirirlər. Eyni zamanda, *kapitan-regentlər* Baş Şuraya münasibətdə də nisbi veto hüququna malikdirlər.

01 aprel 2013-cü ildən etibarən *Antonella Mularoni* və *Denis Amiçi Kapitan-regent* seçilmişlər.

***Qanunverici hakimiyyət:*** 60 nəfərdən ibarət birpalatalı və hər biri 15 müşavirdən ibarət beş məsləhət komitəsinə bölünən *Baş Şuradır (Parlament). Şuranın* üzvləri 9 inzibati rayondan *(dairədən)* proporsional təmsilçilik sistemi əsasında 5 il müddətinə seçilirlər.

Peşəkar qanunvericilik funksiyaları ilə yanaşı, *Baş Şura* illik dövlət büdcəsini müzakirə və təsdiq edir, vətəndaşlıq məsələlərini həll edir, fəxri rütbə və ordenlərlə təltif edir, beynəlxalq müqavilələri və sazişləri ratifikasiya edir, habelə *Kapitan-regentləri, Dövlət Konqresinin* üzvlərini*, On İkilər Şurasını, Məsləhət Şurasını* və *Hökumət İttifaqlarını* seçir.

Parlament mandatı uğrunda bir qayda olaraq, ölkənin iki ən iri siyasi partiyası: *San-Marino Xristian-Demokratik Partiyası* və *San-Marino Sosialist və Demokratlar Partiyası* arasında mübarizə gedir. Seçkilərdə bu partiyalardan heç biri tam və aşkar üstünlük əldə edə bilmədiyindən, adətən ölkədə

fəaliyyət göstərən kiçik partiyalarla koalisiya yaratmaq məcburiyyətində qalırlar.

11 noyabr 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Baş Şurada* yer almış əsas siyasi partiyalar:

*San-Marino Xristian-Demokratik Partiyası - 21 yer,*
*San-Marino Sosialist və Demokratlar Partiyası - 10 yer,*
*San-Marino Sosialist Partiyası - 7 yer,*
*Birləşmiş Sollar Partiyası - 5 yer,*
*Respublika Naminə İttifaq - 5 yer,*
*Xalq alyansı - 4 yer,*
*Vətəndaş Hərəkatı - 4 yer,*
*Vətəndaş -10 - 4 yer.*

***İcraedici hakimiyyət:*** Parlamentin öz üzvləri arasından seçdiyi 10 katibdən ibarət olan *Dövlət Konqresi* icra hakimiyyətini həyata keçirir. *San-Marino Hökuməti (Dövlət Konqresi) Baş Şura* ilə birlikdə qanunvericilik hakimiyyətinin idarə edilməsində də səlahiyyətlidir.

Xarici İşlər və siyasət Dövlət katibi *(4 dekabr 2008-ci ildən etibarən xanım Antonella Mularonidir)* faktiki olaraq *Hökumət* başçısı funksiyalarını yerinə yetirir.

***Məhkəmə hakimiyyəti:*** *San-Marinonun* ali məhkəmə orqanı - *Baş Şuranın* öz üzvləri arasından 6 il müddətinə seçdiyi, 12 üzvdən ibarət, ümumi yurisdiksiyalı *(mülki və cinayət)* işlər üzrə son məhkəmə instansiyası olan - *On İkilər Şurası* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# SERBİYA





***Ümumi məlumat:*** VI əsrdə *Serbiyanın* indiki ərazisində slavyanlar məskunlaşmış, VIII-IX əsrlərdə bu torpaqlarda ilk dövlətlər təşəkkül tapmışdır. XII əsrdə *Bizansın* hakimiyyətindən azad olmuş *Serbiya,* XIV əsrin ortalarına doğru *Balkanların* cənub-qərb hissəsini əhatə edən qüdrətli bir dövlətə çevrilmişdir.

XV əsrin ortalarında *Serbiya* ərazisi *Osmanlı İmperiyası* tərəfindən fəth edilmiş və sonrakı 350 il ərzində onun tərkibinə daxil olmuşdur.

Birinci Dünya Müharibəsinin nəticələrinə əsasən, ölkə *Yuqoslaviya Krallığının* tərkibinə daxil edilmişdir.

1945-ci ildən *YSFR-in* tərkibində 6 respublikadan biri olmuş *Serbiya,* 1993-2006-cı illərdə *Çernoqoriya* ilə İttifaq statusunda, 2006-cı ildən etibarən isə ayrılıqda tamhüquqlu müstəqil dövlətdir.

*Avropanın* cənub-şərq hissəsində, *Balkan yarımadasının* mərkəzində yerləşən *Serbiya Respublikasının* paytaxtı *Belqrad* şəhəridir.

Ölkənin ərazisi 88,361 km², əhalisi *(2011)* 7,186,862 nəfərdir *(əhali sıxlığı 91,9 nəfər/km²).*

*Serbiyanın* rəsmi dövlət dili *serb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.766* - yüksəkdir *(59-cu yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik olan respublikadır. Serbiya 2006-cı ilin may ayında

Çernoqoriyadan *(Monteneqro)* ayrılaraq müstəqil dövlət elan edilmişdir. Milli bayram günü olan müstəqillik günü iki tarixdə - (1878) iyul ayının 13-də və (2006) iyun ayının 5-də qeyd olunur. Ölkənin yeni Konstitusiyası 29 oktyabr 2006-cı il tarixindən qüvvədədir.

***İnzibati bölgüsü:*** 2 muxtar vilayətə *(Voyevodina, Kosova və Metoxiya)*, 29 dairəyə *(Maçvan, Kolubar, Podunay, Braniçev, Bor, Raş və s.)*, *Belqrad* şəhər dairəsinə və 211 icmaya bölünür.

*(Kosova və Metoxiya muxtar vilayətinin ərazisində 17 fevral 2008-ci il tarixində qismən tanınan Kosova Respublikası dövləti elan edilmişdir).*

***Dövlət başçısı:*** *Prezident* dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanıdır. Birbaşa seçkilərdə ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilən *Prezident* Parlamenti *(Skupşinanı)* buraxmaq və yeni Parlament seçkiləri təyin etmək, Baş nazirin namizədliyini ali qanunvericilik orqanına təqdim etmək, qanunlara veto qoymaq, əfv fərmanı imzalamaq və digər səlahiyyətlərə malikdir.

Son Prezident seçkiləri 2012-ci il 06-20 may tarixlərində keçirilmişdir. Seçkilər nəticəsində, yəni səsvermənin ikinci yekun turunda *Tomislav Nikoliç* daha çox səs toplayaraq *Serbiyanın Prezidenti* seçilmiş və 31 may 2012-ci ildən səlahiyyətlərinin icrasına başlamışdır.

***Qanunverici hakimiyyət:*** Qanunvericilik hakimiyyəti birpalatalı *Parlament (Skupşina)* tərəfindən həyata keçirilir. *Skupşina* birbaşa səsvermə yolu ilə 250 deputat tərkibi ilə 4 il müddətinə seçilir.

Ölkə Konstitusiyasını qəbul və zəruri hallarda ona düzəlişlər etmək, ölkənin sərhədləri ilə bağlı dəyişikliklər barədə qərar qəbul etmək, ümummilli referendum təyin etmək, beynəlxalq müqavilələri və sazişləri ratifikasiya etmək, müharibə və sülhlə bağlı qərar qəbul etmək, müharibə və ya ölkə ərazi-

sində fövqəladə vəziyyət elan etmək, təhlükəsizlik xidmətinin fəaliyyətini nəzarətdə saxlamaq, fundamental qanunları və ümumi xarakterli digər qanunvericilik aktlarını qəbul, Hökumətin təqdim etdiyi illik dövlət büdcəsini müzakirə, təsdiq etmək və digər mühüm funksiyaları həyata keçirməkdə səlahiyyətlidir.

Bundan əlavə, Parlament Hökumətin tərkibini seçir və onun fəaliyyətinə nəzarət edir, Konstitusiya Məhkəməsinin hakimlərini vəzifəyə təyin və ya azad edir, Ali Kasasiya Məhkəməsinin və digər məhkəmələrin sədrlərini, prokurorları və hakimləri təyin edir, fəaliyyətinə nəzarət olunmaqla Serbiya Milli Bankının sədrini vəzifəyə təyin və azad edir, habelə Konstitusiyada təsbit edilmiş və qanunla nəzərdə tutulmuş digər funksiyaları həyata keçirir.

23 iyul 2012-ci ildən etibarən *Skupşinanın* hazırkı sədri *Serbiya Tərəqqi Partiyasının* üzvü *Neboyşa Stefanoviçdir*.

06 may 2012-ci ildə keçirilmiş son seçkilər nəticəsində Parlamentin tərkibində təmsil olunan əsas siyasi partiyalar:

*Serbiya Tərəqqi Partiyası – (73 yer, lideri T.Nikoliç),*
*Demokratik Partiya (DS) – (67 yer),*
*Serbiya Sosialist Partiyası + Pensiyaçılar Partiyası + Vahid Serbiya – (44 yer),*
*Serbiya Demokratik Partiyası – (21 yer),*
*Liberal Demokratik Partiya – (20 yer),*
*Serbiyanın Birləşmiş Regionları – (16 yer),*
*Milli Azlıqların Partiyaları – (10 yer).*

***İcraedici hakimiyyət:*** Hökumətə rəhbərlik edən *Baş nazirdən,* onun 4 müavinindən və 17 nazirdən ibarət olan *Nazirlər Kabineti* ölkədə icra hakimiyyətini həyata keçirir.

*Prezidentin* təklif etdiyi namizədlərin arasından Parlament səsvermə yolu ilə Hökumət başçısını seçilir. Baş nazirin formalaşdırdığı və Parlamentin təsdiq etdiyi *Kabinet* fəaliyyətə başlamazdan əvvəl Baş nazirin təqdimatında fəaliyyət

proqramını deputatların diqqətinə çatdırmalı və *Skupşinanın* etimadını qazanmalıdır. *Nazirlər Kabineti* proqrama uyğun fəaliyyəti çərçivəsində *Skupşina* qarşısında kollektiv məsuliyyət daşıyır.

Serbiyanın hazırkı, sayca 71-ci Baş naziri 27 iyul 2012-ci ildən *Serbiya Sosialist Partiyasının* təmsilçisi *İvitsa Daçiçdir*.

***Məhkəmə hakimiyyəti:*** Konstitusiyanın və qanunların qorunmasına nəzarət edən, qərarları qəti və icrası məcburi olan, üzvləri ömürlük təyin olunan 9 hakimdən ibarət *Konstitusiya Məhkəməsi,* habelə Serbiya Respublikasında ən yüksək məhkəmə instansiyası və arbitraj və inzibatı məhkəmələr üçün ali məhkəmə sayılan *Ali Kasasiya Məhkəməsi,* o cümlədən *Arbitraj Apelyasiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# SİNQAPUR








***Ümumi məlumat:*** 1819-cu ilə qədər *Sinqapur* adası *Coxor* sultanlığına *(Malayziyanın hazırkı ştatlarından biri)* məxsus olmuş, sonralar isə *Böyük Britaniyanın* idarəçiliyinə verilmişdir.

1819-1946-cı illərdə *Britaniyanın* müstəmləkəsi, 1959-cu ildən *Birləşmiş Krallığın* tərkibində muxtar dövlət, 1963-1965-ci illərdə isə *Malayziyanın* ştatı olmuş *Sinqapur,* 1965-ci ilin avqustundan etibarən müstəqil dövlətdir.

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *Sinqapur Respublikasının* paytaxtı *Sinqapur* şəhəridir.

Ölkənin ərazisi 710 $km^2$, əhalisi *(2012)* 5,312,400 nəfərdir *(əhali sıxlığı 7,315 nəfər/$km^2$).*

*Sinqapurun* rəsmi dövlət dili *ingilis, malay, çin və tamil* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.866* - çox yüksəkdir *(26-cı yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik federativ respublikadır. Milli bayram günü olan müstəqillik günü (1965) avqust ayının 9-da qeyd olunur. Ölkə Konstitusiyası 3 iyun 1959-cu ildən (1965, 1970, 1974, 1988 və 1996-cı illərdə edilən düzəlişlər əlavə olunmaqla) qüvvədədir.

***İnzibati bölgüsü:*** 5 dairəyə *(Mərkəzi, Cənub-Şərqi, Cənub-Qərbi, Şimal-Qərbi, Şimal-Şərqi)* bölünür.

***Dövlət başçısı:*** Bir sıra təmsilçilik, icraedici və kadr məsələləri üzrə səlahiyyətlərə malik *Prezident* ümumxalq səsverməsi yolu ilə 6 il müddətinə dövlət başçısı seçilir. Dövlət qulluqçularını vəzifəyə təyin etmək, dövlət büdcəsinin icrasına və səlahiyyətləri daxilində Hökumətin fəaliyyətinə nəzarət etmək və digər mühüm məsələlər dövlət başçısının başlıca funksiyalarından sayılır. Bu fəaliyyəti dövlət başçısı üzvlərini təyin etdiyi *Məsləhət Şurası* ilə birlikdə həyata keçirir *(2 üzv Baş nazirin, 1 üzv Ali Məhkəmə sədrinin və 1 üzv Dövlət Qulluğu üzrə Komissiyanın sədrinin təqdimatına əsasən təyin edilir).*

Mövcud konstitusiyaya görə, Ali qanunverici orqan tərəfindən *Baş nazirə* etimadsızlıq göstərildiyi təqdirdə, Prezident onu istefaya göndərə və ya əksinə Hökumət başçısının xahişi ilə Parlamenti buraxa və erkən seçkilər təyin edə bilər.

01 sentyabr 2011-cu ildən etibarən Sinqapurun hazırkı, sayca 7-ci Prezidenti *Xalq Hərəkat Partiyasının* təmsilçisi olan *Toni Tan Ken Yamdır.*

***Qanunvericilik hakimiyyəti:*** 99 nəfərdən ibarət birpalatalı Parlamentdir. Parlamentin üzvləri 5 il müddətinə ümumxalq səsverməsi yolu ilə seçilirlər.

İl ərzində *Parlamentin* bir qayda olaraq, iki sessiyanın daha uzun müddətlisi ikinci sessiya sayılır və illik dövlət büdcəsi də məhz həmin sessiyada müzakirə və təsdiq edilir. Qanun layihələri 3 oxunuşda müzakirə olunur və sadə səs çoxluğu ilə qəbul edilir. Maliyyə ilə bağlı qanun layihələrini Parlamentə yalnız Hökumət təqdim edə bilər. Mövcud Konstitusiyaya görə, qəbul edilən layihə Prezident tərəfindən təqdir edildikdən sonra hüquqi baxımdan qanun statusu əldə edir.

12 oktyabr 2011-ci ildən etibarən Parlamentin sədri *Xalq Hərəkat Partiyasının* təmsilçisi *Mişel Palmerdir.*

7 may 2011-ci ildə keçirilmiş sonuncu seçkilərdə Parlamentdə yer almış əsas siyasi partiyalar:

*Xalq Hərəkat Partiyası (60.14% səs),*

*Fəhlə Partiyası (12.83% səs),*
*Milli Həmrəylik Partiyası (12.04% səs),*
*Sinqapur Demokratik Partiyası (4.83% səs),*
*İslahat partiyası (4.28% səs),*
*Sinqapur xalq Partiyası (3.11% səs),*
*Sinqapur Demokratik Alyans Partiyası (2.78% səs).*

***İcraedici hakimiyyət:*** Prezidentin təyin etdiyi *Baş nazir* və Parlamentdə mandatların əksəriyyətinə sahib olan siyasi partiyanın nümayəndələrindən formalaşmış 15 üzvdən ibarət *Nazirlər Kabineti* ölkədə icra hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. Hökumət üzvləri Parlament qarşısında fəaliyyətlərinə görə cavabdehlik və kollektiv məsuliyyət daşıyır. Bu baxımdan Nazirlər Kabineti öz siyasətini kollektiv surətdə həyata keçirir və Parlamentin etimadsızlıq göstərdiyi təqdirdə tam heyətdə istefaya gedir.

12 avqust 2004-cü ildən etibarən ölkənin hazırkı, sayca 3-cü *Baş naziri Xalq Hərəkat Partiyasının* lideri *Li Syanlundur.*

***Məhkəmə hakimiyyəti:*** Sinqapurun hüquq sistemi ingilis ümumi hüquq sistemi əsasında fəaliyyət göstərsə də, şəxsi statuslu məsələlərdə çin, müsəlman və indus hüquq məktəbindən də istifadə edilir.

Ölkədə məhkəmə hakimiyyəti *Ali Məhkəmə (Məhkəmənin sədri və digər altı hakim Prezident tərəfindən təyin olunurlar)* və *Apelyasiya Məhkəməsi,* habelə *magistrat, dairə və* müsəlman icmasının ailə-nikah məsələlərini tənzimləyən *şəriət məhkəmələri* tərəfindən həyata keçirilir.

# SLOVAKİYA





***Ümumi məlumat:*** *Slovak* torpaqları XI əsrdə *Macar Krallığına,* XVI-XVII əsrlərdə isə *Krallıqla* birlikdə *Avstriya İmperiyasının* tərkibinə daxil olmuşdur.

1918-ci ildə, *Avstriya-Macarıstanın* süqutu nəticəsində müstəqil *Çexoslovakiya* dövləti yaradılmışdır. 1969-cu ildə slovak torpaqları *Çexoslovakiya Federativ Sosialist Respublikasının* tərkibində respublika statusu almışdır.

*Slovakiya Respublikası* 01 yanvar 1993-cü ildən etibarən müstəqil dövlətdir.

*Mərkəzi Avropada* yerləşən *Slovakiya Respublikasının* paytaxtı *Bratislava* şəhəridir.

Ölkənin ərazisi 49,035 km², əhalisi *(2012)* 5,445,324 nəfərdir *(əhali sıxlığı 111 nəfər/km²).*

*Slovakiyanın* rəsmi dövlət dili *slovak* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.834* - çox yüksəkdir *(35-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1992) 17 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 01 yanvar 1993-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** Slovakiya 891 icmanı birləşdirən 79 rayondan ibarət 8 vilayətə *(Banskobistritsk, Bratslavsk, Jilinsk, Koşitsk, Nitransk, Preşovsk, Trençinsk və Trnavsk)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu və 50%-dən çox səs toplamaq şərti ilə, iki turdan ibarət olan seçkilərdə 5 il

müddətinə seçilən *Prezident* dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanıdır.

Əsasən mərasim funksiyalarını yerinə yetirən dövlət başçısı *Baş naziri* təyin etmək, *Konstitusiya Məhkəməsinin* üzvlərini təsdiq etmək və s. təyinatların həyata keçirilməsində səlahiyyət sahibidir. Bundan əlavə, *Milli Rada* bir ay ərzində ardıcıl olaraq 3 dəfə Hökumətin fəaliyyət Proqramını təsdiq etmədiyi təqdirdə dövlət başçısı onu buraxa və yeni seçkilər təyin edə bilər.

Ölkənin hazırkı, sayca 3-cü Prezidenti 15 iyun 2004-cü ildən etibarən *İvan Gaşparoviçdir (21 mart - 04 aprel 2009-cu il tarixlərində keçirilmiş Prezident seçkilərində növbəti dəfə qalib gəlmişdir).*

***Qanunverici hakimiyyət:*** Birpalatalı, 150 yerlik *Milli Radaya* üzvlər proporsional təmsilçilik əsasında 4 il müddətinə seçilirlər.

*Milli Rada* Konstitusiyanı, Konstitusiya qanunlarını və digər hüquqi aktları qəbul, dövlət büdcəsini müzakirə və təsdiq edir, büdcənin icrasına və Hökumətin fəaliyyətinə nəzarəti həyata keçirir, habelə *Ali Məhkəmənin* sədrini və məhkəmə hakimlərini təyin edir. Mövcud Konstitusiyaya görə dövlətin bütün mühüm beynəlxalq müqavilələrini ilk olaraq Parlament ratifikasiya etməlidir. Bundan başqa, Slovakiya ərazisindən kənarda slovak hərbi kontingentinin və yaxud *Slovak Respublikası* ərazisində xarici hərbi qüvvələrin iştirakı üçün *Milli Rada* razılıq verməlidir. Zərurət yarandığı halda, üzvlərinin 3/5 səs çoxluğu ilə Parlament ölkə Prezidentini istefaya göndərmək səlahiyyətinə malikdir.

04 aprel 2012-ci il tarixindən etibarən Parlamentin hazırkı sədri *Kurs - Sosial Demokratiya Partiyasının* təmsilçisi *Pavol Paşkadır.*

10 mart 2012-ci ildə keçirilmiş seçkilər nəticəsində *Milli Radada* yer almış əsas siyasi partiyalar:

*Kurs - Sosial Demokratiya – 83 yer,*
*Xristian Demokratik Hərəkatı - 16 yer,*
*Adi insanlar və Müstəqil Şəxsiyyətlər – 16 yer,*
*"Körpü" Partiyası - 13 yer,*
*Slovak Demokratik və Xristian Birliyi – Demokratik Partiya - 11 yer,*
*Azadlıq və Həmrəylik Partiyası – 11 yer.*

***İcraedici hakimiyyət:*** İcraedici hakimiyyətin böyük bir hissəsi *Baş nazirin* üzərinə düşür. *Milli Radaya* keçirilən seçkilərdə çoxluq qazanmış partiyanın və ya koalisiyanın lideri Prezident tərəfindən *Baş nazir* vəzifəsinə təyin edilir. Hökumət üzvləri də Baş nazirin tövsiyəsi ilə dövlət başçısı tərəfindən formalaşdırılır.

Konstitusiyaya uyğun olaraq, ölkənin daxili və xarici siyasət kursunu müəyyən edən və həyata keçirən *Hökumət,* fəaliyyət proqramı çərçivəsində, ona etimadsızlıq göstərməkdə və istefaya göndərməkdə səlahiyyətli olan Milli Rada qarşısında kollektiv məsuliyyət daşıyır. Eyni zamanda dövlət başçısı, *Baş nazirin* xahişi əsasında *Parlamenti* buraxa bilər.

04 aprel 2012-ci ildən etibarən Slovakiyanın hazırkı, sayca 7-ci Baş naziri *Kurs – Sosial Demokratiya Partiyasının* lideri *Robert Fitsodur.*

***Məhkəmə hakimiyyəti:*** Parlament tərəfindən təqdim və Prezident tərəfindən təsdiq olunan 10 hakimdən ibarət *Konstitusiya Məhkəməsi,* habelə ümumi yurisdiksiyalı bütün məhkəmələrin fəaliyyətinə nəzarət edən *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# SLOVENİYA

  

***Ümumi məlumat:*** *Sloveniya* XVI əsrdən 1918-ci ilə qədər olan dövr ərzində *Avstriyanın* hakimiyyəti altında olmuş, *Avstriya-Macarıstan İmperiyasının* süqutundan sonra isə, serb, xorvat və sloven *Krallığının (1929-cu ildən etibarən Yuqoslaviya Krallığı)* tərkibinə daxil olmuşdur.

İkinci Dünya Müharibəsindən sonra, 1945-1991-ci illər ərzində *Yuqoslaviya Federativ Respublikasının* tərkibində 6 respublikadan biri olmuş *Sloveniya* 1991-ci ildən müstəqil dövlətdir.

*Mərkəzi Avropanın* cənub hissəsində yerləşən *Sloveniya Respublikasının* paytaxtı *Lyublyana* şəhəridir.

Ölkənin ərazisi 20,273 km², əhalisi *(2012)* 2,055,496 nəfərdir *(əhali sıxlığı 101 nəfər/km²)*.

*Sloveniyanın* rəsmi dövlət dili *sloven* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.884* - çox yüksəkdir *(21-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1990) 26 dekabrda qeyd olunur. Ölkə Konstitusiyası 1991-ci ilin dekabr ayının 23-dən qüvvədədir.

***İnzibati bölgüsü:*** Sloveniya 210 icmadan ibarət olan 12 statistik regiona *(Qorişka, Qorenska, Obalno-Kraşka, Notranska-Kraşka, Mərkəzi Sloveniya, Cənubi Sloveniya, Zasavska, Aşağı Posavska, Savinska, Koroşka, Pomurska və Podravska)* bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya görə məhdud hakimiyyətə malik və əsas etibarilə mərasim funksiyalarını yerinə yetirən dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı – *Prezident* ümumxalq səsverməsi yolu ilə, iki dəfədən artıq olmamaq şərti ilə 5 il müddətinə seçilir.

*Milli Assambleyaya* seçkilərin təyin edilməsi, qanunların dərc edilməsi, səfirlərin və konsulların təyinatı və geri çağırılması, xarici dövlətlərin diplomatik nümayəndələrinin etimadnamələrinin qəbul edilməsi, əfv hüququnun həyata keçirilməsi, dövlət mükafatlarının təltifi, fəxri rütbələrin verilməsi və Konstitusiya ilə nəzərdə tutulmuş digər məsələlər prezidentin səlahiyyətlərinə aiddir.

22 dekabr 2012-ci il tarixindən etibarən Sloveniyanın hazırkı, sayca 4-cü Prezidenti, *Sosial Demokrat Partiyasının* lideri olan *Borut Paxordur.*

***Qanunverici hakimiyyət:*** Sloveniya Parlamenti *Milli Şuradan (Yuxarı Palata)* və *Milli Assambleyadan (Aşağı Palata)* ibarət olan ikipalatalı sistemi özündə ehtiva edir.

*Milli Şura (Drzavni Svet)* – əsasən korporativ prinsiplər əsasında məhdud qanunvericilik təşəbbüsü ilə 5 il müddətində fəaliyyət göstərən məşvərətçi orqandır. Veto hüququna malik Yuxarı Palata *Milli Assambleyanın (Aşağı Palata)* hər hansı qərarının nəzərdən keçirilməsi və milli referendumun təyin edilməsi təşəbbüsü ilə çıxış edə bilər.

*Milli Assambleya (Drzavni Zbor)* ümumxalq səsverməsi yolu ilə seçilən 90 deputat tərkibi ilə *(88 deputat proporsional prinsiplər əsasında, 2 üzv isə milli azlıqların nümayəndəsi olaraq seçilir)* 4 il müddətinə fəaliyyət göstərir.

Əsas qanunvericilik fəaliyyəti ilə yanaşı *(qanunların hazırlanması və qəbulu, illik büdcənin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası və s.) Milli Assambleya, Baş nazirin* tövsiyəsi ilə, onun qarşısında fərdi cavabdehlik daşıyan nazirləri təyin və vəzifədən azad edir.

04 dekabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

*Pozitiv Sloveniya – (28 yer, lider Zoran Yankoviç),*

*Sloveniya Demokratik Partiyası- (SDS) – (26 yer),*

*Sosial Demokrat Partiyası – (10 yer),*

*Greqor Virantın Vətəndaş Siyahısı - (8 yer),*

*Sloveniya Pensiyaçılarının Demokratik Partiyası – (6 yer),*

*Sloveniya Xalq Partiyası (SLS) – (6 yer),*

*Yeni Sloveniya – Xristian Xalq Partiyası – (4 yer),*

*Macarıstan və İtaliyanın Milli İcmaları – (2 yer).*

***İcraedici hakimiyyət:*** *Milli Assambleyaya* keçirilmiş sonuncu seçkilər nəticəsində qalib gəlmiş siyasi partiyanın liderinin namizədliyini, bir qayda olaraq ölkə Prezidenti *Baş nazir* vəzifəsinə təqdim edir və o, *Milli Assambleya* tərəfindən 4 il müddətinə seçilir. *Baş nazirin* təqdimatında *Nazirlər Şurasının* üzvlüyünə tövsiyə olunmuş namizədlər də *Milli Assambleya* tərəfindən seçilir.

*Nazirlər Şurasının* üzvləri, onları etimadsızlıq göstərməklə istefaya göndərməkdə səlahiyyətli olan *Milli Assambleya* qarşısında, *Sloveniya Hökumətinin* ümumi fəaliyyət proqramının icrasına görə kollektiv, öz fəaliyyətlərinə görə isə fərdi surətdə məsuliyyət daşıyırlar.

*Sloveniya Demokratik Partiyasının* lideri *Yanez Yanşa* 10 fevral 2012-ci ildən etibarən ölkənin *Baş naziridir*.

***Məhkəmə hakimiyyəti:*** Hakimləri *Məhkəmə Şurasının* təqdimatı əsasında Parlament tərəfindən seçilən *Ali Məhkəmə* və üzvləri Sloveniya Prezidentinin təqdimatı ilə Parlamentdə 9 il müddətinə seçilən *Konstitusiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# ŞƏRQİ TİMOR





***Ümumi məlumat:*** *Timor adasının* şərq hissəsi 1520-ci ildə *portuqalların,* qərb hissəsi isə 1613-cü ildə *hollandların* müstəmləkəsi olmuşdur.

1945-ci ildə *Qərbi Timor* müstəqil İndoneziyanın tərkibinə daxil edilmişdir. 1975-ci ildə Portuqaliya *Şərqi Timorun* müstəqilliyinin elan edilməsinə razılıq vermiş, lakin 9 gün sonra *İndoneziya* yeni yaradılmış *Şərqi Timoru* işğal edərək, onun ərazisini 1976-cı ildə öz əyaləti elan etmişdir.

*Şərqi Timor* 2002-ci ilin may ayında rəsmən dövlət müstəqilliyini əldə etmişdir.

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *Şərqi Timor Respublikasının* paytaxtı *Dili* şəhəridir.

Ölkənin ərazisi 14,874 $km^2$, əhalisi *(2010)* 1,066,582 nəfərdir *(əhali sıxlığı 76,2 nəfər/$km^2$).*

*Şərqi Timorun* rəsmi dövlət dili *portuqal və tetum* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.495* - aşağıdır *(147-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü iki dəfə (1975, 2002) - noyabr ayının 28-də və may ayının 20-də qeyd olunur. Portuqaliya Konstitusiyasının modeli əsasında hazırlanmış *Şərqi Timor Respublikasının* Konstitusiyası 20 mart 2002-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Şərqi Timor 13 inzibati dairəyə *(Ayleu, Aynaru, Baukau, Bobonaru, Vikeke, Dili, Kova-Lima, Layten, Likisa, Manatutu, Manufaxi, Okusi-Ambeno və Ermera)* bölünür.

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə və iki dəfədən artıq olmamaq şərti ilə 5 il müddətinə seçilən və əsasən mərasim funksiyalarını yerinə yetirən *Prezidentdir*.

Konstitusiyaya görə milli müstəqilliyin və dövlətin birliyinin rəmzi və təminatçısı sayılan dövlət başçısı *Baş naziri* təyin etmək, qanunlara veto qoymaq, Hökumətin formalaşmasında və illik dövlət büdcəsinin təsdiqində yaranmış ciddi böhran zamanı *Parlamenti* buraxmaq və yeni seçkilər təyin etmək, demokratik təsisatların normal fəaliyyətini təmin etmək və s. səlahiyyətlərə malikdir.

Hazırkı, 3-cü ölkə Prezidenti 17 mart-16 aprel 2012-ci il tarixlərində keçirilmiş son Prezident seçkilərində qalib gəlmiş *Taur Matan Ruakdır. (20 may 2012-ci ildən rəsmən vəzifəsinin icrasına başlamışdır).*

***Qanunverici hakimiyyət:*** Şərqi Timorun ali qanunverici orqanı bir palatadan – ümumi və bərabər seçkilər əsasında partiya siyahıları üzrə 5 il müddətinə seçilən 65 yerlik *Milli Parlamentdən* ibarətdir.

Konstitusiyaya əsasən kifayət qədər geniş səlahiyyətlərə *(qanunvericilik fəaliyyəti ilə yanaşı, Baş naziri və Hökumət üzvlərini seçmək, onlara etimadsızlıq göstərmək və s.)* malik olan *Milli Parlament* qanunvericilik hakimiyyətini icra hakimiyyətindən müstəqil şəkildə həyata keçirir.

*Parlamentin* hazırkı sədri 08 avqust 2007-ci ildən *Şərqi Timor Demokratik Partiyasının* lideri *Fernandu de Araujodur.*

07 iyul 2012-ci ildə Parlamentə keçirilmiş son seçkilər nəticəsində *Şərqi Timor Milli Parlamentində* təmsil olunan əsas siyasi partiyalar:

*Timor Yenidənqurma Milli Konqresi – 30 yer,*

*Müstəqil Şərqi Timor Uğrunda İnqilab Cəbhəsi (FRETILIN)* - 25 yer,

*Şərqi Timor Demokratik Partiyası - 8 yer,*

*Frenti Mudança - 2 yer.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyəti Parlamentdə çoxluq təşkil edən partiyanın üzvlərindən formalaşmış *Hökumət* tərəfindən həyata keçirilir. İcraedici hakimiyyətin başçısı *Milli Parlament* tərəfindən seçilən və formal olaraq ölkə Prezidenti tərəfindən təyin olunan *Baş nazirdir.*

*Nazirlər Şurası* daxili və xarici siyasətin həyata keçirilməsinə görə ölkə Prezidenti və *Milli Parlament* qarşısında məsuliyyət daşıyır. Baş nazirin təqdimatında yeni formalaşmış Hökumətin fəaliyyət proqramı *Milli Parlament* tərəfindən təqdir və ya mütləq səs çoxluğu ilə rədd edilir. Mövcud Konstitusiyaya əsasən, ikinci hal *(etimadsızlıq)* təkrar baş verdikdə dövlət başçısı *Nazirlər Şurasını* tam heyətdə istefaya göndərə bilər.

08 avqust 2007-ci il tarixindən etibarən *Baş nazir Timor Yenidənqurma Milli Konqresi Partiyasının* lideri *Xanana Qusmaodur.*

***Məhkəmə hakimiyyəti:*** Üzvləri Ali Məhkəmə Şurası və bir üzvü Milli Parlament tərəfindən təyin olunan, eyni zamanda Konstitusiya nəzarəti orqanı və elektoral ədliyyənin ali orqanı sayılan *Ali Məhkəmə,* habelə ümumi yurisdiksiyalı məhkəmələr, birinci instansiya *(inzibati, vergi, hesablama)* inzibati məhkəmələri və hərbi məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirilir.

# TRİNİDAD VƏ TOBAQO





***Ümumi məlumat:*** *Trinidad və Tobaqo* 1494-cü ildən XIX əsrin əvvəllərinə qədər olan dövr ərzində *İspaniyanın* ərazisi sayılmışdır.

1802-ci ildə *Trinidad,* 1814-cü ildə isə *Tobaqo Böyük Britaniyanın* idarəçiliyinə verilmiş və yalnız 1962-ci ildə hər iki ada *Birləşmiş Krallıq* çərçivəsində müstəqilliyini elan etmişdir *(1976-cı ildən etibarən respublikadır).*

*Cənubi Amerikanın* şimal-şərq sahilində yerləşən *Trinidad və Tobaqo Respublikasının* paytaxtı *Port of Speyn* şəhəridir.

Ölkənin ərazisi 5,131 km², əhalisi *(2011)* 1,346,350 nəfərdir *(əhali sıxlığı 254.4 nəfər/km²).*

*Trinidad və Tobaqonun* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.760* - yüksəkdir *(62-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1962) 31 avqustda qeyd olunur. Ölkə Konstitusiyası 01 avqust 1976-cı ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Trinidad və Tobaqo Respublikası 9 qraflığa *(Diyeqo-Martin, Kuva-Tabakite-Talbaro, Mayaro-Rio-Klaro, Penal-Debe, Prinses-Taun, Sanqre-Qrande, San-Xuan-Laventil, Sipariya və Tunapuna-Piarko)*, 5 bələdiyyəyə *(Arima, Point-Fortin, Port-of-Speyn, San-Fernando və Çaquanas)* və 1 özünüidarəetmə ərazisinə *(Tobaqo adası)* bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya görə *Parlamentin* hər iki palatasının üzvlərinin yer aldığı *Seçicilər Kollegiyası* tərəfindən, ardıcıl olaraq iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilən *Prezidentdir*.

Prezidentin səlahiyyətləri xeyli məhdud olduğundan, onun *Nümayəndələr Palatasında* daha çox mandata sahib olan siyasi partiyanın üzvləri arasından təyin etdiyi *Baş nazir* faktiki olaraq dövlətin lideri sayılır. Eyni zamanda Aşağı Palatada təmsil olunan Hökumət üzvləri də, Baş nazirin təqdimatı ilə dövlət başçısı tərəfindən təyin olunur.

*Trinidad və Tobaqonun* hazırkı, sayca 5-ci Prezidenti 18 mart 2013-cü ildən etibarən *Entoni Karmonadır.*

***Qanunverici hakimiyyət:*** İki palatalı Parlament - 31 yerlik *Senatdan* (üzvlərinin yaşı 25-dən yuxarı olan *Yuxarı Palataya* 16 senator Baş nazir tərəfindən, 6 üzv müxalifət lideri və 9 müstəqil senator Prezident tərəfindən təyin edilir) və üzvləri bir mandatlı dairələrdən 5 il müddətinə seçilən 41 yerlik *Nümayəndələr Palatasından* (*Aşağı Palata*) ibarətdir. Ölkənin Baş naziri və digər hökumət üzvləri məhz *Nümayəndələr Palatasında* seçilir.

Parlamentin hər iki palatası qanunvericilik fəaliyyətini *(qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyası və s.)* birlikdə həyata keçirirlər. Əsas funksiyalarla yanaşı, *Aşağı Palata (Nümayəndələr Palatası)* Hökumətin fəaliyyətinə ümumi nəzarətdə, habelə öz üzvləri arasından *Baş naziri* seçməkdə və onun təqdimatı əsasında Nazirlər Kabinetinin tərkibini formalaşdırmaqda səlahiyyətlidir.

Senatın Prezidenti 30 may 2010-cu ildən *Timoti Hamel-Smit (XTP),* Nümayəndələr Palatasını sədri isə *Veyd Markdır.*

24 may 2010-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* təmsil olunan siyasi partiyalar:

*Xalq Tərəfdaşlıq Partiyası – (29 yer, lideri Kamla Persad-Bissessar),*

*Milli Xalq Hərəkatı - (12 yer, lideri Keyt Rouley).*

***İcraedici hakimiyyət:*** Hökumətin başçısı – namizədliyi Parlament tərəfindən irəli sürülən və Prezident tərəfindən təsdiq edilən *Baş nazirdir.* Ölkənin daxili və xarici siyasətinin yürüdülməsində geniş səlahiyyətlərə malik olan *Baş nazir,* bir qayda olaraq *Aşağı Palatada* çoxluq qazanmış partiyanın lideri olur. 21 Nazirlikdən ibarət *Kabinetin* tərkibi də Parlamentdə təsdiq edilir.

Mövcud Konstitusiyaya görə *Nazirlər Kabineti,* həyata keçirdiyi fəaliyyət proqramı çərçivəsində, ona etimadsızlıq göstərməkdə və nəticədə Hökuməti istefaya göndərməkdə səlahiyyətli olan Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Bununla belə dövlət başçısı, *Baş nazirin* xahişi əsasında *Nümayəndələr Palatasını* buraxa bilər.

*Birləşmiş Milli Konqresin* lideri, *xanım Kamla Persad-Bissessar* 26 may 2010-cu ildən etibarən *Trinidad və Tobaqo Respublikasının Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Ən yüksək məhkəmə instansiyası sayılan *Arbitraj Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. *Baş nazir* və müxalifət lideri ilə məsləhətləşmələrdən sonra Arbitraj Məhkəməsinin sədri Prezident tərəfindən təyin edilir. Trinidad və Tobaqoda məhdud yurisdiksiyalı ixtisaslaşmış məhkəmələr də fəaliyyət göstərir.

# VANUATU





***Ümumi məlumat:*** Arxipelaqda *melaneziyalıların* məskunlaşması, eramızdan təxminən 2000 il əvvələ təsadüf edir. İlk avropalıların *(portuqalların)* adalara gəlişi XVII əsrin əvvəllərində reallaşmışdır.

1906-cı ildən etibarən *Böyük Britaniya* və *Fransanın* birgə ərazisi hesab olunmuş *Nyu Qebrid* arxipelaqının 83 adasında yerləşən *Vanuatu,* 1980-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Vanuatu Respublikasının* paytaxtı *Port Vila* şəhəridir.

Ölkənin ərazisi 12,190 km², əhalisi *(2011)* 224,564 nəfərdir *(əhali sıxlığı 19.7 nəfər/km²).*

*Vanuatunun* rəsmi dövlət dili *bislama, ingilis və fransız* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.617* - ortadır *(125-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1980) 30 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 30 iyul 1980-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 6 əyalətdən *(Palampa, Penama, Sanma, Tafea, Torba, Şefa)* ibarətdir.

***Dövlət başçısı:*** *Prezident* dövlət başçısı statusuna malik olsa da, ölkədə real hakimiyyət *Hökumətin* əlindədir. Ölkə Prezidenti, tərkibinə Parlamentin üzvlərinin, habelə Regional

Şura sədrlərinin daxil olduğu *Seçicilər Kollegiyası* tərəfindən 2/3 səs çoxluğu ilə 5 il müddətinə seçilir. Dövlət başçısı seçildikdən sonra Prezident, səhhəti ilə bağlı və ya qanunazidd fəaliyyətinə görə *Seçicilər Kollegiyanın* təşəbbüsü və 2/3 səs çoxluğu ilə vəzifəsindən azad edilə bilər.

Əsasən mərasim funksiyalarını yerinə yetirən dövlət başçısı öz səlahiyyətlərinin icrasını Hökumətin tövsiyə və məsləhətlərinə uyğun şəkildə reallaşdırır. Qüvvədə olan Konstitusiyaya görə Vanuatu Prezidentinin əfv fərmanı imzalamaq, Parlamentin hazırladığı və qəbul etdiyi qanunların Konstitusiyaya uyğunluğunu təmin etmək və s. səlahiyyətləri vardır.

02 sentyabr 2009-cu il tarixindən etibarən Vanuatunun hazırkı, sayca 15-ci Prezidenti *Vanuaku Partiyasının* təmsilçisi *İolu Abildir.*

***Qanunverici Hakimiyyət*:** Birpalatalı Parlament tərəfindən həyata keçirilir. Seçki sisteminin proporsional təmsilçilik elementlərini özündə ehtiva edən Vanuatu Parlamenti ümumi seçki hüququ əsasında 4 il müddətinə seçilən 52 deputatdan ibarətdir. 25 yaşına çatmış və seçilmək hüququna malik Vanuatu vətəndaşları Parlament seçkilərində iştirak etmək hüququna malikdir.

*Baş nazirin,* habelə bir və ya bir neçə nazirin təqdim etdiyi qanun layihələrinin qəbulu və qanunların dərc edilməsi hüququ *Parlamentə* məxsusdur. Parlamentdə təsdiq edildikdən sonra iki həftə ərzində qanun layihəsi imzalanması üçün dövlət başçısına göndərilir. Prezidentin qanun layihəsini imzalamamaq hüququ və bununla bağlı Ali Məhkəməyə müraciət etmək səlahiyyəti vardır.

30 oktyabr 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində ali qanunverici orqanda təmsil olunan siyasi partiyalar:

*Vanuaku Partiyası (ND) – 8 yer,*
*Xalq Tərəqqi Partiyası - 6 yer,*

*Mötədillər İttifaqı Partiyası – 5 yer,*
*Vanuatu Milli Birlik Partiyası – 4 yer,*
*Torpaq və Ədalət Partiyası - 4 yer,*
*Yaşıllar Konfederasiyası – 3 yer,*
*Digər partiyalar - 18 yer,*
*Müstəqillər – 4 yer.*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* və ona rəhbərlik edən *Baş nazir* tərəfindən həyata keçirilir. *Nazirlər Kabinetinin* üzvlərinin sayı deputatların ümumi sayının ¼-dən artıq olmamalıdır.

*Baş nazir* Parlamentin tərkibindən, deputat korpusunun ən azı ¾-nün iştirakı ilə seçilir. Hökumət başçısı, bir qayda olaraq Parlamentdə çoxluq təşkil edən partiyanın və ya koalisiyanın təmsilçisi olur.

Hökumət, ona etimadsızlıq göstərmək və *Kabineti* istefaya göndərmək səlahiyyətlərinə malik olan Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Bununla belə, dövlət başçısı *Baş nazirin* xahişi ilə Parlamenti buraxa bilər.

23 mart 2013-cü ildən etibarənVanuatı Respublikasının hazırkı, sayca 9-cu Baş naziri Yaşıllar Konfederasiyasının lideri olan Moana Karkasses Kalosidir.

***Məhkəmə hakimiyyəti:*** İngilis ümumi hüquq sisteminin əsas elementlərini özündə ehtiva edən *Vanuatu Respublikasının* məhkəmə-hüquq sistemi - hakimləri *Məhkəmə Xidmət komissiyasının* məsləhəti ilə *Prezident* tərəfindən təyin olunan *Apelyasiya Məhkəməsindən,* sədri *Baş nazir* və müxalifət lideri ilə məsləhətləşmələrdən sonra dövlət başçısı tərəfindən təyin edilən və cinayət və mülki işlər üzrə birinci instansiya məhkəməsi sayılan *Ali Məhkəmədən,* habelə magistr və adalar üzrə məhkəmələrdən ibarətdir.

# YUNANISTAN





***Ümumi məlumat:*** *Yunanıstan* dünya sivilizasiyasının ən qədim mərkəzlərindən biri sayılır. Eramızdan əvvəl XVII əsrdə *Yunanıstanın* materik hissəsində şəhər-dövlətlərin formalaşmasının əsası qoyulmuş, bu dövlətlərin intibah dövrü e.ə. VI-IV əsrlərə təsadüf etmişdir.

E.ə. II əsrdə *Qədim Romanın* əyalətlərindən birinə çevrilmiş *Yunanıstan*, eramızın 395-ci ilində *Bizans İmperiyasının* tərkibinə daxil olmuşdur.

XV əsrin ortalarından etibarən *Osmanlı İmperiyasının* tərkibinə daxil edilən ölkə, 1830-cu ildə müstəqil *Krallıq* elan edilmişdir *(1973-cü ildən respublikadır)*.

*Avropanın* cənub hissəsində, *Balkan yarımadasında* yerləşən *Yunanıstan Respublikasının* paytaxtı *Afina* şəhəridir.

Ölkənin ərazisi 131,957 km², əhalisi *(2011)* 10,815,197 nəfərdir *(əhali sıxlığı 82 nəfər/km²)*.

*Yunanıstanın* rəsmi dövlət dili *yunan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.861* - çox yüksəkdir *(29-cu yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1821) 25 mart tarixində qeyd olunur. Ölkə Konstitusiyası 11 iyun 1975-ci ildən (1986, 2001 və 2008-ci illərdə düzəlişlər edilməklə) qüvvədədir.

***İnzibati bölgüsü:*** 13 inzibati vahidliyə *(Attika, Mərkəzi Yunanıstan, Mərkəzi Makedoniya, Krit, Şərqi Makedoniya və*

*Frakiya, Epir, İon Adaları, Şimali Egey Adaları, Peloponnes, Cənubi Egey Adaları, Fessaliya, Qərbi Yunanıstan və Qərbi Makedoniya nomlarına)* bölünür.

***Dövlət başçısı:*** *Prezident Parlament* tərəfindən iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilir.

Dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident* qanunvericilik hakimiyyətini *Parlamentlə*, icra hakimiyyətini isə *Hökumətlə* birlikdə həyata keçirir.

Konstitusiya görə Prezident icra hakimiyyətini həyata keçirmək üçün geniş səlahiyyətə malikdir. Belə ki, Prezident *Baş Naziri* və onun təqdimatı ilə hökumətin digər üzvlərini vəzifəyə təyin etmək, Parlamentin etimadsızlıq göstərdiyi Hökuməti istefaya göndərmək, müstəsna hallarda *Nazirlər Şurasına* sədrlik etmək, müharibə və ya sülh elan etmək, xarici əlaqələr sahəsində ölkənin təmsil etmək və s. hüquq və səlahiyyətləri özündə ehtiva edir.

12 mart 2005-ci ildən etibarən *Karolos Papulyas* Yunanıstan Respublikasının Prezidentidir *(03 fevral 2010-cu ildə Parlament böyük səs çoxluğu ilə (89%) onu yenidən dövlət başçısı seçmişdir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı Yunanıstan Parlamenti 4 il müddətinə seçilən 300 deputatdan ibarətdir.

Dövlət büdcəsinin qəbulu və onun icrası üzrə hesabatın təsdiqi, iqtisadi və sosial inkişaf proqramının hazırlanması və təsdiq edilməsi, referendum keçirilməsi haqqında qərarın, hərbi vəziyyətin tətbiq edilməsi haqqında qanunun qəbul edilməsi, ölkə Prezidentinin seçilməsi, Hökumətə etimadsızlıq göstərilməsi və qüvvədə olan Konstitusiya ilə nəzərdə tutulan digər mühüm məsələlər Yunanıstan Parlamentinin səlahiyyətlərinə aiddir.

Ölkə Parlamentinin hazırkı sədri 29 iyun 2012-ci ildən etibarən *Yeni Demokratiya Partiyasının* təmsilçisi *Evanqelos Maymarakisdir.*

17 iyun 2012-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində Yunanıstanın ali qanunvericilik orqanında təmsil olunan əsas siyasi partiyalar:

*Yeni Demokratiya Partiyası (ND) – 129 yer, lideri A.Samaras),*

*Sol Radikal Koalisiya – (71 yer, lideri A.Sıpras),*

*PASOK – (33 yer, lideri Evanqelos Venizelos),*

*Müstəqil Yunanlar – (20 yer, lideri Panos Kammenos),*

*Qızıl Şəfəq (Ultra sağçılar) - (18 yer, lideri Nikolaos Mikalolyakos),*

*Demokratik Solçular - (17 yer, lideri Fotis Kuvelis),*

*KKE (Kommunist Partiyası) – (12 yer, lideri Aleka Papariqa).*

***İcraedici hakimiyyət:*** Parlament qarşısında kollektiv məsuliyyət daşıyan və onun etimadını qazandıqdan sonra fəaliyyət proqramına uyğun olaraq fəaliyyət göstərən *Hökumət* icra hakimiyyətini ölkənin daxili və xarici siyasətini həyata keçirir. Parlamentdə daha çox mandat əldə edən siyasi partiya tərəfindən formalaşdırılan *Nazirlər Şurasına* məhz həmin partiyanın lideri başçılıq edir.

Mövcud Konstitusiyaya görə, dövlətin ümumi siyasətini müəyyən edən və həyata keçirən *Baş nazir* və onun təqdimatı əsasında *Hökumətin* digər üzvləri dövlət başçısı tərəfindən təyin edilir.

20 iyun 2012-ci ildən etibarən *Yeni Demokratiya Partiyasının* lideri *Antonis Samaras* ölkənin sayca 188-ci *Baş naziridir.*

***Məhkəmə orqanı:*** *Ali Məhkəmə* və *Xüsusi Ali Tribunal,* habelə digər yerli və ixtisaslaşmış məhkəmələr ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

Məhkəmə hakimləri Ədliyyə Şurası ilə məsləhətləşmədən sonra Yunanıstan Prezidenti tərəfindən ömürlük təyin edilir.

## §3. Dualist (qarışıq) formada idarəetmə üsuluna malik respublikalar

*Dualist (yarıprezident, yarıparlament, qarışıq)* formada idarəetmə termini, ilk dəfə 1978-ci ildə məşhur fransız politoloqu *Moris Dyuverje* tərəfindən *Beşinci Fransa Respublikasını* "təsvir" etmək üçün istifadə edilmişdir.

Dualist üsul-idarəli ölkələrdə *Prezidentlə Baş nazir* arasında hakimiyyətin səlahiyyət bölgüsü müxtəlif formalarda ola bilər. Bu bölgü, əsasən dövlət və hökumət başçılarının fərqli siyasi düşərgələri təmsil etdikləri hallarda tətbiq olunur. Fransada bu situasiyada prezident dövlətin xarici siyasətinə, baş nazir isə daxili siyasət kursuna cavabdeh olur. Dayanıqsız sayılan və ölkənin siyasi mənzərəsinə uyğun olaraq dəyişmək ehtimalı yüksək olan bu tip siyasi anlaşmalar, bir qayda olaraq Konstitusiyada təsbit olunmur.

Bununla belə, bəzi dualist formalı idarəetmə üsuluna malik dövlətlərdə hakimiyyətin bölünməsinin bu aspekti onların konstitusiyalarında dəqiq şəkildə təsbit olunur. Məsələn, *Rusiya Federasiyasının* mövcud Konstitusiyasına əsasən, *Hökumətin* formalaşdırılması *Prezidentin* və ya *Dumanın* müstəsna hüququna aid deyil və onların səlahiyyət hüdudları dəqiq müəyyən edilmişdir.

Bir çox digər qarışıq *(dualist)* idarəetmə sisteminə malik dövlətlərdə xalqın etimad göstərdiyi dövlət başçısı, mövcud parlament çoxluğu ilə hesablaşmadan öz hökumətini formalaşdırmaq, habelə bu ziddiyyətli vəziyyətlə bağlı Parlamentlə siyasi konfliktə getmək və onu buraxmaq səlahiyyətinə malikdir. Bu hal nə prezident, nə də parlament respublikalarında de-yure mümkün deyil və məhz buna görə də, dualist idarəetmə sistemi, hakimiyyətin parlament və prezident idarəetmə üsuluna malik forması ilə yanaşı, müstəqil bir sistem kimi qəbul edilir.

# FRANSA

  

***Ümumi məlumat:*** Eramızdan əvvəl VI əsrdə *kelt (qallar)* tayfalarının məskunlaşdıqları ölkə ərazisinin, e.ə. II-I əsrlərdə *Roma* tərəfindən fəth edilməsi nəticəsində bu torpaqlarda *Qalliya əyaləti* təşəkkül tapmışdır.

V əsr - *Frank* dövlətinin meydana gəlmisi, XI əsr isə ölkədə feodal parçalanma dövrünün başlanması ilə səciyyəvidir. XVI əsrdə yenidən birləşdirilmiş *Fransada,* bir əsr sonra - XVII yüzillikdə mütləq monarxiya qurulmuşdur.

14 iyul 1789-cu il tarixində ölkədə *Böyük Fransa Burjua İnqilabı* baş vermiş, 1792-ci ildə isə *Fransa Respublikası* elan edilmişdir. Zəngin tarixə malik olan *Fransada* Napoleon "erasından" sonrakı dövrdə baş vermiş yeni inqilab, 1848-ci ildə *İkinci Respublikanın* elan edilməsi ilə nəticələnmişdir.

Fransada monarxiya rejiminin devrilməsi *(1870)* və *Paris Kommunasının* süqutu *(1871)* nəticəsində 1875-ci ildə *Üçüncü Respublikanın,* habelə İkinci Dünya Müharibəsindən sonrakı dövrdə - 1946-cı ildə *Dördüncü Respublikanın* və 1958-ci ildə *Beşinci Fransa Respublikasının* konstitusiyaları qəbul edilmişdir.

*Avropanın* qərb hissəsində yerləşən *Fransa Respublikasının* paytaxtı *Paris* şəhəridir.

Ölkənin ərazisi 674,843 km², əhalisi *(2011)* 65,350,000 nəfərdir *(əhali sıxlığı 116 nəfər/km²).*

*Fransanın* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.884* - çox yüksəkdir *(20-ci yer).*

***Dövlət quruluşu:*** *Fransa* dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan Bastiliyanın alınması günü (1789) 14 iyul tarixində qeyd olunur. Konstitusiya 28 sentyabr 1958-ci ildə qəbul edilmiş və ona 1962-ci il prezident seçkilərinə dair, 1992, 1996 və 2000-ci illərdə Avropa İttifaqının *Maastrix, Amsterdam və Nitsa* sazişlərinin müddəalarına əsasən və 1993-cü il emiqrasiya qanunlarının sərtləşdirilməsi ilə bağlı düzəlişlər edilmişdir.

***İnzibati bölgüsü:*** 26 regiona *(Akvitaniya, Bretan, Burqundiya, Yuxarı Normandiya, İl-de-Frans, Korsika, Lanqedok, Russilyon, Limuzen, Lotarinqiya, Aşağı Normandiya, Nor-Pa-de-Kale, Overn, Pikardiya, Provans, Alp, Puatu, Şaranta, Lazur Sahili, Luar Torpaqları, Rona-Alp, Qvadelupa, Mayotta, Martinika, Reyunyon, Fransız Qviyanası)* bölünür.

***Dövlət başçısı:*** Prezident ümumi birbaşa səsvermə yolu ilə beş il müddətinə seçilir. Fransa Respublikasının hazırkı, sayca 24-cü prezidenti (*Beşinci Respublikanın 7-ci Prezidenti*) 15 may 2012-ci ildən etibarən *Fransa Sosialist Partiyasının* təmsilçisi *Fransua Ollanddır.*

***Qanunverici hakimiyyət:*** *İki palata* **-** *Milli Məclis* (577 deputat) və *Senatdan* (348 senator) ibarət Parlamentdir. Milli Məclis ümumi birbaşa səsvermə yolu ilə 5 il müddətinə, Senat hər üç ildən bir tərkibinin 1/3-i yenidən seçilməklə 9 il müddətinə seçilir.

Son parlament seçkiləri *(10-17 iyun 2012-ci il və 25 sentyabr 2011-ci il)* nəticəsində *Milli Assambleya* və *Senatda* yer alan əsas siyasi partiyalar:

*Fransa Sosialist Partiyası (SP, lideri – Martin Obri, 280 yer Milli Assambleya, 141 yer Senat),*

*Xalq Hərəkatı Naminə İttifaq (XHNİ, Baş katibi Jan-Fransua Kope, 194, 132),*

*Demokratların və Müstəqillərin Birliyi (29),*

*Yaşıllar ("Avropa-Ekologiya", lideri – Sesil Dyuflo, 17, 10),*

*Radikal Solçu Partiya ( lideri Jan-Mişel Bele, 7, 11)*

*Demokratik və Respublikaçı Solçular (15),*

*Milli Cəbhə (lideri Marin Le Pen, 2 deputat),*

*Demokratik Hərəkat (lideri Fransua Bayru, 3, 4)*

*"Qalx, Respublika" (lideri Nikola Dupont Ayqnan 2, 1),*

*Yeni Mərkəz (lideri - Erve Moren, 25, 12),*

*Fransa Naminə Hərəkat (FNH, sədri – Filipom de Villye, 2, 1),*

*Kommunist Qrupu - (lideri Nikolya Borvo, 21 senator),*

*Avropa Demokratik və Sosial Rallisi – (lideri Yvon Kolin, 17 senator).*

***İcraedici hakimiyyət:** – Baş nazirin* namizədliyi Milli Məclis tərəfindən irəli sürülür və Prezident tərəfindən təyin edilir. *Nazirlər Şurası* Baş nazirin təklifi ilə Prezident tərəfindən təyin edilir.

16 may 2012-ci ildən etibarən ölkənin hazırkı, sayca 168-ci *Baş naziri Fransa Sosialist Partiyasının* nümayəndəsi *Jan-Mark Erodur.*

***Məhkəmə hakimiyyəti:** Ali Məhkəmə və ya Kasasiya Məhkəməsi (hakimlər Baş Ədliyyə müşavirinin tövsiyəsi ilə Prezident tərəfindən təyin edilir), Konstitusiya Şurası (üzvlərin 3-ü Prezident, 3-ü Milli Məclisin sədri, 3-ü isə Senatın Prezidenti tərəfindən təyin edilir)* və *Dövlət Şurasıdır.*

1958-ci ilin oktyabrında qəbul edilmiş və 1789-cu ildən bəri 17-ci olan Beşinci Respublikanın Konstitusiyasına əsasən *Fransanın qanunvericilik orqanı* ikipalatalı parlamentdir. Parlament *Milli Assambleya* və *Senatdan* ibarətdir. Milli Assambleyanın 577 deputatı bir namizədlə təmsil olunan seçki dairələrində ümumi birbaşa səsvermə yolu ilə 5 illik müddətə *(bu müddət ərzində Assambleya buraxıla bilər)* seçilirlər. *Senatın* 321 üzvü *Milli Məclisin* və departament şuralarının üzvlərinin,

həmçinin merlərin və bələdiyyə şuraları nümayəndələrinin daxil olduğu seçki kollegiyası tərəfindən hər üç ildən bir tərkibinin 1/3-ü yenidən seçilməklə 9 il müddətinə seçilir. *Milli Assambleyaya* 22 deputat, *Senata* isə - 13 üzv xarici departament və ərazilərdən, daha 12 namizəd xaricdə olan fransız vətəndaşları tərəfindən seçilirlər.

Fəaliyyəti altı böyük funksional komitələrin *(61 və ya 121 üzvdən ibarət)* köməkliyi ilə həyata keçirilən *Milli Assambleya* daha üstün palata sayılır. O, ilk növbədə cari ilin büdcəsini öyrənir; Baş nazir bu palatanın sıralarından seçilir və nəhayət, ən vacib sayılan odur ki, Assambleyanın üzvləri etimadsızlıq rəyi irəli sürərək hökuməti istefaya göndərə bilərlər.

*Senat* - kənd yerlərinin və kiçik şəhərlərin mərkəzçi və müstəqil nümayəndələrinin siyasətini ifadə edən yer sayılır; onun funksiyası - qismən və arabir olan çox faydalı yoxlamalardır. Senat Milli məclisdən daxil olmuş qanun layihələrinə müvəqqəti veto qoymaq və xüsusi olaraq çağırılan saziş konfransları zamanı öz düzəlişlərini təklif etmək hüququna malikdir. Lakin, Milli Məclisin əksəriyyəti səs verdikdə Senatın vetosu ləğv edilir.

İcraedici hakimiyyətlə müqayisədə qanunverici hakimiyyətin bölgüsü fransız hökumətinin qeyri-adi xüsusiyyəti sayılır. 1958-ci il Konstitusiyasının 34-cü maddəsinə uyğun olaraq parlament yalnız qəti müəyyən olunmuş: vergi qoyma, mülki hüquq, seçkilər, milliləşdirmə və cinayət işləri sahələrində qanunları tətbiq edə bilməklə yanaşı təhsil, əmək, milli müdafiə, yerli özünüidarə və ictimai təhlükəsizlik sferalarında ümumi direktivlər və ya prinsiplər təklif etmək hüququna malikdir.

Hökumət digər sahələrdə icraedici dekretlərə uyğun qanunları dərc etmək səlahiyyətlərinə malikdir. Hətta özünün şəxsi sahəsində belə parlament bəzən səlahiyyətlərini icra hakimiyyəti qoluna ötürmək və mütləq şəkildə Prezidentin imzaladığı dekretlərdə düzəliş aparmaq məcburiyyətindədir.

Bundan əlavə 47-ci maddəyə əsasən fransız parlamentinə cari ilin büdcəsinin müzakirəsinə və səsverməsinə 70 gün ayrılır. Bu müddətdən sonra hökumət müvafiq qərar dərc etməklə tədbir görə bilər. Digər qanun layihələrinə gəldikdə, icra hakimiyyəti onların etibarlılığını göstərmək üçün "gilyotinlər" metodunu tətbiq edə bilər. Əgər müxalifət qanun layihəsi ilə bağlı qınaq və ya məzəmmət edici qərar irəli sürmürsə, o avtomatik olaraq 24 saat ərzində qüvvəyə minir. Parlament, hətta tam mətnin hər hansı bir düzəlişsiz qəbuluna təkid edə bilər. Parlamentin iş qrafiki adətən məhduddur. Parlament ənənəvi olaraq ildə ən çoxu 170 gün iclas edir (28-ci maddə ilə təsbit edilir). 1995-ci ilin avqust ayında Konstitusiyaya parlamentin sessiyasının oktyabrdan iyun ayına qədər fasiləsiz uzadılması, nazirlərin isə həftədə bir dəfə parlament qarşısında hesabat vermələrinin vacibliyi haqqında dəyişikliklər edilmişdir.

Həmçinin *Milli Məclis hökumətə* inam, yaxud inamsızlıq *(o cümlədən xarici siyasət sahəsində)* nümayiş etdirmək hüququna malikdir. Bəzi beynəlxalq müqavilələr yalnız Parlament tərəfindən təsdiqlənə bilər.

*Fransada bütün icraedici səlahiyyətlər* iki fiqur – *Prezident* və *Baş nazir* arasında bölünmüşdür. Prezident ümumi birbaşa səsvermə yolu ilə beş il müddətinə seçilir. Seçkilər iki turda keçirilir; istənilən şəxsin iştirak edə biləcəyi birinci turda qələbə qazanmış namizəd səslərin mütləq əksəriyyətini əldə etmədikdə, daha çox səs toplamış iki namizəd arasında iki həftədən sonra keçirilən növbəti turda qalib müəyyən edilir.

*Prezident* rəsmi dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılır, habelə 5-ci maddəyə əsasən bütün konstitusiya məsələləri ilə bağlı münsiflər hakimi və ya rəhbər rolunu öz üzərinə götürür. Prezidentin rəsmi səlahiyyətləri çox genişdir: o Baş naziri seçir; *Nazirlər Şurasının* və ya *Kabinetin* müşavirələrində sədrlik edir; hökumətin qanun layihələrini öz imzası ilə təsdiq edir; səfir təyin edir və xarici səfirləri

akkreditə edir, xarici dövlətlərlə müqavilələr bağlanması haqqında danışıqlar aparır; referendumlar çağırır; milli təhlükəsizliyi təmin edir; *Milli Assambleyanı* buraxa bilər, lakin bu cür qərar yalnız ildə bir dəfə qəbul edilə bilər.

1958-ci il Konstitusiyasının 20 və 21-ci maddələrinə görə siyasətdə və ya heç olmazsa daxili siyasətdəki istiqamət haqqında son qərar *Baş nazir və Nazirlər Şurası* tərəfindən qəbul edilir. Prezident və Baş nazirlə birlikdə fəaliyyət göstərən *Nazirlər Kabineti* həm siyasi, həm də texnokrat dairələrdən seçilir, bununla belə, 23-cü maddəyə əsasən idarəçilik dövrü ərzində onun üzvləri parlamentdə yer tuta bilməzlər.

*Fransanın Nazirlər Kabineti* bir sıra aspektlərdə Britaniya parlamentinin "kollektiv icraçılıq" modelinə nisbətən amerika Prezidentlik modelinə daha yaxındır. Bununla belə, Fransa nazirləri həqiqətən Milli Assambleyanın debatlarında iştirak və sədrlik edirlər, daimi komitələrin fəaliyyətində iştirak edirlər və Assambleyanın yazılı və şifahi suallarına cavab verməyə borcludurlar. *Nazirlər Kabineti,* həm də öz növbəsində daha kiçik məsləhətçi kabinetlərə arxalanan çox yaxşı peşəkar hazırlıqlı və nüfuzlu dövlət xidmət orqanları ilə sıx əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

Ölkədə həmçinin 9 üzvdən ibarət *Konstitusiya Şurası* fəaliyyət göstərir. 9 il müddətində bu vəzifəni tutan Şura üzvləri hər üç ildən bir üç nəfər olmaqla respublika Prezidenti tərəfindən, digər üç nəfər isə Senatın Prezidenti və Milli Assambleyanın sədri tərəfindən bir müddətdən çox olmamaq şərti ilə təyin edilirlər.

Tərkibinə yüksək vəzifəli dövlət məmurlarının daxil olduğu *Dövlət Şurası* qanunlara dəyişikliklər etmək səlahiyyətlərinə malik və təqdim edilən qanun layihələrinin konstitusiyalılığı məsələsinə qərar (məcburi olmayan) verən əlavə və qocaman orqan sayılır. Dövlət şurası həmçinin vətəndaşlar və müdiriyyət arasında mübahisələrin son instansiyası sayılır.

ABŞ-ın Ali Məhkəməsi və Almaniyanın Federal Konstitusiya şurası ilə müqayisədə *Fransa Dövlət (DŞ) və Konstitusiya (KŞ)* şurasının səlahiyyətləri xeyli məhduddur.

Konstitusiyaya düzəlişlər iki yolla: Senatın və Milli şura üzvlərinin 60%-nin onun lehinə səs verməsi və ya bu şərtlər daxilində düzəlişlərin ayrıca Senatda və Milli Assambleyada, daha sonra isə ümumxalq referendumunda təsdiq edilməsi ilə mümkündür.

Fransa Respublikasına həmçinin hər birinin mərkəzi və regional şurası olan Qvadelupa, Martinika, Reyunyon, Fransız Qviyanası kimi xarici departamentlər; xüsusi müvəkkillər tərəfindən idarə olunan Mayotta və Sen-Pyer, Mikelon kimi iki geniş ərazi; seçkili ərazi şuraları ilə işləyən və başında təyinatlı məmurların durduğu dörd xarici ərazi: Fransız Polineziyası, Cənubi Fransız və Antarktik əraziləri, Yeni Kaledoniya və nəhayət Futuna və Uellis adaları daxildir. Bu ərazilər öz nümayəndələrini respublika parlamentinə göndərirlər.

# RUSİYA







***Ümumi məlumat:*** *Rusiyanın* indiki ərazisində dövlətçilik 862-ci ildən etibarən davamlı olaraq mövcud olmuşdur. Bu torpaqlara slavyanların *Volqa çayı* ilə *Rus düzənliyinin* yuxarı və aşağı hissələrinə hərəkət etməklə gəlişi, VIII-IX əsrlərə təsadüf edir.

*Rusiya Federasiyasının* dövlət-ərazi inkişafı qədim rus dövləti olan *Kiyev Rus dövlətindən* başlamışdır. Bu dövlətin tərkibinə müasir *Rusiyanın* şimal-qərb və mərkəz torpaqları daxil idi. XIII-XIV əsrlərdə yaranmış *Moskva knyazlığı* yeni rus dövlətinin formalaşmasının özəyini təşkil etmişdir. XVI əsrin ortalarında *Rus dövlətinin* tərkibinə *Volqaboyunun* xalqları məskunlaşan ərazilər qatılmışdır. Şərqə hərəkət edən ruslar artıq XVI əsrin sonlarında *Ural dağlarını* aşmış və *Qərbi Sibir* düzənliyində məskunlaşmışlar. Rusların şərqə yürüşü, XVII əsrdə *Kamçatka yarımadasının* alınması ilə başa çatmışdır.

XVIII-XIX əsrlərdə ruslar *Krımda, Mərkəzi Asiya, Qafqaz və Avropada* yaşayan bir sıra xalqları özlərinə tabe etdirməklə, böyük *Rus İmperiyası* yaranmışdır.

1917-ci il Oktyabr İnqilabından sonra keçmiş *Rusiya İmperiyasının* ərazisində yaranmış respublikalar 1922-ci ildə *Sovet Sosialist Respublikalar İttifaqı (SSRİ)* çərçivəsində birləşmişlər. 1991-ci ildə SSRİ dağılmış və onun yerində 15 müstəqil dövlət, o cümlədən müasir sərhədləri ilə *Rusiya Federasiyası* yaranmışdır.

*Avropanın* şərq və *Asiyanın* şimal hissəsində yerləşən *Rusiya Federasiyasının* paytaxtı *Moskva* şəhəridir.

Ölkənin ərazisi 17,098,246 km², əhalisi *(2012)* 143,200,000 nəfərdir *(əhali sıxlığı 8,38 nəfər/km²).*

*Rusiyanın* rəsmi dövlət dili *rus* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.755* - yüksəkdir *(66-cı yer).*

***Dövlət quruluşu:*** Bir çox politoloqların fikrincə, hazırda *Rusiyada* ABŞ-ın və Qərbi Avropa ölkələrinin inkişaf etmiş demokratiyasından əhəmiyyətli dərəcədə fərqlənən posttotalitar və ya postkommunist demokratiya rejimi bərqərar edilmişdir.

Müasir dövrün bir çox xüsusiyyətləri Rusiya vətəndaşlarının demokratik cəmiyyətdə yaşadıqlarını göstərir. Ölkənin siyasi həyatında sol və sağ təmayüllü müxalifətin oynadığı rol, azad mətbuat və vətəndaş cəmiyyətinin mövcudluğu bunu deməyə əsas verir. Lakin, eyni zamanda bir sıra problemlərin mövcud olması Rusiya demokratiyasının hələ tam yetkin və inkişaf etmiş sayılmadığına dəlalət edir.

1993-cü ilin dekabrında qəbul edilmiş Rusiya Federasiyasının Konstitusiyası - hal-hazırda real fəaliyyət göstərən qanunvericilik aktı kimi deyil, daha çox siyasi rejimin cizgilərini göstərən proqram xarakteri daşıyır.

Konstitusiyaya əsasən *Rusiya Federasiyası* məhdud hakimiyyətli prezident idarə üsulunun bəzi elementlərini özündə ehtiva edən dualist idarəetmə üsuluna malik federativ respublikadır. Ölkədə prezidentin başçılıq etdiyi icraedici hakimiyyət, ikipalatalı qanunverici orqan - Federal Məclis və müstəqil məhkəmə sistemi mövcuddur. Konstitusiya - yaşamaq hüququ, pulsuz tibbi xidmət, təhsil və hüquq müdafiəsi də daxil olmaqla, insanların əsas hüquq və azadlıqlarının təminatçısıdır.

***İnzibati bölgüsü:*** İnzibati cəhətdən onun tərkibinə 21 respublika *(Adıgey, Altay, Başqırdıstan, Buryatiya, Dağıstan,*

*İnquşetiya, Kabarda-Balkariya, Kalmıkiya, Qaraçay-Çerkesiya, Kareliya, Komi, Mari El, Mordoviya, Saxa-Yakutiya, Şimali Osetiya-Alaniya, Tatarıstan, Tuva, Udmurtiya, Xakasiya, Çeçenistan, Çuvaşıstan), Yəhudi Muxtar Vilayəti,* 9 diyar *(Altay, Kamçatka, Xabarovsk, Krasnodar, Krasnoyarsk, Perm, Primorsk, Stavropol və Zabaykalye),* 10 milli mahal*,* 46 vilayət*,* 2 federal əhəmiyyətli şəhərlər - *Moskva* və *Sankt-Peterburq* daxildir.

***Dövlət başçısı:*** *Rusiya Federasiyasının Prezidenti* Konstitusiyaya 31 dekabr 2008-ci ildə edilmiş düzəlişə əsasən ümumxalq səsverməsi yolu ilə altı il müddətinə seçilir. Yaşı 35-dən az olmayan və on ildən artıq ölkədə yaşayan hər bir vətəndaş Rusiya Federasiyasının Prezidenti seçilə bilər. Eyni şəxs ardıcıl olaraq iki dəfədən artıq Prezident seçilə bilməz.

Dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan Prezident Baş naziri və 30 üzvü olan *Nazirlər Şurasını (Kabinet)* seçmək və təyin etmək, qərar və sərəncamlar vermək, qanun layihələrinə veto qoymaq hüququna malikdir. Prezident  Federal məclisə illik müraciətində ölkənin siyasi və iqtisadi inkişafı ilə bağlı hökumət proqramını bəyan edir.

Prezident müdafiə məsələləri ilə məşğul olan, habelə Milli bankın sədri, Baş prokuror və Ali Məhkəmənin üzvləri vəzifəsinə namizədləri təqdim edən Təhlükəsizlik Şurasını təyin edir və onun başında durur.

Rusiya Federasiyasının hazırkı, sayca 4-cü Prezidenti, 04 mart 2012-ci ildə keçirilmiş sonuncu Prezident seçkilərində 63.6% səs toplayaraq qalib gəlmiş *Vladimir Vladimiroviç Putindir (07 may 2012-ci ildən etibarən V.Putin rəsmən vəzifəsinin icrasına başlamışdır).*

***Qanunvericilik hakimiyyəti*** İkipalatalı *Federasiya Şurası (166 yer, 21 sentyabr 2011-ci ildən sədri V.İ.Matviyenkodur)* və üzvlərinin bir hissəsi birmandatlı dairələrdən, digər hissəsi isə partiya siyahılarına əsasən 4 illik müddətə seçilən *Dövlət*

*Duması (450 deputat – 21 dekabr 2011-ci ildən sədri S.Narışkindir)* tərəfindən həyata keçirilir. Beləliklə, seçicilər seçki dairəsindən keçən namizədlə yanaşı, həm də partiyaya səs verirlər. Ən aşağı yaş senzi - 21 yaş müəyyən edilən *Dumanın* deputatları seçildikləri andan hər-hansı ödənişli fəaliyyətlə məşğul ola və ya digər məsul hökumət vəzifələrini tuta bilməzlər.

*Federasiya Şurasının* tərkibinə hər regiondan və ya respublikadan təyin edilmiş iki nümayəndə daxildir. *Federal Məclis* və *Prezident* bir-birinə güclü təsir edə bilmir. *Dövlət Duması* - lehinə böyük əksəriyyətin səs verdiyi etimadsızlıq rəyi irəli sürməklə hökuməti buraxa bilər. Duma - Prezidentin hər-hansı məcburi qərar qəbul etməsinə qədər olan üç ay müddətində iki dəfə etimadsızlıq rəyi irəli sürmək hüququna malikdir. Prezident yeni hökumət yarada və ya Dumanı buraxaraq yeni seçkilər təyin edə bilər.

Yeni *Baş nazirin* və ya hökumətin təyin edilməsi üçün *Dumanın* mütləq razılığı olmalıdır. Bununla belə, Prezidentin təklif etdiyi namizədi Duma üç dəfə rədd etdiyi təqdirdə dövlət başçısı Dumanı buraxmaq və yeni seçkilər elan etmək hüququna malikdir.

*Federal Məclis* – hər iki palatanın səs verdiyi, *Ali məhkəmənin* və *Konstitusiya Məhkəməsinin* bu qərarla razılaşacağı təqdirdə *Prezidentə* impiçment irəli sürə bilər. Federal məclis həmçinin *Dumanın* qəbul etdiyi qanun layihəsinə veto qoya bilər. Prezident *Dövlət Dumasını*, formalaşdığı andan etibarən ilk 12 ay ərzində buraxmaq hüququna malik deyil.

1993-cü il Konstitusiyasına görə *Rusiya Federasiyasının* 21 Respublikası və 68 vilayət, məmləkət və mahalı bərabər və geniş muxtariyyətə malikdir. Vergi, müdafiə, xarici işlər, enerji təchizatı və sosial siyasətə aid məsələlər federal hökumətin ixtiyarında olsa da, digər sahələr: təhsil, səhiyyə, ictimai təhlükəsizlik, mədəniyyət və torpaqdan istifadə yerli hakimiyyət

orqanlarının nəzarəti altına düşür. Respublikaların hər birinin konstitusiyası, seçkili hökuməti və büdcəsi vardır. Bu respublikalar regionda sosial-iqtisadi siyasətin istiqamətlərini müəyyənləşdirir, torpaqdan istifadə məsələlərinə nəzarət edir və dövlət büdcəsindən istifadə edilməsinə məsuliyyət daşıyırlar.

***İcraedici Hakimiyyət:*** Ölkədə icra hakimiyyəti mövcud Konstitusiyanın 114-cü maddəsinə əsasən *Rusiya Federasiyası Hökuməti* tərəfindən həyata keçirilir.

Dövlətin vahid maliyyə və pul siyasətinin həyata keçirilməsini təmin etmək, federal büdcəni hazırlayaraq *Dövlət Dumasına* təqdim və onun icrasına nəzarət etmək, mədəniyyət, elm, təhsil, səhiyyə, sosial təminat, ekologiya sahələrində dövlət siyasətini həyata keçirmək, ölkənin müdafiə və xarici siyasət strategiyasının, habelə Konstitusiya ilə müəyyən edilmiş digər funksiyaların yerinə yetirilməsini təmin etmək RF Hökumətinin səlahiyyətlərinə daxildir.

Hökumətin qərarları ilə Rusiya Federasiyasının Konstitusiyası, federal qanunlar və Prezident fərmanları arasında ziddiyyət yarandıqda, bu qərarlar Rusiya Federasiyası Prezidenti tərəfindən ləğv edilə bilər.

Rusiya Federasiyasının hazırkı, 10-cu *Baş naziri* 8 may 2012-ci ildən etibarən *"Yedinaya Rossiya" Partiyasının* sədri *Dmitri Medvedyevdir.*

***Məhkəmə hakimiyyəti*** – *Rusiya Federasiyasının* xarici dövlətlərlə bağladığı müqavilələrə və ölkə qanunlarına riayət edilməsinə nəzarət, habelə ərazi mübahisələrinə baxılması 1991-ci ilin oktyabr ayında yaradılmış 19 hakimdən ibarət olan *Konstitusiya Məhkəməsi,* eləcə də *Ali Məhkəmə* və *Ali Arbitraj Məhkəməsi* tərəfindən həyata keçirilir. Hakimlər *Prezidentin* təqdimatı ilə *Federasiya Şurası* tərəfindən altı il müddətinə təyin olunurlar.

***Siyasi partiyalar:*** Bir partiyalı kommunist dövlətinin sələfi olan Rusiyada plüralizmin vüsət aldığı XX əsrin sonla-

rında bir çox partiyalar meydana gəlsə də, onların yalnız bəzilərinin fəaliyyəti əhəmiyyətli və davamlı oldu. Partiyaların tərkibi daim dəyişirdi, onların strukturları yenidən formalaşırdı və bir çox siyasətçilər yerli hakimiyyət orqanlarının dəstəyinə arxalanaraq namizədliklərini müstəqil şəkildə irəli sürməyə üstünlük verir, daha sonra isə parlamentdə digərləri ilə birlikdə ittifaqlar yaradırdılar.

Hazırda Rusiyada fəaliyyət göstərən əsas partiyalar və fraksiyalar aşağıdakılardır:

*"Yedinaya Rossiya" Partiyası - (lideri D.Medvedyev 04 dekabr 2011-ci ildə keçirilmiş son parlament seçkiləri nəticəsində Dumada 238 deputatla təmsil olunur*),

*Kommunist partiyası - (lider Q.Zyüqanov, 92 yer),*

*"Spravedlivaya Rossiya" – (lider S.Mironov, 64 yer),*

*Liberal-demokrat partiyası – (sədr V.Jirinovski, 56 yer),*

*"Yabloko" bloku – (sədr Q.Yavlinski),*

*"Patriotı Rossii" – (G.Semiqin),*

*"Pravoe delo" - (sədr A.Dunayev).*

12 aprel 2001-ci il tarixində "Yedinstvo" *("Birlik")* partiyasının lideri *S.Şoyqunun* və "Oteçestvo" *("Vətən")* partiyasının rəhbəri *Yuri Lujkovun* birgə siyasi bəyənatları ilə "Yedinaya Rossiya" *("Vahid Rusiya")* ümumrusiya siyasi partiyasının yaranma prosesinin əsası qoyuldu. İnteqrasiya proseslərinin praktikada reallaşması, təminat və təşkilat məsələləri üzrə mövqelərin razılaşdırılması məqsədilə Koordinasiya Şurası yaradıldı. Şuranın və onun komissiyasının fəaliyyətinin əsas nəticəsi *"Oteçestvo"* və *"Yedinstvo"* partiyalarının gələcək qarşılıqlı əlaqələrinin modeli üzrə təkliflərin hazırlanması oldu.

Partiyanın əsas məqsədini ədalətli cəmiyyət, müstəqil qüdrətli dövlət, güclü iqtisadiyyat və vətəndaşların rifahının yüksəldilməsi təşkil edir.

"Yedinaya Rossiya" Partiyası hazırda ölkə vətəndaşları ilə konstruktiv əməkdaşlığın qaydaya salınması üçün müxtəlif forma və metodlardan istifadə edir. Belə qarşılıqlı fəaliyyət vasitələrindən biri sayılan Partiya tərəfdarları institutunun rəhbərliyi ilə bu gün bütün regionlarda "Yedinaya Rossiya" ümumrusiya siyasi partiyasının tərəfdarlarının regional və yerli şuraları yaradılmışdır.

İqtisadiyyat üzərində sərtləşdirilmiş dövlət nəzarətinin olmasına tərəfdar çıxan Rusiya Kommunist partiyası, mahiyyət etibarı ilə keçmiş Sovet İttifaqının hegemon qüvvəsi olan Kommunist partiyasının bir qədər islah olunmuş vərəsəsidir.

Marksizm-leninizm ideyalarının yaradıcı surətdə tərəqqisinə əsaslanan bu partiya kollektivizm, azadlıq, bərabərlik prinsipləri üzərində sosializmin - sosial ədalət cəmiyyətinin qurulmasını özünün məqsədi hesab edir, Sovetlər formasında əsil xalq hakimiyyəti, çoxmillətli federativ dövlətin möhkəmlənməsi uğrunda çıxış edir.

Ölkənin ifrat sağ millətçi populist partiyasının Rusiya liberal-demokrat partiyası adı altında fəaliyyət göstərməsi yanlışlığa səbəb ola biləcək hal sayılmalıdır. 1990-cı ildə əsası qoyulmuş bu partiyanın başçısı ksenofob V.Jirinovskidir. LDP cinayətkarlara münasibətdə ən sərt tədbirlərin tətbiq olunmasını müdafiə edir və keçmiş sovet respublikalarının, habelə Mərkəzi Avropanın, Orta Şərqin və Asiyanın bir sıra ərazilərini birləşdirə biləcək "Böyük Rusiya" yaratmaq məqsədilə ekspansionist xarici siyasəti təbliğ edir. LDP-nin istənilən üzvünün təyin və ya azad edilməsi partiya sədrinin səlahiyyətlərinə daxildir.

Digər nüfuzlu mərkəzçi təşkilat - 1993-cü ildə yaradılmış və iqtisadçı-reformator Q.Yavlinskinin rəhbərlik etdiyi *"Yabloko"* blokudur. Bu birlik bazar islahatlarının tədricən tətbiq edilməsinə tərəfdar çıxaraq radikal "şok terapiyası" prinsiplərindən imtina edir.

2006-cı ildə yaradılmış və qısa müddətdə ölkənin siyasi arenasında müəyyən uğurlara imza atmış *“Spravedlivaya Rossiya"* solmərkəzçi siyasi partiya olaraq fəaliyyət göstərir.

İlk dövrlərdə "Vahid Rusiya" ilə əməkdaşlıq edən, Vladimir Putin və Dmitri Medvedyev tərəfindən aparılan siyasəti dəstəkləyən *“Spravedlivaya Rossiya"* Partiyası 2011-ci ildən başlayaraq mövcud hakimiyyətə münasibətdə müxalif mövqedən çıxış edir.

# BURKİNA- FASO





***Ümumi məlumat:*** *Burkina-Fasonun* indiki ərazisində ilk dövlət birlikləri erkən orta əsrlər dövründə təşəkkül tapmışdır.

1904-cü ildə fransız müstəmləkəçiləri tərəfindən işğal edilən *Burkina-Faso*, 1960-cı ildən etibarən müstəqil dövlətdir.

*Afrikanın* qərb hissəsində yerləşən *Burkina-Faso Respublikasının* paytaxtı *Uaqaduqu* şəhəridir.

Ölkənin ərazisi 274,200 km², əhalisi *(2010)* 15,730,977 nəfərdir *(əhali sıxlığı 57.4 nəfər/km²).*

*Burkina-Fasonun* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.331* - aşağıdır *(181-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 05 avqust tarixində qeyd olunur. Ölkənin Yeni Konstitusiyası 11 iyun 1991-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 45 əyaləti və 301 departamenti özündə birləşdirən 13 vilayətdən *(Buk le-du-Muxun, Yuxarı Hövzə, Şərq, Mərkəzi-Şərqi, Mərkəzi-Qərbi, Kaskad, Saxel, Şimali, Şimali-Mərkəzi, Mərkəzi, Mərkəzi Plato, Cənub-Qərbi və Mərkəzi-Cənub)* ibarətdir.

***Dövlət başçısı:*** *Prezident* ümumxalq səsverməsi yolu ilə keçirilən seçkilərdə 5 il müddətinə seçilir. 2000-ci ildə ölkə Konstitusiyasına edilmiş düzəlişə əsasən, bir namizəd iki müddətdən artıq ölkə Prezidenti vəzifəsinə seçilə bilməz.

Mövcud Konstitusiyaya əsasən, ali qanunverici orqanın razılığı ilə *Baş naziri* təyin etmək, *Milli Assambleyanı* buraxmaq, erkən Parlament seçkiləri təyin etmək və s. mühüm məsələlər *Prezidentin* səlahiyyətlərinə aiddir.

Ölkənin hazırkı, 1-ci Prezidenti 15 oktyabr 1987-ci ildən *Blez Kompaoredir (21 noyabr 2010-cu ildə keçirilmiş son prezident seçkilərində Kompaore 80,15% səslə qalib gələrək növbəti müddətə dövlət başçısı postunu qoruya bilmişdir).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı *Milli Assambleyadır* (127 yer). Parlamentə deputatlar proporsional təmsilçilik sistemi üzrə və ümumi seçkilər yolu ilə 5 il müddətinə seçilirlər. Qanunvericilik fəaliyyəti ilə yanaşı, Burkina-Faso Respublikasının Parlamenti dövlətin məşvərətçi funksiyalarını da yerinə yetirir.

02 dekabr 2012-ci il tarixində ölkə Parlamentinə keçirilmiş son seçkilər nəticəsində *Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

*Demokratiya və Tərəqqi Naminə Konqres - (70 yer; 48.6%),*

*Demokratiya və Federal-Afrika Demokratik Hərəkatı Naminə Alyans - (19 yer; 11.2%),*

*Tərəqqi və İslahat Naminə İttifaq - (19 yer; 11%),*

*Dirçəliş / Sankarist Hərəkatı Birliyi - (4 yer; 4%),*

*Respublika Uğrunda İttifaq - (4 yer; 3.1%),*

*Burkina Demokratik Qüvvələrinin Konvensiyası - (3 yer; 2.4%),*

*Demokratiya və Sosializm-Quruculuq Partiyası - (2 yer; 2.4%),*

*Digər partiyalar – (6 yer).*

***İcraedici hakimiyyət:*** Hökumətə rəhbərlik edən *Baş nazir* Prezident tərəfindən təyin və Parlamentdə təsdiq edilir. Milli Assambleya qarşısında kollektiv məsuliyyət daşıyan Hökumətin tərkibi (nazirlər) Baş nazirin təqdimatı ilə dövlət başçısı tərəfindən təyin edilir və formalaşır.

*Demokratiya və Tərəqqi Naminə Konqresinin* təmsilçisi *Lyuk Adolf Tiao* 18 aprel 2011-ci ildən etibarən hökumətin başçısıdır.

***Məhkəmə hakimiyyəti:*** Ən yüksək məhkəmə instansiyası sayılan və 4 palatadan *(Konstitusiya, Ali, İnzibati və Hesablama)* ibarət olan *Ali Məhkəmə* tərəfindən həyata keçirilir. Burkina-Fasonun hüquq sistemi əsasən fransız hüquq sisteminə əsaslansa da, bütövlükdə qarışıq xarakterə malikdir. Belə ki, müasir hüquq məktəbi ilə yanaşı, əyalətlərdə yerli müsəlman hüquq sisteminin *Maliki* məktəbinə əsaslanan hüquq sistemi tətbiq olunur.

# CİBUTİ

  

***Ümumi məlumat:*** Əsrlər boyu *Misir* və digər dövlətlər tərəfindən idarə olunmuş *Cibutinin* indiki ərazisində ilk dövlət birlikləri *(sultanlıqlar),* yalnız XVIII əsrdə təşəkkül tapmışdır.

XIX əsrin 80-ci illərində *Fransa* tərəfindən işğal edilmiş *Cibuti*, 1977-cı ildə dövlət müstəqilliyini elan etmişdir.

*Afrikanın* şimal-şərq hissəsində yerləşən *Cibuti Respublikasının* paytaxtı *Cibuti* şəhəridir.

Ölkənin ərazisi 23,200 km², əhalisi *(2012)* 923,000 nəfərdir *(əhali sıxlığı 37.2 nəfər/km²)*.

*Cibutinin* rəsmi dövlət dili *fransız və ərəb* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.430* - aşağıdır *(165-ci yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1977) 27 iyun tarixində qeyd olunur. Ölkə Konstitusiyası 04 sentyabr 1992-ci ildə *(2010-cu il tarixində edilmiş dəyişikliklərlə)* qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** 11 dairəni *(Alayli, Ali-Sabi, As Eyla, Balqe, Dikil, Cibuti, Dorra, Obok, Randa, Tacura və Yoboki )* özündə birləşdirən 5 regiona *(Ali Sabye, Arta, Dixil, Obok, Tacurax)* və *Cibuti* paytaxt şəhərinə bölünür.

***Dövlət başçısı:*** Cibuti Respublikasının *Prezidenti* ümumxalq səsverməsi yolu ilə, 75 yaşın yuxarı yaş senzi olaraq tətbiq edilməsi şərti ilə, məhdudiyyətsiz sayda 6 il müddətinə seçilir.

Dövlət və hökumət başçısı, habelə silahlı qüvvələrin ali baş komandanı olan *prezident,* təyin etdiyi *Baş nazirə* və formalaşdırdığı *Hökumətə* ciddi təsir göstərmək səlahiyyətinə malikdir.

08 may 1999-cu ildən etibarən *İsmayıl Ömər Qelle* Cibutinin *hazırkı,* sayca 2-ci prezidentidir *(08 aprel 2011-ci ildə keçirilmiş son Prezident seçkilərində İ.Qelle 80.63% səs toplayaraq növbəti dəfə Prezident seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** Nümayəndələri ümumi seçkilərdə əhali tərəfindən 5 illik müddətə seçilən 65 yerlik bir palatalı *Milli Assambleyadır.* Respublikada 18 yaşından səsvermə hüququ, 23 yaşından isə seçilmə hüququ yaranır. Qanunvericilik hakimiyyətini *Milli Assambleya* Hökumətlə birlikdə həyata keçirir.

22 fevral 2013-cü ildə keçirilmiş son parlament seçkilərində *Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Prezident Çoxluğu Naminə Birlik Partiyası (UMP - 49,39%, lideri İ.Qelle),*

*Milli Qurtuluş Birliyi (USN - 47,61%),*

*Birləşmiş Demokratlar Mərkəzi (SDU – 3%).*

***İcraedici hakimiyyət:*** İcraedici hakimiyyət *Prezident* və Hökumətə başçılıq edən *Baş nazir* tərəfindən həyata keçirilir. Dövlət başçısı və Nazirlər Şurası tərəfindən təyin edilən Baş nazir, fəaliyyətinin icrasında ölkə Prezidenti qarşısında birbaşa məsuliyyət daşıyır.

Hakim partiyanın üzvü Abdulqadir Kamil Məhəmməd 01 aprel 2013-cü ildən etibarən Cibuti Respublikasının hazırkı, sayca 6-cı Baş naziridir.

***Məhkəmə hakimiyyəti*:** 1979-cu ildə yaradılmış *Ali Məhkəmə,* habelə Apelyasiya və birinci instansiya məhkəmələri tərəfindən həyata keçirilir. Bundan əlavə, yerlərdə *(dairələrdə)* ümumi və islam hüquq sisteminin normalarına əsaslanan Cinayət Məhkəməsi də fəaliyyət göstərir.

# ƏLCƏZAİR







***Ümumi məlumat:*** Tarix boyu *Əlcəzair Karfaqenin, Romanın, vandalların və Bizansın* hakimiyyətinə tabe olmuşdur.

VII əsrdə ərəblər tərəfindən fəth edilmiş *Əlcəzairin* indiki ərazisi, XVI əsrin əvvəllərində *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur. 1830-1862-ci illərdə *Fransanın* müstəmləkəsi olmuş *Əlcəzair,* 1962-ci ilin iyul ayından etibarən müstəqil dövlətdir.

*Afrikanın* şimal hissəsində yerləşən *Əlcəzair Respublikasının* paytaxtı *Əlcəzair* şəhəridir.

Ölkənin ərazisi 2,381,741 km², əhalisi *(2012)* 37,100,000 nəfərdir *(əhali sıxlığı 14.6 nəfər/km²)*.

*Əlcəzairin* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.698* - ortadır *(96-cı yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1962) 05 iyul tarixində qeyd olunur. 1996-cı ildə qəbul edilmiş yeni Konstitusiya 1976-cı il Konstitusiyasının təməl prinsiplərini özündə ehtiva edir.

***İnzibati bölgüsü:*** 48 əyalətə *(Adrar, Eş-Şelif, Laquat, Um-əl-Buaxi, Batna, Becaya, Biskra, Beşar, Blida, Buira, Tamanrasset, Tebessa, Tlemsen, Tiaret, Tizi-Uzu, Əlcəzair, Celfa, Cidcel, Setif, Saida, Skikda, Sidi-Bel-Abbas, Annaba, Qelma, Konstantina, Medea, Mostaqanem, Msila, Muaskar, Uarqla, Oran, Əl-Bayad, İllizi, Əl-Tarf, Tinduf, Tissemsilt, Əl-*

*Ued, Xenşela, Suk-Axras, Tipasa, Mila, Qardaya, Ayn-Defla, Naama, Ayn-Temuşent, Rrelizan, Borc-bu Arreric),* 553 dairəyə və 1541 kommunaya *(bələdiyyə)* bölünür.

***Dövlət başçısı:*** 2008-ci ildə ölkə Konstitusiyasına edilmiş düzəlişə əsasən, məhdudiyyətsiz sayda 5 ilik müddətə seçilmək hüququ olan *Prezident* - Əlcəzairin dini və milli birliyinin rəmzi, Konstitusiyanın, dövlət müstəqilliyinin, ərazi bütövlüyünün və milli təhlükəsizliyinin təminatçısı, ölkənin daxildə və xaricdə ali təmsilçisi, *Nazirlər Kabinetinin* və *Ali Təhlükəsizlik Şurasının* rəhbəri, habelə *Silahlı qüvvələrin ali baş komandanı* və *Müdafiə* naziridir.

Dövlət başçısı hökumətə rəhbərlik edən *Baş naziri* təyin və nazirləri təsdiq edir, Parlamentin hər iki palatasında qəbul edilmiş qanunları imzalayır və ya yenidən baxılması üçün geri qaytarır.

27 aprel 1999-cu ildən etibarən ölkə Prezidenti *Milli Azadlıq Cəbhəsinın* lideri *Abdel Əziz Buteflikadır (09 aprel 2009-cu ildə keçirilmiş son Prezident seçkilərində 90.23% səs toplayaraq növbəti dəfə dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** 144 yerlik *Xalq Şurasından (Yuxarı Palata) və* 600 yerlik *Xalq Milli Assambleyasından (Aşağı Palata)* ibarət iki palatalı *Parlamentdir. Yuxarı Palataya* üzvlərin 2/3-i birbaşa olmayan seçki sistemi üzrə seçilsə də, 1/3-i Prezident tərəfindən təyin olunur. *Aşağı Palataya* deputatlar vətəndaşların ümumi, birbaşa və gizli səsverməsi yolu ilə 5 illik müddətə seçilirlər.

Ölkədə qanunvericilik təşəbbüsü hüququ deputatlara və hökumətə məxsusdur. Qanun layihələri hər iki palatada müzakirə olunaraq qəbul olunur və imzalanması üçün Prezidentə göndərilir. Qanunvericilik fəaliyyəti ilə yanaşı, Əlcəzair Parlamenti Hökumətin fəaliyyətinə nəzarət etmək, habelə 2/3 səs çoxluğu ilə Kabinetə etimadsızlıq göstərmək səlahiyyətinə malikdir.

10 may 2012-ci il tarixində keçirilmiş son *Parlament* seçkilərində uğur qazanmış ölkənin əsas siyasi partiyaları:

*Milli Azadlıq Cəbhəsi – (208 deputat, lideri A.Buteflika),*

*Milli Demokratik İttifaq – (68 deputat, lideri Ə.Ouyahya),*

*Yaşıl Əlcəzair Alyansı – (49 deputat, lideri B.Soltani),*

*Sosialist Qüvvələri Cəbhəsi – (27 deputat, lideri H.Əhməd),*

*Əmək Partiyası – (24 deputat, lideri L.Hanoune),*

*Əlcəzair Milli cəbhəsi – (9 deputat, lideri M.Houati),*

*Ədalət və İnkişaf Partiyası – (8 deputat, lideri A.Caballah),*

*Əlcəzair Xalq Hərəkatı – (7 deputat, lideri A.Benyounes).*

***İcraedici hakimiyyət:*** *Baş naziri* və onun təqdimatı ilə 39 üzvdən ibarət *Nazirlər Kabinetini* Prezident təyin edir. Kabinet formalaşdıqdan dərhal sonra *Xalq Milli Assambleyası* yeni Hökumətin qanunvericilik proqramını təsdiq etməlidir. Qanunların və digər normativ aktların icra edilməsində məsul olan Nazirlər Kabineti Parlament qarşısında birbaşa cavabdehlik daşıyır.

03 sentyabr 2012-ci ildən etibarən Baş nazir *Milli Azadlıq Cəbhəsinin* təmsilçisi *Əbdülmalik Sellaldır.*

***Məhkəmə hakimiyyəti:*** Fransız və müsəlman *(nikah, ailə və vərəsəlik hüququ və digər şəxsi statuslu məsələləri ehtiva edən)* hüquq sisteminə əsaslanan məhkəmə hakimiyyətini, ən yüksək apelyasiya instansiyası sayılan *Əlcəzair Ali Məhkəməsi* və əyalət məhkəmələri həyata keçirir.

# HAİTİ





***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər hindu tayfalarının məskunlaşdığı *Haiti,* 1492-ci ildə *Kolumb* tərəfindən kəşf edilərək *İspaniyanın* koloniyasına çevrilmişdir. XVII əsrin sonlarında adanın qərb hissəsi *Fransaya* verilmiş, 1804-cü ildə isə Latın Amerikası ölkələri arasından ilk dəfə *Haiti* dövlət müstəqilliyini qazanmağa müvəffəq olmuşdur.

1844-cü ildə adanın *(Santo-Dominqo)* şərq hissəsi *Haitidən* ayrılaraq *Dominikan Respublikası elan edildi.*

*Karib dənizi* hövzəsində yerləşən *Haiti Respublikasının* paytaxtı *Port-o-Prins* şəhəridir.

Ölkənin ərazisi 27,750 $km^2$, əhalisi *(2011)* 9,719,932 nəfərdir *(əhali sıxlığı 350.27 nəfər/$km^2$).*

*Haitinin* rəsmi dövlət dili *fransız və haiti kreol* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.454* - aşağıdır *(158-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1804) yanvar ayının 1-də qeyd olunur. Ölkə Konstitusiyası 29 mart 1987-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** *Haiti Respublikası* 41 dairədən və 133 kommunadan ibarət olan 10 departamentə *(Artibonit, Mərkəzi, Qrand-Ans, Nip, Şimali, Şimal Şərqi, Şimal Qərbi, Qərbi, Cənub Şərqi və Cənub)* bölünür.

***Dövlət başçısı:*** 1987-ci il Konstitusiyasına uyğun olaraq yaşı 35-dən az olmayan və ölkə ərazisində 5 ildən artıq

yaşayan *Haiti* vətəndaşı ümumi, birbaşa və gizli səsvermə yolu ilə 5 illik müddətə *Prezident (2-ci müddətə yalnız 5 illik fasilədən sonra və 3-cü dəfə seçilməmək şərti ilə)* seçilə bilər. Seçkilərin gedişində namizədlər 50%-lik baryeri aşa bilmədikləri təqdirdə, daha çox səs toplamış 2 namizəd arasında keçirilən 2-ci turda *Prezident* seçilir.

Mövcud Konstitusiyaya görə hüquqi dövlətin, milli müstəqilliyin, ərazi bütövlüyünün təminatçısı olan *Prezident* dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanıdır. Haiti Respublikasının adından danışıqlar aparan və beynəlxalq müqavilələri imzalayan, habelə qanunları dərc edən və Hökumətlə birgə icra hakimiyyətini həyata keçirən dövlət başçısının bütün qərarları *Milli Assambleya* tərəfindən təsdiq edilir.

14 may 2011-ci ildən etibarən Haitinin hazırkı, sayca 40-cı Prezidenti *Mişel Marteyidir.*

***Qanunverici hakimiyyət:*** *Senatdan (*2006-cı ildən etibarən Yuxarı Palatanın Prezidenti *Keli Bastyendir)* və *Deputatlar Palatasından* ibarət iki palatalı *Milli Assambleyadır.* Hər iki palataya üzvlər vətəndaşların ümumi, birbaşa və gizli səsverməsi yolu ilə *(hər iki ildən bir 1/3 hissəsi yeniləşən Senata senatorlar 6 illik, deputatlar isə 4 illik müddətə)* seçilirlər. Deputatlar Palatasının və Senatın daimi olmayan say tərkibi seçki qanunu ilə müəyyənləşdirilir.

Qanunların hazırlanmasını və qəbulunu, dövlət büdcəsinin müzakirəsini və təsdiq edilməsini, beynəlxalq müqavilələrin ratifikasiyasını və Konstitusiya ilə müəyyən olunmuş digər vəzifələri həyata keçirən Parlament böyük səs çoxluğu ilə *Hökumətə* etimadsızlıq göstərmək səlahiyyətlərinə malikdir.

28 noyabr 2010 - 20 mart 2011-ci il tarixlərində keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Deputatlar Palatasında* və *Senatda* yer almış ölkənin əsas siyasi partiyaları:

*Unitu - (33 deputat, 5 senator),*

*Tərəqqi və Demokratiya Naminə Alternativ Partiya - (14 deputat, 5 senator),*

*Ansanm Nou Fo - (9 deputat),*

*Fəaliyyətdə olan Haiti - (8 deputat),*

*Lavni Təşkilatı - (7 deputat, 1 senator),*

*Haiti Rallisi - (4 deputat).*

***İcraedici hakimiyyət:*** *Hökumət* və ona rəhbərlik edən *Baş nazir* tərəfindən həyata keçirilir. *Baş nazirin* namizədliyini Prezident, Parlamentdə daha çox mandat qazanmış partiyanın üzvləri sırasından təklif edir və Parlamentin hər iki palatası həmin namizədi *Baş nazir* postuna təsdiq etməlidir.

*Senatda* və yaxud *Deputatlar Palatasında* Parlament qarşısında məsuliyyət daşıyan *Baş nazirə* böyük səs çoxluğu ilə etimadsızlıq göstərildiyi təqdirdə o, dərhal vəzifəsindən azad edilir.

16 may 2012-ci il tarixindən *Haiti Respublikasının* hazırkı Baş naziri *Laurent Lamotdur.*

***Məhkəmə hakimiyyəti*****:** Ölkədə Məhkəmə hakimiyyəti üzvləri *Parlamentin Yuxarı Palatası (Senat)* tərəfindən təqdim və *Haiti Prezidenti* tərəfindən 10 il müddətinə təyin edilən *Ali Məhkəmə,* habelə *Apelyasiya və birinci instansiya məhkəmələri* tərəfindən həyata keçirilir.

# GÜRCÜSTAN





***Ümumi məlumat:*** *Gürcüstanın* tarixi qədim *Kolxida* və *İberiya* krallıqlarına gedib çıxır. Dünyada xristianlığı qəbul etmiş ikinci dövlət sayılan *Gürcüstan,* XI və XII əsrlərdə özünün ən qüdrətli dövrünü yaşamışdır. 1801-ci ildə *Şərqi Gürcüstan,* 1803-1864-cü illərdə isə *Qərbi Gürcüstan Rusiya İmperiyasının* tərkibinə daxil edilmişdir.

1921-ci ildə ərazisində sovet hakimiyyəti qurulmuş *Gürcüstan,* 1922-ci ildə müttəfiq respublika statusunda SSRİ-nin tərkibinə daxil olmuşdur.

1991-ci ildən etibarən müstəqil dövlətdir.

*Cənubi Qafqazda* yerləşən *Gürcüstan Respublikasının* paytaxtı *Tbilisi* şəhəridir.

Ölkənin ərazisi 69,700 km², əhalisi *(2011)* 4,469,200 nəfərdir *(əhali sıxlığı 68,1 nəfər/km²).*

*Gürcüstanın* rəsmi dili *gürcü* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.733* - yüksəkdir *(75-ci yer).*

***Dövlət quruluşu:*** Dualist idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü iki dəfə - (1918) 26 may və (1991) 09 aprel tarixlərində qeyd edilir. Ölkə Konstitusiyası 24 avqust 1995-ci ildə qəbul olunmuşdur *(15 oktyabr 2010-cu ildə yenidən baxılmışdır).*

***İnzibati bölgüsü:*** 55 bələdiyyədən ibarət 10 diyara *(Tbilisi-paytaxt şəhəri, Quriya, İmeretiya, Kaxetiya, Kvemo-Kartli, Msxeta-Mtianeti, Raça-Leçxumi və Kvemo Svaneti,*

*Sameqrelo-Zemo-Svaneti, Samse-Cavaxeti, Şida-Kartli)* və 2 muxtar respublikaya bölünür *(Gürcüstanın tərkibinə 1921-ci ildən Acarıstan Muxtar Respublikası, 1922-ci ildən Cənubi Osetiya Muxtar Vilayəti (1990-cı ildə mərkəzi hakimiyyət tərəfindən ləğv edilmişdir) və 1931-ci ildən Abxaziya Muxtar Respublikası daxildir).*

***Dövlət başçısı:*** Ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilən *Prezidentdir.* Gürcüstanın mövcud Konstitusiyasına görə, bir namizəd iki müddətdən əlavə ölkə Prezidenti vəzifəsinə seçilə bilməz.

Dövlətin başçısı, silahlı qüvvələrin ali baş komandanı, xarici əlaqələr üzrə Gürcüstanın ən yüksək təmsilçisi sayılan *Gürcüstan Respublikasının Prezidenti,* ölkənin daxili və xarici siyasətini istiqamətləndirir, xalqın milli birlik və bütövlüyünü, habelə dövlət qurumlarının və digər orqanların fəaliyyətini təmin edir, formal olaraq *Baş naziri* təyin edir.

2010-cu ildə Konstitusiyaya edilmiş dəyişikliklər nəticəsində dövlət başçısının səlahiyyətləri nəzərəçarpacaq dərəcədə məhdudlaşdırılmışdır.

04 yanvar 2004-cü ildən etibarən Gürcüstan Respublikasının hazırkı, sayca 3-cü Prezidenti *Vahid Milli Hərəkat Partiyasının* lideri *Mixeil Saakaşvilidir (20 yanvar 2008-ci ildə keçirilmiş sonuncu Prezident seçkilərində M.Saakaşvili yenidən qalib gələrək ikinci dəfə dövlət başçısı seçilmişdir) .*

***Qanunverici hakimiyyət:*** 150 üzvdən ibarət bir palatalı Parlamentə deputatlar ümumi seçkilər yolu ilə 4 il müddətinə seçilirlər. Parlamentin 75 üzvü birmandatlı dairələr üzrə, digər yarısı isə partiya siyahıları sistemi üzrə seçilirlər.

Parlamentin hökumətə etimadsızlıq göstərmək, prezidentin veto hüququnu 3/5 səs çoxluğu ilə ləğv etmək, *Nəzarət Palatası* vasitəsilə dövlət büdcəsinin istifadəsinə nəzarət etmək və s. digər mühüm səlahiyyətləri vardır.

Gürcüstan Parlamentinin hazırkı, sayca 5-ci sədri, 21 oktyabr 2012-ci il tarixindən etibarən *Gürcüstan Respublikaçılar Partiyasının* lideri *David Usupaşvilidir.*

01 oktyabr 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində ölkənin ali qanunverici orqanında təmsil olunan əsas iki əsas siyasi partiya aşağıdakılardır:

*Gürcüstan Arzusu - Demokratik Gürcüstan Partiyası – (85 yer, lideri Bidzina İvanişvili),*

*Vahid Milli Hərəkat Partiyası – (65 yer, lideri Mixail Saakaşvili).*

***İcraedici hakimiyyət:*** Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın lideri olan və namizədliyi formal olaraq Prezident tərəfindən parlamentə təqdim edilən *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir.

*Nazirlər Kabineti* ali qanunverici orqan qarşısında kollektiv məsuliyyət daşıyır. Bununla belə Hökumət dövlət büdcəsinin layihəsini, ratifikasiya məqsədilə beynəlxalq müqavilələri və s. Parlamentə təqdim etməkdə, habelə səfir və diplomatik nümayəndəliyin başçısı vəzifəsinə təyin edilmək məqsədilə namizədlərin Prezidentə təqdimatında səlahiyyətlidir.

25 oktyabr 2012-ci ildən *Gürcüstan Respublikasının* hazırkı, sayca 10-cu *Baş naziri Gürcüstan Arzusu - Demokratik Gürcüstan Partiyasının (seçki blokunun) rəhbəri Bidzina İvanişvilidir.*

***Məhkəmə hakimiyyəti:*** Kasasiya instansiyası məhkəməsi olaraq, Gürcüstanın ədalət mühakiməsinin ən yüksək və son instansiya məhkəməsini təmsil edən *Ali Məhkəmə,* habelə digər ixtisaslaşmış və aşağı instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# KENİYA








***Ümumi məlumat:*** Keniya ərazisində ilk şəhər-dövlətlər XI-XV əsrlərdə təşəkkül tapmışdır. 1890-cı ildə *Keniya* üzərində *Britaniya* protektoratı qurulmuşdur *(1920-ci ildə Keniyanın materikdaxili hissəsi Britaniya koloniyasına çevrilmişdir).*

1963-cü ildə *Birləşmiş Krallığın* tərkibində müstəqillik əldə etmiş *Keniya,* 1964-cü ildən respublikadır.

*Şərqi Afrikada, Hind okeanının* sahilində yerləşən *Keniya Respublikasının* paytaxtı *Nayrobi* şəhəridir.

Ölkənin ərazisi 580,367 km², əhalisi *(2012)* 43,013,341 nəfərdir *(əhali sıxlığı 67,2 nəfər/km²).*

*Keniya Respublikasının* rəsmi dövlət dili *ingilis və svahili* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.509* - aşağıdır *(143-cü yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1963) 12 dekabr tarixində qeyd olunur. Ölkənin yeni konstitusiyası 27 avqust 2010-cu ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 46 dairədən ibarət 8 əyalətə *(Mərkəzi, Sahil, Şərqi, Qərbi, Nyanza, Nayrobi, Rift-Valli, Şimal Şərqi)* bölünür.

***Dövlət başçısı:*** Dövlət və hökumət başçısı olan *Prezident,* ümumxalq səsverməsi yolu ilə keçirilən seçkilərdə 5 il müddətinə seçilir. Prezidentliyə iddialı olan şəxs seçkilər zamanı

səslərin əksəriyyətini əldə etməklə bərabər, 8 əyalətin ən azı 5-də seçicilərin 1/4 hissəsinin dəstəyini qazanmalıdır.

Mövcud Konstitusiyaya əsasən, kifayət qədər geniş səlahiyyətlərə malik olan *(ölkənin daxili və xarici siyasət kursunu yönləndirmək, Hökumətin tərkibini formalaşdırmaq, ali vəzifələrə təyinatı həyata keçirmək və s.)* Keniya Prezidenti, icra hakimiyyətini bilavasitə rəhbərlik etdiyi *Hökumətin* vasitəsilə həyata keçirir.

Dövlətin idarə edilməsində Keniya Prezidentinə bilavasitə *vitse-prezident* köməklik edir.

*Milli Alyans (Yubiley Alyansı) Partiyasının* lideri *Uxuru Keniyata* 04 mart 2013-cü il tarixində keçirilmiş Prezident seçkilərində 50.07% səslə qalib gələrək Keniya Respublikasının sayca 4-cü Prezidenti seçilmişdir.

***Qanunverici hakimiyyət:*** Ölkənin yeni Konstitusiyasına görə təsisat olaraq yenidən bərpa edilmiş 47 yerlik *Senatdan (Yuxarı Palata)* və 337 yerlik *Milli Assambleyadan (Aşağı Palata)* ibarət iki palatalı *Parlamentdir. Milli Assambleyaya və Senata (hər dairədən bir senator olmaqla)* üzvlər ümumxalq səsverməsi yolu və sadə səs çoxluğu sistemi üzrə 5 illik müddətə seçilirlər.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, *Milli Assambleya (sədri 2008-ci ildən etibarən Kennet Marendedir)* təsdiq etdiyi dövlət büdcəsinin icrasına nəzarət etməkdə səlahiyyətlidir.

04 mart 2013-cü ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Senatda və Milli Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

*Milli Alyans (Yubiley Alyansı) Partiyası - 158 deputat, 21 senator, lideri Uxuru Keniyata,*

*Narıncı Demokratik Hərəkat (Demokratiya və İslahatlar Naminə Koalisiya) Partiyası - 139 deputat, 20 senator, lideri Raila Odinqa.*

***İcraedici hakimiyyət:*** *Prezidentdən, vitse-prezidentdən, Baş nazirin* iki müavinindən və 40 nazirlikdən ibarət geniş tərkibli Hökumətə *(Kabinet)* rəhbərlik edən *Baş naziri* Prezident təyin edir. *Nazirlər Kabineti* Parlament seçkilərində daha çox mandat əldə etmiş siyasi partiyanın üzvlərindən formalaşır. Ölkənin vitse-prezidenti hökumət iyerarxiyasında ikinci şəxs kimi Kabinetin fəaliyyətinə ümumi nəzarəti həyata keçirir.

Son prezident seçkilərində *Uxuru Keniyataya* məğlub olan *Raila Odinqa* 17 aprel 2008-ci ildən etibarən *Hökumətə* başçılıq edir.

***Məhkəmə hakimiyyəti:*** Prezident tərəfindən təyin edilən *Baş hakimdən,* onun müavinindən *(Ali Məhkəmənin üzvü),* habelə Ali və Apelyasiya məhkəmələrinin hakimlərindən ibarət olan, digər məhkəmələr üzərində nəzarət səlahiyyətinə malik *Ali Məhkəmə* orqanı tərəfindən həyata keçirilir.

# KONQO DEMOKRATİK RESPUBLİKASI








***Ümumi məlumat:*** *Zair* ərazisində erkən feodal dövlətləri XIV əsrdə təşəkkül tapmışdır. 1908-1960-cı illərdə Konqo *Belçikanın* müstəmləkəsi olmuş, 1960-cı ildə müstəqilliyini əldə etmişdir.

*Mərkəzi Afrikada* yerləşən *Konqo Demokratik Respublikasının* paytaxtı *Kinşasa* şəhəridir.

Ölkənin ərazisi 2,345,409 km², əhalisi *(2011)* 71,712,867 nəfərdir *(əhali sıxlığı 29,3 nəfər/km²)*.

*Konqo Demokratik Respublikasının* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.286* - aşağıdır *(187-ci yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 30 iyun tarixində qeyd olunur. Ölkə Konstitusiyası 18 dekabr 2005-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 26 əyalətə *(Yuxarı Lomami, Yuxarı Uele, Yuxarı Katanqa, Şərqi Kasai, İturi, Kasai, Kvanqo, Kvilu, Kinşasa, Lomami, Lualaba, Lulua, Mai-Ndombe, Maniema, Monqala, Aşağı Uele, Şimali Kivu, Şimali Ubanqi, Sankuru, Tanqanika, Mərkəzi Konqo, Çopo, Çuapa, Ekvatorial əyalət, Cənubi Kivu və Cənubi Ubanqi)* bölünür.

***Dövlət başçısı:*** Mühüm səlahiyyətlərə malik olan, dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı vəzifələrini icra

edən *Prezident* birbaşa seçkilər yolu ilə, ardıcıl iki dəfədən çox olmamaqla 5 il müddətinə seçilir.

İcra hakimiyyətini birlikdə həyata keçirən *Prezident* və *Baş nazir* Parlamentin *Aşağı Palatası* (*Milli Assambleya)* qarşısında birgə məsuliyyət daşıyırlar. Hökumət üzvləri *Baş nazirin* təqdimatına əsasən Prezident tərəfindən təyin olunurlar.

26 yanvar 2001-ci ildən etibarən *Josef Kabila* Konqo Demokratik Respublikasının hazırkı, sayca 4-cü *Prezidentidir* (*28 noyabr 2011-ci ildə keçirilmiş son Prezident seçkiləri nəticəsində Josef Kabila 48.95 % səs toplayaraq növbəti dəfə dövlət başçısı seçilmişdir*).

***Qanunverici hakimiyyət:*** Nümayəndələri əyalətlərin qanunverici orqanları (Assambleyaları) tərəfindən 5 illik müddətə seçilən 108 yerlik *Senatdan* və üzvləri birbaşa seçki sistemi üzrə əhali tərəfindən seçilən 500 yerlik (61 yer birmandatlı seçki dairələri, 439 yer isə dairələrdən açıq siyahılar üzrə) *Milli Assambleyadan* ibarət iki palatalı Parlamentdir.

Parlament qanunların hazırlanmasını və qəbulunu, illik dövlət büdcəsinin müzakirəsini və təsdiq edilməsini, beynəlxalq müqavilələrin ratifikasiyasını və Konstitusiya ilə müəyyən olunmuş digər vəzifələri həyata keçirmək səlahiyyətlərinə malikdir.

19 yanvar 2007-ci ildə *Senata,* 28 noyabr 2011-ci ildə isə *Milli Assambleyaya keçirilmiş* son Parlament seçkiləri nəticəsində hər iki palatada təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Yenidənqurma və Demokratiya Xalq Partiyası (63 deputat, 22 senator),*

*Demokratiya və Sosial Tərəqqi Naminə İttifaq (41 deputat),*

*Konqo Azadlıq Hərəkatı (64 deputat, 14 senator),*

*Birləşmiş Lumumbist Partiyası (34 deputat, 3 senator),*

*Yenilənmə Uğrunda İctimai Hərəkat (27 deputat, 3 senator),*

*Yenilənmə Naminə Qüvvələr (26 deputat, 7 senator) və s.*

***İcraedici hakimiyyət:*** İcraedici hakimiyyət *Baş nazirin* başçılıq etdiyi 60 üzvdən ibarət *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Baş nazirin namizədliyi Parlamentdə çoxluq təşkil edən partiya və ya qrup tərəfindən dövlət başçısına təqdim olunur və daha sonra *Prezident* tərəfindən təyin edilir.

18 aprel 2012-ci ildən etibarən *Avqustin Matato Ponyo* Konqo Demokratik Respublikasının *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Konstitusiya prinsiplərini və qaydalarını qüvvədə saxlayıb təmin edən *Konstitusiya Məhkəməsi,* habelə digər ixtisaslaşmış və aşağı instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# KOT-D`İVUAR





***Ümumi məlumat:*** İndiki *Kot-d`İvuar Respublikasının* ərazisində bir sıra xalqların dövlətçilik elementləri hələ XI əsrdə meydana gəlmiş, lakin bu proses sonralar geniş vüsət almamışdır.

XIX əsrin sonlarında ölkə ərazisi *Fransa* tərəfindən işğal edilərək *Kot-d`İvuar* adı altında müstəmləkəyə çevrilmişdir.

*Kot-d`İvuar* 1960-cı ildə dövlət müstəqilliyini elan etmişdir.

Qərbi Afrikada yerləşən *Kot-d`İvuar Respublikasının* paytaxtı *Yamusukro* şəhəridir.

Ölkənin ərazisi 322,463 km$^2$, əhalisi *(2009)* 20,617,028 nəfərdir *(əhali sıxlığı* 63.9 *nəfər/km$^2$).*

*Kot-d`İvuarın* rəsmi dövlət dili fransız dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.400* - aşağıdır *(170-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) avqust ayının 7-də qeyd olunur. Ölkə Konstitusiyası 23 iyul 2000-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** *Kot-d`İvuar Respublikası* 81 departamentdən və 2 rayondan ibarət olan 19 vilayətə *(Aqnebi, Ba-Sassandra, Bafinq, Valle-dyu-Bandama, Voroduqu, Denqele, Zanzan, Laqyun, Lak, Maraue, Muayen-Kavelli, Muayen-Komoe, Montan, Nzi-Komoe, O-Sassandra, Savan, Syud-Bandama, Syud-Komoe və Fromaje)* bölünür.

***Dövlət başçısı:*** Dövlət və hökumət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı - *Prezident* - ümumi və birbaşa seçkilərdə, 2 dəfədən çox olmamaqla 5 illik müddətə seçilir.

Ölkə Konstitusiyası geniş səlahiyyətlərə malik olan dövlət başçısının bir sıra Saziş və müqavilələri imzalamaq və ya ratifikasiya etmək, qanun layihələrini referenduma və ya Milli Assambleyaya çıxarmaq hüququnu təsbit edir. Hökumət icra hakimiyyətinin həyata keçirilməsində Kot-d`İvuar Prezidenti qarşısında birbaşa məsuliyyət daşıyır.

11 aprel 2011-ci il *(de-fakto 04 dekabr 2010-cu ildən)* tarixindən etibarən ölkənin hazırkı, sayca 5-ci Prezidenti *Respublikaçılar Birliyinin* lideri *Alassan Uattaradır.*

***Qanunvericilik hakimiyyəti:*** 225 nəfərdən ibarət birpalatalı *Parlamentdir.* Ali qanunvericilik orqanına üzvlər birmandatlı seçki dairələrindən ümumi və birbaşa səsvermədə 5 il müddətinə seçilirlər.

Qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiq edilməsi, beynəlxalq müqavilələrin ratifikasiyası və Konstitusiya ilə müəyyən olunmuş digər vəzifələri həyata keçirmək səlahiyyətlərinə malik olan Parlament, qanunvericilik hakimiyyətini Prezidentlə birlikdə həyata keçirir.

Ölkə Parlamentinin hazırkı sədri 12 mart 2012-ci ildən etibarən *Kot-d`ivuar Vətənpərvərlik Hərəkatının* lideri *Qiyom Sorodur.*

11 dekabr 2011-ci ildə keçirilmiş sonuncu Parlament seçkilərində qalib gəlmiş əsas siyasi partiyalar aşağıdakılardır:

*Respublikaçılar Birliyi* – (127 yer),

*Kot-d`İvuar Demokratik Partiyası* - (76 yer),

*Kot-d`İvuarda Demokratiya və Sülh Naminə İttifaq* - (7 yer),

*Demokratiya və Sülh Uğrunda Hərəkat* - (4 yer),

*Gələcək Qüvvələrin Hərəkatı* - (3 yer),

*Kot-d`İvuar Naminə İttifaq* - (1 yer),

Müstəqil deputatlar - (35 yer).

***İcraedici hakimiyyət:*** Qüvvədə olan Konstitusiyaya görə, ölkə Prezidenti *Hökumətin* vasitəsi ilə icra hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. Dövlət başçısı *Hökumətin* tərkibini *və Baş naziri* Parlamentdə çoxluq qazanmış siyasi partiyanın üzvlərindən formalaşdırır və təyin edir.

21 noyabr 2012-ci ildən ölkənin hazırkı *Baş naziri, Kot-d`ivuar Demokratik Partiyasının* təmsilçisi *Daniel Kablan Dunkandır.*

***Məhkəmə hakimiyyəti:*** Cinayət işləri üzrə *Məhkəmə,* maliyyə işləri üzrə *Hesablama,* məhkəmə işləri üzrə *Konstitusiya* və mülki işlər üzrə *İnzibati* palatalardan ibarət olan və üzvlərinin say limiti olmayan 4 kameralı *Ali Məhkəmə* Kot-d`İvuar Respublikasında məhkəmə hakimiyyətini həyata keçirir.

## QAYANA







***Ümumi məlumat:*** *Hollandlar* XVI əsrdən etibarən *Qayananın* indiki ərazisində məskunlaşmış ilk avropalı mühacirlər olsalar da, 1814-cü ildə bu torpaqlar *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmişdir.

1966-cı ildə *Birləşmiş Krallığın* tərkibində müstəqillik əldə etmiş *Qayana,* 1970-ci ildən respublikadır.

*Cənubi Amerikanın* şimal-şərq sahilində yerləşən *Qayana Kooperativ Respublikasının* paytaxtı *Corctaun* şəhəridir.

Ölkənin ərazisi 214,970 km², əhalisi *(2010)* 752,940 nəfərdir *(əhali sıxlığı 3,502 nəfər/km²).*

*Qayananın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.633* - ortadır *(117-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1966) may ayının 26-da qeyd olunur. Ölkə Konstitusiyası 06 oktyabr 1980-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 27 dairə şurasından ibarət 10 regiona *(Barima-Vaini, Kuyuni-Mazaruni, Demerara-Maxaisa, Şərqi Berbays-Korentin, Essekuibo-Aylends-Qərbi Demerara, Maxaisa-Berbays, Pomerun-Supenaam, Potaro-Siparuni, Yuxarı Demerara-Berbays, Yuxarı Takututu-Yuxarı Essekuibo)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan, kifayət qədər geniş səlahiyyətlərə

malik olan və mövcud Konstitusiyaya görə istənilən zaman Parlamenti buraxa bilmək hüququnu özündə ehtiva edən *Qayana Prezidenti,* icra hakimiyyətini, şəxsən təyin və fəaliyyətinə nəzarət etdiyi Hökumət vasitəsilə həyata keçirir.

Prezidentliyə namizədlər birbaşa seçkilər vasitəsi ilə deyil, seçkidə daha çox səs toplamış partiyanın nümayəndəsinin dövlət başçısı postuna sahib olması metodu ilə 5 il müddətinə seçilir *(siyasi partiyaların hər biri, fərdi qaydada Prezidentliyə namizədini müəyyən edir).* Mövcud Konstitusiyaya görə Qayana Prezidenti, *Baş nazirdən* fərqli olaraq *Milli Assambleyanın* üzvü olmamalıdır.

03 dekabr 2011-ci ildən etibarən Qayana Prezidenti *Xalq Tərəqqi Partiyasının* lideri olan *Donald Ramotardır.*

***Qanunverici hakimiyyət:*** 65 nəfərdən ibarət birpalatalı *Parlamentdir (Milli Assambleya).* Parlamentə üzvlərin 25-i proporsional təmsilçilik sistemi ilə 10 coğrafi dairədən, digər 40 deputat isə proporsional təmsilçilik qaydasında, siyasi partiyaların milli siyahıları üzrə 5 il müddətinə seçilirlər.

Parlament ənənəvi olaraq qanunların hazırlanması və qəbulunu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiq edilməsini, beynəlxalq müqavilə və sazişlərin ratifikasiyasını, habelə Konstitusiya ilə müəyyən olunmuş digər vəzifələri həyata keçirmək səlahiyyətlərinə malikdir.

Ölkə Parlamentinin hazırkı sədri *Rafael Trotmandır.*

28 noyabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

Xalq Tərəqqi Partiyası - (32 yer),

Milli Birlik Naminə Tərəfdaşlıq - (26 yer),

Dəyişiklik Naminə Alyans - (7 yer),

***İcraedici hakimiyyət:*** Ölkənin daxili və xarici siyasətinin həyata keçirilməsində bilavasitə məsuliyyət daşıyan *Hökumət (Nazirlər Kabineti)* icra hakimiyyətinin fövqündə duran yuxarı

icra orqanıdır. *Nazirlər Kabinetinə* rəhbərlik edən *Baş naziri* və Hökumət üzvlərini *(nazirləri) Prezident* təyin edir və onların fəaliyyətinə nəzarət edir. *Baş nazir* və *Kabinetin* bəzi üzvləri, eyni zamanda *Milli Assambleyada* yer alırlar.

11 avqust 1999-cu ildən etibarən *Qayananın* hazırkı *Baş naziri Xalq Tərəqqi Partiyasının* təmsilçisi *Samuel Xayndsdır.*

***Məhkəmə hakimiyyəti*:** Ən yüksək məhkəmə instansiyası sayılan *Qayana Apelyasiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir (*rəhbəri Prezident tərəfindən təyin olunan kanslerdir*).

# QIRĞIZISTAN





***Ümumi məlumat:*** *Qırğızıstanın* indiki ərazisi XIII-XVI əsrlərdə monqol-tatarların, XIX yüziiliyin əvvəllərində *Kokand Xanlığının*, 1860-70-ci illərdə isə *Rusiya İmperiyasının* tərkibinə daxil olmuşdur. 1920-ci ildən sonra ölkədə SSRİ dövrü başlanmışdır.

1991-ci ildən etibarən *Qırğızıstan* müstəqil dövlətdir.

*Orta Asiyanın* şimal-şərq hissəsində yerləşən *Qırğızıstan Respublikasının* paytaxtı *Bişkek* şəhəridir.

Ölkənin ərazisi 199,900 km², əhalisi *(2010)* 5,550,239 nəfərdir *(əhali sıxlığı 27.4 nəfər/km²)*.

*Qırğızıstan Respublikasının* rəsmi dövlət dili *qırğız* dili olsa da, ölkədə rus dilindən də geniş istifadə olunur.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.615* - ortadır *(126-cı yer)*.

***Dövlət quruluşu*:** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1991) avqust ayının 31-də qeyd olunur. Ölkənin yeni Konstitusiyası 27 iyun 2010-cu ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 35 rayondan və 13 vilayət əhəmiyyətli şəhərdən ibarət 7 vilayətə *(Batkən, Cəlalabad, İsık Göl, Narin, Çuy, Oş, Talas )* və Respublika tabeliyində olan 2 şəhərə *(Bişkek və Oş)* bölünür.

***Dövlət başçısı:*** *Qırğızıstan Respublikasının* ali vəzifəli şəxsi və dövlət başçısı olan *Prezident* ümumxalq səsverməsi yolu ilə, ardıcıl bir dəfədən artıq olmamaq şərti ilə, 6 il

müddətinə seçilir. Mövcud Konstitusiyaya görə, *Prezident* Qırğız xalqının birliyinin və dövlət hakimiyyətinin rəmzi, habelə hüquqi dövlətin, Konstitusiyanın, ölkənin milli müstəqilliyinin və təhlükəsizliyinin, ərazi bütövlüyünün, vətəndaşların hüquq və azadlıqlarının təminatçısıdır.

Bununla belə, Prezidentin səlahiyyətləri *Joqorku Keneşə (Parlamentə)* və Baş nazirə *(Nazirlər Kabinetinin rəhbəri)* nisbətən daha məhduddur.

30 oktyabr 2011-ci il tarixində keçirilmiş son Prezident seçkilərində qalib gələn *Qırğızıstan Sosial Demokratik Partiyasının* təmsilçisi *Almazbek Atambaev* 01 dekabr 2011-ci ildən vəzifəsinin icrasına başlamışdır.

***Qanunverici hakimiyyət:*** Birpalatalı 120 yerlik *Joqorku Keneşdir (Parlament).* Deputatlar proporsional sistem ilə ümumi seçkilər yolu ilə 5 il müddətinə seçilirlər.

Qüvvədə olan Konstitusiyaya görə, ənənəvi qanunvericilik hakimiyyəti ilə yanaşı, Respublika Parlamenti dövlət siyasətinin ən mühüm qərarlarının müəyyən edilməsində və həllində geniş səlahiyyətlərə və prioritetə malikdir. Hökumət, ona etimadsızlıq göstərmək və istefaya göndərmək səlahiyyətinə malik olan *Joqorku Keneş* qarşısında birbaşa kollektiv məsuliyyət daşıyır.

Parlamentin hazırkı sədri 21 dekabr 2011-ci ildən etibarən *Asilbek Jeenbekovdur.*

10 oktyabr 2010-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Joqorku Keneşdə* təmsil olunan ölkənin əsas siyasi partiyaları:

*Ata Yurt Partiyası (Parlamentdə 28 mandata sahibdir, sədri Kamçıbek Taşiev),*

*Qırğızıstan Sosial Demokratik Partiyası (Parlamentdə 26 mandat, lideri Çınıbay Tursunbekov),*

*Ar-Namus Partiyası (25 mandat, lideri Feliks Kulov),*

*Respublika Partiyası (23 mandat, lider Omurbek Babanov),*

*Ata Mekan Partiyası (18 mandat, sədr Omurbek Tekebaev.*

***İcraedici hakimiyyət:*** Yeni Konstitusiyaya görə ölkədə icra hakimiyyəti *Baş nazir* və onun rəhbərlik etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir.

*Baş naziri* və Parlament çoxluğunu *(seçkilərdə 50%-dən artıq səs toplamış)* təmsil edən siyasi partiyanın nümayəndələrindən formalaşmış *Nazirlər Kabinetini* Prezident təyin və Parlament təsdiq edir. İcra hakimiyyətinin müstəsna və geniş səlahiyyətli orqanı sayılan *Hökumət*, eyni zamanda qarşısında cavabdehlik daşıdığı Qırğızıstan Parlamenti ilə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir.

06 sentyabr 2012-ci ildən etibarən Qırğızıstan Respublikasının hazırkı, sayca 20-ci *Baş naziri Jantoro Satıbaldıyevdir.*

***Məhkəmə hakimiyyəti:*** Müasir məhkəmə-hüquq sistemləri ilə yanaşı, keçmiş Sovetlər Birliyinin hüquq sisteminin müəyyən struktur elementlərini də özündə ehtiva edən Qırğızıstan Respublikasının məhkəmə hakimiyyəti, ölkədə son apelyasiya instansiyası sayılan *Ali Məhkəmə*, habelə *Konstitusiya* və *Ali Arbitraj məhkəmələri* tərəfindən həyata keçirilir.

# QVİNEYA-BİSAU






***Ümumi məlumat:*** XV əsrdə indiki *Qvineya-Bisau* ərazisinə ayaq basmış portuqallar, qısa zaman ərzində bir sıra sahilyanı yaşayış məntəqələrini və adaları işğal etmişlər.

1879-cu ildən *Portuqaliyanın* müstəmləkəsi olmuş *Qvineya-Bisau,* 1974-cü ildə dövlət müstəqilliyini elan etmişdir.

*Afrikanın* qərb sahilində yerləşən *Qvineya-Bisau Respublikasının* paytaxtı *Bisau* şəhəridir.

Ölkənin ərazisi 36,125 km², əhalisi *(2010)* 1,647,000 nəfərdir *(əhali sıxlığı* 44.1 *nəfər/km²).*

*Qvineya-Bisaunun* rəsmi dövlət dili *portuqal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.373* - aşağıdır *(176-cı yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1973) 24 sentyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 16 may 1984-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** *Bisau* paytaxt vilayətinə, 8 kontinental vilayətə *(Bafata, Biombo, Bolama, Qabu, Kaşeu, Kinara, Oyo, Tombala)* və *Bijakoş* arxipelaqında yerləşən ada vilayətinə bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya uyğun olaraq xalqın milli birliyinin rəmzi, habelə dövlət müstəqilliyinin, ərazi bütövlüyünün və Qvineya-Bisauda siyasi sabitliyin təminatçısı sayılan *Prezident* ümumxalq səsverməsi yolu ilə keçirilən seçkilərdə məhdudiyyətsiz sayda 5 illik müddətə seçilir.

*Milli Xalq Assambleyasında (Parlament)* yer alan siyasi partiyaların liderləri ilə məsləhətləşmələrdən sonra *Baş nazirin,* nazirlərin və digər ali vəzifəli şəxslərin təyin edilməsi, habelə bir çox mühüm əhəmiyyət kəsb edən məsələlər Qvineya-Bisau Prezidentinin səlahiyyətlərinə daxildir.

11 may 2012-ci ildən etibarən ölkənin hazırkı, keçid dövrünün Prezidenti *Manuel Serifo Nyamadjodur.*

***Qanunverici hakimiyyət:*** Qvineya-Bisaunun ali qanunverici orqanı birpalatalı, 102 yerlik *Milli Xalq Assambleyasıdır.* Parlamentin 100 üzvü partiya siyahısı üzrə proporsional təmsilçilik sistemi qaydasında 5 il müddətinə seçilir. Digər iki deputat yeri ölkə hüdudlarından kənarda yaşayan Qvineya-Bisau vətəndaşları üçün nəzərdə tutulmuşdur.

Parlament ənənəvi qanunvericilik fəaliyyəti *(qanunların və qərarların qəbulu, beynəlxalq müqavilələrin ratifikasiyası və s.)* ilə yanaşı, Hökumət üzərində ümumi nəzarət funksiyasını da həyata keçirir.

16 noyabr 2008-ci il tarixində keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Xalq Assambleyasında* təmsil olunan əsas siyasi partiyalar:

*Qvineya və Kabo-Verdenin Müstəqilliyi Uğrunda Afrika Partiyası - (solçular, 67 deputat),*

*Sosial Yenilənmə Partiyası - (sol-mərkəzçilər, 28 deputat),*

*Müstəqillik və İnkişaf Naminə Respublikaçılar Partiyası - (3 deputat),*

*Yeni Demokratiya Partiyası - (1 deputat),*

*Demokratik Alyans - (1 deputat).*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyətini həyata keçirən Hökumətə rəhbərlik edən *Baş naziri Milli Xalq Assambleyasında* yer alan iri siyasi partiyalarının razılığı ilə Prezident təyin edir. *Kabinet* Parlament və dövlət başçısı qarşısında fərdi və kollektiv məsuliyyət daşıyır.

*Rui Duarte de Barroş* 16 may 2012-ci ildən etibarən Qvineya-Bisau keçid Hökumətinin başçısıdır.

***Məhkəmə hakimiyyəti:*** Üzvləri Prezident tərəfindən təyin olunan 9 hakimdən ibarət olan *Ali Məhkəmə,* habelə digər ixtisaslaşmış və aşağı instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# LİTVA





***Ümumi məlumat:*** *Litvada* dövlətçilik müxtəlif dövrlər ərzində üç dəfə təşəkkül tapmışdır. İlk *Litva* dövləti olan *Böyük Litva Knyazlığı* XIII əsrin əvvəllərində yaradılmış və 1569-cu ildə *Polşa* ilə birləşmişdir. 1795-ci ildə *Reç Pospolita* dövlətinin üçüncü bölümü, *Litvanın* bütövlüklə *Rusiyanın* tərkibinə daxil edilməsi ilə nəticələnmişdir.

1919-cu ilin avqustunda ikinci dəfə dövlət müstəqilliyini elan etmiş *Litva,* 21 il sonra - 1940-cı ildə sovet qoşunları tərəfindən işğal edilərək müttəfiq respublika statusunda SSRİ-nin tərkibinə daxil edilmişdir.

1990-cı ilin may ayında *Litva Respublikası* üçüncü dəfə dövlət müstəqilliyini bərpa etmişdir.

*Şərqi Avropanın* şimal-qərb hissəsində, *Baltik* dənizinin sahilində yerləşən *Litvanın* paytaxtı *Vilnüs* şəhəridir.

Ölkənin ərazisi 65,300 km², əhalisi *(2012)* 2,979,000 nəfərdir *(əhali sıxlığı 50,3 nəfər/km²)*.

*Litvanın* rəsmi dövlət dili *litva* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.810* - çox yüksəkdir *(40-cı yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1918) 16 fevralda qeyd olunur. 11 mart 1990-cı ildə *Litva* öz müstəqilliyini bərpa etmişdir. Ölkə Konstitusiyası 25 oktyabr 1992-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 9 şəhər *(Vilnüs, Kaunas, Klaypeda, Penevejis, Şaulyay və s.)*, 2 kurort, 43 rayon və 8 yeni yaradılmış bələdiyyədən ibarət 10 uyezdə *(Alitus, Vilnüs, Kaunas, Klaypeda, Mariyampol, Penevejis, Tauraqe, Şaulyay, Telşyay və Utena)* bölünür.

***Dövlət başçısı:*** Respublikanın *Prezidenti* ümumxalq seçkilərində, birbaşa və gizli səsvermə yolu ilə 5 il müddətinə seçilir. Konstitusiyaya əsasən eyni şəxs, ardıcıl olaraq yalnız iki dəfə dövlət başçısı seçilə bilər. 40 yaşına çatmış Litva vətəndaşları Prezident seçilmək hüququna malikdirlər.

Litva dövlətinin ali təmsilçisi sayılan Prezident, Hökumətlə birlikdə xarici siyasət məsələləri ilə bağlı çox mühüm qərarlar vermək, Seymin razılığı ilə Baş naziri, *Nazirlər Şurası* sədrinin təqdimatı ilə nazirləri təyin və azad etmək, fərman və sərəncamlar imzalamaq, Litva Parlamentinin qərarlarına qarşı veto hüququndan istifadə etmək səlahiyyətlərinə malikdir.

12 iyul 2009-cu ildən etibarən *Litva Respublikasının Prezidenti* xanım *Dalya Qribauskaytedir.*

***Qanunverici hakimiyyət:*** Litvanın *Seymi* bir palatalıdır və 141 deputatdan ibarətdir. Seym birbaşa seçkilər yolu ilə, 71 üzvü majoritar, digər yarısı isə proporsional seçki sistemi qaydasında 4 il müddətində seçilir.

Ölkədə icraedici hakimiyyətin böyük bir hissəsi *Parlamentin* əlində cəmlənmişdir. *Seym* qanunvericilik aktlarını müzakirə, qəbul və dərc edir, Prezidentin təklif etdiyi Baş nazirin namizədliyini təsdiq və ya rədd edir, yerli özünüidarə orqanlarına seçkiləri keçirir, vergilər müəyyən edir, beynəlxalq saziş və müqavilələri ratifikasiya edir və *Hökumətin* fəaliyyətinə ümumi nəzarəti həyata keçirir.

14 sentyabr 2012-ci ildən etibarən *Seymin* hazırkı sədri, *Litva Əmək Partiyasının* təmsilçisi *Vidas Gedvilasdır.*

14-28 oktyabr 2012-ci il tarixlərində keçirilmiş sonuncu *Parlament* seçkiləri nəticəsində *Seymdə* təmsil olunan siyasi partiyalar:

*Litva Sosial-Demokrat Partiyası (38 yer, lideri A. Butkyaviçyus),*

*Vətən İttifaqı - Litva Xristian Demokratlar Partiyası (33 yer, lideri A.Kubilyus),*

*Litva Əmək Partiyası - (29 yer, lideri V.Uspaskix),*

*Ədalət və İntizam Partiyası - (11 yer, lideri R.Paksas),*

*Litva Liberal Hərəkatı - (10 yer, lideri E. Masiulis),*

*Litva Polyaklarının Seçki Aksiyası - (8 yer, lideri V.Tomaşevski),*

*"Cəsarət Yolunda" Partiyası - (7 yer, lideri Y.Varkala),*

*Litva Kəndli və Yaşıllar İttifaqı - (1 yer, lideri R.Karbaukis),*

*Müstəqil deputatlar - (3 yer).*

***İcraedici hakimiyyət*:** İcra hakimiyyətini Parlamentlə birlikdə həyata keçirən - 14 Nazirlikdən ibarət olan *Nazirlər Şurasına Baş nazir* rəhbərlik edir. *Hökumət* başçısı ölkə Parlamentinin razılığı əsasında Prezident tərəfindən təyin olunur. Geniş səlahiyyətlərə malik olan *Şura,* fəaliyyəti ilə bağlı *Seym* qarşısında kollektiv məsuliyyət daşıyır.

22 noyabr 2012-ci ildən etibarən ölkənin hazırkı *Baş naziri, Litva Sosial-Demokrat Partiyasının* lideri *Algirdas Butkyaviçyusdur.*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri *(3-ü ölkə Prezidenti, 3 üzvü Seym, digər 3 hakim isə Ali Məhkəmə tərəfindən təqdim olunur) Litva* Parlamentində bir dəfədən çox olmamaq şərti ilə 9 illik müddətə təyin olunan 9 üzvdən ibarət *Konstitusiya Məhkəməsidir.*

# MADAQASKAR

  

***Ümumi məlumat:*** Eramızdan əvvəl I minillikdə *Cənub-Şərqi Asiyadan* gəlmiş insanların məskunlaşdığı *Madaqaskar* adasında, XIV-XV əsrlərdə bir sıra feodal dövlətləri təşəkkül tapmış və XIX əsrdə bu dövlətlər *Malaqasiya Krallığının* tərkibinə daxil olmuşlar.

1896-cı ildən *Fransanın* müstəmləkəsi olmuş *Madaqaskar,* 1960-cı ildə dövlət müstəqilliyini elan etmişdir *(1975-ci ildən respublikadır).*

*Afrikanın* cənub-şərq hissəsində, *Hind okeanının Madaqaskar* adasında yerləşən *Madaqaskarın* paytaxtı *Antananarivu* şəhəridir.

Ölkənin ərazisi 587,041 $km^2$, əhalisi *(2012)* 22,005,222 nəfərdir *(əhali sıxlığı 35.2 nəfər/*$km^2$*).*

*Madaqaskar Respublikasının* rəsmi dövlət dili *malaqasiya* və *fransız* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.480* - aşağıdır *(151-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) iyun ayının 26-da qeyd olunur. Ölkə Konstitusiyası 19 avqust 1992-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** *Madaqaskar* 22 regionu özündə birləşdirən 6 muxtar vilayətə *(Antananarivu, Ansiranana, Fianaransua, Maxadzanqa, Tuamasina və Tuliara faritanilərinə)* bölünür.

***Dövlət başçısı:*** Madaqaskarın milli müstəqilliyinin və ərazi bütövlüyünün qarantı, dövlət və hökumət başçısı, silahlı qüvvələrin ali baş komandanı - *Prezident* ümumi və birbaşa seçkilərdə, 2 dəfədən çox olmamaqla 5 illik müddətə seçilir.

Konstitusiyaya görə, *Baş naziri* və onun təqdimatına əsasən digər hökumət üzvlərini təyin və azad etmək, zəruri hallarda *Milli Assambleyanı* buraxmaq, Nazirlər Kabinetinin fərmanları vasitəsi ilə mühüm qərarlar vermək və s. məsələlər Prezidentin səlahiyyətlərinə daxildir.

17 mart 2009-cu il tarixindən etibarən *Madaqaskar Ali Keçid Hakimiyyətinin 1-ci Prezidenti Andri Nirina Radzuelinadır.*

***Qanunvericilik hakimiyyəti:*** Nümayəndələri hər əyalətdən 10 üzv olmaqla seçilən 60 və Prezident tərəfindən təyin olunan 30 senatordan ibarət 90 yerlik *Senatdan* və üzvləri birmandatlı seçki dairələrindən 4 il müddətinə seçilən 160 yerlik *Milli Məclisdən* ibarət iki palatalı Parlamentdir.

Qüvvədə olan Konstitusiya görə, Madaqaskar Parlamentinin səlahiyyətləri əsasən qanunvericilik fəaliyyəti ilə məhdudlaşsa da, Hökumətin fəaliyyətinə nəzarət etmək və lazım olduqda "etimadsızlıq göstərilməsi" mexanizmindən yararlanmaq *Milli Assambleyanın* səlahiyyət dairəsinin əlavə komponenti kimi dəyərləndirilir.

23 sentyabr 2007-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş ölkənin əsas siyasi partiyaları:

*Mən Madaqaskarı Sevirəm (105 deputat),*
*Fanjava Veloqno (2 deputat),*
*ELDANR (1 deputat),*
*Brun-Ly Partiyası (1 deputat),*
*Müstəqillər (11 deputat) və s.*

***İcraedici hakimiyyət:*** Madaqaskar Respublikasının yuxarı icra orqanı sayılan *Hökumətin* üzvləri və ona rəhbərlik edən

*Baş nazir* Prezident tərəfindən təyin edilir. *Kabinet*, dövlətin ümumi siyasətinin həyata keçirilməsinə görə Prezident və Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. *Milli Assambleya* zəruri hallarda 2/3 səs çoxluğu ilə *Nazirlər Kabinetinə* etimadsızlıq göstərmək və onu istefaya göndərmək səlahiyyətinə malikdir.

02 noyabr 2011-ci ildən ölkənin Baş naziri *ELDANR* Partiyasının təmsilçisi olan *Omer Berizikudur*.

***Məhkəmə hakimiyyəti:*** Kasasiya məhkəməsi olan *Ali Məhkəmə,* Konstitusiya nəzarəti orqanı sayılan *Ali Konstitusiya Məhkəməsi*, habelə yerli və apelyasiya məhkəmələri tərəfindən həyata keçirilir.

# MALİ








***Ümumi məlumat:*** VII-IX əsrlərdə erkən feodal dövlətlərinin *(Qana, Mali və Sonqai)* təşəkkül tapdığı *Malidə,* XVII-XVIII əsrlərdə bir sıra kiçik dövlətlər meydana gəlmişdir.

XIX əsrin sonlarında *Fransanın* müstəmləkəsi olmuş *Mali* 1960-cı ildən müstəqil dövlətdir.

*Qərbi Afrikada* yerləşən *Mali Respublikasının* paytaxtı *Bamako* şəhəridir.

Ölkənin ərazisi 1,240,192 km², əhalisi *(2009)* 14,517,176 nəfərdir *(əhali sıxlığı* 11.7 *nəfər/km²).*

*Malinin* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.359* – aşağıdır *(175-ci yer).*

***Dövlət quruluşu*:** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) sentyabr ayının 22-də qeyd olunur. Ölkənin yeni Konstitusiyası 12 yanvar 1992-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 703 kommunanı özündə birləşdirən 49 dairədən ibarət 8 vilayətə *(Qao, Kayes, Kidal, Kulikoro, Mopti, Sequ, Sikaso və Tombuktu)* və xüsusi inzibati *Bamako* vahidliyinə bölünür.

***Dövlət başçısı:*** Dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident* birbaşa və ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaq şərti ilə 5 il müddətinə seçilir.

Prezident hökumətə başçılıq edən *Baş naziri* təyin edir və *Nazirlər Şurasına* sədrlik edir. Bundan əlavə, mövcud Konstitusiyaya görə Baş nazirlə və *Milli Assambleyanın* sədri ilə məsləhətləşmələrdən sonra, dövlət başçısı Parlamenti buraxa və erkən seçkilər təyin edə bilər.

07 aprel 2012-ci ildən etibarən *Malidə Demokratiya Naminə Alyans Partiyasının* təmsilçisi, *Milli Assambleyanın* sədri *Dionkunda Traore* keçid dövrü üçün ölkə Prezidentinin vəzifəsini icra edir.

***Qanunverici hakimiyyət:*** 160 yerlik bir palatalı *Milli Assambleyadır*. Parlamentə üzvlərin 147-si ümumxalq səsverməsi yolu ilə birmandatlı seçki dairələrindən, digər 13 üzv isə xaricdə yaşayan malililərin arasından 5 il müddətinə seçilirlər. Ölkədə yeganə qanunverici orqan sayılan *Milli Assambleyaya* seçkilər birbaşa və partiya siyahıları üzrə həyata keçirilir.

Ənənəvi qanunvericilik hakimiyyətini həyata keçirməklə yanaşı, ölkə Parlamenti 2/3 səs çoxluğu ilə *Nazirlər Şurasına* etimadsızlıq göstərmək və onu istefaya göndərmək səlahiyyətinə malikdir.

2011-ci ilin yanvar ayında keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunmaq hüququ əldə etmiş əsas siyasi partiyalar:

*Malidə Demokratiya Naminə Alyans – (51 yer),*
*Respublika və Demokratiya Uğrunda İttifaq – (34 yer),*
*Mali Naminə Ralli – (11 yer),*
*Yeniləşmə Naminə Vətən Hərəkatı – (8 yer),*
*Demokratik Təşəbbüslər Naminə Milli Konqres - (7 yer),*
*Demokratiya və İnkişaf İttifaq – (3 yer) və s.*

***İcraedici hakimiyyət:*** Ölkədə icra hakimiyyətini həyata keçirən *Baş nazir* və onun başçılıq etdiyi 27 nazirdən ibarət, bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın üzvlərindən formalaşmış, geniş tərkibə malik *Nazirlər Şurası* Prezident tərəfindən təyin olunur.

Dövlətin ümumi siyasət strategiyasının hazırlanmasına və həyata keçirilməsinə məsul olan *Hökumət,* ona etimadsızlıq göstərmək və istefaya göndərmək səlahiyyətinə malik *Milli Assambleya* qarşısında kollektiv cavabdehlik daşıyır.

11 dekabr 2012-ci ildən etibarən, keçid dövrü üçün Mali Respublikasının *Baş naziri Djanko Sissikodur.*

***Məhkəmə hakimiyyəti:*** Malinin məhkəmə sistemi Fransa modelinə əsaslanır. Ölkə Konstitusiyası məhkəmə hakimiyyətinin müstəqilliyini təmin edir. Bununla belə, Ədliyyə Nazirləri hüquq-mühafizə orqanları ilə yanaşı məhkəmə instansiyalarına da ümumi nəzarəti həyata keçirir.

Mövcud Konstitusiyaya əsasən, *Məhkəmə, İnzibati və Hesablama* palatalarından ibarət olan, sədri və müavini *Ali Magistratura Şurasının* təqdimatı ilə Prezident tərəfindən təyin olunan *Ali Məhkəmə* Mali Respublikasının ən yüksək məhkəmə instansiyası sayılır.

# MAVRİTANİYA







***Ümumi məlumat:*** VII əsrdə *Mavritaniyanın* indiki ərazisini fəth etmiş ərəblər, burada yerli əhalinin islamlaşdırılması siyasətini həyata keçirmiş, XIII-XV əsrlərdə isə, bu torpaqlara ikinci yürüşləri nəticəsində islamı qəbul etmiş köçəri-barbarlar *(mavrlar)* və ölkənin cənubundakı zənci tayfaları üzərində hegemonluğu bərqərar etmişlər.

1814-cü ildən rəsmən *Fransanın* ərazisi, 1920-ci ildən etibarən isə onun müstəmləkəsi sayılan *Mavritaniya* 1960-cı ildə dövlət müstəqilliyini əldə etmişdir.

*Afrikanın* şimal-qərb hissəsində yerləşən *Mavritaniya Respublikasının* paytaxtı *Nuakşot* şəhəridir.

Ölkənin ərazisi 1,030,700 km², əhalisi *(2012)* 3,359,185 nəfərdir *(əhali sıxlığı 3,2 nəfər/km²)*.

*Mavritaniyanın* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.453* - aşağıdır *(159-cu yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 28 noyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 12 iyul 1991-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 44 departamentdən ibarət 12 vilayətə *(Adrar, Assaba, Brakna, Daxlet-Nuadibu, İnşiri, Kudimaqa, Qorqol, Taqant, Tiris-Zemmur, Trarza, Xod-el-Qarbi və Xod-eş- Şarki)* və *Nuakşot* paytaxt muxtar dairəsinə bölünür.

***Dövlət başçısı:*** Hüquqi dövlətin, milli müstəqilliyin və Konstitusiyanın təminatçısı sayılan *Mavritaniya Prezidenti* ümumxalq səsverməsi yolu ilə keçirilən seçkilərdə, qeyri-məhdud sayda 5 il müddətinə seçilir.

Dövlət başçısı və silahlı qüvvələrin ali baş komandanı – Prezident *Baş naziri* və onun təqdimatı ilə Hökumət üzvlərini təyin edir. Dövlət əhəmiyyətli mühüm qərarların qəbul edilməsi məqsədilə dövlət başçısı, Nazirlər Kabinetini çağırır və ona sədrlik edir. Bundan əlavə, Mavritaniya Prezidenti Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək səlahiyyətlərinə malikdir.

05 avqust 2009-cu ildən etibarən ölkənin hazırkı, sayca 6-cı *Prezidenti Məhəmməd uld Əbdül Əzizdir.*

***Qanunverici hakimiyyət:*** Mavritaniyanın ali qanunverici orqanı iki palatadan – 95 yerlik *Milli Assambleyadan (Aşağı Palatanın sədri 27 aprel 2007-ci ildən etibarən Messaoud Boulkheyrdir)* və 56 yerlik *Senatdan (Yuxarı Palatanın prezidenti 26 aprel 2007-ci ildən etibarən Ba Mamadou Mbaredir)* ibarətdir. *Yuxarı Palataya* senatorlar, tərkibinin 1/3-i 2 ildən bir yenilənmək şərti ilə, 6 illik müddətə seçilirlər. *Aşağı Palataya* deputatlar birmandatlı seçki dairələrindən 5 il müddətinə seçilirlər.

Mavritaniya Parlamentinin səlahiyyət hüdudları mövcud Konstitusiyaya uyğun olaraq dəqiqliklə tənzimlənir. *Milli Assambleyanın* səlahiyyətlərinə aid olmayan normativ-hüquqi aktlar ölkə Prezidentinin fərman və sərəncamları ilə qüvvəyə minir. Parlament, zəruri hallarda qanunvericilik səlahiyyətlərini *Hökumətə* həvalə edə bilər və yaxud səs çoxluğu ilə *Nazirlər Kabinetinə* etimadsızlıq göstərə və onu istefaya göndərə bilər.

2007-ci ilin yanvarında *Senata*, 2006-cı ilin noyabrında isə *Milli Assambleyaya* keçirilmiş son Parlament seçkiləri nəticəsində hər iki palatada təmsil olunan əsas siyasi partiyalar:

*Əl-Mithaq - (34 senator, 41 deputat),*
*RFD - (6 senator, 15 deputat),*
*UFP - (1 senator, 8 deputat),*
*Demokratiya Naminə Respublika Partiyası - (3 senator, 7 deputat),*
*Proqressiv Xalq Alyansı - (1 senator, 5 deputat),*
*Demokratiya Naminə Alyans - (1 senator, 3 deputat),*
*Demokratiya və İnkişaf Naminə İttifaq - (1 senator, 3 deputat),*
*DR - (2 deputat),*
*Xalq Cəbhəsi - (1 deputat),*
*Sosial Demokratik Partiya - (1 deputat),*
*Mavritaniya İttifaq və Dəyişiklik Partiyası – (3 senator).*

***İcraedici hakimiyyət:*** *Hökumətə* rəhbərlik edən *Baş naziri* Prezident təyin edir. Dövlət başçısının nəzarəti altında *Baş nazir,* Hökumətin siyasətini və nazirlər arasında əlaqələndirməni və iş bölgüsünü müəyyən edir, *Nazirlər Kabinetinin* ümumi fəaliyyətini həyata keçirir.

*Baş nazir* və *Nazirlər Kabineti* Mavritaniya Prezidenti və *Milli Assambleya* qarşısında kollektiv məsuliyyət daşıyırlar .

*Mulayye uld Məhəmməd Laqdaf* 14 avqust 2008-ci ildən etibarən Mavritaniya Respublikasının *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Fransız hüquq sisteminə əsaslanan Mavritaniyada məhkəmə hakimiyyətini, ən yüksək məhkəmə instansiyası sayılan və sədri *Prezident* tərəfindən təyin edilən *Ali Məhkəmə* həyata keçirir.

Eyni zamanda, ölkədə mövcud Konstitusiyaya, habelə referendum və seçkilərin keçirilməsinə nəzarət edən, 3 hakimi *Prezident*, 2 üzvü *Milli Assambleya,* 1 üzvü isə *Senatın* prezidenti tərəfindən 9 il müddətinə təyin olunan *Konstitusiya Şurası* da fəaliyyət göstərir.

# MİSİR ƏRƏB RESPUBLİKASI





***Ümumi məlumat:*** Eramızdan əvvəl V-IV minilliklərdə, ibtidai icma quruluşunun dağılmasından sonra, *Misirdə* tədricən kiçik dövlət qurumları yaranmış, eyni zamanda *Şumerdə* olduğu kimi, hər bir vilayət müstəqil ərazi olmuşdur.

Sonrakı dövrlərdə birləşmə meyilləri artmış və ölkə ikiyə - *yuxarı (şimal) və aşağı (cənub)* hissəyə bölünmüşdür. Artıq e.ə. III minillikdə 2 *firon (çar)* sülaləsi olmaqla, vahid dövlətin mövcudluğu və bu tarixdən etibarən *Misir* dövlətinin zəngin tarixi başlanır.

Müxtəlif dövrlərdə *Ellinistlərin, Romanın, Bizansın,* 639-cu ildən *Ərəb xilafətinin* və nəhayət 1517-1914-cü illər ərzində *Osmanlı İmperiyasının* tərkibinə daxil edilən *Misir*, 1914-1922-ci illərdə *İngiltərənin* protektoratına çevrilmişdir.

Birinci Dünya müharibəsindən sonra, ölkədə milli-azadlıq hərəkatı yeni mərhələyə qədəm qoymuş və istiqlaliyyət uğrunda mübarizə nəticəsində *Böyük Britaniya* 1922-ci ilin fevral ayında *Misirin* istiqlaliyyətini tanımağa məcbur olmuşdur *(1952-ci ildən etibarən respublikadır).*

*Afrikanın* şimal-şərq hissəsində yerləşən *Misir Ərəb Respublikasının* paytaxtı *Qahirə* şəhəridir.

Ölkənin ərazisi 1,002,450 km², əhalisi *(2012)* 90,000,000 nəfərdir *(əhali sıxlığı 2,75 nəfər/km²).*

*Misirin* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.644* - ortadır *(113-cü yer).*

***Dövlət quruluşu:*** 2011-ci ildən dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan *milli gün (1952, inqilabın ildönümü)* 23 iyulda, *Müstəqillik günü* 28 fevralda (1922) qeyd olunur. 11 sentyabr 1971-ci ildə qəbul edilmiş ölkə Konstitusiyası hələlik qüvvədə olsa da, 15-22 dekabr 2012-ci ildə keçirilmiş iki turdan ibarət Konstitusiya referendumunda Misirin seçici əhalisinin 64%-i Yeni Konstitusiya layihəsinə səs vermişdir.

**İnzibati bölgüsü:** 29 bölgəyə *(6 oktyabr, İsgəndəriyyə, Asuan, Asyut, Beni-Sueyf, Buxeyra, Qarbiya, Dakaxliya, Dumyat, İsmailiyyə, Qahirə, Kalyubiya, Kafr-əş-Şeyx, Kena, Qırmızı Dəniz, Luksor, Matrux, Minufiya, Yeni Vadi, Port-Səid, Şimali Sinay, Soxaq, Suets, Xeluan, Şarkiya,Əl-Qiza, Əl-Minya, Əl-Faiyum və Cənubi Sinay muhafazatlarına)* bölünür.

***Dövlət başçısı:*** Dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan *Misir Ərəb Respublikasının Prezidenti*, formalaşdırdığı *Hökumət* vasitəsilə icra hakimiyyətinə rəhbərliyi həyata keçirməkdə, mühümləri Parlamentdə ratifikasiya olunması şərti ilə, beynəlxalq müqavilələri imzalamaqda, ali baş komandan olaraq *Milli Müdafiə Şurasına* sədrlik etməkdə, fövqəladə vəziyyət və müharibə elan etməkdə, habelə Konstitusiyaya düzəlişlər edilməsi, Parlamentin buraxılması və ölkənin ali maraqlarına xidmət edən istənilən mühüm məsələlərlə bağlı Referendum keçirməkdə səlahiyyətlidir.

2012-ci ilin 23-24 may və 16-17 iyun tarixlərində keçirilmiş, iki turdan ibarət son Prezident seçkilərində 51.73 % səs toplayaraq qalib gəlmiş *Azadlıq və Ədalət Partiyasının* lideri *Məhəmməd Morsi* 30 iyun 2012-ci ildən etibarən Prezident vəzifəsinin icrasına başlamışdır.

***Qanunverici hakimiyyət:*** *Misirin* ali qanunverici orqanı iki palatadan – 508 yerlik *Xalq Assambleyasından (Aşağı Palata)* və 264 yerlik *Şura Məclisindən (Yuxarı Palata)* ibarətdir. *Aşağı Palataya* 5 il müddətinə 222 seçki dairəsindən seçilən

üzvlərin 498-i birmandatlı dairələrdən mandat əldə edir, 10 üzvü isə Prezident tərəfindən təyin olunur. Assambleyada fəhlə və kəndlilər, habelə qadınlar üçün ümumi say tərkibinin yarısına bərabər kvota mövcuddur.

Ənənəvi qanunvericilik fəaliyyəti ilə yanaşı, *Xalq Assambleyası Hökumətə* qarşı *etimadsızlıq* mexanizmindən istifadə etməklə, onun qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabinetinin* və ona rəhbərlik edən *Baş nazirin* istefasını tələb etməkdə səlahiyyətlidir. Məhz bu səbəbdən, *Kabinetin* üzvləri Parlamentdə çoxluq təşkil edən partiyanın deputatlarından ibarət olmalı və yaxud digər siyasi partiyalarla koalisiya yaratmalıdırlar.

*Yuxarı Palataya* 6 illik müddətə seçilən üzvlərin 176 nəfəri birbaşa seçkilər yolu ilə seçilir, 88 üzv isə Prezident tərəfindən təyin olunur *(Şura üzvlərinin yarısı 3 ildən bir dəyişir).*

*Xalq Assambleyası Şura Məclisinə* nisbətən daha aşağı statusda olmasına baxmayaraq qanunvericilik fəaliyyətində daha mühüm mövqeyə malikdir, belə ki, *Yuxarı Palatanın* qanunvericilik sahəsində səlahiyyətləri məhduddur.

28 fevral 2012-ci ildən etibarən *Şura Məclisinin* sədri *Əhməd Fəhmi (Azadlıq və Ədalət Partiyası),* 23 yanvar 2012-ci ildən *Xalq Assambleyasının* sədri *Səəd Əl-Katatnidir (Azadlıq və Ədalət Partiyası).*

29 yanvar -22 fevral 2012-ci il tarixlərində *Yuxarı Palataya* və 11 yanvar 2012-ci ildə *Aşağı Palataya* keçirilmiş son seçkilər nəticəsində *Şura Məclisində* və *Xalq Assambleyasında* təmsil olunan partiyalar:

*Demokratik Alyans - (105 üzv, 235 deputat),*
*İslamçı Blok - (45 üzv, 127 deputat),*
*Yeni Vəfd Partiyası - (14 üzv, 42 deputat),*
*Misir Bloku - (8 üzv, 35 deputat),*
*Misir Milli-Demokratik Partiyası - (18 deputat),*
*Yeni Mərkəz Partiyası (Əl-Vasat) - (3 üzv, 10 deputat),*

*İslahat və İnkişaf Partiyası - (9 deputat),*
*Davam Edən İnqilab Alyansı - (9 deputat),*
*Azadlıq Partiyası - (3 üzv, 5 deputat),*
*Ədalət Partiyası - (2 deputat),*
*Demokratik Sülh Partiyası - (1 üzv, 1 deputat),*
*Müstəqillər - (4 üzv, 21 deputat).*

***İcraedici hakimiyyət:*** Parlament qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabinetini* Prezident təyin edir və Kabinetə *Baş Nazir* rəhbərlik edir. Bir qayda olaraq, Misir Parlamentində daha çox mandat əldə etmiş siyasi partiyanın lideri *Hökumətə* başçılıq edir.

Dövlətin ümumi siyasətinin hazırlanması, həyata keçirilməsi və icrasına nəzarət edilməsi, qanun layihələrinin, dövlət büdcəsinin və sosial-iqtisadi inkişaf planının hazırlanması, qanunların icrasına nəzarət, nazirliklərin və digər mərkəzi dövlət qurumlarının fəaliyyətinin əlaqələndirilməsi və onlara münasibətdə şaquli nəzarətin həyata keçirilməsi, habelə dövlət təhlükəsizliyinin təminatı *Nazirlər Kabinetinin* səlahiyyətlərinə daxildir.

02 avqust 2012-ci ildən etibarən *Misir Ərəb Respublikasının* Baş naziri *Hişam Qandildir.*

***Məhkəmə hakimiyyəti:*** Misirin məhkəmə sistemi *Fransa* hüquq konsepsiyasına və metodlarına əsaslanır.

*Konstitusiya Məhkəməsi* Misir Ərəb Respublikasının ən yüksək məhkəmə hakimiyyətinə malikdir və qanunla müəyyən edilmiş qaydada qanunvericilik mətnlərinin şərhini, habelə Konstitusiya ilə əlaqədar məhkəmə nəzarətini öz üzərinə götürmək səlahiyyətinə malikdir.

Bundan başqa, *Ali Məhkəməyə* məhkəmə və inzibati məhkəmələr arasında səlahiyyət mübahisələrin həlli üçün səlahiyyət verilir.

# MONQOLUSTAN





***Ümumi məlumat:*** XIII əsrin əvvəllərində *Böyük Xan (1206-cı ildən)* titullu *Çingizxan monqolların* ilk vahid dövlətinin əsasını qoymuşdur. *Çingizxan* və onun varisləri, *Asiya* və *Avropaya* istila məqsədi daşıyan müharibələrdə qazandıqları uğurlar nəticəsində, XIV əsrin sonlarına qədər *Monqol İmperiyasını* yaşatmağa müvəffəq olmuşlar.

XVII əsrdə Monqolustan hissələrlə mancuriyalılar tərəfindən zəbt edilmiş və yalnız 1911-ci ildə müstəqilliyini əldə etmişdir *(1924-cü ildən respublikadır)*.

*Mərkəzi Asiyada* yerləşən *Monqolustan Respublikasının* paytaxtı *Ulan-Bator* şəhəridir.

Ölkənin ərazisi 1,564,115.75 $km^2$, əhalisi *(2010)* 2,854,685 nəfərdir *(əhali sıxlığı 1.76 nəfər/$km^2$)*.

*Monqolustan Respublikasının* rəsmi dövlət dili *monqol* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.653* - ortadır *(110-cu yer)*.

***Dövlət quruluşu:*** Dualist idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü *(1911)* dekabr ayının 29-da qeyd olunur. Ölkə Konstitusiyası 1992-ci il fevral ayının 12-dən etibarən *(1999 və 2001-cü ildə edilmiş dəyişikliklərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** *Paytaxt Ulan-Batora* və 21 aymakdan *(Bayan-Ulqiy, Bayanxonqor, Bulqan, Qov-Altay, Qov-Sumber, Darxan-Uul, Dornod, Dornoqov, Dundqov, Zavxan,*

*Orxon, Suxe-Bator, Selenqe, Tuve, Uverxanqay, Uvs, Umneqov, Xovd, Xuvsqel və Xentiyi)* ibarət inzibati vahidliyə bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə monqol milli birliyinin rəmzi, Monqolustanın xarici dövlətlərdə ali təmsilçisi, dövlət başçısı və Silahlı Qüvvələrin Ali Baş Komandanı olan *Prezident*, eyni zamanda Milli Təhlükəsizlik Şurasının sədridir. Prezidentliyə namizədlər *Böyük Dövlət Xuralında* yer almış siyasi partiyalar tərəfindən irəli sürülür və namizədlərdən biri ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaq şərti ilə 4 il müddətinə *Prezident* seçilir.

Konstitusiyaya görə *Prezident,* fəaliyyəti müddətində *Baş naziri,* səfirləri və digər diplomatik nümayəndələri təyin etmək, Monqolustanda akkreditə olunmuş xarici dövlətlərin diplomatik nümayəndələrinin övdətnamələrini qəbul etmək, *Parlamentin* buraxılmasını tələb etmək, habelə veto və qanunvericilik təşəbbüsü hüququndan istifadə etmək səlahiyyətlərinə malikdir.

18 iyun 2009-cu ildən etibarən Monqolustanın hazırkı, 4-cü Prezidenti *Tsaxiaqiyn Elbeqdorjdur (DP).*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 76 yerlik *Böyük Dövlət Xuralıdır.* BDX-ya deputatlar birmandatlı seçki dairələrindən 4 il müddətinə seçilirlər.

*Böyük Dövlət Xuralı* Hökumətlə əməkdaşlıq şəraitində qanunları hazırlayır və onların qüvvəyə minməsi üçün qərar qəbul edir. Prezidentin təqdimatı ilə *Xural* Baş naziri və nazirləri təsdiq edir, 2/3 səs çoxluğu ilə Konstitusiyaya düzəlişlər, habelə dövlət başçısının qanun layihəsinə qoyduğu veto hüququnu ləğv edir.

Parlamentin hazırkı sədri 2008-ci ildən *Monqolustan Xalq Partiyasının* təmsilçisi *Damdinı Dembereldir.*

*28 iyun 2012-ci ildə* Parlamentə keçirilmiş son seçkilər nəticəsində BDX-da yer almış əsas siyasi partiyalar aşağıdakılardır:

| | |
|---|---|
| *Demokratik Partiya* | *- (31 yer),* |
| *Monqolustan Xalq Partiyası* | *- (25 yer),* |
| *Monqolustan Xalq İnqilab Partiyası* | *- (11 yer),* |
| *Yaşıllar Partiyası* | *- (2 yer),* |
| *Müstəqillər* | *- (3 yer).* |

***İcraedici hakimiyyət:*** *Prezident* tərəfindən təyin və *Xural* tərəfindən təsdiq edilən *Baş nazirin* başçılıq etdiyi *Nazirlər Kabineti* ölkədə icra hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. 4 il müddətinə fəaliyyət göstərən Monqolustan *Kabinetinin* tərkibi 13 nazirdən formalaşır və Parlament (BDX) tərəfindən təsdiq edilir.

*Hökumət* iqtisadi və sosial inkişafın, maliyyə-kredit planının, elm və texnologiyalar sahəsində vahid siyasətin əsas istiqamətlərini, dövlət büdcəsini, xarici siyasət strategiyasını işləyib hazırlayır və *Böyük Dövlət Xuralına* təqdim edir, habelə dövlət idarəçiliyinin mərkəzi orqanları üzərində operativ rəhbərliyi həyata keçirir və qəbul olunmuş qərarları icra edir.

10 avqust 2012-ci ildən etibarən ölkənin hazırkı, sayca 4-cü *Baş naziri Monqolustan Demokratik Partiyasının* lideri *Norovın Altanxuyaqdır.*

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya görə, 6 il müddətinə Monqolustan Prezidenti tərəfindən təyin edilən baş hakimin rəhbərlik etdiyi 12 hakim korpusundan ibarət *Monqolustan Ali Məhkəməsi*, ölkənin məhkəmə sisteminin ən yüksək instansiyasıdır. *Ali Məhkəmə* aşağı məhkəmə qərarlarının müraciətlərini araşdırmaq səlahiyyətlərinə malikdir.

## NİGER

  

***Ümumi məlumat:*** VII-IX əsrlərdə *Nigerin* ayrı-ayrı rayonları orta əsr qərbi Sudan dövlətlərinə *(Sonqay və Kanem)* məxsus olmuşdur.

XIX əsrin sonlarında *Fransa* tərəfindən işğala məruz qalmış ölkə, 1922-ci ildə müstəmləkə qismində *Fransız Qərbi Afrikasının* tərkibinə daxil olmuşdur.

*Niger* 1960-cı ildən müstəqil dövlətdir.

*Qərbi Afrikada* yerləşən *Niger Respublikasının* paytaxtı *Niamey* şəhəridir.

Ölkənin ərazisi 1,267,000 km², əhalisi *(2012)* 16,274,738 nəfərdir *(əhali sıxlığı* 12.1 *nəfər/km²)*.

*Nigerin* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.295* - aşağıdır *(186-cı yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 03 avqust tarixində qeyd olunur. Ölkə Konstitusiyası 31 oktyabr 2010-cu ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 36 departamentdən ibarət 7 regiona *(Aqades, Diffa, Doso, Maradi, Taxua, Tillaberi və Zinder )* və *Niamey* paytaxt dairəsinə bölünür.

***Dövlət başçısı:*** Yeni Konstitusiyaya görə dövlət başçısı – *Prezident* silahlı qüvvələrin ali baş komandanıdır və xalqın vahidliyini təcəssüm etdirir. Prezident siyasi partiyaların föv-

qündə durur və o, milli müstəqilliyin, milli birliyin, ərazi bütövlüyünün, Konstitusiyaya hörmətin, beynəlxalq müqavilə və sazişlərin ali təminatçısı sayılır. Dövlət institutlarının normal fəaliyyətini təmin edən Prezident iki turdan ibarət birbaşa, bərabər və gizli seçkilərdə ümumxalq səsverməsi yolu ilə, iki dəfədən çox olmamaq şərti ilə 5 illik müddətə seçilir.

Heç bir halda, bir şəxsin iki dəfədən artıq Prezident seçilməsi və ya hər hansı bir səbəbdən mandatının uzadılması mümkün deyil. Milli və cinsi mənşəyindən asılı olmayaraq 35 yaşına çatmış istənilən ölkə vətəndaşı *Niger Prezidenti* seçilə bilər.

Hökumətə başçılıq edən *Baş naziri Prezident* təyin edir və *Nazirlər Kabinetinin* fəaliyyətinə nəzarəti həyata keçirir.

07 aprel 2011-ci ildən etibarən hazırkı ölkə Prezidenti *Mahammadu İssufudur*.

***Qanunverici hakimiyyət:*** 113 yerlik bir palatalı *Milli Assambleya* ölkədə qanunvericilik hakimiyyətinin həyata keçirilməsində səlahiyyətlidir. Parlamentə üzvlər bərabər, birbaşa və gizli seçki sistemi üzrə, ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilirlər.

Mövcud Konstitusiyaya görə, Nigerin *Baş naziri,* o cümlədən Hökumətə məxsus bütün nazirlər, ali qanunverici orqanın üzvləri olmalıdır. Kifayət qədər geniş qanunvericilik səlahiyyətlərinə malik olan və *Baş nazirin* seçilməsi üçün ölkə Prezidenti ilə məsləhətləşmələr aparan *Milli Assambleya* 50%+1 səslə Prezidentin vetosunu dəf edə bilər.

Parlamentin hazırkı sədri 19 aprel 2011-ci ildən etibarən *Hama Amadoudur.*

Son seçkilər 31 yanvar 2011-ci ildə keçirilmişdir və aşağıdakı partiyalar Parlamentdə təmsil olunmaq hüququ əldə etmişlər:

*Demokratiya və Sosializm Naminə Niger Partiyası (Tarayya) - 39 deputat,*

*Cəmiyyətinin İnkişafı Naminə Milli Hərəkat (Nassara) - 26 deputat,*

*Demokratik Afrika Federasiyası Naminə Niger Hərəkatı – 24 deputat,*

*Demokratiya və Tərəqqi Naminə Niger Alyansı (Zaman Lahiya) - 8 deputat,*

*Demokratiya və Tərəqqi Naminə Cəmiyyət (Jama'ah) - 7 deputat,*

*Demokratiya və Respublika Uğrunda İttifaq (Tabbat) – 6 deputat,*

*Demokratik və Sosial Konvensiya (Raham) - 2 MP,*

*Müstəqil Nigerlilər Birliyi - 1 üzv*

***İcraedici hakimiyyət:*** Dövlətin ümumi siyasətinin əsas prinsiplərini özündə ehtiva edən icra hakimiyyətinin həyata keçirilməsində səlahiyyətli olan *Hökumət* başçısı *(Baş nazir)* Prezident tərəfindən təyin olunur. *Nazirlər Kabinetinin* üzvlərini də Baş nazirin tövsiyəsi ilə Prezident təyin edir. İcra hakimiyyəti ilə yanaşı, Hökumət eyni zamanda, Parlamentlə birlikdə qanunvericilik hakimiyyətinin həyata keçirilməsində səlahiyyətlidir.

07 aprel 2011-ci ildən etibarən ölkənin *Baş naziri Demokratiya və Sosializm Naminə Niger Partiyasının* təmsilçisi *Briqi Rafinidir*.

***Məhkəmə hakimiyyəti:*** Niger Respublikasında məhkəmə hakimiyyəti *Konstitusiya Məhkəməsi* tərəfindən, digər məhkəmə orqanlarına nəzarət qaydasında həyata keçirilir.

# PORTUQALİYA

  

***Ümumi məlumat:*** Eramızdan əvvəl II əsrdə romalılar və VIII əsrdə ərəblər tərəfindən fəth edilən indiki ölkə ərazisində 1095-ci ildə *Portuqaliya Qraflığı,* 1139-cu ildə isə müstəqil *Portuqaliya Krallığı* təşəkkül tapmışdır.

1500-cü ildə portuqaliyalılar *Braziliyanı* kəşf etdikdən sonra *Portuqaliya* iri müstəmləkə imperiyasına çevrilmiş, 1910-cu ildə isə respublika elan edilmişdir. *Avropanın* cənub-qərb hissəsində yerləşən *Portuqaliya Respublikasının* paytaxtı *Lissabon* şəhəridir.

Ölkənin ərazisi 92,212 km², əhalisi *(2012)* 10,581,949 nəfərdir *(əhali sıxlığı 115 nəfər/km²).*

*Portuqaliyanın* rəsmi dövlət dili *portuqal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.809* - çox yüksəkdir *(41-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1640) 01 dekabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 25 aprel 1976-cı ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** İkinci inzibati vahidlik statusuna malik 308 bələdiyyədən və aşağı inzibati vahidlik sayılan 4260 freqeziyadan ibarət 18 dairəyə *(Aveyru, Beja, Braqa, Braqansa, Vizeu, Viana-du-Kaştelu, Vila-Real, Quarda, Kaştelu-Branku, Koimbra, Leyriya, Lissabon, Portaleqri, Portu, Santaren, Setubal, Faru və Evora)* bölünür.

***Dövlət başçısı:*** Birbaşa və ümumxalq səsverməsi yolu ilə, iki dəfədən artıq olmamaq şərti ilə 5 il müddətinə seçilən, dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident* milli müstəqilliyin, dövlət birliyinin və ölkədə fəaliyyət göstərən demokratik institutların təminatçısıdır.

Portuqaliya Prezidenti nəzəri cəhətdən geniş səlahiyyətlərə malik olsa da *(Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək, Respublika Assambleyasının növbədənkənar təcili sessiyasını çağırmaq, qanunlara veto qoymaq, beynəlxalq müqavilə və sazişləri imzalamaq, müharibə elan etmək və sülh bağlamaq),* faktiki olaraq yalnız mərasim funksiyalarını yerinə yetirir. Konstitusiyaya görə, *Baş nazir* və *Kabinet* üzvləri, habelə Hökumətin təqdimatına əsasən diplomatik nümayəndələr dövlət başçısı tərəfindən təyin edilir.

Portuqaliyanın hazırkı, sayca 19-cu Prezidenti 09 mart 2006-cı il tarixindən etibarən *Sosial Demokrat Partiyasının* təmsilçisi *Anibal Kavako Silvadır (23 yanvar 2011-ci ildə keçirilmiş Prezident seçkilərində A.K.Silva 52.94% səslə bütün rəqiblərinə qalib gələrək yenidən dövlət başçısı seçilmişdir).*

***Qanunverici hakimiyyət:*** 230 yerlik, bir kameralı *Respublika Assambleyasıdır (Assembleia da Republica).* Parlamentə üzvlər ümumxalq səsverməsi yolu ilə, proporsional seçki sistemi əsasında 4 il müddətinə seçilirlər.

Ölkə Konstitusiyasına və qanunlara dəyişiklik etmək, onun qarşısında məsuliyyət daşıyan *Hökumətə* etimadsızlıq göstərmək və Konstitusiya ilə müəyyən edilmiş digər mühüm səlahiyyətlərlə yanaşı, Parlament illik dövlət büdcəsini və milli fəaliyyət planını müzakirə və təsdiq, beynəlxalq saziş və müqavilələri ratifikasiya, habelə dövlət başçısının qərarlarını təsdiq və ya rədd edir. *Respublika Assambleyası* 2/3 səs çoxluğu ilə, Prezidentin qanunlar üzərində tətbiq etdiyi veto hüququnu ləğv etməkdə də səlahiyyətlidir.

Parlamentin hazırkı sədri 21 iyun 2011-ci ildən etibarən *Sosial Demokratik Partiyanın* nümayəndəsi *Maria de Estevesdir.*

Ölkədə sonuncu Parlament seçkiləri 05 iyun 2011-ci il tarixində, vaxtından iki il əvvəl keçirilmişdir və aşağıda qeyd olunan siyasi partiyalar *Respublika Assambleyasında* təmsilçilik hüququ əldə etmişlər:

*Sosial Demokrat Partiyası (PSD) – (105 yer,* lideri *Pedru Pasuş Koelyu),*

*Portuqaliya Sosialist Partiyası (PS) – (73 yer,* lideri *Mariya de Belem Rozeyra),*

*Xalq Partiyası (PP) – (24 yer,* lideri *Paulo Portas),*

*Demokratik Birlik Koalisiyası (CDU) - (16 yer,* lideri *Paulo Portas),*

*Sol Blok (BE) - (8 yer,* lideri *Fransişku Lousa).*

***İcraedici hakimiyyət:*** *Hökumətə* Prezident tərəfindən təyin edilən və bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın lideri olan *Baş nazir* başçılıq edir. *Nazirlər Şurasının* üzvlərini *Baş nazirin* tövsiyəsi ilə dövlət başçısı təyin edir.

*Hökumət*, ölkəyə rəhbərliyin ümumi xəttini müəyyənləşdirir, dövlət büdcəsini hazırlayır, administrasiyanın fəaliyyətinə nəzarət edir, Portuqaliyanın sosial-iqtisadi inkişafına istiqamətləndirilmiş qərarlar qəbul edir. Bundan əlavə, qanunların qəbulunda müəyyən səlahiyyətlərə malik olan *Nazirlər Şurası,* qanunvericilik prosesində də bilavasitə iştirak edir.

*Hökumət* Prezident və Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. Belə ki, mövcud Konstitusiyaya uyğun olaraq, təyinatından ötən 10 gün ərzində *Baş nazir,* deputatları Hökumətin fəaliyyət proqramı ilə tanış etməlidir. Proqram *Respublika Assambleyasında* səs çoxluğu ilə qəbul edilmədiyi təqdirdə isə, 30 gün müddətində *Hökumət* tam tərkibdə istefaya getməlidir.

21 iyun 2011-ci ildən etibarən Portuqaliyanın *Baş naziri Sosial Demokrat Partiyasının* lideri *Pedru Pasuş Koelyudur*.

***Məhkəmə hakimiyyəti:*** *Konstitusiya Məhkəməsinin* yurisdiksiyasına zərər vurmadan *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmənin* sədri bu orqanın üzvləri arasından seçilir.

*Konstitusiya Məhkəməsi* ölkə Prezidenti, siyasi partiyalar və referendumla bağlı unikal səlahiyyətlərə malikdir. Portuqaliya Respublikasında mülki və cinayət işləri, habelə sosial məsələlər üzrə 3 palatalı apelyasiya və digər aşağı instansiya məhkəmələri də fəaliyyət göstərirlər.

# RUMINİYA





***Ümumi məlumat:*** XIV əsrdə təşəkkül tapmış və rəsmən 1862-ci ildən *Rumıniya* adlandırılmış bu ölkə, XVI əsrdən 1877-ci ilə qədər olan dövr ərzində *Valaxiya və Moldova (Moldovanın Bessarabiya hissəsi hələ 1812-ci ildən Rusiyanın tərkibinə daxil olmuşdur)* adı altında *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur.

1877-ci ildən müstəqil dövlətdir *(1947-ci ildən respublikadır).*

1946-1989-cu illərdə *Rumıniyada* sosializm quruculuğu kursunu həyata keçirən birpartiyalı totalitar rejim mövcud olmuşdur.

*Avropanın* cənub hissəsində yerləşən *Rumıniya Respublikasının* paytaxtı *Buxarest* şəhəridir.

Ölkənin ərazisi 238,391 km², əhalisi *(2011)* 19,043,767 nəfərdir *(əhali sıxlığı 80 nəfər/km²).*

*Rumıniyanın* rəsmi dövlət dili *rumın* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.781* - yüksəkdir *(50-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram *(1918, Rumıniyanın Transilvaniya ilə birləşmə günü)* 1 dekabrda, müstəqillik günü (1877) 9 may tarixində qeyd olunur. Ölkə Konstitusiyası 8 dekabr 1991-ci ildən *(2003-cü ildə edilmiş düzəlişlərlə)* qüvvədədir.

**İnzibati bölgüsü:** Şəhər və kommunaları özündə birləşdirən 41 uyezdən *(judets)* ibarət 8 inkişafi regiona *(Buxarest, Qərb, Şimal-Şərqi, Şimal-Qərbi, Cənub-Şərqi, Mərkəzi, Cənub)* bölünür.

***Dövlət başçısı:*** *Prezident* ümumxalq səsverməsi yolu ilə, 2 dəfədən çox olmamaq şərti ilə 5 il müddətinə seçilir.

Ali Milli Müdafiə Şurasının sədri və silahlı qüvvələrin ali baş komandanı olan *Prezident,* Konstitusiyanın müdafiəsini, xarici siyasət strategiyasının düzgün həyata keçirilməsini, ictimai-siyasi orqanların dəqiq və ədalətli fəaliyyətini təmin etməkdə, habelə Konstitusiya və qanunvericiliklə müəyyən edilmiş qaydada digər mühüm vəzifələrin həyata keçirilməsində səlahiyyətlidir. Mövcud Konstitusiyaya görə, ölkə Prezidenti eyni zamanda dövlət və cəmiyyət arasında vasitəçilik missiyasını yerinə yetirir.

20 dekabr 2004-cü ildən etibarən ölkə Prezidenti *Rumıniya Demokratik Liberal Partiyasının* təmsilçisi *Trayan Basesкudur.*

***Qanunverici hakimiyyət:*** Rumıniyanın ali qanunverici orqanı iki palatadan: 334 yerlik *Deputatlar Palatasından (Aşağı Palata)* və 137 yerlik *Senatdan (Yuxarı Palata)* ibarətdir.

Palataların birgə iclaslarında illik dövlət və sosial təminat büdcəsinin təsdiqi, ümumi və qismən səfərbərliyin, o cümlədən də müharibə vəziyyətinin elan edilməsi və yaxud hərbi əməliyyatların dayandırılması, habelə Konstitusiya ilə müəyyən edilmiş digər funksiyalar həyata keçirilir. Ölkə Konstitusiyasına 2003-cü ildə edilmiş düzəlişlərdən biri də, *Senatın* həlledici mövqeyə malik palata kimi təsbit edilməsidir ki, bu da qanunların qəbul edilməsi zamanı iki palata arasında ziddiyyətlərin yaranmamasına xidmət edir.

28 noyabr 2011-ci ildən *Senatın* Daimi Bürosunun Sədri *Vasile Blaqa, 19 dekabr 2008-ci ildən Deputatlar Palatasının* sədri *xanım Roberta Anastasedir.*

09 dekabr 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Senatda və Deputatlar Palatasında* təmsil olunan partiyalar:

*Rumıniya Sosial Liberal Partiyası - (45 senator, 94 deputat),*
*Rumıniya Sağçı Alyansı - (27 senator, 59 deputat),*
*Rumıniya Xalq Partiyası - (21 senator, 47 deputat),*
*Rumıniya Macarlarının Demokratik İttifaqı - (4 deputat).*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* rəhbərlik etdiyi *Rumıniya Hökuməti* ölkədə İcra hakimiyyətini həyata keçirir. Bir qayda olaraq, *Parlamentdə* çoxluq qazanmış siyasi partiyanın təmsilçiləri ilə məsləhətləşmələrdən sonra, hakim partiya ilə razılıq əldə edilmədiyi təqdirdə isə *Deputatlar Palatasında* təmsil olunan bütün siyasi partiya və qruplarla məsləhətləşmələr nəticəsində Prezident tərəfindən təyin olunan *Baş nazir* Hökumətin digər üzvlərini seçməkdə səlahiyyətlidir.

Mövcud Konstitusiyaya görə *Hökumətin* yeni proqramı və üzvləri Parlamentdə etimad qazanmaq üçün təsdiq edilməlidirlər. *Baş nazirin* təqdim etdiyi fəaliyyət proqramı ali qanunverici orqan tərəfindən səs çoxluğu ilə qəbul edilmədiyi təqdirdə, *Hökumət* tam tərkibdə istefaya getməlidir.

07 may 2012-ci ildə *Rumıniya Sosial Demokratik Partiyasının* lideri *Viktor Ponta* ölkənin *Baş naziri* təyin olunmuşdur.

***Məhkəmə hakimiyyəti:*** Ölkədə ən yüksək məhkəmə instansiyası - hakimləri Magistratların Ali Şurasının təqdimatı ilə Prezident tərəfindən təyin olunan *Ali Kasasiya Məhkəməsidir.* Fransız hüquq sisteminin təsiri altında olan Rumıniyanın hüquq sistemi Napoleon Məcəlləsinə əsaslanır.

# SAN TOME VƏ PRİNSİPİ





***Ümumi məlumat:*** 1469-1471-ci illərdə adalar portuqal dəniz səyyahları tərəfindən kəşf edilmiş və *Portuqaliyanın* müstəmləkəsi elan olunmuşdur.

1975-ci ildən etibarən *San Tome və Prinsipi* müstəqil dövlətdir.

*Mərkəzi Afrikada* yerləşən *San Tome və Prinsipi Respublikasının* paytaxtı *San Tome* şəhəridir.

Ölkənin ərazisi 1,001 km², əhalisi *(2011)* 183,176 nəfərdir *(əhali sıxlığı 169,1 nəfər/km²).*

*San Tome və Prinsipinın* rəsmi dövlət dili *portuqal* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.509* - aşağıdır *(144-cü yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1975) 12 iyulda qeyd olunur. Ölkə Konstitusiyası 10 sentyabr 1990-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 6 dairədən *(Aqua-Qrande, Kantaqalu, Kaui, Lemba, Lobata və Mi-Soçi)* ibarət *San Tome* və 1 dairəni *(Paqui)* özündə birləşdirən *Prinsipi* əyalətlərinə bölünür.

***Dövlət başçısı:*** Ölkədə hüquqi dövlətin və Konstitusiyanın, milli müstəqilliyin və ərazi bütövlüyünün, habelə insan hüquq və azadlıqlarının təminatçısı olan, dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident* ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir. Konstitusiyaya

əsasən eyni şəxs ardıcıl olaraq 3 dəfədən artıq Prezident seçilə bilməz.

*San Tome və Prinsipini* ölkə daxilində və xaricdə təmsil edən dövlət başçısı, *Hökumətin* tərkibini formalaşdırmaq və zəruri hallarda *Nazirlər Kabinetinə* rəhbərlik etmək səlahiyyətinə malikdir.

03 sentyabr 2011-ci ildən etibarən ölkənin hazırkı, 4-cü Prezidenti *Manual Pintu da Koştadır (Koşta 1975-1991-ci illərdə San Tome və Prinsipi Respublikasının ilk Prezidenti olmuşdur).*

***Qanunverici hakimiyyət:*** *San Tome və Prinsipinin* ali qanunverici orqanı olan *Milli Assambleya* birpalatalıdır və 55 deputatdan ibarətdir. Seym birbaşa seçkilər yolu ilə 4 il müddətində seçilir.

Qüvvədə olan Konstitusiyaya görə ənənəvi qanunvericilik hakimiyyəti ilə yanaşı, icraedici hakimiyyətin böyük bir hissəsi Parlamentin əlində cəmlənmişdir. Bununla belə, ölkədə *"iri siyasi böhran"* yaşanacağı təqdirdə, Prezident *Parlament* partiyaları ilə məsləhətləşmələrdən sonra *Milli Assambleyanı* buraxa bilər.

01 avqust 2010-cu ildə keçirilmiş son *Parlament* seçkiləri nəticəsində *Milli Assambleyada* təmsil olunan əsas siyasi partiyalar:

*Müstəqil Demokratik Hərəkat Partiyası (26 yer),*

*San Tome və Prinsipinin Azadlığı Uğrunda Hərəkat/ Sosial Demokrat Partiyası* (*21 yer*),

*DCP-RG* (7 yer),

*Liberal Partiya* (1 yer).

***İcraedici hakimiyyət*:** Nazirlərin, dövlət katiblərinin və onların müavinlərinin yer aldığı *Kabinetə Baş nazir (bir qayda olaraq, Parlamentdə qalib gəlmiş hakim siyasi partiyanın lideri)* rəhbərlik edir. Hökumət başçısı *(Baş nazir)* Prezidentin razılığı ilə Parlament tərəfindən seçilir. *Nazirlər Kabinetinin*

tərkibini Baş nazirin təqdimatı ilə Prezident formalaşdırır. İcra hakimiyyətini həyata keçirməkdə səlahiyyətli olan *Hökumət* öz fəaliyyətinə görə, dövlət başçısı və *Milli Assambleya* qarşısında siyasi məsuliyyət daşıyır.

*San Tome və Prinsipi Sosial Demokratik Partiyasının* təmsilçisi *Qabriel Koşta,* 12 dekabr 2012-ci ildən etibarən ölkənin hazırkı, sayca 20-ci *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** 13 hakimdən ibarət *(on hakim Milli Məclis tərəfindən təyin olunur) Konstitusiya Məhkəməsi* və hakimləri Parlament tərəfindən təyin olunan *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# SENEQAL







***Ümumi məlumat:*** Avropalıların gəlişindən xeyli əvvəl, *Seneqalın* indiki ərazisində iri şəhərlərə malik dövlətlər mövcud olmuşdur. X-XII əsrlərdə ərəb tacirləri vasitəsi ilə *İslam* dininin yayıldığı ölkə, XIX əsrin sonlarından etibarən *Fransanın* müstəmləkəsinə çevrilmişdir.

1960-cı ildə *Seneqal* dövlət müstəqilliyini elan etmişdir.

*Qərbi Afrikada* yerləşən *Seneqal Respublikasının* paytaxtı *Dakar* şəhəridir.

Ölkənin ərazisi 196,723 km², əhalisi *(2011)* 12,855,153 nəfərdir *(əhali sıxlığı* 65.3 *nəfər/km²).*

*Seneqalın* rəsmi dövlət dili *fransız* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.459* - aşağıdır *(155-ci yer).*

***Dövlət quruluşu:*** 1960-cı ildən məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) 20 avqust tarixində qeyd olunur. Seneqalın yeni Konstitusiyası 07 yanvar 2001-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Seneqal 14 vilayətə *(paytaxt-Dakar, Diurbel, Ziqinşor, Kaolak, Kafrin, Keduqu, Kolda, Luqa, Matam, Sediu, Sen-Lui, Tambakunda, Ties və Fatik)* bölünür.

***Dövlət başçısı:*** İcraedici hakimiyyətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident*, ümumxalq

səsverməsi yolu ilə və iki dəfədən çox olmamaq şərti ilə 5 illik müddətə seçilir.

Prezidentin *Baş naziri* və onun təklif etdiyi nazirləri vəzifəyə təyin və vəzifədən azad etmək, *Baş nazirin* xahişi əsasında *Milli Assambleyanı* buraxmaq, müharibə və fövqəladə vəziyyət elan etmək *(fərman vasitəsilə),* millətə geniş müraciət etmək, əfv fərmanı vermək, qanunlara veto qoymaq və Konstitusiyada nəzərdə tutulmuş bir sıra digər hüquq və səlahiyyətləri vardır.

02 aprel 2012-ci il tarixindən etibarən *Seneqalın* hazırkı, sayca 4-cü *Prezidenti Respublika Naminə Alyansın* lideri *Maki Salldır.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 150 yerlik *Milli Assambleyadır.* Parlamentə nümayəndələr *(Assambleyanın 75 üzvü proporsional nümayəndəlik sistemi üzrə milli səviyyədə, digər 75 üzv isə birmandatlı dairələrdən)* majoritar sistem üzrə 5 illik müddətə seçilirlər.

*"Rasional parlamentarizm"in* fransız doktrinasına uyğun olaraq mövcud Konstitusiya, ölkə Parlamentinin qanunvericilik səlahiyyətlərini dövlət başçısının xeyrinə məhdudlaşdıran bir sıra mexanizmlər təsbit etmişdir.

09 noyabr 2008-ci ildən etibarən ölkə Parlamentinin hazırkı sədri *Seneqal Demokratik Partiyasının* təmsilçisi *Mamadu Seskdir.*

01 iyul 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkilərində qalib gəlmiş əsas siyasi partiyalar:

*Respublika Naminə Alyans (119 yer, lideri Maki Sall ),*
*Seneqal Demokratik Partiyası (9 yer),*
*Digər Partiyalar (22 yer).*

***İcraedici hakimiyyət:*** *Hökumətə* rəhbərliyi həyata keçirən *Baş nazir* Prezident tərəfindən təyin edilir. Baş nazir dövlət başçısının razılığı ilə *Nazirlər Kabinetini* formalaşdırır.

Mövcud Konstitusiyaya görə, daxili və xarici siyasət sahəsində cari fəaliyyətin həyata keçirilməsi Prezident qarşısında məsuliyyət daşıyan və müstəqil səlahiyyəti olmayan Hökumətə həvalə edilmişdir.

05 aprel 2012-ci ildən etibarən ölkənin hazırkı Baş naziri *Abdul Mbayedir.*

***Məhkəmə hakimiyyəti:*** Ali apelyasiya instansiyası sayılan və ölkədə məhkəmə sisteminin fövqündə duran *Kasasiya Məhkəməsi,* üzvləri Respublika Prezidenti tərəfindən 6 il müddətinə təyin olunan *Konstitusiya Şurası* və ali inzibati ədliyyə orqanı olan *Dövlət Şurası* tərəfindən həyata keçirilir. Ölkədə paralel olaraq hərbi məhkəmə sistemi də fəaliyyət göstərir.

# SOMALİ

  

***Ümumi məlumat:*** XII əsrdə Somali ərazisində bir sıra sultanlıqlar təşəkkül tapmışlar. XIX əsrin sonlarında aparıcı Avropa dövlətləri Somali yarımadasının müstəmləkə bölgüsünü həyata keçirmiş, nəticədə *Şimali Somali* Böyük Britaniyanın, *Cənubi Somali* isə İtaliyanın işğalına məruz qalmışdır.

1960-cı ildə *Britaniya Somalilendi* və *İtaliya Somalisi* müstəqillik əldə edərək vahid *Somali Respublikasını* yaratmışlar.

1993-cü ilin may ayında keçirilmiş referendum nəticələrinə əsasən *(99.8% lehinə) Eritreya* müstəqilliyini elan etmişdir.

1991-ci ildən bu günə qədər davam edən vətəndaş müharibəsi və separatçı fəaliyyət nəticəsində, *Somali* dövləti de-fakto bir neçə hissəyə *(Somalilend, Cubalend və s.)* parçalanmışdır.

*Afrikanın* şimal-şərqində yerləşən *Somalinin* paytaxtı *Moqadişu* şəhəridir.

Ölkənin ərazisi 637,657 $km^2$, əhalisi *(2012)* 10,085,638 nəfərdir *(əhali sıxlığı* 16,12 *nəfər/$km^2$).*

*Somalinin* rəsmi dövlət dili *somali və ərəb* dilləridir.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1960) iyul ayının 1-də qeyd olunur. Ölkə Konstitusiyası 2004-cü ilin fevral ayında qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 18 əyalətə *(Avdal, Bakur, Benadir, Bari, Bey, Qalqudud, Qedo, Xiran, Orta Cubba, Aşağı Cubba,*

*Muduq, Nuqal, Sanaaq, Orta Şabelle, Aşağı Şabelle, Sul, Toqder* və *Vokuy-Qalbid)* bölünür.

***Dövlət başçısı:*** Somali Respublikasının milli birliyinin rəmzi, Konstitusiyanın və hüquqi dövlətin, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, dövlətin və hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılan *Prezident* Parlament tərəfindən seçilir. Mövcud Konstitusiyaya əsasən, kifayət qədər geniş səlahiyyətlərə malik olan Prezident *Baş naziri* təyin edir və formalaşdırdığı *Hökumətə* rəhbərliyi həyata keçirir.

10 sentyabr 2012-ci ildən etibarən Somali Respublikasının Prezidenti, *Ədalət və İnkişaf Partiyasının* təmsilçisi *Həsən Şeyx Mahmuddur.*

***Qanunvericilik hakimiyyəti:*** 550 nəfərdən ibarət birpalatalı *Parlamentdir.* Parlamentin 475 üzvü özünəməxsus qaydada – Somalinin 4 əsas iri klan birləşmələrinin arasından seçilir. Digər 75 deputat yeri isə biznes və vətəndaş cəmiyyəti nümayəndələri üçün qorunur. Keçid Federal Nizamnaməsinin 29-cu maddəsinə əsasən bütün parlament üzvlərinin ən azı 12%-i qadınlar üçün nəzərdə tutulur.

*Keçid Federal Parlamenti (KFP)* ölkə Prezidentini və Baş naziri seçmək, qanunlara təklif vermək və onları qəbul etmək, habelə mövcud Konstitusiyada təsbit edilmiş digər qanunvericilik səlahiyyətlərinə malikdir.

28 avqust 2012-ci ildən etibarən ölkə Parlamentinin hazırkı sədri *Məhəmməd Osman Javaridir.*

Hal-hazırda Somali Parlamentində təmsil olunan ölkənin əsas siyasi partiyaları aşağıdakılardır:

*Somali Gənclər Liqası Partiyası (Müstəqillik dövrünün bir çox dövlət və hökumət başçıları, habelə digər yüksək vəzifəli hökumət rəsmiləri Somalinin ilk və ən nüfuzlu siyasi partiyası olan SGL-in üzvləri olmuşdur),*

*Marehan Birliyi Partiyası,*

*Somali Afrika Milli İttifaqı,*
*Somali Parlamentarilər Birliyi,*
*Somali Yaşıllar Partiyası (sədri Somalilendin hazırkı Prezidenti olan Əhməd Məhəmməd Mohamud Silanyodur),*
*Ədalət və İnkişaf Partiyası,*
*Birləşmiş Xalq Demokratik Partiyası,*
*Somali Demokratik Partiyası,*
*Somali Demokratik Yaşıllar Partiyası,*
*Somali Milli Partiyası,*
*Sülh və İnkişaf Partiyası və s.*

***İcraedici hakimiyyət:*** Parlament qarşısında cari fəaliyyətinə görə kollektiv məsuliyyət daşıyan və ölkənin daxili və xarici siyasət strategiyasının həyata keçirilməsinə cavabdeh olan *Somali Hökumətini* Prezident formalaşdırır. *Hökumətə* rəhbərlik edən *Baş nazir* Somali Prezidenti ilə *Hökumət* üzvləri arasında əlaqələndirici funksiyasını yerinə yetirir.

17 oktyabr 2012-ci ildən etibarən ölkənin *Baş naziri Abdi Fərəh Şirdondur.*

***Məhkəmə hakimiyyəti:*** Hazırda qüvvədə olan *Somali* Konstitusiyasına əsasən *Şəriət hüquq sistemi* bütün milli qanunvericilik və məhkəmə sistemi üçün əsasdır.

Ölkədə məhkəmə hakimiyyəti, federal məhkəmə orqanlarının ən yüksək instansiyası olan *Federal Ali Məhkəmə,* habelə *Apelyasiya* və yerli məhkəmələr tərəfindən həyata keçirilir.

# SURİYA







***Ümumi məlumat:*** Dünyanın ən qədim dövlətlərindən biri olan və çox böyük sivilizasiyaların təsirini özündə ehtiva edən *Suriya,* 1516-1918-ci illər ərzində *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuş, 1920-ci ildə isə fransız mandatına verilmişdir.

*Suriya* 1943-cü ildə dövlət müstəqilliyini elan etmişdir *(de-fakto 1946-cı ildən müstəqil dövlətdir).*

*Yaxın Şərq* bölgəsində yerləşən *Suriya Ərəb Respublikasının* paytaxtı *Dəməşq* şəhəridir.

Ölkənin ərazisi 185,180 km², əhalisi *(2012)* 22,530,746 nəfərdir *(əhali sıxlığı 118.3 nəfər/km²).*

*Suriyanın* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.632* - ortadır *(119-cu yer).*

***Dövlət Quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Bununla belə, Suriyanın bütün siyasi partiyaları islahatçı sosializm kursuna sadiqliyini bəyan etməlidirlər. Milli bayram günü olan müstəqillik günü (1946) 17 apreldə qeyd olunur. *Suriya Ərəb Respublikasının* 13 mart 1973 il tarixində qəbul edilmiş Konstitusiyasında *Ərəb Sosialist İntibah Partiyasının (BƏƏS)* aparıcı rolu təsbit edilmişdir.

***İnzibati bölgüsü:*** Başçıları *Nazirlər Şurasının* təsdiqindən sonra daxili işlər naziri tərəfindən təyin olunan və hər birinin yerli Parlamenti seçilən 14 muhafazlığa *(Dəməşq, Rif Dəməşq, Deyr-əz-Zur, Dəra, İdlib, Lazkiyə, Ər-Rəqqə, Tərtus,*

*Hələb, Həma, Əl-Həsəkə, Hims, Qüneydrə və Əs-Suveydə)* bölünür.

***Dövlət başçısı:*** *Prezidentin* namizədliyi *Ərəb Sosialist İntibah Partiyasının (BƏƏS)* zəmanəti ilə *Xalq Şurası* (Parlament) tərəfindən irəli sürülür və ümumxalq referendumunun təsdiqinə təqdim olunur. Bir qayda olaraq dövlət başçısı *BƏƏS* partiyasının *Baş katibi* olur.

Respublika Prezidenti vəzifəsinin boşaldıldığı və vitse-prezidentin *(Konstitusiyaya əsasən Prezident bir və ya iki vitse-prezident təyin edir)* olmadığı təqdirdə, Prezidentin səlahiyyətlərini yeni Prezidentin seçilməsi ilə əlaqədar referendumun çağırılmasına qədər *Nazirlər Şurasının* sədri icra edir. Mövcud Konstitusiyaya görə, referendum 90 gün ərzində çağırılmalıdır. Prezident səlahiyyətlərinin müddəti, məhdudiyyətsiz sayda seçilmək şərti ilə 7 ildir.

*Prezident* - *Nazirlər Şurasını* təyin etmək, hərbi və ya fövqəladə vəziyyət elan etmək, qanunları imzalamaq, Konstitusiyaya düzəliş etmək, amnistiya vermək, dövlət qulluqçularını və hərbçiləri təyin etmək səlahiyyətinə malikdir. *Prezident* ölkənin xarici siyasətini müəyyən edir və silahlı qüvvələrin ali baş komandanı sayılır. Konstitusiyaya görə, Suriya Prezidenti yalnız müsəlman olmalıdır.

Suriya Ərəb Respublikasının hazırkı *Prezidenti* 17 iyul 2000-ci ildən etibarən *Bəşər Əl-Əsəddir (27 may 2007-ci il referendumu zamanı seçicilərin 92.7% səsini qazanmış Bəşər əl-Əsəd növbəti müddətə dövlət başçısı seçilmişdir).*

***Qanunvericilik hakimiyyəti:*** Suriyada qanunvericilik hakimiyyəti, 15 müxtəlif dairədən ümumi, birbaşa və gizli səsvermə yolu ilə 4 il müddətinə seçilən, 250 millət vəkilindən ibarət birpalatalı qanunverici orqan - *Xalq Şurası (Parlament)* tərəfindən həyata keçirilir.

*Parlament, BAAS* partiyasının regional rəhbərliyinin təklifi ilə Prezidentin namizədliyini irəli sürməkdə, qanunların

hazırlanması və qəbul edilməsində, Hökumətin daxili və xarici siyasətinin müzakirəsində, dövlət büdcəsinin və cari inkişaf planlarının təsdiqlənməsində, habelə *Hökumətə* və ayrı-ayrı nazirlərə etimadsızlıq göstərməkdə səlahiyyətlidir.

Parlamentin hazırkı sədri 24 may 2012-ci ildən *Məhəmməd Jihad əl-Lahamdır.*

07 may 2012-ci ildə keçirilmiş son parlament seçkilərində *Xalq Şurasında* yer almış əsas siyasi partiyalar aşağıdakılardır:

*Ərəb Sosialist İntibah Partiyası (BƏƏS)* – Parlamentdə 135 yerə sahib olan *BƏƏS* - Ərəb İntibah partiyası kimi 1947-ci il aprel ayının 7-də təsis edilmişdir. Hazırkı adı ilə 1954-cü ildə Ərəb Sosialist partiyası ilə birləşdikdən sonra fəaliyyət göstərir. 1963-cü ildən hakim partiyadır. Baş katib - *Bəşər əl-Əsəddir.*

1966-cı ilin fevral ayının 23-də hakimiyyətə BƏƏS partiyasının sol cinahı gəldi. Ümumərəb sayılan BƏƏS partiyasının bir sıra ərəb ölkələrində bölümləri mövcuddur. Rəhbər orqanlar: ümumərəb və regional (milli) qurultaylar, konfranslar, siyasi büro, ümumərəb və regional rəhbərlik.

*Suriya kommunist partiyası* - Suriyalı və livanlı kommunistlərin vahid təşkilatı kimi 1924-cü ilin oktyabr ayında təsis edilmişdir. 1944-cü ildə SKP-nın iki müstəqil Suriya və Livan partiyalarına bölünməsi barədə qərar qəbul edilmişdir. 1948-ci ildən 1958-ci ilədək suriyalı və livanlı kommunistlər vahid Suriya və Livan Kommunist Partiyası çərçivəsində yenidən birgə fəaliyyət göstərirdilər. Partiyanın qurultaylararası rəhbər orqanları - Mərkəzi Komitə və Mərkəzi Komitənin siyasi bürosu.

*SƏR-in Proqressiv Xalq Cəbhəsi* - Ərəb Sosialist İntibah Partiyasını, Ərəb Sosialist Birliyini, Suriya Kommunist Partiyasını, Ərəb Sosialist Partiyasını və Sosialist-Müttəfiqlər Partiyasını birləşdirir. Rəhbər orqanlar - Cəbhənin mərkəzi

rəhbərliyi 17 üzvdən ibarətdir *(9 BƏƏS-dən, 8 digər partiyalardan).* Sədri *Bəşər əl-Əsəddir.*

***İcraedici hakimiyyət:*** *Prezident və Nazirlər Şurası* tərəfindən icra edilir. Nazirlər Şurasının sədri və digər nazirlər Prezident qarşısında məsuliyyət daşıyırlar. Nazirlər Şurası - İcraedici hakimiyyətin ali orqanıdır.

*Nazirlər Şurası* Prezidentlə birlikdə ölkənin xarici siyasətinin planlaşdırmasında iştirak edir; istiqamətləndirir, koordinasiya edir, nazirliklərin və digər dövlət müəssisələrinin fəaliyyətinə nəzarət edir; dövlət büdcəsinin, inkişaf planlarının və qanunların layihələrini müzakirə edir.

11 avqust 2012-ci ildən etibarən *Nazirlər Şurasının* sədri *Vail Nadir əl-Halkidir (BƏƏS partiyası).*

***Məhkəmə hakimiyyəti:*** Suriyanın məhkəmə-hüquq sistemi *İslam, Osmanlı və fransız* ənənələrinin unikal qarışığını özündə ehtiva edir.

Ölkənin məhkəmə sisteminin ən yüksək orqanı sayılan *Konstitusiya Məhkəməsi* beş hakimdən ibarətdir, onlardan dördü dövlət başçısı tərəfindən təyin olunur, 5-ci hakim isə Suriya Prezidentinin özüdür. Beləliklə hakimiyyətin hər üç qolu ölkə Prezidentinin əlində cəmlənmişdir.

# ŞRİ –LANKA





***Ümumi məlumat:*** *Şri-Lanka (ölkə 1972-ci ilə qədər Seylon adlandırılmışdır)* XVI əsrdə *Portuqaliyanın,* XVIII əsrdə *Hollandiyanın,* XVIII əsrdən XX yüzilliyin ortalarına qədər olan dövr ərzində *İngiltərənin* müstəmləkəsi olmuş, 1948-ci ildə isə Britaniya dominionu statusunda müstəqillik əldə etmişdir.

1978-ci ildən etibarən *Şri-Lanka Demokratik Sosialist Respublikasıdır.*

*Hind Okeanında* yerləşən *Şri-Lankanın* paytaxtı *Şri-Cayavardenapura-Kotte* şəhəridir.

Ölkənin ərazisi 65,610 km², əhalisi *(2012)* 20,277,597 nəfərdir *(əhali sıxlığı 323 nəfər/km²).*

*Şri-Lankanın* rəsmi dövlət dili *sinhala və tamil* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.691* - ortadır *(97-ci yer).*

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1948) fevral ayının 4-də qeyd olunur. *Şri-Lanka* Konstitusiyası 1978-ci ilin sentyabr ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** 3-cü dərəcəli dairə katibliklərini özündə birləşdirən 25 dairədən ibarət 9 əyalətə *(Mərkəzi, Şərqi, Qərbi, Cənubi, Şimali, Şimal-Mərkəzi, Şimal-Qərbi, Sabaraqamuva və Uva)* bölünür.

***Dövlət başçısı:*** Şri-Lanka Respublikasının Konstitusiyasının, milli müstəqilliyinin və ərazi bütövlüyünün təminatçısı, hüquqi dövlətin və Hökumətin başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanı - *Prezident* ümumi və birbaşa seçkilərdə 6 illik müddətə seçilir.

Mövcud Konstitusiya və qanunlar çərçivəsində vəzifəsini həyata keçirən *Prezident* ali qanunverici orqan qarşısında məsuliyyət daşıyır, belə ki, Parlament üzvlərinin 2/3 hissəsinin dəstəyi və Ali Məhkəmənin razılığı ilə dövlət başçısına qarşı impiçment elan edilə bilər.

Prezident öz növbəsində Parlamentin sessiyasını təxirə salmaq və yaxud ləğv etmək, ali qanunverici orqanı zəruri hallarda *(Parlamentin ən azı bir illik fəaliyyətindən sonrakı müddət ərzində)* buraxmaq və erkən seçkilər təyin etmək, habelə əfv fərmanı imzalamaq səlahiyyətinə malikdir.

*Baş nazir* və *Nazirlər Kabinetinin* üzvləri, diplomatik nümayəndəliklərin başçıları, habelə bir sıra yüksək vəzifəli şəxslər dövlət başçısı tərəfindən təyin edilir.

19 noyabr 2005-ci ildən etibarən Şri-Lankanın Prezidenti *Birləşmiş Xalq Azadlıq Alyansının* lideri *Mahinda Racapaksedir*.

***Qanunvericilik hakimiyyəti:*** 225 nəfərdən ibarət birpalatalı *Parlamentdir*. Parlamentin üzvləri özünəməxsus proporsional sistem əsasında *(hər hansı bir dairədə qalib gəlmiş partiya əlavə yer qazanır)* ümumi və birbaşa səsvermə yolu ilə 6 illik müddətə seçilirlər.

Qanunvericilik hakimiyyətinin Konstitusiya ilə nəzərdə tutulmuş əsas elementlərini ehtiva edən bir çox vəzifələrlə *(illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası)* yanaşı, qanunları qəbul etmək və imzalamaq səlahiyyəti yalnız Parlamentə məxsusdur.

Ölkə Parlamentinin hazırkı sədri 22 aprel 2010-cu ildən etibarən *Birləşmiş Xalq Azadlıq Alyansının* təmsilçisi *Camal Racapaksadır.*

08-20 aprel 2010-cu il tarixlərində keçirilmiş sonuncu Parlament seçkilərində qalib gəlmiş əsas siyasi partiyalar aşağıdakılardır:

*Birləşmiş Xalq Azadlıq Alyansı – (144 yer),*

*Şri-Lankanın Birləşmiş Xalq Cəbhəsi - (60 yer),*

*Tamil Milli Alyansı - (14 yer),*

*Demokratik Milli Alyans - (7 yer).*

***İcraedici hakimiyyət:*** Parlament qarşısında kollektiv məsuliyyət daşıyan və ölkədə icra hakimiyyətini həyata keçirən *Hökuməti* Prezident formalaşdırır. Dövlət başçısının müavini - *Baş nazir* bir qayda olaraq hakim partiyanın rəhbəridir və nazirliklərə ümumi nəzarəti, habelə *Nazirlər Kabineti* ilə dövlət başçısı arasında əlaqələndiricilik funksiyasını həyata keçirir.

21 aprel 2010-cu ildən etibarən ölkənin *Baş naziri Disanayaka Jayaratnedir.*

***Məhkəmə hakimiyyəti:*** *İngilis və müsəlman hüquq sistemlərinin* elementlərini özündə birləşdirən Şri-Lankada məhkəmə hakimiyyəti, ölkənin ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* həmçinin *Apelyasiya* və aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

# TACİKİSTAN





***Ümumi məlumat:*** *Mərkəzi Asiyanın* ən qədim sakinlərindən sayılan taciklərin yaşadıqları indiki *Tacikistan* ərazisi, müxtəlif dövrlərdə *əhəmənilərin (e.ə. 648-330), parfiyalıların (e.ə.250-e.224), sasanilərin (224-650), ərəblərin (661-750), türklərin (1005-1221), monqol-tatarların* və digər yadelli xalqların istilasına məruz qalmışdır.

1753-cü ildə *Buxara Əmirliyinin* tərkibinə daxil edilən *Tacikistanda,* XX əsrin 20-ci illərindən etibarən sovet dövrü başlanmış və müttəfiq respublika statusunda 1991-ci ilə qədər davam etmişdir.

1991-ci ildən etibarən *Tacikistan* müstəqil dövlətdir.

*Orta Asiyanın* cənub-şərq hissəsində yerləşən *Tacikistan Respublikasının* paytaxtı *Düşənbə* şəhəridir.

Ölkənin ərazisi 143,100 km², əhalisi *(2011)* 7,616,000 nəfərdir *(əhali sıxlığı 48.6 nəfər/km²).*

*Tacikistan Respublikasının* rəsmi dövlət dili *tacik* dili olsa da, ölkədə rus dilindən də geniş istifadə olunur.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.607* - ortadır *(127-ci yer).*

***Dövlət quruluşu:*** Dualist idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1991) sentyabr ayının 9-da qeyd olunur. Tacikistan Konstitusiyası 1994-ci il noyabr ayının 6-dan *(1999 və 2003-cü illərdə edilmiş dəyişikliklərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** 17 şəhərdən *(Düşənbə, Xucənd, Qulyab, Kurqan-Tubə, Xoroq və s.)* və 62 rayondan ibarət 2 vilayətə *(Suğd və Xatlon)* və *Dağlıq Badahşan* muxtar vilayətinə bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya edilmiş 2006-ci il dəyişikliyinə əsasən *Prezident* ümumxalq səsverməsi yolu ilə 7 il müddətinə seçilir. *Baş nazir* və *Hökumət* üzvləri, habelə dövlətdə təmsil olunan yüksək vəzifəli şəxslərin böyük əksəriyyəti Prezident tərəfindən təyin edilir. Dövlətin idarə edilməsində geniş səlahiyyətlərə malik olan dövlət başçısı, eyni zamanda silahlı qüvvələrin ali baş komandanıdır.

1992-ci ildən etibarən Tacikistan Respublikasının Prezidenti *Tacikistan Xalq Demokratik Partiyasının* lideri *İmomali Rahmondur (2006-cı il noyabr ayının 6-da keçirilmiş son Prezident seçkilərində 79.3% səslə qalib gəlmişdir).*

***Qanunverici hakimiyyət:*** 33 yerlik *Milli Məclisdən (Yuxarı Palata)* və 63 yerlik *Nümayəndələr Palatasından (Aşağı Palata)* ibarət ikipalatalı *Ali Məclisdir.*

Qanunvericilik təşəbbüsü hüququ *Məclisi Namoyandaganın* deputatlarına, *Milli Məclisin* üzvlərinə, Tacikistan Prezidentinə, Tacikistan Hökumətinə, öz yurisdiksiyaları çərçivəsində Konstitusiya, Ali və Ali İqtisad Məhkəmələrinə aiddir.

*Aşağı Palata* qanunları müzakirə və qəbul etdikdən sonra təsdiq edilməsi üçün *Milli Məclisə* və daha sonra *Prezidentə* göndərir. *Yuxarı Palata* qanunvericilik aktlarını səs çoxluğu ilə qəbul edir, əks təqdirdə, yəni qanun geri qayıtdıqda *Aşağı Palata* üzvlərinin 2/3 səs çoxluğu ilə bu sənədi yenidən qəbul edir.

Parlamentin 63 yerlik *(41 yer - birmandatlı dairə üzrə, 22 yer - partiya siyahısı ilə) Aşağı Palatasına (Məclisi Namoyandaqan)* 28 fevral 2010-cu ildə keçirilmiş son seçkilər nəticəsində mandat əldə etmiş əsas siyasi partiyalar:

*Tacikistan Xalq Demokratik Partiyası - 70,6%*

*Tacikistan İslam Dirçəliş Partiyası - 8,2%*
*Tacikistan Kommunist Partiyası - 7%*
*Tacikistan İslahatlar Partiyası - 5.3%*
*Tacikistan Aqrar Partiyası - 5.1%*

***İcraedici hakimiyyət:*** Prezident tərəfindən təyin və *Parlament (Ali Məclis)* tərəfindən təsdiq edilən *Nazirlər Kabinetidir.*

Bir qayda olaraq, mərasim funksiyalarını yerinə yetirən *Baş nazirdən,* onun iki müavinindən, 19 nazirdən, 9 komitə sədrindən və daha bir neçə Hökumət üzvlərindən ibarət olan *Nazirlər Kabinetinin səlahiyyətləri,* mövcud Konstitusiyaya uyğun olaraq dövlət başçısının qərarlarının icra edilməsi və nazirliklərin fəaliyyətlinin əlaqələndirilməsi ilə məhdudlaşır.

Ölkənin hazırkı Baş naziri 20 dekabr 1999-cu ildən etibarən *Tacikistan Xalq Demokratik Partiyasının* təmsilçisi *Akil Akilovdur.*

***Məhkəmə hakimiyyəti:*** Üzvləri Prezident tərəfindən təyin və *Ali Şura* tərəfindən təsdiq olunan *Ali Məhkəmə,* habelə digər ixtisaslaşmış və aşağı instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# TUNİS





***Ümumi məlumat:*** Əsrlər boyu *finikiyalıların, romalıların, vandalların və bizanslıların* hakimiyyəti altında olmuş *Tunisin* ərazisi, VII əsrdə ərəblər tərəfindən fəth edilmişdir. XVI əsrdə *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuş ölkə, 1881-ci ildən *Fransanın* protektoratına çevrilmişdir.

1956-cı ildən etibarən *Tunis* müstəqil dövlətdir.

*Şimali Afrikada* yerləşən *Tunis Respublikasının* paytaxtı *Tunis* şəhəridir.

Ölkənin ərazisi 163,610 km², əhalisi *(2012)* 10,732,900 nəfərdir *(əhali sıxlığı 63 nəfər/km²)*.

*Tunis Respublikasının* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.698* - yüksəkdir *(94-cü yer)*.

***Dövlət quruluşu:*** Dualist idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1956) 20 mart tarixində qeyd olunur. Tunis Konstitusiyası 01 iyun 1959-cü ildən (2002 və 2011-ci illərdə edilmiş düzəlişlərlə) qüvvədədir.

***İnzibati bölgüsü:*** 264 dairəni *(nümayəndəlik)* birləşdirən 24 vilayətə *(Aryana, Beca, Ben-Arus, Bizerta, Qabes, Qafsa, Cenduba, Zaqvan, Kayruan, Kaserin, Kebili, Məhdiyə, Manuba, Medenin, Monastir, Nabul, Sfaks, Sidi-Bu-Zid, Silyana, Sus, Tatavin, Tauzar, Tunis, Əl-Kef)* bölünür.

***Dövlət başçısı:*** Milli birliyin rəmzi, vətəndaşların hüquq və azadlıqlarının, milli müstəqilliyin və ərazi bütövlüyünün

təminatçısı, Tunisi ölkə daxilində və xaricdə təmsil edən, dövlətin ümumi siyasətini istiqamətləndirən və onun prioritetlərini müəyyən edən *Prezident* ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilir.

Mövcud Konstitusiyaya əsasən, icra hakimiyyətinin başçısı sayılan və formal olaraq *Hökumətə* rəhbərlik edən *(bu istiqamətdə Baş nazir dövlət başçısına bilavasitə yaxından köməklik edir)*, qanunlar üzərində veto, əfv fərmanı vermək və qanunvericilik təşəbbüsü hüququna malik olan, xarici dövlətlərin səfirlərinin akkreditasiyasını həyata keçirən, habelə diplomatik nümayəndələrin təyinatında və geri çağırılmasında səlahiyyətli olan *Prezident*, eyni zamanda Tunis Respublikasının silahlı qüvvələrinin ali baş komandanıdır.

13 dekabr 2011-ci ildən etibarən *Tunis Respublikasının* hazırkı, sayca 3-cü Prezidenti *Monsef Marzukidir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı *Parlamentdir*. Tunis İnqilabına qədər *(2010-2011-ci illər)* deputatlar birmandatlı dairələrdən proporsional-siyahı sistemi üzrə 5 il müddətinə seçilirdilər *(Nümayəndələr Palatası, 182 yer)*. Müxalifət partiyaları üçün nəzərdə tutulmuş 42 yer də onların arasında proporsional sistem üzrə bölünürdü. Müxalifətin iştirak etdiyi ilk Parlament seçkiləri 1989-cu ildə keçirilmişdir.

Hazırda *Parlament* funksiyalarını 217 yerlik *Müvəqqəti Təsis Yığıncağı* yerinə yetirir. Bu orqanın əsas vəzifəsi və fəaliyyəti *Yeni Konstitusiyanın* hazırlanmasına yönəlmişdir.

23 oktyabr 2011-ci ildə *Müvəqqəti Təsis Yığıncağına* keçirilmiş seçkilərdə yer almış əsas siyasi partiyalar:

*İslam İntibah Partiyası (Əl- Naxda) – 89 yer,*
*Respublika Naminə Konqres – 29 yer,*
*Azadlıq, Ədalət və İnkişaf Naminə Xalq Ərizəsi – 26 yer,*
*Əmək və Azadlıq Demokratik Forumu – 20 yer,*
*Respublika Partiyası – 20 yer,*
*Proqressiv Demokratik Partiya – 16 yer,*

*Müstəqil Demokratik Konqres – 12 yer və s.*

***İcraedici hakimiyyət:*** *Tunis Prezidentinin* təyin etdiyi *Nazirlər Kabineti (Hökumət)* və ona rəhbərlik edən *Baş nazir* ölkədə icra hakimiyyətini həyata keçirir. Regionların və yerli administrasiyaların başçıları *Hökumət* tərəfindən təyin olunur, mer və bələdiyyə şuraları isə seçilirlər.

*Baş nazirdən,* onun dörd müavinindən, 25 nazirdən və 6 dövlət katibindən ibarət olan geniş tərkibli *Nazirlər Kabineti* ölkənin daxili və xarici siyasətinin yürüdülməsində əhəmiyyətli rola malikdir.

*İslam İntibah Partiyasının* Baş katibi *Əli əl-Lareyd* 2013-cü ilin mart ayından etibarən *Tunis Respublikasının* hazırkı, sayca 12-ci *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Tunis Respublikasında məhkəmə hakimiyyəti ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *apelyasiya* və *birinci instansiya məhkəmələri* tərəfindən həyata keçirilir. Fransız mülki hüququnu və müsəlman hüququnun əsas elementlərini özündə ehtiva edən məhkəmə sistemi müstəqil olsa da, *Məhkəmə Şurasına* dövlət başçısı sədrlik edir.

# UKRAYNA







***Ümumi məlumat:*** Paytaxt şəhəri olan *Kiyev* IX yüzilliyə qədər *Xəzər xaqanlığının* bir parçası olmuşdur. IX-XIII əsrlərdə *Ukraynanın* indiki ərazisinin mərkəzi və qərb rayonları qədim rus dövlətinin özəyini təşkil etmişlər.

XIV əsrdə bu torpaqlar *Polşa və Litva Böyük Knyazlığının* işğalına məruz qalmışdır. XVI əsrin ortalarında *Zaparojiya* bölgəsində yaşayan bəzi qruplar birlik yaratmış, daha sonra özlərinə *Kazak* adını verən bu döyüşçü insanlar 1648-ci ildə, *Boqdan Xmelnitskinin* rəhbərliyi ilə *Polşaya* qarşı böyük üsyana qalxaraq *Ukrayna* dövləti olan *Kazak Atamanlığını* qurmağa müvəffəq olmuşlar.

I Dünya Müharibəsi başa çatdıqdan sonra 1919-cu ildə *Ukrayna Sovet Sosialist Respubilikası* qurulmuş və bu tarixdən ölkədə sovet dövrü başlanmışdır.

*Ukrayna* 1991-ci ildən etibarən müstəqil dövlətdir.

*Şərqi Avropada* yerləşən *Ukrayna Respublikasının* paytaxtı *Kiyev* şəhəridir.

Ölkənin ərazisi 603,628 km², əhalisi *(2012)* 44,854,065 nəfərdir *(əhali sıxlığı 77 nəfər/km²)*.

*Ukraynanın* rəsmi dövlət dili *ukrayna* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.729* - yüksəkdir *(76-cı yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik Günü (1991) 24 avqust tarixində qeyd olunur. Ölkə Konstitusiyası 28 iyun 1996-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 24 vilayətə *(Kiyev, Xarkov, Dnepropetrovsk, Donetsk, Odessa, Zaporojye, Lvov, Mikolayev, Luqansk, Vinnitsa, Xerson, Poltava, Çerniqov, Çerkass, Sumı, Jitomir, Kirovoqrad, Xmelnitski, Rivne, Çernovtsı, İvano-Frankovsk, Volın, Ternopıl və Zakarpatya)*, respublika əhəmiyyətli 2 şəhərə *(Kiyev və Sevastopol)* və *Krım Muxtar Respublikasına* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya əsasən *Prezident* dövlət başçısıdır və dövlətin adından fəaliyyət göstərir. Silahlı qüvvələrin ali baş komandanı olan Prezident Ukraynanın dövlət suverenliyinin və ərazi bütövlüyünün, Konstitusiyaya sadiqliyin, insan və vətəndaş hüquq və azadlıqlarının təminatçısıdır.

*Ali Radanın* razılığı ilə *Baş nazirin və Baş prokurorun, Baş nazirin* təqdimatına əsasən isə *Hökumət* üzvlərinin təyin edilməsi, diplomatik nümayəndələrin təyinatı və geri çağırılması, qüvvədə olan Konstitusiyaya dəyişikliklə bağlı referendumun təyin edilməsi, əfv etmə, veto hüququndan istifadə, qanunların dərc edilməsi, xarici dövlətlərin de-yure tanınması, *Ali Radanın* buraxılması və növbədənkənar *Parlament* seçkilərinin təyin edilməsi, habelə Konstitusiyada təsbit edilmiş digər mühüm məsələlər dövlət başçısının səlahiyyətlərinə daxildir.

*Prezident* Ukrayna vətəndaşları tərəfindən gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ əsasında, ardıcıl olaraq iki dəfədən artıq olmamaq şərti ilə, beş il müddətinə seçilir.

25 fevral 2010-cu ildən etibarən *Viktor Yanukoviç Ukrayna Respublikasının Prezidentidir*.

***Qanunverici hakimiyyət:*** Qanunvericilik hakimiyyəti birpalatalı Parlament – *Ali Rada* tərəfindən həyata keçirilir. Ölkənin siyasi həyatında Prezidentlə yanaşı, mərkəzi yer tutan *Ali Rada* proporsional seçki sistemi üzrə 450 deputat tərkibi ilə

5 il müddətinə seçilir. Seçkilərdə 3%-lik barajı aşan siyasi partiya *Ali Radada* təmsil olunmaq hüququ əldə edir.

Respublikanın daxili və xarici siyasi kursunun səlahiyyət hüdudlarının müəyyən edilməsi, iqtisadi, elmi-texniki, sosial və milli-mədəni inkişafın, habelə ətraf mühitin qorunması üzrə ümumdövlət proqramlarının təsdiqi, qanunların və digər qanunvericilik aktlarının hazırlanması və qəbulu, illik dövlət büdcəsinin və Nazirlər Kabinetinin fəaliyyət proqramının müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası, məhkəmə hakimlərinin qeyri-məhdud müddətə təyin edilməsi, Hökumətin fəaliyyətinə nəzarət və Konstitusiya ilə nəzərdə tutulmuş digər məsələlər *Ukrayna Parlamentinin* səlahiyyətlərinə aiddir.

13 dekabr 2012-ci ildən etibarən *Parlamentin* hazırkı sədri *Regionlar Partiyasının* nümayəndəsi olan *Volodimir Rıbakdır.*

28 oktyabr 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Ali Radanın* tərkibində yer almış siyasi partiyalar:

*Regionlar Partiyası (210 deputat, lideri - M.Azarov),*
*"Batkivşina" Ümumukrayna İttifaqı (99 yer),*
*İslahatlar Naminə Ukrayna Demokratik Alyansı (42 yer),*
*"Azadlıq" Ümumukrayna İttifaqı (37 yer),*
*Ukrayna Kommunist Partiyası (32 yer),*
*Mərkəz Birliyi (3 yer),*
*Ukrayna Xalq Partiyası (2 yer),*
*Ukrayna İttifaqı (2 yer),*
*Radikal Partiya (1 yer),*
*Müstəqillər (7 deputat).*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* başçılıq etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. *Baş nazirin* namizədliyi *Parlamentdə* çoxluq təşkil edən siyasi partiya və ya qrup tərəfindən dövlət başçısına təqdim olunur və daha sonra *Prezidentin* təklifi ilə *Parlament* tərəfindən səsvermə yolu ilə seçilir.

*Baş nazir Nazirlər Kabinetinin* fəaliyyətini istiqamətləndirir və *Hökumət* fərmanlarını imzalayır, habelə nazirlərin və regional administrasiyaların rəhbərlərinin siyahısı, *Baş nazirin təklifi* ilə Parlamentdə müzakirə edilir və təsdiq edilməsi üçün Prezidentə təqdim olunur.

İcra hakimiyyətini həyata keçirməkdə səlahiyyətli olan *Hökumət,* öz fəaliyyətinə görə dövlət başçısı və *Ali Rada* qarşısında kollektiv məsuliyyət daşıyır.

11 mart 2010-cu ildən etibarən *Regionlar Partiyasının* lideri *Mikola Azarov* Ukrayna Respublikasının *Baş naziridir.*

***Məhkəmə hakimiyyəti:*** Ukraynanın ümumi yurisdiksiyalı məhkəmə sistemində ən yüksək məhkəmə orqanı sayılan *Ali Məhkəmə* və *Konstitusiya Məhkəməsi* tərəfindən həyata keçirilir.

*Konstitusiya Məhkəməsi - Ali Radanın, Prezidentin, Nazirlər Kabinetinin* və ya *Krım Parlamentinin* qanunvericilik aktlarının Ukrayna Konstitusiyasına uyğun olub-olmadığını qiymətləndirmək üçün fəaliyyət göstərən məhkəmə hakimiyyətinin xüsusi orqandır. Eyni zamanda *Konstitusiya Məhkəməsi* ölkə Konstitusiyasının və ya Ukrayna qanunlarının müəyyən normalarına şərhlər verir.

## ZİMBABVE

  

***Ümumi məlumat:*** Hələ XIV yüzillikdə, *Zimbabvenin* indiki ərazisində XVII əsrə qədər mövcud olmuş erkən feodal dövləti təşəkkül tapmışdır. XIX əsrin sonunda ölkə *Böyük Britaniya* tərəfindən işğal edilərək *Cənubi Rodeziya* adı altında onun koloniyasına çevrilmişdir *(1923-cü ildən muxtar koloniya)*.

1965-ci ildə ağ azlıqların birtərəfli qaydada müstəqilliyini elan etmələri ilə, ölkədə irqçiliyə qarşı silahlı mübarizə başlamış, nəticədə 1980-ci ildə müstəqil *Zimbabve Respublikası* elan edilmişdir.

*Afrikanın* cənub hissəsində yerləşən *Zimbabve Respublikasının* paytaxtı *Harare* şəhəridir.

Ölkənin ərazisi 390,757 km², əhalisi *(2012)* 12,619,600 nəfərdir *(əhali sıxlığı* 26 *nəfər/km²)*.

*Zimbabvenin* rəsmi dillərinin sayı 3-dür *(ingilis, şona və şimali ndebele)*.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.376* - aşağıdır *(173-cü yer)*.

***Dövlət quruluşu*:** Dualist formada idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan müstəqillik günü (1965) noyabr ayının 11-də qeyd olunur. Ölkə Konstitusiyası 1979-cu ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 1200 bələdiyyəni özündə birləşdirən 59 dairədən ibarət 8 vilayətə *(Manikalend, Şərqi Maşonalend, Mərkəzi Maşonalend, Qərbi Maşonalend, Masvinqo, Şimali*

*Matabelelend, Cənubi Matabelelend və Midlends)* və vilayət statuslu 2 şəhərə *(Harare və Bulavayo)* bölünür.

***Dövlət başçısı:*** Zimbabve Konstitusiyasının, hüquqi dövlətin, vətəndaşların hüquq və azadlıqlarının, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, eyni zamanda dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı olan *Prezident* ümumxalq səsverməsi yolu ilə 6 il müddətinə seçilir.

Ölkədə *Prezidentin* və *Baş nazirin* səlahiyyətlərinin dəqiq bölgüsü mövcuddur. Belə ki, 2009-cu ildə keçirilmiş mürəkkəb siyasi danışıqlar prosesi nəticəsində, *Baş nazir* vəzifəsi bərpa olunmuş və çox geniş səlahiyyətlərə malik dövlət başçısının ali vəzifə funksiyalarının bir hissəsi *Hökumət* başçısına verilmişdir.

29 mart - 27 iyun 2008-ci il tarixlərində keçirilmiş son Prezident seçkilərində 85.5% səs toplayaraq növbəti dəfə qalib gələn *Robert Muqabe* 31 dekabr 1987-ci ildən dövlət başçısıdır.

***Qanunverici hakimiyyət:*** 93 yerlik *Senatdan (Yuxarı Palatanın* prezidenti 30 noyabr 2005-ci ildən etibarən *Edna Madzonqvedir)* və 210 yerlik *Məclis Palatasından (Aşağı Palatanın* sədri 25 avqust 2008-ci ildən etibarən *Lovemore Moyodur)* ibarət ikipalatalı *Parlamentdir.*

*Yuxarı Palatanın* 93 üzvünün 60-ı əhali tərəfindən seçilir, 10 əyalət qubernatoru vəzifəsinə görə təyin olunur, yerli başçıların 16-sı *Başçılar Şurası* tərəfindən seçilir, 5 senator *Prezident* tərəfindən təyin olunur və nəhayət *Başçılar Şurasının* sədri və müavini *Senatda* yer alırlar. *Məclis Palatasına* üzvlər əhali tərəfindən ümumi seçkilərdə 5 illik müddətə seçilirlər.

*Aşağı Palata,* üzvlərinin 2/3 səs çoxluğu ilə, onun qarşısında məsuliyyət daşıyan Hökumətə etimadsızlıq göstərməkdə və onu istefaya göndərməkdə səlahiyyətlidir. Əks təqdirdə dövlət başçısı, Baş nazirin xahişi əsasında Parlamenti buraxa bilər.

Ənənəvi olaraq qanunvericilik hakimiyyətini həyata keçirən *Parlamentin* hər iki palatasına 15-28 mart 2008-ci il tarixlərində keçirilmiş son seçkilər nəticəsində mandat əldə etmiş əsas siyasi partiyalar:

*Demokratik İslahatlar Naminə Hərəkat - Svanqirai (100 deputat, 24 senator, lideri Morqan Svanqiraidir),*

*Zimbabve Afrika Milli Vətən Cəbhəsi İttifaqı- ZANU-PF (99 deputat, 57 senator, lideri Robert Muqabedir),*

*Demokratik İslahatlar Naminə Hərəkat - Mutambara (10 deputat, 12 senator, lideri Artur Mutambaradır),*

*Müstəqillər – (1 deputat).*

***İcraedici hakimiyyət:*** *Baş nazir* və onun başçılıq etdiyi *Nazirlər Kabineti (koalision hökumət)* icra hakimiyyətini və nazirliklərin fəaliyyətinə nəzarət funksiyasını bilavasitə həyata keçirir. *Baş nazir* Kabinetin iclaslarına sədrlik etsə də, Hökumətə rəhbərliyi de-yure və de-fakto dövlət başçısı həyata keçirir. Eyni zamanda Zimbabve Respublikasının *Baş naziri*, Prezidentin rəhbərlik etdiyi *Milli Təhlükəsizlik Şurasının* üzvüdür.

11 fevral 2009-cu il tarixindən etibarən ölkənin hazırkı, sayca 2-ci *Baş naziri Demokratik İslahatlar Naminə Hərəkat - Svanqirai Partiyasının* lideri *Morqan Svanqiraidir.*

***Məhkəmə hakimiyyəti:*** Zimbabve Respublikasının məhkəmə-hüquq sistemi holland-roma hüquq sisteminin əsas elementlərini özündə ehtiva edir.

Ölkədə məhkəmə hakimiyyəti, *Ali Məhkəmənin* sədri də daxil olmaqla, *Məhkəmə Xidməti Komissiyasının* təqdimatı ilə *Prezidentin* təyin etdiyi 5 hakimdən ibarət *Ali Məhkəmə* tərəfindən həyata keçirilir.

# IV FƏSİL
# MONARXİYA, KOMMUNİST, DİNİ VƏ DİGƏR QURULUŞLU İDARƏÇİLİK SİSTEMİNƏ AİD OLAN DÖVLƏTLƏR

## §1. Monarxiya tipli dövlətlər

Müasir dünya dövlətləri üçün əsas idarəçilik formalarından biri də monarxiya sistemidir.

Monarxiya idarəetmə formasında monarx dövlət başçısı sayılır; monarxın hakimiyyəti bir qayda olaraq ömürlük olur və vərəsəlik qaydasında ötürülür. Monarxiyada bütün mühüm dövlət aktları ilə bağlı son qərar monarxın ixtiyarına verilir.

Seçkili monarxiya – monarxiya və respublikanın elementlərini özündə birləşdirən xüsusi növdür. Bu cür monarxiya, dövlət başçısı olan monarxın federasiyaya daxil olan monarxiya ştatlarının nümayəndələrinin xüsusi müşavirəsi tərəfindən 5 illik müddətə seçilən Malayziyada mövcuddur.

Bu gün monarxiyaya keçmişin qalığı, bir sıra Avropa dövlətlərində, Yaponiyada isə, sadəcə olaraq ənənələrin lazımi dərəcədə qiymətləndirilməsi kimi baxılır.

Monarxiya idarəetmə forması, müasir dünyada hökmranlıq edən xalq hakimiyyəti və insanların hüquq bərabərliyi ideyası ilə bir o qədər də uzlaşmır. Monarxiyada əsas fiqur sayılan monarx, hakimiyyəti nümayəndələr qaydası ilə deyil, öz iradəsinə uyğun surətdə həyata keçirir. Bütün monarxiya quruluşlu ölkələrdə monarx qanunla toxunulmaz və üzərinə heç bir məsuliyyət qoyulmayan zat sayılır. Ayrı-ayrı ölkələrdə monarxlar müxtəlif: *Böyük Britaniyada, İspaniyada, Danimarkada, İsveçdə, Belçikada – kral; Malayziyada, Bruneydə, Omanda – sultan; Küveytdə, Birləşmiş Ərəb Əmirliyində -*

*əmir; Lüksemburqda – böyük hersoq; Lixtenşteyndə - knyaz və s.* adlarını daşıyır.

Monarxiya idarəetmə sisteminin əsas elementi vərəsəlikdir. Monarxiya idarəetmə formasının digər mühüm institutu - hökumət naibliyidir *(regentlik).* Monarxın yoxluğu, xəstəliyi, azyaşlı olması və ya taxt-tacın tutulmaması hallarında bu qurum müvəqqəti kollegial və ya təkbaşına dövlət başçısı səlahiyyətlərini həyata keçirən monarxiya formasının müasir şəraitdə "mövcudluğuna" səbəb, onun olduqca müxtəlif tərkibli, çevik və dəyişkən olmasıdır. Yarandığı andan bu günə qədər keçən dövr ərzində monarxiya idarəetmə formasının inkişaf sxeminə qısaca diqqət yetirək. İlk Asiya dövlətlərində monarxiya - qeyri-məhdud istibdad hakimiyyəti *(bəzən teokratiya)* kimi çıxış edirdi. Feodalizmin inkişafı ilə monarxiya – bəzən feodal imperiyalarının formasını qəbul etməklə, əvvəlcə erkən feodal monarxiya; ardınca – zəif mərkəzi hakimiyyəti xarakterizə edən parçalanmış feodal monarxiya; daha sonra isə - mütləq monarxiyaya çevrilmiş silki-nümayəndəli monarxiya kimi təzahür etmişdir. Burjua-demokratik inqilabları nəticəsində mütləq monarxiya ləğv edilərək konstitusiyalı (məhdud) monarxiya ilə əvəz olunmuşdur. Konstitusiyalı monarxiya, dualist (qarışıq) monarxiyadan Parlament monarxiyasınadək iki inkişaf fazası keçmişdir.

Parlament monarxiyası bu institutun son inkişaf mərhələsidir. Bu gün müasir dünyada mütləq və konstitusiyalı monarxiya mövcuddur.

Konstitusiyalı monarxiya - dualist və parlament, mütləq monarxiya isə - dünyəvi və dini *(Vatikan)* formalarda olur. *Mütləq Monarxiya* - dövlət hakimiyyətinin (qanunverici, icraedici, məhkəmə), habelə dini hakimiyyətin hüquqi və faktiki cəhətdən bütünlüklə monarxın əlində cəmlənməsi ilə səciyyələnən monarxiya idarəetmə formasının növ müxtəlifliyini ifadə edir.

Hal-hazırda *Bəhreyn, Bruney, Vatikan, Qatar, Küveyt, BƏƏ, Oman, Səudiyyə Ərəbistanı* kimi 8 mütləq monarxiya quruluşu saxlanılan ölkələrin bəzilərində konstitusiyalı monarxiyaya keçid üçün ilk addımlar atılsa da, hələlik bu islahatlar monarxiyanın mütləq xarakterini dəyişdirməmişdir.

*Vatikan* şəhər-dövləti teokratik monarxiyadır. *Vatikanda* qanunverici, icraedici və məhkəmə hakimiyyəti kardinallar kollegiyası tərəfindən ömürlük seçilən Papaya məxsusdur.

*Konstitusiyalı (məhdud) monarxiya* – monarxın hakimiyyətinin konstitusiya ilə məhdudlaşdırıldığı və seçkili qanunverici orqanın - parlamentin və müstəqil məhkəmələrin olduğu monarxiya idarəetmə formasının xüsusi növüdür. İlk dəfə burjua inqilabı nəticəsində XVII əsrdə Böyük Britaniyada meydana gəlmiş monarxiyanın bu növünün xarakterik institutları kontrassiqnasiya və sivil vərəqə sayılır. Kontrassiqnasiya - hökumət başçısı tərəfindən verilən akt üzərində əlaqədar nazirin imzası anlamını verir. Formal olaraq bu, dövlət başçısının öz fəaliyyəti üçün məsuliyyət daşımaması ilə izah edilir. Sivil vərəqə adını almış - monarxın xərcləri üçün hər il ayrılan pul məbləği – hər bir monarxın hakimiyyətinin əvvəlində qanunla müəyyən edilir və gələcəkdə artırılması nəzərdə tutulur.

*Dualist monarxiya* - mütləq monarxiyadan parlamentli monarxiyaya keçid formasıdır. Dualist monarxiyada monarxın hakimiyyəti konstitusiya ilə məhdudlaşır, lakin monarx istər formal *(konstitusiya normalarına görə),* istərsə də faktiki *(demokratik təsisatların inkişaf etməməsi səbəbindən)* olaraq geniş hakimiyyət səlahiyyətlərini qoruyub saxlayır. Buna görə də o, həmin dövlətin siyasi sisteminin mərkəzində olur. Monarx və parlament qarşısında ikiqat məsuliyyət daşıyan hökumət, reallıqda monarxın iradəsinə tabe olur. Hazırda monarxiyanın bu cür forması Mərakeşdə, İordaniyada, Tailandda, Nepalda və Malayziyada mövcuddur.

Konstitusiyalı monarxiyanın daha mütərəqqi növü sayılan *parlamentli monarxiyada* - monarx sırf nominal şəkildə öz funksiyalarını yerinə yetirir. Belə ki, hətta konstitusiyanın ona böyük səlahiyyətlər verdiyi *(Niderland, Danimarka)* təqdirdə belə, konstitusiya-hüquq qaydalarına görə monarx onlardan müstəqil surətdə faydalana bilməz. Monarxdan çıxan bütün aktlarla bağlı müvafiq nazirlərin rəsmi razılığının alınması vacib şərtdir.

Bir sıra parlamentli monarxiyalarda *(Yaponiya, İsveç)* konstitusiyaya görə monarx hətta formal surətdə belə, mühüm səlahiyyətlərə malik deyil. Hökumət isə, hakimiyyətin digər orqanları üzərində formal üstünlüyə sahib olan parlament qarşısında məsuliyyət daşıyır.

Respublika sistemi ümumən idarəetmənin daha mütərəqqi forması sayılsa da, müasir dünyada onun monarxiya ilə çəkişməsi sona çatmamışdır. Son illərdə "respublikalılaşmaq" prosesi nəzərə çarpacaq dərəcədə səngimişdir. Belə ki, monarxiyalı dövlətlər öz ənənələri və dövlət hakimiyyət institutları ilə vidalaşmağa tələsmirlər. Əksinə, respublikanın bərqərar olduğu bəzi ölkələrdə monarxiya sistemi həsrəti güclənməkdədir.

# BELÇİKA





***Ümumi məlumat:*** Belçikanın indiki ərazisi V əsrə qədər *Roma İmperiyasının,* V yüzillikdən sonra *Frankların*, 1713-cü ildə isə *"Avstriya Hollandiyası"* adı altında *Avstriya İmperiyasının* tərkibinə daxil olmuşdur.

1813-cü ildə *Fransa* tərəfindən işğal edilmiş *Belçika*, 1815-ci ildə *Napoleon* məğlub olunca *Hollandiyanın* idarəçiliyinə verilmişdir. 1830-cu ildə belçikalıların birləşərək *Fransa və İngiltərənin* zəmanəti altında qurduqları müstəqil *Belçika* dövləti, 1831-ci ildə *Krallığa* çevrilmişdir.

*Avropanın* şimal-qərb hissəsində yerləşən *Belçika Krallığının* paytaxtı *Brüssel* şəhəridir.

Ölkənin ərazisi 30,528 km², əhalisi *(2011)* 11,041,266 nəfərdir *(əhali sıxlığı 354,7 nəfər/km²)*.

*Belçikanın* rəsmi dövlət dili *niderland, fransız və alman* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.886* - çox yüksəkdir *(18-ci yer)*.

***Dövlət quruluşu:*** Demokratik təmsilçilik prinsipi əsasında fəaliyyət göstərən parlament formasında idarəetmə üsuluna malik olan konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1831) 21 iyul tarixində qeyd olunur. *Belçika Krallığının* qüvvədə olan Konstitusiyası 07 fevral 1831-ci il tarixində qəbul edilmişdir. 14 iyul 1993-cü ildə Parlament, federal dövlət yaradılması barədə *Konstitusiyaya* son düzəlişi təsdiq etmişdir.

***İnzibati bölgüsü:*** Niderland dilinin rəsmi dil olduğu *Flandriya*, fransız dilinin rəsmi dil kimi qəbul edildiyi *Valloniya* və *Brüssel* paytaxt bölgələrindən və mahal statusunda bələdiyyələri birləşdirən 10 əyalətdən *(Antverpen, Limburq, Şərqi Flandriya, Qərbi Flandriya, Flamand Brabant, Eno, Lyej, Lüksemburq, Namyur və Vallon Brabant)* ibarətdir.

***Dövlət başçısı:*** Məhdud səlahiyyətlərə malik olan, lakin ölkədə siyasi birliyin mühüm rəmzi sayılan *Kral* dövlətin başçısı olaraq, icraedici hakimiyyəti və bütövlükdə ölkənin idarə edilməsini *Hökumətlə* birlikdə həyata keçirir. Bu baxımdan, Belçika *Hökumətinə* rəhbərlik edən *Baş naziri*, habelə 7 fransız və 7 niderland dilli nazirləri *Kral* təyin edir.

Qüvvədə olan Konstitusiyaya görə, *Kralın* həddi-büluğa çatmış övladları da avtomatik olaraq Parlamentin *Yuxarı Palatasının (Senatın)* üzvü olmaq hüququna malikdirlər.

*Belçika Kralı* 09 avqust 1993-cü il tarixindən etibarən *II Albertdir,* vəliəhd isə *Şahzadə Filipdir (2009-cu ildə Belçika Hökuməti iqtisadi böhranla əlaqədar olaraq, Kral ailəsinin saxlanılmasına ayrılan illik xərclərin azaldılması haqqında qərar qəbul etdi. Bu qərar mövcud Konstitusiya ilə ziddiyyət təşkil etsə də, məcburiyyətdən doğan addım kimi qəbul edildi).*

***Qanunverici hakimiyyət:*** 71 yerlik *Senatdan (Yuxarı Palata)* və 150 yerlik *Nümayəndələr Palatasından (Aşağı Palata)* ibarət iki palatalı Parlament ölkədə ənənəvi qanunvericilik hakimiyyətini *(qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyası, habelə Konstitusiya ilə müəyyən edilmiş digər funksiyalar) Kralla* birlikdə həyata keçirməkdə səlahiyyətlidir.

*Yuxarı Palatanın,* 25 nəfəri *Flandriya*, 15-i isə *Valloniya* regionlarından olmaqla, 40 üzvü birbaşa ümumxalq səsverməsi yolu ilə seçilir. 10 senatoru Flandriya regionundan, 10-u Valoniya regionundan və 1 senatoru almandilli bölgədən olan -

21 senator icma şuraları tərəfindən müəyyən olunmaqla, habelə flamandilli və fransızdilli icmalardan əlavə olaraq 10 senator *(6 flamand və 4 fransız)* təyin olunmaqla, bütövlükdə 31 üzvü isə çoxmərhələli seçkilər yolu ilə dörd il müddətinə seçilir.

*Nümayəndələr Palatasına* deputatlar proporsional qaydada ümumxalq səsverməsi *(səsvermədə iştirak məcburidir və ondan yayınanlar cərimə olunurlar)* yolu ilə eyni müddətə seçilirlər. Parlamentin *Aşağı Palatasında* mandat qazanmaq üçün hər namizəd minimum 68 min səs toplamalıdır.

Federal dövlətin yaradılması haqqında 1993-cü ildə Konstitusiyaya edilmiş düzəlişlər nəticəsində səlahiyyətlərin tam bölünməsi ilə hökumətin üç səviyyəsi müəyyənləşmişdir *(federal, regional və linqvistik icma)*. Bu reallıq altı Hökumətin hər birinə öz qanunverici Məclisini yaratmağa icazə verir.

13 iyun 2010-cu ildə keçirilmiş son və növbədənkənar Parlament seçkilərində qalib gəlmiş əsas siyasi partiyalar:

*Yeni Flamand Alyansı (NVA)* - sədri *Bart de Vever (Nümayəndələr Palatasında 27 yer, Senatda 9 yer),*

*Fransızdilli Sosialist Partiyası (SP)* - sədri *Elio Di Rupo (26 - 7),*

*Fransızdilli İslahatçı Hərəkat (İH)* - sədri *Didiye Reynders (18 - 4),*

*Xristian Demokratlar və Flamandlar (CD və V)* - sədri *Jo Vanderzen (17 - 4),*

*Flandriya Sosialist Partiyası (SP)* - sədri *Elio Di Rupo (13 - 4),*

*Flamand Liberal Demokratları (FLD)* - sədri *Bart Sommers (13 - 4),*

*Flamand Marağı* - sədri *Bryuno Valkenirs (12 - 3),*

*Fransızdilli Humanist və Demokratik Mərkəz (HDM)* - sədri *Joell Milque (9 - 2),*

*Ecolo (Fransızdilli Yaşıllar)* - sədrləri *Jan-Mişel Javo, Evelin Haytebroek, Klod Bruir (8 - 2),*

*AGALEV (Flamand Yaşılları)* - sədri *Vauter van Besin (5 - 1).*

Belçikanın ictimai-siyasi strukturu və seçki sistemi özünəməxsusluğu ilə fərqlənir. Ölkədə Avropa üçün ənənəvi olan *Xristian Demokrat, Liberal Demokrat və Yaşıllar partiyaları* ilə bərabər qeyri ənənəvi siyasi partiyalar da fəaliyyət göstərir. Lakin onlar 5 faizlik həddi aşa bilmədikləri üçün Parlamentdə təmsil oluna bilmirlər. Ənənəvi siyasi partiyalar isə, mütləq səs çoxluğu qazana bilmədikləri üçün *Hökumət* partiyaların koalisiyasından yaradılır.

Belə bir vəziyyətin yaranmasına səbəb son illərdə Belçika Krallığının ictimai siyasi həyatının federallaşdırılmasıdır. Ölkədə siyasi partiyalar region və dil-icma xüsusiyyətlərinə görə bölünmüşlər. *Flandriya* regionunda *Xristian demokrat*, *Yeni Flandriya Alyansı, Open Vld*, Fransızdilli Valoniya regionunda isə *Sosialist Partiyası, İslahatçı Hərəkat, Humanist Demokratik Mərkəz* kimi böyük siyasi partiyalar fəaliyyət göstərir.

*Yeni Flamand Alyansı (NVA) partiyasının* seçkilərdə qalib gəlməsi Belçikada əsl şok yaratmışdır. Belə ki, bu siyasi partiya *Flandriyanın* sülh və danışıq yolu ilə müstəqilliyi uğrunda mübarizə aparır. Seçkinin nəticələri elan edildikdən dərhal sonra partiyanın lideri *Bart de Vever Flandriyanın* ayrılmasının əsas məqsəd olduğunu bir daha elan etmişdir.

*Yeni Flamand Alyansı (NVA)* və *Flandriya Sosialist Partiyasının (SP və ya PS)* seçkilərdə qalib gəlməsi əslində Belçikada uzun müddətdir ki, mübahisə obyekti olan institusional islahatların həyata keçirilməsində, *Brüssel-Hal-Vilvord* bölgəsinin taleyi məsələsində yaxşı heç nə vəd etmirdi. *NVA* federal sistemin artıq özünü doğrultmadığını əsas gətirərək ölkənin parçalanmasını və nəticə etibarilə bundan fransızdilli Valoniya regionunun da bəhrələnəcəyini desə də, *SP* əksinə, Belçikanın birliyinin qorunmasının tərəfdarıdır.

*Sosialist Partiyasının* sədri *E.di Rupo* Belçikanın bir neçə dəfə belə böhranla üzləşdiyini və hər zaman bir həll yolu

tapıldığını, bu dəfə də belə olacağını bəyan etmişdir. Bu cür köklü fərqlər hər iki partiyanın ortaq mövqeyə gəlməsinə mane olmuş və Belçikada 13 iyun 2010-cu il tarixində keçirilmiş Parlament seçkilərindən sonra 540 gün davam edən siyasi böhran meydana çıxmışdır.

Nəticədə seçkilərin əsas qalibi *NVA* kənarda qalmış və 2011-ci ilin dekabr ayının 5-də *Kral II Albert* fransızdilli *Sosialist Partiyasının (PS)* sədri *Elio Di Ruponu Baş nazir* təyin etmişdir.

***İcraedici hakimiyyət:*** *Nümayəndələr Palatası (Aşağı Palata)* qarşısında siyasi məsuliyyət daşıyan *Nazirlər Şurası* və dövlətin faktiki başçısı sayılan *Baş nazir* monarx tərəfindən təyin edilir və Belçika Parlamenti tərəfindən təsdiq olunur. Bir qayda olaraq, tərkibi bir neçə partiyanın koalisiyasından ibarət olan *Nazirlər Şurasının* üzvləri öz qurumlarına rəhbərliyi həyata keçirdikləri dövr ərzində, deputat səlahiyyətlərini növbəti Parlament seçkilərinədək itirirlər.

Hal-hazırda fəaliyyət göstərən, 12 nazir və 6 dövlət katibindən təşkil edilmiş Belçikanın yeni *Hökumətinə* 6 siyasi partiya *(PS-Sosialist partiyası, MR-İslahatçı hərəkat, CDH-Humanist Demokratik Mərkəz, CDNV-Flamand Xristian Demokrat Partiyası, Open VLD-Flamand Liberal və Demokratları, SPa-Flamand Sosialist partiyası)* daxil olmuş və öz aralarında 2012-ci il büdcəsinin formalaşdırılması, büdcə kəsirinin 2,8 faizə endirilməsi, BHV-nin taleyi və institusional islahatlar kimi əsas məsələlərdə uzun sürən danışıqlardan sonra yeni *Hökumətin* qurulması barədə razılığa gəlmişlər.

05 dekabr 2011-ci ildən etibarən Belçikanın hazırkı, 49-cu *Baş naziri, Fransızdilli Sosialist Partiyasının* sədri *Elio Di Rupodur (Qeyd etmək lazımdır ki, Avropa ölkələrində sol partiyaların zəiflədiyi bir zamanda Belçikada Sosialist partiyasının sədri Baş nazir təyin edilmişdir. Bu həm də Belçikada sosialistlərin ötən əsrin 70-ci illərindən bu yana hakimiyyətə yenidən qayıdışıdır).*

***Məhkəmə hakimiyyəti:*** Belçikanın hüquq sistemi roman-german sisteminə aiddir. Hüququn əsas mənbəyi normativ aktlardır. Reqlament, administrativ sirkulyar sənədlər, nazirliklərin dekretləri və sair kimi qanunaltı aktlar böyük əhəmiyyət daşıyırlar. Bundan əlavə, icra hakimiyyəti orqanları onlara qanunvericiliklə verilmiş səlahiyyətlər çərçivəsində müstəqil qərarlar çıxara bilərlər.

Roman-german hüquqi doktrinasında qanunvericilik praktikasında adi qanunun üç tipi fərqləndirilir. Bunlar kodekslər, xüsusi qanunlar və hüquq normalarının konsolidasiya edilmiş mətnləridir. Belçika Krallığının da aid olduğu kontinental ölkələrdə mülki, cinayət, mülki-prosesual, habelə cinayət-prosesual və digər kodekslər qüvvədədir.

Mülki hüquq sistemi ingilis Konstitusiya nəzəriyyəsinin təsirinə uğramışdır, qanunvericilik aktlarına məhkəmə nəzarəti mövcuddur və Beynəlxalq Ədliyyə Məhkəməsi yuridiksiyasının məcburiliyi şərtləri ilə qəbul edilir.

1830-cu ildə müstəqil Belçika dövləti yarananda onun qanunvericilik bazasını beş fransız kodeksi təşkil edirdi. Bunlar mülki *(Napoleon kodeksi)*, Ticarət, Cinayət, Mülki prosesual və Cinayət-prosesual kodeksləri idi. Bu kodekslər Belçika hüququnun inkişafına əhəmiyyətli dərəcədə təsir etmişdir. Lakin sonradan bir sıra bölmələr dəyişdirilmiş və yeni müddəalar əlavə edilmiş, maddələrin əksəriyyətinin forması dəyişdirilmişdir.

Qanunlara nəzarət *Dövlət Şurası* və ya *Konstitusiya Məhkəməsi* tərəfindən həyata keçirilir.

Struktur mexanizmi piramida formasında olan məhkəmə hakimiyyəti, hakimləri *Hökumət* tərəfindən seçilən və monarx tərəfindən ömürlük təyin olunan Belçikanın *Ali Ədliyyə Məhkəməsi,* habelə digər ixtisaslaşmış və aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

# BÖYÜK BRİTANİYA VƏ ŞİMALİ İRLANDİYA BİRLƏŞMİŞ KRALLIĞI





***Ümumi məlumat:*** *Birləşmiş Krallığın* ən qədim xalqlarını *keltlər* təşkil etmişdir. *Britaniya adaları* 55-410 illərdə *Roma İmperiyasının* tərkibinə daxil olmuşdur.

X əsrdə *Krallığa* çevrilmiş və *Tudor Xanədanı* dövründə güclənərək *Şotlandiyanı* geridə buraxmış *İngiltərə*, 1588-ci ildə isə Avropa qitəsinin ən güclü donanması olan *İspan Armadasını* məğlub etməklə, *Britaniya İmperiyasının* təməlini qoymuşdur.

XVII əsrdə *Şimali Amerikada* koloniyalar qurmuş *İngiltərə*, 1707-ci ildə *Şotlandiya* ilə birləşərək *Böyük Britaniya Krallığını* yaratmışlar. 1800-ci ildə də bu birliyə *İrlandiyanın* qatılması ilə, *Böyük Britaniya və İrlandiya Birləşmiş Krallığı* təşəkkül tapmışdır.

XIX-XX əsrlərdə *Birləşmiş Krallıq - Hindistan, Şimali Amerika, Orta Şərq, Avstraliya və Afrika* daxil olmaqla 36,6 milyon km$^2$-lik bir sahəni əhatə edən və 458 milyon əhaliyə *(dünya əhalisinin ¼ hissəsi)* hökm edən qüdrətli *Britaniya İmperiyasına* çevrilmişdir.

XX əsr İmperiya daxilində tənəzzül və geriləmə dövrü ilə səciyyəvidir. Belə ki, 1922-ci ildə *İrlandiya* müstəqilliyini qazanmış, 1947-ci ildə *Hindistan və Pakistan* müstəqil ölkələr halına gəlmiş, 1948-ci ildə *Birləşmiş Krallıq Fələstindən* geri çəkilmişdir.

1997-ci ildə *Hong-Kongun* müstəqillik qazanması, *Birləşmiş Krallığın* müstəmləkə imperiyasının ən son mərhələsi kimi qəbul edilə bilər. Bununla belə, *Böyük Britaniya* dünyanın ən güclü ölkələri arasında yerini qorumaqdadır. *Birləşmiş Krallığın* keçmiş müstəmləkələri, hazırda *İngilis Millətlər Birliyində* iqtisadi və siyasi əməkdaşlıqlarını davam etdirməkdədir.

*Avropanın* şimal-qərb hissəsində*, Britaniya adalarında* yerləşən *Böyük Britaniyanın* paytaxtı *London* şəhəridir.

Ölkənin ərazisi 243,610 km², əhalisi *(2011)* 63,181,775 nəfərdir *(əhali sıxlığı 255,6 nəfər/km²)*.

*Böyük Britaniyanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.863* - çox yüksəkdir *(28-ci yer)*.

***Dövlət quruluşu:*** *Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı* parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan birlik günü *(Britaniya Millətlər Birliyi)* 13 mart tarixində qeyd olunur. Dövlətin vahid konstitusiyası yoxdur. Onu Parlament aktlarının, Konstitusiya ənənələrinin və bəzi məhkəmə qərarlarının vəhdəti əvəz edir.

***İnzibati bölgüsü:*** Böyük Britaniya 4 inzibati-siyasi hissədən *(İngiltərə, Uels, Şotlandiya və Şimali İrlandiya)* ibarətdir.

***Dövlət başçısı:*** Bir qayda olaraq, mərasim funksiyalarını yerinə yetirən *Kraliçadır* (və ya Kral). Hal-hazırda dövlətə 6 fevral 1952-ci ildə Kraliça elan edilmiş *II Yelizaveta* başçılıq edir.

***Qanunverici hakimiyyət:*** *Kraliça (Kral)* və *Parlament* tərəfindən həyata keçirilir. Parlament iki palatadan ibarətdir:

*Lordlar Palatasına* Kraliça (Kral) tərəfindən perlər, irsi və ya ali məhkəmə rəhbərləri və ingilis arxiyepiskopları arasından təyin edilmiş və vəzifəyə görə per hesab olunan şəxslər daxildirlər. Palatanın üzvləri: 674 əbədi per, 90 varis per və 24 ruhani nümayəndədən ibarətdir.

*01 sentyabr 2011-ci ildən* etibarən Lordlar Palatasının spikeri *Baronessa Frensis De Souzadır.*

650 üzvdən ibarət olan *İcmalar Palatasına deputatlar* 5 il müddətinə seçilirlər. 06 may 2010-cu il tarixində keçirilmiş son seçkilər nəticəsində, Mühafizəkarlar partiyası 306 yer, Leyboristlər partiyası 258 yer, Liberal-Demokratlar Partiyası 57 yer əldə etmişdir. Digər partiyalar 29 yerə sahib olmuşdur.

22 iyun 2009-cu ildən etibarən Mühafizəkarlar Partiyasının təmsilçisi *Con Berkou* Böyük Britaniyanın *İcmalar Palatasının* sədridir.

***İcraedici hakimiyyət:*** Baş nazirin başçılığı ilə hökumət tərəfindən həyata keçirilir *(Kraliça tərəfindən təyin olunur).* Mövcud qanunvericiliyə əsasən Hökumət üzvləri, eyni zamanda Parlamentin də üzvləri olmalıdırlar. *Nazirlər Kabineti* Baş nazir tərəfindən təyin edilir.

11 may 2010-cu ildən etibarən Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının hazırkı, sayca 75-ci *Baş naziri Mühafizəkarlar Partiyasının* lideri *Devid Kamerondur.*

***Məhkəmə hakimiyyəti*:** 2009-cu ildən Böyük Britaniyanın *Ali Məhkəməsi* ingilis hüquq sisteminə uyğun olaraq bütün məsələlər üzrə ən son və ən yüksək apelyasiya instansiyası məhkəməsidir *(əvvəllər bu səlahiyyətlərin böyük əksəriyyəti Lordlar Palatasına məxsus idi).*

Böyük Britaniyanın siyasi sistemi çox vaxt ABŞ-la müqayisə olunur. Amerikalıların bir çox fəlsəfi və hüquqi nəzəriyyələri ingilislərin təcrübəsindən əxz etdiklərinə baxmayaraq, bu iki ölkənin siyasi sistemləri arasında mühüm fərqlər vardır.

Böyük Britaniyanın siyasi sisteminin əsasını təşkil edən Hökumət ənənələrə uyğun olaraq formalaşır. Dövlət başçısı olan monarxla Hökumət başçısı sayılan *Baş nazirin* münasibətləri ənənələrin əsasını təşkil edir. Nəzəri cəhətdən yazılmamış konstitusiyanın müddəalarının qeyri-məhdud sayda pozul-

ması ehtimalı mövcuddur. Lakin praktikada Birləşmiş Krallığın yazılmamış konstitusiyası rəsmi sənədlərlə əsaslandırılmış digər konstitusiyalar kimi davamlı, bəzi hallarda isə onlardan daha dayanıqlıdır.

Konstitusiyanın dayanıqlılığı və Birləşmiş Krallığın siyasi sabitliyi, bir tərəfdən Parlamentin müstəqilliyi *(istənilən qanunun qəbulu və ya ləğv edilməsi Parlamentin ixtiyarındadır),* digər tərəfdən isə hər bir Hökumətin ölkə Parlamentinin dərc etdiyi və məhkəmələrin praktikada tətbiq etdiyi qanunlara mütləq və davamlı tabeçiliyi əsasında təmin edilir.

*Birləşmiş Krallığın Parlamenti* – Kraliçanın və iki palatanın: qanun layihələrinin müzakirə və qəbul olunduğu Lordlar və İcmalar palatalarının üçlüyünün vəhdətidir. Avropa İttifaqının üzvü olduqdan sonra, Krallıqda ümumavropa qanunları fəaliyyət göstərməyə başladı və Parlamentin aliliyi bir qədər sarsıldı. Hazırda Britaniya və ümumavropa qanunları arasında bəzi hallarda ziddiyyət yarandıqda, üstünlük ümumavropa qanununa verilir.

*Lordlar Palatasında* hər hansı irsi titula malik (varis perlər), müəyyən vəzifə tutan və nəhayət əbədi per titulu almış insanlar əyləşirlər. Palataya perlərlə yanaşı, Kraliça (Kral) tərəfindən irsi və ya ali məhkəmə rəhbərləri və ingilis arxiyepiskopları arasından təyin edilmiş və vəzifəyə görə per hesab olunan şəxslər daxildirlər. Göründüyü kimi, lordlar palatasında 2 arxiyepiskop və Anqlikan kilsəsinin 22 yepiskopu, habelə məhkəmə lordları kimi tanınan 9 ən təcrübəli hakim yer alır.

Hazırda Palatanın üzvlərinin sayı aşağıdakı qaydada bölünür: 674 əbədi per, 90 varis per və 24 ruhani nümayəndə. İcmalar palatasında 650 deputat vardır. Deputatlar majoritar sistem üzrə birmandatlı dairələrdən ümumi səsvermə yolu ilə seçilirlər. Bir seçki dairəsində orta hesabla 65 min seçici yaşayır və onun səlahiyyətləri icmalar Palatasının səlahiyyətləri ilə müqayisədə çox deyil *(onlar bir qayda olaraq İcmalar Palata-*

*sına verilir).* Lordlar Palatası maliyyəyə aid qanun layihələrinin qəbuluna müdaxilə edə bilməz, digər qanun layihələrini isə yalnız bir il müddətinə təxirə sala bilər.

Parlamentin qərarı qanun halına minməzdən əvvəl hər palatada beş pillədən keçir: birinci oxunuş, ikinci oxunuş, Parlament komissiyasının iş pilləsi, məruzə pilləsi və üçüncü oxunuş. Bundan sonra qanun kraliçanın *(kralın)* rəsmi təsdiqini almalıdır. Qanun layihələrini *(maliyyəyə aid istisna olmaqla)* əslində hər iki palata təklif edə bilər, lakin əksər hallarda onlar icmalar Palatası tərəfindən irəli sürülür.

Monarx *Baş naziri* icmalar Palatasındakı siyasi qüvvələrin təmsilçiliyini *(çoxluq)* yerləşməsini nəzərə almaqla təyin edir. *Baş nazir* öz növbəsində nazirləri seçərək hökumətini formalaşdırır. İcmalar Palatasına deputatların seçildikləri sistem ikipartiyalı nümayəndəliyin inkişafına imkan yaradır. Hətta Parlamentin hər iki palatasının iclas zalları belə yalnız iki partiyanın: hökumətin və hakim partiyanın bir tərəfdən, müxalifətin isə digər tərəfdən yerləşdirməsinə uyğun olaraq planlaşdırılıb. Neçə partiyanın nümayəndələrinin deputat olmaları da vacib şərt sayılmır, deputatlarının sayına görə ikinciliyi qazanmış yalnız bir partiya rəsmən müxalifət partiyası sayılır. Müxalifət partiyasının liderinə dövlət qulluqçusunun məvacibi ödənilir və o Vestminster sarayında *(Parlamentin binası)* vəzifəsinə uyğun kabinetlə təmin edilir.

Proporsional nümayəndəlik sistemi Birləşmiş Krallıqda ilk dəfə olaraq 1999-cu ilin iyun ayında Avropa parlamentinə seçkilərdə istifadə olunmuşdur.

*Siyasi partiyalar:* Hazırda Birləşmiş Krallıqda 50-dən çox siyasi partiyalar fəaliyyət göstərir. Onların sayı, xüsusən seçkiqabağı kompaniyalar dövründə daim dəyişir. Qanuna görə partiyaların qeydiyyatı məcburi deyil. Siyasi partiyaların fəaliyyətini məhdudlaşdıran yeganə amil deputatlığa iddialı hər bir partiya namizədinin 500 funt sterlinq məbləğində məcburi

ödəməsidir. Seçki dairəsində seçicilərin heç olmazsa 5% səsini qazandığı təqdirdə bu ödəmə namizədə qaytarılır. Bundan əlavə, namizədin öz seçkiqabağı kompaniyasına xərcləyəcəyi pul məbləğinə də müəyyən qədər məhdudiyyət qoyulur.

Partiyaların say çoxluğuna baxmayaraq, ölkədə fəaliyyətdə olan majoritar sistem, habelə bir sıra sosial, iqtisadi və demoqrafik amillər iki partiyalı sistemin formalaşmasına imkan yaratmışdır. İki əsas Britaniya partiyaları - Mühafizəkarlar və İttifaqçı Partiyası və Leyboristlər Partiyasıdır.

*Mühafizəkarlar Partiyasının* meydana gəlməsinin tarixi kökləri XVII əsrə - Parlamentdə tori adlandırılan qrupun yaranması dövrünə qədər gedib çıxır. O dövrdə hakimiyyətdə olan viqlərin əksinə olaraq torilər ingilis taxtına namizəd olan York hersoquna tərəfdar çıxırdılar. Ənənəvi və fundamental dəyərlərin qorunmasına səy göstərdiklərinə görə onları mühafizəkarlar hesab edirdilər və bu səbəbdən də 1830-cu ilin əvvəllərində partiya Mühafizəkarlar adlandırıldı. Partiyanın adında "ittifaqçı" sözünün yaranması isə onun Şimali İrlandiya məsələsi ilə bağlı mövqeyini əks etdirməsindən irəli gəlirdi.

Beləliklə, Tori partiyasının bazasında yaradılmış və özünün hazırkı şəklində 1867-ci ildə qəti olaraq formalaşdırılmış Mühafizəkarlar və İttifaqçı Partiyasının *(sədri David Cameron)* 1 milyondan çox üzvü var. Sağ mərkəzçilik ideyalarından çıxış edən partiyanın ali orqanı illik konfransdır.

Leyboristlər Partiyası 1890-cı (və ya 1900-cü) ildə həmkarlar ittifaqlarının nümayəndələri və bir sıra sosialist təşkilatları tərəfindən yaradılmışdır. Buna qədər əvvəlcə Müstəqil fəhlə partiyası, daha sonra isə Fəhlə nümayəndəlik komitəsi mövcud olmuşdur. Hazırda Leyboristlər partiyasının (sədr - Toni Bleyer) 400 min nəfərdən artıq üzvü var. Bu – partiyaya bilavasitə daxil olan, habelə həmkarlar ittifaqına və ya öz növbəsində Leyboristlər partiyasına aid olan hər hansı bir digər təşkilata daxil olmaqla adıçəkilən partiyaya üzv olan

insanlardır. Hazırda partiya sol mərkəzçilik baxışlarına tərəfdardır.

Bu partiyalarla yanaşı, Birləşmiş Krallıqda müəyyən qədər nüfuza malik digər partiyalar da fəaliyyət göstərir:

*Demokratik İttifaqçı Partiyası - Şimali İrlandiya (sədr-İan Peysli),*

*Liberal-demokratlar Partiyası - 1988-ci ilin yanvar ayında Liberal və Sosial-Demokrat Partiyalarının birləşməsi nəticəsində yaradılmışdır (sədr Menzies Campbell),*

*Şotland Milli Partiyası - sədr Aleks Salmond,*

*Alster İttifaqçı Partiyası (Şimali İrlandiya) - Reg Empey,*

*Uels Partiyası - Plaid Simru,*

*Şin Feyn Hərəkatı (Şimali İrlandiya) - Cerri Adams.*

# İSPANİYA

  

***Ümumi məlumat:*** Eramızdan əvvəl II əsrdə romalılar tərəfindən işğal edilərək romanlaşmaya məruz qalmış *İspaniyada,* V əsrdə *vestqotların barbar krallığı* təşəkkül tapmışdır.

711-718-ci illərdə *İspaniya* ərazisini fəth etmiş ərəblərə qarşı VIII-XV əsrlərdə azadlıq mübarizəsinin aparılması nəticəsində, bu torpaqlarda *Asturiya, Navarra, Kastiliya və Araqon* kimi xristian dövlətləri yaranmışdır.

Bu ölkələr 1479-cu ildə vahid *İspaniya Krallığının* tərkibində bir araya gəlmiş və 1492-ci ildə ərəblər ölkə ərazisindən tamamilə qovulmuşdur.

XV əsrin sonlarından etibarən *Mərkəzi və Cənubi Amerika* ərazilərində ispan müstəmləkələşdirilməsi dövrü başlanmış və nəticədə *İspaniya* iri müstəmləkə imperiyasına çevrilmişdir.

*Avropanın* cənub-qərb hissəsində, *Pireney yarımadasında* yerləşən *İspaniya Krallığının* paytaxtı *Madrid* şəhəridir.

Ölkənin ərazisi 505,992 km², əhalisi *(2012)* 47,265,321 nəfərdir *(əhali sıxlığı 93 nəfər/km²).*

*İspaniyanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.878* - çox yüksəkdir *(23-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan İspanidad Günü (1492) 12 oktyabr tarixində qeyd olunur. *İspaniya Konstitusiyası* 6 dekabr 1978-ci ildə qəbul edilmiş, 29 dekabr 1978-ci ildə qüvvəyə minmişdir

***İnzibati bölgüsü:*** 50 əyalətdən ibarət olan 17 muxtar birliyə *(Kataloniya, Basklar Ölkəsi, Qalisiya, Andalusiya, Araqon, Asturiya, Estramadura, Kantabriya, Madrid, Valensiya, Mursiya, Navarre, La Rioxa, Kastile və Leon, Kastiliya-La Mança)* bölünür. 17 muxtar birliyə Aralıq dənizindəki *Balear Adaları* və Atlantik okeanındakı *Kanar Adaları*, habelə Afrikanın şimal sahilindəki muxtariyyət statusuna malik *Seuta və Melilya* şəhərləri də daxildir.

***Dövlət başçısı:*** Əsasən mərasim funksiyalarını yerinə yetirən və formal olaraq vəzifəli şəxsləri təyin və azad etmək səlahiyyətlərinə malik olan *İspaniyanın* dövlət başçısı 22 noyabr 1975-ci ildən etibarən *Kral I Xuan Karlosdur (vəliəhd Asturiya şahzadəsi Felipdir).*

***Qanunverici hakimiyyət:*** İki palatalı *Milli Assambleya (və ya Baş Korteslər)* 266 yerlik *Senatdan (Yuxarı Palataya 208 üzv birbaşa ümumxalq səsverməsi yolu ilə seçilir, 58 üzv isə regional qanunverici orqanlar tərəfindən 4 il müddətinə təyin edilir)* və üzvləri proporsional təmsilçilik qaydasına əsasən partiya siyahılarından, ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilən 350 yerlik *Deputatlar Konqresindən (Aşağı Palata)* ibarətdir.

İspaniyaya məxsus *Böyük Kanar, Malyorka və Tenerif* adalarının hər birindən 3, digər adalar və ya adalar qrupunun hər birindən 1, *Seuta və Melilya* şəhərlərinin hər birindən isə 2 senator seçilir. Muxtar birliklərin hər biri Yuxarı palataya bir senator göndərir. Bu senatorları birliklərin qanunverici məclisləri təyin edir.

*Senata (prezidenti 02 aprel 2004-cü ildən etibarən Xalq Partiyasının təmsilçisi Pio Garsiya Eskuderodur)* və *Deputatlar Konqresinə (sədri 13 dekabr 2011-ci ildən Xesus Posadadır)* son seçkilər 20 noyabr 2011-ci il tarixində keçirilmişdir.

***İcraedici hakimiyyət:*** *İspaniya Krallığının* hazırkı, sayca 7-ci *Baş naziri (Hökumət başçısı)* 21 dekabr 2011-ci il tarixindən etibarən *Xalq Partiyasının* lideri *Mariano Raxoy Breydir*.

22 dekabr 2011-ci ildən sədrin birinci müavini *Maria Soraya Saens de Santamariya Anton*, ikinci müavin isə *(eyni zamanda İqtisadiyyat və Maliyyə naziri) Luis de Quindos Juradodur. Nazirlər Şurasının* tərkibi *Baş nazir* tərəfindən formalaşır və təyin edilir.

1975-ci ildən başlayaraq İspaniya avtoritarizmdən Avropa tipli müasir parlament monarxiyasına keçid mərhələsinə qədəm qoyur.

Əsas siyasi partiyaların nümayəndələri tərəfindən işlənib hazırlanmış və 1978-ci il referendumunda təsdiq edilmiş Konstitusiyaya görə İspaniya parlament idarəetmə formasına malik konstitusiyalı monarxiyadır. İspaniyanın bütövlüyü və birliyi konstitusiya ilə təsbit edilsə də, Əsas Qanunda bəzi regional muxtariyyətə icazə verilir.

Mövcud Konstitusiyaya əsasən qanunverici hakimiyyətin səlahiyyətlərinin böyük hissəsi *Aşağı Palatanın,* 350 yerlik *Deputatlar Konqresinin* əlində cəmlənmişdir. Bu palatanın qəbul etdiyi qanun layihələri baxılması üçün Yuxarı Palataya – *Senata* təqdim edilməlidir. Bununla belə, Konqres səs çoxluğu ilə Senatın vetosunu dəf edə bilər.

*Baş nazirin* namizədliyi dövlət başçısı olan *Kral* tərəfindən irəli sürülür və parlament deputatlarının əksəriyyəti onu bu vəzifəyə təsdiq edir. Adətən Konqresdə deputat yerlərinin çoxuna sahib olan partiyanın lideri Baş nazir olur. Bu partiya, hökuməti formalaşdırmaq üçün digər partiyalarla koalisiyaya daxil ola bilər. Deputatlar Konqresi hökumətə etimadsızlıq bildirməklə onu istefaya göndərə bilər, lakin bu vəziyyətdə deputatlar növbəti Baş nazirin namizədliyini əvvəlcədən göstərməlidirlər. Bu cür prosedura hökumətin tez-tez dəyişdirilməsini istisna edir.

Franko rejiminin bərqərar edilməsindən hələ xeyli əvvəl İspaniyada yerli və regional özünüidarə təcrübəsi var idi. Franko dövründə bu hüquqlar ləğv edilərək bütün səviyyələrdə ha-

kimiyyət mərkəzi hökumət tərəfindən həyata keçirilirdi. Demokratiyanın bərpasından sonra yerli hakimiyyət orqanlarına yenidən geniş səlahiyyətlər verilməyə başlandı.

İspaniya Konstitusiyası dövlətin bütövlüyünə əsaslanır, lakin bununla yanaşı milli, regional və tarixi meyarlar əsasında təşəkkül tapan inzibati bölmələrin özünüidarə hüququna zəmanət verir. İspaniya - öz parlamentlərinə və hökumətlərinə, habelə mədəniyyət, səhiyyə, təhsil və iqtisadiyyat sahəsində geniş səlahiyyətlərə malik olan 17 muxtar birliyə bölünür. Bir sıra muxtar birliklərdə *(Kataloniya, Basklar Ölkəsi, Qalisiya)* yerli dillərin istifadəsi qanuniləşdirilib, televiziya verilişləri adətən bu dillərdə yayımlanır. Lakin basklar daha geniş muxtariyyət verilməsində israrlıdırlar və bir sıra hallarda bu tələblər polislə silahlı toqquşmalara, habelə terror aktlarının baş verməsinə səbəb olur.

17 muxtar birliyə Aralıq dənizindəki *Balear Adaları* və Atlantik okeanındakı *Kanar Adaları* daxildir. Bundan əlavə, ispan koloniyalarının qalıqları: Afrikanın şimal sahilindəki Seuta və Melilya şəhərləri muxtariyyət statusuna malikdir. Muxtar birliklər - hər biri öz şurası tərəfindən idarə olunan 50 əyalətə bölünür.

1997-ci ildən etibarən şuralar muxtar birliklərin hökumətlərinə tabedir. Ali bələdiyyə məmurları və yerli şuraların deputatları birbaşa səsvermə ilə seçilirlər. Yerli şura üzvləri meri öz sıralarından seçirlər; adətən bu posta çoxluq partiyasının başçısı təyin olunur. Mərkəzi hökumət tərəfindən maliyyələşən bələdiyyə hakimiyyət orqanları vergi toplamaq səlahiyyətlərinə malik deyil.

***Məhkəmə hakimiyyəti***: Ədliyyə məhkəmələri və tribunallar *(3 asayiş hakimi, 2 dairə məhkəməsi və 1 Ali Apelyasiya məhkəməsi);* inzibati məhkəmə və tribunallar *(Dövlət Prokuroru İdarəsi, inzibati məhkəmə və tribunallar, Konstitusiya Məhkəməsi)* tərəfindən həyata keçirilir. Bütün məhkəmələrin

hakimləri monarx tərəfindən ömürlük təyin olunur. 12 illik müddətə təyin olunan 12 hakimdən ibarət Xüsusi Konstitusiya Məhkəməsi normativ aktların ölkə konstitusiyasına uyğunluğunu nəzərdən keçirir. Ali məhkəmə instansiyası *İspaniyanın Ali Məhkəmə* sayılır.

İctimai asayişin mühafizəsi *Daxili İşlər Nazirliyinin* funksiyasına aiddir və bu məqsədlə Nazirlik hərbiləşdirilmiş mülki qvardiya və polis qüvvələrinə malikdir. Bundan başqa yol hərəkətinə nəzarət edən və yerlərdə qayda-qanunun mühafizəsi ilə məşğul olan bələdiyyə polisi mövcuddur.

***Siyasi partiyalar:*** 1975-ci ilə kimi ölkədə yalnız bir partiyanın - sonralar Milliyyətçi Hərəkat adı ilə əvəz edilmiş İspan falanqasının *(faşist partiyası)* fəaliyyətinə icazə verilirdi. Hazırda İspaniyada fəaliyyət göstərən 20-dən artıq ümummilli və 40-a yaxın regional partiyalar sırasından aşağıdakı siyasi birliklər daha nüfuzlu və əhəmiyyətli sayılırlar:

*Xalq Partiyası (PP) - Mariano Raxoy*

*İspaniya Sosialist Fəhlə Partiyası (PSOE) – Xose Antonio Grinan*

*Milliyətçi Bask Partiyası (PNV) – Xosu Xon İmaz*

*Kanar Koalisiyası (CC) – Paulino Rivero Baute*

*Birlik (CiU) – Artur Masi Qavarro*

*Entesa Catalonia de Progress (ECP) – Antoni Duran*

*Qall Milliyətçi Bloku (BNG) – Anxo Manuel Kintana*

*Lazarotedən asılı olmayanlar Partiyası (PİL) – Dimas Martin*

*Kataloniya Sol Respublikaçıları (ERC) – Xoan Boyksassa*

*Sol Birlik (İU) – Qaspar Llamazares*

*General Frankonun* ölümündən sonra – 1976-cı ildə yaradılmış *Xalq Partiyası* ilk əvvəl Xalq Alyansı adlanırdı. Hazırda üzvlərinin sayı 600 mindən çox olan partiya sağmərkəzçi ideyaların tərəfdarı kimi çıxış edir. 20 noyabr 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Xalq Partiyası*

böyük üstünlüklə qalib gələrək hər iki palatada *(Senatda 158 yer, Aşağı Palatada isə 185 deputat mandatı)* yerlərin böyük əksəriyyətinə sahib olmuşdur.

1879-cu ildə yaradılmış *İspaniya Sosialist Fəhlə Partiyası* İkinci Respublika dövründə iri partiyalardan sayılırdı. 1982-ci ildə Korteslərin hər iki palatasında yerlərin böyük əksəriyyətini qazanan İSFP təxminən 15 illik müddət ərzində İspaniyada hakim partiya kimi fəaliyyət göstərmişdir. Hazırda üzvlərinin sayı 400 minə yaxın olan bu partiya sosial-demokratik baxışlardan çıxış edir.

Son Parlament seçkiləri nəticəsində *İspaniya Sosialist Fəhlə Partiyası Senatda 66, Deputatlar Konqresində* isə 110 yerə sahib olmuşdur.

İspaniyanın siyasi həyatında regional partiyalar mühüm rol oynayır. 1990-cı illərdə separatçı əhval-ruhiyyəli Basklar Ölkəsində meydana gəlmiş bir sıra nüfuzlu partiyaların fövqündə duran mühafizəkar *Milliyyətçi Bask Partiyası* muxtariyyətə sülh vasitəsi ilə çatmağa səy göstərir. *Eri Batasuna* və ya Xalq Birliyi partiyası, zorakı mübarizə metodlarının vacibliyini inkar etməyən və müstəqil Bask dövlətinin yaradılmasını arzu edən qeyri-leqal ETA təşkilatı ilə bir ittifaqda çıxış edir. Regional partiyalar *Andalusiyada, Araqonada, Qalisiyada və Kanar Adalarında* böyük nüfuza malikdir.

# MALAYZİYA







***Ümumi məlumat:*** Erkən dövrlərdə *Tay* və *Kxmer* İmperiyalarının əyalətlərindən sayılan *Malayziya,* VII-XV əsrlərdə *Sumatra dəniz imperiyasının (Şri-Vicay)* tərkibinə daxil olmuş, XV əsrdə isə yarımadanın ərazisi *Malakka Sultanlığında* birləşmişdir.

1511-ci ildən *Portuqaliyanın,* 1641-ci il tarixindən *Hollandiyanın,* 1815-ci ildən isə *Böyük Britaniyanın* müstəmləkəsi olmuş *Malay Federasiyası* 1957-ci ildə dövlət müstəqilliyini elan etmişdir.

1963-cü ildə *Sinqapur, Saravak* və *Sabahın* daxil olduğu *Malayziya Federasiyası* yaradılmışdır *(Sinqapur 1965-ci ildə Federasiyanın tərkibindən çıxmışdır).*

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *Malayziya Federasiyasının* paytaxtı *Kuala Lumpur* şəhəridir.

Ölkənin ərazisi 329,847 km², əhalisi *(2010)* 28,334,135 nəfərdir *(əhali sıxlığı 86 nəfər/km²).*

*Malayziyanın* rəsmi dövlət dili *malayziya* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.761* - yüksəkdir *(61-ci yer).*

***Dövlət quruluşu:*** Malayziya dünyada federal konstitusiyalı seçkili monarxiya formasında idarəetmə üsuluna malik yeganə ölkədir. Milli bayramlar olan müstəqillik günü (1957) 31 avqustda, Federasiyanın yaranması günü isə (1963) 16 sentyabr tarixlərində qeyd olunur. Malayziyanın Konstitusiyası

31 avqust 1957-ci ildə qəbul edilmiş və bu günə qədər ona bir sıra dəyişikliklər edilmişdir.

***İnzibati bölgüsü:*** *Qərbi* və *Şərqi Malayziya* olmaqla 2 bölgəyə ayrılan Federasiya, inzibati cəhətdən 13 ştatdan və 3 federal ərazidən ibarətdir. Qərbi Malayziya *(Malaya)* 11 ştatı *(Coxor, Kedax, Kelantan, Malakka, Negeri-Sembelan, Paxanq, Perak, Perlis, Pulau-Pinanq, Selanqor və Trenqany)* və Malakka yarımadasında yerləşən 2 federal ərazini *(Putradcaya və paytaxt Kuala-Lumpur)*, Şərqi Malayziya isə 2 ştatı *(Sabax və Saravak)* və Kalimantan adasında yerləşən 1 federal ərazini *(Labuan)* özündə birləşdirir.

***Dövlət başçısı:*** Dövlət başçısı olan *Ali Rəhbər (hökmdar)* və onun müavini -köməkçisi *Malayziya Federasiyasının Hökmdarlar Şurası* tərəfindən, Qərbi Malayziya bölgəsinə aid olan ştatların doqquz irsi hökmdarının *(sultanlıqlar)* arasından 5 illik müddətə seçilir.

*Sultanlıqlar* birlikdə *Qubernatorlar Şurasını* təşkil edir. Digər ştatların qubernatorları isə Şurada yalnız məşvərətçi səsə malikdirlər. *Ali Hökmdar (Yanq di-Pertuan Aqonq),* statusuna görə Federasiyada bütün yüksək vəzifəli şəxslərin fövqündə durur və heç bir məhkəmə qarşısında məsuliyyət daşımır.

*Yanq di-Pertuan Aqonq* istədiyi zaman *Malayziya Hökmdarlar Şurasına* müraciət edərək vəzifəsindən imtina edə və ya *Hökmdarlar Şurası* tərəfindən vəzifəsindən uzaqlaşdırıla bilər.

Dövlətin Ali Hökmdarını seçməkdə səlahiyyətli olan Hökmdarlar Şurası, eyni zamanda məhkəmə hakimlərini, Seçki və Dövlət Qulluğu komissiyalarının üzvlərini və digər vəzifəli şəxsləri təyin edərkən dövlət başçısına öz məsləhətlərini verir, habelə sərhədlərin demarkasiya və delimitasiya məsələləri ilə bağlı qanunvericilik aktlarını qəbul və ya rədd edir.

Mövcud Konstitusiyanın 39, 40 və 43-cü maddələrinə görə ölkədə icraedici hakimiyyət Ali Hökmdara məxsusdur.

Lakin, Malayziya Parlamenti qanunla bu funksiyanı digər şəxslərə həvalə edə bilər.

Əsasən mərasim funksiyalarını yerinə yetirən *Yanq di-Pertuan Aqonq* təyin etmiş olduğu *Baş nazirin* məsləhəti ilə *Nazirlər Kabinetin*i təyin edir. Eyni zamanda Silahlı Qüvvələrin Ali Baş Komandanı sayılan *Ali Hökmdar*, müstəqil olaraq Federasiyanın Baş nazirini təyin etməkdə, Parlamentin buraxılması təklifinə razılıqdan imtinada, əfv fərmanı verməkdə, Konstitusiyaya düzəlişləri təsdiq etməkdə və s. digər mühüm məsələlərin həllində səlahiyyətlidir.

13 dekabr 2011-ci il tarixindən etibarən Malayziyanın dövlət başçısı *Əbdülhəlim Müazzəm Şahdır.*

***Qanunverici hakimiyyət:*** İkipalatalı Parlament: 70 yerlik *Senatdan (Yuxarı Palatanın Prezidenti 26 aprel 2010-cu ildən etibarən UMNO-nun təmsilçisi Abu Zahar Ujanqdır)* və 222 yerlik *Nümayəndələr Palatasından (*sədri 29 aprel 2008-ci ildən etibarən *UMNO-nun* nümayəndəsi *Pandikar Amni Mulia* olan *Aşağı Palataya* deputatlar ümumi və birbaşa seçkilərdə 5 il müddətinə seçilirlər*)* ibarət olan ali qanunverici orqandır.

Yuxarı Palatanın 44 senatoru ölkə qarşısında mühüm ictimai fəaliyyətinə, ticarət, sənaye, ictimai xidmət, kənd təsərrüfatı, mədəniyyət sahələrində xidmətlərinə görə, habelə Malayziyada yaşayan aborigenlərin maraqlarını müdafiə edən şəxslərin və milli azlıqların nümayəndələri arasından *Ali Hökmdar* tərəfindən təyin edilir, digər 26 üzv isə hər ştatdan 2 nəfər olmaqla ştatların hakimiyyət orqanları tərəfindən 5 illik müddətə təyin edilir.

Ümummilli məsələlərdə ictimai fikrin ifadə edilməsinin məkanı sayılan Parlament, bütün ölkə ərazisinə aid olan qanunları və digər qanunvericilik aktlarını işləyib hazırlayır və təsdiq edir, habelə Hökumətin maliyyə fəaliyyətinin icrasına şaquli nəzarəti həyata keçirir.

Bütün qanun layihələri hər iki palatada qəbul edildikdən, *Yanq di-Pertuan Aqonqun* razılığından və hakimiyyətə aid mətbuat orqanında dərc edildikdən sonra Qanun statusunu alır.

08 mart 2008-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* yer almış əsas siyasi partiyalar aşağıdakılardır:

14 siyasi partiyanın sıralarında birləşdiyi *Milli Cəbhə - (140 yer, sədri Möhd Nəcib bin Tun Hacı Əbdul Razak):*

*Birləşmiş Malaya Milli Təşkilatı Partiyası – 79 yer* (1946-cı ildə yaradılmış və hazırda Baş nazir *Nəcib Razakın* lideri olduğu *UMNO* öz siyasi fəaliyyətində milli burjuaziyanın, iri sahibkarların və torpaq mülkiyyətçilərinin maraqlarından çıxış edir. Uzun müddətdir ki, iqtidar partiyası olaraq fəaliyyət göstərən bu partiya ölkədə yüksək nüfuza və etibara sahibdir),

*Malayziya Çin Assosiasiyası – 15 yer,*

*Birləşmiş Ənənəvi Bumiputera Partiyası – 14 yer,*

*Saravak Xalq Birlik Partiyası – 6 yer,*

*Saravak Xalq Partiyası – 6 yer,*

*Saravak Demokratik Tərəqqi Partiyası – 4 yer,*

*Birləşmiş Pasokmomogun Kadazandusun Murut Təşkilatı - UPKO – 4 yer,*

*Malayziya Hind konqresi – 3 yer,*

*Birləşmiş Sabah Partiyası – 3 yer,*

*Malayziya Xalq Hərəkat Partiyası – 2 yer,*

*Sabah Tərəqqi Partiyası – 2 yer ,*

*Sabah Xalq Birlik Partiyası – 1 yer,*

*Liberal Demokratik Partiya – 1 yer,*

*Xalq Tərəqqi Partiyası (son seçkilərdə mandat qazana bilməmişdir).*

3 siyasi müxalifət partiyasının bir araya gəldiyi *Xalq Cəbhəsi (82 yer, həmsədrləri: Ənvər İbrahim, Əbdül Hadi Avvanq, Lim Kit Sianq):*

*Xalq Ədalət Partiyası – 31 yer,*
*Demokratik Hərəkat Partiyası – 28 yer,*
*Panmalayziya İslam Partiyası – 23 yer.*

***İcraedici hakimiyyət:*** *Hökumət* vasitəsilə icra hakimiyyətini həyata keçirən *Ali Hökmdar,* son Parlament seçkiləri nəticəsində qalib gəlmiş siyasi partiyanın üzvləri arasından *Baş naziri (bir qayda olaraq qalib partiyanın lideri)* və onun təqdimatı əsasında *Nazirlər Kabinetinin* üzvlərini *(eyni zamanda Parlamentin Aşağı Palatasının üzvləri)* təyin edir.

Dövlətin idarə olunmasına de-fakto rəhbərliyi həyata keçirən *Baş nazir* Nazirlər Kabinetinin iclaslarına sədrlik etmək, Hökumətin daxili və xarici siyasətini istiqamətləndirmək, nazirliklərin və digər qurumların inzibati fəaliyyətini əlaqələndirmək, Hökumət üzvlərinin, məhkəmə hakimlərinin, Seçki və Dövlət Qulluğu komissiyalarının üzvlərinin, habelə digər yüksək vəzifəli şəxslərin təyinatı zamanı *Ali Hökmdara* məsləhət vermək səlahiyyətinə malikdir.

Mövcud Konstitusiyaya görə, Hökumət *Nümayəndələr Palatası* qarşısında kollektiv məsuliyyət daşıyır. *Aşağı Palata* Nazirlər Kabinetinə etimadsızlıq göstərdiyi təqdirdə, *Hökumət* tam tərkibdə istefaya gedir və ya *Baş nazir* dövlət başçısından Parlamentin Nümayəndələr Palatasının buraxılmasını xahiş edir. Ali Hökmdar bu xahişi nəzərə almadığı təqdirdə yeni Parlament koalisiyası əsasında Hökumət yenidən formalaşır.

Ölkənin hazırkı, sayca 6-cı *Baş naziri* 03 aprel 2009-cu il tarixindən etibarən *Birləşmiş Malaya Milli Təşkilatı Partiyasının (UMNO)* lideri *Möhd Nəcib bin Tun Hacı Əbdul Razakdır.*

***Məhkəmə hakimiyyəti:*** Malayziyanın hüquq sistemi qarışıq hüquq sisteminin bariz nümunəsidir. Belə ki, Federasiyada ingilis ümumi hüquq sistemi ilə yanaşı, ayrı-ayrı əhali qruplarının şəxsi statuslarının tənzimlənməsi məqsədilə malay, çin və hind- müsəlman hüquq sistemindən də geniş istifadə olunur.

İslam Malayziyada rəsmi din olsa da, 1965-ci ildə Federasiyada qəbul edilmiş "İslam Məhkəmələri haqqında" Qanuna uyğun olaraq Şəriət hüququ, yalnız əxlaq səviyyəsində *(dini ayinlərin yerinə yetirilməsi və s.),* habelə təhsil və maarifləndirmə fəaliyyətində tətbiq edilir.

Mövcud Konstitusiyaya görə, Malayziya Məhkəməsi Konstitusiyaya və qanunlara şərh vermək, habelə federal və ştat qanunlarını, Konstitusiyaya və ya federal qanunlara uyğun olmadığı təqdirdə və federal Parlamentin və ya ştatların qanunvericilik assambleyalarının (Parlament) yurisdiksiyası xaricində olduğu hallarda etibarsız elan etmək, Hökumətin bu və ya digər qanunsuz hərəkətlərini bəyan etmək hüququna malikdir.

Malayziyada məhkəmə hakimiyyəti, ali apelyasiya instansiyası sayılan və Konstitusiya Məhkəməsinin səlahiyyətlərini də özündə ehtiva edən *Ali Məhkəmə* tərəfindən həyata keçirilir. Yuxarı yaş həddi 65 olan *Ali Məhkəmənin* sədri və hakimləri Baş nazirin tövsiyəsi və *Malayziya Hökmdarlar Şurasının* məsləhəti ilə *Ali Hökmdar (Yanq di-Pertuan Aqonq)* tərəfindən, digər aşağı məhkəmə instansiyalarının üzvləri isə ştatların rəhbərləri tərəfindən təyin edilir.

Ölkədə paralel olaraq *Malaya Ali Məhkəməsi (Qərbi Malayziya)* və *Borneo Ali Məhkəməsi (Şərqi Malayziya)* də fəaliyyət göstərir.

# YAPONİYA







***Ümumi məlumat:*** Qədim dövlətçilik ənənələrinə malik olan *Yaponiyanın* adı ilk dəfə bizim eranın 701-ci ilinə aid mənbələrdə çəkilmişdir. *Bu* ərazilərə avropalıların ilk gəlişi XVI əsrə təsadüf etmişdir. Xristianlığın və qərb düşüncələrinin ölkə üçün zərərli olacağına inandıqları üçün, yapon liderləri xristianlığı yaymağa çalışan yadellilərin *Yaponiyaya* girişini qadağan etmişlər və bu özünütəcrid siyasəti, yalnız 1853-cü ildə yeni modernləşmə kursu ilə əvəz olunmuşdur.

1894-1895-ci illərdə *Çinlə,* 1904-1905-ci illərdə də *Rusiya* ilə müharibədən qalib ayrılmış *Yaponiya,* nəticədə öz ərazilərini genişləndirməyə müvəffəq olmuşdur.

Birinci Dünya Müharibəsi illərində almanlara qarşı vuruşan *Yaponiya,* İkinci Dünya Müharibəsi dövründə *(1939-1945) Almaniya və İtaliya* ilə hərbi ittifaq qurmuş və müharibədən məğlub ayrılmışdır.

Bununla belə, sonrakı illərdə böyük bir iqtisadi inkişaf yolu ilə hazırkı rifah səviyyəsinə çatmış *Yaponiya,* dünyanın aparıcı dövlətlərindən biri sayılmaqdadır.

Şərqi Asiyada yerləşən *Yaponiyanın* paytaxtı *Tokio* şəhəridir.

Ölkənin ərazisi 377,944 $km^2$, əhalisi *(2012)* 126,659,683 nəfərdir *(əhali sıxlığı* 337,1 *nəfər/*$km^2$*).*

*Yaponiyanın* rəsmi dili *yapon* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.901* - çox yüksəkdir *(12-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan Yaponiya dövlətinin yaradılması günü fevral ayının 11-də qeyd olunur.

3 may 1947-ci ildə qüvvəyə minmiş Yaponiya Konstitusiyasına görə:

*- İmperator xalqın birliyinin və dövlətin rəmzidir, hakimiyyət xalqın əlindədir;*

*- İcra səlahiyyəti bütövlükdə Parlament qarşısında məsuliyyət daşıyan Nazirlər Kabinetinə aiddir.*

***İnzibati bölgüsü:*** *Todofuken* sisteminə görə Yaponiya *Tokio* paytaxt prefekturasından, *Hokkaydo* qubernatorluğundan, prefektura statusuna malik *Kioto və Osaka* şəhərlərindən və digər 43 prefekturalardan ibarət olan ali dərəcəli 47 inzibati vahidliyə *(Xokkaydo, Aomori, İvate, Miyaqi, Akita, Yamaqata, Fukusima, İbaraki, Totiqi, Qumma, Saytama, Tiba, Tokio, Kanaqava, Niiqata, Toyama, İsikava, Fukui, Yamanasi, Naqano, Qifu, Sidzuoka, Ayti, Mie, Siqa, Kioto, Osaka, Xyeqo, Nara, Vakayama, Tottori, Simane, Okayama, Xirosima, Yamaquti, Tokusima, Kaqava, Exime, Koti, Fukuoka, Saqa, Naqasaki, Kumamoto, Oita, Miyadzaki, Kaqosima və Okinava prefekturaları)* bölünür.

***Dövlət başçısı:*** 1946-cı ilin noyabr ayında ittifaq qüvvələri tərəfindən parlament formasında razılaşdırılmış idarəetmə və icra orqanlarının əlində hakimiyyətin təmərküzləşməsinin yolverilməzliyi məqsədi ilə yaradılmış 99 maddədən ibarət Yaponiya Konstitusiyasına görə dövlət başçısı – sırf formal səlahiyyətlərə malik olan və dövlətin və millətin rəmzi sayılan imperatordur. Real hakimiyyət *Baş nazirə,* onun rəhbərlik etdiyi kabinetə və qarşısında məsuliyyət daşıdığı Parlamentə verilmişdir.

Taxt varislik yolu ilə imperator ailəsinin kişi üzvlərinə keçir. *İmperator (1989-cu ildən Akixitodur*) mütləq hakimiy-

yətə malik deyildir, dövlət işlərinə aid fəaliyyəti Nazirlər Kabinetinin məsləhəti və icazəsi əsasında həyata keçirməlidir.

Konstitusiyada göstərilən hallar xaricində İmperatorun hökumətlə bağlı səlahiyyəti yoxdur. Bununla yanaşı İmperator Baş naziri və Ali Məhkəmənin Baş Hakimini təyin edir. *Baş nazir* əvvəlcə *Parlament* tərəfindən seçilir və İmperator tərəfindən təsdiq edilir. Baş hakim *Nazirlər Kabineti* tərəfindən seçilir və daha sonra İmperator tərəfindən təsdiq edilir. İmperatorun qanun və müqavilələri imzalamaq, Parlamentin sessiyalarını çağırmaq və *Nazirlər Kabinetinin* tövsiyə və icazəsi ilə şərəf nişanı vermək səlahiyyəti vardır.

***Qanunvericilik hakimiyyəti:*** *Yaponiyada qanunvericilik səlahiyyəti* dövlətin ən yüksək orqanı sayılan Parlamentə məxsusdur. Parlament *(Kokkay)* 480 nəfərlik *Nümayəndələr Palatası* və 242 nəfərdən ibarət *Müşavirlər Palatasından* ibarətdir.

*Nümayəndələr Palatasının (sədri 16 sentyabr 2009-cu ildən YDP-nin təmsilçisi Takahiro Yokomoçidir)* üzvləri 4 ildən bir seçilir. *Nümayəndələr Palatasının* 180 nəfər üzvü 11 milli seçki dairəsindən proporsional qaydada, 300 üzv isə 300 seçki dairəsindən majoritar qayda ilə seçilir.

*Müşavirlər Palatasının (prezidenti 14 noyabr 2011-ci ildən YDP-nin nümayəndəsi Kenji Hiratadır)* 242 üzvü 6 il müddətinə seçilir. Bu üzvlərin yarısı üç ildən bir keçirilən seçkilərlə seçilir. 98 nəfər üzv milli seçki dairəsindən proporsional qayda ilə, digər 144 üzv isə majoritar qaydaya əsasən seçilir.

*Nümayəndələr və Müşavirlər palatalarının* iclasları adi, fövqəladə və xüsusi iclaslar olmaq üzrə üç qrupa ayrılır. Parlamentin adi iclasları hər il dekabr ayında başlayır və 150 gün davam edir. Nümayəndələr Palatasının Nazirlər Kabineti tərəfindən hazırlanan və Parlamentə təqdim edilən büdcə layihəsini əvvəlcədən müzakirə etmək hüququ vardır. Eyni zamanda, Nümayəndələr Palatası *Baş naziri* seçmək, növbəti

Parlament seçkilərini təyin etmək, müqavilələri müzakirə etmək kimi məsələlərdə Müşavirlər Palatası ilə müqayisədə nisbətən üstünlüyə malikdir.

*Nümayəndələr Palatasının* Kabinetə gizli və ya açıq şəkildə təklif irəli sürmək səlahiyyəti vardır. Bu da Nümayəndələr Palatasının Parlament daxilində ən əhəmiyyətli səlahiyyəti hesab olunur. Müşavirlər Palatası rəsmi olaraq gizli şəkildə təklif vermək səlahiyyətinə malik deyildir.

25 yaşına çatmış Yaponiya vətəndaşları Nümayəndələr Palatasına, 30 yaşına çatan şəxslər isə Müşavirlər Palatasına seçilə bilər. Yaponiyada 20 yaşına çatmış bütün vətəndaşlar səsvermə hüququna malikdir.

Konstitusiyaya düzəliş etmək üçün, onun lehinə Konqresin hər iki palatasının üzvlərinin 2/3 hissəsi səs verməlidir və xüsusi referendumun əksər elektoratı tərəfindən bu düzəliş təqdir edilməlidir.

16 dekabr 2012-ci ildə *Nümayəndələr Palatasına* və 11 iyul 2010-cu ildə *Müşavirlər Palatasına* keçirilmiş son Parlament seçkiləri nəticəsində hər iki palatada mandat əldə etmiş əsas siyasi partiyalar:

*Liberal-Demokratik Partiya - (294 yer Nümayəndələr Palatası, 84 yer Müşavirlər Palatası),*

*Yaponiya Demokratik Partiyası – (57 yer Nümayəndələr Palatası, 106 yer Müşavirlər Palatası),*

*Yapon Dirçəliş Partiyası – (54 yer Nümayəndələr Palatası),*

*Yeni Komeyto Partiyası – (31 - 19),*

*"Sənin Partiyan" - (18 - 11),*

*Sabah Partiyası - (18),*

*Kommunist Partiyası – (8 -6),*

*Sosial-Demokratik Partiya – (2 – 4),*

*Müstəqillər və digər partiyaların nümayəndələri - (7 - 12).*

***İcra Hakimiyyəti:*** İcra etmə səlahiyyəti *Baş nazirin rəhbərlik etdiyi* və Parlament qarşısında məsuliyyət daşıyan *Kabinetə* verilmişdir. Parlament üzvü olan və Parlament tərəfindən müəyyən edilən Baş nazir mülki və böyük əksəriyyəti Parlament üzvləri arasından olmaqla dövlət nazirlərini təyin etmək və vəzifədən azad etmək səlahiyyətinə malikdir. *Hökumətə* etimad təklifini rədd etdiyi və ya etimadsızlıq təklifini qəbul etdiyi hallarda, *Nümayəndələr Palatası* 10 gün ərzində buraxılmamışsa, Kabinet istefa etməlidir.

26 dekabr 2012-ci ildən etibarən *Yaponiyanın* hazırkı, sayca 96-cı *Baş naziri Yaponiya Liberal-Demokratik Partiyasının* lideri *Sindzo Abedir.*

***Siyasi partiyalar:*** Yaponiyanın ilk siyasi partiyası *Aikoku Koto (Vətənsevərlər Partiyası)* 1874-cü ildə yaradılmış və hökumətdən qanunverici orqanın yaradılmasını tələb etmişdir. Ölkədə ilk ümumi seçkilər də 16 il sonra 1 iyul 1890-cu ildə keçirilmiş və Parlament ilk iclasını həmin ilin 29 noyabr tarixində keçirmişdir. Yaponiyada qurulmuş olan bu Parlament Asiyanın ilk milli qanunverici orqanı sayılır.

Yaponiyanın böyük mühafizəkar təşkilatı sayılan və hal-hazırda qısa fasilədən sonra yenidən hakimiyyətdə olan *(2009-cu ildə keçirilmiş Parlament seçkilərində Yaponiya Demokratik Partiyası LDP-ni qabaqlaya bilmişdi) Liberal Demokrat Partiyası (LDP)* İkinci Dünya Müharibəsindən sonra, 1955-ci ildə iki mühafizəkar partiyanın birləşməsi nəticəsində yaranmışdır. Həmin ildən etibarən LDP fasiləsiz olaraq, yarım əsrdən artıq bir dövrdə hakimiyyətdə olmuşdur. Partiyanın sədri aşağı və ya yuxarı palatanın deputatı olan partiya üzvləri arasından seçilir. İlk seçkilər zamanı partiya üzvləri birbaşa seçki ilə bu vəzifəyə üç namizəd seçir. Daha sonra LDP-nin Parlamentdəki deputatları bu üç namizəddən birini sədr seçir. Partiyanın nizamnaməsində göstərildiyi kimi sədr bu vəzifədə iki müddətdən artıq ola bilməz.

LDP öz baxışlarına görə mühafizəkar partiya sayılsa da, əslində daha çox müxtəlif geniş istiqamətləri əhatə edən və praktikada tətbiq edilən sırf praqmatik və korporativ yanaşma tərzinə malik xarici və daxili ideyaları qavraya bilən təşkilatdır. Partiya - bütün ölkənin rifahının etibarlı dayağı sayılan özəl sahibkarlığın effektivliyinə inamı və Yaponiyanın Amerika Birləşmiş Ştatları ilə yaxınlaşmasının davamı kimi birləşdirici prinsipləri əldə rəhbər tutur.

LDP ideologiyadan daha çox şəxsiyyət amilinə əsaslanan bölgüyə uyğun fraksiyalara ayrılır. Bu qruplaşmalar köhnə nəslin əhəmiyyətini və mənafelərini təsdiq etməklə və yeni nəslin karyera inkişafına köməklik göstərməklə onların siyasi liderləri arasında əlaqələrin qaydaya salınmasında əsas rol oynayırdılar.

Ailəyə və şəxsi əlaqələrə ehtiramın borc və vəzifə sayılmasına əsaslanan neokonfutsi prinsiplərinə yaponların daha çox diqqət yetirməsi sayəsində, Konqresdə olan müasir LDP üzvlərinin üçdə bir hissəsini çox yaxın qohumluq əlaqələri birləşdirir. Fraksiyaların mövcudluğu partiya daxili rəqabət mübarizəsinə təkan verdi. Regional səviyyədə fraksiyalar öz üzvlərinin partiyadan namizəd kimi seçki dairələrinə qəbul edilməsi uğrunda mübarizə aparırlar. Lakin arzu olunan LDP-nin Prezidentliyi postu hər bir fraksiya üçün son məqsəd sayılır. LDP Prezidenti hər iki ildən bir Konqresdəki partiya üzvlərinin səs çoxluğu ilə seçilir.

Yaponiyada qeydiyyata alınmış on mindən çox partiya mövcuddur. Lakin, onlardan Liberal Demokrat Partiyasından əlavə yalnız dördü əhəmiyyətli partiyalar sayılır:

- *Təmiz Hökumət Partiyası* – 1964-cü ildə yaradılmışdır;
- *Yaponiya Kommunist Partiyası* – 1922-ci ildə əsası qoyulmuşdur;
- *Yaponiya Sosial-demokrat Partiyası* – 1946-cı meydana gəlmişdir;

- 1998-cı ildə təsis edilmiş *Yaponiya Demokratik Partiyası (lideri Esixiko Nodadır)* 2009-cu il Parlament seçkilərində bütün siyasi rəqib partiyalarını qabaqlayaraq Parlamentdə yerlərin əksəriyyətinə *(Aşağı Palatada 306, Yuxarı Palatada isə 106 yer)* sahib olmuşdu və *Kabinetin* keçmiş tərkibi, əsasən bu partiyanın üzvlərindən formalaşmışdı.

***Məhkəmə hakimiyyəti:*** Yaponiyada namizədliyi Kabinet tərəfindən irəli sürülən və İmperator tərəfindən təyin edilən ali hakim istisna olmaqla, 15 üzvü Kabinet tərəfindən təyin olunan *Ali Məhkəmədir*. Bir dəfə təyin olunan hakimlər vəzifələrini qanunla müəyyən edilən pensiya yaşına qədər icra edirlər, lakin onlar öz peşəkarlıqlarını təsdiq etmək üçün hər on ildən bir keçirilən referendumlarda iştirak etməlidirlər.

*Ali Məhkəmə* digər məhkəmələrin fəaliyyətinə nəzarət edir və işlərə yenidən baxmaq hüququna malikdir. Qanunların konstitusiyaya uyğun olmasını müəyyən edən *Ali Məhkəmənin* hakimiyyəti, əslində bir çox hallarda məhdudlaşır, belə ki, yaponlar sərbəst disputlara və danışıqlara üstünlük verirlər.

# ANDORRA





***Ümumi məlumat:*** 819-cu ildə təşəkkül tapmış *Andorra* dövləti, 1278-ci ildə *İspaniya və Fransanın* ortaq idarəçiliyinə verilmişdir.

XIX əsrin əvvəllərindən *(1806)* etibarən ölkə *Urxel yepiskopu və Fransa Prezidenti* tərəfindən ortaq şəkildə idarə olunur. 1993-cü ildən BMT-nin üzvüdür.

*Avropanın* cənub-qərb hissəsində yerləşən *Andorra Knyazlığının* paytaxtı *Andorra la Vella* şəhəridir.

Ölkənin ərazisi 468 km², əhalisi *(2011)* 85,082 nəfərdir *(əhali sıxlığı 179.8 nəfər/km²)*.

*Andorranın* rəsmi dövlət dili *katalon* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.838* - çox yüksəkdir *(32-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. 1278-ci ildə İspaniya və Fransa şahzadələrinin ortaq şəkildə rəhbərliyinə verilmiş Andorranın sərhədləri bu günə qədər dəyişməmişdir. 1806-cu ildə *Napoleon* tərəfindən yenidən nizamlanan Andorranın dövlət quruluşu artıq 2 əsrdən artıqdır ki, *Urxel yepiskopu və Fransa dövlət başçısı* tərəfindən ortaq şəkildə idarə olunur. Ölkə Konstitusiyası 02 fevral 1993-cü ildə qəbul edilmiş, 28 aprel 1993-cü ildə isə qüvvəyə minmişdir.

***İnzibati bölgüsü:*** 7 rayona *(Kanillo, Enkamp, Ordino, La Massana, Andorra la Vella, Sent Julia de Loriya, Eskaldes-Enqordanu)* bölünür.

***Dövlət başçısı:*** Andorra dövlətinin başçısı vəzifəsində, dövlət tərəfindən rəmzi maaş verilən iki ortaq rəhbər – *Urxel Yepiskopu (12 may 2003-cü ildən Joan Enrik Vives-i-Sisilya) və Fransa Prezidenti (15 may 2012-ci ildən Fransua Olland)* fəaliyyət göstərir. Onlar Andorranın müstəqilliyinin, habelə İspaniya və Fransa dövlətləri ilə bərabərhüquqlu mehriban qonşuluq münasibətlərinin qarantıdırlar.

Mövcud Konstitusiya ortaq başçıların real səlahiyyətlərini daxili təhlükəsizlik, müdafiə və sərhəd məsələlərinə aid olan beynəlxalq müqavilələrin hazırlanmasında iştirak etməklə məhdudlaşdırır. Dövlətin həmrəhbərlərinə aid olan digər funksiyalar isə, Hökumət başçısının və ya *Baş Şuranın* kontrassiqnasiyasından sonra nominal şəkildə həyata keçirilir.

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 28 yerlik *Baş Şuradır (Baş sindik 28 aprel 2011-ci ildən Vinenç Mateu Zamoradır)*. Parlament üzvləri ümumxalq səsverməsi yolu ilə proporsional sistem üzrə 4 il müddətinə seçilirlər. Onlardan 14-ü ölkəni təmsil edən vahid dairədən, digər yarısı isə 7 Andorra icmasından seçilirlər. İclaslarda hər dairədən mütləq azı bir nəfər iştirak etməlidir.

*Baş Şura* Andorra həmbaşçılarının razılığı ilə Hökumət başçısını, habelə Baş nazirin və 7 nazirin yer aldığı İcraedici Şuranı seçir.

03 aprel 2011-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Andorra Baş Şurasında* mandat qazanmış əsas siyasi partiyalar:

*Andorra Naminə Demokratiya (DA)* - sədri *Antoni Marti (20 yer),*

*Sosial-Demokratik Partiya – (6 yer),*

*Lavrediyan İttifaqı (2 yer).*

***İcraedici hakimiyyət:*** 1981-ci ildə təsis edilmiş və 8 nazirdən ibarət olan *Hökumət* ölkənin daxili və xarici siyasətini həyata keçirir. Hökumətə rəhbərlik edən *Baş nazir* Baş Şura

tərəfindən seçilir və formal olaraq dövlətin ortaq başçıları tərəfindən təyin edilir.

Hökumət Parlament qarşısında kollektiv məsuliyyət daşıyır. *Baş Şura* Hökumət başçısına etimadsızlıq göstərdiyi təqdirdə, sonuncu istefa verir və nəticədə Hökumət tam tərkibdə istefaya gedir. Öz növbəsində *Baş nazir,* Hökumətlə məsləhətləşmələrdən sonra dövlətin ortaq başçılarından *Baş Şuranın* vaxtından əvvəl buraxılması xahişini edə bilər.

12 may 2011-ci ildən etibarən Andorranın hazırkı *Baş naziri Andorra Naminə Demokratiya Partiyasının* lideri *Antoni Martidir.*

***Məhkəmə hakimiyyəti:*** *Andorra Ali Ədalət Tribunalı* və *Konstitusiya Tribunalı,* habelə ixtisaslaşmış və aşağı instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# ANTİQUA VƏ BARBUDA





***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər *hinduların* məskunlaşdığı *Antiqua və Barbuda* adaları, 1493-cü ildə *Kolumb* tərəfindən kəşf edilmiş və ilk olaraq *İspaniyanın* müstəmləkəsinə çevrilmişdir. 1632-ci ildən etibarən *İngiltərənin* ərazisi sayılan adalarda 1834-cü ildə köləlik ləğv edilmişdir.

*Antiqua və Barbuda* 1981-ci ildən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir. *Karib dənizinin* şərqində yerləşən və iki adadan ibarət olan *Antiqua və Barbudanın* paytaxtı *Sent Cons* şəhəridir.

Ölkənin ərazisi 440 $km^2$, əhalisi *(2011)* 81,799 nəfərdir *(əhali sıxlığı 186 nəfər/$km^2$).*

*Antiqua və Barbudanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.764* - yüksəkdir *(60-cı yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1981) noyabr ayının 1-də qeyd olunur. *Antiqua və Barbudanın* Konstitusiyası 31 oktyabr 1981-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** *Antiqua* adasında yerləşən 6 dairəyə *(Sent-Corc, Sent-Con, Sent-Meri, Sent-Pol, Sent-Piter və Sent-Filip)* və 2 asılı əraziyə *(Barbuda və Redonda)* bölünür.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı* təmsil edən *General-Qubernator* de-fakto *Antiqua və Barbuda* dövlətinin başçısıdır.

Mövcud Konstitusiyaya görə, ölkənin General-Qubernatoru *Baş nazirin* təqdimatı ilə *Hökumətin* tərkibini təsdiq etmək, habelə *Baş naziri*, Parlamentin *Yuxarı Palatasının (Senatın)* üzvlərini təyin etmək və bir sıra mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malikdir.

Antiqua və Barbudanın hazırkı, sayca 3-cü və ilk qadın *General-Qubernatoru* 17 iyul 2007-ci ildən etibarən xanım *Luiza Leyk-Tekdir.*

***Qanunverici hakimiyyət:*** 17 üzvü əhali tərəfindən proporsional seçki sistemi üzrə, 5 illik müddətə seçilən *Nümayəndələr Palatasından (sədri 29 mart 2004-cü ildən Gisell İsaak-Arindeldir)* və 17 senatoru *General-Qubernator* tərəfindən təyin olunan *Senatdan (Prezidenti 07 yanvar 2005-ci ildən Hazeyln Frensisdir)* ibarət iki palatalı *Parlamentdir.*

Parlamentin hər iki palatası qanunvericilik hakimiyyətini *(qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyası, habelə Konstitusiya ilə müəyyən edilmiş digər funksiyalar)* Hökumətlə birlikdə həyata keçirirlər.

12 mart 2009-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* mandat əldə etmiş *Antiqua və Barbudanın* əsas siyasi partiyaları:

*Birləşmiş Tərəqqi Partiyası (9 deputat),*

*Leyboristlər Partiyası (7 deputat),*

*Barbuda Xalq Hərəkatı Partiyası (1 deputat).*

***İcraedici hakimiyyət:*** *Hökumət* və ona rəhbərlik edən *Baş nazir* ölkədə icra hakimiyyətini həyata keçirir. Parlamentdə daha çox mandata sahib olan siyasi partiyanın lideri *Antiqua və Barbudanın General-qubernatoru* tərəfindən *Baş nazir* təyin edilir.

Ölkənin daxili və xarici siyasət kursunu həyata keçirən və ümumi fəaliyyətinə görə Parlament qarşısında kollektiv məsuliyyət daşıyan Kabinetin üzvlərini də *Baş nazirin* təqdimatı ilə *General-qubernator* təyin edir.

Ölkənin hazırkı, 3-cü *Baş naziri* 24 mart 2004-cü ildən etibarən *Birləşmiş Tərəqqi Partiyasının* lideri *Bolduin Spenserdir*.

***Məhkəmə hakimiyyəti*:** Məhkəmə-hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanan Antiqua və Barbudada məhkəmə hakimiyyəti *Şərqi Karib Ali Məhkəməsi* tərəfindən həyata keçirilir.

Eyni zamanda ölkədə ixtisaslaşmış və aşağı instansiya məhkəmələri də fəaliyyət göstərir.

# AVSTRALİYA





***Ümumi məlumat:*** *Avstraliyanın* ingilis müstəmləkəsinə çevrilmə prosesi 1788-ci ildə başlanmışdır. 1827-ci ildə *İngiltərə Hökuməti* bütün qitədə ingilis hökmranlığının bərqərar olduğunu elan etmiş, bu prosesin davamı olaraq 1900-cü ildə müstəmləkə ərazilərinin bəziləri dominion statusunda *Avstraliya İttifaqında* birləşmişlər.

*Avstraliya* 1931-ci ildən etibarən tam müstəqil dövlətdir.

*Avstraliya* materikində yerləşən *Avstraliya İttifaqının* paytaxtı *Kanberra* şəhəridir.

Ölkənin ərazisi 7,692,024 km², əhalisi *(2013)* 22,888,135 nəfərdir *(əhali sıxlığı 2.8 nəfər/km²)*.

*Avstraliyanın* rəsmi dili *(de-fakto) ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.929* - çox yüksəkdir *(2-ci yer)*.

***Dövlət quruluşu:*** Britaniya İttifaqının tərkibində ABŞ modelinə əsaslanan 6 ştatdan ibarət federativ quruluşlu, Parlament formasında idarəetmə üsuluna malik Konstitusiyalı monarxiyadır. Milli bayram günü olan Avstraliya günü (1788) 26 yanvar tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1 yanvar 1901-ci ildən bu günə qədər qüvvədədir.

***İnzibati bölgüsü:*** 6 ştata *(Viktoriya, Qərbi Avstraliya, Kvinslend, Yeni Cənubi Uels, Tasmaniya, Cənubi Avstraliya)* və bir neçə əraziyə *(Şimali və paytaxt Avstraliya)* bölünür. Avstraliya Federasiyası yaradılana qədər indiki ştatlar Britaniya koloniyaları statusunda mövcud idi. Statusları və səlhiy-

yətləri Avstraliya Konstitusiyası ilə müəyyən edilmiş ştatlar Avstraliya İttifaqına birbaşa tabedirlər.

***Dövlət başçısı:*** *Kraliça II Yelizavetanı* təmsil edən və Avstraliya Hökumətinin tövsiyəsi ilə *Kraliça (Kral) tərəfindən* təyin olunan *General-Qubernatordur.*

Səfirlərin, nazirlərin və hakimlərin təyinatı, qanun layihələrinin təsdiqi, seçkilərin elan edilməsi və mükafatların təqdimatı və s. funksiyalar Avstraliya İttifaqının ərazisi üzrə icraedici hakimiyyətin başçısı sayılan general-qubernatorun səlahiyyətlərinə daxildir.

Mövcud Konstitusiyaya uyğun olaraq, general-qubernator - federal icra şurasının prezidenti, Avstraliya silahlı qüvvələrinin ali baş komandanı, habelə Avstraliya paytaxt ərazisinin rəsmi nümayəndəsi vəzifələrini icra edir.

Konstitusiya general-qubernatora de-yure geniş səlahiyyətlər versə də, əslində o, təmsilçilik funksiyalarını yerinə yetirir və ölkə üçün ən mühüm qərarların müzakirəsində yalnız bir məşvərətçi səslə çıxış edir. Hətta, Baş naziri təyin edərkən general-qubernator, çox nadir hallarda Hökumət başçısının namizədliyinin rədd edilməsi praktikasından istifadə edir və bir qayda olaraq, formal şəkildə onu təsdiq edir.

Konstitusiya ilə ona verilmiş rəsmi səlahiyyətlərdən əlavə, general-qubernator geniş mərasim vəzifələrini də yerinə yetirir.

Avstraliya İttifaqının general-qubernatorunun rəsmi katibi, onun müavini və köməkçisi sayılır.

Avstraliyanın hazırkı General-qubernatoru 05 sentyabr 2008-ci ildən *xanım Kventin Bryusdur.*

***Qanunverici hakimiyyət:*** *Federal Məclis (Parlament)* tərəfindən həyata keçirilir. Mövcud Konstitusiyanın 1-ci fəslinin 1-ci hissəsinə müvafiq olaraq, Böyük Britaniya Kraliçasının da daxil olduğu Parlament iki palatadan: *Senatdan (76 yer, sədri 26 avqust 2008-ci ildən Con Xoqqdur)* və *Nümayəndələr*

*Palatasından (150 yer, 24 noyabr 2011-ci ildən sədr Peter Slipperdir)* ibarətdir. Senatorlar *(Senatın deputatları hər üç ildən bir dəyişilməklə)* 6 il, *Nümayəndələr Palatasının* üzvləri isə alternativ səsvermə sistemi üzrə 3 il müddətinə seçilirlər.

Avstraliya Parlamentinin əsas funksiyası qanunvericilik fəaliyyətindən və qanunların qəbul edilməsindən ibarətdir. Hər iki palatanın üzvləri, maliyyə ilə bağlı qanun layihələri istisna olmaqla, qanunvericilik təşəbbüsü hüququna malikdir. Praktikada, qanun layihələri Parlament üzvü olan nazirlər tərəfindən təqdim edilir və hər iki palatada baxılaraq müzakirə və qəbul edilir. Senatın qanunvericilik səlahiyyətləri Nümayəndələr Palatasının səlahiyyətləri ilə eynidir. Bununla belə, Senatda maliyyə ilə bağlı qanun layihələrinə dəyişiklik edilə bilməz, çünki bu palatada layihə qəbul və yaxud rədd edilir.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, Avstraliya Parlamenti digər vəzifələri də həyata keçirir. Belə ki, *Federal Məclis* dövlət əhəmiyyətli məsələləri təcili müzakirə etmək, Hökumətə və yaxud fərdi qaydada istənilən Nazirliyə etimadsızlıq göstərmək səlahiyyətinə malikdir.

21 avqust 2010-cu ildə *Avstraliya Federal Məclisinə* keçirilmiş sonuncu seçkilər nəticəsində *Senatda* və *Nümayəndələr Palatasında* yer almış ölkənin əsas siyasi partiyaları:

*Avstraliya Leyboristlər Partiyası (31 senator, 72 deputat - lider Culia Qillard),*

*Avstraliya Liberal Partiyası (24 senator, 44 deputat- lider Toni Ebbott),*

*Kvinslend Milli Liberal Partiyası (20 deputat),*

*Avstraliya Yaşıllar Partiyası (9 senator, 1 deputat - lider Bob Braun),*

*Avstraliya Milli Partiyası (6 deputat),*

*Avstraliya Aqrar Liberal Partiyası (1 senator, 1 deputat - lider Terri Mils),*

*Avstraliya Katter Partiyası (1 deputat - lider Bob Katter),*

*Qərbi Avstraliya Milli Partiyası (1 deputat - lider Brendon Grills),*

*Müstəqil deputatlar (4 yer).*

***İcraedici hakimiyyət:*** *Birləşmiş Krallıqda* olduğu kimi *Baş nazirin* başçılığı ilə *Hökumət* tərəfindən həyata keçirilir. Mövcud qanunvericiliyə əsasən *Hökumətin* üzvləri və *Baş nazir* Parlamentin tərkibindən seçilirlər və *Federal Məclis* qarşısında məsuliyyət daşıyırlar. Parlament seçkiləri nəticəsində daha çox mandat əldə etmiş siyasi partiyanın lideri, avtomatik olaraq *Baş nazir* seçilir və *general-qubernatorun* təyinatı ilə *Kabinetin* tərkibini formalaşdırır.

Avstraliyanın hazırkı *Baş naziri* 24 iyun 2010-cu il tarixindən etibarən *xanım Culia Qillarddır.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti qüvvədə olan Avstraliya Konstitusiyasının 71-ci maddəsinə əsasən, İttifaq Məhkəmə İyerarxiyasının ən yüksək apelyasiya instansiyası sayılan və hüquqi baxımdan geniş səlahiyyətlərə malik olan *Avstraliya Yüksək Məhkəməsi* tərəfindən həyata keçirilir.

# BAHAM ADALARI





***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər *hindu-aravak tayfalarının* məskunlaşdığı *Baham* adaları, 1492-ci ildə *Kolumb* tərəfindən kəşf edilmiş və ilkin dövrlərdə *İspaniyaya* məxsus olmuşdur. 1629-ci ildən etibarən *İngiltərənin* müstəmləkəsi olmuş *Baham adaları,* 1973-cü ilin iyul ayından *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Karib dənizinin* şimalında yerləşən *Baham Adalarının* paytaxtı *Nassau* şəhəridir.

Ölkənin ərazisi 13,878 $km^2$, əhalisi *(2010)* 353,658 nəfərdir *(əhali sıxlığı 23.27 nəfər/$km^2$).*

*Baham Adalarının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.771* - yüksəkdir *(53-cü yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1973) iyul ayının 10-da qeyd olunur. Ölkə konstitusiyası 10 iyul 1973-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 31 rayona *(Nyu-Providens, Friport, Eksuma, Lonq-Aylend, Xarbor adası, Speniş-Uels, San-Salvador, Aklins, Bimini, Berri adaları, Blek-Point, Şərqi Böyük Baham, Qərbi Böyük Baham, Qrand-Ki, Ket adası, Mərkəzi Andros, Şimali Andros, Cənubi Andros, Mərkəzi Abako, Cənubi Abako, Şimali Abako, Cənubi Elyutera və s.)* bölünür.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı* təmsil edən *General-Qubernatordur.* Mövcud Konstitusiyaya görə, ölkənin General-Qubernatoru *Baş nazirin* təqdimatı ilə təyin edilir və Hökumətin tövsiyələrinə uyğun olaraq fəaliyyət göstərir. Baham Adalarının *General-qubernatoru* Yuxarı Palatanın *(Senatın)* tərkibini və Ali Məhkəmənin sədrini təyin etmək, habelə bir sıra digər mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malikdir.

Baham Adalarının hazırkı, sayca 10-cu *General-Qubernatoru* 14 aprel 2010-cu ildən etibarən *Artur Aleksandr Foulksdur.*

***Qanunverici hakimiyyət:*** İki palatadan - 38 üzvü 5 il müddətinə 38 birmandatlı dairələrdən seçilən *Müəssislər Palatasından (sədri 23 may 2012-ci ildən Mütərəqqi Liberal Partiyasının təmsilçisi olan Kendal Majordur)* və 16 üzvü General-qubernator *(9 senator Baş nazirin təqdimatı, 4 üzv müxalifət liderinin təqdimatı, 3 senator isə Baş nazirin və müxalifət liderinin ümumi təqdimatı ilə)* tərəfindən təyin edilən *Senatdan (Prezidenti 23 may 2012-ci ildən etibarən Şeron Vilsondur, MLP)* ibarət Parlament tərəfindən həyata keçirilir.

*Senat* və *Müəssislər Palatası* qanunvericilik hakimiyyətini *(qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyası, habelə Konstitusiya ilə müəyyən edilmiş digər funksiyalar)* Hökumətlə birlikdə həyata keçirirlər.

07 may 2012-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Müəssislər Palatasında* mandat əldə etmiş *Baham Adalarının* əsas siyasi partiyaları:

*Mütərəqqi Liberal Partiyası - (29 deputat),*

*Azad Milli Hərəkat Partiyası - (9 deputat),*

Senatda *Mütərəqqi Liberal Partiya* 12, *Azad Milli Hərəkat Partiyası* isə 4 senatorla təmsil olunur.

***İcraedici hakimiyyət:*** *Baş nazirin* rəhbərlik etdiyi *Hökumət* ölkədə icra hakimiyyətini həyata keçirir. Parlamentdə daha çox mandata sahib olan siyasi partiyanın lideri *Baham Adalarının Baş naziri* seçilir. Baş nazirin və digər nazirlərin daxil olduğu *Nazirlər Kabineti* ən azı 9 üzvdən ibarətdir.

Mövcud Konstitusiyaya uyğun olaraq *Hökumət (Nazirlər Kabineti)* və ona rəhbərlik edən *Baş nazir* öz fəaliyyətinə görə *Aşağı Palata* qarşısında siyasi məsuliyyət daşıyır.

Ölkənin hazırkı *Baş naziri* 08 may 2012-ci ildən etibarən *Mütərəqqi Liberal Partiyasının* lideri *Perri Kristidir.*

***Məhkəmə hakimiyyəti*:** Baham Adalarının məhkəmə-hüquq sistemi ingilis hüquq sisteminə əsaslanır. Sədri Baş nazirin və müxalifət liderinin, üzvləri isə Hakimlər Komissiyasının təqdimatı ilə General-qubernator tərəfindən təyin edilən *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# BARBADOS





***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər hindu tayfalarının *(aravaklar və kariblər)* məskunlaşdığı *Barbados adası,* XVI əsrin əvvəllərində ispanlar tərəfindən kəşf edilmiş, 1652-ci ildən etibarən *İngiltərənin* müstəmləkəsinə çevrilmişdir.

*Barbados* 1966-cı ildən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Atlantik okeanında, Kiçik Antil Adaları* arxipelaqında yerləşən *Barbadosun* paytaxtı *Brictaun* şəhəridir.

Ölkənin ərazisi 431 km², əhalisi *(2009)* 284, 589 nəfərdir *(əhali sıxlığı 660 nəfər/km²).*

*Barbadosun* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.793* - çox yüksəkdir *(47-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik Günü (1966) noyabr ayının 30-da qeyd olunur. Ölkə Konstitusiyası 1966-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 11 rayona *(Krayst Çerç, Sent-Andru, Sent-Corc, Sent-Ceyms, Sent-Con, Sent-Cozef, Sent-Luçi, Sent-Mişel, Sent-Piter, Sent-Filip və Sent-Tomas)* bölünür.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı* təmsil edən General-Qubernatordur. Mövcud Konstitusiyaya görə, formal olaraq Baş naziri təyin etmək, habelə bir sıra mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malik

General-qubernator, bəzi məsələlər istisna olmaqla, Hökumətin tövsiyə və məsləhətlərinə uyğun olaraq fəaliyyət göstərir.

Barbadosun hazırkı General-Qubernatoru 01 iyun 2012-ci il tarixindən etibarən ser *Eliot Fitsroy Belqreyvdir.*

***Qanunverici hakimiyyət:*** *Şura Palatasından (əhali tərəfindən 5 illik müddətə seçilən - 30 üzv, sədr Mişel Harrinqton)* və *Senatdan (General-Qubernator tərəfindən təyin olunan 21 senator, sədr Branford Taitt)* ibarət iki palatalı Parlamentdir.

Ölkənin qanunvericilik sistemi ingilis presedent hüququna əsaslanır. İcraedici hakimiyyətlə müqayisədə çox geniş səlahiyyətlərə malik olan Parlamentin *Yuxarı Palatasının (Senatın)* 12 üzvü *Baş nazirin*, 2 üzvü *Aşağı Palatada* təmsil olunan müxalifət partiyası liderinin təqdimatı, digər 7-si isə *general-qubernatorun* şəxsi qərarına görə təyin olunurlar.

Konstitusiyaya düzəlişlər hər iki palatanın qəbul etdiyi Parlament aktı qismində qəbul edilə bilər *(hər palatanın 2/3 səs çoxluğu ilə qəbul etdiyi əsas maddələr istisna olmaqla).*

21 fevral 2013-cü ildə keçirilmiş son Parlament seçkilərində qalib gəlmiş əsas siyasi partiyalar**:**

*Demokratik Leyborist Partiyası (16 deputat),*

*Barbados Leyborist Partiyası (14 deputat).*

***İcraedici hakimiyyət:*** *Hökumət* və ona rəhbərlik edən, *Barbadosun* General-qubernatoru tərəfindən təsdiq edilən *Baş nazir (Parlamentdə yerlərin əksəriyyətinə sahib olan partiyanın lideri)* tərəfindən həyata keçirilir.

Dövlətin idarəetməsində bilavasitə iştirak edən *Nazirlər Kabinetinin* üzvləri *Baş nazirin* təqdimatı ilə General-qubernator tərəfindən təyin edilir. *Hökumət* daxili və xarici siyasət kursunun icrasına və bütövlükdə cari fəaliyyətinə görə ölkə Parlamenti qarşısında kollektiv məsuliyyət daşıyır.

*Demokratik Leyborist Partiyasının* lideri *Freyndel Stüart* 23 oktyabr 2010-cu ildən etibarən *Barbadosun* hazırkı, sayca 7-ci *Baş naziridir***.**

***Məhkəmə hakimiyyəti*****:** *Barbadosda* hüquqi sistem, bütövlükdə ingilis ümumi hüquq sisteminə əsaslanır.

Ölkədə ən yüksək məhkəmə instansiyası sayılan, *sədri (Baş hakim) Baş nazirin* təqdimatı və müxalifət lideri ilə məsləhətləşmələrdən sonra General-qubernator tərəfindən təyin olunan *Ali Məhkəmə* və *Apelyasiya Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# BELİZ





***Ümumi məlumat:*** XVI əsrin əvvəllərində *Belizin ərazisi* ispanlar tərəfindən fəth edilmiş, 1638-ci ildə isə bu torpaqlarda ilk ingilis koloniyası meydana gəlmişdir. 1862-ci ildə ölkə, *Britaniya Hondurası* adı altında rəsmən *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmişdir.

*Beliz* 1981-ci ildən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Mərkəzi Amerikada, Yukatan* yarımadasında yerləşən *Belizin* paytaxtı *Belmopan* şəhəridir.

Ölkənin ərazisi 22,966 $km^2$, əhalisi *(2010)* 312,698 nəfərdir *(əhali sıxlığı 13.4 nəfər/$km^2$)*.

*Belizin* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.699* - yüksəkdir *(93-cü yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik Konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1981) 21 sentyabrda qeyd olunur. Ölkə Konstitusiyası 21 sentyabr 1981-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 31 seçki dairəsindən ibarət 6 dairəyə *(Beliz, Kayo, Korosal, Orinc-Uolk, Stann-Krik və Toledo) bölünür*.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə Böyük Britaniyanın Kraliçası (və ya Kralı) tərəfindən *Baş nazirin* məsləhəti ilə təyin edilən General-Qubernator dövlətin faktiki başçısı sayılır. *Yuxarı Palatanın (Senat)* üzvlərini və bir sıra

digər yüksək vəzifəli şəxsləri təyin etmək, habelə bir sıra mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malik olan *General-qubernator* Hökumətlə birlikdə icra hakimiyyətini həyata keçirir.

Belizin hazırkı, sayca 2-ci *General-qubernatoru* 17 noyabr 1993-cü ildən etibarən ser *Kolvill Norbert Yanqdır.*

***Qanunvericilik hakimiyyəti:*** İkipalatalı Parlamentdən: 12 yerlik *Senatdan (Yuxarı Palataya 6 senator Baş nazirin, 3 üzv müxalifət liderinin, 1 senator Beliz Kilsə Şurası və Kilsə Yevangelist Assosiasiyasının, 1 üzv Beliz Ticarət və Sənaye Palatasının, 12-ci senator isə Milli Həmkarlar Konqresinin və Vətəndaş Cəmiyyəti Komitəsinin təqdimatına əsasən General-qubernator tərəfindən 5 il müddətinə təyin edilir)* və 31 yerlik *Nümayəndələr Palatasından (Aşağı Palataya deputatlar ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilirlər)* ibarətdir.

Senatın Prezidenti Yuxarı Palatanın iclaslarına sədrlik edir, bununla belə yalnız qanun layihələrinin qəbul edilməsi zamanı həlledici səsə malik olur, digər hallarda isə, bir qayda olaraq səsvermə hüququna malik olmur.

Senatın Prezidenti Yuxarı Palatanın üzvləri arasından seçildiyi təqdirdə, senatorun və Senat Prezidentinin səlahiyyətləri bu şəxsə aid edilir. Əks halda isə, Senat Prezidenti senatorlara aid olan səlahiyyətlərə malik olmur.

İllik dövlət büdcəsinin təsdiq edilməsi, qanun layihələrinin müzakirəsi və qəbulu, qanunvericilik fəaliyyətinin həyata keçirilməsi və s. məsələlər Beliz Parlamentinin səlahiyyətlərinə aiddir.

07 may 2012-ci ildə keçirilmiş Parlament seçkilərində *Nümayəndələr Palatasında* yer qazanmış əsas siyasi partiyalar:

*Beliz Birləşmiş Demokratik Partiyası (17 yer, lideri Din Barrou),*

*Birləşmiş Xalq Partiyası (14 yer, lideri F.Fonseka).*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Kabinetin tərkibi, bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş partiyanın üzvlərindən formalaşır. Eyni zamanda, Yuxarı palatanın üzvlərinin də Hökumətin tərkibində yer alması mümkündür.

Kifayət qədər geniş səlahiyyətlərə malik olan Nazirlər Kabineti icraedici hakimiyyətlə yanaşı, Parlamentin hər iki palatası ilə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir.

17 fevral 2008-ci ildən etibarən ölkənin hazırkı, sayca 6-cı Baş naziri *Beliz Birləşmiş Demokratik Partiyasının* lideri *Din Barroudur.*

***Məhkəmə hakimiyyəti:*** *Belizin* hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanır. Ölkədə məhkəmə hakimiyyəti *Ali Məhkəmə, Apelyasiya Məhkəməsi* və ixtisaslaşmış məhkəmələr tərəfindən həyata keçirilir.

# BƏHREYN







***Ümumi məlumat:*** Eramızdan əvvəl IV-III əsrlərdə ayrı-ayrı erkən dövlətlərin tərkibinə daxil olmuş *Bəhreyn*, yalnız XIII əsrdə müstəqilliyini əldə etmişdir.

XVI əsrdə *Portuqaliya,* XVII yüzillikdə isə *İran* tərəfindən işğal olunmuş *Bəhreyn adaları* 1783-cü ildə müəyyən müddətə müstəqilliyini bərpa etmişdir. 1871-ci ildə rəsmən ingilis protektoratı elan edilmiş *Bəhreynin* "xüsusi statusu" *(bu statusa görə ölkə Britaniya İmperiyasının tərkibinə daxil deyildi)* 1934-cü ildə təsdiq edilmişdir.

*Bəhreyn* 1971-ci ildən etibarən müstəqil dövlətdir.

*Asiya* qitəsində, *Fars körfəzinin* şimal-qərb hissəsində yerləşən *Bəhreyn Krallığının* paytaxtı *Manama* şəhəridir.

Ölkənin ərazisi 765,3 km$^2$, əhalisi *(2010)* 1,234,571 nəfərdir *(əhali sıxlığı 1626.5 nəfər/km$^2$).*

*Bəhreynin* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.806* - çox yüksəkdir *(42-ci yer).*

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü 14 avqustda (1971) qeyd olunur. Bəhreyn Krallığının yeni, sayca 2-ci Konstitusiyası 14 fevral 2002-ci il tarixində qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 5 muhafazdan *(Paytaxt, Mərkəzi, Mühərrək, Şimal və Cənub)* ibarətdir.

***Dövlət başçısı:*** Konstitusiyaya görə, Bəhreyn dövlətinin başçısı və nominal təmsilçisi sayılan, şəxsiyyəti toxunulmaz

olan *Kral* - ölkənin dini rəhbəri, vətənin və milli birliyin legitim himayəçisidir, mühafizəçisidir. Kral hakimiyyətin idarə olunmasına nəzarəti həyata keçirir, Konstitusiyanın və qanunların aliliyinə zəmanət verir, əsas insan hüquq və azadlıqlarını müdafiə edir. Dövlət başçısı öz səlahiyyətlərini, Hökumətin siyasəti üçün onun və rəhbərlik etdiyi nazirlik qarşısında məsuliyyət daşıyan nazirlər vasitəsilə həyata keçirir.

Silahlı Qüvvələrin Ali Baş Komandanı və Ali Məhkəmə Şurasının rəhbəri olan dövlət başçısı, Kral fərmanlarına uyğun olaraq *Baş naziri və Məşvərətçi Şuranın* üzvlərini *(Ali Məhkəmə Şurasının təqdimatı əsasında)*, Baş nazirin təqdimatına əsasən isə Kral dekretinə müvafiq olaraq nazirləri təyin və ya azad etmək və bir sıra digər mühüm səlahiyyətlərə malikdir.

14 fevral 2002-ci ildən etibarən *Bəhreynin 1-ci Kralı Xamad ibn İsa əl-Xəlifədir (hakimiyyət varislik əsasında ötürülür).*

***Qanunverici hakimiyyət:*** İkipalatalı Parlament - *Yuxarı Palata* olan *Məsləhət Şurasından (40 yer; üzvləri Kralın sərəncamı ilə 4 illik müddətə təyin edilirlər)* və *Aşağı Palata* olan *Deputatlar Palatasından (40 yer; üzvləri mövcud qanunvericiliyə uyğun olaraq ümumi, birbaşa və məxfi seçki sistemi üzrə 4 il müddətinə seçilirlər)* ibarətdir.

Parlament qanunvericilik fəaliyyəti ilə *(qanunvericilik aktlarının qəbul edilməsi üçün hər iki Palatanın razılığı olmalıdır)* yanaşı, ölkənin sosial-iqtisadi siyasətinin aspektlərinə aid olan məsələlər üzrə də səlahiyyətlidir.

Konstitusiyaya əsasən, hər iki Palatanın sessiya dövrü eyni vaxta təsadüf etməlidir. Belə ki, Aşağı Palata öz fəaliyyətini dayandırdığı təqdirdə, Yuxarı Palatanın sessiyasının fəaliyyəti də ona uyğun olaraq dayandırılmalıdır.

Hər bir Nazirlik öz fəaliyyətinə görə Deputatlar Palatası qarşısında cavabdehdir. Aşağı Palata nazirə 2/3 səs çoxluğu ilə etimadsızlıq göstərdiyi təqdirdə, o, dərhal istefa verməlidir.

30 oktyabr 2010-cu ildə keçirilmiş Parlament seçkilərində *Deputatlar Palatasında* yer qazanmış əsas siyasi partiyalar:

*Əl Vefaq (18 yer, İslamçı Şiə təmayüllü Partiya, lideri Əli Salman),*

*Əl Asalah (3 yer),*

*Əl-Menbər İslam Cəmiyyəti (2 yer),*

*Müstəqil deputatlar (17 yer).*

***İcraedici hakimiyyət:*** *Nazirlər Şurası* və ona rəhbərlik edən *Baş nazir* ölkədə icra hakimiyyətini həyata keçirir. Şura dövlət maraqları çərçivəsində dövlət siyasətini planlaşdırır və həyata keçirir, habelə dövlət aparatının fəaliyyətinə nəzarət edir.

*Baş nazir* Şura qarşısında duran vəzifələrin vaxtlı-vaxtında və Konstitusiyaya uyğun şəkildə yerinə yetirilməsinə nəzarət edir və onun fəaliyyəti üçün məsuliyyət daşıyır. Parlament qarşısında birbaşa cavabdeh olan Nazirlər Şurasının iclaslarına zəruri hallarda Kral sədrlik edir.

*Bəhreyn Kralı* tərəfindən təyin olunan ölkənin hazırkı, sayca 1-ci *Baş naziri* 19 yanvar 1970-ci il tarixindən etibarən *Xəlifə İbn Salman əl-Xəlifədir.*

***Məhkəmə hakimiyyəti:*** Mülki, cinayət, kommersiya ilə məşğul olan, habelə qeyri-müsəlmanların şəxsi statusu ilə bağlı mübahisələri həll edən *Mülki Hüquq Məhkəmələri* və müsəlmanların fərdi statusu ilə bağlı bütün məsələlər üzərində yurisdiksiyası olan Şəriət Məhkəməsi tərəfindən həyata keçirilir.

Konstitusiya Məhkəməsinin üzvləri Kralın sədrliyi ilə Ali Məhkəmə Şurası tərəfindən, orta və aşağı instansiya məhkəmələrinin hakimləri isə Ədliyyə Nazirliyinin təqdimatı əsasında Baş nazirin fərmanı ilə təyin edilir.

# BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİ





***Ümumi məlumat:*** XIX əsrin əvvəllərinə qədər *Birləşmiş Ərəb Əmirliklərinin* indiki ərazisi, erkən feodal və feodalizmdən əvvəlki inkişaf mərhələsində olan ərəb qəbilələrinə məxsus olmuşdur. 1820-ci ildən etibarən ingilislər *Fars körfəzinin* bu bölgəsində nəzarəti tədricən ələ keçirmiş və yerli qəbilə rəhbərləri ilə öz maraqları çərçivəsində bir sıra razılıqlar əldə etmişlər.

1892-ci ildə *BƏƏ-nin* indiki ərazisi rəsmən Britaniya protektoratı elan edilmiş, 1971-ci ildə isə 6 əmirlikdən ibarət vahid federativ dövlətin – müstəqil *Birləşmiş Ərəb Əmirliyinin* yaradılmasına qərar verilmişdir *(1972-ci ilin fevral ayından BƏƏ-nin tərkibinə 7-ci – Ras-əl-Hayma əmirliyi də daxil olmuşdur).*

*Ərəbistan yarımadasının* şərq hissəsində, *Fars və Oman* körfəzləri sahilində yerləşən *Birləşmiş Ərəb Əmirliyinin* paytaxtı *Abu-Dabi* şəhəridir.

Ölkənin ərazisi 83,600 km², əhalisi *(2010)* 8,264,070 nəfərdir *(əhali sıxlığı 99 nəfər/km²).*

*BƏƏ-nin* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.846* - çox yüksəkdir *(30-cu yer).*

***Dövlət quruluşu:*** Monarxiya və respublika quruluşunun unikal vəhdətini özündə ehtiva edən mütləqiyyət formalı idarəetmə üsuluna malik federasiyadır. Milli bayram günü olan müstəqillik günü (1971) 2 dekabrda qeyd olunur. Birləşmiş

Ərəb Əmirliklərində müvəqqəti Konstitusiya 2 dekabr 1971-ci ildən qüvvədədir.

***İnzibati bölgü:*** 7 əmirlikdən *(Əbu-Dabi, Əcman, Əl-Fuceyra, Əş-Şəriqah, Dubay, Rəs Əl-Xeymə, Um Əl-Qəyvayn)* ibarətdir.

***Dövlət başçısı:*** Konstitusiyaya görə geniş səlahiyyətlərə malik olan *Prezident* - eyni zamanda silahlı qüvvələrin ali baş komandanı və *Ali Müdafiə Şurasının* sədridir. Dövlət başçısı qanunvericilik hakimiyyətini və *Nazirlər Şurası* vasitəsi ilə icra hakimiyyətinin fəaliyyətinə nəzarəti həyata keçirir. *Əbu-Dabi* və *Dubay Əmirlikləri* arasında liderlik uğrunda ənənəvi rəqabət səbəbindən, icraedici hakimiyyət, habelə prezidentlik institutunun təməl mexanizmi "qüvvələr bərabərliyi" prinsipi üzərində qurulmuşdur.

2004-cü ilin 3 noyabr tarixindən etibarən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti *Şeyx Xəlifə Bin Zaid al Nəhyandır (eyni zamanda Əbu-Dabinın əmiri sayılan Prezident, Ali Federal Şura tərəfindən 5 il müddətinə seçilir).* Vitse-prezident 1990-cı ilin oktyabr ayından etibarən *Məktum Bin Rəşid Əl-Məktumdur və o*, eyni zamanda *Dubay Əmirliyinin* hökmdarıdır *(vitse-prezident də eyni qaydada Ali Federal Şura tərəfindən 5 il müddətinə seçilir).*

***Ali Federal Şura:*** 7 əmirlik hökmdarlarından ibarət olan və Ali Konstitusiya Orqanı sayılan *Ali Federal Şura* dövlətin siyasətini müəyyənləşdirir, federal qanunvericiliyi təsdiq edir və digər mühüm funksiyaları yerinə yetirir. *Ali Federal Şuranın* toplantıları ildə dörd dəfə keçirilir *(Əbu Dabi və Dubay hökmdarları veto hüququna malikdirlər).*

***Qanunverici hakimiyyət:*** Birpalatalı *Milli Federal Şura-dır.* Seçkili olmayan Şuranın *(ölkədə siyasi partiyalar fəaliyyət göstərmir)* Əmirlik hökmdarları tərəfindən 2 il müddətinə təyin olunan 40 üzvü var. Qanunvericilik təşəbbüsü hüququna malik olmayan *Federal Şura* yalnız məşvərətçi orqan rolunda

çıxış edir. Real hakimiyyətə malik olmayan və idarəedici orqan kimi qəbul edilməyən *Milli Federal Şuranın* qərarlarının hüququ qüvvəsi yoxdur.

2011-ci ilin noyabr ayından etibarən BƏƏ-nin *Milli Federal Şurasının* sədri *Məhəmməd Əl Murrdur.*

***İcraedici hakimiyyət:*** İcra hakimiyyətini həyata keçirən *Nazirlər Şurası* və ona rəhbərlik edən *Baş nazir* ölkə Prezidentinin və *Ali Federal Şuranın* nəzarəti altında fəaliyyət göstərir. Əmirliyin Prezidenti tərəfindən formalaşdırılan *Nazirlər Şurası* və təyin etdiyi Hökumət başçısı *(Baş nazir)*, qüvvədə olan Konstitusiyaya uyğun olaraq *Birləşmiş Ərəb Əmirliklərinin* daxili və xarici siyasət strategiyasına və iqtisadi həyatına bilavasitə rəhbərlik etməkdə səlahiyyətlidir.

Qanun layihələrinin və federal büdcənin işlənib hazırlanması, qanunların və digər normativ-hüquqi aktların icra edilməsi məqsədilə, qərarların və təlimatların qəbul edilməsi, məhkəmə qərarlarının icrasına nəzarət, beynəlxalq sazişlərin və müqavilələrin ratifikasiyası, habelə digər ali dövlət orqanlarının xüsusi sərəncamı olmadan federal məmurların təyin və vəzifədən azad edilməsi *Nazirlər Şurasının* birbaşa vəzifə və səlahiyyətlərinə aiddir.

Birləşmiş Ərəb Əmirliklərinin *Baş naziri* 11 yanvar 2006-cı ildən *Məhəmməd Bin Rəşid Əl-Məktumdur* .

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya görə, hakimləri *Birləşmiş Ərəb Əmirliyinin Prezidenti* tərəfindən təyin olunan *Ali Federasiya Məhkəməsi,* habelə digər ixtisaslaşmış və birinci instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidirlər.

# BUTAN

  

***Ümumi məlumat:*** Əsrlər boyu Butan *Tibetdən* yarımasılı vəziyyətdə mövcud olmuş, XIX əsrdən 1947-ci ilə qədər olan dövr ərzində isə, bu ölkəyə müdaxiləsi yalnız xarici siyasət dairəsi ilə məhdudlaşan *Böyük Britaniyanın* nəzarəti altında olmuşdur.

*Butan* dövləti 1907-ci ildə yaranmışdır.

İngilislərin *Cənubi Asiyadan* çəkilməsindən sonra, *Butanın* xarici əlaqələr siyasəti ilə bağlı məsləhətvericilik funksiyasını, 1949-cu il müqaviləsinə əsasən *Hindistan* hökuməti həyata keçirir.

*Cənubi Asiyada, Himalay* dağlarında yerləşən *Butan Krallığının* paytaxtı *Tximpxu* şəhəridir.

Ölkənin ərazisi 38 394 km², əhalisi *(2012)* 742 737 nəfərdir *(əhali sıxlığı 18 nəfər/km²).*

*Butanın* rəsmi dövlət dili *dzonqxa* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.522* - ortadır *(141-ci yer).*

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan dövlətin yaranması günü (1907) 17 dekabrda qeyd olunur. Ölkə Konstitusiyası 18 iyul 2009-cu ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 20 *Dzonqxaqdan (Bumtanq, Çukxa, Daqana, Qasa, Xaa, Lxuntse, Monqar, Paro, Pemaqatsel, Punakxa, Samdrup-Conqxar, Samtse, Sarpanq, Tximpxu,*

*Traşiqanq, Traşiyanqse, Tonqsa, Siranq, Vanqdi-Pxodranq və Jemqanq)* ibarət 4 *Dzonqdeyə (1-ci dərəcəli Şərqi, Qərbi, Mərkəzi və Cənubi* inzibati ərazi vahidliyinə*)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə *Kral (Druk Gyalpo "Dragon King") Butan* hakimiyyətinin, onun qüdrətinin milli rəmzidir. Çox geniş səlahiyyətləri özündə ehtiva edən *Butan* monarxiya institutu irsi sayılsa da, 65 yaşına çatdıqda *Kral* istefaya getməlidir.

Butanın hazırkı, sayca 5-ci *Kralı* 15 dekabr 2006-cı ildən etibarən *Ciqme Kxesar Namqyal Vanqçukdur.*

***Qanunvericilik hakimiyyəti:*** İkipalatalı Parlamentdən: 25 yerlik *Milli Şuradan (Yuxarı Palataya 20 üzv Dzonqxaqlar üzrə vətəndaşlar tərəfindən seçilirlər, qalan 5 üzvü isə Kral təyin edir)* və 47 yerlik *Milli Assambleyadan (Aşağı Palataya deputatlar ümumxalq səsverməsi yolu ilə seçilirlər)* ibarətdir.

Yuxarı Palatanın üzvləri istisnasız olaraq ali təhsilli olmalı və heç bir siyasi partiyanın üzvü olmamalıdırlar.

İllik dövlət büdcəsinin təsdiqi, qanunların dərc edilməsi, yüksək vəzifəli dövlət məmurlarının təyin və azad edilməsi, *Krala (yenidən baxılması üçün qanun layihələrini Parlamentə qaytarmaq hüququna malikdir)* məsləhətlərin verilməsi, dövlət başçısının razılığı ilə nazirlərin seçilməsi, mövcud qanunvericiliyə uyğun olaraq yerli özünüidarəetmə orqanlarının fəaliyyətinə nəzarət edilməsi və s. mühüm məsələlər Butan Parlamentinin səlahiyyətlərinə daxildir.

24 mart 2008-ci il tarixində iki partiyanın iştirakı ilə keçirilmiş Parlament seçkilərində *Butan Sülh və Tərəqqi Partiyası Milli Assambleyada* yerlərin 95%-nə sahib olmuşdur:

*Butan Sülh və Tərəqqi Partiyası (45 yer, lideri Ciqme Yoser Tinley),*

*Xalq Demokratik Partiyası (2 yer, lideri Serinq Topqay).*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Kabinetin tərkibi,

bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş partiyanın üzvlərindən formalaşır. 10 nazirlikdən ibarət olan *Nazirlər Kabinetinin* üzvlərindən növbəlilik qaydasında bir il müddətinə *Baş nazir* seçilir.

*Nazirlər Kabineti* ölkənin daxili və xarici siyasət kursunu ehtiva edən icraedici hakimiyyətlə yanaşı, Parlamentin hər iki palatası ilə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir.

09 aprel 2008-ci ildən etibarən ölkənin hazırkı *Baş naziri, Butan Sülh və Tərəqqi Partiyasının* lideri *Ciqme Tinleydir.*

***Məhkəmə hakimiyyəti:*** *Butanın* hüquq sistemi ingilis-hind ümumi hüquq sisteminə əsaslanır. 2008-ci il Konstitusiyasına uyğun olaraq, məhkəmə hakimiyyəti ölkədə ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* 1-ci instansiya Apelyasiya Məhkəməsi olan *Yüksək Məhkəmə,* habelə 1-ci instansiya məhkəməsi sayılan *20* dzonqxaq məhkəmələri və kiçik cinayət işləri üzrə dairə məhkəmələri tərəfindən həyata keçirilir.

*Ali və Yüksək Məhkəmələrin* hakimləri *Butanın* dövlət başçısı tərəfindən təyin və azad olunurlar.

# DANİMARKA





***Ümumi məlumat:*** *Danimarka* feodal dövləti IX-X əsrlərdə təşəkkül tapmışdır. XIV-XVI əsrlərdə *Norveçin* və *İsveçin* də daxil olduğu *Kalmar Birliyinə* rəhbərliyi həyata keçirən *Danimarkada,* XVII yüzillikdə mütləq monarxiya quruluşu bərqərar olmuşdur.

1849-cu ildən konstitusiyalı monarxiyaya keçid alan *Danimarka*, 1814-cü ildə *Norveçin,* 1918-ci ildə isə *İttifaqda* qalmaq şərti ilə, *İslandiyanın* müstəqilliyini tanımışdır *(İslandiya 1944-cü ildə Danimarkanın rəhbərlik etdiyi İttifaqın tərkibindən çıxaraq respublika elan edilmişdir)*.

*Avropanın* şimal hissəsində yerləşən *Danimarka Krallığının* paytaxtı *Kopenhagen* şəhəridir.

Ölkənin ərazisi 42,894.8 $km^2$, əhalisi *(2012)* 5,580,413 nəfərdir *(əhali sıxlığı 130 nəfər/$km^2$)*.

*Danimarkanın* rəsmi dövlət dili *danimarka* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.895* - çox yüksəkdir *(16-cı yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan konstitusiya günü (1849) 5 iyun tarixində qeyd olunur. Ölkə Konstitusiyası 5 iyun 1953-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 01 yanvar 2007-ci ildən etibarən 98 inzibati vahidliyi birləşdirən 5 vilayətə *(Zelandiya, Şimali Yutlandiya, Paytaxt vilayəti, Mərkəzi Yutlandiya və Cənubi Danimarka)* bölünür.

***Dövlət başçısı:*** Formal olaraq qanunvericilik, icra və məhkəmə hakimiyyətinə malik olan *Kraliçadır (və ya Kral).* Ali idarəçilik hakimiyyətini, təyin etdiyi *Hökumət* tərəfindən həyata keçirən *Kraliça (və ya Kral), Baş naziri* və onun təqdimatı ilə, həmçinin *Folketinqin (Parlament)* sədrinin və ya onun fraksiyaları rəhbərlərinin təklifi ilə nazirləri təyin və vəzifədən azad etmək, habelə *Parlamenti* buraxmaq səlahiyyətinə malikdir.

*Kraliça (və ya Kral) Danimarka Krallığının* silahlı qüvvələrinin ali baş komandanı və rəsmi dövlət kilsəsinin başçısıdır.

Hal-hazırda *Danimarka Krallığına* 14 yanvar 1972-ci ildə *Kraliça* elan edilmiş *II Marqrete* başçılıq edir.

***Qanunverici hakimiyyət:*** Ölkə vətəndaşları tərəfindən 4 illik müddətə seçilən birpalatalı *Parlamentdir (Folketinq, 179 yer).* 135 deputat – ümumi seçki hüququ əsasında proporsional sistem üzrə 23 seçki dairəsindən seçilir, 40 yer - dairələrdə kifayət qədər səs toplamayan namizədlər arasında bölünür, 2 üzv Farer adalarından və nəhayət digər 2 üzv Qrenlandiyadan seçilir.

Kifayət qədər geniş səlahiyyətlərə malik olan Danimarka Parlamenti ənənəvi qanunvericilik hakimiyyətini *(qanunların hazırlanması və qəbulu, illik dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq saziş və müqavilələrin ratifikasiyası)* dövlət başçısı ilə birlikdə həyata keçirir.

04 oktyabr 2011-ci ildən etibarən *Folketinqin* hazırkı sədri *Sosial-Demokrat Partiyasının* təmsilçisi *Mogens Lyukketoft-dur.*

15 sentyabr 2011-ci ildə Danimarkada keçirilmiş son *Parlament* seçkiləri nəticəsində *Folketinqdə* yer almış əsas siyasi partiyalar:

*Venstre (Liberallar, 47 yer),*
*Sosial-Demokratlar Partiyası (44 yer),*
*Danimarka Xalq Partiyası (22 yer),*

*Radikal Venstre (Sosial-Liberallar, 17 yer),*
*Sosialist Xalq Partiyası (16 yer),*
*Qırmızı-Yaşıl Koalisiya (12 yer),*
*Liberal Alyans (9 yer),*
*Mühafizəkar Xalq Partiyası (8 yer).*

***İcraedici hakimiyyət:*** *Kral (və ya kraliça)* icraedici hakimiyyəti 19 üzvdən ibarət olan və *Baş nazirin* rəhbərlik etdiyi *Hökumət (Nazirlər Kabineti)* vasitəsi ilə həyata keçirir. Hökumət öz fəaliyyətinə görə *Folketinq* qarşısında kollektiv məsuliyyət daşıyır. *Kralın* və *vəliəhdin* də iştirak etdiyi *Dövlət Şurasında (nazirlərin birgə yığıncağı)* ən mühüm qanun layihələri və Hökumət tədbirləri müzakirə olunur.

03 oktyabr 2011-ci ildən etibarən *Danimarkanın* hazırkı *Baş naziri Sosial-Demokratlar Partiyasının* lideri *xanım Xelle Torninq-Şmittir.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə hakimiyyəti, *Danimarka Krallığının* ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə 2 ikinci instansiya məhkəməsi *(Yutlandiya və adalar üçün)* və aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

*Ali Məhkəmənin* qocaman üzvləri və *Folketinqin* xüsusi olaraq 6 il müddətinə seçdiyi hakimlər dövlətə xəyanətdə ittiham olunan nazirlərin məhkəmə işini araşdıran Dövlət Məhkəməsi yaradırlar.

# İORDANİYA

  

***Ümumi məlumat:*** XVI əsrin əvvəllərində *İordaniyanın* indiki ərazisi *Osmanlı İmperiyasının* tərkibinə daxil edilmiş, Birinci Dünya Müharibəsindən sonra isə ingilis mandatı olan *Fələstinin* tərkibinə qatılmışdır.

1921-ci ildə İordan çayının şərqində yerləşən ərazidə, *Transiordaniya* əmirliyi *(İngiltərənin protektoratı statusunda)* yaradılmışdır.

*İordaniya* 1971-ci ildən etibarən müstəqil dövlətdir.

*Asiya* qitəsinin qərb hissəsində, *Yaxın Şərq* regionunda yerləşən *İordaniya Haşimi Krallığının* paytaxtı *Amman* şəhəridir.

Ölkənin ərazisi 89,342 km$^2$, əhalisi *(2011)* 6,508,271 nəfərdir *(əhali sıxlığı 68.4 nəfər/km$^2$)*.

*İordaniyanın* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.698* - ortadır *(95-ci yer)*.

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1946) 25 mayda qeyd olunur. Ölkə Konstitusiyası 11 yanvar 1952-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 52 rayondan ibarət olan 12 muhafaza *(Aclun, Akaba, Amman, Balka, Caraş, Zarka, İrbid, Karak, Maan, Madaba, Mafrak və Tafila quberniyalarına)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə ölkədə bütün hakimiyyət istisnasız olaraq *Kralın* və onun *Nazirlər Şurasının* əlində cəmlənmişdir.

*Baş nazirin* rəhbərlik etdiyi *Hökumətin* tərkibini, habelə bütün məhkəmə korpusunun hakimlərini və qubernatorları təyin etmək, *Parlamentin* qəbul etdiyi bütün qanunları imzalamaq və ya onlara veto qoymaq, *Aşağı Palataya (Deputatlar Palatası)* seçkiləri təyin etmək, *Deputatlar Palatasını* və *Senatı* buraxmaq, *Senatın* üzvlərini və spikerini təyin etmək və yaxud onların istefasını qəbul etmək, mülki və hərbi rütbələrlə təltif etmək, əfv fərmanı vermək və məhkəmənin qərarını ləğv etmək, Konstitusiyaya dəyişiklikləri təsdiq etmək, müharibə elan etmək və sülh bağlamaq və s. mühüm səlahiyyətlərə malik olan *Kral* dövlətin başçısı və İordaniyanın quru, hərbi-dəniz və hərbi-hava qüvvələrinin ali baş komandanıdır.

1999-cu ilin 7 fevral tarixindən etibarən İordaniyanın hazırkı, sayca 4-cü *Kralı Abdulla ibn Hüseyndir (II Abdulla).*

***Qanunverici hakimiyyət:*** İkipalatalı İordaniya Parlamenti - *Yuxarı Palata* olan *Ayanlar Məclisindən (60 yer; tərkibinin yarısı 2 ildən bir yenilənmək şərti ilə, üzvləri Kralın sərəncamı ilə ölkənin görkəmli nümayəndələri arasından 4 illik müddətə təyin edilirlər)* və 120 yerlik *Deputatlar Palatasından (Aşağı Palatada 9 yer xristianlar, 3 yer çərkəz və çeçenlər, 12 yerlik kvota isə xüsusi olaraq qadınlar üçün nəzərdə tutulmuşdur)* ibarətdir.

*Parlament* ənənəvi qanunvericilik hakimiyyətini *Kralla* birlikdə həyata keçirir. *Kralın* qanunlar üzərinə qoyduğu veto hər iki palatanın 2/3 səs çoxluğu ilə ləğv edilə bilər. Konstitusiyaya əsasən Kral Parlamenti buraxa və bir il ərzində dövləti Parlamentsiz idarə edə bilər.

***İcraedici hakimiyyət:*** *Kral Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabineti* vasitəsilə icra hakimiyyətini həyata keçirir.

Dövlətin daxili və xarici siyasət strategiyasının müəyyən edilməsində və həyata keçirilməsində kifayət qədər geniş səlahiyyətlərə malik olan *Nazirlər Kabineti,* ümumi siyasət məsələləri üzrə fəaliyyətinə görə *Deputatlar Palatası* qarşısında kollektiv və fərdi məsuliyyət daşıyır.

Belə ki, *Nazirlər Kabineti* ilk növbədə, fəaliyyət proqramını Parlamentə təqdim edərək onun etimadını qazanmalı və daha sonra funksiyalarının icrasına başlamalıdır. Mövcud Konstitusiyaya görə, Deputatlar Palatası Hökumətə etimadsızlıq göstərdiyi təqdirdə, *Nazirlər Kabineti* tam tərkibdə istefaya getməlidir.

11 oktyabr 2012-ci il tarixindən etibarən ölkənin hazırkı, sayca 62-ci *Baş naziri Abdulla Ensurdur* .

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya əsasən ölkədə mülki, dini və ixtisaslaşmış məhkəmələr fəaliyyət göstərir. Ən yüksək məhkəmə instansiyası sayılan *Kasasiya Məhkəməsi,* habelə *Apelyasiya* və birinci instansiya məhkəmələri *İordaniyada* mülki məhkəmə hakimiyyətini həyata keçirir.

# İSVEÇ





***Ümumi məlumat:*** Mərkəzləşmiş *İsveç feodal dövləti* X əsrdə təşəkkül tapmışdır. VIII əsrdən başlayaraq üç əsr müddətində İsveçdə əsas aparıcı qüvvə olmuş vikinqlərin hakimiyyəti XI əsrdə xristianlığın yayılması ilə başa çatmışdır.

1397-1523-cü illərdə mövcud olmuş *Kalmar Birliyinin (Danimarka, Norveç və İsveç)* dağılması nəticəsində müasir *İsveç* dövləti müstəqilliyini bərpa etməyə müvəffəq olmuşdur.

1809-cu ildə *Finlandiyanı* itirən *İsveç,* 1814-cü ildə *Norveçə* qarşı elan etdiyi müharibə nəticəsində, hər iki ölkənin daxil olduğu birlik yaranmış və 1905-ci ilə kimi mövcud olmuşdur.

*Avropanın* şimal hissəsində, *Skandinaviya yarımadasında* yerləşən *İsveçin* paytaxtı *Stokholm* şəhəridir.

Ölkənin ərazisi 449,964 km², əhalisi *(2012)* 9,540,065 nəfərdir *(əhali sıxlığı 20.6 nəfər/km²).*

*İsveç Krallığının* rəsmi dövlət dili *isveç* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.904* - çox yüksəkdir *(10-cu yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram olan İsveç günü və İsveç bayrağı günü (1983) 6 iyun tarixində qeyd olunur. *İsveç Krallığının* konstitusiyası 01 yanvar 1975-ci ildə qəbul olunmuşdur.

***İnzibati bölgüsü:*** 290 kommunadan ibarət 21 dairəyə *(Stokholm, Uppsala, Sedermanland, Esterqetland, Yonçepinq,*

*Krunuberq, Kalmar, Qotland, Blekinqe, Skone, Xalland, Vestra-Qeteland, Vermland, Vestmanland, Dalarna, Yevle-borq, Vesternorrland, Yemtland, Vesterbotten, Norrbotten və Erebru)* bölünür.

Bundan əlavə, İsveç Krallığında hazırda inzibati əhəmiyyəti olmayan, lakin mədəni və tarixi köklərini qoruyub saxlayan 3 region: 10 əyalətdən ibarət, ölkə əhalisinin daha sıx məskunlaşdığı *Geteland (Cənub bölgəsi)*, 6 əyalətə bölünən *Svealand (Mərkəzi region)* və 9 əyaləti özündə birləşdirən ən böyük əraziyə malik *Norrland (Şimal bölgəsi)* mövcuddur.

***Dövlət başçısı:*** Əsas etibarilə təmsilçilik və mərasim funksiyalarını yerinə yetirən *Kral,* mövcud Konstitusiyaya görə İsveç dövlətinin başçısı sayılır. Hər ilin oktyabr ayında *Riksdaqı (Parlament)* açıq elan etmək, *Hökumət* dəyişikliyi zamanı *Nazirlər Kabinetinin* xüsusi iclaslarında, habelə Hökumət üzvlərinin ölkədə cərəyan edən hadisələrlə bağlı onu məlumatlandırmaq məqsədilə keçirilən informativ xarakterli iclaslarda sədrlik etmək *Kralın* səlahiyyətlərinə aiddir.

Ölkədə ən yüksək hərbi rütbəyə və qanunla toxunulmazlıq statusuna malik olan *Kral*, eyni zamanda xarici siyasət məsələləri üzrə *Hökumət* və *Riksdaq* arasında, məsləhətləşmələr aparılması məqsədilə Parlament tərəfindən seçilmiş *Məşvərətçi Xarici Siyasət Komitəsinin* sədridir.

Dövlət başçısı xarici diplomatların etimadnamələrini qəbul edir, İsveç səfirlərinin etimadnamələrini imzalayır, *Hökumətin* xahişi ilə digər ölkələrin dövlət başçılarını qəbul və xarici ölkələrə dövlət səfərləri edir *(səfər zamanı Kralı adətən siyasi, iqtisadi və mədəni sahələr üzrə bir və ya iki Hökumət üzvü müşayiət edir)*.

15 sentyabr 1973-ci il tarixindən etibarən hazırkı, sayca 23-cü *İsveç Kralı Karl XVI Gustavdır*.

***Qanunverici hakimiyyət:*** Birpalatalı Parlament – *Riksdaq* – proporsional sistem üzrə 4 il müddətinə seçilən 349 üzvdən

ibarətdir. Parlamentin 310 deputatı ümumi, birbaşa və gizli səsvermə yolu ilə seçilirlər. Qalan 39 deputat mandatı *("bərabərləşdirici mandatlar")* seçkilərin nəticələrinə uyğun olaraq siyasi partiyalar arasında bölüşdürülür.

*Riksdaq* parlamentli demokratiya sisteminə uyğun olaraq adi qanunvericilik funksiyalarını yetirir: İsveç qanunlarını qəbul və Konstitusiyaya dəyişikliklər edir, beynəlxalq müqavilələri ratifikasiya edir, habelə *Hökuməti* və *Baş naziri* təyin edir. Bundan əlavə *Riksdaq,* vəzifə və səlahiyyətlərinin icrası üçün *Krala* ayrılacaq məbləğlə bağlı hər il müvafiq qərar qəbul edir, zəruri hallarda isə *Hökumət* üzvlərinə etimadsızlıq göstərir və onu istefaya məcbur edir.

17 sentyabr 2006-cı ildən ölkə Parlamentinin sədri *Mötədil Koalisiya Partiyasının* təmsilçisi *Per Westerberqdir.*

19 sentyabr 2010-cu ildə *Riksdaqa* keçirilmiş son seçkilər nəticəsində yer qazanmış siyasi partiyalar:

*Sosial Demokratlar Partiyası 32.1%, (112 yer)*
*Mötədil Koalisiya Partiyası 30.6%, (107 yer)*
*Yaşıllar Partiyası 7.1%. (25 yer)*
*Liberal Xalq Partiyası 6.8%, (24 yer)*
*Mərkəz Partiyası 6.5%, (23 yer)*
*Xristian Demokratlar Partiyası 5.4%,(19 yer)*
*Sol Partiyası 5.4%, (19 yer)*
*İsveç Demokratları Partiyası 5.4%, (19 yer)*
*Müstəqillər 0.2% (1 yer)*

***İcraedici hakimiyyət:*** Qüvvədə olan Konstitusiyaya görə, Kralın səlahiyyətləri məhdud olduğundan dövlət, geniş səlahiyyətlərə malik olan *Hökumət* və onun rəhbəri olan *Baş nazir* tərəfindən idarə olunur. Baş nazir ümumi seçkilərdən sonra Parlament tərəfindən seçilir və dərhal *Hökuməti* formalaşdırır. *Parlament* mütləq səs çoxluğu ilə, yəni konkret olaraq 175 səslə *Hökumətin* üzvlərini fərdi qaydada istefaya göndərmək səlahiyyətinə malikdir, bununla yanaşı "etimadsızlıq" mexa-

nizmi *Baş nazirə* qarşı tətbiq edilərsə, o halda *Hökumət* tam tərkibdə istefa verməlidir.

06 oktyabr 2006-cı ildən etibarən ölkənin Baş naziri *Mötədil Koalisiya Partiyasının* lideri *Fredrik Reinfeldtdir*.

***Məhkəmə hakimiyyəti:*** İsveç Krallığında məhkəmələr iki paralel və müxtəlif sistemlərdən: ümumi cinayət və mülki işlər üzrə məhkəmələrdən *(allmänna domstolar)* və ümumi inzibati məhkəmələrdən *(allmänna förvaltningsdomstolar)* ibarətdir.

Ümumi məhkəmələr *İsveç Ali Məhkəməsi* və ona tabe olan orqanlar, ümumi inzibati məhkəmələr isə *İsveç Ali İnzibati Məhkəməsi* tərəfindən həyata keçirilir.

# KAMBOCA





***Ümumi məlumat:*** *Kamboca* ərazisində ilk məlum kxmer dövləti - *Bapnom* eramızın 68-ci ilində təşəkkül tapmış və 550-ci ilə qədər mövcud olmuşdur.

1863-cü ildən *Fransanın* protektoratı sayılan *Kamboca*, 1884-cü ildə de-fakto onun müstəmləkəsinə çevrilmişdir.

*Kamboca* 1953-ci ildə dövlət müstəqilliyini elan etmişdir.

*Asiyanın* cənub-şərq hissəsində, *Hind-Çin* yarımadasında yerləşən *Kamboca Krallığının* paytaxtı *Pnompen* şəhəridir.

Ölkənin ərazisi 181,035 km², əhalisi *(2010)* 14,952,665 nəfərdir *(əhali sıxlığı 81.8 nəfər/km²)*.

*Kambocanın* rəsmi dövlət dili *kxmer* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.523* - ortadır *(139-cu yer)*.

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1953) 9 noyabrda qeyd olunur. Ölkə Konstitusiyası 21 sentyabr 1993-cü ildən *(06 mart 1999-cu ildə edilmiş düzəlişlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** *Kamboca* 23 əyalətə *(Kamponqtxom, Pousat və s.)* və 1 əyalət statusuna bərabər olan *Pnompen* bələdiyyəsinə, 185 dairəyə, 1621 kommunaya və 14073 kəndə bölünür.

***Dövlət başçısı:*** *Kral taxt şurası* tərəfindən seçilən *Kral* - dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı, habelə ölkədə müstəqil məhkəmə hakimiyyəti sisteminin qaran-

tıdır. Mövcud Konstitusiyaya görə *Kral "idarə etməli deyil, krallıq etməlidir". Kral* olmadıqda onun səlahiyyətləri *Senatın (Yuxarı Palata)* sədrinə həvalə olunur. *Kambocanın* irsi monarxiya institutuna yalnız kişi cinsinə mənsub 30 yaşına çatmış şəxslər rəhbərlik edə bilərlər.

*Kambocanın* hazırkı, sayca 2-ci *Kralı* 14 oktyabr 2004-cü ildən etibarən *Narodom Siamonidir.*

***Qanunvericilik hakimiyyəti:*** İkipalatalı Parlamentdən: 61 yerlik *Senatdan (Yuxarı Palataya 2 üzvü Kral təyin edir, 2 üzv Milli Məclis tərəfindən seçilir, qalan 57 üzvü isə seçicilərin funksional dairələri tərəfindən 5 il müddətinə seçilirlər)* və 123 yerlik *Milli Assambleyadan (Aşağı Palataya deputatlar ümumxalq səsverməsi yolu ilə 5 il müddətinə seçilirlər)* ibarətdir.

Parlamentin rəsmi vəzifəsi qanunların qəbulu və dərc edilməsidir. *Kral Milli Assambleya* tərəfindən qəbul edilən qanunlara veto qoymaq hüququna malik deyil. *Kamboca Parlamenti* 2/3 səs çoxluğu ilə *Baş naziri* və onun rəhbərlik etdiyi *Hökuməti* istefaya göndərmək səlahiyyətinə malikdir.

29 yanvar 2012-ci il və 27 iyul 2008-ci il tarixlərində *Senata* və *Milli Assambleyaya* keçirilmiş seçkilərdə qalib gəlmiş əsas siyasi partiyalar:

*Kamboca Xalq Partiyası (Senatda 46 yer, Milli Assambleyada isə 90 yer əldə etmişdir, lideri Hun Sendir),*

*SRP (11 - 26),*

*İnsan Hüquqları Partiyası (Aşağı Palatada 3 yer),*

*FUNKİNPEC (Aşağı Palatada 2 yer),*

*NRP (Aşağı Palatada 2 yer).*

***İcraedici hakimiyyət:*** *Milli Assambleyada* daha çox səs qazanmış siyasi partiyanın lideri - *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabineti* ölkədə icra hakimiyyətini həyata keçirilir. *Nazirlər Kabinetinin* tərkibi, bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın üzvlərindən formalaşır.

*Baş nazir* Parlamentdə etimad qazandıqdan sonra, *Milli Assambleyanın* sədrinin və sədr müavinin təqdimatı ilə *Kral* tərəfindən təyin olunur. Vəzifəsinin icrasına başladıqdan dərhal sonra *Baş nazir*, onun qarşısında məsuliyyət daşıyan *Nazirlər Kabinetini* təyin edir və onun iclaslarına sədrliyi həyata keçirir.

30 noyabr 1998-ci ildən etibarən ölkənin hazırkı, sayca 56-cı *Baş naziri Kamboca Xalq Partiyasının* lideri *Samdek Hun Sendir.*

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya görə məhkəmə hakimiyyəti, ölkədə ən yüksək məhkəmə instansiyası sayılan *Ali Magistratura Şurası, habelə 17 üzvdən ibarət Ali Məhkəmə, Apelyasiya Məhkəməsi* və digər aşağı instansiya məhkəmələri tərəfindən həyata keçirilir *(ölkədə həmçinin hərbi məhkəmələr sistemi də mövcuddur).*

# KANADA





***Ümumi məlumat:*** 1605-ci ildə fransızlar *Kanadada* ilk Avropa müstəmləkəsini yaratsalar da, çox keçmədən bu prosesə ingilislər də qoşulmuşlar. 1763-cü ildə baş vermiş Yeddiillik müharibə nəticəsində *Kanada* ərazisində yerləşən bütün fransız koloniyaları ingilislərə verilmişdir.

1867-ci ildə *Britaniya İmperiyası* çərçivəsində, dörd müstəmləkəni birləşdirən dominion hüququnda muxtar dövlət – *Kanada Federasiyası* yaradılmışdır. 1931-ci ildən etibarən müstəqil dövlətdir.

*Şimali Amerikada* yerləşən *Kanadanın* paytaxtı *Ottava* şəhəridir.

Ölkənin ərazisi 9,984,670 km², əhalisi *(2011)* 33,476,688 nəfərdir *(əhali sıxlığı 3.41 nəfər/km²)*.

*Kanadanın* rəsmi dövlət dili *ingilis* və *fransız* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.908* - çox yüksəkdir *(6-cı yer)*.

***Dövlət quruluşu:*** Konstitusiyalı monarxiya, həmçinin güclü demokratik ənənəyə malik parlament formasında idarəetmə üsullu federasiyadır. Milli bayram günü olan Kanada günü *(1867-ci il, Britaniyanın Şimali Amerika koloniyalarının birləşməsi)* 01 iyulda qeyd olunur. Kanada Konstitusiyası 17 aprel 1982-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 10 əyalətdən *(Alberta, Britaniya Kolumbiyası, Manitoba, Nyu-Bransuik, Nyu-Faundlənd və Labrador,*

*Yeni Şotlandiya, Ontario, Prins Edvard adası, Kvebek, Saskaçevan)* və üç ərazidən *(Şimal-Qərb Əraziləri, Nanavut və Yukon)* ibarətdir

***Dövlət başçısı:*** *Kraliça* 06 fevral 1952-ci ildən etibarən *Elizabet II*, onun ölkədəki təmsilçisi olan *General-Qubernator* isə 01 oktyabr 2010-ildən *Devid Loyd Constondur*. General-Qubernator Kanada *Baş nazirinin* təklifi ilə *Kraliça* tərəfindən 5 il müddətinə təyin edilir.

Seçkilər nəticəsində *İcmalar Palatasında* hakim partiya və ya koalisiyaya rəhbərlik edən şəxs, *General-Qubernator* tərəfindən *Baş nazir* təyin edilir. Baş nazir formal olaraq qərarlarını, nəzəri baxımdan geniş icra və qanunvericilik səlahiyyətlərinə malik olan *General-qubernatorun* razılığı əsasında qəbul etməli olduğu halda, əslində Hökumətin adından kifayət qədər müstəqil qərarlar verir

***Qanunverici hakimiyyət:*** 308 deputatdan ibarət *İcmalar Palatasından (üzvləri dörd il müddətinə birbaşa ümumxalq səsverməsi yolu ilə, majoritar seçki sistemi əsasında seçilirlər, 2 iyun 2011-ci ildən sədri Endryu Şerdir)* və 105 senatordan ibarət *Senatdan (üzvləri Baş nazirin təqdimatı əsasında General-Qubernator tərəfindən təyin edilirlər, 75 yaşa qədər xidmət edə bilərlər, sədri 08 fevral 2006-cı ildən Noel Kinselladır)* ibarət iki palatalı Parlamentdir.

*Senat* və *İcmalar Palatası* qanunvericilik hakimiyyətini *General-qubernatorla* birlikdə həyata keçirirlər. General-qubernator nəzəri baxımdan Parlamentin qəbul etdiyi qanunların təsdiqindən imtina etmək səlahiyyətlərinə malik olsa da, indiyədək Kanada praktikasında belə bir hal olmamışdır.

02 may 2011-ci ildə *İcmalar Palatasına* keçirilmiş son seçkilər nəticəsində mandat qazanmış əsas siyasi partiyalar:

*Kanada Mühafizəkarlar Partiyası (166 deputat),*
*Yeni Demokratik Partiyası (103 deputat),*
*Liberal Partiya (34 deputat),*

*Kvebek Bloku (4 deputat),*

*Yaşıllar Partiyası (1 deputat).*

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. Kabinetə rəhbərlik edən *Baş nazir* Parlament seçkilərində qalib gəlmiş siyasi həmfikirlərinin (hakim partiya üzvləri) arasından Federal Nazirliklərə rəhbərlik edə biləcək şəxsləri seçərək, onların namizədliklərini General-qubernatora təqdim edir. Ölkədə siyasi stabilliyi qorumaq məqsədi ilə, həmin şəxslərin təyinatı Parlamentin *Aşağı Palatasında* mütləq təqdir olunmalıdır.

Səfirlərin, dövlət cəmiyyətlərinin sədrlərinin, habelə Kanada Ali Məhkəməsinin baş hakimlərinin təyin edilməsi də Baş nazirin səlahiyyətlərinə daxildir.

06 fevral 2006-cı ildən etibarən ölkənin hazırkı, sayca 22-ci *Baş naziri, Kanada Mühafizəkarlar Partiyasının* lideri *Stefen Harperdir.*

Hal-hazırda Stefen Harperin rəhbərlik etdiyi Kanada Hökuməti 34 nazirlikdən ibarətdir. Regionlar baxımından *Kvebekdən* 5, Qərb əyalətlərindən *(Alberta, Britiş Kolumbiya, Manitoba və Saskatçevan)* 10, Atlantik əyalətlərindən isə 3 nəfər nazir təyin edilmişdir.

**Məhkəmə hakimiyyəti:** *Kanada Ali Məhkəməsi (hakimləri General-Qubernator vasitəsilə Baş nazir tərəfindən təyin edilirlər), Kanada Federal Məhkəməsi, Kanada Apelyasiya Məhkəməsi* və *əyalət məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# KÜVEYT





***Ümumi məlumat:*** *Küveyt* VIII əsrdən *Ərəb Xilafətinin,* XVI yüzillikdən etibarən isə *Osmanlı İmperiyasının* tərkibinə daxil edilmişdir.

1899-1961-ci illərdə *İngiltərənin* siyasi təsir dairəsinə düşmüş *Küveyt,* 1961-ci ildən müstəqil *Əmirlikdir.*

1990-cı ildə *İraq* tərəfindən işğal olunmuş ölkə*,* 1991-ci ildə Koalisiya qoşunları *(NATO ordusu və Fars körfəzi sahili dövlətlərinin ordusu)* tərəfindən azad edilmişdir.

*Ərəbistan yarımadasının* şimal-şərq hissəsində, *Fars körfəzi* sahilində yerləşən *Küveyt* dövlətinin paytaxtı *Küveyt* şəhəridir.

Ölkənin ərazisi 17,820 km$^2$, əhalisi *(2012)* 2,818,042 nəfərdir *(əhali sıxlığı 200.2 nəfər/km$^2$).*

*Küveytin* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.760* - yüksəkdir *(63-cü yer).*

***Dövlət quruluşu:*** Küveyt mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır *(irsi əmirlik).* Milli bayram günü olan milli gün (1950) 25 fevralda qeyd olunur. Ölkə Konstitusiyası 11 noyabr 1962-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 6 qubernatorluğa *(Əl-Əhmədi, Əl-Fərvaniyyə, Əl-Asima, Əl-Cəhra, Həvalli, Mübarək Əl-Kəbir)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə *Hökumətin* başçısını təyin etmək, *Parlamenti* buraxmaq, qanun layihələ-

rini imzalamaq və ya onları yenidən işlənilməsi üçün *Məclisə (Parlament)* qaytarmaq və s. mühüm səlahiyyətlərə malik olan *Əmir* - dövlətin başçısı və Küveyt silahlı qüvvələrinin ali baş komandanıdır.

Ölkənin idarə edilməsində de-yure müstəsna və şəriksiz hüquqlara malik olan, de-fakto isə ölkəni təkbaşına idarə edən *Əmirin* toxunulmazlıq hüququ vardır, bununla belə *Küveyt Əmirliyinin* kütləvi informasiya vasitələrində onun tənqid edilməsinə qadağa mövcud deyil.

2006-cı ilin 29 yanvar tarixindən etibarən *(varislik əsasında təyin olunur) Əmir Şeyx Sabah Əl-Əhməd Əl-Cabir Əl-Sabahdır.*

***Qanunvericilik hakimiyyəti:*** Birpalatalı *Milli Məclisdir.* Parlamentin 50 üzvü var və onlar ümumxalq seçkiləri yolu ilə 4 il müddətinə seçilirlər. Konstitusiyaya görə, Məclis *Əmir* tərəfindən çağırılır və dövlət başçısının yeni çağırış məqsədilə Parlamenti qısa müddətə buraxmaq səlahiyyəti vardır.

Ölkədə siyasi partiyalar yoxdur və mövcud qanunvericiliyə görə siyasi partiyaların yaradılması qadağandır.

2012-ci ilin dekabr ayından etibarən Küveyt Milli Məclisinin sədri *Casim Əl-Hərəfidir.*

01 dekabr 2012-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Milli Məclisdə* yer almış əsas siyasi bloklar:

*Müstəqillər – 29 yer,*
*İslamçı şiələr – 17 yer,*
*İslamçı sünnilər – 4 yer.*

***İcraedici hakimiyyət:*** Üzvləri *Baş nazir* tərəfindən təyin olunan və dövlət başçısı *(Əmir)* tərəfindən təsdiq edilən *Nazirlər Şurası,* ölkədə icra hakimiyyətini *Əmirlə* birlikdə həyata keçirir. Küveytin ikinci ali vəzifəli şəxsi *(Əmirdən sonra)* sayılan və Hökumətə başçılıq edən *Baş nazir* və onun müavini, habelə Hökumətin digər ali yetkililəri dövlət başçısı tərəfindən

təyin olunur. Kifayət qədər geniş səlahiyyətlərə malik olan *Nazirlər Şurası Milli Məclis* qarşısında heç bir məsuliyyət daşımır.

04 dekabr 2011-ci il tarixindən etibarən ölkənin hazırkı *Baş naziri Cabir Əl-Mübarək Əl-Həməd Əs-Sabahdır.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə-hüquq sistemi İslam *(fundamental "Şəriət")* hüququnun təməl prinsiplərinə əsaslanır. Küveyt dövlətinin məhkəmə hakimiyyəti *Ali Apel-yasiya Məhkəməsi,* habelə birinci instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

# QRENADA





***Ümumi məlumat:*** 1498-ci ildə *Kolumb* tərəfindən kəşf edilən *Qrenada* adası, 1650-1783-cü illərdə *Fransanın*, 1783-cü ildən isə *Böyük Britaniyanın* müstəmləkəsi olmuşdur.

*Qrenada* 1974-cü ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir. *Karib dənizinin* cənub-şərq hissəsində yerləşən *Qrenada* ada dövlətinin paytaxtı *Sent-Corces* şəhəridir.

Ölkənin ərazisi 344 km², əhalisi *(2005)* 110,000 nəfərdir *(əhali sıxlığı 319.8 nəfər/km²)*.

*Qrenadanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.748* - yüksəkdir *(67-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1974) fevral ayının 7-də qeyd olunur. Ölkə Konstitusiyası 07 fevral 1974-cü ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 6 dairəyə *(Sent-Endryu, Sent-Devid, inzibati mərkəzi Qrenadanın paytaxtı Sent-Corces olan Sent-Corc, Sent-Con, Sent-Mark, Sent-Patrik)* və 2 asılı əraziyə *(Kariaku və Kiçik Martinik)* bölünür.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı Qrenadada* təmsil edən *General-Qubernatordur.* Mövcud Konstitusiyaya görə, ölkənin general-qubernatoru Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın liderinin (*Baş na-*

*zirin)* təqdimatı ilə təyin edilir və öz fəaliyyətini *Baş nazirin* və *Hökumətin* tövsiyələrinə uyğun şəkildə həyata keçirir.

*General-Qubernator Baş nazirin* tövsiyəsi ilə Parlamenti buraxmaq və yeni seçkilərin vaxtını təyin etmək, Parlamentin *Yuxarı Palatasının* üzvlərinin böyük əksəriyyətini, *Ali Məhkəmənin* sədrini və digər hakimləri təyin etmək, habelə Konstitusiya ilə müəyyən olunmuş qaydada bir sıra mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malikdir.

Qrenadanın hazırkı, sayca 27-ci *General-Qubernatoru* 27 noyabr 2008-ci ildən etibarən *Karlayl Arnold Qlindir.*

***Qanunverici hakimiyyət:*** 15 üzvü ölkənin əhalisi tərəfindən birmandatlı dairələrdən 5 illik müddətə seçilən *Nümayəndələr Palatasından (Aşağı Palatanın sədri 30 avqust 2008-ci ildən etibarən Corc Mak Guirdir)* və 10 senatoru *General-Qubernator,* 3 üzvü isə müxalifət lideri tərəfindən təyin olunan 13 yerlik *Senatdan (Yuxarı Palatanın Prezidenti 20 avqust 2008-ci ildən etibarən Joan Purseldir)* ibarət iki palatalı *Parlamentdir.*

Kifayət qədər geniş səlahiyyətlərə malik olan Qrenada Parlamenti qanunvericilik hakimiyyətini, formalaşdırdığı və fəaliyyətinə bilavasitə nəzarət etdiyi *Hökumətlə* birlikdə həyata keçirir.

19 fevral 2013-cü ildə keçirilmiş son parlament seçkiləri nəticəsində *Qrenada Yeni Milli Partiyası (lideri Kit Mitçel)* qalib gələrək bütün deputat mandatlarına sahib olmuşdur.

***İcraedici hakimiyyət:*** *Hökumət* və ona rəhbərlik edən *Baş nazir* ölkədə icra hakimiyyətini həyata keçirir. Parlamentdə daha çox mandata sahib olan siyasi partiyanın lideri *Qrenadanın Baş naziri* seçilir. Parlamentdə təmsil olunan qalib partiyanın üzvləri arasından *Baş nazirin* formalaşdırdığı Kabinetin tərkibi, *Nümayəndələr Palatasının* razılığı ilə *general-qubernator* tərəfindən təsdiq edilir.

Ölkənin daxili və xarici siyasət kursunun həyata keçirilməsində səlahiyyətli olan *Hökumətin* başçısı və nazirlər, ali qanunverici orqanın *Aşağı Palatası* qarşısında siyasi məsuliyyət daşıyır.

*Yeni Milli Partiyanın* lideri *Kit Mitçel* 20 fevral 2013-cü ildən etibarən ölkənin hazırkı, sayca 12-ci *Baş naziridir***.**

***Məhkəmə hakimiyyəti*****:** Qrenadanın məhkəmə-hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanır. Ölkədə məhkəmə hakimiyyəti *Şərqi Karib Ali Məhkəməsi* tərəfindən həyata keçirilir.

Qrenada *Ali Məhkəməsinin* sədri Baş nazirin və müxalifət liderinin, digər hakimlər isə *Məhkəmə Komissiya Şurasının* təqdimatı ilə General-qubernator tərəfindən təyin olunurlar.

# LESOTO





***Ümumi məlumat:*** *Lesotonun* dövlətçilik tarixi XIX əsrin birinci yarısına təsadüf edir. 1868-1966-cı illər ərzində ölkə *Basutolend* adı altında *Böyük Britaniyanın* protektoratı olmuşdur.

*Lesoto* 1966-cı ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

Afrikanın cənub hissəsində yerləşən *Lesoto Krallığının* paytaxtı *Maseru* şəhəridir.

Ölkənin ərazisi 30,355 km², əhalisi *(2009)* 2,067,000 nəfərdir *(əhali sıxlığı* 68.1 *nəfər/km²).*

*Lesotonun* rəsmi dövlət dili *sesoto və ingilis* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.450* - aşağıdır *(160-cı yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1966) 4 oktyabr tarixində qeyd olunur. Lesotonun Konstitusiyası 5 fevral 1993-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Vardlardan ibarət 10 rayona *(Berya, Buta-Bute, Leribe, Mafetenq, Maseru, Moxales-Xuk, Mokotlonq, Skaças-Nek, Skutinq və Taba-Seka)* bölünür.

***Dövlət başçısı:*** "Milli Birliyin canlı rəmzi" sayılan *Kral* - Lesoto dövlətinin başçısıdır. Mövcud Konstitusiyaya görə qanunverici və icraedici funksiyalara malik olmayan *Kral*, əsasən mərasim funksiyalarını yerinə yetirir. Bununla yanaşı,

dövlət başçısı *Parlamenti* buraxmaq və erkən seçkilər təyin etmək, habelə *Baş naziri*, nazirləri, məhkəmə hakimlərini və *Senatda* təmsil olunan üzvlərin 1/3-ni təyin etməkdə səlahiyyətlidir.

Kral yetkinlik yaşına çatmadıqda, ölkədə olmadıqda və xəstəliyi səbəbindən ölkəni idarə etmək qabiliyyətinə malik olmadığı hallarda dövlət regent tərəfindən idarə olunur. Ənənəvi olaraq, kimin varis, regent və ya zəruri hallarda *Kralı* əvəzləyəcək şəxs olmasını *Rəhbərlik Kollegiyası* müəyyən edir.

07 fevral 1996-cı il tarixindən etibarən *Lesotonun* hazırkı, sayca 4-cü *Kralı III Letsiedir.*

***Qanunverici hakimiyyət:*** İkipalatalı Parlament: 120 yerlik *Milli Assambleyadan (Aşağı Palataya 80 üzv birmandatlı seçki dairələrindən sadə səs çoxluğu ilə, 40 deputat isə proporsional təmsilçilik sistemi üzrə və milli partiya siyahılarına əsasən 5 il müddətinə seçilirlər)* və 33 yerlik *Senatdan (Yuxarı Palatanın 22 üzvü ali qəbilə başçılarını və onların təyin etdikləri şəxsləri ehtiva edir, digər 11 senator isə Baş nazirin və Milli Assambleyanın sədrinin də yer aldığı Dövlət Şurasının təqdimatı ilə Kral tərəfindən 5 illik müddətə təyin edilir)* ibarət olan ali qanunverici orqandır.

Ölkədə qanunvericilik hakimiyyəti ilə yanaşı, Hökumətlə birlikdə icra hakimiyyətini də həyata keçirən Parlamentin *Aşağı Palatası Nazirlər Kabinetinə* etimadsızlıq göstərmək səlahiyyətinə malikdir. Bu halda *Baş nazir* istefa verir və yaxud *Kraldan* Parlamentin buraxılmasını xahiş edir.

26 may 2012-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində *Milli Assambleyada* yer almış əsas siyasi partiyalar:

*Demokratik Konqres Partiyası – 48 yer,*
*ABC – 30 yer,*
*Demokratiya Naminə Lesoto Konqresi – 26 yer,*

*Basoto Milli Partiyası - 5 yer,*
*Demokratiya Uğrunda Xalq Cəbhəsi – 3 yer,*
*Milli Azadlıq partiyası – 2 yer,*
*Lesoto Xalq Konqresi - 1 yer,*
*Basoto Milli demokratik Partiyası – 1 yer,*
*MFP – 1 yer,*
*Basoto Konqres Partiyası – 1 yer,*
*BBDP – 1 yer,*
*Lesoto Fəhlə Partiyası – 1 yer.*

***İcraedici hakimiyyət:*** *Hökumətin* vasitəçiliyi ilə icra hakimiyyətini həyata keçirən *Lesoto Kralı,* parlament seçkiləri nəticəsində qalib gəlmiş siyasi partiyanın üzvləri arasından *Baş naziri (bir qayda olaraq partiya lideri)* və onun təqdimatı əsasında *Nazirlər Kabinetinin* üzvlərini təyin edir. Mövcud Konstitusiyaya görə, bütün nazirlər Parlamentin seçilmiş və ya təyin edilmiş üzvləridir və *Milli Assambleya* qarşısında kollektiv məsuliyyət daşıyırlar.

08 iyun 2012-ci ildən etibarən *Lesotonun* hazırkı *Baş naziri ABC* partiyasının təmsilçisi *Tom Tabanedir.*

***Məhkəmə hakimiyyəti:*** *Lesotonun* hüquq sistemi roma-holland hüquq sisteminə əsaslanır. Mövcud Konstitusiyaya görə ölkədə məhkəmə hakimiyyəti, sədrləri *Baş nazirin,* hakimləri isə *Məhkəmə Xidməti Komissiyasının* məsləhətinə əsasən *Kral* tərəfindən təyin edilən *Ali Məhkəmə, Apelyasiya, Magistrat* və kənd yerlərində fəaliyyət göstərən ənənəvi məhkəmələr tərəfindən həyata keçirilir.

# LİXTENŞTEYN





***Ümumi məlumat:*** 1719-cu il tarixində, *Vaduts və Şelleberq* feodal torpaqlarının birləşməsi nəticəsində yaranmış *Lixtenşteyn Knyazlığı*, 1918-ci ilə qədər *Avstriya-Macarıstanla* sıx əlaqədə olmuş və onun *Forarlberq* əyaləti ilə ümumi gömrük dairəsi təşkil etmişdir.

1921-ci ildə müstəqil dövlət elan olunaraq, *İsveçrənin* siyasi protektoratına çevrilmiş *Lixtenşteyn*, 1923-cü ildə bu ölkə ilə Gömrük İttifaqı barədə müqavilə bağlamışdır. Bu razılığa əsasən *İsveçrə,* xarici ölkələrdə *Lixtenşteynin* diplomatik və konsul maraqlarını təmsil edir.

*Avropanın* mərkəzi hissəsində yerləşən *Lixtenşteyn Knyazlığının* paytaxtı *Vaduts* şəhəridir.

Ölkənin ərazisi 160 $km^2$, əhalisi *(2011)* 36,281 nəfərdir *(əhali sıxlığı 227 nəfər/$km^2$).*

*Lixtenşteyn Knyazlığının* rəsmi dövlət dili *alman* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.905* - çox yüksəkdir *(8-ci yer).*

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1866) 15 avqustda qeyd olunur. Lixtenşteyn Konstitusiyası 05 oktyabr 1921-ci ildən *(çoxsaylı dəyişiklik və düzəlişlər edilməklə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** Hər vahidliyi bir şəhər olan 11 inzibati-ərazi vahidliyinə *(icma)* bölünür. Onlardan 5-i *(Qamprin, Mauren, Ruqqen, Şellenberq, Eşen)* Aşağı Lixtenşteynin, 6

vahidlik *(Balsers, Vaduts, Planken, Trizen, Trizenberq, Şaan)* isə Yuxarı Lixtenşteynin ərazisinə aiddir.

***Dövlət başçısı:*** 13 noyabr 1989-cu ildən etibarən Lixtenşteynin dövlət başçısı *Knyaz II Hans-Adamdır.*

Dövlətin idarə olunmasını həyata keçirən *Knyaz, Landtaqın (Parlament)* qəbul etdiyi qanunvericilik aktlarını təsdiq etmək, digər dövlətlərlə beynəlxalq münasibətlərdə Lixtenşteyni təmsil etmək, dövlət qulluqçularını vəzifəyə təyin etmək, əfv fərmanı vermək və s. səlahiyyətlərə malikdir. *Landtaqın* qəbul etdiyi aktlar *Knyazın* razılığı olmadan qüvvəyə minə bilməz, əksinə, dövlət başçısı fövqəladə hallarda Parlamentin və Baş nazirin razılığını almadan qanun statusuna bərabər fərmanlar dərc etməkdə səlahiyyətlidir.

Konstitusiyaya görə, *Knyazın* Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək, habelə Hökumət üzvlərini vəzifədən azad etmək hüququ, onun dövlət iyerarxiyasında müstəsna səlahiyyət sahibi olmasını təsbit edir.

***Qanunverici hakimiyyət:*** Birpalatalı olmaqla birbaşa və gizli səsvermə yolu ilə, proporsional nümayəndəlik sistemi əsasında *(15 deputat Oberlanddan və 10 üzv Unterlanddan)* 4 il müddətinə seçilən 25 yerlik *Landtaqdır*. Mövcud Konstitusiyada ali qanunverici orqanın səlahiyyət hüdudları dəqiq müəyyən edilmişdir.

Parlamentin əsas vəzifəsi konstitusion təkliflərlə və Hökumətin qanun layihələri ilə bağlı qətnamələrin müzakirəsi və qəbulunu təmin etməkdən ibarətdir. Bununla yanaşı, *Landtaq* mühüm beynəlxalq müqavilələrə razılıq vermək, *Hökumət* üzvlərini və məhkəmə hakimlərini seçmək, illik dövlət büdcəsini təsdiq etmək, vergi və digər dövlət yığımlarını müəyyənləşdirmək, habelə dövlətin idarə edilməsinə nəzarət etmək kimi mühüm səlahiyyətlərə malikdir.

*Vətən Birliyi Partiyasının* nümayəndəsi *Artur Brunhart* 2009-cu ildən etibarən Lixtenşteyn Parlamentinin hazırkı sədridir.

2013-cü ilin 01-03 fevral tarixlərində keçirilmiş son Parlament seçkiləri nəticəsində *Landtaqda* yer almış əsas siyasi partiyalar:

*Vətəndaş Tərəqqi Partiyası - 10 yer,*
*Vətən Birliyi Partiyası - 8 yer ,*
*Müstəqillər – Lixtenşteyn Uğrunda – 4 yer,*
*FL – 3 yer.*

***İcraedici hakimiyyət:*** Knyaz icra hakimiyyətini *Baş nazirin* rəhbərlik etdiyi *koalisiyalı Hökumət* vasitəsilə həyata keçirir. 5 üzvdən ibarət olan Lixtenşteyn Hökuməti kollegiallıq prinsipinə əsaslanır, yəni Hökumət üzvləri *(eyni zamanda Parlamentdə təmsil olunurlar)* bir-biri ilə həmkarlıq və əməkdaşlıq müstəvisində fəaliyyət göstərirlər. Baş nazir də daxil olmaqla, kollegial hökumətin 3 üzvü Parlamentdə daha çox səs qazanmış partiyanı, digər iki nəfər isə müxalifəti təmsil edirlər.

Hökumət üzvləri *Landtaqın* təqdimatı ilə monarx tərəfindən təyin edilir. Yalnız Lixtenşteyndə anadan olmuş və Parlamentə seçilmək hüququ olan ölkə vətəndaşları Hökumətə üzv seçilə bilər.

Müasir Avropanın əksər monarxiyalarından fərqli olaraq, Lixtenşteyndə icra hakimiyyəti rəhbərinin *(Baş nazir)* səlahiyyətləri məhduddur.

2013-cü ilin mart ayından etibarən ölkənin *Baş naziri (bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın nümayəndəsi olur) Vətəndaş Tərəqqi Partiyasını* təmsil edən *Adrian Haslerdir.*

***Məhkəmə hakimiyyəti:*** *Dairə məhkəmələri (1-ci instansiya məhkəməsi), Yüksək Məhkəmə (apelyasiya məhkəməsi)* və *Ali Məhkəmə (sonuncu instansiya məhkəməsi)* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Konstitusiyaya nəzarət funksiyası isə, tərkibi Parlamentdə seçilmiş və *Knyaz* tərəfindən təsdiq edilmiş *Ali Dövlət Tribunalı* tərəfindən yerinə yetirilir.

Bütövlükdə, Lixtenşteyn məhkəmələrinin peşəkar hakimləri *Landtaqın* təqdimatı ilə *Knyaz* tərəfindən təyin olunurlar.

# LÜKSEMBURQ







***Ümumi məlumat:*** Eramızın I əsrindən *Belgika adlanan* Roma əyalətinin, VII yüzillikdə isə *Frank* dövlətinin tərkibinə daxil olmuş *Lüksemburq*, 963-cü ildən müstəqil Qraflıq, XIV əsrdən isə *Hersoqluq* elan edilmişdir. Sonrakı dövrlər ərzində aparıcı Avropa dövlətlərinin hakimiyyətinə tabe olmuş ölkə, 1815-ci ildən *Böyük Lüksemburq Hersoqluğu* adlanır.

*Avropanın* qərb hissəsində yerləşən ölkənin paytaxtı *Lüksemburq* şəhəridir.

*Böyük Lüksemburq Hersoqluğunun* ərazisi 2,586 km$^2$, əhalisi *(2012)* 524,853 nəfərdir *(əhali sıxlığı 194.1 nəfər/km$^2$).*

*Lüksemburqun* rəsmi dövlət dili *lüksemburq, fransız* və *alman* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.867* - çox yüksəkdir *(25-ci yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram olan müstəqillik günü (1815) 09 iyunda qeyd olunur. Konstitusiya 17 oktyabr 1868-ci ildən *(vaxtaşırı düzəlişlər edilməklə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** *Lüksemburq* 116 kommunanı özündə birləşdirən 12 kantondan *(Vianden, Vilts, Qrevenmaxer, Dikirx, Eş, Eşternax, Kapellen, Klervo, Lüksemburq, Merş, Remiş və Rodanj)* ibarət 3 dairəyə *(Lüksemburq, Dikirş və Qrevenmaxer)* bölünür.

***Dövlət başçısı:*** 7 oktyabr 2000-ci ildən etibarən Lüksemburqun dövlət başçısı *Böyük Hersoq Anridir (vəliəhd Şahzadə Qiyomdur).*

Mövcud Konstitusiyaya əsasən, *Böyük Hersoq* Hökumətin və onun üzvlərinin təşkilatlanmasını müəyyən edir, qanunları və digər normativ-hüquqi aktları təsdiq edir, mülki və hərbi vəzifələrə təyinatı həyata keçirir, dövlətin adından beynəlxalq müqavilələri imzalayır və qanunvericiliklə müəyyən olunmuş qaydada digər funksiyaları həyata keçirir.

***Qanunverici hakimiyyət:*** Birpalatalı olmaqla birbaşa ümumxalq səsverməsi yolu ilə, proporsional seçki sistemi əsasında beş il müddətinə seçilən 60 üzvdən ibarət *Deputatlar Palatasıdır.* Konstitusiyada, Hökumətin fəaliyyətinə nəzarət etmək və zəruri hallarda ona etimadsızlıq göstərmək hüququ təsbit edilmiş ali qanunverici orqanın səlahiyyət hüdudları dəqiq müəyyən edilmişdir. Deputatlar Palatasının üzvləri *Hökumətin* tərkibində ola bilməzlər.

*Baş nazirin* tövsiyəsi ilə *Böyük Hersoq* tərəfindən təyin olunan 21 üzvdən ibarət *Dövlət Şurası, Deputatlar Palatasının* məsləhətçi orqanıdır.

Lüksemburq Parlamentinin hazırkı sədri 28 iyul 2009-cu il tarixindən etibarən *Laurent Mosardır.*

07 iyun 2009-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində Deputatlar Palatasında yer almış siyasi partiyalar:

*Xristian-Sosial Xalq Partiyası - 26 yer ,*

*Lüksemburq Sosialist Fəhlə Partiyası - 13 yer,*

*Demokratik Partiya – 9 yer,*

*Yaşıllar Partiyası - 7 yer,*

*Alternativ Demokratik İslahatlar Partiyası - 4 yer,*

*Solçular Partiyası – 1 yer.*

***İcraedici hakimiyyət:*** Faktiki olaraq bütün icra hakimiyyətini özündə birləşdirən *Nazirlər Şurasının* tərkibini*, Baş nazirin* tövsiyəsi ilə *Böyük Hersoq* təyin edir. *Böyük Hersoq*

tərəfindən təyin edilən, lakin Parlament qarşısında məsuliyyət daşıyan Baş nazir, bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın nümayəndəsi olur.

Hazırkı Parlamentdə və Hökumətdə *Xristian-Sosial Xalq Partiyasının* üzvləri üstünlük təşkil etdiyinə görə, 20 yanvar 1995-ci ildən etibarən ölkənin *Baş naziri*, bu partiyanı təmsil edən *Jan-Klod Yunkerdir.*

***Məhkəmə hakimiyyəti:*** *Ədliyyə məhkəmələri və tribunallar (3 asayiş hakimi, 2 dairə məhkəməsi və Ali Apelyasiya məhkəməsi),* habelə *inzibati məhkəmə və tribunallar (Dövlət Prokuroru İdarəsi, inzibati məhkəmə və tribunallar, Konstitusiya Məhkəməsi)* tərəfindən həyata keçirilir. Bütün məhkəmələrin hakimləri *Böyük Hersoq* tərəfindən ömürlük təyin olunurlar.

# MƏRAKEŞ





***Ümumi məlumat:*** Əsrlər boyu *finikiyalıların, romalıların, vandalların, bizanslıların* nəzarəti altında olmuş *Mərakeşin* indiki ərazisi, VII əsrdə ərəblər tərəfindən fəth edilmişdir. *Mərakeş* 1912-ci ildə *Fransanın* protektoratına çevrilmiş, ölkənin şimal hissəsi isə *İspaniyanın* nəzarətinə verilmişdir.

1956-cı ildən etibarən *Mərakeş Krallığı* müstəqil dövlətdir.

*Afrikanın* şimal-qərb hissəsində yerləşən *Mərakeş Krallığının* paytaxtı *Rabat* şəhəridir.

Ölkənin ərazisi 446,550 km², əhalisi *(2012)* 32,644,370 nəfərdir *(əhali sıxlığı 73,1 nəfər/km²)*.

*Mərakeşin* rəsmi dövlət dili *ərəb və bərbər* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.582* - ortadır *(130-cu yer)*.

***Dövlət quruluşu:*** Dualist formada idarəetmə üsuluna malik olan konstitusiyalı monarxiyadır. Milli bayram günü olan Taxt günü *(1999, VI Məhəmmədin Kral olduğu gün)* 30 iyulda, müstəqillik günü 2 martda (1956) qeyd olunur. Yeni Konstitusiya 02 iyul 2011-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 16 regiondan *(Böyük Kasablanka, Şaviyyə-Vardiğa, Dukkala-Əbda, Fes-Bulemani, Ğərb-Şrərda-Beni Hssen, Əl-Əyun-Bucdur-Səqiet-Əl Həmra, Quelmim-Əs-Smara, Mərakeş-Tənsift-Əl-Həuz, Məknes-Tafilalət, Şərqi, Rabat-Səli-Zəmmur-Zəir, Sus-Massa-Drəa, Tədla-Əzilal, Tancər-Tətvan, Taza-Əl-Huseyma-Tavnati)* ibarətdir.

***Dövlət başçısı:*** *Hökumətə* münasibətdə qeyri-məhdud səlahiyyətlərə malik olan *Kraldır*. Ölkədə Krala və onun ailəsinə, Monarxiya konsepsiyasına, kral ailəsinin maddi sərvətinə qarşı hər-hansı tənqidi fikir söyləmək qadağandır. Dövlət başçısı statusu ilə yanaşı, Mərakeş Konstitusiyasının 2-ci maddəsinə uyğun olaraq, *Kral* ölkənin dini rəhbəri, millətin ali təmsilçisi və milli birliyin rəmzi, habelə dövlətin əzəmətinin və qüdrətinin qarantıdır.

*Kral* Mərakeş cəmiyyətinin həyatında və siyasi hakimiyyətin yükünün əsas daşıyıcısı olan monarxiyanın idarəçilik sistemində çox vacib fiqur sayılır.

1999-cu ilin 23 iyul tarixindən etibarən *Kral VI Məhəmməddir (hakimiyyət varislik əsasında ötürülür).*

***Qanunverici hakimiyyət:*** İki palatalı *Parlament* - 270 yerlik *Müşavirlər Palatasından (Yuxarı Palatanın üzvləri mərhələlərlə yerli şuralar, həmkarlar ittifaqı təşkilatları və əmək konsorsiumları tərəfindən 9 il müddətinə seçilirlər; Müşavirlər Palatasının üçdə bir hissəsi hər üç ildən bir yenilənir)* və 395 yerlik *Nümayəndələr Palatasından (Aşağı Palataya üzvlər ümumxalq seçkiləri yolu ilə 5 il müddətinə seçilirlər)* ibarətdir.

Nazirlər Kabineti tərəfindən təqdim edilmiş illik büdcənin təsdiq edilməsi, Hökumətin Parlamentə təqdim etdiyi qanun layihələrinin müzakirəsi və qəbulu, qanunvericilik fəaliyyətinin həyata keçirilməsi və müxtəlif məsələlər üzrə komitələrin formalaşdırılması və s. məsələlər Parlamentin səlahiyyətlərinə aiddir.

25 noyabr 2011-ci ildə keçirilmiş növbədənkənar Parlament seçkilərində *Nümayəndələr Palatasında* yer qazanmış əsas siyasi partiyalar:

*Ədalət və İnkişaf Partiyası (107 yer, lideri Abdallah Benkirane),*

*İstiqlal Partiyası (60 yer, Abbas Əl Fassi),*

*Müstəqillik Uğrunda Milli Birlik Partiyası (52 yer, Səlahəddin Məzuar),*

*Həqiqət və Müasirlik Partiyası (47 yer, Məhəmməd Şeyx Biadillah),*

*USFP (39 yer, Əbdülvahid Radi),*

*Xalq Hərəkatı (32 yer, Mohand Lanser),*

*Konstitusiya İttifaqı (23 yer, Məhəmməd Ubeyd),*

*Tərəqqi və Sosializm Partiyası (18 yer, Məhəmməd Nəbil Bin Abdullah),*

*Mərakeş Əmək Partiyası (4 yer, Əbdülkərim Binatiq),*

*Digər partiyalar (13 yer).*

***İcraedici hakimiyyət:*** *Nazirlər Şurası* və ona rəhbərlik edən *Baş nazir* Kral tərəfindən yaradılır və təyin edilir. Baş nazir formal olaraq nazirləri seçmək hüququna malikdir, bununla belə, əsas nazirlərin təyin edilməsi Kralın *(ölkəni verdiyi fərmanlarla idarə etmək hüququna malikdir)* səlahiyyətinə aiddir.

*Mərakeş Kralı* tərəfindən təyin olunan *Baş nazir* 29 noyabr 2011-ci il tarixindən etibarən *Ədalət və İnkişaf Partiyasının* lideri *Abdallah Benkiranedir*.

***Məhkəmə hakimiyyəti:*** Müsəlman, habelə ənənəvi qəbilə və fransız məhkəmə sisteminə əsaslanan Mərakeşin məhkəmə strukturunda məhkəmə hakimiyyəti, ölkədə ən yüksək məhkəmə instansiyası sayılan və hakimləri *Kral* tərəfindən təyin edilən *Ali Məhkəmə,* eyni zamanda *yerli, regional, apelyasiya və hərbi məhkəmələr* tərəfindən həyata keçirilir.

# MONAKO





***Ümumi məlumat:*** XV əsrdən *Genuyanın,* 1524-1641-ci illər ərzində *İspaniyanın,* daha sonra isə *Fransanın* protektoratı olmuş müstəqil *Monako Knyazlığı,* 1793-1814-cü illərdə *Fransanın* tərkibinə qatılmışdır.

1918-ci ildə *Fransa* ilə bağlanmış müqaviləyə əsasən, *Monako* daxili və xarici siyasətini bu ölkə ilə razılaşdırmış şəkildə həyata keçirir və *Knyazlığı* xaricdə *Fransa* dövləti təmsil edir.

*Cənubi Avropada, Aralıq* dənizinin sahilində yerləşən *Monako Knyazlığının* paytaxtı *Monako* şəhəridir.

Ölkənin ərazisi 1.98 $km^2$, əhalisi *(2011)* 36,371 nəfərdir *(əhali sıxlığı 15,142 nəfər/$km^2$).*

*Monakonun* rəsmi dövlət dili *fransız* dilidir.

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1297) 08 yanvarda qeyd olunur. Monakonun Konstitusiyası 17 dekabr 1962-ci ildən *(02 aprel 2002-ci ildə edilmiş düzəlişlərlə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** 10 rayondan *(Sen-Roman, Larvotto, Sen-Mişel, Monako, Monte-Karlo, La-Kondamin, Moneqetti, Le-Revuar, La-Koll, Fonvyey)* ibarət 3 Kommunaya *(La Kondamin, Monte-Karlo və Monako)* bölünür.

***Dövlət başçısı:*** 06 aprel 2005-ci ildən etibarən *Monakonun* hazırkı dövlət başçısı, 13-cü *Knyaz II Albertdir.*

Dövlətin idarə olunmasını həyata keçirən *Knyaz,* digər dövlətlərlə ikitərəfli münasibətlərdə Monakonu təmsil etmək, Parlamentə qanunvericilik təşəbbüsü hüququnda qanun layihələrini təqdim etmək, *Milli Şuranın (Parlament)* razılığı ilə qüvvədə olan Konstitusiyaya qismən və ya tam olaraq yenidən baxmaq, amnistiya vermək və əfv fərmanı imzalamaq, habelə vətəndaşlıq vermək və mükafatlandırmaq səlahiyyətlərinə malikdir.

Knyazın yanında, ölkənin maraqlarını ehtiva edən məsələlərlə bağlı dövlət başçısına məsləhət verən və konstitusion səlahiyyətlərinin icrasında Knyaza köməklik göstərən *Tac Şurası* fəaliyyət göstərir. *Şura* Knyazın baxılması üçün ona təqdim etdiyi qanun və fərman layihələri ilə bağlı yekun rəyini bildirir.

***Qanunverici hakimiyyət:*** Birpalatalı olmaqla ümumxalq səsverməsi yolu ilə, 2/3 hissəsi majoritar qaydada, 1/3-i isə proporsional nümayəndəlik sistemi əsasında 5 il müddətinə seçilən 24 yerlik *Milli Şuradır.* Mövcud Konstitusiyaya görə qanunvericilik hakimiyyəti *Knyaz* və *Milli Şura (2002-ci ildən etibarən qanunvericilik təşəbbüsü hüququna malikdir)* tərəfindən həyata keçirilir.

Parlament qanunların və *Knyazlığın* büdcəsinin qəbulunda, vergi və digər dövlət yığımlarının müəyyən olunmasında, Hökumət layihələrinə dəyişikliklər edilməsində, mövcud daxili qanunvericiliyi dəyişdirən beynəlxalq müqavilələrin ratifikasiyasında, habelə 2/3 səs çoxluğu ilə Konstitusiyaya düzəlişlər edilməsində səlahiyyətlidir.

Milli Şura, *Hökumət Şurasının (Parlament qarşısında heç bir məsuliyyət daşımır)* razılığı ilə dövlət başçısı tərəfindən, dərhal seçkilər keçirilməsi şərti ilə buraxıla bilər.

Monako Parlamentinin hazırkı sədri 2010-cu ildən etibarən *Monako Birliyi Partiyasının* təmsilçisi *Jan-Fransua Robillondur.*

03 fevral 2008-ci ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində *Milli Şurada* yer almış əsas siyasi partiyalar:

*Monako Birliyi - (21 yer, lideri Stefan Valeri),*

*Milli Demokratik Birlik - 3 yer.*

***İcraedici hakimiyyət:*** *Knyaz* icra hakimiyyətini *Dövlət nazirinin* rəhbərlik etdiyi *Hökumət Şurası* vasitəsilə həyata keçirir. 5 üzvdən (nazir və müşavirlər) ibarət olan Monakonun Hökumət Şurası ixtisaslaşmış departamentlərin və bütövlükdə Knyazlığın idarə edilməsinə görə *Knyaz* qarşısında məsuliyyət daşıyırlar.

Qanun layihələrinin hazırlanaraq Knyaza təqdim edilməsi, qanunçuluğun təminatı, qanunların və knyaz fərmanlarının icrası ilə bağlı nazirliklərin normativ-hüquqi aktlarının dərc edilməsi, xarici siyasətin həyata keçirilməsi, polisə və silahlı qüvvələrə rəhbərlik və s. mühüm məsələlər Hökumətin səlahiyyətlərinə aiddir.

Ənənəvi olaraq Fransa vətəndaşı olan və Fransa Hökumətinin təklif etdiyi üç namizəddən biri *Knyaz* tərəfindən 3 il müddətinə *Dövlət naziri* təyin olunur.

29 mart 2010-cu ildən etibarən Monako Knyazlığının hazırkı, sayca 22-ci *Dövlət naziri Mişel Rojedir.*

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyaya görə, *Knyazın* rəhbərlik etdiyi məhkəmə hakimiyyətini, üzvləri Milli Şuranın təqdimatı ilə dövlət başçısı tərəfindən 4 il müddətinə təyin edilən, fransız məhkəmə-hüquq sisteminin təməl prinsipləri əsasında fəaliyyət göstərən *Ali Məhkəmə* və *Ali Tribunal,* habelə 1-ci instansiya və apelyasiya məhkəmələri həyata keçirir.

# NİDERLAND





***Ümumi məlumat:*** E.ə. I yüzillikdən eramızın V əsrinə qədər *Roma əyaləti* olmuş, V yüzillikdə isə *Frank* dövlətinin tərkibinə daxil edilmiş *Niderland*, 1477-ci ildə *Qabsburqların* nəzarətinə verilmişdir.

XVI əsrdə baş vermiş *Niderland burjua inqilabı* nəticəsində ölkə ərazisində *Birləşmiş Əyalətlər Respublikası* yaradılmış, XVII yüzillikdə isə, *Niderland* artıq iri müstəmləkə dövlətinə çevrilmişdir.

*Vyana Konqresi* (1814-1815) *Birləşmiş Əyalətlər Respublikasının* yerində, 1830-cu ilə qədər *Belçikanın* da daxil olduğu vahid *Niderland Krallığının yaradılması haqqında* qərar qəbul etmiş, lakin cənubi hollandiyalılar *(flamandlılar)* 1830-cu ildə müstəqilliklərini *Belçika* adı altında elan etmişlər.

*Avropanın* qərb hissəsində yerləşən ölkənin paytaxtı *Amsterdam* şəhəridir.

*Niderland Krallığının* ərazisi 41,543 km$^2$, əhalisi *(2013)* 16,751,323 nəfərdir *(əhali sıxlığı 405.4 nəfər/km$^2$)*.

*Niderlandın* rəsmi dövlət dili *niderland* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.910* - çox yüksəkdir *(3-cü yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram olan *kraliçanın* doğum günü 30 apreldə qeyd olunur. Ölkə Konstitusiyası 1815-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 430 şəhər və kənd icmasından *(Bonayre, Saba, Sint-Estatius və s.)* ibarət olan 12 əyalətə *(Qelderland, Qroningen, Drente, Zelandiya, Limburq, OvereyseI, Şimali Brabant, Şimali Hollandiya, Utrext, Flevoland, Frislandiya, Cənubi Zelandiya)* bölünür.

***Dövlət başçısı:*** Məşvərətçi orqan olan *Dövlət Şurasının* başçısı sayılan *Monarx* rəsmən dövlət başçısı sayılsa da, icraedici hakimiyyəti *Nazirlər Kabineti* ilə birlikdə həyata keçirir.

Mövcud Konstitusiyaya görə, toxunulmazlıq statusuna malik olan *Kraliça (və ya Kral)* Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın liderini *Baş nazir* vəzifəsinə təyin edir. *Baş nazirin* təqdimatı ilə digər *Kabinet* üzvləri də dövlət başçısı tərəfindən təyin edilir.

Bundan əlavə, *Kraliça (və ya Kral) Hökumətin* istefasını qəbul etmək, qanun layihələrini təsdiq etmək, *Niderland Parlamentinin* illik sessiyalarını açmaq və beynəlxalq əlaqələr sahəsində dövləti təmsil etmək, habelə əfv fərmanı vermək səlahiyyətlərinə malikdir.

Bununla belə, monarxın səlahiyyətləri bir çox hallarda formal xarakter daşıyır, çünki onun funksiyalarının böyük bir qismi *Hökumət* tərəfindən həyata keçirilir.

*Niderlandın* hazırkı dövlət başçısı, 30 aprel 2013-cü il tarixindən etibarən *VII Kral Villem-Aleksandr Klaus Georq Ferdinanddır.*

***Qanunverici hakimiyyət:*** İki palatadan – üzvləri əyalət şuraları tərəfindən 4 il müddətinə seçilən 75 yerlik *Birinci palatadan (Eerste Kamer)* və deputatları birbaşa ümumxalq səsverməsi ilə 4 il müddətinə seçilən 150 yerlik *İkinci palatadan (Tweede Kamer)* ibarət *Baş ştatlardır (Staten Generaal).*

*Parlament* ildə bir dəfədən az olmayaraq növbəti sessiya üçün toplanır. Zəruri hallarda Kral fövqəladə sessiya çağıra bilər. Palataların iclasları bir qayda olaraq, ictimaiyyətə açıq olur, lakin deputatların tələblərinə uyğun olaraq, qapalı iclas-

ların da keçirilməsi mümkündür. Parlamentin bütün qərarları səsvermədə iştirak edən deputatların mütləq səs çoxluğu ilə qəbul edilir.

*Baş Ştatların* palatalarının səlahiyyətləri bərabər deyil, belə ki, *İkinci palata* dövlət mexanizmində daha mühüm rola malikdir. *Baş nazir (Hökumət başçısı) ilk növbədə* bu palatanın əksər üzvlərinin dəstəyini qazanmalıdır. *Hökuməti* formalaşdıran *Baş nazirin* təqdim etdiyi *Hökumət* bəyannaməsi İkinci Palatada səsverməyə çıxarılır. Palatanın etimadını qazandığı təqdirdə *Kabinet*, öz fəaliyyətinə başlaya bilər. İkinci palata tərəfindən *Hökumətə* etimadsızlıq göstərilən müddətə qədər, nazirlər öz vəzifələrini icra edə bilərlər.

*İkinci palata* Konstitusiyaya dəyişikliklər edə və qanunları təsdiqləyə bilər. Birinci palata qanun layihəsini qəbul və ya rədd edə bilər. *Hökumətin* və ya deputatların təqdim etdikləri qanun layihəsi, hər iki Palata tərəfindən qəbul edilməlidir. Kral, ona təqdim edilmiş bu sənədi imzalayandan sonra, 20 gün müddət ərzində qanun qüvvəyə minir.

Bundan əlavə, hər iki palata Hökumətin ənənəvi olaraq təqdim etdiyi illik dövlət büdcəsini təsdiq etmək, zəruri hallarda hər bir nazirdən strateji əhəmiyyət kəsb edən məsələlərlə bağlı hesabat tələb etmək, Parlamentin istintaq komissiyası *(Hökumətdən müstəqil olan)* vasitəsi ilə araşdırma aparmaq səlahiyyətinə malikdir.

23 may 2011-ci ildə *Birinci Palataya* və 12 sentyabr 2012-ci il tarixində *İkinci Palataya* keçirilmiş son seçkilər nəticəsində Parlamentdə təmsil olunan əsas siyasi partiyalar:

*Azadlıq və Demokratiya Naminə Xalq Partiyası (Liberal və ya VVD) – (Birinci Palata - 16 yer, İkinci palata – 41 yer),*

*Əmək Partiyası (14 - 38),*

*Azadlıq Partiyası (10 - 15),*

*Sosialist Partiyası (8 - 15),*

*Xristian Demokratik Çağırış Partiyası (11 - 13),*

*Demokratlar 66 (5 - 12),*
*Xristian İttifaqı (2- 4),*
*Sol Yaşıllar Partiyası (5 - 5)* və digər partiyalar.

***İcraedici hakimiyyət:*** Parlament çoxluğu əsasında yaradılan və tərkibində nazirlərin və dövlət katiblərinin yer aldığı *Kabinetdir.* Hökumətə - 14 Nazirlikdən ibarət *Kabineti* formalaşdıran, onun fəaliyyətinə nəzarət edən və birbaşa məsuliyyət daşıyan *Baş nazir* rəhbərlik edir. Niderland Krallığının *Baş naziri* qanunların icrasını təmin edir, ölkənin müdafiə qabiliyyətinin möhkəmlənməsinə cavabdehlik daşıyır, Niderlandı beynəlxalq arenada təmsil edir.

Ölkənin hazırkı *Baş naziri* 14 oktyabr 2010-cu ildən etibarən *Azadlıq və Demokratiya Naminə Xalq Partiyasının* lideri *Mark Ryuttedir.*

***Məhkəmə hakimiyyəti:*** *Niderlandın* ən yüksək məhkəmə orqanı sayılan *Ali Məhkəmə (Hoge Raad)* tərəfindən həyata keçirilir. Ali Məhkəmənin hakimləri *Niderland Baş Ştatlarının* İkinci palatasının təsdiq etdiyi 3 namizədin yer aldığı siyahıdan *Kralın* sərəncamı ilə təyin olunur. Bu namizədlər, öz növbəsində *Ali Məhkəmədə* təsdiq olunur. *Ali Məhkəmə* - sədrdən, 7 sədr müavinindən, maksimum 30 hakimdən və 15 fövqəladə hakimdən ibarətdir.

# NORVEÇ







***Ümumi məlumat:*** *Norveçin* erkən feodal dövlətçiliyi IX əsrdə, ayrı-ayrı tayfa birliklərinin əsasında təşəkkül tapmışdır. 1397-1523-cü illərdə *Kalmar Birliyinin* tərkibində olmuş *Norveç*, 1537-ci ildə *Danimarkanın* əyalətinə çevrilmişdir.

*Norveç* 1814-cü ildə *İsveçin* də daxil olduğu *Birliyə* üzv olmuş və bu İttifaq 1905-ci ilə qədər davam etmişdir.

*Avropanın* şimal hissəsində, *Skandinaviya yarımadasında* yerləşən *Norveçin* paytaxtı *Oslo* şəhəridir.

Ölkənin ərazisi 385,252 $km^2$, əhalisi *(2012)* 5,033,675 nəfərdir *(əhali sıxlığı 15.5 nəfər/$km^2$)*.

*Norveç Krallığının* rəsmi dövlət dili *norveç* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.943* - çox yüksəkdir *(1-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan konstitusiya günü (1814) 17 may tarixində qeyd olunur. *Norveç Krallığının* konstitusiyası da məhz həmin gündən çox saylı düzəlişlərlə qüvvədədir.

***İnzibati bölgüsü:*** 430 kommunadan ibarət 19 əyalətə *(Nurlann, Troms, Finnmark, Trendelaq, Nur-Trendelak, Ser-Trendelak, Vestlann, Xordallan, Ruqaland, Oslo, Telemark, Xedmark və s. fyulkelər)* və 3 asılı əraziyə *(Şpitsberqen, Yan-Mayen və Buve adası)* bölünür.

***Dövlət başçısı:*** *Norveç Kralı* formal olaraq geniş səlahiyyətlərə malikdir. İcra hakimiyyətini *Hökumət* vasitəsilə həyata keçirən *Kral, Baş nazir* və nazirlərlə birgə *Dövlət Şurasında* fəaliyyət göstərirlər. Mövcud Konstitusiyada öz fəaliyyətinə görə məsuliyyət daşımayan Kralın şəxsiyyətinin statusu "müqəddəs və mötəbər" olaraq təsbit edilir.

Parlamentin sessiyaları arasında yaranan fasilə dövrü ərzində, *Kral* müstəqil olaraq sənaye, ticarət, asayişin mühafizəsi məsələləri üzrə, qanun qüvvəsinə malik normativ aktları qəbul edə bilər.

*Kral* rəsmi olaraq bütün siyasi təyinatları həyata keçirir, bütün mərasimlərdə iştirak edir və vəliəhdlə birlikdə *Dövlət Şurasının (Hökumət)* formal həftəlik iclaslarına sədrlik edir.

*Stortinqə* münasibətdə *Norveç Kralı*, Parlamentin sessiyalarını açmaq, sessiyanın ilk iclasında ənənəvi nitq söyləmək, habelə zəruri hallarda fövqəladə sessiya çağırmaq və digər mühüm səlahiyyətlərə malikdir. *Norveç Kralı Hökumətin* məsləhəti ilə ali vəzifəli şəxsləri təyin və azad edir, əfv fərmanı verir, xarici siyasət məsələlərini həll edir - xarici dövlətlərlə müqavilələr bağlayır və ya onları ləğv edir, diplomatik nümayəndələri qəbul edir.

Quru, hərbi-dəniz və hərbi-hava qüvvələrinin ali baş komandanı olan *Kral*, ölkənin müdafiəsi məqsədi ilə müharibəyə başlamaq və sülh bağlamaq səlahiyyətinə malikdir.

17 yanvar 1991-ci ildən etibarən *Norveçin Kralı V Haralddır.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 169 yerdən ibarət olan *Parlamentə (Stortinq)* deputatlar 4 illik müddətə ümumi, bərabər, birbaşa və gizli səsvermə yolu ilə, proporsional seçki sistemi üzrə seçilirlər.

Qanunlarının dərc edilməsi, illik dövlət büdcəsinin qəbulu, Hökumətin fəaliyyətinə nəzarətin həyata keçirilməsi və s. mühüm məsələlər *Stortinqin* səlahiyyətlərinə daxildir.

Ölkə Parlamentinin hazırkı sədri 08 oktyabr 2009-cu ildən *Fəhlə Partiyasının* təmsilçisi *Daq Andersendir.*

14 sentyabr 2009-ci ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində mandat əldə etmiş əsas siyasi partiyalar:

*Fəhlə Partiyası (64 yer, 35.4%)*
*Tərəqqi Partiyası (41 yer, 22.9%)*
*Mühafizəkarlar Partiyası (30 yer, 17.2%)*
*Sosialist Sol Partiyası (11 yer, 6.2%)*
*Mərkəz Partiyası (11 yer, 6.2%)*
*Xristian Demokratik Partiyası (10 yer, 5.5%)*
*Liberal Partiya ( 2 yer, 3.9%).*

***İcraedici hakimiyyət:*** Mövcud Konstitusiyaya görə, icraedici hakimiyyəti həyata keçirən Hökumət, dövlət idarəçiliyi sahəsində səlahiyyətlərin böyük əksəriyyətini əlində cəmləmişdir. İcra hakimiyyəti ilə yanaşı qanunvericilik hakimiyyətinin bir qismini də həyata keçirən *Hökumətin* başçısını - *Baş naziri,* Parlamentin razılığı ilə Parlament seçkilərində daha çox səs qazanmış siyasi partiyanın üzvləri arasından Monarx təyin edir.

Qanun layihələrinin və büdcə layihəsinin *Stortinqin* müzakirəsinə çıxarılması, habelə Parlamentin qərarlarının Nazirliklərin fəaliyyəti vasitəsilə yerinə yetirilməsi və s. icra hakimiyyətini həyata keçirən *Nazirlər Kabinetinin* səlahiyyətlərinə aiddir.

Çox vacib və dövlət idarəçiliyi üçün əhəmiyyətli olan qanun layihələrinin müzakirə edilməsi məqsədi ilə, Kralın və Hökumətin təsis etdiyi *Dövlət Şurasının* tərkibi də *monarx* tərəfindən təyin və Parlament tərəfindən təsdiq olunur.

17 oktyabr 2005-ci ildən etibarən ölkənin hazırkı, sayca 20-ci *Baş naziri Fəhlə Partiyasının* lideri *Jens Stoltenberqdir.*

***Məhkəmə hakimiyyəti:*** 5 regional apelyasiya məhkəmələrinin ünvanladığı mülki və cinayət işləri üzrə apelyasiyalara baxan, 5 hakimdən ibarət olan və *Niderlandın* ən yüksək

məhkəmə orqanı sayılan *Ali Məhkəmə* - ölkədə məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir.

3 hakimdən ibarət olan *regional apelyasiya* məhkəmələri, eyni zamanda dövlətin nəzarətində olan mühüm cinayət işləri ilə bağlı birinci instansiya məhkəməsinin funksiyalarını yerinə yetirir.

*Norveçdə* həmçinin, aşağı məhkəmə instansiyasına aid olan şəhər və dairə məhkəmələri də fəaliyyət göstərir.

# PAPUA - YENİ QVİNEYA





***Ümumi məlumat:*** XIX əsrdə avropalıların indiki *Papua-Yeni Qvineya* ərazisini işğal etməsi nəticəsində, *Almaniya* və *Böyük Britaniya* adanın və ona yaxın kiçik adaların öz aralarında bölünməsinə nail olmuşlar.

1906-cı ildən adanın *Böyük Britaniyaya* məxsus *cənub (Papua),* Birinci dünya müharibəsindən sonra isə *Almaniyaya* məxsus şimal hissəsi *Avstraliyanın* nəzarətinə verilmişdir.

*Papua-Yeni Qvineya* 1975-ci ildən etibarən müstəqil dövlətdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Papua-Yeni Qvineyanın* paytaxtı *Port-Morsbi* şəharidir.

Ölkənin ərazisi 462,840 km², əhalisi *(2012)* 6,310,129 nəfərdir *(əhali sıxlığı 15 nəfər/km²).*

*Papua-Yeni Qvineyanın* rəsmi dövlət dili *ingilis, tok-pisin və hiri-motu* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.466* - aşağıdır *(153-cü yer).*

***Dövlət quruluşu:*** *Britaniya İttifaqının* tərkibində parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1975) 16 sentyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 1975-ci ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 22 əyalətdən *(Mərkəzi, Simbu, İstern-Xaylends, Şərqi Yeni Britaniya, Şərqi Sepik, Enqa, Madanq, Körfəz, Manus, Miln-Bey, Morobe, Yeni İrlandiya, Oro,*

*Buhenvil Muxtar Regionu, Saytern Xaylends, Qərbi, Uestern Xaylends, Qərbi Yeni Britaniya, Sandaun, Milli Paytaxt dairəsi, Xila və Civaka)* ibarət olan 4 regiona *(Aylends, Momaso, Papua və Haylends)* bölünür.

***Dövlət başçısı:*** *Kraliça II Yelizavetanı Papua-Yeni Qvineyada* təmsil edən və Parlament tərəfindən sadə səs çoxluğu ilə 6 il müddətinə seçilən *general-qubernator, Baş nazirin* və *Hökumətin* məsləhətlərinə uyğun olaraq fəaliyyət göstərir. Britaniya İttifaqının digər Krallıqlarından fərqli olaraq *Baş nazir* tərəfindən deyil, məhz ali qanunverici orqan tərəfindən seçilən General-qubernator Parlamentdə 2/3 səs çoxluğu ilə ikinci müddətə ali vəzifəyə seçilə bilər.

Bir qayda olaraq mərasim funksiyalarını yerinə yetirən *General-qubernator, Baş nazirin* və müxalifət liderinin təqdimatı ilə *Ali Məhkəmə* sədrini təyin etməkdə səlahiyyətlidir.

*Papua-Yeni Qvineyanın* hazırkı *General-qubernatoru* 25 fevral 2011-ci ildən etibarən *Maykl Oqiodur.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 109 yerlik *Milli Parlament* qanunvericilik hakimiyyətini *Hökumətlə* birlikdə həyata keçirir. Mövcud Konstitusiyaya müvafiq olaraq, Parlamentə 89 üzv birmandatlı dairələrdən, qalan 20 deputat isə əyalətlərin elektoratları tərəfindən 5 il müddətinə seçilirlər.

*General-qubernator* və *Baş nazir*, kifayət qədər geniş səlahiyyətlərə malik olan ölkə Parlamenti tərəfindən seçilir. *General-qubernator* hər hansı bir səbəbdən vəzifəsinin icrasını dayandırdığı təqdirdə, onun səlahiyyətləri dərhal Milli Parlamentin sədrinə keçir.

*Milli Parlamentin* hazırkı sədri 03 avqust 2012-ci il tarixindən etibarən *Teo Zurenosdur.*

23 iyun - 13 iyul 2012-ci ildə keçirilmiş sonuncu *Parlament* seçkiləri nəticəsində *Milli Parlamentdə* yer almış ölkənin əsas siyasi partiyaları:

*Xalq Milli Konqresi (27 deputat),*

*Həqiqət İrsini Gücləndirmə Partiyası (12 deputat),*
*Papua-Yeni Qvineya Partiyası (8 deputat),*
*Milli Alyans Partiyası (7 deputat),*
*Birləşmiş Resurslar Partiyası (7 deputat),*
*Xalq Partiyası (6 deputat),*
*Xalq Tərəqqi Partiyası (6 deputat),*
*Sosial Demokratik Partiya (3 deputat),*
*İslahatçı Koalisiya Partiyası (2 deputat),*
*Liberal Partiya (2 deputat),*
*Xalq Demokratik Hərəkatı Partiyası (2 deputat),*
*Panqu Partiyası (1 deputat),*
*İttifaq Partiyası (1 deputat) və s.*

Bundan əlavə, daha 12 partiya *Parlamentdə* bir və ya daha çox deputatla təmsil olunub, digər 16 mandat isə bitərəflərə məxsusdur.

***İcraedici hakimiyyət:*** *Baş nazirin* başçılığı ilə *Papua-Yeni Qvineya Hökuməti* tərəfindən həyata keçirilir. Parlament tərəfindən seçilən *Baş nazir* Hökumətin tərkibini formalaşdırır.

Parlament qarşısında siyasi məsuliyyət daşıyan *Baş nazirin* və *Hökumət* üzvlərinin təyinatından yalnız 18 ay sonra ali qanunverici orqan, ölkənin daxili və xarici siyasət kursunu müəyyənləşdirən və həyata keçirən *Hökumətə* etimadsızlıq göstərə və onu istefaya göndərə bilər.

02 avqust 2011-ci ildən etibarən ölkənin hazırkı *Baş naziri Milli Xalq Konqresi Partiyasının* lideri *Piter O`Nildir.*

***Məhkəmə hakimiyyəti:*** Ölkənin hüquq sistemi ingilis ümumi hüquq *(paytaxt və digər böyük şəhərlərdə)* və qəbilə *(əyalətlərdə)* sistemlərindən qaynaqlanır.

Ölkədə məhkəmə hakimiyyətini, məhkəmə iyerarxiyasında ən yüksək apelyasiya instansiyası sayılan *Papua-Yeni Qvineyanın Ali Məhkəməsi* həyata keçirir. *Ali Məhkəmənin* sədri *Milli İcra Şurasının* məsləhətinə uyğun olaraq dövlət başçısı tərəfindən, digər məhkəmə hakimləri isə *Məhkəmə və Hüquq Xidməti Komissiyası* tərəfindən təyin edilir.

## SENT-KİTS VƏ NEVİS

  

***Ümumi məlumat:*** Yerli hindu əhalisinin yaşadığı *Sent-Kits və Nevis* adaları 1493-cü ildə *Kolumb* tərəfindən kəşf edilmişdir. XVII əsrdə *Böyük Britaniya və Fransa* arasında adalar uğrunda baş vermiş mübarizə nəticəsində, *Sent-Kits və Nevis* 1625-ci ildən *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmişdir.

*Sent-Kits və Nevis* 1983-cü ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Karib dənizinin* şərq hissəsində yerləşən iki adadan ibarət olan dövlətin paytaxtı *Baster* şəhəridir.

Ölkənin ərazisi 261 km², əhalisi *(2005)* 51,300 nəfərdir *(əhali sıxlığı 164 nəfər/km²)*.

*Sent-Kits və Nevisin* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.735* - yüksəkdir *(72-ci yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında federal idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1983) sentyabr ayının 19-da qeyd olunur. *Sent-Kits və Nevisin* konstitusiyası 22 iyun 1983-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 9 dairəsi *(Krayst-Çerç-Nikola-Taun, Sent-Con-Kapister, Sent-Corc-Baster, Sent-Meri-Kayon, Sent-Piter-Baster, Sent-Pol-Kapister, Sent-Tomas-Midl-Aylend, Sent-Enn-Sendi-Poynt, Triniti-Palmetto-Poynt)* Sent-Kits

adasında, 5-i *(Sent-Ceyms-Uinduord, Sent-Con-Fiqtri, Sent-Corc-Cincerland, Sent-Pol-Çarlstaun və Sent-Tomas-Loulend)* isə *Nevis* adasında yerləşən 14 dairədən ibarətdir.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı* təmsil edən və *Sent-Kits və Nevis Federasiyası* Hökumətinin təqdimatı ilə təyin edilən *General-Qubernatordur.*

Mövcud Konstitusiyaya uyğun olaraq, *Milli Assambleyada (Parlamentdə)* yerlərin əksəriyyətinə sahib olan siyasi partiyanın liderini *Baş nazir* təyin etmək, habelə *Baş nazirin* təqdimatı ilə *Hökumət* üzvlərini formalaşdırmaq və bir sıra digər mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malik olan *General-qubernator*, bəzi hallar istisna olmaqla, bütövlükdə *Hökumətin* tövsiyə və məsləhətlərinə uyğun olaraq fəaliyyət göstərir.

Federasiyanın hazırkı, sayca 3-cü *general-qubernatoru* 02 yanvar 2013-cü ildən etibarən *Edmund Lourensdir.*

***Qanunverici hakimiyyət:*** 15 yerlik *Milli Assambleyadan (sədri 18 aprel 2008-ci ildən etibarən Kurtis Martindir)* ibarət birpalatalı Parlamentdir. Ənənəvi olaraq qanunvericilik funksiyalarının həyata keçirilməsində səlahiyyətli olan *Assambleyaya* 11 deputat *(nümayəndə)* birmandatlı dairələrdən 5 il müddətinə seçilir, 3 üzv *(senator) Baş nazirin* və müxalifət liderinin təqdimatı ilə *Genaral-Qubernator*, 1 üzv *(senator)* isə *Baş prokuror* tərəfindən təyin edilir.

*Federasiyanın* tərkibindən çıxmaq hüququna malik olan *Nevis* adasının Konstitusiyada sadalanan yerli məsələlər üzrə əhəmiyyətli qanunvericilik aktları qəbul etməkdə səlahiyyətli olan, 8 yerlik *(üzvlərin 5-i seçilir, 3 deputat isə təyin edilir)* müstəqil Parlamenti fəaliyyət göstərir.

25 yanvar 2010-cu ildə keçirilmiş son Parlament seçkiləri nəticəsində qalib gəlmiş əsas siyasi partiyalar:

*Sent-Kits və Nevis Leyborist Partiyası (6 deputat),*

*Xalq Fəaliyyət Hərəkatı Partiyası (2 deputat),*

*Maraqlı Vətəndaş Hərəkatı Partiyası (2 deputat),*
*Nevis İslahatlar Partiyası (1 deputat).*

***İcraedici hakimiyyət:*** *Hökumət* və onun *Sent-Kits və Nevis Federasiyasının* General-qubernatoru tərəfindən təsdiq edilən başçısı *(bir qayda olaraq Parlamentdə yerlərin əksəriyyətinə sahib olan partiyanın lideri Baş nazir olur)* ölkədə icraedici hakimiyyəti həyata keçirir.

Dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsində bilavasitə səlahiyyətli orqan sayılan və bu fəaliyyətinə görə *Milli Assambleya* qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabinetinin* tərkibi *Baş nazirin* tövsiyəsi ilə General-qubernator tərəfindən təyin edilir.

Ölkənin hazırkı, sayca 2-ci *Baş naziri* 06 iyul 1995-ci ildən etibarən *Sent-Kits və Nevis Leyborist Partiyasının* lideri *Denzil Llivelin Duqlasdır.*

***Məhkəmə hakimiyyəti*:** *Sent-Kits və Nevisin* hüquq sistemi tam olaraq ingilis ümumi hüquq sisteminə əsaslanır.

Ölkədə məhkəmə hakimiyyətini 4 Magistr Məhkəmələri və Konstitusiya Nəzarəti funksiyasını yerinə yetirən Yüksək Məhkəmə həyata keçirir. Məhkəmə hakimləri *İctimai Xidmət Komissiyasının* məsləhətinə uyğun olaraq dövlət başçısı tərəfindən təyin olunurlar.

# SENT-LÜSİYA





***Ümumi məlumat:*** 1502-ci ildə *Kolumb* tərəfindən kəşf edilən *Sent-Lüsiya* adası, XVII-XIX əsrlərdə 14 dəfə, növbə ilə *Böyük Britaniya və Fransanın* nəzarətinə keçmişdir.

1814-cü ildə Paris sülh müqaviləsinə əsasən, bütünlüklə *Böyük Britaniyanın* idarəçiliyinə verilmiş bu ada dövləti, 1979-cu ildə müstəqillik əldə etmişdir.

*Karib dənizinin Kiçik Antil adaları* arxipelaqında yerləşən *Sent-Lüsiyanın* paytaxtı *Kastri* şəhəridir.

Ölkənin ərazisi 617 km², əhalisi *(2009)* 173,765 nəfərdir *(əhali sıxlığı 298 nəfər/km²).*

*Sent-Lüsiyanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.723* - yüksəkdir *(82-ci yer).*

***Dövlət quruluşu:*** Britaniya İttifaqının tərkibində parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1979) fevral ayının 22-də qeyd olunur. *Sent-Lüsiyanın* Konstitusiyası 22 fevral 1979-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 11 dairəyə *(Ans-Lavua, Kastri, Şuazel, Dofin, Denneri, Qros-Aylet, Labori, Mikud, Preslin, Sufrier və Vye-For)* bölünür.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı* təmsil edən və *Sent-Lüsiya* Hökumət başçısının *(Baş nazirin)* tövsiyəsi ilə təyin edilən *General-Qubernator,* bəzi hallar istisna olmaqla, bütövlükdə Hökumətin tövsiyə və məsləhətlərinə uyğun olaraq fəaliyyət göstərir.

Qüvvədə olan Konstitusiyaya görə, *General-qubernator* Hökumətin formalaşması üçün tapşırıq vermək və Parlamentin razılığı ilə, ali qanunverici orqanda yerlərin əksəriyyətinə sahib olan siyasi partiyanın üzvlərindən ibarət Kabinetin tərkibini təsdiq etmək, habelə Senatın *(Parlamentin Yuxarı Palatası)* üzvlərini təyin etmək, Baş nazirin tövsiyəsi ilə *Sent-Lüsiya* Parlamentini buraxaraq növbədənkənar yeni seçkilər təyin etmək, qanunları imzalamaq və yüksək vəzifəli şəxsləri təyin və azad etmək səlahiyyətinə malikdir.

*Sent-Lüsiyanın* hazırkı, sayca 27-ci və ilk qadın *General-Qubernatoru* 17 sentyabr 1997-ci ildən etibarən xanım *Kalliopa Perlrtt Luizidir.*

***Qanunverici hakimiyyət:***: 11 yerlik *Senatdan (Yuxarı Palataya 6 senator Baş nazirin, 3 üzv müxalifət liderinin, 2 senator isə dini, iqtisadi və sosial qrupların tövsiyəsi ilə General-Qubernator tərəfindən təyin edilirlər)* və 17 yerlik *Məclis Evindən (sədri 2008-ci ildən Rozemari Hazbends-Masurin olan Aşağı Palataya deputatlar, ümumxalq səsverməsi yolu ilə birmandatlı dairələrdən 5 il müddətinə seçilirlər)* ibarət iki palatalı Parlamentdir.

Qanun layihələrinin hazırlanması və qəbul edilməsi, dövlət büdcəsinin müzakirəsi və təsdiqi, beynəlxalq müqavilələrin ratifikasiyası, habelə mövcud Konstitusiya ilə nəzərdə tutulmuş digər qanunvericilik funksiyaları Sent-Lüsiya Parlamentinin birbaşa səlahiyyətlərinə aiddir.

28 noyabr 2011-ci il tarixində keçirilmiş Parlament seçkiləri nəticəsində *Aşağı Palatada* yer qazanmış əsas siyasi partiyalar:

*Sent-Lüsiya Leyborist Partiyası – (11 yer, lideri Kenni Antoni)*

*Birləşmiş İşçi Partiyası (6 yer, lideri Stefenson Kinq).*

***İcraedici hakimiyyət:*** *General-Qubernatorun* təyin etdiyi *Baş nazirin* rəhbərliyi ilə *Hökumət (bir qayda olaraq Parla-*

*mentdə yerlərin əksəriyyətinə sahib olan partiyanın lideri Baş nazir olur, üzvləri isə Hökumətin tərkibində yer alır)* ölkədə icraedici hakimiyyəti həyata keçirir.

Dövlətin ümumi siyasətinin həyata keçirilməsində səlahiyyətli olan *və Parlament* qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabinetinin* tərkibi *Baş nazirin* tövsiyəsi ilə *General-qubernator* tərəfindən təsdiq edilir.

Ölkənin hazırkı *Baş naziri* 30 noyabr 2011-ci il tarixindən etibarən *Sent-Lüsiya Leyborist Partiyasının* lideri *Kenni Antonidir.*

***Məhkəmə hakimiyyəti*: *Sent-Lüsiyanın* unikal hüquq sistemi *Kvebekin (Kanada)* qarışıq hüquq sisteminə bənzərdir.

Ölkədə məhkəmə hakimiyyətini *4 Magistr Məhkəməsi* və konstitusiya nəzarəti funksiyasını yerinə yetirən *Yüksək Məhkəmə* həyata keçirir. Hakimlər *Məhkəmə* və *Hüquqi Xidmət Komissiyası* tərəfindən təyin olunurlar.

# SENT-VİNSENT VƏ QRENADİNA





***Ümumi məlumat:*** *Sent-Vinsent və Qrenadina* adalarına ilk avropalıların *(ispanların)* gəlişi 1498-ci ilə təsadüf edir. XVII yüzilliyə qədər *İspaniyaya* məxsus olmuş bu adalar, XVII-XVIII əsrlərdə növbə ilə *İngiltərənin* və *Fransanın* nəzarətinə keçmiş, 1783-cü ildə isə, bütünlüklə *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmişdir.

*Sent-Vinsent və Qrenadina* 1979-cu ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Karib dənizinin Kiçik Antil adaları* arxipelaqında yerləşən *Sent-Vinsent və Qrenadinanın* paytaxtı *Kinqstaun* şəhəridir.

Ölkənin ərazisi 389 km², əhalisi *(2008)* 120,000 nəfərdir *(əhali sıxlığı 307 nəfər/km²).*

*Sent-Vinsent və Qrenadinanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.717* - yüksəkdir *(85-ci yer).*

***Dövlət quruluşu:*** Britaniya İttifaqının tərkibində parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1979) oktyabr ayının 27-də qeyd olunur. *Sent-Vinsent və Qrenadinanın* Konstitusiyası 27 oktyabr 1979-cü ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 6 dairəyə *(Şarlotta, Qrenadina, Sent-Endryu, Sent-Devid, Sent-Corc və Sent-Patrik)* bölünür.

***Dövlət başçısı:*** Böyük Britaniya Kraliçası *II Yelizavetanı* təmsil edən və *Sent-Vinsent və Qrenadina* Hökumətinin töv-

siyəsi ilə təyin edilən *General-Qubernator,* bəzi hallar istisna olmaqla, *Nazirlər Kabinetinin* məsləhətlərinə uyğun olaraq fəaliyyət göstərir.

Qüvvədə olan Konstitusiyaya görə, dövlətin faktiki başçısı sayılan və bir qayda olaraq mərasim funksiyalarını yerinə yetirən *General-qubernator* Kabinetin tərkibini təsdiq etmək, Baş nazirin və müxalifət liderinin tövsiyəsi ilə Parlamentin 6 senatorunu təyin etmək, Baş nazirin tövsiyəsi ilə Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək, qanunları imzalamaq və s. səlahiyyətlərə malikdir.

*Sent-Vinsent və Qrenadinanın* hazırkı, sayca 7-ci *General-Qubernatoru* 02 sentyabr 2002-ci ildən *ser Frederik Nataniel Ballantayndır.*

***Qanunverici hakimiyyət:***: 21 yerlik *Assambleya Palatasından (sədri 17 aprel 2001-ci ildən etibarən Hendrik Aleksanderdir)* ibarət birpalatalı Parlamentdir. *Assambleyaya* 15 deputat birmandatlı dairələrdən 5 il müddətinə seçilir, 4 üzvü iqtidar partiyasının və 2 üzvü müxalifətin təmsilçisi olmaqla 6 senator isə *Genaral-Qubernator* tərəfindən təyin edilir.

Hökumətin təqdim etdiyi illik büdcənin müzakirəsi və təsdiqi, qanun layihələrinin qəbulu, icraedici hakimiyyətin fəaliyyətinə nəzarət və digər mühüm məsələlər *Sent-Vinsent və Qrenadina* Parlamentinin səlahiyyətlərinə aiddir.

13 dekabr 2010-cu ildə keçirilmiş Parlament seçkiləri nəticəsində *Aşağı Palatada* yer qazanmış əsas siyasi partiyalar:

*Birləşmiş Əmək Partiyası – (8 yer, lideri Ralf Gonsalveş)*

*Yeni Demokratiya Partiyası – (7 yer, lideri Arnim Yustas).*

***İcraedici hakimiyyət:*** *General-qubernator* tərəfindən təsdiq edilmiş sonuncu Parlament seçkiləri nəticəsində daha çox mandat qazanmağa müvəffəq olmuş siyasi partiyanın lideri - *Baş nazir* və onun rəhbərlik etdiyi *Hökumət* ölkədə icraedici hakimiyyəti həyata keçirir.

Qüvvədə olan Konstitusiyaya görə, dövlətin daxili və xarici siyasət strategiyasını həyata keçirən və *Parlament* qarşısında kollektiv məsuliyyət daşıyan *Nazirlər Kabinetinin* üzvləri *Baş nazir* tərəfindən formalaşır və *General-qubernator* tərəfindən təsdiq edilir.

Ölkənin hazırkı *Baş naziri* 28 mart 2001-ci il tarixindən etibarən *Birləşmiş Əmək Partiyasının* lideri *Ralf Gonsalveşdir*.

***Məhkəmə hakimiyyəti*:** *Sent-Vinsent və Qrenavidanın* hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanır.

Ölkədə məhkəmə hakimiyyətini *4 Magistr Məhkəməsi* və konstitusiya nəzarəti funksiyasını yerinə yetirən *Yüksək Məhkəmə* həyata keçirir. Hakimlər *Məhkəmə* və *Hüquqi Xidmət Komissiyası* tərəfindən təyin olunurlar.

# SOLOMON ADALARI





***Ümumi məlumat:*** *Solomon Adaları* ispanlar tərəfindən 1568-ci ildə aşkar edilsə də, sonrakı iki əsrdə avropalılar bu ərazilərə gəlməmiş və yalnız 1767-ci ildə ingilislər adaları yenidən kəşf etmişlər.

1893-1900-cu illərdə *Böyük Britaniya* adalar üzərində öz protektoratını tətbiq etmişdir.

*Solomon Adaları* 1978-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Solomon Adalarının* paytaxtı *Honiara* şəhəridir.

Ölkənin ərazisi 28,400 km², əhalisi *(2009)* 523,000 nəfərdir *(əhali sıxlığı 18.1 nəfər/km²)*.

*Solomon Adalarının* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.510* - aşağıdır *(142-ci yer)*.

***Dövlət quruluşu:*** Britaniya İttifaqının tərkibində parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1978) 07 iyul tarixində qeyd olunur. Ölkə Konstitusiyası 07 iyul 1978-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 9 əyalətə *(Tulaqi, Şuazel, Quadalkanal, İsabel, Makira-Ulava, Malaita, Rennel və Bellona, Temotu, Qərb Əyaləti)* və xüsusi inzibati vahidlik sayılan *Xonaira (Quadalkanal adası) Paytaxt ərazisinə* bölünür.

***Dövlət başçısı:*** *Kraliça II Yelizavetanı Solomon Adalarında* təmsil edən və Parlamentin təqdimatı ilə 5 il müddətinə təyin edilən *General-Qubernator (ölkə vətəndaşı olması əsas şərtdir),* bəzi hallar istisna olmaqla, *Hökumətin* məsləhətlərinə uyğun olaraq fəaliyyət göstərir.

Əsasən mərasim funksiyalarını yerinə yetirən dövlət başçısı, *Baş nazirin* təqdimatı ilə *Hökumət* üzvlərini və *Ali Məhkəmənin* sədrini, habelə *Məhkəmə* və *Hüquqi Xidmət Komissiyasının* tövsiyəsinə əsasən *Yüksək Məhkəmənin* və *Apelyasiya Məhkəməsinin* hakimlərini təyin etməkdə səlahiyyətlidir.

*Solomon Adalarının* hazırkı, sayca 6-cı *General-Qubernatoru* 07 iyul 2009-cu ildən etibarən *Frenk Utu Ofaqioro Kabuidir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 50 yerlik *Milli Parlament* ölkədə qanunvericilik hakimiyyətini həyata keçirir. Mövcud Konstitusiyaya uyğun olaraq, Parlamentə üzvlər ümumxalq səsverməsi yolu ilə birmandatlı dairələrdən 5 il müddətinə seçilirlər.

Qanunvericilik fəaliyyəti ilə yanaşı, *Baş naziri* seçməkdə, *General-Qubernatorun* təyin edilməsi üçün tövsiyə verməkdə, Hökumətə etimadsızlıq göstərməkdə və s. məsələlərdə səlahiyyətli olan Parlament, deputatların səs çoxluğu ilə vaxtından əvvəl buraxıla bilər.

*Milli Parlamentin* hazırkı sədri 2010-cu ilin sentyabr ayından etibarən *Allan Kemakezadır.*

04 avqust 2010-cu ildə keçirilmiş sonuncu Parlament seçkiləri nəticəsində ali qanunverici orqanda yer almış ölkənin əsas siyasi partiyaları:

*Demokratik Partiya (13 deputat),*
*Sahiblik, Birlik və Məsuliyyət Partiyası (3 deputat),*
*Demokratik Partiyanın İslahatı (3 deputat),*
*Müstəqil Demokratik Partiya (2 deputat),*
*Xalq Alyansı Partiyası (2 deputat),*

*Kənd İnkişafı üçün Solomon Adaları Partiyası (2 deputat),*
*Liberal Partiya (1 deputat),*
*Milli Partiya (1 deputat).*

Bundan əlavə, daha 4 partiya Parlamentdə 1 deputatla təmsil olunub, digər 19 mandat isə bitərəflərə məxsusdur.

***İcraedici hakimiyyət:*** *Baş nazirin* başçılığı ilə *Solomon Adalarının Hökuməti* tərəfindən həyata keçirilir. *Milli Parlament* tərəfindən seçilən *Baş nazir (bir qayda olaraq Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın və ya koalisiyanın lideri)* deputatların arasından *Hökumətin* tərkibini formalaşdırır *(Baş nazirin müavinini və Nazirlər Kabinetinin üzvlərini Baş nazirin tövsiyəsi ilə General-qubernator təsdiq edir).*

20 üzvdən ibarət *Nazirlər Kabineti (Nazirliklərin fəaliyyətinə birbaşa məsul olan və onun əməkdaşlarına rəhbərlik edən Katiblər, Hökumət üzvlərinə idarəetmədə bilavasitə yardımçı olurlar)* öz fəaliyyətləri çərçivəsində *Parlament* qarşısında siyasi məsuliyyət daşıyır.

Ölkənin hazırkı *Baş naziri* 16 noyabr 2011-ci ildən etibarən *İslahat və İnkişaf Naminə Milli Koalisiyasının* təmsilçisi *Gordon Darcy Lilodur.*

***Məhkəmə hakimiyyəti:*** Ölkənin hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanır.

*Solomon Adalarının* məhkəmə-hüquq sisteminin ən yüksək apelyasiya instansiyası sayılan, baş və kiçik hakimlərdən ibarət *Ali Məhkəmə* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir. Ali Məhkəmənin sədri *Baş nazirin,* digər hakimlər isə *Məhkəmə və Hüquq Xidməti Komissiyasının* məsləhətinə əsasən dövlət başçısı tərəfindən təyin edilir.

# SVAZİLEND





***Ümumi məlumat:*** 1830-cu illərin sonunda *Svazilendin* ərazisində *svazi* tayfalarının iri ittifaqı təşəkkül tapmışdır.

1903-cü ildən *Böyük Britaniyanın* protektoratına çevrilmiş *Svazilend,* 1968-ci ildə *Birləşmiş Krallığın* tərkibində dövlət müstəqilliyini əldə etmişdir.

*Afrikanın* cənub hissəsində yerləşən *Svazilendin* paytaxtı *Mbabane* şəhəridir.

Ölkənin ərazisi 17,364 km², əhalisi *(2009)* 1,185,000 nəfərdir *(əhali sıxlığı 68.2 nəfər/km²)*.

*Svazilendin* rəsmi dövlət dili *ingilis və svazi* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.522* - ortadır *(140-cı yer)*.

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan monarx idarəetmə üsuluna malik mütləq monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1968) 6 sentyabr tarixində qeyd olunur. Svazilendin yeni Konstitusiyası 26 iyul 2005-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 55 inzibati vahiddən ibarət olan 4 dairəyə *(Hhohho, Lubombo, Manzini və Şiselveni)* bölünür.

***Dövlət başçısı:*** Dövlət və Hökumət başçısı *Kraldır.* Qanunverici və icraedici hakimiyyəti, habelə məhkəmə hakimiyyətinin bir hissəsini əlində cəmləşdirən *Kral, Baş naziri* və Parlamentin hər iki palatasına özünün bir neçə nümayəndəsini təyin etmək səlahiyyətinə malikdir.

Qüvvədə olan Konstitusiyaya əsasən, ölkə daxilində və onun hüdudları xaricində dövləti ali səviyyədə təmsil edən *Svazilend Kralı,* bir qayda olaraq Parlamentin qış və yaz sessiyaları arasındakı fasilə dövründə qanun statusuna bərabər tutulan fərmanlar dərc edir.

25 aprel 1986-cı ildən etibarən ölkənin *Kralı III Msvatidir.*

***Qanunverici hakimiyyət:*** *Milli Məclisdən* (82 yer) və 10 üzvü Milli Məclis, 20 üzvü isə Kral tərəfindən təyin edilən 30 yerlik *Senatdan* ibarət, fəaliyyət müddəti 5 il olan ikipalatalı Parlamentdir.

*Milli Məclisə* seçkilər iki pillәlidir. 2-ci turda 55 deputat seçicilər tərəfindən seçilir, 10 deputat isə Svazilend *Kralı* tərəfindən təyin olunur. İddiaçıların namizədliyi yerli şuralar tərəfindən irəli sürülür və 2 turdan ibarət seçkilərin növbəti turuna birinci turda daha çox səs toplamış üç namizəd vəsiqə qazanır. *Aşağı Palatada* yerlərin 30%-nin qadınlar üçün nəzərdə tutulması Svazilendin siyasi sisteminin mütərəqqi xarakterli elementi kimi dəyərləndirilir.

Məhdud səlahiyyətli *Svazilend Parlamenti*, digər məhdudiyyətlərlə yanaşı, hətta real qanunverici hakimiyyətə belə malik deyil və faktiki olaraq *Kral Yanında Məsləhətçi Orqan* sayılır.

2004-cü ildən etibarən ölkədə siyasi partiyaların fəaliyyəti qadağan edilmişdir.

2006-ci ildən etibarən *Senatın* prezidenti *Gelani Zvani*, həmin ilin noyabrından isə *Milli Məclisin* sədri *şahzadə Guduza Dlaminidir.*

***İcraedici hakimiyyət:*** *Kralın Məşvərətçi Şurasının* tövsiyəsinə uyğun olaraq, Svazilend Parlamentinin üzvləri arasından *Baş naziri,* onun təqdimatı əsasında isə *Nazirlər Şurasının* üzvlərini *Kral* təyin edir və *Nazirlər Şurası* vasitəsi ilə ölkədə icra hakimiyyətini həyata keçirir. Qüvvədə olan Konstitusi-

yaya görə, dövlətin daxili və xarici siyasət strategiyasının həyata keçirən *Hökumətin* bütün nazirləri Parlamentin üzvü olmalıdırlar.

Svazilendin hazırkı *Baş naziri* 23 oktyabr 2008-ci ildən etibarən *Barnabas Sibusiso Dlaminidir.*

***Məhkəmə hakimiyyəti:*** Hakimləri *Kral* tərəfindən təyin olunan və ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Magistrat, Ali Apelyasiya, Apelyasiya və birinci* instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

# TAİLAND





***Ümumi məlumat:*** *Tailand* ərazisində ilk dövlətlər eramızın I və II əsrlərdə meydana gəlmişdir. *Tailərin* üstünlük təşkil etdiyi ilk böyük dövlət *(Sukotai)* XII əsrin sonu - XIII əsrin əvvəllərində yaranmış, XIII əsrin ortalarından sonra isə *Tailand* ərazisində *Siam* dövləti təşəkkül tapmışdır.

Ölkə *Tailand* adını yalnız 1932-ci ildə baş vermiş dövlət çevrilişindən sonra almışdır.

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *Tailand Krallığının* paytaxtı *Banqkok* şəhəridir.

Ölkənin ərazisi 513,120 km$^2$, əhalisi *(2011)* 66,720,153 nəfərdir *(əhali sıxlığı 132.1 nəfər/km$^2$)*.

*Tailandın* rəsmi dövlət dili *tay* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.682* - ortadır *(103-cü yer)*.

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan konstitusiya günü (1932) dekabr ayının 10-da qeyd olunur. Ölkə Konstitusiyası 2007-ci ilin noyabr ayından qüvvədədir.

***İnzibati bölgüsü:*** 878 rayondan ibarət 76 əyalətə *(Lampanq, Lampxun, Çianqmay, Çianqray, Mexonqson, Nan, Tak, Uttaradit, Pxre, Buriram, Kxonken, Nakxonratçasima, Samutpraxan, Çonburi, Sonqkxla, Amnatçaren, Yasotxon,*

*Surin, Sisaket, Nonbualampxu, Maxasarakam, Mukdaxan və s.)* və *Banqkok* paytaxt bələdiyyəsinə bölünür.

***Dövlət başçısı:*** Ölkədə milli birliyin rəmzi və buddizmin müdafiəçisi sayılan *Kral* - dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanıdır. Siyasətin fövqündə duran *Tailand Kralı* mütləq hakimiyyətə malik olmasa da, ölkədə vaxtaşırı baş verən siyasi böhranlar zamanı müxtəlif siyasi qüvvələr arasında balansı qoruyub saxlamaq, habelə dövləti əhəmiyyət kəsb edən bir çox mühüm qərarların qəbulunda bilavasitə iştirak edir.

Mövcud Konstitusiyaya görə beynəlxalq müqavilələr bağlamaq, yüksək hərbi və mülki vəzifələrə təyinat, hərbi vəziyyət elan və ya ləğv etmək, veto hüququnun tətbiqi, əfv fərmanı vermək, dekret və fərmanlar dərc etmək, Parlamenti buraxmaq və erkən seçkilər təyin etmək və s. məsələlər *Kralın* birbaşa səlahiyyətlərinə aid olsa da, dövlət üçün çox vacib və həlledici qərarların qəbulunda *Baş nazirin* və *Parlamentin* razılığı mütləqdir.

Bütövlükdə, *Tay* cəmiyyətinin bütün təbəqələrində yüksək nüfuza malik olan *Kralın* siyasi həyatdakı rolu, eyni idarəetmə-üsullu qərb dövlətlərindən fərqli olaraq formal xarakter daşımır.

Tailandın hazırkı, sayca 9-cu *Kralı* 09 iyun 1946-cı ildən etibarən *Pxumipon Adulyadetdir (IX Rama).*

***Qanunvericilik hakimiyyəti:*** İkipalatalı Parlamentdən: 150 yerlik *Senatdan (Yuxarı Palataya 75 üzv Kral tərəfindən təyin edilir, senatorların digər 50%-i isə ümumxalq səsverməsi yolu ilə 6 il müddətinə seçilirlər)* və 500 yerlik *Nümayəndələr Palatasından (Aşağı Palataya deputatlar ümumxalq səsverməsi yolu ilə 4 il müddətinə seçilirlər)* ibarətdir.

Əsas funksiyası qanunvericilik aktlarını qəbul və illik dövlət büdcəsini təsdiq etməkdən ibarət olan ölkə Parlamenti, eyni zamanda qanunlarla bağlı Kralın vetosunu hər iki

palatada 2/3 səs çoxluğu ilə dəf etmək, *Hökumətin* fəaliyyətinə nəzarət etmək və zəruri hallarda etimadsızlıq göstərməklə onu tam tərkibdə istefaya göndərmək səlahiyyətinə malikdir.

03 iyul 2011-ci ildə keçirilmiş Parlament seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* yer almış əsas siyasi partiyalar:

*Pxıa Txai Partiyası (265 deputat, lideri Çavalit Yonqçayutdur),*

*Tailand Demokratik Partiyası (159 deputat, lideri Abxizit Veycacivdir),*

*BJT (34 deputat),*

*CP (19 deputat).*

*Digər partiyaların nümayəndələri Aşağı Palatada 23 yer əldə etmişdir.*

***İcraedici hakimiyyət:*** *Nümayəndələr Palatasında* daha çox mandat əldə etmiş siyasi partiyanın və ya fraksiyanın lideri olan *Baş nazir* və onun rəhbərlik etdiyi *Nazirlər Kabineti* ölkədə icra hakimiyyətini həyata keçirilir.

*Baş nazir* Aşağı Palatanın deputatlarının səs çoxluğu ilə, növbəti çağırışın ilk sessiyasının açılışından ötən 30 gün ərzində təsdiq olunmalıdır. Bir qayda olaraq, Parlament seçkilərində qalib gəlmiş partiyanın üzvlərindən formalaşan və ali qanunverici orqan qarşısında birbaşa məsuliyyət daşıyan *Nazirlər Kabinetinin* tərkibi, *Baş nazirin* təqdimatı ilə *Kral* tərəfindən təyin və ya azad edilir.

05 avqust 2011-ci ildən etibarən ölkənin hazırkı, sayca 28-ci *Baş naziri Pxıa Txai Partiyasının* təmsilçisi *Yinqlak Çinnavatdır.*

***Məhkəmə hakimiyyəti:*** *Tailandın* qarışıq hüquq sistemi fransız və alman məcəllələrinin nümunələrinə əsaslanır.

Mövcud Konstitusiyaya görə, məhkəmə hakimiyyəti ölkədə ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə, Apelyasiya Məhkəməsi* və birinci instansiya məhkəmələri tərəfindən həyata keçirilir.

# TONQA

  

***Ümumi məlumat:*** XIX əsrin ortalarına doğru indiki *Tonqa adalar qrupu, Kralın* hakimiyyəti altında mərkəzləşdirilmiş erkən feodal dövlətində birləşmişdir.

1906-cı ildə *Böyük Britaniyanın* protektoratına çevrilmiş *Tonqa Krallığı,* 1970-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Tonqanın* paytaxtı *Nukualofa* şəhəridir.

Ölkənin ərazisi 748 km², əhalisi *(2011)* 103,036 nəfərdir *(əhali sıxlığı 139 nəfər/km²).*

*Tonqanın* rəsmi dövlət dili *ingilis və tonqan* dilləridir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.704* - yüksəkdir *(90-cı yer).*

***Dövlət quruluşu:*** Mütləq formalı idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1970) iyun ayının 4-də qeyd olunur. Dünya birliyi dövlətlərinin ən sərt konstitusiyalarından biri sayılan Tonqa Konstitusiyası 4 noyabr 1875-ci ildən bu günə qədər qüvvədədir.

***İnzibati bölgüsü:*** Rayonlardan və kəndlərdən ibarət olan 5 inzibati dairəyə *(Vavau – 6 rayon, Niuas – 2 rayon, Tonqatapu - 7 rayon, Xaapay – 6 rayon və Eya – 2 rayon)* bölünür.

***Dövlət başçısı:*** Konstitusiyaya görə şəxsiyyəti müqəddəs olaraq qəbul edilən və Tonqa xalqının, eləcə də bütün qəbilə

rəhbərlərinin hökmdarı sayılan *Kral* ölkəni idarə edir, bununla belə idarəetmənin məsuliyyətinə nazirlər cavabdehlik daşıyır. *Qanunvericilik Assambleyasında* qəbul olunan qanun layihələri yalnız *Kral* tərəfindən imzalandıqdan sonra qüvvəyə minir.

Silahlı qüvvələrin ali baş komandanı sayılan və Parlamentin razılığı ilə müharibə elan etmək hüququna malik olan *Kral,* bütün zabit heyətini şəxsən təyin edir və hərbi qüvvələrin hazırlıq vəziyyətinə nəzarəti həyata keçirir.

Bundan əlavə, dövlət başçısı Qanunvericilik Assambleyasını buraxaraq yeni seçkilərin vaxtını təyin etmək, xarici dövlətlərlə müqavilə və sazişlər imzalamaq, digər dövlətlərdə Tonqanın diplomatik nümayəndələrini təyin etmək, ali dövlət mükafatları ilə təltif etmək və s. səlahiyyətlərə malikdir.

*Tonqanın* hazırkı, sayca 6-cı *Kralı* 18 mart 2012-ci ildən etibarən *VI Tupoudur Axoeitu Unuaknotonqa Tukuaho.*

***Qanunverici hakimiyyət:***: Üzvlərinin tərkibindən seçilən *9 Perdən* və elektorat tərəfindən 5 il müddətinə seçilən *Xalq Nümayəndələrindən (17 deputat)* ibarət bir palatalı *Qanunvericilik Assambleyasıdır.* Parlamentin sədri *(19 iyul 2012-ci ildən Fatafehi Fakafunuadır)* Kral tərəfindən ali qanunverici orqanın üzvü olan perlərin tərkibindən təyin olunur.

Mövcud Konstitusiyaya uyğun olaraq, qanunların qəbul edilməsi *Krala* və *Qanunvericilik Assambleyasına* məxsusdur. Parlamentdə üç oxunuşdan keçdikdən sonra, qanun layihəsi təsdiq edilməsi üçün Krala təqdim olunur. Kralın qanun layihəsini rədd etmək səlahiyyəti vardır və bu halda həmin sənədə yalnız Parlamentin növbəti sessiyasında yenidən baxıla bilər.

25 noyabr 2010-cu il tarixində keçirilmiş *Parlament* seçkiləri nəticəsində *Dost Adaların Demokratik Partiyası* 12 mandata sahib olaraq inamlı qələbə qazanmışdır. Digər 5 yeri bitərəflər əldə etmişlər.

***İcraedici hakimiyyət:*** *Kralın* təyin etdiyi *Baş nazirin* rəhbərliyi ilə *Hökumət (Məsləhət Şurasının üzvü olan nazirlər, bir*

*qayda olaraq Parlamentdə də Per statusunda fəaliyyət göstərirlər)* ölkədə icraedici hakimiyyəti həyata keçirir.

*Nazirlər Kabinetinin* tərkibi *Kral* tərəfindən formalaşdırılır və onlar hər il dövlət başçısını məlumatlandırmaq məqsədilə, öz fəaliyyət sahələrinə dair hesabatları ona təqdim edirlər.

*Kralın* və *Məsləhət Şurasının* heç bir sərəncamı müvafiq Nazirliyin rəhbərinin imzası olmadan qüvvəyə minə bilməz, çünki normativ-hüquqi aktların icra edilməsinə görə nazirlər birbaşa məsuliyyət daşıyır.

Ölkənin hazırkı, sayca 16-cı *Baş naziri* 22 dekabr 2010-cu il tarixindən etibarən *Tuivakano Sialeataonqadır.*

***Məhkəmə hakimiyyəti*: *Tonqanın* məhkəmə sisteminin bir sıra mühüm funksiyalarını yerinə yetirən *Məsləhət Şurası*, habelə üzvləri Məsləhət Şurasının razılığı ilə Kral tərəfindən təyin edilən *Ali Məhkəmə, Apelyasiya Məhkəməsi, magistrat və torpaq məhkəmələri* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

# TUVALU






***Ümumi məlumat:*** Avropalıların indiki *Tuvalu* ərazisinə *(adalarına)* gəlmələrinə qədər yerli əhali ibtidai-icma quruluşuna malik həyat tərzi sürürdülər. 1892-ci ildən *Ellis (Tuvalunun əvvəlki adı) adaları Böyük Britaniyanın* protektoratı, 1916-cı ildən isə müstəmləkəsi olmuşdur.

1975-ci ildə Britaniyanın ayrıca koloniyasına çevrilmiş *Tuvalu,* 1978-ci ildən etibarən *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Tuvalunun* paytaxtı *Funafuti* şəhəridir.

Ölkənin ərazisi 26 km², əhalisi *(2011)* 10,544 nəfərdir *(əhali sıxlığı 475.88 nəfər/km²).*

*Tuvalunun* rəsmi dövlət dili *tuvalu və ingilis* dilləridir.

***Dövlət quruluşu:*** Britaniya İttifaqının tərkibində parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1978) 01 oktyabr tarixində qeyd olunur. Ölkə Konstitusiyası 10 oktyabr 1986-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 7 adaya *(Nanumea, Niutau, Nanumanqa, Nui, Vaitupu, Nukulaelae və Nukufetau)* və *Funafuti* şəhər şurasına bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya əsasən, *Kraliça II Yelizavetanı Tuvaluda* təmsil edən və Baş nazirin məsləhəti ilə 4 il müddətinə təyin edilən *General-Qubernator (50-65 yaş arasında ölkə vətəndaşı olması əsas şərtdir)* yalnız *Nazirlər*

*Kabinetinin,* Baş nazirin və Kabinetin ümumi və xüsusi səlahiyyətlərinə malik olan digər nazirlərin tövsiyəsinə uyğun olaraq fəaliyyət göstərməlidir.

*Tuvalunun* birliyinin və bənzərsizliyinin rəmzi olan dövlət başçısı ölkədə olmadıqda və yaxud digər səbəblərdən dövlətin idarə olunmasına rəhbərlik edə bilmədikdə, onun vəzifə səlahiyyətlərini de-fakto dövlətə rəhbərlik edən *general-qubernator* icra edir.

*Tuvalunun* hazırkı *general-qubernatoru* 16 aprel 2010-cu ildən etibarən *İakoba İtalelidir.*

***Qanunverici hakimiyyət:*** Bir palatalı, 15 yerlik *Assambleya Palatası* ölkədə qanunvericilik hakimiyyətini həyata keçirir. Mövcud Konstitusiyaya uyğun olaraq, Parlamentə üzvlər ümumxalq səsverməsi yolu ilə birmandatlı və çoxmandatlı dairələrdən 4 il müddətinə seçilirlər. *Tuvalu Parlamentinin* özünəməxsusluğu ondadır ki, onun tərkibi heç bir partiyanı dəstəkləməyən bitərəflərdən ibarətdir.

Qanunların hazırlanması və qəbulu, beynəlxalq müqavilələrin ratifikasiyası və s. qanunvericilik fəaliyyəti ilə yanaşı, Parlament *Baş naziri və Kabinet* üzvlərini seçməkdə səlahiyyətlidir. Bununla belə, *Hökumət başçısı* vəzifəsinin seçimində çətinlik yarandıqda və *Kralın* müəyyən etdiyi müddət ərzində *Baş nazir* postu vakant qaldıqda, ali qanunverici orqan dövlət başçısı tərəfindən buraxıla bilər.

*Tuvalu Parlamentinin* hazırkı sədri 2010-cu ilin dekabr ayından etibarən *Kamuta Latasidır.*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* başçılığı ilə *Tuvalu Hökuməti* tərəfindən həyata keçirilir. *Assambleya Palatası* tərəfindən seçilən *Baş nazir* deputatların 1/3-nin yer aldığı *Hökumətin* tərkibini formalaşdırır *(Baş nazirin müavinini Baş nazirin tövsiyəsi ilə General-qubernator təyin edir).* Parlament qarşısında Hökumətin icraedici funksiyalarının yerinə yetirilməsində kollektiv məsuliyyət daşıyan Baş nazirin və nazirlərin

səlahiyyət və fəaliyyət dairəsinin hüdudlarını *Tuvalunun General-qubernatoru* müəyyən edir.

Bütövlükdə, *Baş nazir* Nazirlər Kabinetinin və Parlamentin fəaliyyəti, konstitusiya və siyasi məsələlər, dövlət xidməti, Hökumətin koordinasiyası, məhkəmə və hüquq məsələləri, informasiya və teleradio yayımı, polis, həbsxana, yanğından mühafizə xidməti, immiqrasiya, dini məsələlər, ümummilli seçkilər və xarici siyasət məsələləri üzrə məsuliyyət daşıyır.

Ölkənin hazırkı, sayca 12-ci *Baş naziri* 24 dekabr 2010-cu ildən etibarən *Villi Telavidir.*

***Məhkəmə hakimiyyəti:*** *Tuvalunun* məhkəmə hakimiyyəti *Məsləhət Şurası, Apelyasiya Məhkəməsi, Yüksək Məhkəmə,* habelə *Magistrat və Adalar* məhkəmələri tərəfindən həyata keçirilir.

# YAMAYKA





***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər *hindu-aravak tayfalarının* məskunlaşdığı *Yamayka adası,* 1494-cü ildə *Kolumb* tərəfindən kəşf edilmiş və XVII əsrin ortalarına qədər *İspaniyaya* məxsus olmuşdur.

1670-ci ildən etibarən *Böyük Britaniyanın* müstəmləkəsinə çevrilmiş *Yamayka,* 1962-ci ilin avqust ayından *Birləşmiş Krallığın* tərkibində müstəqil dövlətdir.

*Karib hövzəsində* yerləşən *Yamayka* ada dövlətinin paytaxtı *Kinqston* şəhəridir.

Ölkənin ərazisi 10,991 km², əhalisi *(2012)* 2,889,187 nəfərdir *(əhali sıxlığı 252 nəfər/km²).*

*Yamaykanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.727* - yüksəkdir *(79-cu yer).*

***Dövlət quruluşu:*** Parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1962) 6 avqustda qeyd olunur. Ölkə Konstitusiyası 24 iyul 1962-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 3 tarixi qraflıqda *(Kornuoll, Midlseks və Surrey)* yerləşən 14 dairəyə *(Xanover, Sent-Elizabet, Sent-Ceyms, Uestmorlend, Sent-An, Sent-Meri, Portlend, Klarendon, Sent-Katerin, Sent-Andru, Treloni, Mançester, Sent-Tomas və Kinqston)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə *Böyük Britaniyanın Kraliçası (və ya Kralı)* tərəfindən *Baş nazirin*

məsləhəti ilə təyin edilən *General-Qubernator* Yamaykanın faktiki dövlət başçısıdır.

*Baş naziri,* habelə onun və müxalifət liderinin məsləhətinə əsasən *Yuxarı Palatanın (Senat)* üzvlərini və bir sıra digər yüksək vəzifəli şəxsləri təyin etmək, o cümlədən bir çox mərasim funksiyalarını yerinə yetirmək səlahiyyətlərinə malik olan *General-qubernatorun* yanında, 6 nəfərlik tərkibi *Baş nazirin* təqdimatı ilə formalaşan *Məsləhət Şurası* fəaliyyət göstərir

Yamaykanın hazırkı, sayca 8-ci *general-qubernatoru* 26 fevral 2009-cu ildən etibarən *Patrik Linton Allendir.*

***Qanunvericilik hakimiyyəti:*** İkipalatalı Parlamentdən: 21 yerlik *Senatdan (Yuxarı Palataya 13 senator Baş nazirin, 8 üzv isə müxalifət liderinin məsləhəti ilə General-qubernator tərəfindən 5 il müddətinə təyin edilir)* və 63 yerlik *Nümayəndələr Palatasından (sədri 17 yanvar 2012-ci ildən Xalq Milli Partiyasının təmsilçisi Mişel Pirt olan Aşağı Palataya deputatlar ümumxalq səsverməsi yolu ilə birmandatlı dairələrdən 5 il müddətinə seçilirlər)* ibarətdir.

Hökumət tərəfindən təqdim edilən illik dövlət büdcəsinin təsdiqi, qanun layihələrinin müzakirəsi və qəbul edilməsi və s. məsələlər Yamayka Parlamentinin birbaşa səlahiyyətlərinə aiddir.

29 dekabr 2011-ci il tarixində keçirilmiş Parlament seçkilərində *Senatda və Nümayəndələr Palatasında* yer qazanmış əsas siyasi partiyalar:

*Xalq Milli Partiyası (sosial-demokratlar; Aşağı Palatada 42 yer, Senatda 13 yer; lideri xanım Porşiya Simpson-Miller),*

*Yamayka Leyborist Partiyası (liberal-mühafizəkarlar; Aşağı Palatada 21 yer, Senatda 7 yer; lideri Endryu Holness).*

***İcraedici hakimiyyət:*** Parlament seçkilərində qalib gəlmiş siyasi partiyanın lideri olan *Baş nazirin* rəhbərlik etdiyi *Nazirlər Kabineti* tərəfindən həyata keçirilir. *Kabinetin* tərkibi

adətən Parlament seçkilərində qalib gəlmiş partiyanın üzvlərindən formalaşır. Hökumət üzvləri Baş nazirin təqdimatı əsasında *General-qubernator* tərəfindən təyin edilir.

Dövlətin daxili və xarici siyasətinin həyata keçirilməsində mühüm səlahiyyətlərə malik *Nazirlər Kabineti,* icraedici hakimiyyətlə yanaşı, *Parlamentin* hər iki palatası ilə birlikdə qanunvericilik hakimiyyətini də həyata keçirir.

05 yanvar 2012-ci ildən etibarən ölkənin hazırkı, sayca 8-ci və ilk qadın *Baş naziri Yamayka Xalq Milli Partiyasının* lideri *xanım Porşiya Simpson-Millerdir.*

***Məhkəmə hakimiyyəti:*** Yamaykanın hüquq sistemi ingilis ümumi hüquq sisteminə əsaslanır. Ölkədə məhkəmə hakimiyyəti Konstitusiya Məhkəməsinin səlahiyyətlərini də özündə ehtiva edən *Ali Məhkəmə,* habelə digər dairə və yerli məhkəmələr tərəfindən həyata keçirilir.

# YENİ ZELANDİYA





***Ümumi məlumat:*** Yerli sakinlər olan *maorilərin Aotearoa* adlandırdıqları *Yeni Zelandiyanın* ərazisində *Şərqi Polineziyadan* gəlmiş müasir maorilərin əcdadları II minilliyin əvvəllərində məskunlaşmışlar. Avropalı müstəmləkəçilərin bu ərazilərə gəlişi XIX əsrin əvvəllərinə təsadüf edir.

1840-cı ildən Britaniyanın nəzarətinə keçmiş *Yeni Zelandiyaya* ingilislər 1854-cü ildə daxili muxtariyyət, 1907-ci ildə isə dominion statusu vermişdir.

*Britaniya* Parlamentinin qəbul etdiyi 1931-ci il *Vestminister statutuna* əsasən, *Yeni Zelandiya* 1931-ci ildən daxili və xarici siyasət məsələlərində tam müstəqillik əldə etmişdir.

*Sakit okeanın* cənub-qərb hissəsində yerləşən *Yeni Zelandiyanın* paytaxtı *Vellinqton* şəhəridir.

Ölkənin ərazisi 268,021 km², əhalisi *(2013)* 4,451,017 nəfərdir *(əhali sıxlığı 16.5 nəfər/km²)*.

*Yeni Zelandiyanın* rəsmi dövlət dili *ingilis* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.908* - çox yüksəkdir *(5-ci yer)*.

***Dövlət quruluşu:*** Britaniya İttifaqının tərkibində parlament formasında idarəetmə üsuluna malik konstitusiyalı monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1907) 26 sentyabr tarixində qeyd olunur. Yeni Zelandiyanın son Konstitusiya aktı 13 dekabr 1986-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 9 inzibati rayonu *(paytaxt Vellinqton, Bey-of Plenti, Qisborn, Manavatu-Uanqanui, Nortlend, Tara-*

*naki, Uaikato, Xoks-Bey və Oklend) Şimal* adasında, 7 rayonu *(Kenterberi, Otaqo, Marlboro, Nelson, Tasman, Sautlend və Uest-Kost) Cənub* adasında, 1 inzibati rayonu isə *Çatem* arxipelaqında yerləşən 17 rayona bölünür.

***Dövlət başçısı:*** *Kraliça II Yelizavetanı* təmsil edən və Yeni Zelandiyanın Hökumət başçısının *(Baş nazir)* tövsiyəsi ilə *Kraliça (Kral)* tərəfindən 5 il müddətinə təyin olunan *general-qubernatordur*.

*General-qubernatorun* andını *Yeni Zelandiyanın* Ali Hakimi qəbul edir. Kralın təmsilçisi olan General-qubernatorun əsas vəzifəsi ölkədə konstitusion hüquqların təminatçısı rolunda çıxış etmək, habelə mərasim və ictimai funksiyaları yerinə yetirməklə məhdudlaşır.

Konstitusion hüquqların qarantı qismində çıxış edən *General-Qubernator*, ilk növbədə Hökumətin fəaliyyətinin legitimliyini və ardıcıllığını təmin etmək, Baş nazirin tövsiyəsi ilə formal olaraq bir sıra qanunvericilik tədbirlərini həyata keçirmək, öz vəzifə səlahiyyətlərindən istifadə edərək *Baş naziri* təyin etmək və ya növbəti seçkilərdən əvvəl Parlamenti buraxmaq və digər mərasim səlahiyyətlərinə malikdir.

*Yeni Zelandiyanın* hazırkı, sayca 20-ci *General-Qubernatoru* 31 avqust 2011-ci ildən etibarən *Cerri Mateparaedir.*

***Qanunverici hakimiyyət:*** *Monarx (onun Yeni Zelandiyadakı təmsilçisi General-Qubernator)* və birpalatalı *Nümayəndələr Palatası* tərəfindən həyata keçirilir. Mövcud Konstitusiyaya müvafiq olaraq, Böyük Britaniya Kraliçasının da daxil olduğu 120 yerlik *Nümayəndələr Palatasına (Parlamentin hazırkı, sayca 28-ci sədri 08 noyabr 2008-ci ildən etibarən Lokuod Smitdir)* üzvlər ümummilli seçkilərdə proporsional seçki sistemi prinsipi üzrə 3 il müddətinə seçilirlər.

*Yeni Zelandiya Parlamentinin* əsas vəzifəsi qanunvericilik fəaliyyətindən və qanunların qəbul edilməsindən ibarətdir.

*Monarxın* qanunvericilik funksiyası, ilk növbədə *Parlamentin* çağırılması və buraxılması, habelə *Nümayəndələr Pala-*

*tasının* qəbul etdiyi qanunvericilik aktlarına *Kral* sanksiyalarının tətbiqi ilə müəyyən edilir.

26 noyabr 2011-ci ildə keçirilmiş sonuncu *Parlament* seçkiləri nəticəsində *Nümayəndələr Palatasında* yer almış ölkənin əsas siyasi partiyaları:

*Yeni Zelandiya Milli Partiyası (59 deputat - lider Con Key),*
*Leyboristlər Partiyası (34 deputat),*
*Yeni Zelandiya Yaşıllar Partiyası (14 deputat),*
*Birinci YZ Partiyası (8 deputat),*
*Maori Partiyası (3 deputat),*
*Mana Partiyası (1 deputat),*
*Böyük Gələcək Partiyası (1 deputat).*

***İcraedici hakimiyyət:*** *Baş nazirin* başçılığı ilə *Nümayəndələr Palatasının* tərkibindən seçilən *(istisna hallar da mümkündür) Yeni Zelandiya Hökuməti* tərəfindən həyata keçirilir. Parlament seçkiləri nəticəsində daha çox mandat əldə etmiş siyasi partiyanın lideri, avtomatik olaraq *Yeni Zelandiyanın Baş naziri* seçilir və *General-qubernatorun* təyinatı ilə *Nazirlər Kabinetinin* tərkibini *(eyni zamanda İcra Şurasının üzvlərini)* formalaşdırır.

Parlament qarşısında məsuliyyət daşıyan *Nazirlər Kabineti* öz fəaliyyətini həyata keçirmək üçün müxtəlif sahələri əhatə edən və qərar layihələri hazırlayan komitələrə bölünür. *Hökumət üzvləri (nazirlər)* tərəfindən komitələrin qərarları sadə səs çoxluğu ilə qəbul edilir.

Ölkənin hazırkı, sayca 38-ci *Baş naziri* 19 noyabr 2008-ci ildən etibarən *Yeni Zelandiya Milli Partiyasının* lideri *Con Keydir.*

***Məhkəmə hakimiyyəti:*** Məhkəmə iyerarxiyasının ən yüksək instansiyası sayılan *Yeni Zelandiya Ali Məhkəməsi,* xüsusilə ağır cinayət və mülki işlərlə məşğul olan *Yüksək Məhkəmə,* habelə *Apelyasiya Məhkəməsi* və digər ixtisaslaşmış məhkəmələr *(Ailə, Gənclər, Əmək)* ölkədə məhkəmə hakimiyyətini həyata keçirir.

## §2. Kommunist tipli dövlətlər

SSRİ dağılana qədər (1991) dünyada siyasi sistemin kommunist idarəçilik forması, partiya və sinfi maraqlar əsasında qurulmuş hakimiyyətin klassik nümunəsi hesab olunurdu. Artıq *Sovet İttifaqı* yoxdur və onun ərazisində yeni yaranmış dövlətlərdə tamamilə fərqli idarəetmə üsulu mövcuddur. *Şərqi Avropanın* keçmiş sosialist dövlətlərinin demək olar ki, əksəriyyətində hazırda demokratik siyasi rejimlər bərqərar olmuşdur.

Sosialist-kommunist idarəçilik rejimləri indi yalnız Asiyanın və Latın Amerikasının bir neçə ölkəsində qorunub saxlanılır. Asiyada qanuniləşdirilmiş kommunist rejimləri bu günədək Çində, Şimali Koreyada və Hind-Çində, habelə Karib adalarında qalmaqdadır. Kuba da müasir dünya proseslərinə açıqcasına tabe olmayan ölkə sayılır. Bununla belə, "azadlıq liderləri"nin xarizmatik rəhbərliyi və nüfuzlu hərbi qüvvələri ilə tanınan sözügedən dövlətlər sovet modeli çərçivəsində inkişaf edirlər. Hal-hazırda yalnız Çində idarəetmənin kommunist forması modeli üstünlük təşkil edir. Çində bütün hakimiyyət 340 üzvü olan Kommunist partiyasının Mərkəzi Komitəsinə, Siyasi Büroya, Mərkəzi Komitə tərəfindən seçilən və hər həftə yığıncağı keçirilən, 12-25 nəfərdən ibarət nazirlik orqanına, həmçinin Mərkəzi Komitənin kiçik inzibati qolu - Katibliyə mənsubdur. Bu dövlət orqanlarının sədrləri, partiyanın yuxarı təbəqəsini təmsil edir, Baş nazir və Prezident kimi mühüm vəzifələri də icra edirlər. Kommunist sistemi özündə siyasətin məqsədini təyin edən partiyanı və bu məqsədləri həyata keçirən dövlət aparatını təmsil edir. Bu fakta diqqət yetirmək lazımdır ki, ABŞ kimi liberal-demokratik bir ölkədə hakimiyyətin fəaliyyətinə Konstitusiya nəzarət edirsə,

kommunist ölkələrində Konstitusiya dövlətə, deməli, hakim partiyaya tabedir. Faktiki olaraq, Konstitusiya partiyanın tələblərinə uyğun olaraq tez-tez dəyişdirilir.

“Kommunist inqilabı”nın əbədi lideri sayılan *Fidel Kastronun* timsalında uzun müddət liderliyin şəxsləşdirilmiş, plebisit, xarizmatik formasının üstünlük təşkil etdiyi Kubada hazırda *Raul Kastro* bu siyasi kursu davam etdirir. *Şimali Koreyada,* özünü “bəşərin günəşi” adlandıran, 1994-cü ildə atası Kim İr Senin ölümündən sonra hakimiyyətə gələn Kim Çen İr kimi, habelə onun ölümündən sonra dövlət başçısı tituluna yiyələnmiş oğlu Kim Çen In kimi “böyük liderlər”dən ibarət “sosialist sülaləsi” mövcuddur.

Ümumiyyətlə, bu kateqoriyaya aid olan dövlətlər sayca çox olmasalar da, həmin ölkələr dünya əhalisinin 1/4 hissəsini əhatə edir.

# ÇİN





***Ümumi məlumat:*** Dünyanın ən qədim dövlətlərindən biri sayılan *Çində* erkən imperiya dövrü *Tsin* imperiyasından başlamış və X əsrin ortalarına qədər davam etmişdir.

III əsrin əvvəllərində, 400 illik *Xan sülaləsinin* hakimiyyətinə son qoyulduqdan sonra *Çində* feodal münasibətləri yaranmağa başlamış, sonrakı əsrlərdə hakimiyyət *Suy* (586-618) və *Tan* (618-918) sülalələrinin əlinə keçmişdir. 930-cu ildən etibarən *Çində Sun İmperiyasının* hakimiyyəti bərqərar edilmiş və bu sülalə 1279-cu ilə qədər iqtidarda olmuşdur.

XX əsrin əvvəllərinə qədər (1911) imperiya olan *Çin*, 1912-ci ilin fevral ayında *Respublika* elan edilmişdir.

1925-1949-ci illərdə müxtəlif hərbi-siyasi qruplaşmalar arasında baş vermiş vətəndaş müharibəsinin ilk mərhələsində (1931), bir hissəsi *Çin Sovet Respublikası* elan edilmiş bu ölkə, 1949-cu ildən etibarən *Çin Xalq Respublikası* adlandırılmışdır.

*Mərkəzi və Şərqi Asiyada* yerləşən *Çin Xalq Respublikasının* paytaxtı *Pekin* şəhəridir.

Ölkənin ərazisi 9,706,961 km², əhalisi *(2012)* 1,353,821,000 nəfərdir *(əhali sıxlığı 139.6 nəfər/km²)*.

*Çinin* rəsmi dövlət dili *çin* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.687* - ortadır *(101-ci yer)*.

***Dövlət quruluşu:*** Kommunist sisteminin idarəetmə üsuluna malik respublikadır. Milli bayram günü olan *Çin Xalq*

*Respublikasının* yaradılmasının bəyan edilməsi (1949) oktyabr ayının 1-də qeyd olunur. Ölkə Konstitusiyası 1982-ci il dekabr ayının 4-də qəbul edilmişdir.

***Dövlət başçısı:*** 14 mart 2013-cü ildə *Si Tzinpin Çin Xalq Respublikasının* sayca 7-ci sədri seçilmişdir.

1982-ci il dekabr ayının 4-də qəbul edilmiş və 1993-cü ildə düzəliş edilmiş dördüncü Konstitusiyaya əsasən *Çin* - ərazisinin miqyasına baxmayaraq unitar dövlətdir. Ölkə inzibati məqsədlə 22 əyalətə, *Tibet* də daxil olmaqla 5 muxtar vilayətə və dörd bələdiyyəyə bölünür. Hər bir əyalət yerli əhalinin seçkili *Konqresinin* və yerli Hökumətinin vasitəçiliyi ilə müəyyən sahələrdə öz siyasətini həyata keçirir.

Çin qanunvericiliyinə görə hakimiyyət xalqa məxsusdur. Xalq öz hakimiyyətini *Ümumçin Xalq Nümayəndələri Yığıncağı (ÜXNY)* və yerli *Xalq Nümayəndələri Yığıncaqları* vasitəsilə həyata keçirir. Dövlət hakimiyyətinin ali orqanı: *Ümumçin Xalq Nümayəndələri Yığıncağı* - dövlətin qanunvericiliyini həyata keçirir; ölkə həyatının mühüm sahələrinə dair qərarlar qəbul edir, dövlət aparatının yüksək vəzifələrinə namizədləri təsdiq edir və seçir, *ÜXNY-nın Daimi Komitəsi* üzvlərini seçir; ÇXR sədrini və onun müavinlərini seçir; Dövlət Şurasının sədrini və Şuranın digər üzvlərini təsdiq edir; *Mərkəzi Hərbi Şuranın (MHŞ)* sədrini seçir və MHŞ-nin digər üzvlərini təsdiq edir; Ali Xalq Məhkəməsinin sədrini seçir; Ali Xalq Prokurorluğunun Baş Prokurorunu seçir.

ÜXNY-nın hər çağırışının səlahiyyət müddəti 5 ildir, onun sessiyaları ildə bir dəfə çağırılır. Sessiyalar arasında olan müddət ərzində ÜXNY-nın funksiyalarını ÜXNY-nın *Daimi Komitəsi* həyata keçirir. Daimi Komitənin tərkibinə sədr, sədrin müavinləri, məsul katib və Daimi Komitənin üzvləri daxildir. Daimi Komitə ÜXNY-nın qanun layihələrini təsdiq edən və qətnamələr çıxaran altı funksional ixtisaslaşmış komitəsinin: maliyyə və iqtisadiyyat işləri üzrə; milli məsələlər;

təhsil, elm, mədəniyyət və səhiyyə; xarici işlər və hüquqi işlər üzrə fəaliyyətini istiqamətləndirir. Komitə parlament prinsipi üzrə fəaliyyət göstərir: Konstitusiyanı və cari qanunları hərəkətə gətirir, dekretlər dərc edir, daha aşağı səviyyəli hökumət təşkilatlarının fəaliyyətinə nəzarət edir, nazirləri və vəzifəli şəxsləri təyin və azad edir.

***Çin Xalq Respublikası Dövlət Şurası*** – icra hakimiyyətinin ali orqanıdır. İnzibati-ərazi sisteminin bütün səviyyələrində xalq hökumətləri fəaliyyət göstərirlər. Dövlət Şurası və xalq hökumətləri müvafiq səviyyəli Xalq Nümayəndələri Yığıncaqları tərəfindən təsdiq edilir. ÜXNY və Daimi Komitə qarşısında məsuliyyət daşıyan Dövlət Şurasının vəzifəsi: idarə və müəssisələrin, komissiyaların və yerli hakimiyyət orqanlarının fəaliyyətini istiqamətləndirməkdən və nəzarətdən ibarətdir; bundan əlavə normativ aktların qəbul edilməsi hüququna malik Şura inzibati təlimatlara sərəncam verilməsi, iqtisadi planların və illik büdcənin tərtib edilməsi və həyata keçirilməsi və nəhayət, layihələrin ÜXNY-nın daimi komitəsinə verilməsinə məsuliyyət daşıyır.

Baş nazirdən *(15 mart 2013-cü ildən Li Kesyan bu posta sahibdir)*, onun dörd müavinindən və Dövlət şurasının beş üzvündən ibarət olan daxili kabinetdə gündəlik baş verən məsələlərin həlli üçün müntəzəm sessiyalar keçirilir. Bu qanunverici orqanda üzvlük iki beşillik müddətlə məhdudlaşır.

Çində bütün hakimiyyət 340 üzvü olan *Kommunist partiyasının Mərkəzi Komitəsinə, Siyasi Büroya, Mərkəzi Komitə* tərəfindən seçilən və hər həftə yığıncağı keçirilən, 12-25 nəfərdən ibarət nazirlik orqanına, həmçinin Mərkəzi Komitənin kiçik inzibati qolu - *Katibliyə* mənsubdur. Bu dövlət orqanlarının sədrləri, partiyanın yuxarı təbəqəsini təmsil edir, Baş nazir və Prezident kimi mühüm vəzifələri də icra edirlər. Partiya aparatı seçkilərə təklif edilənlərin namizədliyini müzakirə edir və nomenklatura prinsiplərinə uyğun olaraq dövlət vəzifələrinə təyinatları nəzarətdə saxlayır.

Çin Kommunist Partiyası - 1921-1927-ci illər ərzində partiyanın lideri olmuş Çen Dusyunun və 1927-1930-cu illərdə partiyaya rəhbərlik etmiş Li Lisanın başçılığı ilə intellektuallar qrupu tərəfindən yaradılmışdır. Onlar 1917-ci il inqilabının və *Marks, Engels* və *Leninin* nəzəri əsərlərinin təsiri altında idilər. Çində partiya meydana gəldikdən bir qədər sonra, 1922-ci ilin iyun ayında çin mühacirləri arasında *Çin Kommunist Gənclər İttifaqı (ÇKGİ)* yaradıldı. Şanxayda əsası qoyulmuş ÇKP dəniz sahilində yerləşən şəhərlərdə fəhlə sinfinin üsyanlarını təşkil etmək məqsədilə Moskvada *Beynəlxalq Kommunist Təşkilatı (Komintern)* ilə sıx əməkdaşlıq edirdi. Bu cəhdlər müvəffəqiyyətlə nəticələnmədi. Kominternin göstərişlərinə riayət edən partiya daha böyük və populyar millətçi hərəkata - əvvəllər *Sun Yatsenin,* sonralar isə *Çan Kayşinin* başçılıq etdiyi Qomindanuya qoşuldu.

1927-ci ilin aprelində antikommunist *Kayşi* tərəfindən aldadılmış Şanxay partiyasının özəyi siyasi təmizlənməyə məruz qaldı, sağ qalmış üzvlər isə gizli iş şəraitinə keçdilər. İnqilabı şəhər səviyyəsində keçirmək cəhdi uğursuzluqla nəticələndikdən sonra marksist və partiyanın vilayət qanadının lideri *Mao Tszedun* hakimiyyəti öz əlinə aldı. 1921-ci ildə Şanxayda ÇKP-nın əsasını qoyanlardan biri olan Mao Tszedun kəndli ittifaqına və antihökumət partizan taktikasından istifadəyə əsaslanmış üçüncü dünyanın unikal kommunist modelini qurmağa başladı. Getdikcə təkmilləşən Kəndli inqilabının Maoist modeli nəhayət, 1948-1949-cu illərdə Çan Kayşi qüvvələri ilə mübarizədə müvəffəqiyyətini təmin etdi.

Hal-hazırda 81 milyon üzvdən ibarət ÇKP dövlətin hökumət ierarxiyasına paralel olaraq formalaşır və bünövrəsi konqreslərin seçkili ierarxiyasına və demokratik mərkəzçi leninizm cərəyanının prinsiplərinə müvafiq kənd və fabrik komi-

tələrindən təşkil edilmiş piramidal struktura malikdir. *Ümumçin Xalq Nümayəndələri Yığıncağı* Kommunist partiyasının 340 nəfər üzvü olan *Mərkəzi Komitəsi* tərəfindən seçilir.

ÇKP ilə bilavasitə əlaqəli olan *Çin Kommunist Gənclər Liqası* 15-25 yaşlı milyonlarla gənc vətəndaşı özündə birləşdirən təşkilatdır. Hazırda Çində daha səkkiz böyük olmayan partiya fəaliyyət göstərir:

*- Çin Demokratik İrəliləyiş Assosiasiyası - 1945-ci ildə formalaşmışdır;*

*- Çin Demokratik Liqası – 1941-ci ildə meydana gəlmişdir;*

*- Çin Demokratik Milli Konstruktiv Assosiasiyası - 1945-ci ildə əsası qoyulmuşdur;*

*- Çin Fəhlə və Kəndli Demokratik Partiyası - 1947-ci ildə yaradılmışdır;*

*- İnqilabi Komitə - 1948-ci ildə meydana gəlmişdir;*

*- Ciu San Cəmiyyəti (3 sentyabr) - 1946-cı ildə yaradılmışdır;*

*- Tayvan Demokratik Özünüidarə Liqası - 1947-ci ildə təsis edilmişdir.*

ÇKP ilə bir ittifaqda fəaliyyət göstərən və ilk növbədə burjuaziya və ziyalılar üçün nəzərdə tutulmuş bu orqanların ÜXNY-da və Daimi komitədə nümayəndəlikləri vardır.

# KUBA

  

***Ümumi məlumat:*** Avropalıların gəlişinə qədər *hinduların* məskunlaşdığı *Kuba* adası*,* 1492-ci ildə *Kolumb* tərəfindən kəşf edilmiş və 1511-ci ildən etibarən *İspaniyanın* koloniyasına çevrilmişdir.

1868-1878-ci və 1895-1898-ci illərdə *İspaniyanın* müstəmləkə rejiminə qarşı azadlıq müharibələri nəticəsində *Kuba* müstəqillik əldə etmişdir.

1956-cı ildə *adada F.Kastronun* başçılığı ilə diktatura rejiminə qarşı başlamış vətəndaş müharibəsi, 1959-cu ildə Kuba Sosialist İnqilabının qələbəsi ilə nəticələnmiş və ölkə sosializm quruluşuna keçid almışdır.

*Karib dənizinin* şimal hissəsində yerləşən *Kubanın* paytaxtı *Havana* şəhəridir.

Ölkənin ərazisi 109,884 km², əhalisi *(2012)* 11,163,934 nəfərdir *(əhali sıxlığı 102 nəfər/km²)*.

*Kubanın* rəsmi dövlət dili *ispan* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.776* - yüksəkdir *(51-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik, birpartiyalı sosialist tipli respublikadır. 1976-cı ildən qüvvədə olan Kuba Konstitusiyasına *(1992-ci ildən yeni redaksiyada)* əsasən *Kuba* Qərb yarımkürəsində yerləşən yeganə *"sosialist dövlətidir"*. Milli bayram günü olan müstəqillik günü (1898) dekabr ayının 10-da qeyd olunur.

***İnzibati bölgüsü:*** Kuba inzibati cəhətdən 15 əyalətə *(Pinar-del-Rio, Artemisa, Mayabeke. Havana, Matansas, Syenfueqos, Vilya-Klara, Sankti-Spiritus, Syeqo-de-Avila, Kamaquey, Las-Tunas, Qranma, Olqin, Santyaqo-de-Kuba və Quantanamo)* və xüsusi munisipiyə - *Xuventud adasına (gənclər adası)* bölünür. Əyalətlər də öz növbəsində 169 munisipiyaya bölünür.

***Dövlət başçısı:*** *Dövlət Şurasının sədri* olduqca geniş səlahiyyətlərə malikdir. O, Hökumətə başçılıq edir və eyni zamanda silahlı qüvvələrin ali baş komandanı sayılır, *Dövlət Şurasının* və *Nazirlər Şurasının* iclaslarını çağırır və onlara rəhbərlik edir, Dövlət Şurasının, Nazirlər Şurası və ya onun icraiyyə komitəsinin razılığı ilə qanun-dekretlər, digər qərar və normativ aktlar dərc edir.

1959-cu ildən *Kuba Hökumətinə* fasiləsiz başçılıq edən *Fidel Kastro Rus* - 1976-2008-ci illərdə Dövlət Şurasına sədrlik etmişdir. Eyni zamanda 1965-ci ildən 2011-ci ilə qədər *Kuba Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş Katibi* olan *F.Kastronun* əlində dövlət başçısının, hökumətin, hakim partiyanın və silahlı qüvvələrin rəhbərinə aid olan bütün hakimiyyət cəmlənmişdi.

F.Kastronun xəstəliyi ilə əlaqədar olaraq ölkə Parlamenti 24 fevral 2008-ci ildə *Raul Kastro Rusu* 97.7 faiz səslə *Dövlət Şurasının* sədri seçdi, 19 aprel 2011-ci ildən isə *Raul Kastro* Kuba Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibidir.

Konstitusiyaya uyğun olaraq hərbi vəziyyət, müharibə, ümumi səfərbərlik və ya fövqəladə vəziyyət şəraitində ölkəyə rəhbərlik Milli Müdafiə Şurasına keçir.

***Qanunvericilik hakimiyyəti:*** Ali hakimiyyət orqanı ümumi səsvermə yolu ilə 5 il müddətinə seçilən *Xalq Hakimiyyətinin Milli Assambleyasıdır.* Qanunvericilik hakimiyyətinə malik Assambleya öz tərkibindən, sessiyalararası müddətdə

onu təmsil edən, Assambleyanın qərarlarını icra edən və digər funksiyaları həyata keçirən *Dövlət Şurasını* seçir. Şura *Milli Assambleya* qarşısında məsuliyyət daşımaqla yanaşı, həm də onun qarşısında mütəmadi hesabat verir.

1959-cu ildən sonra *Fidel Kastro Hökumətinə* müxalifətdə olan siyasi partiyalar ləğv olunmuşdur. Rəsmi olaraq yalnız üç iqtidaryönlü təşkilatın – Fidel Kastronun şəxsən rəhbərlik etdiyi 26 İyul Hərəkatının, Xalq-Sosialist (Kommunist) Partiyasının və 13 Mart İnqilabı Direktoratının fəaliyyəti davam edirdi. 1961-ci ildə onlar – 1962-1963-cü illərdə Vahid Kuba Sosialist İnqilabı Partiyasına çevrilmiş – "Birləşmiş inqilabi təşkilatlara" qarışdılar. O dövrdən etibarən Kubada birpartiyalı rejim mövcuddur.

*Kuba Kommunist Partiyası (KKP)* 1965-ci ilin oktyabrında VKSİP-in əsasında təsis edilmişdir. Bununla belə, onun birinci qurultayı yalnız 1975-ci ildə, ikinci qurultayı isə 1980-ci ildə keçirilmişdir. KKP-nin ideologiyasının əsasını "Xose Marti ideyaları" və marksizm-leninizm təşkil edir. Konstitusiyaya əsasən partiya cəmiyyətdə və siyasi sistemdə rəhbər rola sahibdir. Onun nəzarəti altında həmkarlar ittifaqları, gənclər, qadınlar və bütün digər ictimai təşkilatlar fəaliyyət göstərirlər.

Kuba Kommunist Partiyasının rəsmi proqramı 1986-cı ildə keçirilmiş üçüncü qurultayda qəbul edilmişdir. 1991-ci ildə, SSRİ-nin və digər dövlətlərin "real sosializminin" iflasa uğraması şəraitində keçirilmiş dördüncü qurultay - komanda mövqelərinin dövlətin nəzarətində qalması şərti ilə iqtisadi islahatlar uğrunda öz rəyini bildirdi, möminlərin və dindarların partiyaya daxil olmalarına imkan yaratdı və Mərkəzi Komitəyə fövqəladə səlahiyyətlər verdi. KKP-nin yeni proqramı 1997-ci ildə - beşinci partiyanın qəbul etdiyi "Bizim müdafiə etdiyimiz birlik, demokratiya və insan hüquqları Partiyası" sənədi oldu. Kuba Kommunist Partiyasının hazırkı proqrama müvafiq

olaraq son məqsədi – kommunizmin qurulması, müasir mərhələnin tarixi məqsədi isə sosializm quruculuğunun başa çatdırılmasıdır.

1997-ci il qurultayı birpartiyalılığı "Kuba inqilabının fundamental prinsipi" kimi təsdiq etdi. KKP-nin rəhbərliyinin fikrinə görə birpartiyalı rejim "formal burjua demokratiyasından" daha mütərəqqi model sayılır, vətəndaş azadlıqları isə sosialist dövlətinin mövcudluğunun və məqsədlərinin əksinə olaraq fəaliyyət göstərə bilməz. Bu prinsipin pozulması cəzaya layiqdir.

1985-ci ildə Kubada assosiasiyalar haqqında qanun qəbul edildi. Bu qanuna uyğun olaraq Kuba Sosial-Demokratik partiyası, İnsan hüquqları uğrunda Kuba partiyası və digər siyasi partiyalar qeydiyyatdan keçmək üçün müraciət etsələr də, onların hamısı rədd cavabı aldılar. Kubada müxalifət *(hüquq müdafiə, sosial-demokratik, pasifist, liberal, anarxist və s.)* qeyri leqal şəkildə fəaliyyət göstərir və təqiblərə məruz qalır.

***İcraedici hakimiyyət:*** İcraedici hakimiyyətin ali orqanı - *Nazirlər Şurasıdır*. Onun üzvləri *Dövlət Şurası* tərəfindən irəli sürülür və *Milli Assambleya* tərəfindən təsdiq edilir.

Yerli dövlət hakimiyyəti orqanları - ümumi səsvermə yolu ilə seçilən əyalət və munisipal assambleyalardır. Əyalət və munisipal orqanların səlahiyyət müddətləri müvafiq olaraq 5 və 2.5 ildir. 1960-cı ildən sonra yaradılmış "İnqilab müdafiə komitələri" yerlərdə əhəmiyyətli rol oynayırlar. Onlar nizam-intizamın qorunmasına və vəziyyətə daimi nəzarəti həyata keçirirlər, əhalinin vaksinasiyasını və digər tədbirləri təşkil edirlər.

***Məhkəmə hakimiyyəti:*** Kuba Sosialist Respublikasının məhkəmə hakimiyyəti sisteminə *Ali Xalq Məhkəməsi* və müxtəlif səviyyəli məhkəmələr daxildir. Məhkəmələr yerli orqanlardan asılı olmasalar da, Milli Assambleyaya və Dövlət Şurasına tabedirlər. Ali Xalq Məhkəməsi – ali məhkəmə orqanı

olaraq qanunvericilik təşəbbüsünü həyata keçirir, məhkəmə normalarını və təlimatlarını dərc edir və s. qanunçuluq üzərində nəzarəti – bilavasitə Milli Assambleyaya və Dövlət Şurasına tabe olan *Dövlət prokurorluğu* həyata keçirir. Yerli prokurorluq orqanları müvafiq instansiyanın dövlət orqanlarından asılı deyillər və *Baş Prokurorluğa* tabedirlər.

# LAOS

  

***Ümumi məlumat:*** İlk vahid Laos dövləti - *Lansanq* XIV əsrdə təşəkkül tapmış və XVIII yüzilliyə qədər mövcud olmuşdur.

1893-cü ildən *Fransanın* protektoratı sayılan *Laosda* azadlıq uğrunda mübarizə *(1945-1954)* geniş vüsət almış və nəticədə ölkə 1954-cü ildə müstəqillik əldə etmişdir.

*Asiyanın* cənub-şərq hissəsində, *Hind-Çin* yarımadasında yerləşən *Laos Xalq- Demokratik Respublikasının* paytaxtı *Vyentyan* şəhəridir.

Ölkənin ərazisi 236,800 km², əhalisi *(2012)* 6,500,000 nəfərdir *(əhali sıxlığı 26.7 nəfər/km²)*.

*LXDR-in* rəsmi dövlət dili *laos* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.524* - ortadır *(138-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarə-etmə üsuluna malik, bir partiyalı sosialist tipli respublikadır. Milli bayram günü olan müstəqillik günü (1949) 19 iyul tarixində qeyd edilir. 10 fəsil və 80 maddədən ibarət Laos Konstitusiyası 14 avqust 1991-ci il tarixində qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** Laos Respublikası 11 000 kommunadan ibarət 140 rayonu özündə birləşdirən 16 əyalətə *(Attapı, Bokeo, Bolikxamsay, Tyampasak, Xuapxan, Kxammuan, Luanqnamtxa, Luanqpxabanq, Udomsay, Pxonqsali, Sayn-yabuli, Salavan, Savanakxet, Sekonq, Vyentyan-əyalət və Sienqkxuanq) və Vyentyan paytaxt* prefekturasına bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanı sayılan Prezident, ölkə Parlamenti tərəfindən 5 il müddətinə seçilir. Ali qanunverici orqanda dövlət başçısı seçilmək üçün namizəd, Parlamentin xüsusi iclasında iştirak edən deputatların ən azı 2/3 hissəsinin səsini qazanmalıdır.

Laos Prezidenti Milli Assambleyanın qərarına əsasən *Baş naziri,* onun təqdimatı ilə əyalət qubernatorlarını və şəhər merlərini təyin edir və vəzifədən kənarlaşdırır, Baş nazirin təqdimatı ilə silahlı qüvvələrin və təhlükəsizlik xidmətinin ali vəzifəli şəxslərinə hərbi rütbələr verir, habelə əfvlə bağlı sərəncam imzalayır və digər funksiyaları həyata keçirir.

Dövlət başçısı *Hökuməti* formalaşdırır və onun üzvlərini təyin edir. Prezidentin birbaşa rəhbərliyi altında fəaliyyət göstərən nazirlər onun qarşısında fərdi məsuliyyət daşıyırlar.

08 iyun 2006-cı il tarixindən etibarən Laos Respublikasının hazırkı, sayca 6-cı Prezidenti, *Laos Xalq-İnqilab Partiyasının* Mərkəzi Komitəsinin Baş katibi *Tyummali Saynyasondur.*

***Qanunverici hakimiyyət:*** *Laosun* ali qanunverici orqanı 132 yerlik, bir palatalı *Milli Assambleyadır*. Parlamentə 5 il müddətinə seçilən üzvlər, əhali tərəfindən bərabər və birbaşa seçkilər nəticəsində müəyyən edilir. *Milli Assambleyanın* bütün deputat mandatları, ölkədə yeganə leqal və hakim siyasi partiya sayılan *Laos Xalq-İnqilab Partiyasının* təmsilçilərinə məxsusdur.

Qanunvericilik hakimiyyəti orqanı olan *Milli Assambleya* qanunların hazırlanması və qəbulunda, dövlət büdcəsinin və sosial-iqtisadi inkişaf planının müzakirəsi və təsdiqində, habelə Milli Assambleyanın təqdimatı ilə ölkə Prezidentinin vəzifədən kənarlaşdırılmasında və mövcud Konstitusiya ilə müəyyən olunmuş digər mühüm məsələlərdə səlahiyyətlidir.

Bundan əlavə, Assambleya üzvləri 2/3 səs çoxluğu ilə mövcud Konstitusiyaya dəyişikliklər etmək hüququna malikdirlər.

23 dekabr 2010-cu il tarixindən etibarən Milli Assambleyanın sədri, *Laos Xalq-İnqilab Partiyasının* təmsilçisi *Pani Yatxotudur.*

***İcraedici hakimiyyət:*** Hökumət - *Baş nazirdən,* onun müavinindən, nazirlərdən və nazir statusuna malik komissiya sədrlərindən ibarət və səlahiyyət müddəti 5 il olan yuxarı icra orqanıdır. *Hökumət* dövlətin bütün sferalar *(siyasi, iqtisadi, sosial, mədəni, müdafiə, təhlükəsizlik və xarici siyasət)* üzrə siyasətini həyata keçirməkdə, habelə bütün səviyyələrdə inzibati strukturların fəaliyyətini istiqamətləndirməkdə və nəzarətdə saxlamaqda səlahiyyətlidir.

23 dekabr 2010-cu il tarixindən etibarən ölkənin *Baş naziri, Laos Xalq-İnqilab Partiyasının* təmsilçisi *Txonqsinq Txammavonqdur.*

***Məhkəmə hakimiyyəti:*** Laosun ən yüksək məhkəmə instansiyası sayılan *Ali Məhkəmə,* habelə *xalq əyalət, bələdiyyə, xalq rayon və hərbi məhkəmələr* ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

*Ali Məhkəmənin* müavini və xalq məhkəmələrinin bütün səviyyələr üzrə hakimləri *Milli Assambleyanın* müvafiq daimi komissiyası tərəfindən təyin və vəzifələrindən azad edilirlər.

# ŞİMALİ KOREYA (KXDR)

  

***Ümumi məlumat:*** Dünyanın ən qədim mədəniyyət mərkəzlərindən biri sayılan *Koreya ərazisində* ilk vahid dövlət 668-ci ildə təşəkkül tapmışdır. 1910-1945-ci illər ərzində ölkə *Yaponiya İmperiyasının* tərkibinə *(General-qubernatorluq statusunda)* daxil edilmişdir.

1945-ci ilin sentyabr ayında *Koreyanın* 38-ci paraleldən cənuba doğru hissəsinin Amerika hərbi birləşmələrinin nəzarətinə keçməsi, ölkənin iki yerə bölünməsi ilə nəticələnmişdir.

15 avqust 1948-ci il tarixində *Seul* şəhərində *Koreya Respublikası (Cənubi Koreya)*, həmin ilin 9 sentyabr tarixində isə *Pxenyanda Koreya Xalq-Demokratik Respublikası (Şimali Koreya)* rəsmən elan edilmişdir.

*Şərqi Asiyada, Koreya yarımadasının* şimal hissəsində yerləşən *Şimali Koreyanın (KXDR)* paytaxtı *Pxenyan* şəhəridir.

Ölkənin ərazisi 120,540 km², əhalisi *(2011)* 24,554,000 nəfərdir *(əhali sıxlığı* 198.3 *nəfər/km²)*.

*KXDR-in* rəsmi dövlət dili *koreya* dilidir.

***Dövlət quruluşu:*** Qeyri-məhdud hakimiyyətli bir partiyalı idarəetmə üsuluna malik, sosialist respublikasıdır. Milli bayram günü olan dövlətin yaranması günü (1948) 09 sentyabr tarixində qeyd edilir. Ölkə Konstitusiyası 27 dekabr 1972-ci ildə qəbul edilmişdir *(09 aprel 1992-ci ildə, 05 sentyabr 1998-ci ildə, 27 sentyabr 2009-cu ildə və 2012-ci ilin aprel ayında Konstitusiyaya bir sıra dəyişikliklər edilmişdir)*.

***İnzibati bölgüsü:*** *KXDR* 9 əyalətə *(Çaqando, Xamqen-Pukto, Xamqen-Namdo, Xvanxe-Pukto, Xvanxe-Namdo, Kanvondo, Pxenan-Pukto, Pxenan-Namdo, Yanqando),* mərkəz tabeçiliyində olan 2 iri şəhərə *(Pxenyan və Rason)* və 3 xüsusi inzibati regiona *(Keson sənaye regionu, Kımqansan turistik regionu və Sinıycu xüsusi inzibati regionu)* bölünür.

***Dövlət başçısı:*** *Koreya Xalq Demokratik Respublikasında* dövlət hakimiyyətinin ən yüksək rəhbərlik orqanı sayılan *Mərkəzi Xalq Komitəsinə* KXDR Prezidenti başçılıq edir.

Ölkədə siyasi sabitliyin və dövlət təhlükəsizliyinin təminatçısı, habelə daxili və xarici münasibətlərdə KXDR-in ali təmsilçisi sayılan *Prezident* dövlət siyasətini formalaşdırır və onun həyata keçirilməsi üçün Ali Xalq Məclisi qarşısında bilavasitə məsuliyyət daşıyır, digər ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndələri vəzifəyə təyin edir və geri çağırır və qüvvədə olan Konstitusiya ilə müəyyən edilmiş digər mühüm səlahiyyətləri icra edir.

Bununla yanaşı, Şimali Koreyada hərbi və müdafiə sferası dövlət hakimiyyətinin ən yüksək hərbi rəhbərlik orqanı sayılan *Milli Müdafiə Komissiyasının* müstəsna səlahiyyətinə aiddir. Belə ki, bütün ölkə üzrə silahlı qüvvələrə və dövlət müdafiə sisteminə rəhbərlik edilməsi, ali hərbi kadrların təyinatı, müharibə və ümumxalq səfərbərliyi elan edilməsi və s. məsələlər *Milli Müdafiə Komissiyası* tərəfindən həyata keçirilir.

Mövcud Konstitusiyaya görə, Şimali Koreyada de-fakto bir partiyanın siyasi hakimiyyəti bərqərar olduğundan, bir qayda olaraq dövlət başçısı *Əmək Partiyasının* üzvləri arasından seçilir.

29 dekabr 2011-ci il tarixindən etibarən *Koreya Əmək Partiyası Mərkəzi Komitəsinin Birinci Katibi,* Koreya Xalq Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin Birinci Sədri, Koreya Xalq Ordusunun Ali Baş Komandanı *marşal Kim Çen Indır (dünya birliyi ölkələri arasında ən gənc dövlət başçısıdır).*

***Qanunverici hakimiyyət:*** *Şimali Koreyada* qanunvericilik hakimiyyəti, 687 üzvü gizli səsvermə yolu ilə ümumi, bərabər və birbaşa seçki hüququ prinsipi üzrə 5 illik müddətə *(seçki keçirilməsi mümkün olmadığı hallarda ali qanunverici orqanın səlahiyyət müddəti uzadıla bilər)* seçilmiş *Ali Xalq Məclisi* və onun qarşısında cavabdehlik daşıyan *Daimi Komitə* tərəfindən həyata keçirilir.

*Ali Xalq Məclisi* qüvvədə olan Konstitusiyaya düzəlişlərin edilməsində, qanunların hazırlanmasında və qəbulunda, dövlət büdcəsinin müzakirəsində və təsdiqində, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyasında, dövlətin daxili və xarici siyasətinin əsas prinsiplərinin müəyyən edilməsində, dövlət başçısının və milli müdafiə komissiyasının sədrinin seçilməsində və ya vəzifələrindən geri çağırılmasında, Daimi Komitənin, Mərkəzi Xalq Komitəsinin və Ali Məhkəmənin üzvlərini, Baş prokuroru və digər ali vəzifə sahiblərini təyin etməkdə, habelə Konstitusiya ilə müəyyən edilmiş bir çox digər mühüm məsələlərin həllində səlahiyyətlidir.

*Ali Xalq Məclisinin* deputat yerləri bir qayda olaraq ölkədə hegemon siyasi partiya sayılan hakim *KXDR Əmək Partiyasının* təmsilçilərinə məxsusdur. Belə ki, 08 mart 2009-cu il tarixində keçirilmiş son Parlament seçkiləri zamanı *Əmək Partiyası* 601 yerə, ikinci olmuş Sosial Demokrat Partiyasının nümayəndələri isə cəmi 51 mandata sahib olmuşlar. Digər qalan yerlər isə ÇÇP *(21 yer)* və müstəqil deputatlar *(13 yer)* arasında bölünmüşdür.

***Məhkəmə hakimiyyəti:*** Mövcud Konstitusiyanın 133-cü maddəsinə əsasən sədri və hakimləri *Ali Xalq Məclisi* tərəfindən təyin edilən *Mərkəzi Məhkəmədən,* habelə *əyalət və rayon xalq məhkəmələrindən* ibarət olan 3 pilləli məhkəmə sistemi Şimali Koreyada məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir.

# VYETNAM





***Ümumi məlumat:*** *Vyetnam* ərazisində ən qədim dövlətlər eramızdan xeyli əvvəl təşəkkül tapmışdır. 1884-1945-ci illər ərzində *Fransanın* protektoratı olmuş ölkə, 1945-ci ilin avqust ayında baş vermiş xalq-demokratik inqilabı nəticəsində *Vyetnam Demokratik Respublikası* elan edilmişdir.

*Fransa* müstəmləkəçiləri\\\\\\\\yetnam xalqının 8 illik (1945-1954) müqavimət hərəkatı ölkənin parçalanması ilə nəticələnmiş, cənubda tez bir zamanda *ABŞ-ın* təsir dairəsinə daxil olan *Cənubi Vyetnam* dövləti yaradılmışdır. Lakin bu torpaqlarda genişlənən xalq-azadlıq müharibəsi (1964-1973), ABŞ silahlı qüvvələrinin və onun müttəfiqlərinin *Vyetnam* ərazilərindən çıxarılması ilə nəticələnmişdir.

1976-cı ilin iyul ayında ölkə parlamenti ölkənin birləşdirilməsini və vahid *Vyetnam Sosialist Respublikasının* yaradılmasını elan etmişdir.

*Asiyanın* cənub-şərq hissəsində, *Hind-Çin yarımadasında* yerləşən *Vyetnamın (VSR)* paytaxtı *Hanoy* şəhəridir.

Ölkənin ərazisi 331,210 km², əhalisi *(2012)* 90,388,000 nəfərdir *(əhali sıxlığı* 272 *nəfər/km²)*.

*VSR-in* rəsmi dövlət dili *vyetnam* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.593* - ortadır *(128-ci yer)*.

***Dövlət quruluşu:*** Məhdudiyyəti olmayan prezident idarəetmə üsuluna malik, bir partiyalı sosialist respublikasıdır. Milli bayram günü olan müstəqillik günü (1945) 02 sentyabr tari-

xində qeyd edilir. Ölkə Konstitusiyası 15 aprel 1992-ci ildə qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 58 əyalətə *(Anzyanq, Bakkan, Bençe, Daklak, Donqnay, Zyalay, Lonqan, Nqean, Namdin, Kontum, Futxo, Fuyen, Xatin, Xoabin, Çavin, Xanam, Şonla və s.)* və mərkəz tabeçiliyində olan 5 iri şəhərə *(Hanoy, Xoşimin, Dananq, Kantxo və Xayfon)* bölünür.

***Dövlət başçısı:*** Ölkədə milli birliyin rəmzi, müstəqilliyin və ərazi bütövlüyünün, Hökumətin sabit fəaliyyətinin və dövlət təhlükəsizliyinin təminatçısı, daxili və xarici münasibətlərdə Vyetnam Sosialist Respublikasının ali təmsilçisi olan *Prezident*, eyni zamanda Silahlı Qüvvələrin ali baş komandanı və Müdafiə və Təhlükəsizlik Şurasının sədridir.

Mövcud Konstitusiyaya görə, Vyetnamda birpartiyalı siyasi sistem bərqərar olduğundan, bir qayda olaraq dövlət başçıları Kommunist partiyasının üzvləri arasından seçilirlər.

Dövlət başçısı *Nazirlər Kabinetinin* strukturunu formalaşdırır, *Milli Assambleyanın* razılığı əsasında Baş naziri, nazirləri və digər ali vəzifəli şəxsləri təyin edir. Prezidentin birbaşa rəhbərliyi altında fəaliyyət göstərən nazirlər onun qarşısında fərdi məsuliyyət daşıyırlar.

25 iyul 2011-ci il tarixindən etibarən Vyetnam Sosialist Respublikasının hazırkı, sayca 9-cu Prezidenti *Vyetnam Kommunist Partiyasının* təmsilçisi *Çıonq Tan Şanqdır.*

***Qanunverici hakimiyyət:*** *Vyetnamın* ali qanunverici orqanı 500 yerlik, bir palatalı *Milli Assambleyadır*. Parlamentin deputat yerləri bir qayda olaraq ölkədə yeganə leqal siyasi partiya sayılan hakim *Vyetnam Kommunist Partiyasının* təmsilçilərinə məxsusdur. Belə ki, 22 may 2011-ci il tarixində keçirilmiş son Parlament seçkiləri zamanı *Kommunist Partiyası* 458 yerə, müstəqil deputatlar isə qalan 48 mandata sahib olmuşlar.

*Milli Assambleya* qanunların hazırlanmasında və qəbulunda, dövlət büdcəsinin müzakirəsində və təsdiqində, beynəlxalq müqavilələrin və sazişlərin ratifikasiyasında, habelə mövcud Konstitusiya ilə müəyyən edilmiş digər qanunvericilik funksiyalarının həyata keçirilməsində müstəsna hüquqlara malik olmaqla yanaşı, *Prezidenti, Baş naziri,* 21 nazirdən ibarət *Hökumət* üzvlərini, *Baş prokuroru* və *Ali Məhkəmənin* sədrini təyin etməkdə də səlahiyyətlidir.

***İcraedici hakimiyyət:*** *Nazirlər Kabineti* və ona rəhbərlik edən *Baş nazir* ölkədə icra hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidir. Mövcud Konstitusiyaya görə, *Hökumət* üzvləri arasından yalnız Baş nazir, qarşısında fərdi məsuliyyət daşıdığı *Milli Assambleyanın* üzvü olur.

Ölkənin daxili və xarici siyasət kursunun həyata keçirilməsində səlahiyyətli olan *Hökumətin fəaliyyətinə* Parlamentin *Daimi Komitəsi* nəzarət edir və *Kabinet* üzvləri Parlamentdə təsdiq olunur.

2006-cı ilin iyun ayından etibarən Vyetnam Sosialist Respublikasının hazırkı *Baş naziri, Vyetnam Kommunist Partiyasının* təmsilçisi olan *Nquen Tan Zunqdur.*

***Məhkəmə hakimiyyəti:*** Vyetnamın ən yüksək məhkəmə instansiyası sayılan və sədri Milli Assambleya tərəfindən təyin edilən *Ali Məhkəmə,* habelə yerli xalq məhkəmələri, hərbi və qanunvericilikdə nəzərdə tutulmuş digər birinci instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirirlər.

## §3. Teokratik və mütləq monarxiya tipli dövlətlər

Zahirən teokratiya və monarxiya sisteminə daxil olan ölkələrin siyasi rejimləri çox oxşardır. Müddətsizlik, konkret hüquqi məsuliyyətin olmaması, tam hakimiyyətlilik kimi əlamətlər onları bir-birinə son dərəcə yaxınlaşdırır. Lakin, ali hakimiyyətin əvəzlənməsində monarxiyaya xas olan vərəsəlik qaydası, teokratiya üçün nəinki məcburi sayılmır, əksinə ümumiyyətlə qəbul edilməyən bir institutdur.

İlahi hakimiyyət – bir çox teokratik dövlətlərin *(İran, Səudiyyə Ərəbistanı, Vatikan və s.)* əsas qanunlarında möhkəm yer qazanmış əsas elementdir. Məsələn, İran Konstitusiyasına görə dövlətin və ümumiyyətlə bütün müsəlman cəmiyyətinin işlərinin idarə olunması əbədi və daimi olaraq 12 imamın əlindədir. Səudiyyə Ərəbistanında isə İlahi hakimiyyət – Əsas qanunun müqəddəs *"Qurani-Kərim"* olması ilə izhar edilir. Vatikanda da sözügedən hakimiyyət məhz analoji üsulla özünü təsdiq edir.

Teokratik respublika idarəçiliyinin əsl nümunəsi *İrandır.* Bu ölkədə əsas dövlət vəzifələrinə namizədləri *Ayətullahlar Şurası* təsdiq edir. Ayətullah dövlətin ali rəhbəri sayılır və Prezidentlə müqayisədə daha geniş hakimiyyətə sahibdir.

Teokratik dövlətdə qanunvericilik, məhkəmə və bəzi hallarda ali rəhbərlik dini liderlər tərəfindən həyata keçirilir. Bir qayda olaraq onlar dövlət başçısı yanında məşvərətçi orqanın *(Səudiyyə Ərəbistanında - monarxın yanında Məşvərətçi Şura; İranda – Rəhbərin yanında Ekspertlər Şurası və s.)* tərkibinə daxil olurlar, bəzi hallarda isə dövlət başçısı eyni zamanda ruhanilərin lideri sayılır *(İran, Vatikan və s.).*

Bəzən teokratiya elementləri, habelə monarxın kilsə başçısı olduğu protestant ölkələrində də *(Böyük Britaniya, Norveç, İsveç, Danimarka)* görünür.

Tədqiqatçılar hesab edir ki, əslində dövlət teokratiyası nə monarxiya, nə də ki, respublika idarəetmə formasıdır. Onların fikrinə görə, teokratiya müstəqil idarəetmə forması hesab edilməlidir.

Bütövlükdə, teokratik dövlət – siyasi rejim anlayışından daha çox, dini-siyasi sistem anlamını verən, habelə özündə demokratik və ya qeyri-demokratik əlamətlər yükünü daşıyan unikal bir dövlət quruluşudur.

Mütləq Monarxiya *(təkhakimiyyətlilik)* – elə bir idarəetmə formasıdır ki, burada ali hakimiyyət vətəndaşların iradəsindən asılı olmayaraq, tam şəkildə bir mütləq dövlət başçısının *(imperator, kral, sultan, şah və s.)* əlində cəmləşmişdir. Bu tipli idarəetmə sistemində: hakimiyyət varislik yolu ilə ötürülür; müddətsiz olaraq həyata keçirilir və əhalinin iradəsindən asılı deyil.

Dövlətin idarə edilməsini Konstitusiyasız, bəzi hallarda isə Parlamentsiz həyata keçirən mütləq monarxiya, uzun müddət yer üzündə hakim olan idarəçilik forması olmuşdur. Hazırda mütləq monarxiyalar Asiya regionunda hələ də qalmaqdadır *(Bruney, Oman, Qətər və s.).* Burada xalqın azad iradəsi nəticəsində formalaşmış qurumlar mövcud deyil və dövlət suverenliyinin yeganə daşıyıcısı monarxdır.

# BRUNEY

  

***Ümumi məlumat:*** XIV-XIX əsrləri əhatə edən dövrdə müstəqil irsi monarxiya olan *Bruney,* 1888-ci ildən *Böyük Britaniyanın* protektoratına *(sultanlıq* statusunda*)*, 1906-cı ildən isə faktiki olaraq müstəmləkəsinə çevrilmişdir.

1959-cu ildə daxili muxtariyyət əldə etmiş *Bruney,* 1984-cü ildən etibarən *Birləşmiş Krallığın* tərkibində tam müstəqil dövlətdir.

*Asiyanın* cənub-şərq hissəsində yerləşən *Bruney Darus-salam* dövlətinin paytaxtı *Bandar Səri Bəqavan* şəhəridir.

Ölkənin ərazisi 5,765 km², əhalisi *(2011)* 408,786 nəfərdir *(əhali sıxlığı* 67.3 *nəfər/km²).*

*Bruneyin* rəsmi dövlət dili *malay* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.838* - çox yüksəkdir *(33-cü yer).*

***Dövlət quruluşu:*** *Bruney Sultanlığı* mütləqiyyət formalı idarəetmə üsuluna malik teokratik irsi monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1984) 01 yanvarda qeyd olunur. Ölkə Konstitusiyası 1959-cu ildən *(1984-cü ildə edilmiş əsaslı dəyişikliklərlə birlikdə)* qüvvədədir.

***İnzibati bölgüsü:*** 4 dairəyə *(Belayt, Bruney-Muara, Tem-buronq və Tutonq)* bölünür.

***Dövlət başçısı:*** Mövcud Konstitusiyaya görə, *Bruney Sul-tanı* ölkədə milli və dini birliyin rəmzi, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, dövlət və Hökumət başçısı *(Baş nazir)*, ali dini rəhbər, habelə silahlı qüvvələrin ali baş

komandanı və müdafiə naziridir. İcraedici Hakimiyyətin mütləq səlahiyyətlərini özündə ehtiva edən *Sultan,* özünün tövsiyə və təyin etdiyi, müxtəlif məhdud hüquqlu funksiyaların daşıyıcısı olan 5 Şuraya *(Ortaq Şura, Varislik Şurası, Dini Şura, Nazirlər Şurası və Qanunvericilik Şurası)* sədrliyi həyata keçirir.

*Bruneyin* hazırkı, sayca 29-cu sultanı 5 oktyabr 1967-ci ildən etibarən *Hassanal Bolkiahdır.*

***Qanunverici hakimiyyət:*** 36 üzvdən ibarət birpalatalı *Qanunvericilik Şurası* tərəfindən həyata keçirilir. Mövcud Konstitusiyaya müvafiq olaraq, *Sultanın* rəhbərliyi ilə ənənəvi qanunvericilik vəzifələrini icra edən ölkə Parlamenti, yalnız məşvərətçi funksiyaya malikdir.

*Monarxın* qanunvericilik funksiyası, ilk növbədə *Parlamentin* çağırılması və buraxılması, habelə *Qanunvericilik Şurasının* qəbul etdiyi qanunvericilik aktlarına *Sultan* sanksiyalarının tətbiqi ilə müəyyən edilir.

Siyasi partiyalar ölkədə formal olaraq fəaliyyət göstərir və Parlamentdə təmsil olunmurlar.

*Bruneyin Qanunvericilik Şurasının* hazırkı sədri *Avanq İsa Avanq İbrahimdir.*

***Məhkəmə hakimiyyəti:*** Məhkəmə iyerarxiyasının ən yüksək instansiyası sayılan və iki məhkəmə struktur elementini: *Yüksək Məhkəmə və Apelyasiya Məhkəməsini* özündə birləşdirən *Bruney Sultanlığının Ali Məhkəməsi* ölkədə məhkəmə hakimiyyətinin həyata keçirilməsində səlahiyyətlidir.

Qeyd olunan məhkəmə instansiyaları ilə yanaşı, *Bruneydə Şəriət məhkəmələri* də fəaliyyət göstərir. Bu məhkəmələr *(Ali Məhkəmə və Şəriət məhkəmələri)* arasında İslam qanunlarının təfsiri üzrə sıx əməkdaşlıq mövcuddur.

# İRAN





***Ümumi məlumat:*** Dünyanın ən qədim dövlətçilik tarixinə malik ölkələrindən biri sayılan *İran*, əsrlər boyu *Şərqdə* həlledici rola sahib olmuşdur. *I Daranın* hakimiyyəti dövründə (e.ə. 521-485) *Əhəmənilər dövləti Yunanıstan və Liviya* torpaqlarından *İnd* çayına qədər uzanırdı.

Orta əsrlərdə (XVII-XVIII) kifayət qədər qüdrətə və nüfuza malik olan *İran (Persiya)*, XIX əsrin sonlarına doğru yarımmüstəmləkə dövlətinə çevrilmişdir. 1979-cu ilin fevral ayında ölkədə baş vermiş islam inqilabı nəticəsində *İran İslam Respublikası* elan edilmişdir.

*Asiyanın* qərb hissəsində yerləşən *İran İslam Respublikasının* paytaxtı *Tehran* şəhəridir.

Ölkənin ərazisi 1,648,195 km², əhalisi *(2012)* 75,149,669 nəfərdir *(əhali sıxlığı* 48 *nəfər/km²)*.

*İranın* rəsmi dövlət dili *fars* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.707* - yüksəkdir *(88-ci yer)*.

***Dövlət quruluşu:*** 1979-cu il fevral ayının 11-də *İranda* şah idarə üsulu olan monarxiya ləğv edilmiş və nəticədə 01 aprel 1979-cu ildə *İran İslam Respublikası* elan olunmuşdur. 1979-cu il dekabr ayının 3-də qəbul olunmuş Konstitusiya hal-hazırda qüvvədədir. 1989-cu il iyulun 28-də ona dəyişikliklər edilmişdir. Mövcud Konstitusiya respublika quruluşunun yaranmasını, bütün hakimiyyətin dini-siyasi dairələrin nümayəndələrinə keçməsini hüquqi cəhətdən təsbit etmişdir. İran İslam Res-

publikasında dövlət hakimiyyəti bir-birindən asılı olmayan qanunverici, icraedici və məhkəmə sahələri vasitəsilə ölkənin *Ali Dini Rəhbərinin* nəzarəti altında həyata keçirilir.

*İranın dövlət başçısı* de-yure *Prezidentdir*, bununla belə o, *Ali Dini Rəhbərə* tabedir. İslam İnqilabının rəhbəri *Ayətullah Xomeyninin* ölümündən sonra 4 iyul 1989-cu il tarixində *İran İslam Respublikasının* yeni Ali Dini Rəhbəri vəzifəsinə ayətullah *Seyyid Əli Xameneyi* seçilmişdir.

*İranın Ali Dini Rəhbəri* hakimiyyətin bütün qollarına nəzarət edir, daxili və xarici siyasətin əsas istiqamətlərini müəyyən edir; məhkəmə hakimiyyətinin başçısını, silahlı qüvvələrin və daxili qoşunların ali baş komandanlarını, İslam inqilabının mühafizə Korpusunun ali baş komandanını təyin edir; ümumxalq, birbaşa və gizli səsvermə yolu ilə seçilən Prezidentin təyinatı haqqında fərman imzalayır; Müşahidə Şurasına altı fəqihi təyin edir. Ona, müharibə elan etmək və sülh bağlamaq, amnistiya elan etmək və ya məhkəmə hakimiyyəti başçısının təklifi ilə məhkəmə hökmünü yüngülləşdirmək hüququ verilmişdir.

Hakimiyyətin ali orqanları sisteminə daxil olan və 86 üzvdən ibarət Ekspertlər Şurası birbaşa seçkilər yolu ilə 8 illik müddətə seçilirlər. Dövlət idarəçiliyi praktikasında rəhbərin nüfuzu onun dəftərxanasının nümayəndələri vasitəsilə reallaşır. Konstitusiya səlahiyyətləri rəhbərə, prezidentin fəaliyyətinə əhəmiyyətli dərəcədə nəzarət etmək və onu əvəzləmək imkanı verir.

Konstitusiyaya görə, Ali Dini Rəhbərdən sonra ölkədə ən yüksək vəzifə tutan şəxs *Prezidentdir.* Prezident olmadığı halda vəzifəsini birinci vitse-prezident həyata keçirir. 1989-cu ildə konstitusiyaya edilmiş düzəlişlərə əsasən *Baş nazir* vəzifəsi ləğv edildiyindən icraedici hakimiyyətə prezident rəhbərlik edir. Birbaşa seçkilərdə 4 il müddətinə seçilən prezident - dövlət başçısı olaraq rəsmi səviyyədə, xüsusən də xarici dövlətlərlə əlaqələrdə

İranı təmsil edir. 2005-ci il iyunun 17-də növbəti prezident seçkilərində İİR-in prezidenti vəzifəsinə *Mahmud Əhmədinejad* seçilmişdir *(2009-cu ildə keçirilmiş prezident seçkilərində M.Əhmədinejad yenidən qalib gələrək ikinci dəfə dövlət başçısı seçilmişdir).*

İran İslam Respublikasının *Ali qanunverici orqanı* bir palatalı *İslam Şurası Məclisidir.* Məclis birbaşa və gizli səsvermə yolu ilə dörd il müddətinə seçilən 290 deputatdan ibarətdir. Seçkilər iki mərhələdə keçirilir. Deputatlığa namizəd birinci mərhələdə öz seçki dairəsindən ən azı səslərin dörddə birini yığmalıdır, ikinci mərhələdə isə o, səs çoxluğu ilə seçilir. Şəhər və ostanların əhalisinin sayına proporsional surətdə bölünən parlamentdəki yerlərin sayı - hər on ildən bir hesablanmaqla, ölkə əhalisinin artım tempinə uyğun olaraq yüksələn xətt üzrə dəyişir. *Məclis* hökumətin tərkibinin təsdiqi, qanunların qəbulu, xarici ölkələrlə müqavilə və sazişlərin təsdiqi, hökumət tərəfindən borcların və təmənnasız yardımın alınması və verilməsinin təsdiqi, ölkə büdcəsinin layihəsinin təsdiqi məsələlərini icra edir və xarici mütəxəssislərin işə götürülməsinə icazə verir.

*Məclisə* 2008-ci il, 03 may tarixindən *Əli Laricani* sədrlik edir.

*Məclis* qərarlarının İslamın müddəaları və *İran İslam Respublikasının* əsas qanunu ilə uyğunluğunun təmin edilməsi - 6 üzvü Ali Dini Rəhbərin təyin etdiyi fəqihlər, digər yarısı isə namizədlikləri məhkəmə hakimiyyəti başçısının təqdimatı əsasında Məclis tərəfindən seçilən Nəzarət Şurası tərəfindən həyata keçirilir. Yuxarı palatanın və konstitusiya nəzarətinin funksiyalarını birləşdirən qanunverici orqan olan *Şura,* Məclisin bütün qərarlarına nəzarət edir, *Ekspertlər Şurasının* seçilməsi və məclis seçkiləri, həmçinin ümumi referendumun keçirilməsi üzərində nəzarəti həyata keçirir.

İslam inqilabından sonra islam normaları məhkəmə sisteminin əsasına daxil edilmişdir. Bu normalar daha çox cinayət, ailə hüququ və cəza sistemlərinə aid edilir. İlk əvvəl (1989-cu ilə qədər) *İran İslam Respublikasında* məhkəmə hakimiyyətinin ali orqanı *Ali Məhkəmə Şurası* sayılırdı, hal hazırda isə *Ali Məhkəmə* və *Ali Dini Rəhbər* tərəfindən 5 illik müddətə təyin edilən məhkəmə hakimiyyətinin başçısı bu funksiyanın daşıyıcısıdır.

*Məhkəmə hakimiyyətinin* başçısı Ali Məhkəmənin sədrini və Baş prokuroru təyin edir, ədliyyə naziri vəzifəsinə namizədi Prezidentə təklif edir. Ali Məhkəmə - məhkəmə hakimiyyəti sistemi üzərində və məhkəmələrin fəaliyyətinə ümumi nəzarəti həyata keçirir.

Xüsusi fəallığı ilə seçilən din xadimlərinin işləri üzrə məhkəmələr və islam inqilabı məhkəmələri İran İslam Respublikasının məhkəmə sisteminin bir hissəsi sayılır və məhkəmə hakimiyyətinin başçısına tabedir. Hərbi məhkəmə istisna olmaqla, demək olar ki, bütün məhkəmələrin başında, habelə ədliyyə nazirliyinin rəhbərliyində ruhanilərin təmsilçiləri durur. İranın məhkəmə sistemində Ədliyyə nazirliyi - hakimiyyətin üç qolu arasındakı əlaqələrin mühafizəsinə və məhkəməyə aid qanun layihələrinin məclisə verilməsinə cavabdehlik daşıyır. Notariat və məhkəmə ekspertizası Nazirliyin tabeliyindədir.

İranda çoxpartiyalı sistemin formalaşması 1989-cu ilin iyul ayında "Partiyalar haqqında" Qanunun qüvvəyə minməsindən sonra başlamışdır. Bu qanuna əsasən kütləvi siyasi fəaliyyəti həyata keçirmək istəyənlər proqram və nizamnamə sənədlərini təqdim etdikdən sonra İranın Daxili İşlər Nazirliyindən xüsusi icazə almalıdırlar. Praktik olaraq bütün partiyalar islam ideologiyalı platformalara malikdirlər və bu və ya digər hakim şiə ruhani qruplaşmalarına mənsubdurlar.

*İran İslam Respublikasının* partiya sistemində konkret proqramlara və mövqelərə malik qərb modelli partiyaların olmaması bu sistemin xarakterik xüsusiyyəti sayılır. İranın bü-

tün siyasi partiya və hərəkatları ölkədə daxili-siyasi qüvvələrin bölgüsünə uyğun olaraq, aralarında prinsipial fraksiyalararası mübarizə gedən mühafizəkarlar və islahatçılardan ibarət iki əsas ali klerikal ruhanilər düşərgəsinə məxsusdur. Bu qruplar həmcins və möhkəmləndirilmiş sayılmır, onların hər birində sərt fraksiya daxili qarşıdurma müşahidə edilir, ən əsası isə prinsipial ideoloji ziddiyyətlər mövcuddur.

Eyni zamanda İranın dini-siyasi elitası ölkənin siyasi arenasında geniş partiya nümayəndəliklərini təmin etməyə çalışır.

XX əsrin sonlarından etibarən ölkədə partiya quruculuğu işinin fəallaşmasına və hazırda İİR-də qeydiyyata alınmış 200-dən artıq partiya və ictimai-siyasi təşkilatların mövcudluğuna baxmayaraq, bütövlükdə İranda partiya sistemi inkişaf etməmişdir. Partiyalar proqramların deyil, liderlərin ətrafında qruplaşmaqda davam edirlər, onların bəzilərinin mətbu orqanları belə yoxdur.

Ölkədə fəaliyyət göstərən əsas partiyalara gəldikdə, bir daha qeyd etmək lazımdır ki, İran İslam Respublikasının Konstitusiyası və 1981-ci ildə qəbul edilmiş qanuna əsasən ölkədə qeyri-islami siyasi partiya və təşkilatların fəaliyyəti qadağan olunmuşdur. Ali Dini Rəhbərə meyilli bir sıra islam təşkilatları aşağıdakılardır:

*“Mübariz ruhanilər cəmiyyəti”,*
*"Mübariz ruhanilər liqası",*
*"İslam inqilabı dəyərlərinin müdafiəsi cəmiyyəti”.*

***Digər qruplar:***
*"Müsəlman qadınlar cəmiyyəti",*
*“Mühəndislərin islam cəmiyyəti",*
*"Psixoloqların islam cəmiyyəti",*
*"İran islam mücahidləri cəmiyyəti" (M.Sələməti),*
*“İslam əmək partiyası”,*
*"İslami İran Birlik cəbhəsi partiyası",*

*"İran xalqının həmrəylik partiyası"* mövcuddur.

Müxalifətdə olan təşkilatlara gəlincə, onlar son zamanlar əslində İİR-dəki vəziyyətə təsir etmək qabiliyyətini mahiyyətcə itirmişdir, onların rəhbərliyi isə (ABŞ, Avropa ölkələri, İraq və s.) mühacirətdədir.

*- İran Xalq Partiyası (1941-ci ildə yaradılmışdır - Tudə rəhbəri Ə.Xavəri).*

*- İran Kürdüstan Demokratik Partiyası (1945-ci ildə yaradılmışdır -İKDP).*

*- İran Xalq Mücahidlər Təşkilatı (1965-ci ildə yaradılmış 15000 silahlı üzvü olan partizan hərəkatıdır).*

*- İran Xalq Fədailəri Təşkilatı (İXFT-rəhbəri F.Negəhdar) Sol demokratik şüarlarla çıxış edir (1971-ci ildə yaradılmışdır).*

# SƏUDİYYƏ ƏRƏBİSTANI





***Ümumi məlumat:*** VII əsrdə *Səudiyyə Ərəbistanının* indiki ərazisində *İslam* dini meydana gəlmiş və *Ərəb Xilafəti* təşəkkül tapmışdır. XII əsrdə *Xilafət* bir sıra müstəqil dövlətlərə parçalanmışdır. 1264-cü ildə ölkə *Misir* tərəfindən fəth edilmiş, 1517-ci ildə isə *Osmanlı İmperiyasının* tərkibinə daxil olmuşdur.

XVIII yüzillikdən başlayaraq XX əsrin əvvəllərinə qədər olan dövr ərzində *Səudilər qəbiləsinin* vahid dövlət hakimiyyəti uğrunda mübarizəsi, 1902-ci ildə sayca 3-cü birləşmiş *Səudiyyə* dövlətinin qurulması ilə nəticələnmişdir.

*Səudiyyə Ərəbistanı* 1932-ci ildən etibarən *Krallıqdır.*

*Asiya qitəsində, Ərəbistan yarımadasında* yerləşən *Səudiyyə Ərəbistanı Krallığının* paytaxtı *Ər-Riyad* şəhəridir.

Ölkənin ərazisi 2,149,690 km², əhalisi *(2010)* 26,534,504 nəfərdir *(əhali sıxlığı* 12 *nəfər/km²).*

*Səudiyyə Ərəbistanının* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.770* - yüksəkdir *(56-cı yer).*

***Dövlət quruluşu:*** Səudiyyə Ərəbistanı mütləqiyyət formalı idarəetmə üsuluna malik teokratik monarxiyadır, seçkilər keçirilmir. Milli bayram günü olan Krallığın yaranması günü (1932) 23 sentyabrda qeyd olunur.

Dövlət quruluşu və ölkəni idarəetmə ümumi prinsiplərinin möhkəmləndirilməsi ilə bağlı ilk hüquqi sənədlər 1992-ci ilin martında qəbul edilmişdir. Hakimiyyət sisteminin əsaslarına

görə Səudiyyə Ərəbistanı *Kral Əbdül Əziz ibn Əbdül Rəhman əl-Feysəl Əl Səudun* övladlarının və nəvələrinin idarə etdiyi mütləqiyyət formalı idarəetmə üsuluna malik teokratik monarxiyadır. *Müqəddəs Quran* - islam qanunvericiliyinə *(şəriət)* əsasən idarə olunan Krallığın əsas qanunudur.

*Ali hakimiyyət orqanlarına* - dövlət başçısı və vəliəhd; Nazirlər Şurası; Məşvərət Şurası; Ali Məhkəmə Şurası daxildir. Lakin, Səudiyyə Ərəbistanının real strukturu, onun nəzəriyyədə təsvir edilmiş formasından bir qədər fərqlənir.

Əsas etibarilə *kral hakimiyyəti* - təxminən 5 min nəfərdən ibarət olan və ölkədə monarxiya quruluşunun əsasını təşkil edən Əl Səud ailəsinə söykənir. Kral - ailənin aparıcı nümayəndələrinin, xüsusən də qardaşlarının məsləhətlərinə əsaslanmaqla ölkəni idarə edir. Onun dini liderlərlə münasibətləri də məhz bu cür əsasda qurulur. 200 ildən artıq müddətdə Əl Səud klanına sədaqətli əs-Sudayri və İbn Cilyuvi kimi adlı-sanlı ailələrin, habelə Səudilər sülaləsinin bir qolu olan tanınmış Əl əş-Şeyx ruhani ailəsinin dəstəyi Krallığın sabitliyi üçün mühüm amil sayılır.

2005-ci ilin 1 avqust tarixində *Kral Fəhd* uzun sürən ağır xəstəlikdən sonra vəfat etmişdir. Kral Fəhdin vəfatından sonra ölkə Vəliəhdi *Əmir Abdullah bin Əbdüləziz Əl Səud* sülaləsinin ailədaxili razılığına əsasən SƏK-in Dövlət başçısı - Kral, Ali baş komandan, eyni zamanda Baş nazir elan edilmiş, o da sələfi kimi, İki Müqəddəs Ocağın Xadimi titulunu götürmüşdür. Qeyd olunmalıdır ki, hələ *Kral Fəhdin* hakimiyyəti zamanı ölkədə hökumətə rəhbərliyi birbaşa həyata keçirən şəxs *Əmir Abdullah* idi. Uzun müddət ərzində Kralın səhhəti ilə əlaqədar hakimiyyətə nəzarət *Əmir Abdullaha* həvalə olunmuş və istər regional, istərsə də beynəlxalq təşkilatlar çərçivəsindəki zirvə görüşlərində o Krallığı təmsil etmişdir.

Vəliəhdlik mexanizmi rəsmi olaraq yalnız 1992-ci ildə təsbit edilmişdir. Taxt-tacın vəliəhdi kralın sağlığında üləmaların razılığı ilə təyin edilir.

Səudiyyə Ərəbistanında qəbilə ənənələrinə uyğun olaraq dəqiq vəliəhdlik sistemi mövcud deyil. Hakimiyyət adətən yaşca böyük və başçı funksiyalarının icrasına daha uyğun gələn şəxsə keçir. Ölkədə ixtilafsız hakimiyyət dəyişikliyini təmin etmək üçün 2000-ci ilin iyun ayında kral *Fəhdin* və vəliəhd *Abdullanın* qərarı ilə Ərəbistan monarxiyasının banisi İbn Səudun nəslinin birbaşa nümayəndələrinin *(övladları, nəvə-nəticələri)* 18 ən nüfuzlu üzvünün daxil olduğu Kral Ailə Şurası təsis edilmişdir.

*Nazirlər Şurası* icraedici orqan kimi 1954-cü ildən fəaliyyət göstərir. Konstitusiyaya görə *Hökumətə Kral* başçılıq edir *(hazırkı forma 1953-cü ildən mövcuddur)* və onun fəaliyyətinin əsas istiqamətlərini müəyyənləşdirir. Hökumətin üzvləri Kral tərəfindən təyin edilir və onun qarşısında məsuliyyət daşıyır. *Nazirlər Şurası* özündə həm icraedici, həm də qanunvericilik funksiyalarını birləşdirir. Onun bütün qərarları şəriət normalarına uyğun olmaqla, səs çoxluğu ilə qəbul edilir və kralın dekreti ilə təsdiq olunur. *Kabinet Baş nazirdən, Baş nazirin I və II müavinindən, 20 nazirdən (Baş nazirin II müavini sayılan Müdafiə naziri də daxil olmaqla),* habelə kralın dekreti ilə nazirlər şurasının üzvü kimi təyin olunan dövlət nazirlərindən və müşavirlərdən ibarətdir.

Aparıcı nazir vəzifələrini Kral ailəsinin üzvləri tuturlar. Nazirlər krala, onun konstitusiyaya və digər qanunlara müvafiq olaraq səlahiyyətlərinin icrasına köməklik göstərirlər. Kral istənilən anda *Nazirlər Şurasını* buraxa və ya yenidən təşkil edə bilər. 1993-cü ildən etibarən hər bir nazirin fəaliyyət dövrü 4 illik müddətlə məhdudlaşır.

Hal-hazırda Krallığın Vəliəhdi 18 iyun 2012-ci ildən etibarən *Salman bin Abd əl-Əziz Əl Səuddur.*

Formal olaraq Ali qanunvericilik orqanının funksiyalarını *Məşvərət Şurası* icra edir və onun üzvləri *(alimlər, yazıçılar, sahibkarlar, kral ailəsinin görkəmli nümayəndələri)* də Kral

tərəfindən təyin olunur. 29 fevral 1992-ci ildə *Kral Fəhd Nazirlər Şurasının* xüsusi iclasında "Hakimiyyət sisteminin əsasları", "Məşvərət Şurasının rolu", "Ərazi quruluşu sistemi" modelini elan etmişdir. Fərmanlar əsas etibarilə ölkədəki mütləq hakimiyyət sistemini möhkəmləndirmişdir. Hakimiyyətin bütün əsasları əvvəlki kimi Kralın əlində cəmləşmişdir.

2001-ci ilin iyul ayında Səudiyyə Ərəbistanı Kralının əmri ilə Məşvərət Şurasının yeni dördillik müddətə təyin olunması haqqında qərar qəbul edilmişdir. Əvvəlkindən fərqli olaraq məclis üzvlərinin sayı 90-dan 120-yə, hazırda isə 150 nəfərə qədər artırılmışdır. Ölkədə Ali qanunvericilik səlahiyyətlərinin Kral tərəfindən icra edilməsinə baxmayaraq, bu hadisəni ölkədə baş verən demokratik dəyişmələrin təzahürü kimi qiymətləndirmək olar. Yeni Məclis üzvləri ölkənin demək olar ki bütün bölgələrini təmsil edir. İlk dəfə olaraq şiə məzhəbinin 4 nümayəndəsi də Məşvərət Şurasının tərkibinə daxil edilmişdir. 2011-ci ildən qadınların *Məşvərət Şurasına* üzvlüyü ilə bağlı qadağa aradan götürülmüşdür.

Parlamentin hazırkı sədri 2009-cu ildən etibarən *Abdullah ibn Məhəmməd Əl əş-Şeyxdir.*

Konstitusiya və ölkənin cinayət-prosessual, məhkəmə qaydaları *Qurani-Kərim* və *şəriət* qanunları əsasında tənzimlənir. 1992-ci ildə SƏK hakimiyyət sisteminin əsasları Kral tərəfindən imzalanmışdır. Məhkəmələrdə dini hakimlər – qazılar sədrlik edirlər. Dini məhkəmələrin üzvləri 12 böyük hüquqşunasdan ibarət Ali Ədalət Şurasının tövsiyəsi ilə kral tərəfindən təyin edilir. Kral ali apellyasiya instansiyası olaraq əfv etmək hüququna malikdir.

Ölkədə siyasi partiyalar və həmkarlar ittifaqları fəaliyyət göstərmir. Lakin, mövcud rejimə müxalifətdə olan siyasi, ictimai, dini təşkilatlar qeyri-qanuni şəkildə fəaliyyət göstərir. Ölkənin siyasi həyatına onların təsiri çox məhduddur. Eyni zamanda, klerikal qüvvələrin dəstəklədiyi ekstremist islamçı qüvvələr mövcuddur.

Əsas etibarilə əcnəbi fəhlələrə və milli azlıqlara arxalanan millətçi və kommunist oriyentasiyalı kiçik qruplar (Avanqardın səsi, Səudiyyə Ərəbistanının Kommunist partiyası, Ərəb sosialist dirçəliş partiyası, Yaşıllar partiyası, Sosialist əmək partiyası, Səudiyyə Ərəbistanının Sosialist cəbhəsi, Ərəbistan yarımadası xalqlarının İttifaqı) solçu müxalifətə aid edilir. Son illərdə onların fəallığı nəzərə çarpacaq dərəcədə azalmış, bir çox qruplar dağılmışdır.

Liberal müxalifət təşkilatı cəhətdən formalaşmamışdır. Əsasən sahibkarlar, ziyalıların nümayəndələri və texnokratlarla təmsil olunan liberallar - dövlətin idarə olunmasında cəmiyyətin müxtəlif nümayəndələrinin geniş iştirakı, ölkənin sürətlə müasirləşdirilməsi, siyasi və məhkəmə islahatları, qərb demokratiyası institutlarının tətbiq edilməsi, mühafizəkar dini dairələrin rolunun azaldılması və qadınların vəziyyətinin yaxşılaşdırılması uğrunda çıxış edirlər. Liberal müxalifətin tərəfdarları çox deyil, lakin son illərdə Qərblə yaxşı münasibətləri qorumağa çalışan kral rejimi müxalifətin bu qanadının fikrini nəzərə almağa məcburdur.

Mühafizəkar və sünni və şiə məzhəbli dini fundamentalist islamçı dairələri daha radikal müxalifət qüvvəsi sayılır. İslamçı hərəkat, qeyri-formal qrupların konqlomeratı kimi hələ 1950-ci illərdə meydana gəlmiş, lakin bütünlükdə 1990-cı illərin əvvəllərində formalaşmışdır. Sünni məzhəbli müxalifətin arasından üç cərəyan: ənənəyə sədaqətli vəhhabizmin mötədil qanadı, neovahhabizmin davakar cərəyanı və islamçı islahatların tərəfdarlarının liberal oriyentasiyalı cərəyanı seçilir.

Şərq əyalətinin dini azlığını təmsil edən şiə məzhəbli islamçılar şiələr üçün bütün məhdudiyyətlərin ləğvi və dini ayinlərinin sərbəst şəkildə icra edilməsi uğrunda çıxış edirlər. Ən radikal şiə qruplaşmaları “Səudiyyə Hizbullahı” və “İslamçı Hicaz cihadı” sayılır. 1990-cı illərin əvvəlində “İslam İnqilabı Təşkilatı”nın əsasında yaradılmış “İslahatlar uğrunda şiə hərəkatı” daha mötədil qruplaşma hesab edilir.

# OMAN

  

***Ümumi məlumat:*** VIII əsrin ortalarından XVIII yüzilliyin sonlarına qədər *Oman,* qısa fasilələrlə müstəqil teokratik dövlət *(imamat)* olmuş, XVIII əsrdə *Maskat Sultanlığı* ondan ayrılmışdır. XIX əsrin əvvəllərində *Böyük Britaniya,* hər iki dövlət üzərində nəzarəti həyata keçirməyə müvəffəq olmuş, 1891-ci ildən etibarən *Maskat Böyük Britaniyanın* protektoratına çevrilmişdir.

1951-ci ildə *Oman İmamatının* və *Maskat Sultanlığının* müstəqilliyini tanımış *Böyük Britaniyanın* yardımı ilə, 1955-ci ildə *Maskat* Omanı özünə birləşdirmiş və 1970-ci ildən etibarən ölkə *Oman Sultanlığı* adlandırılmışdır.

*Cənub-qərbi Asiyada, Ərəbistan Yarımadasının* cənub-şərq hissəsində yerləşən *Omanın* paytaxtı *Maskat* şəhəridir.

Ölkənin ərazisi 309,501 km², əhalisi *(2010)* 2,773,479 nəfərdir *(əhali sıxlığı* 9.2 *nəfər/km²)*.

*Oman Sultanlığının* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.705* - yüksəkdir *(89-cu yer).*

***Dövlət quruluşu:*** *Oman Sultanlığı* mütləqiyyət formalı idarəetmə üsuluna malik unitar islam monarxiyasıdır. Milli bayram günü olan *Sultanın ad günü* 1970-ci ildən etibarən hər il noyabr ayının 18-də qeyd olunur. Dövlətin *Əsas Qanunu (Ağ Kitab)* 06 noyabr 1996-cı ildən qüvvədədir.

***İnzibati bölgüsü:*** 11 mühafaza *(Dofar, Maskat, Musandam, Şimali Əl-Batina, Cənubi Əl-Batina, Şimali Əş-Şarkiya,*

*Cənubi Əş-Şarkiya, Əd-Daxiliyə, Əz-Zahirə, Əl-Buraymi və Əl-Vusta)* bölünür.

***Dövlət başçısı:*** *Oman Sultanı* ölkədə milli və dini birliyin rəmzi, milli müstəqilliyin və ərazi bütövlüyünün təminatçısı, dövlət və Hökumət başçısı *(Baş nazir)*, ali dini rəhbər *(imam)* və ali hakim, habelə silahlı qüvvələrin ali baş komandanı, maliyyə, müdafiə və xarici işlər naziridir.

Dövlətin idarə olunması, o cümlədən icraedici və qanunvericilik hakimiyyəti bütövlükdə *Sultanın* səlahiyyətinə aiddir. Belə ki, *Kabinetin* üzvləri və digər vəzifəli şəxslər, habelə 1996-cı ildən fəaliyyət göstərən *Dövlət Şurasının* 41 üzvü Sultan tərəfindən təyin olunur.

*Nazirlər Kabinetinin* tərkibi, ona bilavasitə rəhbərlik edən *Sultanın* xüsusi nümayəndəsindən, *Baş nazirin* 3 müavinindən *(bir qayda olaraq Sultanın ən yaxın qohumları olur)*, *Kabinetin* katibindən və 20-dən artıq nazirdən ibarətdir. Nazirlərin və əyalət qubernatorlarının böyük əksəriyyəti hakim ailəyə mənsubdurlar. Kabinet üzvləri *Sultanın* qarşısında dövlət siyasətinin həyata keçirilməsi üçün kollektiv, öz səlahiyyətlərinin icrası üçün isə fərdi məsuliyyət daşıyırlar.

*Oman* dövlətinin hazırkı və ilk *Sultanı*, 18 noyabr 1970-ci ildən etibarən *Kabus bin Səid Əl Əbu Səiddir.*

***Qanunverici hakimiyyət:*** Sultan tərəfindən seçilən 84 *(onlardan 1/6 hissəsini qadınlar təşkil edir)* üzvdən ibarət birpalatalı *Məşvərət Məclisi (Məclis əl-Şura)* ölkədə qanunvericilik hakimiyyətini həyata keçirməkdə qismən səlahiyyətlidir. *Sultanın* rəhbərlik etdiyi *Məşvərət Məclisi*, ilk növbədə xalqla *Hökumət (nazirliklər)* arasında əlaqələndiricilik missiyasını yerinə yetirir.

*Məşvərət Məclisi*, yalnız xidmət *(kommunikasiya və məişət)* nazirliklərinin hazırladıqları iqtisadi və sosial xarakterli layihələrə baxmaqda və tövsiyə verməkdə səlahiyyətlidir. Zəruri hallarda, bu nazirliklərin rəhbərlərindən *Məclis* qarşısında

hesabat tələb olunur. Bununla yanaşı, *Məşvərət Məclisi* xarici siyasət, müdafiə, təhlükəsizlik və maliyyə sahələrində heç bir səlahiyyətə malik deyil.

Siyasi partiyaların fəaliyyət göstərmədiyi Omanda *Məşvərət Məclisinin* hazırkı tərkibi 15 oktyabr 2011-ci ildə formalaşmışdır.

***Məhkəmə hakimiyyəti:*** Ölkədə hüquq sistemi bütövlükdə İslam hüquq sisteminə *(Şəriət)* əsaslanır. Formal olaraq məhkəmə iyerarxiyasının ən yüksək instansiyası sayılan *Ali Məhkəmə,* habelə *Apelyasiya* və digər birinci instansiya məhkəmələri mövcud olsa da, Omanda məhkəmə hakimiyyətinin fövqündə *Sultan* özü durur.

# QƏTƏR

  

***Ümumi məlumat:*** VII əsrdən etibarən *Ərəb Xilafətinin* tərkibinə daxil olmuş, XIII yüzillikdən isə *Bəhreynin* əmirləri tərəfindən idarə olunan *Qətər,* XVI əsrdə *Portuqaliyanın* hakimiyyətinə tabe edilmişdir.

1871-ci ildən *Osmanlı İmperiyasının* nəzarətində olan ölkə, 1916-cı ildən *Böyük Britaniyanın* protektoratına çevrilmişdir.

*Qətər* 1971-ci ildən etibarən müstəqil dövlətdir.

*Asiya qitəsində, Ərəbistan Yarımadasının* şərq hissəsində yerləşən *Qətərin* paytaxtı *Doha* şəhəridir.

Ölkənin ərazisi 11,571 km², əhalisi *(2013)* 1,903,447 nəfərdir *(əhali sıxlığı* 160.2 *nəfər/km²).*

*Qətər Əmirliyinin* rəsmi dövlət dili *ərəb* dilidir.

Dövlətin İnsan İnkişafı İndeksi - *0.831* - çox yüksəkdir *(37-ci yer).*

***Dövlət quruluşu:*** *Qətər Əmirliyi* mütləqiyyət formalı idarəetmə üsuluna malik monarxiyadır. Milli bayram günü olan müstəqillik günü (1971) sentyabr ayının 3-də qeyd olunur. Qətər Əmirliyinin yeni Konstitusiyası 29 aprel 2003-cü il tarixində qəbul edilmişdir.

***İnzibati bölgüsü:*** 7 bələdiyyəyə *(Ad-Doha, Ar-Rayyan, Umm-Salal, Al Xor, Al-Vakra, Al-Dayyan və Aş-Şamal)* bölünür.

***Dövlət başçısı:*** Hakim ailənin 3 minlik kişi üzvləri arasından seçilən *Qətər Əmiri,* mövcud Konstitusiyaya görə ölkədə

milli və dini birliyin rəmzi, milli müstəqilliyin və ərazi bütövlüyünün, habelə vətəndaşların hüquqlarının ali təminatçısı, dövlətin başçısı və silahlı qüvvələrin ali baş komandanıdır.

*Qətər* dövlətini beynəlxalq münasibətlərdə ali səviyyədə təmsil edən *Əmir,* icraedici və qanunvericilik hakimiyyətlərinin həyata keçirilməsində də müstəsna səlahiyyətlərə malikdir. Bir qayda olaraq, bütün mülki və hərbi qulluqçuların təyinatı, habelə *Müdafiə Şurasının* formalaşdırılması və Konstitusiya ilə nəzərdə tutulmuş digər səlahiyyətlər dövlət başçısı tərəfindən həyata keçirilir. *Əmir* öz fərmanı ilə Məhkəmənin istənilən qərarını ləğv edə bilər.

*Qətər* dövlətinin hazırkı, sayca 3-cü *Əmiri*, 26 iyun 1995-ci ildən etibarən *Hamad bin Xəlifə Əl Tanidir.*

***Qanunverici hakimiyyət:*** Dövlət başçısı tərəfindən təyin olunan 35 üzvdən *(zəruri hallarda Əmir öz istəyi ilə Məşvərət Məclisinin üzvlərinin sayını qeyri-məhdud sayda artıra bilər)* ibarət birpalatalı *Məşvərət Məclisi (Məclis əl-Şura) Əmirin* rəhbərliyi altında ölkədə qanunvericilik hakimiyyətini həyata keçirməkdə nisbi və məhdud səlahiyyətlərə malikdir.

Mövcud Konstitusiyaya əsasən, ən mühüm sferaları əhatə edən ümumdövlət siyasətini müzakirə etməkdə və aidiyyəti üzrə istənilən nazirə sorğu göndərməkdə səlahiyyətli orqan sayılan *Məşvərət Məclisində* müzakirə olunan layihələr sonda *Əmir* tərəfindən təsdiq və elan edilir.

***İcraedici hakimiyyət:*** *Nazirlər Şurası* Qətər Əmirliyinin yuxarı icra orqanı sayılır və icraedici hakimiyyətin həyata keçirilməsində *Əmirə* yaxından köməklik edir. Belə ki, *Əmir Baş nazir* qismində *Hökumətə (Nazirlər Şurası)* bilavasitə rəhbərliyi həyata keçirmək, habelə onun qarşısında kollektiv siyasi və vəzifələrinin icrası ilə bağlı fərdi məsuliyyət daşıyan

nazirləri təkbaşına təyin və vəzifələrindən azad etmək səlahiyyətinə malikdir.

*Qətər* dövlətinin hazırkı, sayca 4-cü *Baş naziri* 03 aprel 2007-ci ildən etibarən *Əmirin* qardaşı *Hamad bin Casim bin Cabir Əl Tanidir.*

***Məhkəmə hakimiyyəti:*** Ölkədə məhkəmə-hüquq sistemi - ailə-məişət məsələləri üzrə *İslam (Şəriət),* digər ümumi cinayət və mülki məsələlərlə bağlı isə, dünyəvi hüquq normalarının elementlərindən qaynaqlanan müasir məhkəmə-hüquq sisteminə əsaslanır.

*Qətər Əmirliyinin* məhkəmə iyerarxiyasının ən yüksək instansiyası sayılan *Apelyasiya Məhkəməsi,* habelə digər aşağı instansiya məhkəmələri ölkədə məhkəmə hakimiyyətini həyata keçirməkdə səlahiyyətlidirlər.

# DƏRSLİK ÜZRƏ İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT VƏ İNTERNET RESURSLARI


*Azərbaycan dilində:*

**"Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Azərbaycan Respublikasının Qanunu** // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №10, 31 oktyabr 1998-ci il, s.1941-1948.

**"Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu** // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №1, 31 yanvar 2004-cü il, s. 58-88.

**"Referendum haqqında" Azərbaycan Respublikasının Qanunu** // Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, №3, 31 mart 1998-ci il, s. 589-601.

**Aslanov E.**Yeni dünya nizamı və milli inkişaf. /Elmi redaktoru Ə. Həsənov/. Bakı, 2006. 295 s.

**Babaoğlu H.** Dünya siyasəti və beynəlxalq münasibətlər. Dərslik. /Elmi redaktoru Ə. Həsənov/. Bakı, 2010, 568 s.

**Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm.** İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmalı (2003-2006). I kitab. /Elmi redaktoru R.Mehdiyev, Rəyçi Ə.Həsənov; Tərtibçilər: S.Qəndilov, E.Əhmədov, E. Nəsirov/. Bakı, 2007, 916 s.

**Dövlət idarəçiliyində varislik, novatorluq və dinamizm.** İlham Əliyevin Prezidentlik fəaliyyətinin xronikası: rəsmi qəbul və səfərlərinin icmalı (2007-2008). II kitab. /Elmi redaktoru R.Mehdiyev, Rəyçi Ə.Həsənov; Tərtibçilər: S.Qəndilov, E.Əhmədov, E. Nəsirov/. Bakı, 2008, 754 s.

**Heydər Əliyev və Azərbaycan Parlamenti** / M.N.Ələsgərovun redaktəsi ilə. Bakı: AR Milli Məclisinin nəşri, 2003.

**Həsənov Ə.** Azərbaycan-ABŞ: Anlaşılmaz münasibətlərdən strateji tərəfdaşlığa doğru (oktyabr 1991- avqust 1997). Bakı, 1997, 103 s.

**Həsənov Ə.** Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996-cı illər). Bakı, 2000, 368 s.

**Həsənov Ə.** Azərbaycanın xarici siyasəti: Avropa dövlətləri və ABŞ (1991-1996). Doktorluq dissertasiyasının avtoreferatı, Bakı, 2000, 76 s.

**Həsənov Ə.** Azərbaycanın milli inkişaf və thlükəsizlik siyasəti. Bakı, 2011, 440 s.

**Həsənov Ə.** Heydər Əliyev və Azərbaycanın xarici fəaliyyətinin formalaşması. - "Dirçəliş - XXI əsr", jur., 2003, № 63, s. 39-54.

**Həsənov Ə.** Heydər Əliyev və Azərbaycanın milli təhlükəsizlik siyasəti (Regional təhlükəsizlik). - Heydər Əliyev irsi və Azərbaycanın davamlı inkişaf strategiyası. Bakı, 2006, s. 59-76.

**Həsənov Ə.** Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı, 2005, 752 s.

**Həsənov Ə.** Azərbaycanın və xarici ölkələrin siyasi sistemləri. Dərs vəsaiti. Bakı, 2007, 248 s. (Adil Vəliyevlə həmmüəllif).

**Həsənov Ə.** Geosiyasət. Dərslik. Bakı, 2010, 604 s.

**Həsənov Ə.** Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. (Metodik vəsait). Bakı, 2005, 112 s.

**Həsənov Ə.** Yeni Azərbaycan Partiyası: Yaranması, formalaşması və əsas fəaliyyət istiqamətləri. (həmmüəllif) Bakı, 2002, 200 s.(Aydın Mirzəzadə ilə həmmüəllif).

**Həsənov Ə.** Avrasiya zirvələri: Azərbaycandan baxış. İstanbul, "Marmara" nəşriyyatı, 2012, 248 s. (Xalid Niyazovla həmmüəllif).

**Həsənov Ə.** Azərbaycan-ABŞ: qarşılıqlı mənafelər strateji tərəfdaşlıq tələb edir //Azərbaycan məktəbi jurnalı № 4 (560) 1997, s.4-16.

**Həsənov Ə.** Azərbaycan Respublikası 1991-2001. III-IV fəsillər. Bakı, 200, s.154-211.

**Həsənov Ə.** Heydər Əliyev və Azərbaycanın ictimai-siyasi həyatı 1993-2001ci illərdə //Suverenlik, demokratiya, dövlət idarəçiliyi (elmi sessiyanın materialları-10 oktyabr 2001), Bakı, 2002. s.7-24.

**Həsənov Ə.** Azərbaycan beynəlxalq münasibətlər sistemində.- //Qafqaz Universiteti jurnalı, № 11, Bakı, 2003-cü il, s.47-61.

**Hüquq ensiklopedik lüğəti.** Bakı, 1991.

**Hüseynov L.** Beynəlxalq hüquq. Dərslik. Bakı: Hüquq ədəbiyyatı, 2000.

**Cəfərov İ.** Azərbaycan Respublikası Konstitusiyasının şərhi. Bakı, 2001, 448 s.

**Mehdiyev R.** Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı, 2005, 463 s.

**Mehdiyev R.** Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi. Bakı, 2001, 276 s.

**Məhkəmə hakimiyyəti (normativ-hüquqi aktlar toplusu).** Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2006, 154 s.

**Mirzəzadə A.** Azərbaycan Respublikasında çoxpartiyalı sistemin formalaşması xüsusiyyətləri. /Elmi redaktoru və ön sözün müəllifi Ə. Həsənov/. Bakı, 2000, 268 s.

**Rəhimova N.** Azərbaycanın və xarici ölklərin siyasi sistemləri fənninin proqramı. /Elmi redaktoru Ə. Həsənov/. Bakı, 2009, 56 s.

**Naxçıvan Muxtar Respublikasının Konstitusiyası.** Bakı, 2006, 36 s.

**Şirəliyev H., Əhmədov Ə.** Politologiya. Bakı, 1997.

***Türk dilində:***

**Hasanov Ali.** Jeopolitik. İstanbul, Babiali Kültür Yayınçılığı. 2012, 460 s.

**Bilal Eryılmaz**, Kamu Yönetimi, Erkam Matbaacılık, İstanbul, 1999, 88 s.

**Bülent Tanör, Necmi Yüzbaşıoğlu**; 1982 Anayasasına Göre Türk Anayasa Hukuku, YKY, İstanbul, 2002, 363 s.

**Erdoğan Teziç**, Anayasa Hukuku, Beta Yayınları, İstanbul, 1996

**Ergun Özbudun**, Türk Anayasa Hukuku, Yetkin Yayınları, Ankara,2000, 263 s.

**Şeref Gözübüyük**, Anayasa Hukuku, Turhan Kitabevi, Ankara, 1995.

***Rus dilində:***

**Ажгибкова Г.Н.,Федорова Н.Н.** «Социальные основы политических систем». М.1991.

**Алексеева Т.А.** Современные политические теории. М., РОССПЭН, 2000, 344 с.

**Алиев Ш.** Научно-практический комментарий к Конституции Азербайджанской Республики. Баку, 2000, 728 с.

**Анохин М.Г.** Политические системы: адаптация, динамика, устойчивость. М., 1996.

**Арсеньев Э.А.** "Франция под знаком перемен." М.: "Политиздат", 1984 г.

**Белов Г.А.** Политическая система.// Кентавр. 1995, № 2

**Белов Г.А.** Политология. М., 1994

**Белов Г.А.** Функции политической системы.// Кентавр. 1995 - № 3.

**Бжезинский З.** «Великая шахматная доска» М. 1998

**Большой Энциклопедический Словарь**; /под главной редакцией Прохорова А./. М. 1991.

**Борисов В. К.** Теория политических систем. М.: Знание, 1991.

**Борисов В.К.** «Теория политической системы.» СПН. 1992.

**Борисов В.К.** Теория политической системы. М., «Наука», 1991.

**Гаджиев К.С., Каменская Г.В. Родионов А.Н. и др.** Введение в политологию. 1994 г.

**Гасанов А.** Геополитика. Учебник. Баку, 2012, 688 с.

**Гасанов А.** Современные международные отношения и внешняя политика Азербайджана. Учебник. Баку, 2007, 904 с.

**Гергей Е.** История папства. М.: Республика, 1996, 463 с.

**Глебов В.** "Государственный строй Франции" М.: Госюриздат, 1958.

**Давид Р., Жоффре-Спинози К.** Основные правовые системы современности. М., 1998.

**Демидов А.И., Федосеев А.А.** Основы политологии: Учебное пособие. М., 1995.

**Дербишайр Дж. Д., Дербишайр Я.** Политические системы мира. В 2 томах, М.: Рипол Классик, 2004.

**Дорошенко Е.А.** Духовенство в современном Иране. 2-е изд., испр. и доп. М.: Наука, 1985, 229 с.

**Егоров С.А.** Политическая система, политическое развитие, право: критика немарксистских политологических концепций. М.: “Юрид. Лит.”. 1983, с. 98-11.

**Ильин В.В.** Политология: Учебник для вузов. М., 1999.

**Иностранное конституционное право** /Под редакцией проф. В.В. Маклакова. М.: Юрист, 1996, 512с.

**Исаев М. А., Чеканский А. Н., Шишкин В. Н.** Политическая система стран Скандинавии и Финляндии. М., 2001.

**Ислам в странах Ближнего и Среднего Востока**; Москва, 1982.

**Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока (конец 70-х – начало 80-х годов XX в.)**; Москва, 1986

**История Древнего Востока.** Москва, 1988.

**Касьянов В.В**. Политология. Серия «Высший балл». Ростов н/Д: Феникс, 2003, 352 с.

**Климович Л.** Книга о Коране; Москва, 1986

**Козлова Е.И., Кутафин О.Е.** Конституционное право Российской Федерации: Учебник. М.: Юристъ, 1995, 480 с.

**Конституция зарубежных государств**. Учебное пособие, 2-е издание исправленное и дополненное. М.: Издательство БЕК, 1992. 586с.

**Конституция и законодательные акты Французской республики**. Госюриздат, 1958 г.

**Краснов Б.И.** Политическая система.// Социально – политический журнал. – 1995, № 5

**Крутоголов М.А.** "Парламент Франции: Организация и правовые аспекты деятельности." М.: Наука, 1988 г.

**Манов Г.Н.** Государство и политическая организация общества. М.: Изд-во “Наука”, 1974, 223 с.

**Марченко М.Н.** Политическая система современного буржуазного общества. М.: Изд. МГУ, 1981, 37 с.

**Матвеев Р.Ф.** Теоретическая и практическая политология. М., 1993.

**Матусевич А.В.** Политическая система: состояние и развитие. Мн., 1992

**Мехтиев Р.Э.** На пути к демократии: размышляя о наследии. Баку, 2007, 752 с.

**Рагимова Н.К.** Политическая система Азербайджана и зарубежных стран. Программа курса. /Научный редактор А. Гасанов/. Баку, 2009, 60 с.

**Рагимова Н.К.** Политическая система Азербайджана и Зарубежных стран. Методическое пособие. /Научный редактор Али Гасанов/. Баку, 2012,130 с.

**Орлов А.Г.** «Президентские республики в Латинской Америке», Ибероамериканский центр МГИМО, М., 1995.

**Основы политической науки.** Учебное пособие для вузов. Часть 1.  М., Общество "Знание" России, 1994.

**Основы политической системы США.** М., издательство МГИМО, 2006. 160 с.

**Основы политологии.** М., 1991. Ч. 2, с.103.

**Панарин А.С.** Политология, «Проспект», Москва, 1997 г.

**Политическая система в Исламской Республике Иран** // Развивающиеся страны: основные тенденции социально-политической эволюции: Сборник статей. Иваново: Изд-во Ивановского ун-та, 1993, с.63-91.

**Политические партии**; Справочник, Политиздат, 1986 г.

**Политические системы стран Латинской Америки**. М., 1982.- 244 с.

**Политология: Энциклопедический словарь** / Общ. ред. и сост.: Ю.И.Аверьянов. М.: Изд-во Моск. Коммерч. Ун-та. 1993, с. 273.

**Решетников Ф.М.** Правовые системы стран мира. Справочник. М.: Юридическая литература, 1993, 256 с.

**Романов Р.М.** Парламентаризм: теория, история и современность. М., МИРОС, 2002, 295 с.

**Савицкий П.И.** "Правительственный аппарат Пятой Республики во Франции." Свердловск: Средн.-Уральск. кн. изд-во, 1979 г.

**Саидов А. Х.** Сравнительное правоведение. М., 2000.

**Салыгин Е.Н.** Теократическое государство. Московский общественный научный фонд, 1999.

**Современные зарубежные конституции** / Под ред. В.В. Маклакова. М.: Юристъ, 1996, 286с.

**Современные США. Энциклопедический справочник.**, М., 1988.

**Современный Иран: Справочник** / Л.Е.Авдеева и др. М.: Наука; Изд. фирма "Вост. лит.", 1993, 428 с.

**Сравнительный анализ политических систем**. М., «Весь мир», 2000.

**Стародубский Б.А.** Политические режимы европейских стран. Свердловск., 1989.

**Страны мира: Справочник.** 1999 / Под общ. Ред. И.С. Иванова. М.:Республика, 1999, 512с.

**Токарев С.** Религия в истории народов мира; Москва, 1986.

**Учебник для Вузов по Политологии**; под редакцией Марченко М.Н. 1997 г.

**Цыганков А.П.** Современные политические режимы: структура, типология, динамика. М.: Интерпракс, 1995, с. 211.

**Чиркин В. Е., Тихонов А. А., Рябов С. В.** «Формы государства в буржуазных странах Латинской Америки», Наука, М., 1982.

**Чудинова И. М.** Основы политологии. Учебное пособие. Красноярск: КГПУ, 1995, с.134.

**Шаран П.** Сравнительная политология (перевод с английского). М., 1992. Ч. 1, с.128-148.

**Энтин Л.М.** Разделение властей: опты современных государств. М., «Юридическая литература», 1995, 175 с.

## *İnternet resursları:*

***Azərbaycan***
www.president.az
www.azerbaijan.az
www.meclis.gov.az
www.heydar-aliyev-foundation.org
www.mfa.gov.az
www.cec.gov.az
az.wikipedia.org

***Albaniya***
www.parlament.al
www.president.al

***Almaniya***
www.bundespraesident.de
www.bundesrat.de
www.bundestag.de

***Amerika Birləşmiş Ştatları***
www.whitehouse.gov
www.house.gov
www.senate.gov

***Andorra***
www.consellgeneral.ad
www.govern.ad

***Anqola***
www.parlamento.ao

***Antiqua və Barbuda***
www.ab.gov.ag
www.pdba.georgetown.edu

***Argentina***
www.argentina.gov.ar
www.presidencia.gov.ar
www.congreso.gov.ar

***Avstraliya***
www.aph.gov.au
www.pm.gov.au

***Avstriya***
www.parlament.gv.at
www.bundeskanzler.at
www.hofburg.at

***Baham Adaları***
www.bahamas.gov.bs

***Banqladeş***
www.parliament.gov.bd
www.bangabhaban.gov.bd

***Barbados***
www.parliamentbarbados.gov.bb

***Belarus***
www.president. gov.by
www.belarus.net/presiden

***Belçika***
www.fed-parl.be
www.premier.fgov.be

***Beliz***
www.nationalassembly.gov.bz

***Benin***
www.refer.org

***Bəhreyn***
www.nuwab.gov.bh

***Birləşmiş Ərəb Əmirliyi***
www.almajles.gov.ae

***Boliviya***
www.congreso.gov.bo
www.vicepres.gov.bo

***Bolqarıstan***
www.president.bg
www.parliament.bg

***Bosniya və Hersoqovina***
www.parlament.ba
http://www.ohr.int/

***Botsvana***
www.parliament.gov.bw

***Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı***
www.parliament.uk

www.number10.gov.uk
www.en.wikipedia.org

***Burkina Faso***
www.erepublic.org

***Burundi***
www.burundi.gov.bi

***Butan***
www.nationalcouncil.bt
www.nab.gov.bt

***Braziliya***
www.presidencia.gov.br
www.camara.gov.br
www.senado.gov.br

***Bruney***
www.brunei.gov.bn

***Cənubi Afrika Respublikası***
www.anc.org.za
www.parliament.gov.za
www.info.gov.za

***Cənubi Koreya***
www.cwd.go.kr
www.assembly.go.kr

***Cənubi Sudan***
www.goss.org

***Cibuti***
www.assemblee-nationale.dj

***Çad***
www.presidencetchad.org
www.tit.td

***Çex Respublikası***
www.hrad.cz
www.psp.cz

***Çernoqoriya (Monteneqro)***
www.skupstina.me
www.predsjednik.me

***Çili***
www.senado.cl
www.camara.cl

***Çin***
www.gov.cn
www.english.gov.cn

***Danimarka***
www.folketinget.dk
www.stm.dk

***Dominika***
www.dominica.gov.dm
www.presidentoffice.gov.dm

***Dominikan Respublikası***
www.presidencia.gov.do
www.congreso.gov.do

***Efiopiya***
www.ethiopar.net

***Ekvador***
www.asambleanacional.gob.ec
www.presidencia.gov.ec

***Ekvatorial Qvineya***
www.wipo.int

***Eritreya***
www.eriemb.se

***Ermənistan***
www.parliament.am

***Estoniya***
www.president.ee/et
www.riigikogu.ee

***Əfqanıstan***
www.president.gov.af
www.afghangovernment.com

***Əlcəzair***
www.majliselouma.dz
www.apn-dz.org

***Fici***
www.fiji.gov.fj

***Filippin***
www.op.gov.ph

www.congress.gov.fh
www.kgma.orq

***Finlandiya***
www.president.fi
www.eduskunta.fi

***Fransa***
www.elysee.fr
www.assemblee-nat.fr
www.senat.fr

***Haiti***
www.palaisnational.info
www.haitifocus.com
www.camara.cl

***Hindistan***
www.parliamentofindia.nic.in
www.presidentofindia.nic.in
www.pmindia.gov.in

***Honduras***
www.presidencia.gob.hn
www.congresonacional.hn

***Gürcüstan***
www.president.gov.ge
www.parliament.ge

***Xorvatiya***
www.predsjednik.hr
www.sabor.hr

***İndoneziya***
www.presidenri.go.id
www.mpr.go.id

***İordaniya***
www.parliament.jo

***İraq***
www.uruklink.net

***İran***
www.president.ir
www.majlis.ir

***İrlandiya***
www.president.ie

***İslandiya***
www.althingi.is
www.english.forseti.is

***İspaniya***
www.congreso.es
www.senado.es

***Israil***
www.knesset.gov.il
www.pmo.gov.il

***İsveç***
www.riksdagen.se

***İsveçrə***
www.admin.ch
www.parlament.ch

***İtaliya***
www.parlamento.it
www.quirinale.it

***Kabo Verde***
www.parlamento.cv
www.presidenciarepublica.cv

***Kamboca***
www.mfaic.gov.kh

***Kamerun***
www.presidentielle2004.gov.cm
www.prc.cm/presiden/Cadre.htm
www.assemblee-nationale.cm

***Kanada***
www.parl.gc.ca
www.pm.gc.ca

***Keniya***
www.officeofthePrezident.go.ke
www. kenyaweb.com

***Kipr***
www.presidency.gov.cy
www.parliament.cy

***Kiribati***
www.parliament.gov.ki

***Kolumbiya***
www.prezidencia.gov.co
www. senado.gov.co

***Komor Adaları***
www.auc.km

***Konqo Demokratik Respublikası***
www.presidentrdc.cd
www.state.gov

***Konqo Respublikası***
www.sassou.net

***Kosta-Rika***
www.casapres.go.cr
www.asamblea.go.cr

***Kuba***
www.cubagob.cu

***Küveyt***
www.kna.kw

***Kot-D`ivuar***
www.erepublic.org
www.abidjan.net

***Qabon***
www.senatgabon.net
www.assemblee.ga

***Qambiya***
www.assembly.gov.gm

***Qana***
www.parliament.gh

***Qazaxıstan***
www.akorda.kz
www.parlam.kz
www.government.kz

***Qayana***
www.opnew.op.gov.gy
www.minfor.gov.gy

***Qətər***
www.gov.qa

***Qırğızıstan***
www.president.kg
www.kenesh.gov.kg

***Qrenada***
www.gov.gd

***Qvatemala***
www.congreso.gob.gt

***Qvineya***
www.assemblee-nationale.gn.refer.org

***Qvineya-Bisau***
www.state.gov

***Laos***
www.laopdr.gov.la

***Latviya***
www.saeima.lv
www.president.lv
www.mk.gov.lv

***Lesoto***
www.parliament.ls

***Liberiya***
www.legislature.gov.lr

***Lixtenşteyn***
www.landtag.li

***Litva***
www.president.lt
www.lrs.lt

***Livan***
www.lp.gov.lb
www.gov.lb

***Liviya***
www.gnc.gov.ly

***Lüksemburq***
www.chd.lu

***Macarıstan***
www.keh.hu
www.mkogy.hu

***Madaqaskar***
www.madagascar.gov.mg

***Makedoniya***
www.president.gov.mk
www.sobranie.mk

***Malavi Respublikası***
www.parliament.gov.mw

***Malayziya***
www.parlimen.gov.my
www.pmo.gov.my

***Maldiv Respublikası***
www.majlis.gov.mv

***Mali***
www.justicemali.org
www.koulouba.pr.ml

***Malta***
www.president.gov.mt
www.parlament.mt

***Marşal Adaları***
www.rmigovernment.org

***Mavriki***
www.gov.mu

***Mavritaniya***
www.mauritania.usembassy.gov
www.ons.mr

***Mərakeş***
www.parlement.ma
www.pm.gov.ma

***Mərkəzi Afrika Respublikası***
www.rca-gouv.net

***Meksika***
www.presidencia.gob.mx
www.senado.gob.mx
www.cddhcu.gob.mx

***Mikroneziya***
www.fsmgov.org
www.fsmcongress.fm

***Misir***
www.shoura.gov.eg
www.presidency.gov.eg

***Mozambik***
www.mozambique.mz

***Moldova***
www.prezident.md
www.parlament.md

***Monako***
www.conseil-national.mc

***Monqolustan***
www.president.mn
www.parliament.mn

***Myanma***
www.president-office.gov.mm

***Namibiya***
www.op.gov.na
www.opm.gov.na

***Nauru***
www.naurugov.nr

***Nepal***
www.presidentofnepal.gov.np

***Niderland***
www.parlament.nl
www.government.nl

***Niger***
niger.senego.com

***Nigeriya***
www.olusegun-obasanjo.com
www.nopa.net

***Nikaraqua***
www.presidencia.gob.ni
www.asamblea.gob.ni

***Norveç***
www.regjeringen.no
www.stortinget.no

***Oman***
www.oman.org

***Özbəkistan***
www.press-service.uz
www.gov.uz

***Pakistan***
www.presidentofpakistan.gov.pk
www.pak.gov.pk

***Palau***
www.palauembassy.com

***Panama***
www.presidencia.gov.pa
www.asamblea.gob.pa

***Papua - Yeni Qvineya***
www.state.gov

***Paraqvay***
www.presidencia.gov.py
http://www.senado.gov.py
http://www.diputados.gov.py

***Peru***
www.congreso.gob.pe
www.pcm.gob.pe

***Polşa***
www.prezydent.pl
www.sejm.gov.pl
www.senat.gov.pl

***Portuqaliya***
www.presidenciarepublica.pt
www.parlamento.pt

***Ruanda***
www.parliament.gov.rw

***Rumıniya***
www.presidency.ro
www.senat.ro
www.cdep.ro

***Rusiya***
www.president.kremlin.ru
www.duma.gov.ru
www.pcouncil.gov.ru
www.kommentarii.org

***Salvador***
www.presidencia.gob.sv
www.asamblea.gob.sv

***Samoa***
www.govt.ws

***San Marino***
www.sanmarinonline.com

***San Tome və Prinsipi***
www.state.gov

***Seneqal***
www.gouv.sn

***Sent-Kits və Nevis***
www.sknvibes.com

***Sent-Lüsiya***
www.stlucia.gov.lc

***Sent-Vinsent və Qrenadina***
www.gov.vc

***Serbiya***
www.predsednik.rs
www.parlament.gov.rs

***Seyşel adaları***
http://www.statehouse.gov.sc

***Səudiyyə Ərəbistanı***
www.saudi.gov.sa

***Sinqapur***
www.istana.gov.sg
www.gov.sg

***Slovakiya***
www.prezident.sk
www.nrsr.sk

***Sloveniya***
www.up-rs.si
www.ds-rs.si

***Solomon Adaları***
www.parliament.gov.sb
www.pmc.gov.sb

***Somali***
www.somaligov.net
www.worldstatesmen.org

***Suriya***
www.syriaonline.com
www.state.gov

***Sudan***
www.presidency.gov.sd

***Surinam***
www.dna.sr

***Svazilend***
www.gov.sz

***Syerra-Leone***
www.sl-parliament.org
www.statehouse.gov.sl

***Şərqi Timor***
timor-leste.gov.tl

***Şimali Koreya (KXDR)***
www.korea-dpr.com

***Şri-Lanka***
www.presidentsl.orq

***Tacikistan***
www.prezident.tj

***Tailand***
www.thailandguru.com

***Tanzaniya***
www.parliament.go.tz

***Toqo***
www.assemblee-nationale.tg

***Tonqa***
www.pmo.gov.to

***Trinidad və Tobaqo***
www.gov.tt

***Tunis***
www.rcd.tn

***Tuvalu***
www.tuvaluislands.com

***Türkiyə***
www.cankaya.gov.tr
www.ataturk.net
www.tbmm.gov.tr

***Türkmənistan***
www.turkmenistan.gov.tm

***Ukrayna***
www.president.gov.ua
www.rada.gov.ua

***Uqanda***
www.parliament.go.ug

***Uruqvay***
www.parlamento.gub.uy
www.presidencia.gub.uy

***Vanuatu***
www.governmentofvanuatu.gov.vu

***Venesuela***
www.presidencia.gob.ve
www.asamblenacional.gov.ve
www.gobiernoenlinea.ve

***Vyetnam***
www.mofa.gov.vn
www.vietnam.gov.vn

***Yamayka***
www.jamaica.gov.jm

***Yeni Zelandiya***
www.newzealand.govt.nz

***Yəmən***
www.al-bab.com

***Yunanıstan***
www.presidency.gr
www.hellenicparliament.gr

***Yaponiya***
www.shugiin.go.jp
www.sangiin.go.jp

***Zambiya***
www.parliament.gov.zm

***Zimbabve***
www.gta.gov.zw
www.parlzim.gov.zw

* Kitabda 2013-cü il mayın 1-nə qədər olan məlumat və göstəricilər əsas götürülmüşdür.

**Əli Həsənov**
**Adil Vəliyev**

# DÜNYA ÖLKƏLƏRİNİN MÜASİR SİYASİ SİSTEMLƏRİ


**Mətbəənin direktoru:** ***Elman Qasımov***
**Dizayner:** ***Mətanət Əliqızı***

Çapa imzalanmışdır: 15.05.2013
Formatı 60x90 1/16. Həcmi 48,5 ç.v.
Sifariş №315. Tiraj 2000

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
☎ iş (012) 514-73-73,
mob. (050, 055) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru